UİLYAM FOLKNER

ROMAN VƏ HEKAYƏLƏR

Tərtib və tərcümə edəni: Tehran Vəliyev

Redaktoru:

UILYAM FOLKNER VƏ ONUN YOKNAPATOFA SAQASI

Uilyam Folkner (1897-1962) nəinki XX əsr Amerika ədəbiyyatının, eləcə də dünya ədəbiyyatının ən nəhəng, ən parlaq simalarından biridir. Onun bir çox cəhətdən zəngin, son dərəcə orijinal yaradıcılığı artıq bəşəriyyətin bədii söz sənəti xəzinəsinin ən qiymətli incilərindən birinə çevrilmişdir. Bu böyük nəsr ustasının əksər dillərə çevrilən (təəssüf ki, Azərbaycan dili onların arasına daxil deyil) roman və hekayələri bu gün də dünyanın hər yerində böyük maraqla oxunur, çoxlarını heyrətə gətirir.

Folknerin yaradıcılığı bütövlükdə həcmcə nəhəng, məzmunca bitkin əsər təsiri bağışlayır. Çünki bu əsərlərin mövzusu, qəhrəmanları, onlarda təsvir edilən hadisələr bir-birilə sıx surətdə bağlıdır və bir məkandan – yazıçının qeyri-adi dərəcədə dərin, geniş təxəyyülü və *SÖZÜ* sayəsində *YOXDAN VAR OLAN,* sahəsi 2 400 kvadrat milə, əhalisi 15 611 nəfərə bərabər Yoknapatofa qraflığının həyatından qaynaqlanır və zaman anlamında təxminən 200 illik dövrü əhatə edir. Onun yaratdığı personajlar sosial iyerarxiyanın qullardan tutmuş plantasiyaçılara qədər bütün səviyyələrini təmsil edirlər. Onların sırasına zəngin torpaq sahibləri, kasıb icarədar fermerlər, qubernatorlardan tutmuş xırda məmurlara qədər müxtəlif yerli hakimiyyət nümayəndələri, həmçinin vəkillər, müəllimlər, ruhanilər, həkimlər və nəhayət, məhkumlar – təsadüfən həbsxanaya düşənlər, eləcə də qatı cinayətkarlar daxildir. Yoknapatofanın əhalisi həm də bütün milli çalarları özündə əks etdirir. Burada ingilis, şotland, fransız və s. əsilli məskunlar, yerli hindular və ağ əhalidən sayca xeyli çox olan zəncilər yaşayır.

Öz əli ilə çəkdiyi xəritələrdən birinin üstünə yazdığı kimi, "yeganə sahibi və hökmdarı" Uilyam Folkner olan bu qraflıq, Amerikanın cənubunda Missisipi ştatının şimalında, alçaqboylu şamlar bitirən qumluq təpələrlə çay vadisinin münbit torpaq sahələri arasında yerləşir. Bu diyarda az miqdarda meşə materialı və Memfis bazarı üçün pambıq istehsal edilir. Burada əhalinin çox az bir qismi keçmişdən qalma geniş plantator malikanələrinə, bəziləri isə ağacdan tikilmiş evlərə malik olsa da, onun əksər hissəsini təşkil edən sadə muzdlu işçilər vətəndaş müharibəsindən əvvəl zəngin plantasiyalarda yaşayan kölələrdən də pis dolanırlar.

Bu məkan və zaman daxilində baş verə bilən bütün mümkün ailədaxili, ictimai, siyasi və irqi münaqişələr Folknerin iti qələmi sayəsində son dərəcə kəskinləşərək dərin, ümumbəşəri məzmun kəsb edir. Əslində, Yoknaptofa Folknerin öz doğma yurdunun – Missisipi ştatındakı Oksford əyalətinin simvolik rəmzidir. Yazıçı bütün bəşəri ideyalarını məhz öz yaşadığı kiçik bir əyalətin həyatı fonunda əks etdirməyə çalışıb. Folkner özü deyir: "Sartoris"dən başlayaraq, dərk etdim ki, xəritədə poçt markası boyda xımxırda görünən doğma yurdumdan yazmağa dəyər, o buna layiqdir və bu mövzunu axıracan yazıb qurtarmağa bütün ömrüm bəs eləməz".

Və dahi yazıçının nəhayətsiz təxəyyülü hesabına uydurulan, əslində isə spesifik tarixə, özünəməxsus qayda-qanunlara, mürəkkəb sosial və irqi münasibətlərə malik olan Amerika cənubunun bütün səciyyəvi xüsusiyyətlərini özünə hopduran və Yoknaptofa qraflığı adlandırılan bu mikrodünya haqda roman və hekayələr silsiləsi – Yoknaptofa saqası Folknerin məhz bəşəriyyətin bütün dərdlərini, arzularını, gələcəyə, ULU YARADANIN bəxş etdiyi sınaqdan İNSAN OĞLUNUN əzəl-axır üzüağ çıxacağına əminliyini ən xırda məkan çərçivəsində belə ifadə edə bilməyin mümkünlüyünə olan inancından yaranmışdır.

Bu inancı isə bir çox səbəblər – yazıçının yaşadığı mühit, ailə keçmişi, şəxsi yaşantıları, insanın kimliyi barədə fəlsəfi fikirləri və orijinal düşüncə tərzi şərtləndirmişdir.

Uilyam Folkner 1897-ci il sentyabrın 25-də Missisipi ştatının Nyu Olbani şəhərində anadan olmuş, ömrünün böyük bir qismini həmin şəhərdən 30 mil aralıda yerləşən Oksford şəhərində keçirmiş və 1962-ci il iyulun 6-da burada da vəfat etmişdir.

Folknerlərin Amerikaya köçənədək olan nəsil şəcərəsi ilə bağlı bir çox rəvayətlər mövcuddur. Onlardan birinə görə, Folknerin ulu əcdadı şahin baxıcısı olmuş, Britaniya kralının şahinlərinə baxmışdır. İngiliscə “falconer” (şahinlərə baxan) sözünün təhrif edilmiş forması olan Folkner soyadı da elə buradan gəlir. Başqa bir rəvayətə görə, Folknerlər mənşəcə İrlandiyadan, Olster şəhərindəndirlər. Ailə rəvayətlərində isə onların fransız – əvvəlcə İngiltərəyə, daha sonralar isə Amerikaya qaçan quqenot əcdadlarından bəhs edilir. Lakin bunların arasında ən ağlabatan versiya yazıçının şotland əsilli olmasıdır. Folkner özü mənşə etibarı ilə şotland olduğunu söyləyib. Eyni zamanda, bu barədə öz fikrini belə ümumiləşdirib: “Bizim hamımızın nəsil şəcərəmiz Londonun cinayət məhkəməsindəki məhkum kürsüsündən başlayır”. Həqiqətən də Amerikada məskunlaşan avropalıların ilkin dəstələrinin böyük bir hissəsini öz iradələrinin əksinə olaraq sürgün edilənlər – onsuz da ağzınacan dolu olan London həbsxanalarındakı vəziyyəti daha da ağırlaşdırmamaq və buradakıların hamısını ucdantutma dar ağacından asmamaq naminə bu qitəyə köçürülən məhbuslar təşkil edib. Kolonistlərin digər hissəsi isə tamam başqa kateqoriyaya mənsub insanlardan – Yeni Dünyaya öz mülklərini genişləndirmək üçün gələn zəngin və məşhur ailələrin nümayəndələrindən ibarət olub. Müstəqillik uğrunda müharibədən və müstəmləkə sisteminin qəti şəkildə dağılmasından sonra zəngin torpaq sahiblərinin əksəriyyəti ya İngiltərəyə qayıtdıqlarına, ya da yeni hakimiyyəti tanımaq istəmədiklərinə görə buradakı mülklərini itiriblər. Bu səbəbdən onların torpaqları bir çox hallarda, əl-qollarından zəncir və qandal izi hələ silinməmiş sabiq cinayətkarların ixtiyarına keçib. Beləliklə, əsilzadələrdən və tör-töküntülərdən ibarət qəribə cənub qarışığı əmələ gəlib. Bu qarışıq xarakter cənubluları şimallılardan – əsasən də ideya və dini motivlərə görə, arzuladıqları cənnət guşəsini burada tapmaq, yeni dünya qurmaq ümidilə sonralar Amerika qitəsinə köçən mömin zəvvarlardan, puritanlardan xeyli fərqləndirirdi. Şimalda işgüzar burjua etikası təşəkkül

tapdığı halda Cənubda əsasını kölə əməyi təşkil edən yarıfeodal quruluş hökm sürürdü. Cənubda yaşamaq yalnız başqa bir əyalətdə deyil, həm də başqa bir aləmdə, başqa bir patriarxal-vəhşi dövrdə yaşamaq demək idi. Folkner yaradıcılığının əsas problematikasını da məhz bu aləmdəki həyat təşkil edir. O bu aləmi kənardan müşahidə etməmiş, onun içində böyümüşdür. Folknerlərin Amerikadakı nəsil şəcərəsi XVIII əsrin sonlarından – bu nəslə mənsub iki qardaşın Cənubi Karolinada Atlantik okeanı sahilinə çıxdığı vaxtdan başlayır. Folknerlərin hər yeni nəsli də digər məskunlar kimi yeni imkanlar əldə etmək ümidi ilə ölkənin içərilərinə – şərq sahillərindən qərbə doğru irəliləmiş və beləliklə, Amerika xalqının keçdiyi tarixi yolu keçmişdir.

Folknerin amerikalı ulu babalarından biri polkovnik Folkner, sanki, XIX əsrin 30–40-cı illərində Amerikanın mənəvi abı-havasında nə olubsa, onların hamısını öz taleyi və xarakterində cəmləşdirib. Yazıçı Uilyam Folkner dünyaya gələnədək bu nəslin ən məşhur adamı olan polkovnik Folkner yeniyetmə çağlarında öz evlərini tərk edərək, Amerika Cənubunun dərinliklərinə, hələ tam mənimsənilməmiş Missisipiyə yollanır. On dörd yaşındaykən şəhər dustaqxanasında işə düzəlir, qazandığı pulların bir qismini anasına göndərir, qalan hissəsini isə kitablara və dərslərinə sərf edir. İyirmi bir yaşında Meksika müharibəsində iştirak edir, sonra hüquq kontoru açır, tez bir zamanda böyük hörmət və nüfuz sahibi olur. Başladığı hər bir işdə son dərəcə inadkar olan polkovnik Folkner asanlıqla özünə çoxlu düşmən qazanır və onlarla hər toqquşması əksər vaxtlarda güllə atəşi və yaxud bıçaq zərbəsi ilə sona çatır. O özünə zənci qullar alır, plantasiyaçı olmaq istəyir, Vətəndaş müharibəsi başlayanda isə uğursuzluğa məhkum bir iş uğrunda döyüşür və özünün dost və tərəfdarları arasında əsl qəhrəmana çevrilir. Vətəndaş müharibəsindən sonra yaranmış vəziyyətdən dərhal istifadə edərək, bankdan kredit götürüb ştatda ilk dəmir yolunu tikdirir. Gəncliyində şeirlər, yetkin yaşlarında isə nəsr əsərləri yazmışdır. Onun romantik münaqişələr, sevgi macəraları və sirli-sehirli hadisələrlə dolu "Memfisin ağ qızılgülü" adlı romanı bir neçə dəfə təkrar nəşr olunmuşdur. Polkovnik Folkneri köhnə rəqibi və şəriki birbaş sifətinə atəş açmaqla öldürmüşdür. Öz ləyaqətli və qüsurlu cəhətləri ilə bir nəslin əfsanəsinə çevrilən bu adamın həyatı belə bir faciəvi sonluqla bitmişdir.

Uilyam Folkner anadan olanda ailə kifayət qədər imkanlı olub. Babası (polkovnikin oğlu) öz siyasi və işgüzar təşəbbüskarlığı sayəsində əyalətdə, əyalət mərkəzi Oksfordda ən nüfuzlu şəxslərdən biriymiş. Onun oğlu (gələcək yazıçının atası) öz ailəsi ilə birlikdə 1902-ci ildə məhz bu şəhərə köçüb. Onlar burada böyük və təmtəraqlı bir evdə yaşayıblar, evin zahiri görünüşü belə bu ailənin maddi vəziyyətinin xeyli yaxşı olduğuna dəlalət edirmiş.

Folkner, demək olar ki, əksər oğlan uşaqları kimi klassik bir uşaqlıq yaşayıb: günləri şəhər kənarındakı yarğanlarda, tülkülərin hələ tam məhv edilmədiyi meşədə, ulu babasının tikdirdiyi dəmir yolunda, çox da uzaqda olmayan, köhnə xəritələrdə Yoknaptofa çayı kimi qeyd edilən Talahaçi və Yokona çaylarının sahillərində keçib.

Ancaq o, uşaqkən tülkü ovu, gəlmə bir adamın hava şarında cəsarətli uçuşu (bu hava şarı onların həyətindəki toyuq hininin üstünə düşüb) kimi adi əhvalatlarla yanaşı, yaddaşına əbədi həkk olunan digər hadisələrin də şahidi olmuşdu. 1908-ci ildə, Folknerin 11 yaşı olanda Oksfordda şəhərin iki min sakininin iştirak etdiyi Linç məhkəməsi keçirilmişdi. Başı üzülmüş və tanınmaz hala salınmış meyiti meydanda qurulan dar ağacından asmışdılar. Bundan da dəhşətli başqa bir məhkəmə bir neçə ildən sonra, Folkner on yeddi yaşındaykən baş vermişdi. Bu qanlı hadisələri, həmçinin dayəsi Kerolayn Berrin qul dövrü, Vətəndaş müharibəsi, digər zənci qulluqçuların Missisipidə hinduların yaşadığı uzaq keçmiş dövrlər haqqında danışdıqlarını Folkner bütün ömrü boyu unutmamışdır.

Folkner kitab oxumağa çox tez başlamış, yazıçı rüşeymləri onda özünü çox erkən büruzə vermişdir. Məktəbə cəmi altı il müntəzəm getmiş, bundan sonra isə kitab oxumaq və ətrafda dolaşmaq üçün istənilən fürsətdən istifadə etməyə çalışmışdır. Missisipi Universitetindəki təhsilini də yarımçıq qoymuş, bir müddətdən sonra diplom almamış oranı tərk etmişdir. Bu dövrdə onu hər şeydən əvvəl öz aləmi maraqlandırırdı və ardıcıl surətdə yazmağına davam edirdi. O hələ on üç yaşındaykən şeir yazmağa başlamışdır.

Yeniyetmə dövründə o həm də özünü həyatda fəal, cəsur, özünə görə qəhrəman insanların varisi kimi hiss edir. Gözləri önündə, öz torpağında yaranan aviasiya barədə düşünür. Uşaqkən düzəltməyə çalışdığı təyyarədə uçmağı, daha doğrusu, ondan yıxılmağı nəzərə alınmazsa, əsl təyyarə sükanının arxasında oturmaq isə ona yalnız çox-çox illər sonra müyəssər olur.

...Birinci Dünya müharibəsi başlayır… Folknerin yaşıdları, o cümlədən gələcək "itirilmiş nəsl"in nümayəndələri cəbhəyə gedir. Boydan qısa və fiziki cəhətdən zəif olduğu üçün onu orduya götürmürlər. Bu səbəbdən Kanadaya yollanır, orada hərbi hava qüvvələri korpusuna daxil edilir. Bunun üçün ciddi imtahan verməli, hətta Britaniya tələffüzünü mənimsəməli olur. Lakin müharibə başa çatdığı üçün tezliklə korpus buraxılır, beləliklə, kursant Folknerə hərbi təyyarəçi kimi bir dəfə də olsun havaya qalxmaq nəsib olmur.

Folkner Avropaya əsgər kimi olmasa da, yazıçı, daha doğrusu, ədəbiyyat zəvvarı kimi gedib çıxa bilir: o da Heminquey kimi "yazmağı öyrənmək" üçün Parisə yollanır. Amma o, Heminquey və yenicə yazmağa başlayan digər yazıçılar kimi ədəbi mühitə qoşulmur, həmişə özü olaraq qalmağa çalışır. İyirminci illərin ortalarındakı fəaliyyəti ilə bağlı Folknerin özünün söylədiyi sözlərə inansaq, gözümüz önündə, ümumiyyətlə, ədəbiyyatla maraqlanmayan cavan bir adam obrazı canlanar. "O vaxtlar mən özümü yazıçı hesab etmirdim, sadəcə, dünyanı gəzir, ədəbiyyatla, ədəbiyyatçılarla maraqlanmırdım", – Folkner bunu Virciniya Universitetinin tələbələri ilə görüşündə deyib. Halbuki, Avropaya yola düşdüyü vaxtadək o öz şeirlərinin, demək olar ki, hamısını, "Yeni Orlean oçerkləri"ni və "Əsgər mükafatı" romanını yazıb

bitirmişdi. Parisdə yeni bir romanını – "Moskitlər"i yazmağa başlamış, bitirilməmiş qalan üçüncü romanı – "Elmer" üzərində işləməyə davam etmişdi.

Yazıçının bioqraflarının qeyd etdiyi kimi, Folkner ədəbiyyat haqqında hər hansı bir suala cavab vermək istəməyəndə sınanmış bir üsula əl ataraq, "Əslində mən fermerəm, ədəbiyyatçı deyiləm," deyirdi. Onda hər hansı yazıçının təsirini görmək istəyənlərə isə, məsələn: "Mən Joysu oxumamışam," – deyə cavab verirdi.

Hər bir yazıçı kimi Folkner də gənc yaşlarında çətin və ağır formalaşma dövrü keçmişdir. Bu dövrdə müstəqilliyə, özünəməxsusluğa can atsa da, eyni zamanda hamı kimi hərəkət etmiş, çox oxumuş, çox öyrənmiş, amma artıq keçilmiş yolların onun üçün yaramadığını hiss edərək, inadla öz yolunu tapmağa çalışmışdır.

Cəbhəyə gedə bilmədiyinə və tale etibarı ilə "itirilmiş nəsl"ə mənsub olmadığına baxmayaraq, Folkner müharibədən şikəst qayıdan və bunun əvəzində öz həmvətənlərindən heç təşəkkür belə almayan bir əsgərin həyatından bəhs edən "Əsgər mükafatı" romanını yazır. Yazıçının öz həyat təcrübəsinə yad bir material əsasında işlənən və onun ədəbi nailiyyətləri sırasına daxil edilməyən bu roman, təbii ki, eyni mövzuda yazılmış digər əsərlərlə – nə Heminqueyin "Əlvida, silah", nə də ingilis yazıçısı Riçard Oldinqtonun "Qəhrəmanın ölümü" romanları ilə müqayisə edilə bilməz. Folkner özü də bu eksperimentin süniliyini dərhal dərk edərək, bu mövzudan, bu yoldan birdəfəlik əl çəkir. Folkner hər hansı bir ədəbi cərəyana, bu və ya digər ədəbi məktəbə aid olunmaq istəməsə də, bütün mümkün ədəbi məktəblərdən keçir, müxtəlif istiqamətlərdə öz gücünü sınayır.

Folknerin ədəbi taleyində, onun bir yazıçı kimi formalaşmasında tanınmış Amerika yazıçısı Şervud Andersonla 1925-ci ildə baş tutan tanışlığı böyük rol oynayıb. Folknerin öz dövrünə mənsub yazıçıların "atası" adlandırdığı Şervud Anderson nəinki "Əsgər mükafatı" romanının nəşr olunmasına, həm də Folknerə öz yolunu, məhz ona məxsus yolu tapmaqda – bunsuz isə əsl yazıçı olmaq mümkün deyil – yaxından kömək edib. Anderson Folknerə "öz dünyasını" yaratmaq ideyasını verib. "Siz sadə bir oğlansınız, Folkner, bildiyiniz yeganə şey sizin oralarda, Cənubda üstündə yaşadığınız çox da böyük olmayan torpaq parçasıdır. Amma elə bu da kifayətdir". Andersonun bu sözləri gənc yazıçının gələcək tale yolunu müəyyən edib.

Folkner "öz dünyasını" yaratmağa çalışarkən Amerika ədəbi ənənələri tarixinin ABŞ-ın öz tarixi kimi qısa olduğunu kəskin surətdə hiss edir və buna görə də inadla bu qısa və dar çərçivə daxilində hər bir faktı geniş tarixi perspektivdə inkişaf etdirməyə, hər bir epizodu keçmişə və gələcəyə doğru genişləndirməyə çalışır. Bir amerikalı haqda sadəcə bir əhvalatı danışmaq kifayət etmir, çünki onun həyatının hər anında bütün keçmişi – və ola bilsin ki, gələcəyi də – öz ifadəsini tapmazsa, haqqında deyilən heç bir həqiqət tam həqiqət olmayacaq.

Burnunun ucunda tapdığı "öz dünyasını" yaratmağa başlayarkən Folknerin heç bir ilkin ümumi planı olmamışıdır. Yoknapatofa saqası bir, yaxud bir-birinə cəlpəşik bir neçə ağac kimi tədricən boy atıb böyümüşdür. Bu silsilədən olan ilk roman – "Sartoris" (1929) Şervud Andersona ithaf edilmişdir. Bunun ardınca elə həmin ildə tamam ayrı bir əsər kimi işıq üzü görən "Hay-küy və qəzəb" romanı müəyyən vaxtdan – bu romanın personajları olan Snoupslar yazıçının sonrakı kitablarında Sartorislərlə təmasa, daha doğrusu, münaqişəyə girdikdən sonra – saqanın tərkib hissəsinə çevrilmişdir. Artıq yazıb bitirmiş olduğu bəzi romanlarını isə saqaya daxil etmək üçün Folkner yenidən işləmişdir. Yeri gəlmişkən, o, bəzi hallarda bunun üçün heç bir səy göstərməmiş, həmin romanlar arasında meydana çıxan ziddiyyətləri görməmiş, yaxud görmək istəməmiş və bunun özünü belə, özünəməxsus şəkildə, canlı, təbii inkişaf hesab etmişdir.

"Əsgər mükafatı", "Pilon" (1935) və s. kimi bəzi əsərləri isə, ümumiyyətlə, bu silsilədən kənarda qalmışdır.

Yazıçının Yoknapatofa saqasına daxil olan başlıca romanları bunlardır: "Mən öləndə" (1930), "Məbədgah" (1931), "Avqustda işıq" (1932), "Avessalom, Avessalom" (1936), "Kənd" (1940), "Şəhər" (1957), "Malikanə" (1959). Onun bu silsiləyə aid edilən çoxlu povest və hekayələri də mövcuddur.

Folknerin personajları özünəməxsus bir həyat yaşayır. Onlar bir əsərdən o birinə köçür, bəzən ikiləşir, bəzən də əksinə, bir şəxsdə birləşir, yaxud bir personajın adı altında növbəti, daha doğrusu, sonrakı əsərlərdə başqa bir personaj çıxış edir. Bəzi hallarda Folkner bu keçid və çevrilmələrin səbəbini göstərsə də, bir çox hallarda onları izahsız buraxmışdır.

Bütün bunların, əlbəttə ki, izahı vardı. Daha doğrusu, Folknerin kitablarında baş verən hadisələrin məhz o cür baş verməsini şərtləndirən nəsə çox güclü – hər şeyi əhatə edən, hər şeyə sirayət edə bilən bir düşüncə mövcud idi. Bu düşüncə bütün baş verənlərin son dərəcə mürəkkəb, izahedilməz və haqlını haqsızdan ayırmağın, xüsusilə də insanı bu və ya digər hərəkətə sövq edən motivi müəyyən etməyin xeyli çətin olması ilə bağlı idi. Eyni zamanda, bu əsərlərdə yazıçının belə bir şəxsi təsəvvürü, şəxsi qənaəti də özünü son dərəcə aydın şəkildə büruzə verir: İnsan hansısa irsi, tarixi və artıq silinməsi heç cür mümkün olmayan lənət damğası nəticəsində Şəri daim öz içində yaşadır, özündə daşıyır. Onun personajları özlərini doğma torpağa bağlı hiss edir, onu özününkü sayır, amma bununla belə, qəlblərinin ən dərin guşəsində bilirlər ki, bura gəlmədirlər, başqalarının hüquqlarını qəsb ediblər. Bu hiss bir amerikalı kimi şəxsən yazıçının özü üçün də yad deyildi.

Folknerin əsərləri ilk vaxtlar həm oxucular, həm də ədəbi tənqid tərəfindən heç də asan qəbul olunmayıb. Ümumiyyətlə, Folknerlə oxucu ictimaiyyəti və ədəbi tənqid arasındakı münasibət ayrı bir mövzudur, bu mövzunun öz paradoksları var. Belə ki, Folkner, sanki, bütün ömrü boyu ədəbi tənqidə qarşı düşmən mövqedə olub, ancaq son nəticədə məhz ədəbi tənqid,

daha doğrusu, ayrı-ayrı tənqidçilər onun əsərlərini təqdim və izah etməklə bu yazıçı ilə oxucular arasında körpü yarada biliblər.

Bir müddət, 1930–40-cı illərdə Folkner həqiqətən, sanki, təcrid vəziyyətində qalır. Onun əvvəlki kitabları təkrar nəşr olunmur. Özünün də dediyi kimi, həmin dövrdə Folkner Hollivudda "xaltura" ilə – ssenari, hətta onları da tam şəkildə deyil, yalnız dialoqlarını yazmaqla – məşğul olur, bu yolla pul qazanır: bu "film fabrikində" süjetlərin hazırlanması başqalarına həvalə edilmişdi. Həmin dövr Folkner yaradıcılığı üçün çox ağır keçir: 1942–1948-ci illər ərzində onun cəmi üç hekayəsi çap olunur.

Lakin məhz həmin dövrdə baş verən daha bir görüş Folknerin sonrakı ədəbi taleyinə ciddi təsir göstərir. Təcrübəli ədəbiyyatşünas, tənqidçi və nəşriyyat məsləhətçisi Malkolm Kauli 40-cı illərin ortalarında müasir Amerika nəsr ustalarının bircildliklərindən ibarət seriya tərtib etməyə başlayır. Folknerin çoxdankı pərəstişkarı kimi o bu seriyaya onun da bircildliyini daxil etmək qərarına gəlir və nəşriyyat rəhbərliyinin bu təklifə rəğbətlə yanaşmadığını görüb təəccüblənir. Kitab ticarəti və kitabxana kataloqlarında yazıçının əsərlərinin adına rast gəlməyəndə tamam çaş-baş qalır. Ancaq öz fikrindən dönmür. Əvvəlcə yazıçının özü ilə yazışmağa başlayır və tədricən həm onu, həm də nəşriyyat rəhbərliyini belə bir cildin nəşrinin gərəkli olduğuna inandıra bilir.

Bu cild, nəhayət ki, 1946-cı ildə nəşr olunur. Həmin kitab dərhal uğur qazanmasa da, mətbuatda çıxan yazıların, o cümlədən tanınmış yazıçı, şair və tənqidçi Robert Penn Uorrenin məqalələri sayəsində bir müddət sonra Folknerə geniş şöhrət gətirir. Yeri gəlmişkən, bu günə kimi təkrar-təkrar nəşr olunan həmin bircildlik, Folknerin əsərləri məcburi qaydada universitet proqramlarına daxil edildikdən sonra başlıca tədris vəsaitinə çevrilmişdir.

1948-ci ildə işıq üzü görən "Meyiti murdarlayanlar" romanı isə onunla oxucular arasındakı buzu birdəfəlik əridir. Bu roman "Məbədgah"ın nəşrindən (1931) sonra ona az və ya çox dərəcədə kütləvi uğur qazandıran ilk əsər olur. Bu yeni romanında Folkner irqçiliyi on altı yaşlı bir yeniyetmənin gözləri ilə nəzərdən keçirir. İrqçi mühitdə böyüyən və istər-istəməz onun bütün mənfi xüsusiyyətlərini özündə daşıyan bu yeniyetmə sonda bir zəncini haqsız yerə daş-qalaq olunmaqdan xilas edərək insani ləyaqət və cəsarət nümayiş etdirir.

1949-cu ildə bu roman əsasında film çəkilir və buradakı kütləvi səhnələrə Oksford şəhərinin sakinləri, o cümlədən, yazıçının uşaqkən şahidi olduğu Linç məhkəmələrinin bilavasitə iştirakçıları da cəlb olunur. Beləliklə, Folkner öz əsərlərində meydana çıxardığı problemlərin nə qədər dərin, amansız və dəhşətli olduğunu bir daha əyani surətdə görür: linç vəhşiliyini bir vaxtlar əməli şəkildə həyata keçirənlər indi bu filmdə özlərini çox böyük həvəslə oynayırdılar.

1948-ci ildə Folkneri Amerika Ədəbiyyat və İncəsənət Akademiyasına üzv seçirlər. Bir il sonra isə Amerikada ona ilk ədəbiyyat mükafatı verilir. Eyni zamanda, yazıçı xarici ölkələrdə

də geniş tanınmağa başlayır. Burada qazandığı şöhrətin səbəbləri isə başqa idi. Amerika hüdudlarından kənarda Folkner əvvəlcə Fransada tanınmışdır. Bunda Alber Kamyu və Jan-Pol Sartrın müəyyən əməyi olmuşdur.

1950-ci ildə isə Folkner "müasir Amerika romanının inkişafına verdiyi özünəməxsus yaradıcı töhfələrə görə" Nobel mükafatına layiq görülür.

Folkner ömrünün son on ilini öz mövzularının bir çoxunu yenidən nəzərdən keçirmək və onları yekunlaşdırmaqla məşğul olur. Onun yaradıcılıq yolunun ən layiqli yekunu 1940-cı ildə "Kənd" romanı ilə başlayan, 1957-ci ildə "Şəhər" romanı ilə davam etdirilən trilogiyanın başa çatdırılmasıdır. Bu trilogiyanın sonuncu hissəsi olan "Malikanə" romanı formal olaraq heç də yazıçının son əsəri deyil (ölümündən bir ay əvvəl onun "Oğrular" romanı çapdan çıxmışdır). Ancaq "Malikanə" yazıçının bütün ömrü boyu ifadə etməyə çalışdığı bir çox şeyi özündə cəmləşdirmişdir: insan düşdüyü şəraitlə, özüylə mübarizədə necə davam gətirə bilər.

Romanda öz ifadə tərzinə görə dünya ədəbiyyatının ən parlaq səhifələri ilə bir sırada dayana biləcək gözəl bir epizod var. Əsərin qəhrəmanlarından biri – fağır, əqlən zəif, primitiv, amma özünə görə ləyaqətli adam olan Mink Snoups həbsxanada otuz il yatıb çıxdıqdan sonra yorğun-arğın, heydən düşmüş halda Nuh əyyamından qalma, paslı, cəmi bircə gülləsi olan tapança ilə ona xəyanət edən Flem Snoupsu öldürməyə gedir. O inanır ki, "Onlar" – yəni ilahi ədalət qüvvələri onu pis vəziyyətdə qoymayacaqlar, onların buna ixtiyarı yoxdur və Minklə bərabər oxucu da bu son ədalət ümidinə inanmağa başlayır.

Folkner o yazıçılar sırasına daxildir ki, onların əsərləri dərhal deyil, tədricən, illər ötdükcə mənimsənilir, qavranılır. Bu heç də təkcə oxucunun yaşından yox, həm də onun əsərlərinin əsl bədii dəyərinin, bədii həqiqətinin aşkarlanmasını, üzə çıxarılmasını obyektiv şəkildə şərtləndirən zamandan asılıdır. Yuxarıda da qeyd edildiyi kimi, Folknerin əsərləri ilk vaxtlar heç də rəğbətlə qarşılanmamışdır. Onun ötən əsrin 30-cu illərində yazdığı "Sartoris", "Hay-küy və qəzəb", "Avqustda işıq", "Avessalom, Avessalom" kimi ədəbi-bədii dəyərləri baxımından ən güclü və orijinal romanları yalnız 50-ci illərdən başlayaraq əsl qiymətini almağa başlamışdır. Bu mənada onların taleyi Avropada daha uğurlu olub.

Folknerin bu cür gec, çətin qavranılmasının başlıca səbəbi onun hər cür standartlardan, hamı tərəfindən qəbul edilmiş stilistik priyomlardan uzaq, ilk baxışdan qarma-qarışıq forma təsiri bağışlayan orijinal təhkiyə üslubunun mürəkkəbliyidir. Bu üslub ilk dövrlərdə o qədər yeni və anlaşılmaz görünmüşdür ki, onun bir əsərini üç dəfə oxuduqdan sonra belə başa düşmədiyini bildirən oxuculara yazıçı onu dördüncü dəfə oxumağı məsləhət görmək məcburiyyətində qalmışdır. Bir çox söhbətlərində və müsahibələrində Folkner hazırlıqsız oxucunu mat vəziyyətində qoyan bədii metodu və üslubunu izah etməyə çalışmışdır. Bir dəfə Yaponiyada yazıçıdan onun bu mürəkkəb üslubunun, nəsr sahəsində cürbəcür yeni formalar axtarışı

istiqamətində düşünülmüş səylərin nəticəsimi, yoxsa təbii şəkildə meydana çıxan, bu səbəbdən də yazıçının ondan heç cür qaça bilmədiyi bir şeymi olduğunu soruşanda o, belə cavab vermişdir: "Mən deyərdim ki, üslub zərurətin, qaçılmaz tələbatın nəticəsidir… İnsan bilir ki, əbədi yaşaya bilməz, həyat çox qısadır. Bununla belə, onun qəlbi, ürəyi hansısa ümumbəşəri bir həqiqəti ifadə etmək, bildirmək arzusu ilə alışıb-yanır. Doğrudur, o, ona ayrılan ömrün qısalığını da daim dərk edir. Mənim timsalımda da hər şeyi bir cümləyə sığışdırmaq cəhdini məhz bu izah edə bilər, çünki ola bilsin ki, ikinci cümləni yazmaq imkanı bir də ələ düşməsin".

Folkner yaradıcılığı ilə ilk dəfə geniş şəkildə bu kitab vasitəsilə tanış olacaq Azərbaycan oxucusu da yazıçının orijinal üslub və ifadə tərzini, həmçinin qrammatik eksperimentlərini (bəzi hallarda, xüsusilə də düşüncənin alt qatlarında baş verən prosesləri göstərən kursivlərdə durğu işarələrindən və baş hərflərdən imtina etməsini) anlamaqda, qəbul etməkdə, ola bilsin ki, müəyyən çətinlik çəksin. Biz onlara yalnız səbirli olmağı, hər bir əsəri sonadək və diqqətlə oxumağı tövsiyə edə bilərik.

Tehran Vəliyev

AVQUST İŞIĞI

roman

1

Yolun qırağında oturub, yamacla üzüyuxarı, ona sarı dırmaşan arabaya baxa-baxa Lina fikirləşir: "Ta Alabamadan gəlirəm; uzun yolmuş. Düz Alabamadan buracan pay-piyada. Çox uzun yolmuş." Fikirləşir *yola çıxdığım heç bircə ay deyil, artıq Missisipiyə çatmışam, ömrümdə evdən bu qədər uzaqda olmamışam. On iki yaşımdan bəri heç Dounun taxta-şalban zavodundan da bu qədər uzağa yolum düşməyib.*

Atası ilə anası vəfat etməmişdən əvvəl heç Dounun taxta-şalban zavodunda da olmamışdı, hərçənd ildə yeddi-səkkiz dəfə, özü də ancaq şənbə günləri arabada qəsəbəyə gedərdi; əynində poçtla gətirilmiş don olardı, yalın ayaqlarını arabanın içində gizlədər, ayaqqabılarını isə kağıza büküb oturacaqda yanına qoyardı. O ayaqqabıları bir də qəsəbənin lap girəcəyində geyinərdi. Bir az böyüyəndən sonra isə qəsəbəyə çathaçatda atasından xahiş edib arabanı saxlatdırar, yerə düşər və piyada gedərdi. Nə üçün arabada yox, piyada getmək istədiyinin səbəbini atasına deməzdi. Atası da elə bilərdi ki, hamar küçələrdə, səkilərdə piyada getmək qızının xoşuna gəlir. Lakin belə deyildi; Lina o vaxt elə bilirdi ki, piyada getsə, yolda görənlər və yanından ötüb keçənlər onun da şəhərdə yaşadığını güman edəcəklər.

On iki yaşında ikən atası ilə anası eyni ilin yayında, üç otaqdan və bir dəhlizdən ibarət olan, pəncərələri torsuz, ağacdan tikilmiş evlərində, başına çoxlu cücü yığışmış ağ neft lampasının işıqlandırdığı, yalın ayaqların tapdağından döşəməsi qədim gümüş sikkəsi kimi pardaxlanıb hamarlanmış bir otaqda bu dünyadan köçdülər. Lina sağ qalmış övladların ən kiçiyi idi. Birinci anası öldü. Öləndə dedi ki, "Atandan muğayat ol". Lina elə də elədi. Sonra günlərin birində atası ona dedi: "Mak-Kinli ilə Dounun taxta-şalban zavoduna gedəcəksən. Nəyin var, yır-yığış elə, o gələnəcən yola hazır ol". Sonra o da öldü. Mak-Kinli – qardaşı arabada gəldi. Atalarını kənd kilsəsinin arxasındakı meşəlikdə basdırdılar, şam ağacından başdaşı qoydular. Səhəri gün tezdən o, arabada, Mak-Kinli ilə birlikdə həmişəlik – bəlkə də, o vaxt o bunu başa düşmürdü – Dounun taxta-şalban zavoduna yola düşdü. Araba özgəninki idi, qardaşı onu axşamacan qaytaracağına söz vermişdi.

Qardaşı taxta-şalban zavodunda işləyirdi. Kəndin bütün kişiləri bu zavodda, yaxud da onunla bağlı işlərdə çalışırdılar. Meşələrdəki şam ağaclarını qırırdılar. Yeddi il idi qırırdılar və yeddi il də qırandan sonra ətrafdakı meşələrin tamam kökünü kəsəcəkdilər. Və onda bu zavodu işlədənlərin, onun hesabına və onun sayəsində yaşayanların çoxu buradakı texnikanın bir qismini söküb yük qatarlarına yükləyəcək, bu yerləri tərk edəcəkdilər. Ancaq avadanlıqların

çoxu elə yerindəcə atılıb qalacaqdı – çünki yenisini həmişə möhlətlə satın almaq mümkündür – və cilik-cilik olmuş kərpic qalaqlarının və ya xırım-xırçın qara daş yığınlarının üstünə atılıb qalmış iri dəmir çarx kimsəsiz, yetim məxluq kimi adamın gözünə girəcəkdi; içi-içalatı çıxarılıb təmizlənmiş qazanlar daha əkilməyən, malalanmayan, kör-kötük basmış, narın, rütubətli payız və şiddətli yaz yağışlarının sinəsinə qırmızı şırımlardan çalın-çarpaz dağ çəkdiyi ölü sükutuna qərq olmuş çöllük üzərində öz paslanmış və tüstüsü çıxmayan borularını inadla, pərtlik və çaşqınlıq içərisində göyə yüksəldəcəklər. Bax onda – bağırsaq qurdlarının sorub əldən saldığı saxta, qondarma varislər, hətta ən yaxşı günlərində belə adı poçt idarələrinin salnamələrinə düşməyən bu kəndin evlərini söküb aparanda, onları soba və ocaqlarda yandıranda heç onun adını da xatırlamayacaqlar.

Lina buraya gələndə kənddə cəmi beşcə ev qalmışdı. Bu beşcə evdən savayı burada dəmiryolu və bir stansiya da vardı, hər gün yük və sərnişin vaqonları qarışıq bir qatar nərildəyə-nərildəyə o stansiyadan gəlib keçirdi. O qatarı qırmızı bayraqla saxlatmaq olardı, lakin adətən o, var-yoxu talan edilmiş təpələrin arasından kölgətək qəfil peyda olur və qulyabanı kimi bağıra-bağıra, hələ kənd ola bilməmiş və sapdan qırılıb düşmüş tənha muncuğu xatırladan bu kəndciyəzdən yan keçirdi. Qardaşı ondan iyirmi yaş böyük idi. Onu öz yanına aparmağa gələndə Lina heç onun sifətini də yaxşı xatırlamırdı. Qardaşı dördotaqlı, ağardılmamış bir evdə işləməkdən və doğmaqdan tamam əldən düşmüş arvadı ilə bir yerdə yaşayırdı. Hər ilin, demək olar ki, yarıdan çoxunu qardaşı arvadı ya hamiləlik keçirərdi, ya da zahılıqdan dirçələrdi. Həmin vaxtlar Lina həm bütün ev işlərini görər, həm də o biri körpələrə qulluq edərdi. Bir müddət sonra isə öz-özünə bunu deməli oldu: “Yəqin, elə buna görə də bu tezliynən özüm də birini qazandım”.

Lina evin arxa tərəfində sonradan tikilmiş otaqda yatırdı. Bu otağın bircə pəncərəsi vardı və orada əvvəlcə qardaşının böyük oğlu, sonra iki böyük oğlu, daha sonra isə üç böyük oğlu ilə bir yerdə yatdığı üçün istər-istəməz onu qaranlıqda səssiz-səmirsiz açıb-örtməyi öyrəndi. İlk dəfə o pəncərəni, burada səkkiz il yaşayandan sonra açmışdı. Və heç onca dəfə açıb-örtməmiş başa düşdü ki, gərək onu, ümumiyyətlə, heç açmayaydı. Öz-özünə dedi: “Görünür, alnıma belə yazılıbmış”.

Qardaşı arvadı ərinə xəbər verdi. O yalnız bundan sonra bacısının vəziyyətindəki dəyişikliyə diqqət yetirdi, hərçənd bunu əvvəl də sezə bilərdi. Qardaşı çox sərt adam idi. Ürəyiyumşaqlıq, mehribanlıq, cavanlıq (artıq qırx yaşı olardı) və demək olar ki, hər cür hissiyyat onun canından tərlə birlikdə çoxdan çıxıb yox olmuşdu; onda inadcıl, ümidsiz dözümlülükdən, bir də dəlisov nəsil təkəbbürlülüyündən savayı heç nə qalmamışdı. Bacısını “fahişə” deyə söydü. Təqsirkarın kim olduğunu dəqiq başa düşmüşdü (cavan subayların, taxta-şalban donjuanlarının sayı kənddəki ailələrin sayından da az idi), lakin bacısı boynuna almadı, halbuki, həmin təqsirkar yarım il qabaq kəndi tərk etmişdi. Lina özünün dözümlü, möhkəm sədaqət hissinin son

ehtiyatını sərf edərək, sarsılmadan, qoyun kütlüyü ilə dönə-dönə yalnız bu sözləri təkrar edirdi: "O məni yanına çağıracaq. Dedi ki, məni yanına çağıracaq". Lukas Börç kimiləri də öz niyyətlərini məhz bu cür möhkəm sədaqət hissinə hesablayırlar, lakin buna ehtiyac duyulanda heç cür quyruqlarını ələ vermək istəmirlər. İki həftədən sonra o, yenə də pəncərəni açıb bayıra çıxmalı oldu. Bu dəfə çox çətinliklə çıxa bildi. "Əvvəllər də belə çətin olsaydı, yəqin ki, bu gün bu pəncərədən çıxmağa ehtiyac qalmazdı", – deyə düşündü. Günün günorta çağı qapıdan da çıxıb gedə bilərdi. Heç kim onu saxlamayacaqdı. Bəlkə, özü də bunu başa düşürdü. Ancaq məhz gecə vaxtı, həm də pəncərədən çıxıb getmək qərarına gəlmişdi. Özü ilə palma yarpaqlarından düzəldilmiş yelpik və səliqə ilə yaylığına bükdüyü yol bağlaması götürmüşdü. Bu bağlamada başqa şeylərlə yanaşı beş və on sentliklərdən ibarət otuz beş sent pul da vardı. Ayağındakı ayaqqabılar qardaşınınkıydı, ona bağışlamışdı. Çox az geyilmişdi, çünki yayda onların heç biri ayaqqabıda gəzmirdi. Lina ayaqları altındakı yolun toz-torpaqlı olduğunu hiss eləyəndə onları çıxarıb əlinə aldı.

Düz bir ay idi ki, beləcə, ayaqyalın yol gəlirdi. Dörd həftəydi gəldiyi bu yol və şüuruna həkk olunmuş *uzaq* anlayışı, sanki, dava-şavasız, dinc, xoşnud bir dəhlizi andırırdı; bu dəhliz yerindən laxlamayan, toxtaq sədaqət daşları ilə döşənmiş, xeyirxah, adsız sifətlər və səslərlə dolu idi: *Lukas Börç? Tanımıram. Bu ətrafda o adda adam yoxdur. Bu yolmu? Pokahontasa gedir. Ola bilsin. Bax o araba, axıracan olmasa da, o tərəfə gedir. Yolun bir azını onunla gedə bilərsən;* və budur, sakitcə, heç nəyə məhəl qoymadan bir-birini əvəzləyən gecə və gündüzlərin uzun, yeknəsəq sırası indi yerə düşmüş yumaq kimi üzügeriyə çözələnir; o, allah bilir kimlərinsə, adlarını bilmədiyi, üzlərini belə xatırlamadığı adamların bir-birinə bənzəyən arabalarında – sanki, yağsız təkərləri zəif səslə cırıldayan avatarlarda bu gecə-gündüzləri qət etmiş, qədim yunan vazalarının üstündəki rəsmlərdə olduğu kimi, irəliyə bir addım belə atmadan əbədi hərəkətdə olmuşdu.

Araba yoxuşla üzüyuxarı ona sarı qalxır. O bu arabanı buradan bir mil arxada ötüb keçmişdi. Araba yolun kənarında dayanmışdı, qatırlar üzü Linanın getdiyi tərəfə elə boyunduruqdaca mürgüləyirdilər. Lina arabanı da gördü, hasarın o tayında, sarayın böyründə çömbəlib oturan iki kişini də. O onlara – həm arabaya, həm də kişilərə eyni anda və bircə dəfə gözünün ucuyla yığcam, cəld, sadəlövh və bəsirətli baxışla nəzər saldı. Amma ayaq saxlamadı, çox güman ki, hasarın o tayındakı kişilər Linanın onlara və arabaya tərəf baxdığını heç hiss etmədilər də. Lina da bir daha dönüb geriyə baxmadı. Ayaqqabılarının açıq bağları topuqlarına dolaşa-dolaşa, arxayın və ləng addımlarla onlardan bir mil uzaqlaşıb, təpəyə çatana qədər yoluna davam etdi. Burada çox da dərin olmayan arxın qırağında oturdu, ayaqqabılarını çıxarıb, ayaqlarını aşağı salladı. Bir az keçəndən sonra arabanın səsini eşitdi. Əvvəlcə onun səsi gəldi, sonra isə özü göründü: yoxuşla aram-aram üzüyuxarı qalxırdı.

Yağlanmamış, qupquru qurumuş ağacla metal bir-birinə sürtünərək tənbəl-tənbəl, aramla cırıldayır və şaqqıldayır: qulaqları cingildədən bu şaqqıltılar isti avqust günortasının turşumuş bihuşluğu və sükutu içərisində yarım mil uzağa yayılır. Qatırlar özlərini unutmuş kimi, ləhləyə-ləhləyə aramla irəliləsələr də, araba, sanki, yerindən tərpənmir. O qədər ağır hərəkət edir ki, elə bil, əbədi olaraq yerindəcə donub, yolun qırmızımtıl ipəyi üzərində parıltısız muncuq kimi yoxuşun ortasından asılıb qalıb. O qədər ağır hərəkət edir ki, ona dikilən baxış onun obrazını tutub saxlaya bilmir. Və gözün gördükləri gecəylə gündüzün dinc, yeknəsəq növbələşməsilə eyniləşən yolun özü kimi, uzunluğu artıq ölçülüb qurtaran və təzədən qarqaraya sarınan sap kimi yuxulu-yuxulu süzülür, bir-birinə qarışır. Nəhayət, o qədər ağır hərəkət edir ki, sanki, hansısa məsafə deyil, nəsə ondan da böyük bir şey qədər uzaqda olan bir yerdən gələn bu boş və əhəmiyyətsiz, xəfif, qeyri-adi, heç bir məna kəsb etməyən səs öz cismindən yarım mil aralıda gəzişən ruhu xatırladır. "Gözümün görmədiyi, qulağımın eşitdiyi qədər uzaqda" – Lina düşünür. Özü haqda hələ də arabada yol gedirmiş kimi düşünür. Düşünür *sonra mənə elə gələcək ki, arabaya burda, gözlədiyim yerdə, o mənə gəlib çatanda yox, orda, yarım mil qabaqda minmişəm, irəlidə, ondan düşəndən sonra da o hələ yarım mil mənimlə gedəcək* Artıq arabaya sarı baxmadan gözləyir, adsız mehriban sifətlər və səslərlə dolu düşüncəsi isə boş-boşuna, sürətlə, rəvancasına axıb gedir*: Lukas Börç? Deyirsən, Pokahontasda soruşmusan? Bu yolmu? Sprinqveylə gedir. Burda bir az gözlə. Bir azdan o tərəfə gedən araba olacaq, getdiyi yerəcən səni aparar* Fikirləşir: "Əgər bu araba Ceffersonun özünə qədər gedirsə, Lukas məni görməmişdən qabaq eşidəcək. Arabanın səsini eşidəcək, amma bilməyəcək. Buna görə də mən onun üçün gəldiyini görməmişdən əvvəl eşitdiyi bir adam olacam. Sonra isə məni görüb həyəcanlanacaq. Yadına salmağa macal tapmamış iki adamı birdən görəcək".

Uinterbotomun at tövləsinin kölgəsində çömbəlib oturan Armstidlə Uinterbotom onu yoldan keçərkən gördülər; gənc, hamilə və gəlmə olduğunu dərhal anladılar.

– Görən, o qarnındakı hardandı belə? – Uinterbotom dedi.

– Görən o, bu yükünən çoxmu uzaqdan gəlir? – Armstid dedi.

– Yəqin, o tərəflərdə kimlərəsə qonaq gəlib, – Uinterbotom dedi.

–Yox deyəsən. Elə bir şey olsaydı, eşidərdim. Biz tərəflərdə də onun heç kəsi olmamalıdı. Olsaydı eşidərdim.

– Boş-boşuna gəzənə də oxşamır, – Uinterbotom dedi. –Yerişi o yeriş deyil.

– Bu vəziyyətdə təkbaşına çox gəzə bilməz, tezliynən ona da bir yol yoldaşı tapılar, – Armstid dedi. Qadın yavaş-yavaş uzaqlaşdı, qarnındakı yükü açıq-aşkar bilinirdi. Əynində günəşdən yanıb solmuş xələt, əlində palma yelpiyi və bir bağlama vardı. Yanlarından keçərkən, sanki, onlar tərəfə heç baxmadı da. – Buralardan, yaxın yerlərdən gələnə oxşamır, – Armstid

dedi. – Gör dabanlarını yerə necə ağır basır, o saat bilinir ki, çox yer ayaqlayıb, allah bilir, hələ nə qədər də yol getməlidi.

– Yəqin buralarda kiməsə qonaq gəlib, – Uinterbotom dedi.

– Məncə, yox. Belə olsaydı mən eşidərdim, – Armstid dedi. Qadın uzaqlaşdı. Bir dəfə də olsun, dönüb geriyə baxmadı. Və ağır-ağır, tələsmədən, usanmadan, təzəcə cana gələn günün özü kimi yavaş-yavaş uzaqlaşıb gözdən itdi. Onların söhbətindən, hətta bəlkə də, şüurlarından belə silinib getdi. Çünki bir az keçəndən sonra Armstid nə üçün gəldiyini söylədi. O, artıq iki dəfə burada olmuşdu – arabada beş mil yol gəlmiş, düz üç saat Uinterbotomun sarayının kölgəsində çöməltmə oturaraq, tez-tez yerə tüpürə-tüpürə, öz qəbiləsinə xas nəhayətsiz bir lənglik və astagəlliklə niyyətini açıb deməyə çalışmışdı. Uinterbotomun satmaq istədiyi kultivatoru ala biləcəyi qiyməti ona demək istəyirdi. Və budur, Armstid günəşə baxıb, üç gün bundan qabaq yataqdaykən təklif etməyə qərar verdiyi qiyməti dilinə gətirdi. – Ceffersonda bu qiymətə verən birisini tanıyıram, – o dedi.

– Verirdisə, gərək alaydın, – Uinterbotom dedi. – Bundan ucuzunu hardan tapacaqsan?

– Elədi, – Armstid dedi. Yerə tüpürdü. Bir də günəşə sarı baxıb, ayağa qalxdı. – Həə, deyəsən vaxtdır, evə hazırlaşmaq lazımdır.

Arabasına minib qatırları oyatdı. Daha doğrusu, onları hərəkətə gətirdi, çünki qatırın yatmış olduğunu və yaxud yuxudan ayıldığını ancaq zənci başa düşə bilər. Uinterbotom hasara qədər onunla gəldi, çəpərin üst tirinə dirsəkləndi.

– Hə, ser, – dedi. – O qiymətə elə özüm də alardım. Sən almasan, lənətə gəlim, əgər gedib onu bu qiymətə almasam. Bəs o adam bir cüt qatırını necə – beş dollara satmır ki?

– Elədi, – Armstid deyir. Arabasını hərəkətə gətirir, araba uzun yolu tənbəl-tənbəl, cırıldaya-cırıldaya üyütməyə başlayır. O da bir daha dönüb geri baxmır. Ancaq, deyəsən, heç irəliyə də baxmır, çünki yolun qırağındakı arxın üstündə oturan qadını görmür, yalnız araba təpənin lap başına çıxandan sonra onun fərqinə varır. O mavi xələti uzaqdan görüb tanıdığı anda qadının da arabanı görüb-görmədiyini heç cür dəqiq deyə bilməzdi. Araba ağır, iliyə işləyən mürgü abı-havası və qatırların öz zınqırovlarını hərdənbir cingildədə-cingildədə, dovşan qulağına bənzəyən qulaqlarını heysiz-heysiz yellədə-yellədə lunatikcəsinə, aram-aram addımladığı qırmızımtıl toz burulğanı içində cırhacırla təpəyə qalxdıqdan sonra – heç bir hərəkət əlaməti sezilməsə də, onlar yavaş-yavaş bir-birinə yaxınlaşanda – onun da bu qadına gözünün ucu ilə belə baxıb-baxmadığını heç kim anlaya bilməzdi; və o, nəhayət, cilovu çəkib arabanı saxlayanda qatırlar hələ də nə yatmış, nə də oyaq idilər.

Bomboz bozarmış, adi su və sabundan deyil, nəsə tamam başqa bir şeydən soluxmuş mavi ləçəyin altından gənc, suyuşirin, sadədil və canlı bir sifət sakitcə, ehtiramla ona tərəf baxır. Hələ yerindən tərpənmir. Elə o cür bozumtul mavi xələtə bürünmüş bədən ağırlaşıb, hərəkətsizdir.

Yelpiyi və bağlaması dizinin üstündədir. Corab da geyinməyib. Yorğun yalın ayaqlarını cütləşdirərək dincəlmək üçün arxın içinə sallayıb. Böyründəki tozlu, ağır kişi ayaqqabıları heç də onlardan dinc deyil. Yerində donub qalmış arabada Armstid belibükük, gözləri bozarmış halda oturub. O, yelpiyin qıraqlarının da ləçək və xələtinki kimi eyni cür bozumtul mavi rənglə toxunduğunu görür.

– Uzağamı gedirsən? – O soruşur.

– Qaranlıq düşməmiş yolumu bir az da qısaltmaq istəyirəm, – qadın cavab verir. Ayaqqabılarını götürüb yerindən qalxır. Aramla, tələsmədən yola çıxır, arabaya tərəf gedir. Armstid ona kömək etmək üçün arabadan aşağı enmir. Qadın ağır-ağır təkərin üstünə çıxaraq arabaya minib, ayaqqabılarını oturacağın altına qoyanacan o yalnız qatırların cilovunu dartıb onları tərpənməyə qoymur. Araba yerindən tərpənir.

– Çox sağ olun, – qadın deyir. – Lap əldən düşmüşdüm, ayaqlarım zoqquldayır.

Deyəsən, Armstid heç ona bircə dəfə də olsun, diqqətlə baxmayıb. Ancaq barmağında nişan üzüyü olmadığını artıq görüb. İndi də ona baxmır. Araba yenidən tənbəl-tənbəl cırıldamağa başlayır.

– Uzaqdanmı gəlirsən? – Armstid soruşur.

Qadın nəfəsini dərir. Bu heç də dərindən köks ötürməyə bənzəmir, sanki, heyrətdən doğan bir rahatlıqla nəfəsini bayıra buraxır.

– İndi baxıram ki, xeyli uzaqdan. Alabamadan gəlirəm.

– Alabamadan? Bu vəziyyətdə? Bəs sənin ailən hardadı?

Qadın da ona sarı baxmır.

– Onunla hardasa oralarda qarşılaşacağıma ümid eləyirəm. Bəlkə, siz onu tanıyırsınız. Adı Lukas Berçdir. Orda, yolda mənə dedilər ki, o, Ceffersondadır, yonqar sexində işləyir.

– Lukas Berç. – Armstid bu adı, demək olar ki, eyni tonda təkrar edir. Onlar yayları qırılmış, batıq oturacaqda yan-yana oturublar. O, qadının əllərini – onları çalın-çarpaz dizlərinin üstünə qoyub – və bir də ləçəyinin altından profilini görə bilir; özü də yalnız gözünün bır qırağı ilə görür. Qadınsa, deyəsən, gözlərini qatırların heysiz qulaqları arasından uzanıb gedən toz-torpaqlı yola zilləyib. – Deməli, sən onu axtara-axtara buralara qədər bir belə yolu pay-piyada gəlmisən?

Dərhal cavab vermir. Sonra deyir:

– Hər yerdə yaxşı adamlara tuş gəldim. Çox yaxşı adamlardı.

– Qadınlardamı? – Gözünün ucuyla, yanakı ona baxır və fikirləşir *Heç bilmirəm Marta buna nə deyəcək* fikirləşir: “Deyəsən, bilirəm Marta nə deyəcək. Mən bilən, qadınlar xeyirxah olmaqdan daha çox gözəldilər. Kişilər – bəlkə də. Qadınlarsa, – yalnız çirkin qadın xeyirxahlığa

ehtiyacı olan digər qadına yaxşılıq eləyər", fikirləşir *Əlbəttə bilirəm. Dəqiq bilirəm ki, Marta nə deyəcək.*

Qadın oturacağın lap qırağında əyləşib, tərpənmir, profili tərpənmir, yanaqları da.

– Çox qəribədir, – qadın deyir.

– Nə? Cavan, qərib bir qızın bu vəziyyətdə təkbaşına yol getdiyini görən camaatın ərinin onu atdığını başa düşmələrimi? – Qadın yerindən qımıldanmır. Araba indi, sanki, öz ritminə düşüb; onun yağlanmamış, əldən düşmüş taxta təkərləri günortanın, yolun, istinin tənbəlliyi ilə həmahəngləşib. – Deməli, sən onu orda tapmaq istəyirsən.

Qadın yerindən qımıldanmır, bəlkə də, qatırların qulaqları arasından yavaş-yavaş qaçan yola göz qoyur; uzaqda deyəsən yolayrıcı var, açıq-aydın görünür.

– Elə bilirəm, tapacam. Çətin olmamalıdı. Adamların bir yerə toplaşdığı, deyib-güldüyü, zarafatlaşdığı yerlərdə olacaq. Həmişə bunun xəstəsi olub.

Armstid şaqqanaq çəkir; kobudcasına, qəzəblə.

– Dəh...dəh...! Yatmısınız deyəsən! – qatırlara səslənir və bir az fikirləşib, hələ dilinə gətirməmiş öz-özünə deyir: "Hökmən tapacaq. O oğlan onda ayılacaq ki, Arkanzasın, hətta mən deyərdim, Texasın bu tərəfində köç salmaqla çox böyük səhvə yol verib".

Gün qərbə doğru əyilir, onun üfüqə çatmağına, qısa yay toranına bircə saat qalıb. Onlar artıq yolayrıcındadılar; yana ayrılan xırda yol bundan da sakit, kimsəsizdir.

– Çatdıq, – Armstid deyir.

Qadın dərhal cana gəlir. Əyilib ayaqqabılarını götürür, çox güman ki, onu ləngitməmək üçün onları arabada geyinmək istəmir.

– Çox sağ olun ki, buracan gətirdiniz, – deyir.

Araba yenə dayandı. Qadın düşməyə hazırlaşır.

– Gün batmamış Varnerin dükanına gedib çatsan belə, ordan o yana – Ceffersonacan on iki mil yol var, – Armstid deyir.

Qadın, düşərkən bir əli ilə özünə dayaq verə bilmək üçün ayaqqabılarını, bağlamanı və yelpiyini o biri əlində zorla saxlayır.

– Yaxşısı budur, mən gedim, – deyir.

Armstid ona əlini belə toxundurmur.

– Gedək, gecəni mənim evimdə qalarsan, – deyir, – orda heç olmasa arvadlar var... bir şey olsa, yenə sənə qadın... Səhər tezdən özüm səni Varnerin dükanının yanına apararam. Ordan da o yana biri səni aparar. Şənbə günü həmişə şəhərə gedən olur. Bir gecədə o oğlan ordan qaçmayacaq. Əgər o, doğrudan da Ceffersondadısa, sabah da orda olacaq.

Qadın tərpənməz halda oturub, düşəndə rahat olsun deyə bütün var-yoxunu bir əlinə yığıb. Gözlərini çəpəki kölgələrin cızıq-cızıq elədiyi yolun ilan kimi qıvrılaraq qaçdığı səmtə zilləyib.

– Məncə, hələ bir neçə günüm var.

– Elədi. Sənin vaxtın boldu. Amma yol yoldaşının peyda olmasına çox az qalıb, o da ki, heç iməkləyə də bilmir. Gedək mənimlə. – Cavab gözləmədən qatırların başını buraxır. Araba çox da işlək olmayan yola dönür. Qadın təzədən yerinə oturur, amma yelpiyini, bağlamasını, ayaqqabılarını hələ də əlində saxlayır.

– Sizə yük olmaram, – deyir, – sizə elə bir əziyyətim dəyməyəcək.

– Əlbəttə, – Armstid deyir. – Gedək mənimlə. – İlk dəfədir ki, qatırlar həvəslə, öz xoşları ilə yorğa qaçırlar. – Yemin iyini alıblar, – Armstid deyir. Ürəyində isə düşünür: "Bütün qadınlar belədi. Bunun özü elə fürsət düşən kimi öz doğma bacısının ayağının altını qazıyar, amma bax, tək-tənha, heç nədən utanıb-çəkinmədən el yolunda sər-sərgərdan gəzir, çünki bilir ki, insanların, kişilərin ona yazığı gələcək. Qadınlar vecinə də deyil. Zira bunu – "yük" belə adlandırmaq istəmədiyi şeyi onun başına qadın gətirməyib. Bəli, belədi, qardaş. Bunlardan biri ərə getdimi, yaxud ərə getməmiş belə bir yükə sahib oldumu, dərhal qadın irqindən, qadın tayfasından uzaqlaşıb, ömrünün axırına kimi kişi tayfasından yapışmağa can atır. Elə buna görə də onlar tənbəkiyə meyillənir, siqaret çəkir və ya tütün iyləyir; elə buna görə də səs vermək hüququ tələb etməyə başlayırlar."

Araba evin yanından keçib saraya yaxınlaşanda arvadı ön qapıdan onlara baxır. Armstid o tərəfə baxmır; arvadının orada – durmuş olduğu yerdə durmalı olduğunu o tərəfə baxmadan da bilir. "Bəli, – qatırları geniş açılmış darvazaya döndərərək, kinayəli-kinayəli düşünür, – bilirəm, mən bilirəm nə deyəcək. Özü də çox dəqiq bilirəm". Qatırların başını çəkib saxlayır; o tərəfə dönüb baxmağa ehtiyac duymur, arvadının artıq mətbəxdə olduğunu, onlara tərəf baxmadığını, sadəcə gözlədiyini onsuz da bilir. Qatırların başını çəkib saxlayır.

– Get evə, – deyir; o artıq arabadan düşüb, yerdədir, qadınsa ehtiyatla, yavaş-yavaş arabadan düşməyə çalışır, fikirlidir, sanki, öz içində nəyəsə qulaq asır. – Qarşına çıxan olsa, bil ki, Martadır. Mən heyvanları yemləyib gəlirəm. – O, qadının həyətdən keçib, mətbəxə necə getdiyinə tamaşa etmir. Buna ehtiyac da yoxdur. Fikrən o da addımbaaddım qadınla mətbəx qapısına yaxınlaşır və baxışları bayaq ön qapıdan arabaya baxdığı kimi, eynilə mətbəx qapısına baxan qadının baxışı ilə toqquşur. "Bilirəm, mən bilirəm o nə deyəcək" – düşünür.

Qatırları boyunduruqdan azad eləyir, onları suvarır, axura bağlayır, yemləyir, inəkləri açıb örüşə buraxır. Sonra mətbəxə gedir. Arvadı hələ də ordadır – saçları ağarıb, acıqlı, sərt, əsəbi sifəti var, altı ilə beş uşaq doğub, onları böyüdüb kişisini kişi, qadınını qadın eləyib. İşlə məşğuldur. Armstid ona tərəf baxmır. Əlüzyuyana yaxınlaşır, vedrədən ləyənə su tökür, qollarını çırmalayır.

– Onun soyadı Berçdir, – deyir. – Daha doğrusu, onun axtardığı oğlanın soyadı belədi. Lukas Berç. Yolda ona deyiblər ki, guya, o indi Ceffersondadır. – Arxası ona tərəf yuyunmağa başlayır. – Deyir düz Alabamadan gəlir, tək-tənha və payi-piyada.

Ev sahibəsi dönüb baxmır. Stolun üstündə öz işiylə məşğuldu.

– Bu vəziyyətdə çox gəzə bilməz, öz Alabamasına qucağında biriylə qayıtmalı olacaq, – arvadı deyir.

– Deyəsən, elə o oğlanın, Lukas Berçin də yanına o cür gedib çıxacaq, – Armstid hələ də ələzyuyanın yanındadır, cani-dildən suyla, sabunla əlləşir. Arvadının baxışlarını öz üzərində, boynunun ardında hiss eləyir, bu baxışlar onun tərdən soluxmuş göy köynəyini deşərək kürəyini yandırır. – Samsonun dükanının yanında kimsə ona Berç və ya buna bənzər soyadı olan bir oğlanın Ceffersonda yonqar sexində işlədiyini deyib.

– Bu da onu orda tapacağına ümid eləyir. Ay tapdı ha. Yox bir, hələ ona ev də düzəldib.

Səsinin ahəngindən başa düşə bilmir ki, arvadı hələ də ona sarı baxır, yoxsa üzünü o yana döndərib. Kisə cırığı ilə əl-üzünü silir.

– Bəlkə də tapdı. Əgər o oğlan bu qızdan qaçıb yaxa qurtarmaq fikrində olubsa, onda vay onun halına, bir də onda ayılacaq ki, Missisipidən də uzağa qaçmamaqla böyük səhvə yol verib. – İndi bilir ki, arvadı ona baxır: ağ saçlarıynan, nə kök, nə də arıq, işləməkdən daş kimi bərkimiş kişi cüssəsiynən, əynindəki dərdsiz və qayğısız, möhkəm boz donuynan; əllərini yanlarına dirəyib, sifəti döyüşdə darmadağın edilmiş generalların sifətinə bənzəyir.

– Eh, kişilər...

– İndi deyirsən neyləyək? Onu qovaq burdan? Bəlkə, sarayda yer düzəldək ona?

– Eh, kişilər, – arvadı deyir, – görüm sizi lənətə gələsiniz.

Mətbəxə keçirlər, missis Armstid birinci keçir. O, birbaş pilətəyə sarı gedir. Lina qapının ağzında dayanır. İndi başı örtülü deyil, saçları daranıb, hamarlanıb. Hətta, elə bil, mavi xələt də dincəlib, gümrahlaşıb. Gözünü ev sahibəsinə dikib; o, çuqun qapaqları qəzəblə şaqqıldadır, odun parçalarını bir həmləylə, kişisayağı sobaya doldurur.

– Qoyun mən də kömək eləyim, – Lina deyir.

Missis Armstid geriyə dönmür. Qəzəblə qapını çırpır.

– Otur yerində. Ayaqlarına dinclik ver, bəlkə, kürəyin də dincələ.

– Kömək eləməyimə icazə versəydiniz, sizə çox minnətdar olardım.

– Otur yerində. Mən bu sobanı otuz ildir gündə üç dəfə qalayıram. Köməyə ehtiyacım olduğu vaxtlar çoxdan keçib. – O hələ də pilətəylə məşğuldu, dönüb ona sarı baxmır. – Armstid deyir ki, sənin soyadın Berçdir?

– Bəli, – Lina cavab verir. Səsinin ahəngi çox təmkinlidir, çox sakitdir. Daş kimi tərpənməz oturub, dizlərinin üstündəki əlləri də tərpənməzdir. Missis Armstid ona sarı baxmır. O hələ də pilətəylə əlləşir. Sobanın tələb etdiyi diqqət onun qalandığı amansız qətiyyətlə heç cür uzlaşmır. Bu qadın ona elə diqqət yetirir ki, sanki, o soba yox, çox qiymətli bir saatdır.

– Belə çıxır ki, sənin soyadın artıq Berçdir? – missis Armstid soruşur.

Bu dəfə Lina dərhal cavab vermir. Missis Armstidin arxası hələ də ona tərəf olsa da, daha sobada taqqatuk salmır. Nəhayət, ona sarı dönür. Onlar gizlətmədən, açıq şəkildə bir-birinə baxır, bir-birini diqqətlə süzürlər: cavan qadın stulda əyləşib, saçları səliqəylə daranıb, dizlərinin üstünə qoyduğu əlləri tərpənib-eləmir; yaşlı qadın da pilətədən ayrıldıqdan sonra yerində donub qalıb, ağarmış saçları amansızcasına boynunun arxasına yığılıb, sifəti, sanki, qum dənələrindən tökülüb. Nəhayət cavan qadın deyir:

– Mən sizə düzünü demədim. Mənim soyadım hələ Berç deyil. Mənim əsl adım Lina Qrouvdur.

Onlar diqqətlə bir-birilərini süzürlər. Ev sahibəsinin səsi nə soyuqdur, nə də isti. Heç nə ifadə eləmir.

– Deməli, qaçıb ona çatmaq istəyirsən ki, soyadını vaxtında dəyişib Berç eləyə biləsən. Elə deyil?

Lina başını aşağı salır, sanki, dizlərinin üstünə qoyduğu əllərinə baxmaq istəyir. Sakit səsində möhkəm bir inadkarlıq duyulur. Həm də rahatlıq.

– Axı mənə Lukasın heç bir vədi lazım deyil. İşi alınmadı, buna görə də ordan çıxıb getməli oldu. Sonra, özü fikirləşdiyi kimi, mənim dalımca qayıtmağa, görünür, imkanı olmayıb. Bir-birimizə söz vermək isə bizə lazım deyil. O gecə, o biləndə ki, hökmən getməlidi, onda...

– Hansı gecə bunu bildi? Sən ona uşaq barədə danışandan sonra?

Cavan qadın dərhal cavab vermir. Sifəti daş kimi ifadəsizdir, amma sərt deyil. Onun bu inadkarlığında nəsə çox zərif bir yumşaqlıq var və bu yumşaqlıq daxilən sakit, qayğısız bir rahatlıqla, biganəliklə yoğurulub. Missis Armstid gözünü ondan çəkmir. Lina ev sahibəsinə tərəf baxmadan danışmağa başlayır.

– O çoxdan anlamışdı ki, gec-tez işdən çıxmalı olacaq. Ancaq bunu mənə deməmişdi, çünki narahat olmağımı istəmirdi. Lakin ilk dəfə eşidəndə ki onu hökmən işdən çıxaracaqlar, oradan çıxıb getməyin onun üçün daha faydalı olacağını anladı. Fikirləşdi ki, bəlkə də, təzə iş yerində usta onu bu qədər gözümçıxdıya salmayacaq, orada işi daha yaxşı olacaq. Amma hər dəfə bunu sonraya saxlayırdı. Bu iş olanda isə sonraya saxlamaq mümkün olmadı. Usta həqiqətən də Lukası gözümçıxdıya salmışdı, onu sevmirdi, çünki Lukas cavanıdı, heç vaxt yorulub usanmırdı, həm də usta onun yerinə öz qohumunu düzəltmək istəyirdi. O isə bunları məndən gizlədirdi, narahat olmağımı istəmirdi. Amma o iş olanda, artıq gözləyə bilməzdik.

Özüm ona dedim getsin. Dedi əgər istəmirsənsə, mən qalıram, qoy neyləyirlər, eləsinlər. Mən də dedim: get. Ancaq haçan məni də yanına çağırmaq imkanın olsa, xəbər göndərərsən. Görünür, nə qədər istəsə də məni yanına çağırmaq imkanı olmayıb. Axı təzə yerdə, yad adamlar arasında özünə yer eləmək üçün cavan adama vaxt lazımdı. Gedəndə o bunu bilmirdi. Bilmirdi ki, təzə yerdə yerləşmək üçün güman etdiyindən də çox vaxt lazım olacaq. Özü də Lukas kimi bir oğlana; o dilli-dilavərdi, tay-tuşları ilə curluq eləməyi, əylənməyi xoşlayır, tay-tuşlarının da ondan xoşu gəlir. Bilmirdi ki, düşündüyündən də çox vaxtı gedəcək, axı özü də cavandı, camaat da onun başına yığışacaq, çünki, deyib-gülməkdən, zarafatlaşmaqdan ötrü ölür, onu işdən eləyəcəklər, onunsa ağlı bunu kəsməyəcək, çünki heç kimin xətrinə dəymək istəməz. Elə mən özüm də onun bir qədər gəzib əylənməsini istəyirdim, axı cavan, deyib-gülən oğlan üçün evlilik həyatı qadınların sandığı kimi heç də hər şey demək deyil: cavan, deyib-gülən oğlan üçün evlilik həyatı, off, nə qədər uzun, yorucu olur. Düz demirəm?

Missis Armstid cavab vermir. O, kətildə əyləşmiş qadına, onun hamar saçlarına, dizinin üstünə qoyduğu əllərinə, yumru, fikirli sifətinə diqqətlə baxır.

– O hökmən mənə xəbər göndərmiş olmalıdı, amma yəqin ki, yollarda itib-batıb. Gör burdan Alabamaya nə qədər yoldu, üstəlik hələ Ceffersonacan da getmək lazımdı. Ona dedim ki, mən ondan məktub-zad gözləmirəm – heç məktub yazmağı da yoxdur. Dedim ki, "İmkanın olan kimi sən mənə dilinən, sözünən xəbər elə. Mən səndən xəbər gözləyəcəm". O gedəndən sonra, əlbəttə ki, bir müddət soyadımın hələ Berç olmadığı üçün bir az narahatlıq keçirdim, axı qardaşım da, onun ailəsi də Lukası mənim qədər yaxşı tanımırdılar. Axı hardan tanısınlar? – Sifətində yavaş-yavaş bir anlığa və sevincək bir heyrət oyanır, sanki, indiyə qədər ağlına gəlməyən, mövcud olub-olmadığını belə bilmədiyi bir sualın cavabı indi qəfil ağlına gəlir. – Axı, həqiqətən də, onlar hardan tanıya bilərdilər? Əvvəl özünə yer tapmalıydı, bütün yük onun boynuna düşəcəkdi, yad adamlar arasında yaşamalıydı, mənimsə nə qayğım olacaqdı, sadəcə, o hər şeyi yoluna qoyanacan oturub gözləyəcəkdim. Sonra da öz soyadım barədə yox, körpə haqqında, camaatın nə deyəcəyi barədə düşünmək lazım idi. Lukasla bir-birimizə söz verməyimizə isə heç bir lüzum yox idi. Yəqin ki, nəsə gözlənilməz bir şey olub, ya da ola bilsin, o mənə xəbər göndərib, amma o xəbər yolda itib. Ona görə də qərara gəldim ki, daha gözləməyim, özüm yola düşüm.

– Bəs yola çıxanda hardan bilirdin ki, hansı səmtə getməlisən?

Lina öz əllərinə baxır. İndi onlar hərəkətdədir, ciddi-cəhdlə xələtin ətəyinin qatlarını sahmana salmağa çalışır. Bu hərəkətdə heç bir ürkəklik, sıxıntı hiss olunmur. Deyəsən, bu, fikirli əllərin qeyri-ixtiyari hərəkətidir.

– Soruşa-soruşa. Lukas cavan, dilli-dilavər, şən bir oğlandır, adamlarla tez, asan dil tapa bilir; elə bilirəm ki, ayağı hara dəyibsə, orda insanlar onu yaxşı xatırlayarlar. Ona görə də

hamıdan soruşurdum. Adamlar da mənə yaxşı yanaşırdılar. Doğrudan da, elə üçüncü günü yolda mənə dedilər ki, o, Ceffersonda yonqar sexində işləyir.

Missis Armstid onun aşağı əyilmiş sifətinə baxır. O, yanakı dayanaraq həvəssiz, soyuq bir nifrətlə cavan qadını süzür.

– Deyirsən yəni sən ora gedib çıxanda o orda olacaq? Əgər, ümumiyyətlə, o ordadırsa. Sənin də o şəhərdə olduğunu eşidəndə, deyirsən, o, axşamacan orda oturub səni gözləyəcək?

Linanın aşağı əyilmiş sifəti sakit və ciddidir. Əlləri sakitləşib. İndi onlar dizinin üstündə hərəkətsiz düşüb qalıb; sanki, ölüblər. Səsi rəvan, təmkinli və inadcıldır.

– Məncə, uşaq doğulanda ailə bir yerdə olmalıdır. Xüsusən də birinci uşaq. Elə bilirəm, Allah özü bunun çarəsini qılacaq.

– Hə-ə, görürəm ki, burda Onsuz iş aşmayacaqdır, – missis Armstid qeyzlə, ürəyindən daş asılmış kimi deyir. Armstid əllərini boynunun arxasına dayayaraq yataqda uzanıb, yorğanın üstündən, hələ də geyinikli olan arvadının lampa işığında kamoda sarı əyilib, onun gözündə necə qəzəblə qurdalandığına tamaşa edir. Arvadı metal mücrünü tapıb çıxarır, sinəsindən asılmış açarla onu açır, kətan boğçanı götürüb, boğazının büzməsini boşaldır və belində yarığı olan çini xoruzu onun içərisindən dartıb çıxarır. Arxası üstə çevirib, qeyzlə kamodun üstündə silkələyəndə onun içindəki sikkələr cingildəyərək könülsüz, bir-bir, yavaş-yavaş yarıqdan bayıra sıçrayır. Armstid çarpayıdan ona tamaşa edir.

– Nolub, gecənin bu vaxtında o yumurta pullarıynan neyləmək istəyirsən?

– Öz pulumdu, özüm bilərəm neyləyirəm. – İşığa tərəf əyilir, sifəti acıqlıdır, ondan zəhrimar yağır. – Onlara mən qulluq eləmişəm, əziyyətlərini mən çəkmişəm. Sən heç barmağını belə vurmamısan, Allah özü şahiddir.

– Hə də, – əri deyir. Sonra da əlavə edir. – Bu ölkədə o toyuqların üstündə sənlə mübahisə edəcək bir kimsə tapılmaz. Bəlkə, siçovullar, bir də ilanlar buna cəsarət eləyə. Ona görə də sənin bankın da elə xoruz bankıdır. – Arvadı birdən aşağı əyilərək, ayağındakı ayaqqabısını çıxarıb, bir zərbə ilə daxıl xoruzu cilik-cilik eləyir. Armstid yerində dirsəklənərək, arvadının çini qırıqları arasından axırıncı sikkələri necə yerdən topladığına, o birilərilə bir yerdə onları kətan boğçaya necə yığdığına və onun ağzını necə qəzəbli qətiyyətlə büzüb, üç dəfə, dörd dəfə düyün vurduğuna tamaşa edir.

– Ona verərsən, – arvadı deyir. – Səhər gün çıxan kimi, arabanı qoş, onu burdan apar. İstəyirsən lap Ceffersonun özünə qədər, əgər tənbəllik eləməsən.

– Əşşi, Varnerin dükanının yanından o yana onu mənsiz də aparan olacaq, – o cavab verir.

Missis Armstid sübh obaşdan yerindən durdu, səhər naharı hazırladı. Armstid inəkləri sağıb qayıdanda süfrə artıq açılmışdı.

– Get de, gəlsin nahar eləsin, – missis Armstid ərini buyurdu.

O, Linanı gətirəndə ev sahibəsi mətbəxdə yox idi. Qapının ağzında büzüşüb qalan, bəlkə də, heç büzüşüb qalmayan Lina mətbəxə göz gəzdirdi; sifəti təbəssüm, nitq üçün – əvvəlcədən götür-qoy edilmiş nitq üçün hazırlaşmışdı, Armstid bunu anladı. Ancaq Lina heç nə demədi; onun susmağı belə susmağa oxşamırdı.

– Çörəyini ye, yola çıxaq, – Armstid dedi. – Sənin yolun hələ çox uzundu. – Onun necə rahatlıqla, dünən axşam şam yeməyində olduğu kimi necə səliqə-sahmanlı bir arxayınlıqla yediyinə göz qoydu; hərçənd o səliqə-sahman bu gün azca hiss olunan mehribanlıqla, mülayimliklə bir az korlanmışdı. Sonra boğçanı ona uzatdı. Qadın onu məmnunluqla, amma o qədər də təəccüblənmədən qəbul etdi.

– Oyy, mən ona çox minnətdaram, – dedi. – Ancaq bunlar mənə lazım olmayacaq. Mən, demək olar ki, mənzil başına çatmışam.

– Hər halda, sən götür. Özün gördün də, bir şey ki Martanın ağlına girdi, onun əksinə getməsən yaxşıdır.

– Çox minnətdaram, – Lina dedi. Boğçanı öz bağlamasının içində gizlətdi, yaylığını başına bağladı. Araba onları gözləyirdi. Ara yoldan keçib gedərkən, dönüb onların evinə sarı baxdı. – Mən sizin hamınıza çox minnətdaram.

– Bu onun, arvadın işidir, – Armstid dedi. – Deyəsən, mənim bunda heç bir xidmətim olmayıb.

– Olsun, mən yenə də çox minnətdaram. Siz mənim əvəzimdən ona “çox sağ ol” deyin. Özüm onu görmək, vidalaşmaq istəyirdim, amma...

– Aha, – Armstid dedi. – Yəqin haradasa ev işləriynən məşğuludu. Mən deyərəm.

Dükana lap erkən çatdılar, burada artıq kişilər çömbəltmə oturub, ayaqqabı dabanlarının dəlmə-deşik elədiyi artırmanın üstündən kənara tüpürür, onun bir əlində bağlama və yelpik arabadan necə yavaş-yavaş, ehtiyatla aşağı endiyinə tamaşa edirdilər. Ona kömək eləmək üçün Armstid yenə də yerindən tərpənmədi. Elə oturduğu yerdən, yuxarıdan dedi:

– Bu xanım miss Berçdir. O, Ceffersona gedəsidi. Əgər bu gün ora gedən olsa, onu da özü ilə aparsın, ona çox minnətdar olar.

Lina ağır, toz-torpaqlı ayaqqabılarda arabadan düşdüyü yerdəcə dayandı. Aşağıdan yuxarı sakitcə, əndişəsiz ona baxdı.

– Mən sizə çox minnətdaram.

– Aha, – Armstid dedi. – İndi, güman etmək olar ki, şəhərə gedib çıxa biləcəksən. – Yuxarıdan aşağıya, ona sarı baxdı. Və dilin əbədi ləngliklə sözləri necə seçdiyinə diqqətlə qulaq

kəsilib, düşüncənin ardınca zorla yetişərək lal-dinməz halda sürətlə fikirləşdi *Kişi. Bütün kişilər. Yaxşılıq eləmək üçün əlinə düşən yüz fürsəti, bir dəfə ilişmək, istənilməyən yerə, istənilməyən şeyə ilişmək fürsətini bada verəcək. Zəngin olmaq, ad-san qazanmaq, xeyirxah iş görmək, bəzən hətta ziyankarlıq etmək üçün qarşısına çıxan istənilən fürsəti, istənilən imkanı gözü görməyəcək, əldən verəcək. Amma ilişmək fürsətini əldən buraxmayacaq* Sonra dili sözə toxundu və o bunları eşidəndə, yəqin ki, Linadan az təəccüblənmədi: "Ancaq mən ona o qədər də ümid bağlamazdım... güvənməzdim..." Fikirləşdi *O mənə qulaq asmır. Əgər bu sözləri eşitmiş olsaydı, indi bu arabadan yerə düşməzdi, qarnı burnunda, bağlaması, yelpiyi əlində, tək-tənha ömründə tanımadığı, bilmədiyi şəhərə yollanmazdı, bir də heç zaman görə bilməyəcəyi, bir dəfə görməyinin də əslində ona çox baha oturduğunu hələ dərk etmədiyi bir oğlanın ardınca qaçmazdı* " ... əgər bu yolla qayıtmalı olsa, sabah, birisi gün – haçan olur-olsun..."

– Elə bilirəm ki, artıq hər şey yoluna düşəcək, – o cavab verdi. – Mənə deyiblər ki, o, Ceffersondadır.

Arabanı geri döndərib beli bükülü, gözləri mürgülü halda evinə tərəf sürdü; ortası çökmüş oturacaqda oturub fikirləşdi: "Havayı söhbətdir. Yad sözlərə, öz qulaqlarına inanmır, heç insanların onun barəsində nə düşündüklərinə də inanmır artıq... Dörd həftədir, – o dedi. İndiki kimi nə hiss eləmir, nə də inanmır. Orda, pilləkənin yuxarı pilləsində, əlləri dizlərinin üstündə əyləşib, onlar da ətrafda çömbəltmə oturub, onun böyür-başından yola tüpürürlər. Gözləmir ki, ondan bir şey soruşsunlar, özü danışır. Bu lənətə gəlmiş oğlan barəsində özü hər şeyi açıb danışır, sanki, bunda onun gizlətməli və yaxud gizlətməməli olduğu elə bir əhəmiyyətli şey yoxdur. Hətta Coudi Varner və yaxud onlardan biri Ceffersondakı yonqar sexində işləyən oğlanın adının Berç yox, Banç olduğunu deyəndə belə. Çünki, vallah, o özü Martadan da yaxşı bilir ki – axşam Martaya necə dedi? – Allah özü hər şeyin ədalətli olmasının qayğısına qalacaq".

İki sual kifayət etmədi. Və Lina pilləkənin yuxarı pilləsində bağlaması və yelpiyi dizlərinin üstündə əyləşib, öz hekayəsini uşaq yalanına xas inadkarlıq və şəffaflıqla, sözbəsöz təkrar edərək yenidən danışır, çömbəltmə oturmuş kombinzolu kişilərsə sakitcə onu dinləyirlər.

– O oğlanın soyadı Bançdır, – Varner deyir. – Düz yeddi ildir o sexdə işləyir. Nə bilirsən ki, sənin Berçin də ordadır?

Qadın gözlərini yola, Ceffersona gedən yola dikib. Təmkinlə, intizar içində, sanki, bir qədər də heç nə vecinə deyilmiş kimi o yola baxır, amma baxışlarında heç bir dalğınlıq yoxdur.

– Yəqin ki, ordadır. O yonqar sexindədir. Lukas həmişə əylənməyi sevib. Sakit həyat onun üçün deyil. Buna görə də taxta-şalban zavodu onun xoşuna gəlmirdi. Buna görə də o... biz pul qazana bilmək, əylənə bilmək xətrinə ordan köçmək qərarına gəldik.

– Pul qazanmaq və əylənə bilmək xətrinə, – Varner deyir. – Lukas, pul və əyləncə xətrinə görməli olduğu işdən – çünki bu dünyaya məhz onun üçün gəlib – boyun qaçıran, bu işdə ona etibar edənləri atıb gedən cavanların nə birincisi, nə də axırıncısıdır.

Amma, deyəsən, qadın onu eşitmir. Pilləkənin yuxarı pilləsində dinməzcə əyləşib, boş yola, döngənin o tayına, yolun qıvrıla-qıvrıla Ceffersona uzanan qisminə baxır. Kişilər divarın dibində çömbəltmə oturub, gözlərini onun toxtaq, hirssiz-acıqsız sifətinə zilləyərək, Armstidin bir qədər əvvəl, Varnerinsə hələ də fikirləşdiyi kimi, fikirləşirlər ki, onun ağlında bu saat onu dar gündə qoyub qaçan və bəlkə də, üzünü bir daha görməyəcəyi, ya da qaçarkən yalnız havada yellənən pencəyinin ətəklərini görə biləcəyi o əclafdan, nadürüstdən başqa heç nə yoxdur. "Bəlkə o bu Sloundu, Doundu nədi, onun taxta-şalban zavodu barədə düşünür, – Varner öz-özünə deyir, – axı hətta ən sarsaq qadın belə təzə yerin köhnə, qaçıb gəldiyi yerdən o qədər də fərqli, daha yaxşı olmadığını anlamaq üçün bu qədər uzağa, Missisipiyə tək-tənha, özbaşına yollanmazdı. Hətta, onun gecə gəzintilərindən xoşlanmayan qardaşı o təzə yerdə olmasa belə". Fikirləşir *Elə mən də qardaşı kimi edərdim, atası da o cür edərdi. Anası da yoxdur, çünki ata qanı sevgi və qürurla nifrət bəsləyir, ana qanı isə nifrətlə sevir və birgə yaşayır*

Lina heç də bu barədə fikirləşmir. O, əlinin altındakı bağlamada gizlədilmiş sikkə pullar barədə düşünür. Səhərki nahar yeməyini xatırlayır və fikirləşir ki, elə indi, bu saat dükana girib, pendir, peçenye, istəsə lap sardin də ala bilər. Armstidgildə qarğıdalı çörəyilə bircə fincan qəhvə içmişdi, onu çox şeyə qonaq etsələr də başqa heç nə yeməmişdi. "Ədəb-ərkanla yedim", – deyə, əlində pullarını gizlətdiyi bağlama bu bir fincan qəhvəni və əcaib çörək dilimini xatırlayaraq fikirləşir; qürurlu bir rahatlıqla fikirləşir: "Lap kübar xanım kimi yedim. Səyahətə çıxmış kübar xanım kimi. İndisə, istəsəm sardin də ala bilərəm."

İndi budur, sanki o, gözlərini çox da sərt olmayan yoxuşa dikib, kişilərsə çömbəltmə oturub, yola tüpürə-tüpürə oğrun-oğrun ona göz qoyaraq fikirləşirlər ki, onun fikri-zikri bu saat Lukasla, qarşıdakı hadisəylə məşğuldur, əslində isə o bu dəqiqə hikməti, lütfü və qənaətkar nizamı ilə yaşadığı torpağın qədimdən bəri gələn əbədi xəbərdarlığına sakitcə müqavimət göstərməyə çalışır. Bu dəfə təslim olur. Ayağa qalxır, ehtiyatla, yavaş-yavaş, bir qədər yöndəmsiz addımlarla kişi gözlərinin artilleriya mənzilini dəf edərək, dükana girir; satıcı da onun ardınca. "Vallah alacam, – pendir və peçenyeni alandan sonra fikirləşir, – yox e, alacam", – dili isə deyir: "...Bir qutu da sardin. – O, onlara "sərdin" deyir. – Qutusu on sentə olandan".

– On sentə sardinimiz yoxdu, – satıcı deyir. – Sardin on beş sentədi, – O da onları "sərdin" adlandırır.

Qadın götür-goy edir.

– Bəs sizdə on sentə nə qutusu var?

– Ancaq maz qutusu, ayaqqabı mazı, ayrı heç nə yoxdur. O da ki, elə bilirəm, sizə lazım deyil. Yəni, yemək üçün.

– Neyləyək, onda məcburam on beş sentə götürəm. – Bağlamasını, sonra da boğçanı açır. Düyünləri dərhal açmaqda çətinlik çəkir. Ancaq təntimir, hövsələylə onları bir-bir çözüb açır, pulunu ödəyir, sonra boğçanın da, bağlamanın da ağzını bağlayıb, aldıqlarını yığışdırır. Artırmaya çıxanda, bir arabanın pilləkənin önündə dayandığını görür. Sürücüsü də içində.

– O araba şəhərə gedir, – ona deyirlər. – O səni aparar.

Sifəti cana gəlir – yavaş-yavaş, hirssiz-qeyzsiz, minnətdarlıqla.

– Oy, çox sağ olun, minnətdaram, – deyir.

Araba yavaş-yavaş, eyni ahənglə hərəkət edir, sanki, bu kimsəsiz, günəşli ənginliklər arasında nə zaman, nə də tələskənlik mövcuddur. Varnerin dükanından Ceffersona qədər yol on iki mildir.

– Nahar vaxtınacan orda ola biləcəyikmi? – qadın soruşur.

Arabaçı yerə tüpürür.

– Ola da bilərik.

Elə bil, o bu qadına tərəf bircə dəfə də baxmayıb, – hətta o, arabaya minəndə belə. Elə bil, qadın da bir dəfə də olsun, ona sarı baxmayıb. Heç indi də baxmır.

– Yəqin Ceffetrsona tez-tez gedirsiniz.

Arabaçı deyir:

– Aradabir.

Araba cırıldaya-cırıldaya yoluna davam edir. Qarşıda, yolun yarısında düzənliklər və ağaclıqlar əlçatmaz bir şey kimi donuq halda havadan asılı qalıb, amma həm də ilğım kimi axıcı, dəyişkəndilər. Əlbəttə, araba onları da ötüb keçir.

– Sizdəmi Ceffersonda Lukas Berç adında birini tanımırsınız?

– Berç?

– Ümid eləyirəm ki, onu orda tapa biləcəm. Orda yonqar sexində işləyir.

– Yox, – arabaçı cavab verir. – Belə bir adamı xatırlamıram. Bir də ki, mən Ceffersonda çoxlarını tanımıram. Bəlkə də, o ordadır.

– Nə yaxşı olardı... Yoxsa bu səyahət məni tamam bezdirib.

Arabaçı ona sarı baxmır.

– Onu axtarmaq üçün çoxmu uzaqdan gəlirsən?

– Alabamadan. Xeyli uzaqdan.

O, qadına tərəf baxmır. Sanki, elə-belə, xala xətrin qalmasın soruşur:

– Ata-anan nə əcəb sənin bu vəziyyətdə yola çıxmağına razı olublar?

– Atam da yoxdu, anam da. Qardaşımla yaşayıram. Özüm bu qərara gəldim, sonra da yola düşdüm.

– Aydındı. O, sənə məktub göndərib ki, Ceffesona gəl?!

Qadın dinmir. Arabaçı yaylığın altından onun sakit profilini görə bilir. Araba aram-aram, sanki, heç zaman dayanmayacaq kimi yoluna davam edir. Qatırların ahəngdar addımlarının səsi, təkərlərin cırıltısı və taqqıltısı altında qıp-qırmızı yol uzanıb gedir. Günəş xeyli qalxıb; yaylığın kölgəsi indi onun dizlərinin üstünə düşür. Qadın başını qaldırıb günəşə baxır.

– Artıq nahar vaxtıdır, – deyir. Arabaçı gözünün bir qırağıyla onun pendiri və peçenyeni dilim-dilim paralayıb, sardin qutusunu açaraq, ona uzatdığını görür.

– Mənim iştaham yoxdu, – deyir.

– Çox xahiş edirəm, mənimlə bir tikə çörək kəsin.

– Mənim iştaham yoxdu. Sən çörəyini ye.

Qadın yeməyə başlayır, – tələsmədən, səylə, rahat-rahat, dadlı sardin yağına batmış barmaqlarını ləzzətlə yalaya-yalaya. Sonra birdən-birə olmasa da, ölü kimi yerində mıxlanıb durur; çənəsi çeynəməyinə ara verir, dişlənmiş peçenye əlində qalıb, sifəti azca aşağı əyilir, gözləri bərəlir, sanki, nəfəsini tutub nəsə çox uzaqda, yaxud da lap yaxınlıqda – öz içində olan bir şeyə qulaq kəsilir. Sifəti ayazıyır, yanağındakı sağlam, qatı qırmızılıq qeybə çəkilir və o, rəhmsiz qədim torpağı dinləyə-dinləyə, duya-duya, amma heç bir əndişə, qorxu keçirmədən matı-qutu qurumuş halda oturub qalır. “Əkizdi yəqin, başqa cür ola bilməz” – öz-özünə, səssizcə, dodaqlarını tərpətmədən deyir. Sonra ağrısı sakitləşir. Təzədən yeməyə başlayır. Araba dayanmır; zaman dayanmır. Araba sonuncu təpəyə qalxır və onlar göyə ucalan tüstünü görürlər.

– Ceffersondu, – arabaçı deyir.

– Heç inanmağım gəlmir, – qadın deyir. – Biz artıq, demək olar ki, mənzil başına çatmışıq, elə deyil?

Bu dəfə kişi eşitmir. O, qabağa, vadinin o tayında təpənin üstündəki şəhərə tərəf baxır. Baxışlarıyla onun şallağının hərəkətini izləyən qadın göyə qalxan iki tüstü burumunu görür: biri hündür borudan çıxan qalın kömür tüstüsü, digəri isə, çox güman ki, şəhərdən bir qədər aralıdakı bir topa ağacın üstündən daha hündürə ucalan sap-sarı alov tüstüsüdür.

– Görürsən, – arabaçı deyir, – ev yanır.

İndi qadın, sanki, heç nəyə qulaq asmır, heç nə eşitmir.

– Bir işə bax, – o deyir, – cəmi dörd həftədir yola çıxmışam, artıq Ceffersondayam. Bir işə bax. İnsan haralaracan gəlib çıxa bilərmiş...

2

Bayron Banç yalnız bunu bilir: üç il əvvəl cümə günü səhər tezdən yonqar sexində dəzgah altında işləyənlər başlarını qaldıranda, tanımadıqları bir adamın dayanıb onlara baxdığını gördülər. Onlar onun burada çoxdan dayanıb-dayanmadığını bilmirdilər. Avaranın birinə oxşayırdı, amma həm də oxşamırdı. Çəkmələrini toz-torpaq basmışdı, şalvarı tamam kir içindəydi. Ancaq xeyli bahalı diaqonal parçadan tikilmişdi və ütülüydü, köynəyi çirkli olsa da, ağ köynək idi; boynunda qalstuku vardı və başındakı təptəzə, qıraqları möhkəm qatlı həsir şlyapanı sırtıq və məşumcasına əzib lap sifətinin üstünə salmışdı. Daim sərgərdan yaşayan əsl səfilə də bənzəmirdi, amma sur-sumbatından o qədər ev-eşiksizlik tökülürdü ki, sanki, nə doğma bir şəhəri, nə kənd-kəsəyi, nə küçəsi, nə dörd divarı, nə də bir ovuc torpağı vardı. Bu görünüşü o, öz müstəqilliyini, amansızlığını, az qala, məğrurluğunu ifadə edən bir bayraq kimi daim özüylə gəzdirirdi. "Sanki, – sonralar adamlar dedilər, – uğursuzluq zolağına düşmüşdü, amma orada çox qalmaq fikrində deyildi və bu zolaqdan hansı yolla çıxacağına tüpürmək belə istəməzdi." Xeyli cavan idi. Bayron bu adamın ağzının qırağında siqaret, bir əzələsi belə tərpənməyən, qaşqabaqlı, siqaret çəkməkdən azca yana əyilmiş sifətinə nəzər salanda, onun tər kəsmiş kombinezonlarda işləyən fəhlələrə necə ikrahla baxdığını gördü. Sonra o, ağzındakı siqareti, əlini belə toxundurmadan, yerə tüpürdü və kontora tərəf getdi, bozarmış, çirkli iş paltarındakı adamlar isə qeyzli bir çaşqınlıqla onun arxasınca baxdılar.

– Onu bu mişardan keçirmək heç də pis olmazdı, – usta dedi. – Mişar onun bu lovğa qırımını birdəfəlik yonub atardı.

Onlar bu adamın kim olduğunu bilmirdilər. Heç biri əvvəllər onu görməmişdi.

– Amma bu ədalı sir-sifətnən camaat arasında gəzmək o qədər də təhlükəsiz deyil, – digəri dedi. – Başqa bir yerdə də özünü unudub bu sifətini göstərsə, kiminsə bundan xoşu gəlməyə bilər.

Sonra onu yaddan çıxardılar; hər halda, daha ondan danışmadılar. Hərə öz iş yerinə – şkivlərin, ötürücü qayışların hay-küyü arasına qayıtdı. Ancaq heç on dəqiqə keçməmiş sex rəisi həmin adamı geri gətirdi.

– Ona bir iş verin, – sex rəisi ustaya dedi, – dediyinə görə, bəd ayaqda bellə, kürəklə rəftar etməyi yaxşı bacarır. Ona taxta kəpəyini yığmağı da tapşıra bilərsiniz.

Qalan fəhlələr əllərini işdən saxlamasalar da, çirkli şəhər geyimindəki bu yad adamdan, onun qaşqabaqlı, dözülməz sifətindən, som-soyuq və ətrafa nifrət püskürən ədasından gözlərini çəkə bilmirdilər.

– Bəyəm bu paltarda işləyəcək?

– Öz işidir, – sex rəisi cavab verdi. – Mən onun paltarını işə götürmürəm.

– Sizə də, ona da bu cür əl verirsə, mənim üçün də fərqi yoxdur, – usta dedi. – Hə, mister, bax, ora get, kürək beli götür, o kəpəyi yığıb atmaqda uşaqlara kömək elə.

Təzə gələn bir söz demədən dönüb göstərilən yerə getdi. Qalanlar onun kəpək topasının arxa tərəfinə necə keçdiyinə və oradan kürək beli götürüb necə işləməyə başladığına tamaşa edirdilər. Sex rəisi ilə usta qapının ağzında dayanıb nəsə danışdılar. Sonra rəis çıxıb getdi, usta yerinə qayıtdı.

– Onun adı Kristmasdır, – o dedi.

– Necədi? – işçilərdən biri təkrar soruşdu.

– Kristmas.

– Xaricidi, nədi?

– Sən heç eşitmisən ki, ağ adama Kristmas adı qoyalar? – usta dedi.

– Mən, ümumiyyətlə, kiməsə belə ad qoyduqlarını eşitməmişəm, – o biri dedi.

Və budur, xatırladığı qədər, Bayronun ilk dəfə ağlına belə bir fikir gəldi ki, insanın adı, sadəcə, onu başqalarından fərqləndirməyə xidmət edən bir səs, bir işarə deyil, həm də o adamın nə törədəcəyinin müjdəçisi ola bilər; əlbəttə, əgər başqaları onun mənasını vaxtında anlaya bilərlərsə. Ona elə gəldi ki, təzə gələnin adını eşitməyənə qədər burdakıların heç biri ona elə də ciddi diqqət yetirmirdi. Ancaq eşidəndə onlarda belə bir təsəvvür yarandı ki, sanki, bu ad bu adamdan nə gözləməyin mümkün olduğuna işarədir: sanki, çiçək öz ətrini, zınqırovlu ilansa öz zınqırovunu özüylə daşıdığı kimi, o da taleyi haqqında faciəvi xəbərdarlığı öz adının üstündə gəzdirir. Amma bu işarəni anlamağa heç kimin ağlı çatmadı. Onlar, sadəcə, bu qərara gəldilər ki, bu adam hansısa xarici ölkədən gəlib və həmin cümə gününün qalan hissəsini onun, boynunda qalstuk, başında həsir şlyapa, əynində ütülü şalvar necə işlədiyinə göz qoydular, öz aralarında, bəlkə də, onun vətənində hamının bu cür paltarda işlədiyindən danışdılar; doğrudur, bəziləri buna şübhəylə yanaşdı və "Əzəl-axır paltarını dəyişəcək. Sabah işə o, bu bayram libasında gəlməyəcək" dedilər.

Şənbə səhəri açıldı. Fit səsi çalınanda isə özünü işə güclə yetirənlər qapıdan içəri girməyə macal tapmamış soruşdular: "Noldu o?... Hardadır?...Harda?..." O biriləri dərhal onu göstərdilər. Təzə gələn kəpək yığınının böyründə dayanmışdı, kürək beli yerdə atılıb qalmışdı, özü isə dünənki paltarda, dünənki sırtıq şlyapada dimdik dayanıb siqaret çəkirdi. "Biz gələndə o artıq burdaydı, – əvvəl gələnlər izah etdilər. – Elə beləcə dayanmışdı, vəssalam. Sanki, heç gedib yerdə yatmayıb da".

O heç kimlə bir kəlmə də kəsmədi. Heç kim də onunla danışmağa cəhd eləmədi. Ancaq onun burada olduğunu, kürəyinin inamla qalxıb-endiyini (heç də pis işləmirdi, qaşqabaqlı və mütəvazi bir səylə çalışırdı) və əllərinin hərəkətini hamı yaxşı hiss edirdi. Günorta gəlib çatdı. Bayrondan başqa işçilərin heç biri bu gün özüylə nahar gətirməmişdi, bazar ertəsinədək istirahətə buraxıldıqları üçün əşyalarını toplamağa başladılar. Bayron, adətən, nahar elədikləri yerə – nasosxanaya təkcə getdi və içəri girən kimi oturdu. Birdən nəsə onu başını qaldırmağa vadar

etdi. Təzə gələn yaxınlıqdakı dirəyə söykənib siqaret çəkirdi. Bayron başa düşdü ki, o daha əvvəl gəlib və kənara çəkilmək fikri də yoxdur. Ya da daha pis: buraya qəsdən gəlib, ortalıqdakı dirək kimi Bayron onun vecinə də deyil. "Nədi, yoxsa iş gününü hələ başa vurmamısan?" – Bayron soruşdu.

O ağzındakı tüstünü bayıra üfürdü. Sonra Bayrona baxdı. Arıq sifəti vardı, rəngi lap hamar üzlü perqamenti xatırladırdı. Dərisi deyil, sifətin özü dümdüz idi, sanki, başı ifrat bir soyuqqanlılıqla düzgün ölçülüb-biçilmiş qəlibə salınmış, sonra da qızmar sobada ütülmüşdü. "Əlavə iş vaxtına görə burda nə qədər ödəyirlər?" – o soruşdu. Bayron yalnız onda başa düşdü. Başa düşdü ki, o nə üçün bayır-bacaq paltarında işləyir, nə üçün dünən də, bu gün də özüylə işə nahar gətirməyib, nə üçün başqaları kimi nahardan sonra işi buraxıb getməyib. Onu da, sanki, o özü ona açıb deyibmiş kimi, dəqiq bildi ki, bu adamın cibində bir qəpiyi də yoxdur və çox güman ki, iki-üç gündür yalnız siqaretlə keçinir. O, bunu fikrində götür-qoy eləməyə macal tapmamış, qeyri-ixtiyari – bu düşüncənin özü kimi qeyri-ixtiyari bir hərəkətlə öz qazançasını ona tərəf uzatdı. Amma bu hərəkət hələ başa çatmamış, həmin adam öz sifətindəki ikrah dolu tənbəl ifadəni dəyişmədən başını çevirib, gözünün önündəki siqaret dumanı arasından ona təklif edilən qazançaya tərs-tərs baxdı. "Mən ac deyiləm. O yana rədd elə bu zibilini".

Bazar ertəsi tezdən Bayron gümanında yanılmadığını bir daha anladı. O, işə təzə kombinezonda gəlmişdi və kağız kisədə özüylə yemək gətirmişdi. Ancaq günorta hamıyla birlikdə nasosxanada çömbəltmə oturub nahar eləmədi və yenə də sifətində həmin o ifadə vardı. "Özü bilər, orda durmaq istəyirsə, qoy dursun, – usta dedi. – Sims onun kostyumunu işə götürmədiyi kimi, heç o andır sifətini də işə götürməyib".

Sims heç onun dilini də işə götürməyib, – Bayron fikirləşdi. Hər halda, göründüyü qədər Kristmas özü də belə düşünürdü, ona görə də özünü bu cür aparırdı. Hətta yarım il keçəndən sonra da heç kimlə bir kəlmə kəsməmişdi. Heç kim onun iş vaxtından sonra nəylə məşğul olduğunu bilmirdi. İş yoldaşlarından şam yeməyindən sonra onunla mərkəzi meydanda təsadüfən qarşılaşanlar olmuşdu, amma Kristmas özünü elə aparmışdı ki, guya onları birinci dəfədir görür. Şəhərdə o, başında təzə şlyapa, əynində ütülü şalvar gəzirdi və daim də damağındakı yanpörtü siqaretin tüstüsü, sanki, sifətində dərin şırım açırmış kimi burula-burula havaya qalxırdı. Harada yaşadığını, harada gecələdiyini bilən yox idi, yalnız ara-sıra bəzi adamlar onu şəhər kənarındakı meşə cığırından keçən görmüş, fikirləşmişdilər ki, bəlkə də, o tərəflərdə yaşayır.

İndi Bayronun bildikləri təkcə bunlardan ibarət deyil. Bunları o, onda, o vaxt bilirdi – eşitdikləri, gördükləri tədricən, yavaş-yavaş onun bilgisinə çevrilmişdi. Ancaq o zaman onlardan heç biri bilmirdi ki, Kristmas harada yaşayır, qara fəhlə işinin arxasında gizlənərək, əslində nəylə məşğul olur. Əgər sexə daha bir təzə işçi – Braun gəlməsəydi, bəlkə də, axıracan bunu heç kim bilməyəcəkdi. Braun hər şeyi açıb danışanda isə azı on adam üç ildir Kristmasla şəhərdən iki mil

aralıda yerləşən, Berden soyadlı qarımış qadının tək-tənha yaşadığı köhnə, müstəmləkə dövründən qalma bir plantasiyaçı evinin arxasında gecə vaxtı təkbətək görüşdüyünü və ondan viski satın aldığını etiraf etdi. Ancaq Kristmasdan viski alanlar belə bilmirdilər ki, o – özü də iki ildən artıqdır – miss Berdenin mülkündəki zənci komasında yaşayır.

Beləliklə, yarım il bundan əvvəl, vaxtilə Kristmas kimi iş axtaran, heç kimin tanımadığı – daha bir adam sexdə peyda oldu. O da cavan idi, ucaboyluydu, artıq iş paltarında – kombinezonda gəlmişdi, göründüyü qədər, bu paltarı çoxdan idi ki, əynindən çıxarmırdı, onun da sərgərdan görkəmi vardı. Ağzının qırağında ağ çapığı olan canlı, yaraşıqlı sifətindən iradəsizlik yağırdı və o çapıq elə iddialı görünürdü ki, sanki, gündə yüz dəfə güzgüdə ona uzun-uzadı tamaşa eləyirdilər; o, tez-tez başını geri atıb, çiyninin üstündən arxasına boylanırdı; arxadan sürətlə gələn maşına dönüb baxan qatır kimi, – Bayron fikirləşdi. Ancaq bu, sadəcə, arxaya baxmaq deyildi, əndişəydi; Bayrona elə gəldi ki, ondan həm də özündənrazılıq, sırtıqlıq yağır, sanki o, arxadan onu gözləyən və yaxud gözləyə bilən heç bir təhlükədən qorxmadığını aramsız olaraq təkrar-təkrar nümayiş etdirməyə, sübut etməyə çalışır. Və usta Muni, bu yeni işçini görəndə, Bayron fikirləşdi ki, elə ustanın da ağlından eyni şeylər keçir.

– Həə, – Muni dedi, – bu oğlana baxanda, demək olar ki, Sims əslində işə heç nə götürməyib. Bunun heç işə yarayan əməlli-başlı şalvarı da yoxdur.

– Düz deyirsən, – Bayron onun fikrini təsdiqlədi. – Ona baxanda mənim ağlıma küçədə avaralanan radiolu maşın gəlir. O radio nə deyir, nə danışır, maşın özü hara gedir – heç nə anlaya bilmirsən, lap yaxından baxanda isə məlum olur ki, içində heç kim yoxdur.

– Elədi, – Muni dedi. – Mənim də ağlıma ayğır at gəlir. Özü də cins yox. Elə-belə, əzvay bir ayğır. Kənardan baxanda elə bilirsən ondan yaxşısı yoxdu, amma əlində yüyən yaxınına gələn kimi görürsən ki, ayaq üstə ölür. Qaçmağına pis gaçmır, amma yəhərləyən kimi topal yabıya dönür.

– Amma, deyəsən, madyanların yaman xoşuna gəlir, – Bayron dedi.

– Əlbəttə, – Muni onu təsdiqlədi. – Amma məncə, o heç madyana da elə bir ciddi xətər yetirə bilməz.

Təzə gələn işçi Kristmasla bir yerdə işləməyə, kəpək təmizləməyə başladı. Özü də zəvzəyə-zəvzəyə – çənəsi durmadan işləyir, kim olduğunu, hardan gəldiyini hamıya, hər kəsə danışırdı, səsinin ahəngi, danışıq tərzi onun bütün varlığını, məğzini açıb göstərirdi; hər sözündən, hər hərəkətindən başdan-ayağa yalan, özünə aludəçilik yağırdı. Həm də o dərəcədə ki, nəinki özü haqqında danışdıqlarına, heç adını belə düz dediyinə inana bilmirsən, Bayron fikirləşdi. Adının Con Braun olduğuna şübhə etməyə, əlbəttə, heç bir əsas yox idi. Ancaq sir-sifətinə baxan kimi adam dərhal başa düşürdü ki, beləsi həyatının hansısa çətin anında axmaqlığın son həddinə çata və öz adını dəyişmək qərarına gələ bilər; və onu Con Brauna dəyişəndən sonra bundan o qədər

xoşhal olar, sevinər ki, sanki, bu adı ilk dəfə o kəşf edib. İş ondaydı ki, ad, ümumiyyətlə, ona lazım deyildi. Onun adı heç kəsi maraqlandırmırdı, eləcə də, – Bayron fikirləşdi, – onun haradan gəldiyi, hara gedəcəyi, burada qalıb-qalmayacağı heç kimin (ən azı şalvar geyinənlərin heç birinin) vecinə deyildi. Zira, haradan gəlmiş olursa olsun, əvvəllər harada yaşayıbsa yaşasın, hamıya aydın idi ki, o, sürüngən çəyirtkə kimi çölə atılan yemlə dolanır. Özü də deyəsən, bununla o qədər çoxdan məşğul olur ki, tamam tökülüb itib, içi boşalıb və onda məqsədsiz, məramsız, küləyin istədiyi səmtə uçurtduğu şəffaf, yüngül qabıqdan savayı heç nə qalmayıb.

Nə isə, o necə bilirdi, o cür də işləyirdi. Onun hətta, – Bayron fikirləşdi, – işdə girlənmək fəndgirliyi də yoxdur – heç bu cür arzusu da. İşdə ustalıqla girlənmək bacarığı, istənilən sahədə çox az insana verilir, hətta oğurluqda və yaxud adam öldürməkdə belə. Qarşıya müəyyən bir məqsəd qoymaq, ona nail olmağa can atmaq lazımdır. Bayronsa görürdü ki, bunların heç biri onda yoxdur. Sonra onlar Braunun bütün maaşını elə ilk şənbə axşamındaca qumarda – aşıq oyununda uduzduğunu öyrəndilər. Bayron Muniyə dedi:

– Məəttəl qalmışam. Mən elə bilirdim, o heç olmasa, aşıq atmağı əməlli-başlı bacarır.

– Omu? – Muni dedi. – Sən nə ağılnan fikirləşirsən ki, taxta kəpəyini qırağa atmağı belə bacarmayan bir adam hansısa bir işdə fəndgir ola bilsin? Əgər o, sadə bir işin – kürək atmağın öhdəsindən gələ bilmirsə, aşıq atmaq kimi bic bir oyunda kimə kələk gələ bilər? – Sonra əlavə etdi. – Ancaq məncə, dünyada elə bir fərsiz adam yoxdur ki, ən azı, hansısa bir işdə digərini üstələyə bilməsin. Bu isə, ən azı Kristması veyillikdə üstələyir.

– Elədi, – Bayron dedi. – Məncə, yaxşı olmaq tənbəl adam üçün dünyada ən asan işdir.

– Amma məncə, öyrədən olsaydı, – Muni dedi, – lap tezliklə pis adam olardı.

– Gec-tez özünə belə bir müəllim tapacaq, bu gün olmasa da sabah, – Bayron dedi. Hər ikisi çevrilib kəpək topasına, Braunla Kristmasın işlədiyi yerə baxdı; biri qaşqabaqlı, acıqlı, ciddi səylə, digəri isə hətta özünü belə aldada bilməyəcək boş və tələşlı çalışqanlıqla işləyirdi.

– Hə, düz deyirsən, elədir, – Muni onunla razılaşdı. – Əgər pis bir iş görmək niyyətində olsam, Allah məni beləsiylə yoldaşlıq etməkdən saxlasın.

Braun da Kristmas kimi işə əynində olanıyla gəlmişdi. Ancaq Kristmasdan fərqli olaraq, o, paltarını elə də tez dəyişmədi.

– Bir də gördün şənbə günlərinin birində qumarda o qədər uddu ki, həm bir təzə kostyuma bəs elədi, həm də cibində bir dollar, dollar yarım xırda pul qaldı, – Muni dedi. – Onda növbəti bazar ertəsi biz onu burada görməyəcəyik.

Amma Braun hələ də hər gün işə gəlirdi – Ceffersonda ilk dəfə peyda olduğu həmin kombinezonda, həmin köynəkdə; hər dəfə də həftəlik qazancını şənbə günləri qumarda uduzurdu, bəlkə də, az-çox udduğu vaxtlar da olurdu, amma bunun hər ikisini eyni dərəcədə boş, anlamsız qəhqəhəylə qarşılayır və hər gün onu ütüb buraxan adamlara məzəli lətifələr danışır,

deyib-gülürdü. Bir dəfə belə bir söz yayıldı ki, o, altmış dollar udub. “Hə, indi onunla vidalaşa bilərsiniz”, – kimsə dedi.

– Heç nə deyə bilmərəm, – Muni dedi.– Altmış dollar o məbləğ deyil. Əgər bu, on dollar və yaxud əksinə, beş yüz dollar olsaydı, onda, bəlkə də, sən haqlı olardın. Altmış dollar üçün – yox. Əksinə, o indi elə biləcək ki, burda işi lap yaxşı gedir: bir həftədə qazandığını bir gündə qapazlayıb.

Və o, doğrudan da bazar ertəsi işə çıxdı, elə həmin kombinezonda; səhər tezdən onların hər ikisini – Braunu da, Kristması da kəpək topasının başında gördülər. Braun burada peyda olduğu gündən bu cütlüyə göz qoyurdular. Kristmas əlindəki beli tələsmədən, üsulluca, var gücü ilə, sanki, torpağın altında gizlənmiş ilanı (“və yaxud adamı” Muni dedi) doğrayırmış kimi kəpək yığınının içinə soxur, Braun isə hərdənbir əlindəki belə söykənib, yəqin ki, nəsə məzəli əhvalat, lətifə danışırdı. Çünki az keçməmiş başını geri atıb, şaqqanaq çəkir, gülməkdən uğunub gedir, o biri isə həmişəki kimi lal-dinməz, yumşalmaq bilməyən qeyzliliklə işinə davam edirdi. Sonra Braun da işə girişir və bir müddət Kristmasdan heç də ləng işləmirdi. Lakin onun kürək beli havada get-gedə kiçilən qövs üzrə uçur, daha az kəpək götürür və nəhayət, kəpək topasına toxunmadan geri qayıdırdı. Onda o, yenə də kürək belin sapına dirsəklənir və bəlkə də, yarımçıq qalmış əhvalatın ardını, özü də, deyəsən, heç onun səsini belə eşitməyən adama danışır. Sanki, bu adam ondan neçə mil uzaqda idi, ya da o, onun başa düşmədiyi bir dildə danışır, Bayron fikirləşdi. Bəzən şənbə axşamları şəhərdə onları bir yerdə – Kristması heç vaxt dəyişməyən, səliqə-sahmanlı, ciddi diaqonal şalvar və ağ köynəkdə, Braunu isə yeni kostyumda (qırmızı damaları olan açıq-qəhvəyi rəngli kostyumda, güllü köynəkdə, Kristmasınkı kimi, amma ala-bəzək lentli həsir şlyapada) görənlər də olurdu: Braun bir yandan üyüdüb-tökür, gah da şaqqanaq çəkib gülür, səsi bütün meydana yayılır, sonra da əks-səda verərək geri qayıdır, kilsədəki yad səs kimi, elə bil, eyni vaxtda hər tərəfdən gəlirdi. Sanki, o, Kristmasla necə dost olduqlarını hamıya göstərmək istəyirdi, Bayron fikirləşdi. Sonra, Braunun səsinin boş cingiltisinə yığışanların sayı nə qədər az olsa da, Kristmas soyuqqanlı və qaşqabaqlı halda dönüb oradan uzaqlaşır, Braun isə zəvzəyə-zəvzəyə, qəhqəhəsinə ara vermədən onun dalınca gedirdi. Və hər dəfə o biri fəhlələr deyirdi: “Hə, bu bazar ertəsi o, daha işə qayıtmayacaq”. Ancaq o, yenə də hər bazar ertəsi öz işinə qayıdırdı. İşi birinci Kristmas buraxdı.

Düz üç il sonra, bir şənbə axşamı, heç kimə heç nə demədən işdən çıxıb getdi. Özü də Kristmasın işdən getdiyini onlara başqa heç kim yox, Braun xəbər verdi. İşçilərin arasında hər yaşdan olanı vardı, kimisi evli, kimisi subaydı, hərəsi bir cür yaşayırdı, amma bazar ertəsi səhər tezdən hamısı bir qaydada, demək olar ki, təntənəylə işə çıxırdı. Onların arasında cavanlar da vardı və şənbə günləri onlar da içir, pulla qumar da oynayırdılar; hətta Memfisə gedənləri də olurdu. Ancaq hamısı hər bazar ertəsi səhər tezdən tər-təmiz kombinezonda, tərtəmiz köynəkdə,

ciddi görkəmdə dinməzcə işə çıxır, dinməzcə fit səsini gözləyir, sonra da dinməzcə öz işlərinə başlayırdılar; sanki, havada hələ də bazar günündən nəsə – bu bayramı necə keçirmiş olsan da, bazar ertəsi hökmən üst-başı tərtəmiz və dinməzcə işə çıxmalı olduğunu təsdiq edən ehkam kimi bir şey asılıb qalmışdı.

Braun hamıdan bax bununla fərqlənirdi. Bazar ertəsi o, bir qayda olaraq, keçən həftəki kirli paltarda, ülgüc dəyməmiş qara tüklü sifətlə işə çıxırdı. Bəzən həmişəkindən də möhkəm hay-küy salır, qışqırıb-bağırır, on yaşında uşaqlara xas zarafatlar edirdi. Onun bu hərəkətləri onların – bu ciddi adamların heysiyyətinə toxunurdu. Onlar üçün bu, Braunun işə çıl-çılpaq, yaxud sərxoş gəlməsi kimi bir şeydi. Elə buna görə də Kristmasın işdən çıxıb getdiyini bir bazar ertəsi onlara məhz Braun xəbər vermiş oldu. O, işə gec gəlmişdi, ancaq məsələ bunda deyildi. Üzünü də qırxmamışdı, amma iş bunda da deyildi. İş ondaydı ki, o daha dinib-danışmırdı, elə bil, dili tutulmuşdu. Onun burada, işdə olduğunu da dərhal hiss etmədilər, halbuki başqa vaxt olsaydı, onların tən yarısı artıq onu ən biədəb sözlərlə, bəzilərisə lap ürəkdən söymüş olardı. O, səhər tezdən fit səsiylə birgə peyda oldu, birbaşa kəpək yığınının başına gedib, onu danışdırmaq istəyənlərə belə heç nə demədən öz işinə başladı. Bax, elə onda fikir verdilər ki, o təkdir, iş yoldaşı Kristmas yanında yoxdur. Usta onların yanına gələndə kimsə dedi: "Hə, deyəsən, sənin fitilə od qoyan şəyirdinin biri havaya buxarlanıb."

Muni Brauna tərəf baxdı; o, əlindəki kürək beli taxta kəpəyinin içinə elə soxurdu ki, elə bil, bu, kəpək yox, yumurtaydı. Muni yerə tüpürüb: "Elədi. Çox tez varlandı. Bundan sonra onu burda heç cür, lap ayağından bağlasan da saxlaya bilməzsən", – dedi.

– Varlandı? – o birisi bir də soruşdu.

– Bəli, onlardan biri, – Muni hələ də Brauna tərəf baxa-baxa dedi. – Dünən onları təzə maşında gördüm. O, – Muni başı ilə Braunu göstərdi, – sükanın arxasında oturmuşdu. Buna o qədər də təəccüb eləmirəm. Ancaq ona məəttəl qalmışam ki, nə əcəb bu biri bu gün işə çıxıb.

– Eh, indiki zamanda onun yerinə təzə işçi tapmaq Simsə o qədər də çətin olmayacaq.

– İstənilən vaxt çətin olmazdı, – Muni dedi.

– Axı o, deyəsən, işin öhdəsindən heç də pis gəlmirdi.

– Hə-ə, – Muni dedi. – Sən Kristmasdan danışırsan.

–Bəs sən kimi deyirsən? Braun da işdən çıxır?

– Sən elə bilirsən dostu şəhərdə təzə maşında gəzib kef eləyəndə, o burda qalıb kəpək atacaq?

– Hə-ə. – O da dönüb Brauna baxdı. – Mənim üçün çox maraqlıdır, görəsən onlar bu maşını hardan tapıblar.

– Mənimçünsə, yox, – Muni dedi. – Mən ancaq onu bilmək istərdim ki, nahardan sonramı gedəcək, yoxsa saat altıya kimi hövsələsini basıb gözləyəcək.

– Bəs necə? – Bayron dedi. – Mən də burda təzə maşın üçün pul yığa bilsəydim, o saat işdən çıxardım.

Bəziləri eyni anda dönüb Bayrona baxdılar. Yüngülcə qımışdılar. “Onlar o pulu burda heç vaxt yığa bilməzdilər,” – biri dedi. Bayron ona baxdı. “Görünür, Bayron pis şeylərdən o qədər uzaq qaçır ki, həyatda çox şeydən xəbəri olmur”, – digəri dedi. Onlar Bayrona baxdılar. “Braun, necə deyərlər, xalqın nökəridi. Kristmas o xalqı miss Berdenin malikanəsinin arxasındakı meşəliyə gəlməyə məcbur edirdi, özü də gecə vaxtı. Braun isə indi özü onu birbaş onların yanına, şəhərə daşıyır. Deyirlər ki, əgər parolu bilsən, hər şənbə axşam vaxtı dalanların birində ondan bir şüşə viski ala bilərsən, dərhal toqqasının altından çıxarıb verir”.

– Bəs o parol necədir? – başqa birisi dedi. – Yetmiş beş sentmi?

Bayron gah birinə, gah da digərinə baxdı.

– Doğrudan? Onlar həqiqətən bu işlə məşğuldular?

– Braun bu işlə məşğuldu. Kristması bilmirəm. Ona görə and içə bilmərəm. Ancaq Braun Kristmasdan bircə addım da aralı durmur. Necə deyərlər, su axıb, çuxurunu tapıb.

– Doğrudur, – digəri dedi. – Kristmas bu işlə məşğul olurmu, olmurmu, məncə, biz bunu heç vaxt bilməyəcəyik. O, heç vaxt Braun kimi şalvarını çıxarıb camaat arasında çılpaq gəzməz.

– Bu heç ona lazım da deyil, – Muni Brauna baxa-baxa dedi.

Muni haqlıydı. Onlar kəpək yığınının başında tək-tənha qalan Braundan nahar vaxtına kimi gözlərini çəkmədilər. Sonra fit səsi eşidildi, qazançalarını götürüb nasosxanaya keçdilər, çömbəltmə oturub nahar eləməyə başladılar. Braun qaşqabaqlı, körpə uşaq kimi sifəti pörtmüş, qaşları çatılmış halda içəri girdi, onlarla bir yerdə çömbəltmə oturub, əllərini dizlərinin arasından aşağı salladı. Bu gün onun naharı yox idi.

– Nolub, nahar eləməyəcəksən? – kimsə soruşdu.

– Yağlav vedrədəki soyuq zirzibilimi? – Braun dedi. – Səhərdən axşamacan qotur zənci kimi muzdurluq eləyirsən, sonra da bircə saat fasilə verirlər ki, o dəmir vedrədəki zirzibili tıxışdırasan.

– Bilmirəm, bəlkə də, kimsə öz məmləkətindəki zəncilər kimi muzdurluq eləyir, – Muni dedi. – Ancaq zənci də bəzi ağlar kimi işləsəydi, burda heç yarım gün də duruş gətirə bilməzdi.

Qaşqabağını tökərək çömbəltmə oturub əllərini dizlərinin arasından aşağı sallayan Braun, sanki, bunu eşitmədi, onu dinləmək istəmədi. Deyəsən, o özündən başqa heç kimə qulaq asmır, yalnız özünü dinləyirdi: “Axmaq adam. Yalnız axmaq adam belə iş tutar”.

– Səni o kürək belə zorla bağlamayıblar, – Muni dedi.

– Düzdür, görüm onu andıra qalsın, – Braun cavab verdi.

Fit çalındı. Fəhlələr iş yerlərinə dağılışdılar. Onlar Braundan gözlərini çəkmir, onun necə işlədiyinə göz qoyurdular. Bir-iki ağız kəpək atdıqdan sonra, sanki, qolları boşalmağa başladı,

get-gedə yavaşıdı, sonra kürək belin sapından qırmanc kimi yapışıb tamam dayandı; bir də gördülər ki, o öz-özünə danışır.

– Hə də, axı orda onu dinləyəcək başqa bir adam yoxdur, – kimsə dedi.

– İş onda deyil, – Muni dedi. – O hələ özünü ram edə bilməyib. Özünü tam inandıra bilməyib.

– Nəyə?

– Mən düşündüyümdən də ağılsız olduğuna, – Muni dedi.

Ertəsi gün tezdən Braun işə çıxmadı.

– Bundan sonra onun məskəni bərbərxana olacaq, – biri dedi.

– Yaxud da bərbərxananın arxasındakı dalan, – digəri əlavə etdi.

– Məncə, biz onun üzünü hələ bir dəfə də görəcəyik, – Muni dedi. – Dünənki iş gününün pulunu almağa gələcək.

Həqiqətən belə oldu. Saat on birdə gəlib çıxdı. Əynində təzə kostyum, başında həsir şlyapa vardı; qapının ağzında dayanıb, üç il bundan əvvəl Kristmas bu fəhlələrə necə baxırdısa, o da onlara elə o cür baxırdı – sanki, yaddaşı və götürmə qabiliyyəti o qədər də güclü olmayan bu şəyirdin üzüyola əzələlərində, özü də bilmədən, təsadüfən ustadın o vaxtkı duruşu təkrar olunmuşdu. Amma ustadın o duruşundan ilan kimi amansız sükut və zəhrimar, hətta ölüm yağırdısa, Braunda bu duruş başıpozuqluq, boş və mənasız lovğalıqdan başqa heç nə ifadə etmirdi. Gedin ölənə kimi işləyin, kölə uşağı kölə! – Braun dişini ağarda-ağarda şaqraq, uca səslə dedi.

Muni başını qaldırıb ona sarı baxdı. Braunun dişləri dərhal örtüldü.

– Təsadüfən sən o sözü mənə demirsən ki? Hə? – Muni ondan soruşdu.

Braunun daim haldan-hala düşən sifətində, hamının çoxdan öyrəşdiyi ani dəyişikliklərdən biri baş verdi. Sanki, canlı bir sapa düzülmüş olan bu üz ifadələri tez-tez işlənməkdən o qədər genəlib ki, onları tez-tez dəyişmək hətta Braun üçün də çətin iş deyil, Bayron fikirləşdi.

– Mənim sənlə nə işim var, – Braun dedi.

– Hə, başa düşdüm. – Muninin səsi sakit, mehriban idi. – Onda bu uşaqlara kölə deyirsən?

Dərhal başqa birisi dilləndi:

– Deməli, mənə deyirsən, hə?

– Mən öz-özümə danışıram, – Braun dedi.

– Axır ki, ömründə bir dəfə əsl həqiqəti dedin, – Muni dedi. – Daha doğrusu, yarısını. İstəyirsən, gəlim o biri yarısını da qulağına mən pıçıldayım?!

Bir daha sexdə onu görən olmadı, hərçənd Bayron yeni avtomobilin (artıq ön tərəfdən hər iki yan əzilmiş halda) şəhərin küçələrində necə məqsədsiz-filansız, boş-boşuna, aramsız dolaşdığını, Braunun da sükan arxasında yayxanıb dərd-sərsiz, avara, yelbeyin görkəmilə

uğursuzcasına başqalarında özünə qarşı həsəd oyatmağa çalışdığını bilir və indi də xatırlayır. Tez-tez olmasa da, bəzən Kristmas da onun böyründə otururdu. Və indi onların nəylə məşğul olduqları heç kim üçün sirr deyildi. Bütün cavanların, hətta bütün yeniyetmələrin dilində belə bir söhbət dolaşırdı ki, Braundan viskini harada gəldi, almaq olar; və şəhər onun haçan ilişəcəyini – viski şüşəsini yağmurluğunun ətəyinin altından çıxarıb mülki geyimdə olan agentə satarkən yaxalanacağını gözləyirdi. Hələ də Kristmasın bu işlə əlaqəsi olub-olmadığını dəqiq bilən yox idi, ancaq butlegerlik yoluyla bu qədər varlanmağa Braunun öz ağlı çatacağına da heç kəs inanmırdı. Üstəlik bəzilərinə o da məlum idi ki, Braunla Kristmas Berdenlərin malikanəsindəki daxmada bir yerdə yaşayırlar. Amma heç onlar da dəqiq bilmirdilər ki, miss Berdenin öz mülkündə yaşayanların nə işlə məşğul olduqlarından xəbəri var, ya yox – bilsəydilər belə, yenə ona heç nə deməzdilər. Miss Berden – orta yaşlarında olan bu qadın, böyük bir evdə tək-tənha yaşayırdı. O, doğulduğu gündən bu evdə yaşasa da, hələ də bu şəhər üçün gəlmə, yad idi: onun valideynləri bura lap çoxdan – Rekonstruksiya dövründə Şimaldan köçmüşdülər. Amma o, buradakılar üçün indi də yankiydi, zənci vurğunuydu; şəhərdə onun yerli və gəlmə zəncilərlə qəribə münasibətləri barədə şayiələr gəzirdi; halbuki, keçmiş qul sahibləri onun babasıyla qardaşını zəncilərin yerli seçkilərdə iştirakı üstündə mübahisəyə görə şəhər meydanında hamının gözü qabağında altmış il bundan əvvəl qətlə yetirmişdilər. Elə indinin özündə də onun və bu malikanənin başı üzərində nəsə qara, yad, təhlükəli bir şey dolanırdı; hərçənd, o yalnız qadın və şəhərin əsasını qoyan əcdadların heç də əsassız olmayaraq (ən azı, onlar belə hesab edirdilər) qorxduqları, nifrət etdikləri bir nəslin törəməsi idi. Və bu da nəticə: çoxdan, lap çoxdan tökülmüş qanın, dəhşətin, qəzəbin və qorxunun izi hələ də silinməyib, hər iki tərəfin indiki törəmələri də bir-birinə qənim kəsilib, onların arasında dərin bir uçurum var.

Əgər onun həyatında eşq deyilən bir şey olmuşdusa da, hər kəs – istər kişi, istər qadın – deyə bilər ki, Bayron Banç onu çoxdan unudub. Daha doğrusu, artıq otuz yaşlarını bir daha geri qaytara bilməyəcək, yeddi ildi hər həftənin altı gününü taxta sexində, taxtaları dəzgahın ağzına verməklə keçirən bu bəstəboy adamı eşq özü çoxdan unudub. Hər şənbə gününün ikinci yarısını o bu sexdə təkbaşına keçirir, halbuki, başqaları bayır-bacaq kostyumlarını geyib, qalstuklarını boyunlarına taxır, özlərini şəhərin mərkəzinə – işçi insanın boş-boşuna, yorğun-arğın, adamın canını gicişdirən asudəliyinə verirlər.

Şənbə gününün ikinci yarısı dəzgah arxasında təkbaşına işləmək mümkün olmadığından o, taxtaları vaqonlara yükləyir və vaxt hesabını özü aparır, iş gününün son saniyəsinədək, xəyali fit səsinədək orada çalışır. Qalan işçilər, bütün şəhər – daha doğrusu, onu xatırlayanlar və onun haqqında düşünənlər – elə bilirlər ki, o bu işi əmək haqqına əlavə pul qazanmaq naminə görür. Bəlkə də, səbəb buydu. İnsan ətrafındakılar haqda o qədər az şey bilir ki... Onun aləmində bütün

kişilər – elə bütün qadınlar da – hər işi onları daxilən hərəkətə gətirən istək və ya həvəsə görə görürlər – başqa bir kişini, ya da başqa bir qadını təqlid edəcək qədər ağılsız olsalar belə. Əslində, şəhərdə yalnız bircə adam Banç haqqında az və ya çox dərəcədə əminliklə danışa bilər; ancaq şəhərin Bançla onun əlaqəsindən xəbəri yoxdu, çünki onlar yalnız gecələr görüşüb söhbət edirlər. O adamın soyadı Haytauerdir. İyirmi beş il bundan əvvəl nüfuzlu kilsələrdən birinin, bəlkə də, onlardan ən nüfuzlusunun keşişi olub. Bircə o bilir ki, hər şənbə günü axşam düşəndə – xəyali fit səsi eşidildikdən sonra (yaxud da Bançın iri gümüşü saatı onun eşidildiyini göstərdikdən sonra) Banç hara yollanır. Missis Bird isə – Banç onun kiçicik sarayında yaşayır – yalnız bunu bilir ki, Banç hər şənbə günü saat yeddiyə işləmiş işdən evə gəlir, yuyunur, ucuz və nimdaş diaqonal kostyumunu əyninə geyinib şam yeməyini yeyir, evin arxasındakı tövlədə, öz əliylə təmir etdiyi və damını örtdüyü tövlədə saxladığı qatırı çullayır, onun belinə minib evdən çıxır. Onun hara getdiyini isə o bilmir. Bircə keşiş Haytauer bilir ki, o, şəhərdən otuz mil aralıya yollanır, bazar gününü buradakı kənd kilsəsində xora rəhbərlik etməklə keçirir – ibadət bütün gün boyu davam edir. Təxminən gecə yarısı qatırı çullayıb, bütün gecəyə qurulmuş eyni sürətlə, yorğa qaçışla geriyə – Ceffersona qayıdır. Bazar ertəsi tezdən isə fabrikin fiti çalınanda artıq əynində təmiz köynək və kombinezon öz iş yerində – dəzgahın arxasında hazır olur. Missis Bird təkcə bunu bilir ki, hər həftənin şənbə gününün şam yeməyindən bazar ertəsinin səhər yeməyinədək onun otağı və qatırının tövləsi boş olur. Onun hara getdiyi və getdiyi yerdə nə işlə məşğul olduğu bircə Haytauerə məlumdu, çünki Banç həftədə iki-üç dəfə, gecədən xeyli keçmiş Haytauerin tək-tənha, şəhər əhlinin dediyi kimi, rüsvayçılıq içərisində yaşadığı, rənglənməmiş, darısqal, yalqız, yarıqaranlıq, kişi üfunəti verən kiçicik evində sabiq keşişi ziyarət edir. Hər ikisi – cılız, heç nəyi ilə seçilməyən, öz iş yoldaşları üçün müəmmaya çevrildiyini ağlına belə gətirməyən bir adam və öz kilsəsi tərəfindən inkar edilmiş əlli yaşlı səfil-sərgərdan burada, keşişin kabinetində oturub sakitcə söhbət edirlər.

Və budur, Bayron aşiq olur. Öz qısqanc və ciddi, eşq obyektinin cismani bakirəliyini tələb edən kənd tərbiyəsinə rəğmən aşiq olur. Bu hadisə şənbə günü günortadan sonra, o, sexdə təkbaşına qaldığı vaxt baş verir. İki mil aralıda hələ də ev yanır və sarı tüstü dumanı hələ də üfüqün başı üzərində dimdik, abidə kimi göylərə ucalır. Onlar bu dumanın ağacların üzərindən göyə ucaldığını nahar fiti çalınmamışdan qabaq, hələ evlərinə dağılmamışdan əvvəl görmüşdülər. “Hə, bu gün, yəqin, Bayron da gedər, – onlar dedilər, – yanğına tamaşa eləmək ki, pulsuzdur”.

– Böyük yanğına oxşayır, – biri dedi. – Bu yanan nə ola bilər görəsən? Orada bu boyda tüstü çıxaracaq qədər böyük bir şey olduğunu heç cür yadıma sala bilmirəm, təkcə Berdenlərin evindən savayı.

– Bəlkə də, yanan elə odu, – digəri dedi. – Əlli il bundan qabaq, bu şəhərdə hamının dediyini sözü mənim atam hələ də yaxşı xatırlayır: ona od vurmaq lazımdı, özü də insan piyiylə, daha şiddətlə alışıb-yansın deyə.

– Gizlincə gedib ona od vuran sənin o əziz atacığın olmasın? – üçüncü dedi. Hamı gülüşdü. Sonra yenidən işlərinə davam etdilər, arabir işdən ayrılıb, tüstü qalxan tərəfə baxa-baxa günorta fitinin çalınmasını gözlədilər. Bir az keçəndən sonra ağac daşıyan yük maşını ora gəldi. Şəhərin içindən keçib gələn sürücüdən o yanğını soruşdular.

– Berdenlər? – sürücü dedi. – Hə, elədi. Onların evidi yanan. Şəhərdə deyirlər ki, şerif də ora yollanıb.

– Deyəsən, Uatt Kennedinin də könlünə yanğına tamaşa eləmək düşüb, hərçənd polis nişanını da havayı yerə döşündə gəzdirmir.

– Əgər kimisə həbs eləmək niyyətindədirsə, – sürücü dedi, – şəhərin qırımından belə görünür ki, orda onun işi o qədər də çətin olmayacaq.

Nahar fiti çalındı. Hamı dağılışdı. Bayron gümüşü saatını önünə qoyub oturdu, yeməyə başladı. Saat bir tamamı göstərəndə işinə yollandı. Yumşaq olsun deyə çiyninin üstünə qalın döşəkçə qoyaraq, nəinki daşıya, hətta yerdən qaldıra biləcəyi belə güman edilməyən iri taxta şələlərini bir-bir çiyninə alıb, yorulub-usanmadan, bir ahənglə anbardan vaqona daşımağa başlayanda ətrafda heç kimsə yox idi. Növbəti şələni çiyninə alıb vaqona tərəf yolananda Lina Qrouv, üzündə çoxdan gözlədiyi görüşə, axır ki, qovuşmanın əminliyindən doğan həlim təbəssüm onun ardınca qapıdan içəri girir, artıq dodaqları aralanıb, adı dilinə gətirmək istəyir. Bayron onun hənirtisini eşidib geriyə dönür və qadının üzündəki təbəssümün bulağın gözünə daş atıldıqdan sonra əriyib yox olan dalğalar kimi öləziyib söndüyünü görür.

– Siz o deyilsiniz, – Lina öləziyib sönən təbəssümün arxasından ciddi uşaq təəccübüylə deyir.

– Elədi, – Bayron deyir. Çiynində şələ, azacıq yana dönüb susur. – Deyəsən, o deyiləm. Bəs o kimdir?

– Lukas Berç. Mənə dedilər ki ...

– Lukas Berç?

– Mənə dedilər ki, onu burda tapa bilərəm. – Səsində nəsə yumşaq bir inamsızlıq duyulur, gözünü qırpmadan ona baxır, sanki, Bayronun onu aldatmağa çalışdığını düşünür. – Mən şəhərin həndəvərinə ayaq basdığım andan hamı onu Berç yox, Banç adlandırmağa başladı. Elə bilirdim, adını səhv deyirlər. Ya da ki, onların dediyini mən səhv eşidirəm.

– Yox, səhv eşitməmisiniz, – o, cavab verir. – Özüdür ki, var: Banç. Bayron Banç. – Çiynindəki şələni yerə qoymadan ona – yançaqları basıb əzən ağırlaşmış qarına, kor-kobud, üstünü sapsarı toz basmış kişi ayaqqabılarına baxır. – Siz missis Berçsinizmi?

Qadın dərhal cavab vermir. Qapının girəcəyində dayanıb, diqqətlə, amma heç bir əndişə keçirmədən, elə həmin həlim, bir az ürkək, bir az inamsız baxışlarla ona baxır. Gözləri tamam gömgöydü. Ancaq bu gözlərə, bəlkə də, Bayronun onu aldatmağa çalışdığına inamın kölgəsi düşüb.

–Yolda mənə dedilər ki, Lukas Ceffersonda yonqar sexində işləyir. Çoxları deyirdi. Elə ki Ceffersona gəlib çıxdım, mənə bu sexin harda olduğunu söylədilər, mən də onlardan Lukas Berçi soruşanda: "Bəlkə, sənə Banç lazımdı?" – dedilər. Mən də fikirləşdim ki, yəqin, adını səhv salıblar, bu adam, çox güman ki, elə odur. Ancaq onu da dedilər ki, o adamın sifəti qarabuğdayı deyil. Bəlkə, siz deyəsiniz, buralarda Lukas Berç adında adam tanımırsınız ki?

Bayron çiynindəki taxta şələsini, sonra onların hamısını birdən qaldıra bilmək üçün səliqə ilə yerə qoyur.

– Tanımıram. Bizdə Lukas Berç adında adam yoxdur. Burda işləyənlərin hamısını yaxşı tanıyıram. Bəlkə, şəhərdə hardasa başqa yerdə işləyir? Ya da başqa sexdə.

– Burada başqa bir yonqar sexi varmı?

– Yoxdu. Taxta-şalban zavodu isə var. Özü də çoxdu.

Qadın gözünü ondan çəkmir.

– Yolda mənə dedilər ki, o, yonqar sexində işləyir.

– Mən burda eləsini tanımıram, – Bayron deyir. – Məndən başqa burada Berçə oxşar soyadında kiminsə olduğunu da xatırlamıram, mənimki isə Bançdı.

Qadın hələ də əvvəlki – gələcək üçün əndişədən daha çox, indikinə inamsızlıq duyulan baxışlarla onu süzməkdə davam edir. Sonra köks ötürür. Bu, hətta köks ötürmək də deyil, dərindən rahatca nəfəs almaqdır.

– Demək belə, – o deyir. Geriyə dönərək, yonulub ağardılmış taxtalara, səliqəylə düzülmüş tir qalaqlarına göz gəzdirir. – Bir az burda oturum, deyirəm. Yoxsa daş küçələri gəzməkdən ayaqlarım zoqquldayır. Şəhərdən bura gəlmək Alabamadan bu şəhərə gəlməkdən də ağırmış, burdan-bura ondan da betər yoruldum. – O, çox da hündür olmayan taxta qalağına tərəf gedir.

– Gözləyin bir az, – Bayron onun arxasınca tələsərək, qalın döşəkçəni çiynindən götürür. Artıq dizlərini qatlamaqda olan qadın yerində donub qalır və Bayron döşəkçəni taxta qalağının üstünə sərir. – Heç olmasa, bir az yumşaq olar.

– Çox sağ olun, – Qadın əyləşir.

– İndi o qədər də bərk olmaz, – Bayron deyir. Gümüşü saatını cibindən çıxarıb baxır, sonra qalağın o biri başında oturur. – Beş dəqiqə, demək olar ki, lap yerinə düşdü.

– Beş dəqiqəmi dincəlirsiniz? – qadın soruşur.

– Beş dəqiqədir ki, siz gəlmisiniz. Deməli, mən də o vaxtdan dincəlirəm. Şənbə günləri nahardan sonra iş vaxtıma özüm nəzarət eləyirəm, – o izah edir.

– Bəyəm bir dəqiqəlik oturanda da hər dəfə saata baxırsınız? Onlar hardan biləcəklər ki oturmusunuz, ya oturmamısınız? Bir dəqiqə az, bir dəqiqə çox – nə fərqi var ki?

– Belə başa düşürəm ki, mənə oturmağıma görə haqq ödəmirlər, – o deyir. – Deməli, siz Alabamadan gəlirsiniz?

Qadın bütün ağırlığıyla döşəkçənin üstünə çökür, Bayronun sakitcə göz qoyduğu sifətində sakit, aydın bir ifadə öz hekayəsini ona da açıb danışmağa başlayır – indi də növbə ona çatıb. Özü də onun güman etdiyindən də çox –fəsillərin bir-birini əvəzləməsinə xas dinc bir ləngərliklə dörd həftədi aralarından keçib gəldiyi, tanımadığı, bilmədiyi neçə-neçə insana danışdığı kimi, uzun danışır. Bayron isə öz növbəsində, aldadılmış və atılmış, hətta aldadıldığını belə dərk eləyə bilməmiş, heç öz soyadını Berçə dəyişməyə belə macal tapmamış bu cavan qadının tarixçəsini təsəvvüründə canlandırmağa çalışır.

–Yox, deyəsən, mən onu tanımıram, – nəhayət o deyir. – Həm də indi burda məndən başqa heç kim yoxdu. Hamı, yəqin ki, ora, yanğına baxmağa gedib. – O, ağaclardan çox-çox yüksəkdə, sakit, küləksiz havadan asılıb qalan sapsarı tüstü sütununu göstərir.

– Biz şəhərə girəndə onu gördük, – qadın deyir. – Çox böyük yanğındır.

– Axı ev də çox böyükdür. Qədimi evdir. Orada bir xanım yaşayır, tək-tənha. Elə bilirəm ki, şəhərdə bəzi adamlar “Allah özü onu cəzalandırıb” deyəcəklər. O xanım şimallıdır. Onun əcdadları Rekonstruksiya dövründə bura gəliblər – zənciləri qızışdırmaq üçün. İkisini elə buna görə öldürüblər. Deyirlər, o qadın elə indinin özündə də zəncilərlə curluq eləyir. Onlar xəstələnib-eləyəndə, ağ adamlarmış kimi yoluxmağa gedir. Yanında qulluqçu da saxlamır, zəncilərin başqalarına qulluqçuluq eləməyini istəmir. Deyirlər o, bu fikirdədir ki, zənci də ağ adama bərabərdi. Buna görə də şəhərdə onun evinə ayaq basan yoxdur. Bir nəfərdən başqa. – Qadın ona göz qoya-qoya qulaq asır. O isə indi qadına baxmır, onun baxışlarından yayınmaq istəyir. – Bəlkə də, iki... Mən belə eşitmişəm. Heç olmasa, onlar ora vaxtında çataydılar, evdəki mebeli-zadı çıxarmaqda ona kömək edə biləydilər. Bəlkə də, çatıblar.

– Kim çatıb?

– Burda iki oğlan, iki Co vardı, onlar hardasa o tərəflərdə yaşayırlar. Co Kristmasla Co Braun.

– Co Kristmas? Nə qəribə addır.

– Elə o özü də qəribədir. – O yenə də qadının maraq içərisində ona dikilmiş baxışlarından yayınmağa çalışır. – O birisi də elə onun bir tayıdır, amma bir az başqa formada. O da burda işləyirdi. Amma çıxdılar – ikisi də. Onu da deyim ki, onların burdan getməyi bizim üçün o qədər də böyük itki olmadı.

Qadın döşəkcənin üstündə oturub dinməzcə, maraq içində ona qulaq asır. Elə düşünmək olardı ki, bu gün bazar günüdür və bu cütlük bayır-bacaq paltarında kənd evinin önündə yumşaq, paxır təbəqəylə örtülmüş torpağın üstündə həsir kətildə oturublar.

– O birinin də adı Codur?

– Bəli. Co Braun. Bəlkə də, bu onun əsl adıdır. Çünki Co Braun adlı adam haqda fikirləşən kimi dərhal ağlına elə o cür – daim yerli-yersiz hırıldayan, hay-küynən danışan zəvzəyin biri gəlir. Ona görə də elə bilirəm ki, bu, onun əsl adıdır, hərçənd Co Braun əsl ad kimi həddən artıq tələm-tələsik, sadə səslənir. Ancaq elə bilirəm bu onun əsl adıdı. Çünki boşboğazlığa görə ona əmək haqqı ödəsəydilər, çoxdan bu sexin sahibi olmuşdu. Hərçənd, deyəsən, camaatın ondan xoşu gəlir. Ən azı, Kristmasla yola gedə bilir.

Qadın gözünü ondan çəkmir. Sifəti əvvəlki kimi apaydındı, amma indi çox ciddidi – baxışları çox ciddi və çox diqqətlidi.

– Onlar nə işlə məşğuldular?

– Elə bir işlə ki, məncə, onu görməməlidilər. Hər halda, onları hələ o iş üstündə yaxalamayıblar. Braun, əgər belə demək mümkündüsə, hırıldamaqdan, onu-bunu lağa qoymaqdan boş vaxt tapanda elə burda işləyirdi. Sonra Kristmas işdən çıxdı. O da onun ardınca. Onlar hardasa, bax, orda, o ev yanan yerdə yaşayırlar. Pul qazanmaq üçün nəylə məşğul olduqları barədə çox şey eşitmişəm. Ancaq, əvvəla, mənim nə işimə, kim neyləyir, özü bilər. İkincisi də, insanlar bir-biri haqqında getdikcə daha çox yalan şeylər danışırlar – əsas olan da budu. Deyəsən, heç mən özüm də onlardan geri qalan deyiləm.

Qadın gözünü ondan çəkmir. Heç gözünü də qırpmır.

– Deməli, o deyir ki, adı Braundu. – Bu, bəlkə də, sual idi, amma cavabını gözləmir. – Bəs siz onların nə işlə məşğul olduqları barədə nə eşitmisiniz?

– Camaatın adına qara yaxmaq istəməzdim. Nahaq yerə bu söhbəti açdım. Doğrudan da belədi, adam ki işdən çıxdı, dərhal onun dalınca ağızlarına gələni danışırlar.

– Axı siz nə eşitmisiniz? – qadın soruşur. O, yerində belə qurcalanmır. Səsi çox rahatdır, ancaq Bayron, hələ özü bilməsə də, artıq aşiq olub. O ona tərəf baxmasa da, bu qadının ciddi, diqqətli baxışlarını öz sifətində, dodaqlarında hiss edir.

– Buralarda danışırlar ki, guya, onlar viski satırlar. Onu, bax o, ev yanan yerdə gizlədirlər. Hələ bunu da danışırlar ki, bir dəfə şənbə günü axşam Braun şəhərdə sərxoş imiş, az qalıb ağzından nəsə qaçırsın, halbuki o şeyi danışmaq olmazmış – Kristmasla birlikdə haçansa bir gecə Memfisdəmi, yoxsa Memfisə çatmamış yoldamı, gecə qaranlığında, tapançayla nəsə eləyiblər...Yoxsa iki tapançamı olub. Ancaq Kristmas dərhal işə qarışıb, onun ağzını yumub və oradan aparıb. Bir sözlə, orada elə bir şey olub ki, Kristmas onun aləmə car çəkilməsini istəmirmiş. Elə Braun da içkili olmasaymış, bunu dilinə gətirməməli olduğunu ağlı kəsərmiş.

Mən belə eşitmişəm. Özüm orda olmamışam. – Başını qaldıranda birdən dərk edir ki, qadının baxışları ilə qarşılaşmamışdan qabaq gözlərini yerə dikib. Sanki, o – burda, bu sexdə, şənbə günü iş saatı bitdikdən sonra, təkbaşına qaldığı vaxt bir başqasına pislik etmək, ya da ona ziyan vurmaq fürsəti olmayacağına inanan bir adam – nəsə geri qaytarılması, düzəldilməsi mümkün olmayan bir şey baş verdiyini qabaqcadan hiss edir, duyur.

– O, boy-buxundan necə adamdı? – qadın soruşur.

– Kristmasmı? Deməli...

– Kristması demirəm.

– Hə-ə, Braunu deyirsən. Belə də. Ucaboy, cavan oğlandı. Qarabənizdi; qadınlara daha maraqlı görünür – həm də deyilənlərə görə onların çoxuna... Deyib-gülmək, şıltaqlıq eləmək, başqalarını lağa qoymaqdan ötrü ölür. Mənə qalsa...– Səsi birdən kəsilir. Gözünü qaldırıb onun üzünə baxmağa, qadının inadkar ayıq baxışlarına tab gətirməyə taqəti çatmır.

– Co Braun, – qadın deyir. – Onun ağzının qırağında, bax, burasında belə, ağımtıl bir çapıq yoxdu ki?

Gözlərini yuxarı qaldırmağa taqəti çatmır; taxta qalağının üstündə əyləşib, ancaq ağzından çıxanı daha geri qaytarmaq mümkün deyil və o bu dəqiqə dilini kəsib atmağa hazırdır.

3

Kabinetin pəncərəsindən küçəni yaxşı görür. Çox uzaq deyil, çünki çəmənlik ensizdi. Xırdadı, cəmi beş-altı qısaboy şam ağacı var orda. Ev də – bomboz, rənglənməmiş, sadə, birmərtəbəli, artırmalı tikili də xırdadı, qapısı da bağlıdı, ətrafını mirtalar, alteylər, bağça yasəmənləri basıb, yalnız onun küçəyə baxdığı pəncərənin önü açıqdı. Evin ətrafı o qədər basırıqdı ki, hətta küçə fənərinin işığı belə bura güclə düşür.

O pəncərədən öz abidəsi adlandırdığı lövhəni də görə bilir. Həyətin künc tərəfindəki, çox da hündür olmayan bu lövhənin üzü küçəyə baxır. Uzunsov, eni yarım, hündürlüyü bir metr olan bu taxta parçasının üzü küçədən ötənlərə, arxası isə ona tərəfdir. Ancaq o lövhədə yazılanları oxumağın onun üçün heç bir əhəmiyyəti yoxdur, çünki o lövhəni çəkicin, mişarın köməyi ilə özü düzəldib – o yazıları onun üstünə səliqəylə, ciddi səylə özü yazıb – çörək, odun və paltar almaq üçün ona pul lazım olduğunu başa düşəndən sonra. Seminariyanı atanda atasındanqalma kapitaldan bir az gəliri vardı, amma kilsəyə keşiş təyin ediləndən sonra öz rüblük kapital çeklərini dərhal Memfisdəki qızlar üçün islah düşərgəsinə köçürməyə başladı. Sonra kilsəni əlindən aldılar, Kilsəni aldılar və onun üçün həyatında ən acı şey – ən ağır itkidən, ən böyük rüsvayçılıqdan da acı şey – bundan sonra islah düşərgəsinə əvvəlki məbləğin yalnız yarısını göndərə biləcəyini xəbər verən məktub oldu.

O öz gəlirinin yarısını hələ də onlara göndərirdi, halbuki bu gəlir bütövlükdə öz dolanışığına güclə bəs edərdi. “Yaxşı ki, əlimdən nəsə gəlir”, – o vaxt öz-özünə dedi. Lövhə də elə o vaxtdan qalıb – onu səliqəylə özü düzəltdi, üstünü özü yazdı, hərflər gecələr küçə fənərinin işığında yeni il axşamlarının yolka bəzəkləri kimi parıltı saçsın deyə onları yazarkən rəngə bulaşdırdığı şüşə qırıntılarından istifadə etdi:

MÜQƏDDƏS GEYL HAYTAUER, İ. D.

Rəsm dərsləri
Yeni il və ad günü açıqcalarının hazırlanması
Fotoşəkillərin aşkarlanması

Ancaq bütün bunlar neçə il bundan qabaq olub və indi onun heç bir tələbəsi yoxdu, yeni il açıqcaları və foto plastinkaları çox az qalıb, rəng və şüşə qırıqları artıq solmuş hərflərdən qopub düşüb. Düzdür, onları hələ də oxumaq mümkündü, hərçənd Haytauerin özü kimi şəhər sakinlərinin əksəriyyətinin buna heç bir ehtiyacı yoxdu. Yalnız çox nadir hallarda öz ağ libaslı körpələrilə buradan keçən zənci dayə o lövhənin önündə ayaq saxlayıb az savadlı, boş-bikar adamlara xas intonasiya ilə onu ucadan, mənasız və lüzumsuz bir şey kimi höccələyər; ya da bu sakit, kimsəsiz, daş döşənməmiş küçəyə təsadüfən yolu düşən gəlmə adam onu oxumaq üçün burada ayaq saxlayar, demək olar ki, yaşıllıq içərisində itib-batmış bomboz, balaca evə qəribə bir maraq içində nəzər salıb yoluna davam edər, sonra da yerli tanışlarının biri ilə söhbət zamanı o lövhəni xatırlaya bilərdi. “Həə, bildim, – tanışı deyərdi. – Haytaueri deyirsən. O, orda tək yaşayır. Buraya prosviterian kilsəsinin keşişi kimi gəlmişdi, arvadı onu pis günə qoydu. Gizlincə Memfisə əkilib, orda kefi istəyən kimi əylənərmiş. Bu hadisə iyirmi il bundan qabaq olub, onda onlar təzəcə köçmüşdülər. Bəziləri deyirdi ki, o özü bunu bilirmiş. Guya, onu təmin edə bilmirmiş, yaxud da təmin etmək istəmirmiş, amma özü bunu bilirmiş. Nəhayət, bir şənbə gecəsi onu Memfisdə – fahişəxanadamı, yoxsa hardasamı öldürdülər. Bütün qəzetlər ondan yazdı. Kilsədən istefa verməli oldu, amma nədənsə Ceffersondan getmək istəmədi. Elə öz xeyri, şəhərin, kilsənin xeyri üçün onu burdan çıxıb getməyə məcbur etməyə çalışdılar. Bilirsən də, belə şeylər kilsə üçün çox ağırdır. Adamlar bu şəhərə gəlir, belə şeylər barədə eşidir, üstəlik o da köçüb getmək istəmir. Heç yerə. O vaxtdan orda tək-tənha yaşayır, o zaman o küçə şəhərin mərkəzi küçəsiydi. Yaxşı ki, indi elə deyil. Şükür Allaha. Düzdü, indi onun heç kimə heç bir ziyanı yoxdu və elə bilirəm ki, camaatın çoxu onu tamam unudub. Ev işlərini də özü görür. Son iyirmi beş ildə çətin ki, kimsə o qapıdan içəri girmiş olsun. Heç bilmirik o burda niyə qalıb. Gün əyiləndə, yaxud axşamlar ordan keçsən, hökmən onu pəncərənin qabağında oturmuş görərsən.

Eləcə oturub qalır. Yoxsa onu, ümumiyyətlə, görmək mümkün deyil, demirəm bəlkə, təsadüfən bağçada işləyən görəsən".

Buna görə də özü düzəltdiyi, üstünü özü yazdığı o lövhənin nəinki şəhər, heç onun özü üçün də elə bir əhəmiyyəti yoxdur; o artıq heç onu bir nişanə, bir ismarıc kimi də qavraya bilmir. Axşamçağı gün batanda keçib öz kabinetindəki pəncərənin önündə oturmayanacan heç o lövhənin mövcudluğunu da xatırlamır. Orda oturub onu xatırlayanda da bu lövhə onun üçün çəmənliyin o başında, küçə tərəfdə çox da hündür olmayan, heç bir əhəmiyyət kəsb etməyən adi, uzunsov bir əşyadan başqa bir şey deyil – bəlkə də, özünün köməyi və yaxud maneçiliyi olmadan bitib böyüyən kollar, alçaqboy, şax-şəvəlli ağcaqayınlar kimi, o da faciəvi, izi itməz torpağın bir törəməsidi. O, artıq heç ona tərəf baxmır da; əslində burda oturub gecə qaranlığının, o gecə anının haçan düşəcəyini gözləyərkən, budaqları arasından küçəyə göz qoyduğu ağacları da görmür. Arxa tərəfdə – evin, kabinetin içində artıq zülmət çöküb, o isə göy üzündə son işartının haçan sönəcəyi, gecənin haçan düşəcəyi anı gözləyir – gündüzün doyurduğu çayır, yarpaq indi tamam zəifləmiş, öləzimiş işıqda zorla nəfəs ala-ala o sakit, dinc işığı inadla yer üzərində saxlamağa çalışır; hərçənd gecə artıq çoxdan düşüb. *İndi az qalıb*, düşünür, *lap az* Hətta öz-özünə olsa da demir: "Qürur və şərəfdən, həyatdan hələ nəsə bir şey qalıb".

Yeddi il bundan əvvəl, Bayron Banç Ceffersona gəlib üstünə: *Geyl Haytauter, İ. D. Rəsm dərsləri. Yeni il açıqcaları. Fotoşəkillərin aşkarlanması* yazılmış həmin kiçik lövhəni ilk dəfə görəndə fikirləşmişdi: "İ. D. Görəsən bu İ. D. nə deməkdir" və bu haqda soruşanda ona demişdilər ki, İmansız Divanə. Geyl Haytauer – İmansız Divanə, ən azı, ceffersonlular üçün, ona dedilər. Sonra da Haytauerin digər prixodlardan[1] imtina edərək, seminariyadan birbaş Ceffersona gəldiyini, buraya göndərilmək üçün bütün əlaqələrini işə saldığını danışdılar. Cavan arvadıyla bir yerdə ilk dəfə Ceffersona qədəm qoyanda, elə vaqondan düşüb ayağını yerə basarkən qoca kişilərə və qarılara – kiləsinin bel sütunlarına xeyli həyəcanlanmış halda, lap əvvəldən, hələ keşiş olmağa qərar verdiyi vaxtdan nə üçün məhz Ceffersonu seçdiyini, buraya düşmək üçün haralara məktublar yazdığını, insanların zəhləsini tökdüyünü, hansı əlaqələrini işə saldığını necə böyük şövqlə anlatdığını, izah etdiyini söylədilər. O vaxt yerli adamlar onun səsində sərfəli sövdələşmədən sonra dəllal sevincinə bənzər bir şey hiss etmişdilər. Yəqin, bunu ağsaqqallar da duymuşdular. Çünki onlar onun dediklərini somsoyuq, heyrət içində, inamsız qarşıladılar, elə bil, ona bu kilsə, bu kilsəni təşkil edən və onun qulluq etməli olduğu bu adamlar yox, yaşayış yeri kimi məhz bu şəhərin özü lazım idi. Sanki, insanlar – canlı insanlar və bu insanların onu istəyib-istəmədikləri heç onun vecinə də deyildi. Bir də o hələ çox cavan idi; yaşlılar ciddi kilsə işləri barədə, öz kilsələrinin və şəxsən onun öz vəzifələri barədə danışaraq,

[1] Prixod – xristianlarda aşağı kilsə təşkilatı və bu təşkilat üzvlərinin yaşadığı yer, məhəllə

onun bu sevincini, həyəcanını soyutmağa çalışdılar. Şəhər adamları Bayrona danışdılar ki, hətta yarım ildən sonra da cavan keşiş hələ də həyəcanlıydı, hələ də uzun-uzadı – ta kələfin ucunu itirənəcən Vətəndaş müharibəsindən, o müharibədə öldürülən süvari əsgər babasından, Ceffersonda general Qrantın yanan anbarlarından odlu-alovlu bir dillə bəhs edirdi. Bayrona dedilər ki, o, kafedrada da beləydi, oradan moizə oxuyanda da bu cür coşub özünü unudur, dini anlaşılmaz bir yuxuya çevirirdi. Bu, qorxulu, qarabasmalı yuxuya yox, nəsə, Müqəddəs kitabdakı sözdən də sürətlə yayılan bir şeyə – bir növ, yerə enməyə ehtiyac duymayan qasırğaya bənzəyirdi. Qoca kişilərin, qarıların isə bundan xoşu gəlmirdi.

Elə bil, o, kafedrada da dini döyüş meydanında at səyirdən süvari dəstəsindən, at belində hücuma keçərkən vurulan babasından ayıra bilmirdi. Yəqin ki, şəxsi həyatında, öz evində də beləydi, onları heç nədən ayıra bilmirdi. Bəlkə də, heç buna can atmırdı da, Bayron düşündü, fikirləşdi ki, sahib olduğu qadının başına bu cür oyun açmaq kişilərə xas olan şeydir, buna görə də qadınlar güclü olmağa məcburdurlar, kişilərlə törətdikləri yaxud kişilər üçün qurşandıqları pis əməllərə görə onları günahlandırmaq olmaz, zira Allah özü yaxşı görür ki, birinin övrəti olmaq nə qədər çətin işdir. Ona danışdılar ki, keşişin arvadı boydan balaca, üzdən sakit bir qız idi və əvvəlcə şəhərə elə gəldi ki, o, dilsiz-ağızsızın biridir. Ancaq şəhərdə danışırdılar ki, əgər Haytauer bütün ömrü boyu yaşadığı o yeganə gündən – babasının at belində hücuma keçərkən vurulduğu gündən otuz il sonra doğulan adam deyil, müstəqil, heç nədən asılı olmayan biri olsaydı – keşiş də məhz belə olmalıdır – o qadının başına heç nə gəlməzdi. Ancaq Haytauer belə adam deyildi və qonşular onun arvadının prixod evində gündüzlər, ya da gecədən xeyli keçmiş tez-tez ağladığını eşidirdilər və onu da başa düşürdülər ki, ər onun dərdinə əlac eləməyi bacarmır, çünki dərdin nə olduğunu bilmir. Bəzən elə olurdu ki, bu qadın öz ərinin qulluq etdiyi kilsəyə – hətta bazar günləri belə – gəlmirdi, ibadətə yığışan camaat da ərin üzünə baxır və mat-məəttəl qalırdı ki, bu adam əl-qolunu ata-ata kafedrada ağzından od püskürəndə öz arvadının burada olmadığını görür, ya yox; heç olmasa, ümumiyyətlə, arvadı olduğunu xatırlayır, ya yox və moizə etdiyi ehkamı döyüş meydanında urrayla hücuma keçən süvari dəstəsi, rəşadət və məğlubiyyətlə əməlli-başlı qarışıq saldığını – küçədə onlara döyüş meydanında urrayla hücuma keçən süvari dəstəsindən söz açarkən, onu da eynilə günahların bağışlanmasıyla, döyüş mələklərinin xoruyla bir-birinə qarışdırırdı – hiss eləyir, ya yox və əlbəttə, qocalar – ağsaqqallar və ağbirçəklər axırda bu qənaətə gəldilər ki, onun Allahın evində, Allahın günündə oxuduğu bu moizələr, əslində, küfr kimi bir şeydi.

Bayrona danışdılar ki, bir il Ceffersonda yaşadıqdan sonra o qadının sifətinə somsoyuq buz kimi bir ifadə çökdü; bir dəfə kilsə əhli onların evini ziyarət edəndə Haytauer vurnuxa-vurnuxa, pencəksiz, əynində yaxalıqsız köynək onları tək qarşıladı və ilk dəqiqələrdə müsafirlərə elə gəldi ki, o, ümumiyyətlə, onların nə üçün gəldiklərini, ondan nə istədiklərini anlaya bilmir. Sonra o,

gələnləri içəri dəvət etdi, özü isə üzr istəyib harasa yox oldu. Əyinlərinə bazar gününə uyğun təzə libaslar geyinmiş kilsə əhli bir-birinin üzünə, otağa baxa-baxa orada oturub onu gözləyəndə nə qədər qulaq kəsilsələr də, heç nə eşitmədilər, evdən heç bir səs-səmir gəlmirdi. Sonra o, geyinmiş, yaxalığını bağlamış halda geri qayıdıb kilsə işləri, xəstələr barədə söhbət açanda onlar onun suallarını təmkinlə, can-başla cavablandırsalar da, qulaqları hələ də səsdəydi, bəlkə də, xəlvətcə içəriyə göz qoyub, artıq özlərinə məlum olan şeyin ona məlum olub-olmadığını müəyyən etməyə çalışırdılar.

Qadınlar bir daha onun evinə ayaq basmadılar. Bir müddət keçəndən sonra onun arvadıyla heç küçədə də rastlaşmadılar. O isə özünü elə aparırdı ki, sanki, heç nə olmamışdı. Sonra arvadı bir günlüyə, iki günlüyə harasa yox olmağa başladı; adamlar onun səhərlər qatara mindiyini görmüşdülər, sifəti tədricən arıqlayıb sivriləşmişdi, elə bil, heç vaxt doyunca yeməmişdi, baxışları korşalmışdı, sanki, baxdığı şeyi görə bilmirdi. O isə hər dəfə arvadının haradasa ştatın cənubunda yaşayan qohumunu yoluxmağa getdiyini söyləyirdi. Amma bir gün işin üstü açıldı: bir dəfə yenə də arvadı şəhərdə olmayanda Memfisə bazarlıq etməyə gedən ceffersonlu bir qadın onun tələm-tələsik mehmanxanaya girdiyini gördü. İş elə gətirdi ki, həmin qadın elə şənbə günü də evə qayıtdı, gördükləri barədə hamıya danışdı. Sabahı gün isə Haytauer yenə kafedraya çıxdı, yenə də dinlə döyüşən süvari dəstəsi bir-birinə qarışdı; arvadı isə bazar ertəsi geri qayıtdı və növbəti bazar günü – son altı və ya yeddi ay ərzində ilk dəfə – yenə kilsəyə gəlib, hamıdan arxada ayrıca oturdu. O gündən hər bazar günü kilsəyə gəlməyə başladı. Sonra yenə çıxıb getdi, amma bu dəfə həftənin ortasında (iyul ayında, isti havada); Haytauer yenə də dedi ki, arvadı kəndə qohumlarıgilə gedib, orada havalar sərindir; yaşlılar – ağsaqqallar və ağbirçəklər yenə də mat-məəttəl onun üzünə baxıb anlaya bilmədilər ki, bu adam nə dediyinə özü inanır, yoxsa yox, cavanlar isə arxasınca qeybət qırmağa başladılar.

Ancaq onlar da bu adamın öz danışdıqlarına özünün inanıb-inanmadığını, dini mövzularla baba rəvayətini – at belində hücuma keçərkən vurulan baba hekayətini bir-birinə qarışdırarkən bundan əzab çəkib-çəkmədiyini dəqiq deyə bilməzdilər; sanki, onun rişəsini təşkil edən baba toxumu da həmin gecə həmin atın belində olmuş, o da o gecə öldürülmüş, zaman əbədi olaraq o toxum üçün dayanmış və o vaxtdan bəri heç nə baş verməmiş, hətta o özü belə əmələ gəlməmişdi.

Arvadı bazar günündən əvvəl geri qayıtdı. Bərk istiydi, qocalar haçansa belə bir isti olduğunu xatırlamadıqlarını deyirdilər. Bazar günü o qadın kilsəyə gəldi, arxa skamyada təkcə oturdu. Moizənin ortasında yerindən sıçrayıb zingildəməyə, ərinin artıq susduğu, bir az qabağa əyilərək əlləri göydə donub qaldığı kafedraya tərəf nə isə qışqırmağa, yumruqları ilə kafedranı hədələməyə başladı. Yaxınlıqda oturanlar onu tutub saxlamağa çalışsalar da o, var gücü ilə onlara müqavimət göstərirdi, – Bayrona dedilər, – artıq yerindən sıçrayıb ortalığa atılmışdı və

hələ də çığıra-çığıra kafedranı hədələyirdi, əri isə orada bir az qabağa əyilmiş halda, əlləri göydə, at dırnaqlarının gurultuyla səyridiyi o alleqorik dövrün qəflətən kəsildiyi anda sifəti əyilib eybəcərləşmiş halda yerində donub qalmışdı. Bilinmirdi ki, kimi – ərinimi, yoxsa Allahımı hədələyir. Sonra ər kafedradan düşdü, onun yanına gəldi, arvad bir az sakitləşdi, ər onu küçəyə çıxardı və baş keşiş orqançıya çalmağı əmr edənəcən bütün başlar dönüb onların arxasınca baxdı. Günün ikinci yarısında ağsaqqallar bağlı qapı arxasında bir yerə toplaşdılar. Orada nə danışıldı, heç kimin xəbəri olmadı, bircə onu gördülər ki, Haytauer də geri qayıdan kimi iclas otağına girdi və o da qapını öz arxasınca bağladı.

Ancaq o otaqda nə baş verdi, heç kim bilmədi. Bircə onu bildilər ki, kilsə onun arvadını müalicəxanaya – sanatoriyaya göndərmək üçün pul yığdı, Haytauer də onu aparıb ora qoydu və qayıdandan sonra bazar günü yenə də həmişəki kimi kilsəyə gəlib moizə oxumağa başladı. Qadınlar, qonşular – hətta neçə ay idi keşişin evinə ayaq basmayanlar belə – onun halına acıyır, ona yemək-içmək aparır və bir-birlərinə, öz ərlərinə bu adamın evində necə bir qarmaqarışıqlıq hökm sürdüyündən, onun, sən demə, heyvan kimi, haçan istədi və əlinə nə düşdü yediyindən danışırdılar. O, həftədə iki dəfə sanatoriyaya arvadını yoluxmağa gedir, ancaq elə həmin günün sabahı da geri qayıdırdı, bazar günləri isə yenə də heç nə olmayıbmış kimi kafedraya çıxırdı. Adamlar həm maraq xətrinə, həm də halına acıdıqları üçün ondan tez-tez arvadının səhhətini soruşurdular, o da buna görə onlara öz təşəkkürünü bildirirdi. Bazar günü isə yenə də yuxarıda – kafedrada əl-qolunu ata-ata coşub-daşır, həyəcanlı səsində xəyali Allah və nicat yolu, döyüşdə çarpışan süvari dəstəsi və öldürülən baba gur-gur guruldayır, aşağıda isə ağsaqqallar, kilsə mənsubları çaşqınlıq və təhqir içində oturub ona baxırdılar. Payızda arvadı evinə qayıtdı. Sanki, xeyli yaxşılaşmışdı. Kökəlmişdi. Ancaq onda baş verən əsas dəyişiklik bu deyildi. Bəlkə də, ondaydı ki, o təmizlənmiş, arınmış, ən azı, oyanmış kimi görünürdü. Bir sözlə, xanımların həmişə onu görmək istədikləri kimi, onların əqidəsincə keşiş arvadı necə olmalıydısa, elə olmuşdu. O, indi müntəzəm olaraq kilsəyə gəlir, ibadət məclislərində iştirak edirdi, xanımlar onun, o da onların evində olurdu; hətta xanımlar ev işlərini necə aparmağı, necə geyinməyi, ərinə hansı xörəkləri hazırlamağı ona öz evində öyrədəndə belə sakitcə, lal-dinməz oturub onlara qulaq asırdı.

Demək olar ki, onlar bu qadını bağışlamışdılar. Heç bir cinayətin, yaxud müəyyən bir hərəkətin adını belə dillərinə gətirmir, ona heç bir cəza kəsmirdilər. Amma şəhər bu xanımların o qadının son mənzili Memfis olan sirli səfərlərini, ora nə məqsədlə getdiyini – heç kim bunu sözlə ifadə etməsə, dilə gətirməsə də hamı bu barədə eyni fikirdəydi – unutduqlarına inanmırdı; zira şəhər belə hesab edirdi ki, bu mömin və əməlisaleh qadınlar bağışlamağın – bu şirin vicdan çərəzinin dadı, ətri qaçmasın deyə yaxşını da, pisi də belə asanlıqla unutmurlar. Zira şəhər bu xanımların həqiqəti bildiyinə inanırdı, çünki əmin idi ki, pis şeylər yalnız pis qadınları yolundan

azdırır, ona görə də onlar heç bir şübhə doğurmamaq üçün vaxtlarının bir qismini buna sərf etməyə məcburdurlar. Amma onlar, yəni pis şeylər yaxşı qadını yolundan azdıra bilməz; əgər o, yaxşıdırsa, deməli, nə özünün, nə də başqasının yaxşılığına heç bir ehtiyacı yoxdur, çünki günahın iyini duymaq üçün onun həddən artıq vaxtı və zamanı var. Bax, elə buna görə də şəhər əhli belə hesab edirdi ki, yaxşılıq, xeyirxahlıq hər dəqiqə onun ağlını başından çıxara bilər və o bunu şər kimi qəbul edər, şər isə onu heç vaxt öz yolundan azdıra bilməz. Bir sözlə, dördmü, yoxsa beşmi aydan sonra arvad yenə də harasa yox olmağa başlayanda, ər isə yenə də onun qohumlarını yoluxmağa getdiyini deyəndə, şəhərdə bu qərara gəldilər ki, bu dəfə o özü də həqiqəti yaxşı bilir. Hər halda, qadın geri qayıtdı, o isə yenə də heç nə olmayıbmış kimi bazar günləri moizə oxumağına, dindarlara və xəstələrə baş çəkməyinə, öz kilsəsi barədə danışmağına davam etdi. Amma arvadı bir daha kilsəyə gəlmədi, xanımlar da onu ziyarət etmədilər və ümumiyyətlə, keşişin evində görünmədilər. Hətta hər iki tərəfdəki qonşuları belə o qadını bir daha qapıda-bacada görmədilər. Tezliklə elə oldu ki, sanki, bu qadın, ümumiyyətlə, yox imiş, sanki, hamı sözü bir yerə qoymuşdu: heç vaxt burda belə bir adam olmayıb və onların keşişi evli deyil. O isə hər bazar günü kilsədə onlara moizə oxuyur və artıq arvadının qohumlarıgilə getdiyini demirdi. Bəlkə də, o buna sevinir də, – şəhər fikirləşdi. Bəlkə də, sevinir ki, bir daha yalan danışmalı olmayacaq.

Buna görə də o cümə günü – bəlkə də elə həmin gün, şənbə günü – bu qadın qatara minəndə heç kim onu görmədi. Onlar yalnız bazar günü səhər qəzetini gördülər; orada yazılmışdı ki, o, Memfisdəki mehmanxananın pəncərəsindən özünü yerə atıb, ya da yıxılıb və ölümcül əzilib. Otaqda onunla bir kişi olub. Kişi sərxoş imiş. Onlar mehmanxanada başqa ad altında ər-arvad kimi qeydə alınıblarmış. Qadın əsl adını bir kağız parçasına yazıb, sonra da onu cırıb zibil yeşiyinə atıb – polislər də onu orda tapıblar. Kağızda nə yazıldığını qəzet məqaləsində də vermişdilər: pastor Geyl Haytauerin arvadı, Cefferson, Missisipi. Qəzet onu da yazmışdı ki, redaksiyadan gecə saat ikidə qadının ərinə zəng vurulub, ər isə heç bir sözünün olmadığını bildirib. Bazar günü səhər tezdən, adamlar kilsəyə yığışanda isə həyət müxbirlərlə doluydu, onlar kilsənin, keşişin evinin şəklini çəkirdilər. Sonra Haytauer gəldi. Müxbirlər onu saxlamağa çalışdılar, amma o onların arasından keçib, birbaş kilsəyə girdi və kafedraya qalxdı. Qoca xanımlar və qoca kişilərdən bəziləri artıq içəridəydi, onlar Memfis əhvalatından daha çox müxbirlərin burda olmasından özlərini təhqir olunmuş hesab edərək bərk qəzəblənmişdilər. Ancaq Haytauer içəri girib, onların gözü önündə kafedraya qalxanda bu adamlar müxbirləri belə unutdular. Əvvəlcə xanımlar yerlərindən qalxıb kilsədən çıxdılar. Sonra kişilər də getdilər, içəridə bircə keşiş (bir az qabağa əyilmiş, açıq Bibliyanı əlində tutmuş halda stola dirsəklənmişdi, amma başını belə aşağı salmamışdı) və bir də arxa skamyada cərgə ilə əyləşmiş

memfisli müxbirlər (onlar onun ardınca içəri girmişdilər) qaldı. Deyirlər, o, heç dindarların otaqdan necə çıxdıqlarına da baxmadı ümumiyyətlə, heç nəyə baxmadı.

Bayrona danışdılar: nəhayət, keşiş ehmalca Bibliyanı örtüb, boş salona düşdü, buranı tərk edən dindarlar kimi, o da müxbirlərə tərəf bir dəfə də olsun baxmadan sakitcə oturacaqların arası ilə qapıya sarı yollandı, bayıra çıxdı. Orada fotoaparatlarını quraşdırıb, başlarını qara örtüyün altında gizlədən fotoqraflar onu gözləyirdilər. Keşiş, yəqin ki, bunu qabaqcadan bilirdi. Çünki o, kilsədən çıxarkən üzünü açıq zəbur kitabı ilə örtmüşdü. Amma, görünür, fotoqraflar da bunu qabaqcadan hiss etmişdilər. Çünki onu aldada bildilər. O, hələ təcrübəsizdi, onu asanca aldatmaq olardı, – Bayrona izah etdilər. Fotoqraflardan biri aparatını yan tərəfdə quraşdırmışdı və keşiş onu görmədi, ya da ki, çox gec gördü. O, sifətini yalnız qabaqda dayananlardan gizlədə bilmişdi, ona görə də sabahkı qəzetdə çıxan şəkli yandan çəkilmişdi: keşiş yeriyə-yeriyə kitabla sifətini örtməyə çalışırdı. Kitabın arxasından görünən ağzı isə, sanki, gülümsəyirmiş kimi yanlara dartılmışdı. Amma dodaqları möhkəm sıxılmışdı və sifəti qədim qravüralardakı şeytan sifətini xatırladırdı. Səhəri gün o, arvadının meyitini gətirib dəfn etdi. Şəhər dəfnə yığışmışdı. Amma dəfn duası oxunmadı. O, hətta cənazəni kilsəyə də aparmadı. Birbaşa qəbiristanlığa gətirib özü dua oxumaq istəyirdi ki, başqa bir keşiş irəli çıxıb Bibliyanı onun əlindən aldı. O və digərləri qəbiristanlıqdan çıxıb gedəndə, adamların çoxu, xüsusilə də daha cavanlar orda qalıb hələ də qəbirə baxırdılar.

Sonra hətta qonşu prixodlara da məlum oldu ki, kilsə ondan çıxıb getməsini xahiş edib, amma o, boyun qaçırıb. Növbəti bazar günü digər prixodlardan da xeyli adam böyük maraq içərisində kilsəyə toplaşdı. O yenə də gəldi, içəri girdi. Bütün kilsə mənsubları bir nəfər kimi yerindən qalxıb bayıra çıxdılar, keşişi, sanki, tamaşaya gəlmiş yad adamlarla tək qoydular. O isə onlara, həmişəki kimi, qızğın bir ehtirasla moizə oxudu; özününkülər bunu küfr hesab edirdilər, bunlar – gəlmələr isə onu tam bir dəlilik kimi qəbul etdilər.

O istefa vermək istəmirdi. Ağsaqqallar kilsə şurasından onun geri çağırılmasını xahiş etdilər. Ancaq qəzetdəki məqalə, fotoşəkillər və sairdən sonra heç bir şəhər onu qəbul etməzdi. Şəxsən onun özünə qarşı heç kimin heç bir iddiası yoxdu – hamı deyirdi. O, sadəcə, anadan bəxtsiz doğulub. Kilsəyə isə daha heç kim ayaq basmırdı, hətta ilk vaxtlar digər prixodlardan yalnız maraq naminə bura gələn adamlar belə: indi onun oxuduğu moizə heç tamaşa da deyildi, yalnız və yalnız həqarət idi. Bununla belə, o, hər bazar günü düz vaxtında kilsəyə gəlir, kafedraya qalxırdı, ancaq kilsəyə toplaşan dindarlar onu görən kimi dərhal ayağa qalxıb ordan çıxırdılar, yalnız küçədə veyillənən avaralar, işsiz-gücsüz adamlar onun bomboş kilsədə necə moizə oxuduğuna və dua etdiyinə qulaq asırdılar. Bir bazar günü isə kilsəyə gələndə qapının bağlı olduğunu gördü və hamı onun kilsə qapısını bir neçə dəfə dartışdırandan sonra necə sakitləşdiyinin, amma yenə də başını belə aşağı salmadan orda – küçə boyu düzülmüş, ömründə

kilsəyə ayaq basmamış kişilərin və nə baş verdiyini anlamayan, amma nəsə hiss edərək, ayaq saxlayan oğlan uşaqlarının baxışları altında kilidli qapının ağzında hərəkətsiz qaldığının şahidi oldular. Səhəri gün şəhər onun kilsə ağsaqqallarının yanına gələrək kilsənin mübarək adı naminə kafedradan imtina etdiyini eşitdi.

Şəhər sevinirdi, amma həm də onun halına acıyırdı: insanlar bəzən zorla öz iradələrinə tabe etdirdikləri adamın da halına acıyırlar. Fikirləşdilər ki, bundan sonra o daha bu şəhərdə qalmayacaq, hökmən gedəcək və kilsə onun bu şəhərdən çıxıb getməsi, başqa bir yerdə məskunlaşa bilməsi üçün pul topladı. O isə şəhəri tərk etmək istəmədi. Bayrona danışdılar ki, onun şəhərdən çıxıb getmək əvəzinə o vaxtlar heç də indiki qədər ucqar olmayan bir küçədə, bu günəcən içində yaşadığı həmin o balaca evi satın aldığını eşidəndə şəhər əhli təkcə özünü təhqir olunmuş hesab etmədi, həm də heyrətə gəldi; ağsaqqallar yenidən şura iclası keçirdilər, pul ona şəhərdən çıxıb getmək üçün verilmişdi, dedilər; o isə onu başqa məqsədə sərf edib, deməli, bu pul saxta yolla əldə edilmiş sayılmalıdır. Evinə gedib ona elə belə də dedilər. Keşiş isə əvvəlcə onlardan üzr istəyib; sonra da evə girib, ona verilən pulun hamısını dəqiq, qəpiyinəcən və elə həmin əskinaslarda geri gətirib, israrla onu geri götürmələrini xahiş edib. Amma onlar götürməyiblər, o da evi almaq üçün pulu hardan tapdığını onlara deməyi lazım bilməyib. Buna görə də səhəri gün, Bayrona dedikləri kimi, bəziləri danışmağa başlayıblar ki, guya o, arvadının həyatını sığortaladıb, sonra da qatil tutub. Amma hamı – bu sözü deyən də, təkrar edən də, ona qulaq asan da yaxşı başa düşürdü ki, bu, doğru deyil.

O isə şəhərdən getmək istəmədi. Günlərin bir günü şəhər əhli onun özü düzəltdiyi, üstünü özü yazdığı və küçəyə vurduğu o balaca lövhəni görəndə başa düşdü ki, o həqiqətən burda qalmaq fikrindədir. O, həmişəki kimi yanında bir zənci, aşpaz qadın saxlayırdı. Bu qadın lap əvvəldən onun yanında işləyirdi. Və məhz arvadı öləndə, Bayrona danışdılar, hamı birdən zənci aşpazın qadın olduğunun və bütün günü evdə onunla birlikdə tək qaldığının fərqinə vardı. Buna görə də arvadının meyiti o rüsvayçı qəbirdə hələ soyumamış, şayiələr yayılmağa başladı. Guya, o öz arvadını qəsdən pozub, qəsdən intihar həddinə çatdırıb, çünki anormal ərdi, anormal kişidi və bütün bunların hamısına bais o zənci qadındı. Bundan artığı isə lazım da deyildi; bircə elə bu çatmırdı. Bayron dinməzcə qulaq asır və öz-özünə fikirləşirdi ki, ümumiyyətlə, insanlar hər yerdə eyni cürdür, ancaq kiçik şəhərdə – şər iş görməyin daha çətin, onu gizli tutmaq imkanının isə çox az olduğu bir yerdə – görünür, adamlar başqası haqqında daha çox şər şeylər uydura bilirlər. Çünki bu bəs elədi: mənasız bir fikir, ağızdan-ağıza düşən boş bir söz öz işini gördü. Aşpaz qadın o yerdən imtina etdi. Şayiə gəzirdi ki, guya hansısa səliqəsiz maska taxmış bir qrup adam bir gecə keşişin evinə gedib ondan bu qadını işdən qovmağı tələb edib. Sonra da belə bir şayiə yayıldı ki, guya, aşpaz qadın səhəri gün özü işdən çıxdığını deyib. Guya, ev sahibi ondan Allaha və təbiətə zidd bir iş tutmağı xahiş eləyib. Və danışırdılar ki, guya, maskalı adamlar o

qadının özünü qoxudublar, deyiblər işdən çıxsın, çünki o, necə deyərlər, bir qədər açıq-qara rəngli olduğuna görə Allaha və təbiətə zidd hesab etdiyi hansısa bir işi tutmuş olsaydı, şəhərdə buna, necə deyərlər, etiraz edəcək bir neçə adam tapıla bilərdi; zira, bəzi nisbətən cavan adamların dediyi kimi, əgər hətta qara dərili qadın belə o işi Allaha və təbiətə zidd kimi qəbul edirsə, deməli, o həqiqətən də çox iyrənc iş imiş. Hər halda, keşiş ondan sonra başqa bir aşpaz tapa bilmədi, ya da tapmaq istəmədi. Bəlkə də, elə həmin gecə həmin maskalı adamlar şəhərdəki digər zənci qadınları da qorxutmuşdular. O öz xörəyini özü bişirməli oldu; amma günlərin bir günü belə bir xəbər yayıldı ki, o özünə təzə bir aşpaz – zənci kişi tutub. Aydındır ki, bununla da öz axırına çıxdı. Çünki elə həmin axşam hansısa adamlar – amma bu dəfə maskasız – həmin zəncini evdən çıxarıb o ki var əzişdirdilər. Haytauer isə səhər tezdən yuxudan ayılanda, kabinetinin pəncərəsinin qırılmış olduğunu gördü, döşəmədə üstünə kağız parçası bağlanmış bir daş vardı, K. K. K. imzalı o kağız parçasında ondan gün batana qədər şəhərdən rədd olması tələb edilirdi. Amma o getmədi və səhəri gün onu şəhərdən bir mil aralıda, meşədə tapdılar. Onu ağaca sarımış, huşunu itirənəcən möhkəm döymüşdülər.

Bunu kimin elədiyini demək istəmədi. Şəhər başa düşürdü ki, belə olmaz; bir neçə adam onun yanına gəldi, yenə onu inandırmağa çalışdılar ki, şəhərdən çıxıb getsin, bu elə onun öz xeyrinə olar, növbəti dəfə onu öldürə bilərlər. Ancaq o, yenə imtina elədi. Döyüldüyü barədə isə heç danışmaq da istəmədi – hətta ona bu adamları məhkəməyə verməyi təklif edəndə belə. Nə onu istədi, nə də bunu. Nə danışmaq istədi, nə də çıxıb getmək. Və birdən tufan yatdı. Elə bil, şəhər, nəhayət, başa düşdü ki, bu keşiş öləcəyi günəcən onun həyatının bir parçası olaraq qalacaq və ən yaxşısı bununla barışmaqdır. Elə bil, bütün bu əhvalat, – Bayron fikirləşdi, – bir çox adamın iştirakıyla oynanılan bir tamaşaymış və bu adamlar o tamaşadakı rollarını oynayıb qurtardıqdan sonra indi rahat, dinc, bir-birini incitmədən yaşaya bilərdilər. Keşişlər onu rahat buraxdılar. Onu bağçada, ya da həyətdə işləyən görürdülər, əlində zənbil küçəyə-bazara çıxanda onunla rastlaşır, onunla söhbət edirdilər. Bilirdilər ki, paltarını özü yuyur, ev işlərini özü idarə edir, tezliklə qonşular yenidən ona yemək göndərməyə başladılar, hərçənd, bu yeməklər kasıb fəhlə ailəsinə göndərilən yemək kimiydi. Hər halda, yemək idi, təmiz niyyətlə göndərilirdi. Çünki, – Bayron fikirləşdi, – insanlar iyirmi il ərzində çox şeyləri unudurlar. “Axı deyəsən Ceffersonda məndən başqa, – o fikirləşir, – heç kim onun gün əyiləndən zil qaranlıq düşənə qədər pəncərənin ağzında oturduğunu bilmir. Yaxud onun evinin içinin necə olduğundan da xəbərləri yoxdu. Heç mənim bildiyimi də bilmirlər, yoxsa hər ikimizi o evdən çıxarıb o vaxt onu döydükləri kimi möhkəmcə kötəkləyərdilər; zira, görünür, insan yalnız yadda saxladığı qədər unuda bilir, artıq yox.” Çünki Ceffersona köçüb burada yaşadığı müddətdə Bayrona işdən sonra boş vaxtında başqa bir şeyi də görmək və bilmək nəsib olmuşdu.

Haytauer çox oxuyurdu. Daha doğrusu, Bayron divar boyu düzülmüş kitablara – dinə, tarixə və təbiət elmlərinə dair kitablara diqqətlə, ehtiram dolu bir ürkəkliklə tamaşa edirdi, çünki o, bu kitabların mövcudluğundan belə xəbərsiz idi. Bir dəfə dörd il bundan qabaq şəhərin lap qurtaracağında, sonuncu evin düz arxasındakı komada yaşayan bir zənci qaçaraq keşişin yanına gəldi və dedi ki, arvadı doğur. Haytauerin telefonu yox idi, ona məsləhət gördü ki, qonşuya qaçıb həkim çağırsın. Özü isə zəncinin dalınca baxıb, onun qonşu evin qapısınacan getdiyini gördü. Amma zənci içəri girmədi, bir qədər orda dayanıb, sonra küçəylə şəhərə tərəf yollandı – pay-piyada; Haytauer bilirdi ki, şəhərəcən bütün yolu piyada gedəcək və orada da hansısa bir ağdərili qadından telefonla həkim çağırmağı xahiş etmək əvəzinə, öz zənci ləngliyi və zaman korafəhmliyi ucbatından, yəqin ki, ən azı, yarım saat itirəcək. Mətbəx qapısına yaxınlaşanda, komanın içərisində zənci qadının necə çığırdığını eşitdi. Ora qaçdı, gördü ki, qadın çarpayıdan yerə düşüb (niyə, nə üçün – səbəbini heç vaxt bilmədi) və iki əli, iki ayağı üstə durub çığıra-çığıra, bağıra-bağıra təkrar çarpayıya qalxmağa çalışır. Qadını qaldırıb çarpayıya uzatdı, ondan sakitcə uzanmasını tələb etdi, sözünə qulaq assın deyə onu qorxutdu, evə qaçdı, kabinetdəki rəfdən ülgüc və ip götürüb təzədən komaya qayıtdı, körpəni qəbul etdi. Ancaq uşaq artıq ölüydü; bir az gec gələn həkim dedi ki, heç şübhəsiz, qadın çarpayıdan döşəməyə düşərkən onu əzib, Haytauer də onun yanına elə bu vaxt gəlib çıxmışdı. Həkim Haytauerin elədiklərini bəyəndi, elə qadının əri də ondan məmnun qaldı.

"Amma üstündən tam on beş il keçsə də, – Bayron fikirləşdi, – bu hadisə o biri, köhnə əhvalatın yenidən yaddaşlarda cücərməsinə səbəb oldu." Çünki ikicə gündən sonra yenə dedi-qodular yayılmağa başladı: guya, uşaq Haytauerdən imiş və o özü qəsdən onun ölməsinə imkan yaradıb. Bayron fikirləşdi ki, bu dedi-qoduları yayanların heç özləri də dediklərinə inanmırlar. Fikirləşdi ki, rüsvay olmuş keşiş haqqında, şəhərin özünün belə inanmadığı cürbəcür yalan uydurmaq vərdişi onlarda lap çoxdan yaranıb; həm də o qədər çoxdan ki, artıq ondan yaxa qurtara bilmirlər. "Çünki hər dəfə, – o düşünür, – bir şey vərdiş halına keçəndə, nə işdisə, həqiqətdən və gerçəklikdən daha çox uzaqlaşır". Və o, Hatauerin söhbət əsnasında bu sözləri dediyi o gecəni xatırlayır: "Onlar yaxşı adamlardılar. Nəyə inanmalıdırlarsa ona da inanmalıdırlar, xüsusən də ona görə ki, bir vaxtlar onların inanc tərbiyəçisi və xidmətkarı mən özüm olmuşam. Buna görə də nə mən onların inancını təhqir etməliyəm, nə də Bayron Banç onların haqlı olmadığını deməlidi. Zira insanın ümid edə biləcəyi yeganə şey – ona öz din qardaşları arasında sakitcə yaşamaq imkanının verilməsidir". Bu hadisə Bayron onun əhvalatını eşidəndən və gecələr Haytauerin evinə gəlməyə başlayandan dərhal sonra olmuşdu; onda Bayron hələ də onun Ceffersonda, hamının gözü önündə, onu qovan və inkar edən kilsənin lap qulağının dibində nə üçün qalıb yaşamaq istədiyini heç cür anlaya bilmirdi. Bir gecə Bayron bunu ondan soruşdu.

– Bəs siz niyə şənbə günləri, başqaları şəhərdə əylənəndə sexdə qalıb işləyirsiniz? – Haytauer bunun cavabında ondan soruşdu.

– Bilmirəm, – Bayron cavab verdi. – Görünür, mənim həyatım belədir.

– Görünür, elə mənim həyatım da bu cürdür, – o dedi.

"Ancaq indi bilirəm, – Bayron düşünür. – Çünki artıq baş vermiş bədbəxtlik baş verə biləcək bədbəxtlik qədər qorxunc deyil. O, təki heç nə dəyişməsin deyə, vərdiş olunmuş bədbəxtlikdən bərk-bərk yapışacaq. Bəli. İnsan həmişə canlı adamlardan qaçıb gizlənmək istədiyi barədə danışacaq. Amma ona əsl ziyan vuran ölülərdi. Torpaq altında sakitcə yatan, onu heç cür tutub saxlamağa çalışmayan ölülər; o, bax onlardan qaçıb gizlənə bilməyəcək".

Onlar gurultuyla yaxınlıqdan uçub səssizcə alatoranlığa dürtüldülər; gecə düşdü. Amma o hələ də pəncərənin önündə oturub, arxa tərəfindəki kabinet hələ də qaranlıqdır. Küncdəki fənər arabir parıltıyla göz vurur, ağcaqayınların bir neçə yerindən dişlənmiş kölgələri mehsiz avqust zülmətində, sanki, buxarlanıb havaya uçur. Uzaqdan, lap uzaqdan kilsə xorunun çox asta, amma apaydın səsi eşidilir; çox ciddi, həm də dərin, müti və eyni zamanda məğrur olan bu səs tədricən ətrafa yayılır, ölgün, heysiz-hərəkətsiz avqust qaranlığında ləpədöyən dalğalar kimi donub qalır.

Sonra o, küçədə bir nəfərin yaxınlaşdığını görür. Adi axşamlardan olsaydı, həmin adamı boy-buxunundan, duruşundan, yerişindən tanıyardı. Amma bu bazar axşamında, xəyali at dırnaqlarının əks-sədası zülmət bürümüş kabinetə çırpılaraq, hələ də səssizcə qırıldığı bir vaxtda o, sükut içərisində oturub, ayaqları üstə yeriyən məxluqa xas saxta, etibarsız bir çevikliklə – insan məxluqunun sarsaqcasına qürur duyduğu və axırda isə hökmən onu, məsələn, ağırlıq və buz kimi təbii əngəllər, ya da özünün ixtira etdiyi və qaranlıqda toqquşduğu avtomobil, mebel kimi yad əşyalar, yaxud döşəməyə və ya səkiyə tökülmüş yemək qırıntıları ucbatından güdaza verən bir çevikliklə – küçədə piyada hərəkət edən xırda insan fiquruna sakitcə tamaşa edir; və sakitcə fikirləşir ki, qədim insanlar atı döyüşçülərin, kralların atributu, rəmzi seçməkdə nə qədər haqlıymışlar; eyni zamanda, küçədəki adamın lövhəni keçəndən sonra onun həyət qapısına tərəf döndüyünü, evə yaxınlaşdığını görür. Bir az qabağa əyilib o adamın qaranlıq cığırla qaranlıq həyətdən keçərək, artıq evin qapısına çatdığına baxır, onun ayağının qaranlıq pilləkənlərə ilişib səndələdiyini eşidir. "Bayron Banç, – deyir, – nə əcəb bazar günü, bu axşam şəhərdədir?! Bayron Banç nə əcəb bazar günü şəhərdədir?! "

4

Onlar üzbəüz oturub yazı stolunun üzərindən bir-birinə baxırlar. İndi kabinet işıqlıdır – işıq yaşıl abajurlu stolüstü lampadan düşür. Haytauer qədimi, yırğalanan kresloda, Bayron isə üzbəüz

stulda əyləşib. Onların sifətinə düşən işığın önünü abajur kəsib. Uzaqdakı kilsədən gələn xor səsi açıq pəncərədən içəri dolur. Bayron sakit, yeknəsəq səslə danışır:

– Qəribə iş oldu. Fikirləşirdim ki, harada olur-olsun, amma bu sexdə, şənbə axşamı adamın kiməsə ziyan vurmaq imkanı ola bilməz. Özü də hələ bu evin, necə deyərlər, düz burnumun ucunda alışıb-yandığı bir vaxtda. Həmişəki kimi oturub nahar eləyirdim, hərdənbir başımı qaldırıb göydəki tüstüyə baxır, öz-özümə düşünürdüm: "Hə, bu axşam, yəqin ki, buralarda bir ins-cins gözə dəyməz. Bu axşam heç kim mənə mane olmayacaq". Sonra başımı qaldıranda, gördüm ki, düz önümdə dayanıb, artıq gülümsəməyə hazırlaşır, onun adını dilə gətirmək üçün artıq dodaqları da bir azca aralanıb, amma birdən gördü ki, mən o deyiləm. Mən külbaşın isə ağlına hər şeyi ona açıb danışmaqdan savayı heç nə gəlmədi. – Onun ağzı azacıq əyildi. Bu, təbəssüm deyildi: yalnızca üst dodağı bir anlığa yuxarı dartındı, ancaq bu hərəkət sonadək davam etmədi, dərhal da kəsildi. – O an ağlıma da gəlməzdi ki, işin pis tərəfi hələ mənə məlum deyil.

– Hə, əgər bu hadisə Bayron Bançı bazar günü şəhərdə saxlayıbsa, deməli, doğrudan da nəsə çox ciddi bir şey olub, – Haytauer deyir. – Deməli, bu qadın onu axtarırdı. Siz isə onu tapmağına kömək etdiniz. Bəyəm bunun nəyi pisdir? Siz ki, onun istədiyini eləmisiniz! Axı o, Alabamadan buraya məhz bu məqsədlə gəlib.

– Elədi, mən bunu ona dedim. Başqa neyləyə bilərdim. Mənə baxırdı, qarnı burnunda orda oturub üzümə baxırdı, gözləri isə eləydi ki, yalan demək istəsən də, deyə bilməzdin. Mənsə ağzımı Allah yoluna qoyub zəvzəyirəm, hərçənd gözümün qabağında tüstü şahə qalxıb, elə bil, onu qəsdən, mənə xəbərdarlıq eləmək üçün yandırmışdılar ki, dilimə yiyəlik eləyim, amma ağlım kəsmədi.

– Həə, – Haytauer deyir. – Dünən yanan evi deyirsən. Ancaq mən bunların arasında heç bir əlaqə... Kimin eviydi o? O tüstünü mən də gördüm, hələ yoldan ötən bir zəncidən də soruşdum, amma o da bilmədi.

– Berdenlərin köhnə eviydi, – Bayron cavab verir. Keşişin üzünə baxır. Keşiş də onun. Haytauer hündür kişidi, haçansa arıq olub. Ancaq indi arıq deyil. Dərisi un xaşası rəngindədi, yaxşı doldurulmamış xaşanı xatırladan cəmdəyi ağırlıqdan sallanaraq arıq çiyinlərindən dizləri üstünə tökülür. Sonra Bayron deyir: – Siz hələ eşitməmisiniz. – Keşiş hələ də ona baxır. Bayron fikirli-fikirli deyir: – Deməli, bu da mənim boynuma düşəcək. Bu iki gün ərzində iki adama eşitmək istəmədikləri, əslində eşitmələri heç lazım da olmayan bir şeyi, görünür, mən deməliymişəm.

– Sizcə, mənim eşitmək istəmədiyim o şey nədir elə? Mən nəyi eşitməmişəm ki?

– Yanğını demirəm, – Bayron cavab verir. – Onlar oddan qurtulublar.

– Onlar? Mən elə bilirdim, miss Berden orda tək yaşayır.

Bayron baxışlarını yenə də onun üzərində saxlayır. Amma Haytauerin sifətində yalnız ciddilik və maraq ifadə olunub.

– Braunla Kristmas, – Bayron deyir. Haytauerin sifəti hələ də dəyişmir. – Siz bu haqda da eşitməmisiniz, – Bayron deyir. – Onlar orda qalırdılar.

– Orda qalırdılar? Otaq kirayələmişdilər?

– Yox. Evin arxasındakı zənci komasında. Kristmas üç il bundan əvvəl onu təmir etmişdi. O vaxtdan da orda yaşayırdı, adamlar da baş sındırırdılar ki, görən o harda gecələyir. Braunla curlaşandan sonra onu da yanına buraxmışdı.

– Həə, – Haytauer deyir. – Amma mən başa düşmürəm ki... Əgər onlar bir yolun yolçusuydularsa, onda miss Berden niyə...

– Məncə, bir idilər. Viski satırdılar, köhnə malikanədən isə qərargah kimi istifadə edirdilər – bir növ, göz yayındırmaq üçün. İnanmıram ki, miss Berdenin bundan, yəni viskidən xəbəri olsun. Hər halda, camaat onun bundan xəbəri olub-olmadığını dəqiq bilmir. Deyirlər ki, Kristmas bu işə üç il bundan qabaq təkbaşına başlayıb, qorxa-qorxa; özü də yalnız biri digərini tanımayan daimi müştərilərə satırmış. Amma Braunu da özünə şərik götürəndən sonra, görünür, o, alveri genişləndirmək istəyib. Qarnında gizlətdiyi iki yüz əlli qramlıq şüşələri elə dalandaca kimə gəldi satmağa başlayıb. Daha doğrusu, özü içib qurtara bilmədiklərini satırmış. Satmaq üçün viskini hardan əldə edirmişlər – bu da qaranlıq məsələdir. Çünki Braun işdən çıxıb özünə yeni bir iş tapandan – təzə maşında gəzməyə başlayandan iki həftə sonra şənbə günü axşam içmiş halda şəhərdəymiş; dəlləkxanada camaatın önündə öyünürmüş ki, Kristmasla gecə vaxtı Memfisdəmi, yoxsa Memfisə çathaçatda yoldamı nəsə eləyiblər. Nəsə kolluqda gizlədilmiş maşından, Kristmasın tapança ilə nəsə eləməsindən, sonra da hansısa yük maşınından, dörd yüz litrdən danışırmış; elə bu vaxt Kristmas içəri girib, onun üstünə cumaraq, yumruqla vurub kreslodan aşırıb. Sonra isə özünə xas həlim – xoş olmasa da, qəzəbsiz-qeyzsiz bir səslə sakitcə ona deyib: “Sən bu Cefferson odekolonunu bir qədər az iç. O sənin başını xarab edib. Elə eləmə ki, sonra burnundan tökələr”. Bir əli ilə Braunun yaxasından tutub yıxılmağa qoymur, o biri əli onun sifətini şapalaqlayırmış. Deyəsən, elə də bərk vurmurmuş. Ancaq Kristmas əlini onun yaxasından çəkəndən sonra Braunun sifəti, hətta bakenbardının altı da qıpqırmızı qızarıbmış. “Çıx bayıra, təmiz hava al, – Kristmas deyib. – Camaatı işindən eləyirsən”. – Bayron fikrə gedir. Sonra deyir: – Sonra da bu qadın, taxta yığınının üstündə oturub mənə baxır, mən də bütün bunların hamısını ona danışıram; o isə baxır. Sonra da deyir: “Bəs onun ağzının qırağında, bax, burasında xırda bir çapıq yoxdu ki?”

– Deməli, o Braun imiş, – Haytauer deyir. Daş kimi hərəkətsiz oturub dinc bir heyrət içində Bayrona baxır. Onda eşitdiklərinə qarşı nə bir hiddət, nə də narazılıq əlaməti hiss olunmur. Sanki, söhbət başqa bir planetin sakinlərindən gedir. – Onun əri butleger imiş. Belə-belə işlər.

Belə, belə işlər... – Bayron keşişin sifətində dirçəlişə oxşar mürgülü, Haytauerin özünün hələ dərk edə bilmədiyi bir tərpəniş hiss edir; sanki, içindəki hansısa bir qüvvə ona xəbərdarlıq etməyə, ya da onu nəyəsə hazırlamağa çalışır. Ancaq Bayron bu tərpənişdə yalnız özünün artıq bildiyi və deməyə hazırlaşdığının əks olunduğunu görür.

– Bir sözlə, nə elədiyimi anlamağa macal tapmamış hər şeyi açıb ona danışdım. Axı haradan biləydim ki, bu hələ hamısı deyil? Bilsəydim, dilimi kəsib atardım – İndi o, həmsöhbətinin üzünə baxmır. Pəncərədən o yanda, bayırda sakitlikdi, amma gecə sükutunda uzaq kilsədən orqanın, xorun həmahəng səsi aydın eşidilir. *Görən o da eşidirmi?* Bayron fikirləşir *Ya da buna o qədər çox, o qədər tez-tez qulaq asıb ki, daha onu eşidə bilmir. Ya da o indi buna qulaq asmağa heç ehtiyac da duymur.* Bütün axşamı, mən işləyib qurtaranacan orda oturub qaldı, artıq göydəki tüstü də çəkilmişdi, mənsə nə deyəcəyimi, onunla neyləyəcəyimi bilmirdim. Birbaş ora getmək istəyirdi, istəyirdi ki, oranın yolunu ona göstərim. Deyəndə ki ora ən azı iki mil yol var, mənə gülməyi tutdu, elə bil, mən onun üçün körpə uşaq-zad idim. "Mən düz Alabamadan gəlirəm, – dedi. – İki mil nə olan şeydi!" Onda ona dedim... – Səsi qırılır. Sanki, ayaqlarının altına, döşəməyə baxır. Gözlərini qaldırır. – Mən, yəqin ki, yalan danışdım. Amma bu, heç də tam yalan deyildi. Axı bilirdim ki, adamlar hamısı ora toplaşıb, yanğına tamaşa edirlər, o da ora gedəndə onu soruşmağa başlayacaq. Qalanını isə onda mən özüm də bilmirdim. Yəni əsas şeyi. Ən pis olanını. Ona dedim ki, indi o öz işiylə məşğuldur, yaxşısı budur, onu şəhərin mərkəzində, saat altıdan sonra axtarsın. Doğru olan da elə budu. Axı o, bunu – çılpaq sinəsində soyuq viski şüşələri daşımağı öz işi adlandırır; əgər şəhər mərkəzində – meydanda onu görməyibsə, deməli, ora gəlir, yəqin hardasa ləngiyib, ya da bir dəqiqəliyə hansısa dalana dönüb. Bir sözlə, onu inandırdım ki, oturub gözləsin; o oturub gözləyir, mən isə işləyə-işləyə fikirləşirdim ki, neyləyim. İndi, hər şeyi biləndən sonra dünən çox az şey bildiyim halda nə qədər narahatçılıq keçirdiyimi fikirləşirəm, mənə elə gəlir ki, əslində dünən narahat olmalı bir şey yox imiş. Bütün günü fikirləşirəm ki, dünənki günü geri qaytarmaq mümkün olsaydı, hər şey nə qədər asan olardı, dünənkilərdən savayı heç bir narahatçılığım qalmazdı.

– Yenə də sizin nə üçün narahat olduğunuzu anlaya bilmirəm, – Haytauer deyir. – Günah sizdə deyil ki, o oğlan necə var elədir, o qadın da bu hala düşüb. Siz nə bacarırsınız, eləmisiniz. Yad adamdan tələb olunan hər şeyi. Amma əlbəttə ki... – Onun da səsi qırılır. O bu keçiddə donub qalır; sanki, boş bir mühakimə əvvəlcə anlamlı bir fikrə, sonra isə nəsə qayğıkeşlik kimi bir şeyə çevrilir. Bayron hərəkətsiz halda onun önündə oturub, ciddi sifəti daha da kütləşib. Bayronun qarşısında əyləşən Haytauer isə hələ *məhəbbət* barədə düşünmür. O ancaq bunu xatırlayır ki, Bayron hələ cavandır, öz həyatını nəfsini boğmaqla, ağır əməklə keçirib və danışdıqlarından da belə çıxır ki, heç vaxt görmədiyi bu qadın onda nəsə bir narahatçılıq doğurub; hərçənd Bayron özü bunu, sadəcə, yazığı gəlmək hesab eləyir. Və indi o, Bayrona nə

soyuq, nə də isti baxışlarla deyil, yalnız sınayıcı nəzərlərlə baxır; bu arada Bayron yeknəsəq bir səslə söhbətinə davam edir, deyir ki, saat altıyadək heç bir qərara gələ bilməyib, hətta Lina ilə birlikdə meydana yollananda belə tərəddüd içindəymiş. Bundan sonra Bayron sakit danışır, deyir ki, artıq meydana çatanda Linanı miss Birdin evinə aparmaq qərara gəlir, Haytauerin çaşqın sifətinə nəsə qorxulu, pis bir niyyətin əndişəsi çökür. Bayronsa sakitcə danışır, fikirləşir, yadına salır. Sanki, havanın da, bu axşamın da üstünə nəsə bulanıq bir şey dağılıb, tanış adamların sifətini tanınmaz eləyib və o, hələ heç nə eşitmədən, hələ nə hadisə baş verdiyini bilmədən – bu hadisədən sonra keçmiş çətinlikləri ona uşaq çətinlikləri kimi görünəcəkdi – olanlardan xəbər tutmamış başa düşür ki, Lina bu haqda heç nə bilməməlidir. Heç nə deyilmədən də aydın idi ki, Bayron itkin Lukas Berçi, axır ki, tapıb; indi ona elə gəlir ki, yalnız kütlüyü və ağlının zəifliyi bunu anlamasına mane olub . Ona elə gəlir ki, tale, təsadüf özü bu sarı tüstü sütununu ucaldaraq bütün günü ona xəbərdarlıq edib, amma o öz axmaqlığı ucbatından bu əlaməti düzgün anlaya bilməyib. Və budur o, heç kimi və heç nəyi – rastlaşdıqları adamları, o hadisənin bütün ağrı-acısını canında daşıyan havanın özünü danışmağa qoymur, təki Lina eşitməsin. Ola bilsin, elə onda başa düşüb ki, Lina gec-tez bunu öyrənəcək, eşidəcək və müəyyən mənada bu onun öz hüququdur. Sadəcə, ona elə gəlir ki, əgər bu qadını meydandan keçirib evə aparmaq ona müyəssər olsa, məsuliyyət onun boynundan götürüləcək. Özünü cavabdeh hesab etdiyi şər işə görə deyil, sadəcə, ona görə ki, hadisə törədilən axşam bu qadının yanında məhz o olub, ona görə ki, bu qadın otuz gün pay-piyada, pulsuz-parasız yol gəlib Ceffersona çatanda təsadüf bu şəhəri təmsil etmək üçün məhz onu seçib. O bu məsuliyyətdən yayınmaq niyyətində deyildi, buna ümid belə eləmirdi. Sadəcə, bu heyrət və dəhşət anını özü üçün, o qadın üçün mümkün qədər gecikdirmək istəyirdi. Bu barədə o, sakitcə, hamar, ifadəsiz bir səslə, dili topuq vura-vura, başını qaldırmadan danışır, Haytauer isə stolun üzərindən ona baxa-baxa əvvəlki kimi qorxu içində və könülsüz ona qulaq asır.

Nəhayət, onlar pansiona çatıb içəri girdilər. Sanki, o anda qadının da qəlbində nəsə xoş olmayan, pis bir duyğu oyandı; onlar dəhlizdə dayanıb gözləyəndə, diqqətlə onun üzünə baxa-baxa ilk dəfə dilləndi:

– Onlar, o adamlar sizə nə demək istəyirdilər? Yanğında nə olub ki?

– Heç, elə bir şey olmayıb, – o cavab verdi, öz səsi özünə mənasız və darıxdırıcı gəldi. – Guya, miss Berden əzilib.

– Necə əzilib? Bərk əzilib?

– Yox, deyəsən. Bəlkə də, heç nə olmayıb. Çox güman ki, ağıllarına gələni danışırlar. – Onun üzünə baxa, baxışlarına tab gətirə bilmirdi. Amma hiss edirdi ki, qadın ona baxır, özünün isə, sanki, qulağı səsə düşmüşdü: elə bil, bütün şəhəri – o qadını tələm-tələsik keçirməyə çalışdığı meydanı, adamların dinc, adi işıqların arasında topa-topa yığışıb bu hadisə barədə

danışdıqları hər küncü, bucağı boğuq, gərgin səslər bürümüşdü. Evdə də adi səslər, başlıcası isə çaşqınlıq, qorxunc matı-qutu qurumuşluq hökm sürürdü və o, zəif işıqlanmış dəhlizə göz gəzdirə-gəzdirə fikirləşdi *Axı bu niyə gəlib çıxmır? Niyə gəlib çıxmır axı?* Nəhayət, miss Bird gəlib çıxdı: səliqə-sahmanlıydı, qırmızı əlləri və dağınıq, dən düşmüş saçları vardı.

– Bu missis Berçdir, – Bayron dedi. İnadkar, iti baxışları, demək olar ki, alışıb-yanırdı. – O, Alabamadandır, şəhərə elə indicə gəlib. Burada öz əri ilə qarşılaşacağına ümid edir. Onu hələ tapa bilməyib. Bura gətirdim ki, bir az dincəlsin; nə qədər ki onu şəhərin cəncəlli işlərinə qarışdırmayıblar, bir az dincəlsə yaxşıdır. Hələ şəhərdə olmayıb, heç kimlə söhbət eləməyib. Fikirləşdim ki, adamlar onu sorğu-sualla yormamışdan əvvəl siz ona burda bir yer ayırasınız, istirahət eləyə və... – Onun sərrast, inadcıl, eyni şeyi təkrarlayan səsi kəsildi, dondu. Ona elə gəldi ki, ev sahibəsi onu başa düşdü. Yalnız sonra fərqinə vardı ki, ev sahibəsi təzə xəbərlər barədə – artıq onun da bunları eşitdiyinə əmin idi – heç də onun xahişinə görə deyil, yalnız qadının hamilə olduğuna diqqət yetirdiyinə görə susub və buna görə də istənilən halda nəsə danışmaqdan çəkinərdi. Ev sahibəsi Linanı bir anlığa, artıq dörd həftədir tanış olmayan digər qadınların ona diqqətlə nəzər saldığı kimi iti, sınayıcı baxışlarla başdan-ayağa süzdü.

– Nə qədər qalmaq fikrindədir? – Miss Bird soruşdu.

– İki gecə, – Bayron dedi. – Bəlkə də, yalnız bu gecəliyə. Ərini tapacağına ümid eləyir. Elə indicə gəlib, hələ kimdənsə, nəsə soruşub öyrənməyə vaxt tapmayıb... – Onun səsinin ahəngi israrlı, çoxmənalıydı. Miss Bird indi də onu diqqətlə süzür. Bayron fikirləşir ki, bu qadın hələ də onun işarəsini anlamağa çalışır. Miss Bird isə onun dilinin necə dolaşdığına diqqət yetirərək fikirləşir (ya da fikirləşməyə çalışır) ki, bu çaşqınlığın tamam başqa mənası, başqa səbəbi var. Sonra o, yenə Linaya tərəf baxır. Bu baxışlar heç də soyuq deyil. Amma onlarda hərarət də yoxdu.

– Məncə, indi onun harasa yollanmalı halı da yoxdur, – miss Bird dedi.

– Mən də bu fikirdəyəm, – Bayron dərhal onun sözündən tutmağa çalışdı. – Hara getsə, bu söz-söhbətləri, həyəcanlı hadisələri eşitməli olacaq, o isə belə şeylərə hələ öyrəşməyib... Əgər bu gün sizdə bütün yerlər tutulubsa, bəlkə, onu mənim otağımda yerləşdirəsiz?

– Hə, – miss Bird dərhal cavab verdi. – Siz onsuz da indi çıxıb gedəcəksiniz, otağınız boş qalacaq. İstəyirsiniz, bazar ertəsinəcən – siz qayıdanacan orda qalsın?

– Bu gün mən getməyəcəyəm, – Bayron dedi. Baxışlarını ondan yayındırmadı. – Bu dəfə gedə bilməyəcəyəm. – O, gözlərini ev sahibəsinin soyuq, artıq şübhəli baxışlarına zilləyərək ümid elədi ki, miss Bird, heç olmasa, bu dəfə öz ağlına gələni yox, onun baxışlarının ifadə etdiyi mənanı oxuyacaq. Deyirlər yalnız təcrübəli yalançılar adamı aldada bilir. Amma təcrübəli, vərdişkar yalançı çox vaxt yalnız özünü aldadır; bütün həyatı boyu düzlük qandalının buxovunda gəzən adamın yalanına isə daha asan inanırlar.

– Həə, – miss Bird dedi. O yenə də Linanı süzdü. – Ceffersonda heç bir tanışı yoxdu?

– O burda heç kəsi tanımır, – Bayron dedi. – Onun bütün tanışları Alabamadadır. Mister Berç sabah, yəqin ki, gəlib çıxar.

– Həə, – miss Bird dedi. – Bəs siz harda yatacaqsınız? – Amma cavabı gözləmədi. – Yaxşı, onda mən bu gecə ona öz otağımda yer açaram. Əgər o etiraz etmirsə.

– Çox gözəl. – Bayron dedi. – Lap yaxşı.

Şam yeməyinə çağırılanda Bayron artıq hazır idi. O, arada imkan tapıb miss Birdlə təklikdə danışa bilmişdi. Bunun üçün uydurduğu yalan əvvəlkindən də uzun idi. Ancaq lazım olmadı; çünki gizlətməyə çalışdığı şeyin özü özünü gizlətdi.

– Süfrə arxasında kişilər bu barədə danışacaqlar, – miss Bird dedi. – Elə bilirəm ki, bu vəziyyətdə olan bir qadın (*özü də Berç soyadlı ərini axtaran bir qadın* o öz-özünə istehzayla qeyd etdi) kişi əxlaqsızlığı barədə artıq heç nə eşitməsə yaxşıdı. Onu gec gətirərsiniz, kişilər yeyib qurtarandan sonra.

Bayron elə də elədi. Lina yenə iştahla yedi, elə o cür iştahla da, yeməyini yeyib qurtarmadan, elə süfrədəcə mürgüləməyə başladı.

– Bu qədər gəzmək adamı yaman yorur, – o izah etdi.

– Get, qonaq otağında otur, mən də onacan sənə yer açım, – miss Bird dedi.

– Mən də sizə kömək eləmək istəyirəm, – Lina dedi. Amma hətta Bayron belə onun bunu istəmədiyini aydın görürdü: ayaq üstə zorla dayanmışdı, yuxu onu basırdı.

– Get, qonaq otağında otur, – missis Bird dedi. – Elə bilirəm ki, mister Banç da bir-iki dəqiqəliyə yanında durmaqdan imtina etməz.

– Mən onu tək qoymağa qorxurdum, – Bayron deyir. Stolun o başında Haytauerin heç tükü də tərpənmir. – Bax, elə biz orda oturub gözləyəndə, hər şey üzə çıxıb, elə onda Braun şerifin kabinetində hər şeyi – özü haqda, Kristmas, viski və sair haqda hər şeyi açıb danışıb. Ancaq viski məsələsi camaat üçün yeni şey deyil, Kristmas onu özünə caladığı vaxtdan bəri hamı az-çox bu barədə nəsə eşidib. Mən bilən, adamlar bircə buna məəttəl qalıblar ki, niyə o məhz Braunu özünə iş ortağı seçib. Bəlkə, ona görə ki, taylı təkcə tayını tapmır, həm də o öz tayından yayına bilmir. Hətta onların bircə ümumi cəhəti olanda belə; çünki oxşar cəhətlərə malik olan bu iki adam da bir-birindən çox fərqlidi. Kristmas qanunu ona görə pozur ki, çoxlu pul qazanmaq istəyir, Braun isə qanunu ona görə pozur ki, nə elədiyini başa düşməyə ağlı çatmır. O gecə bərbərxanada Braun sərxoş halda nəsə zəvzəyərkən, Kristmas elə buna görə özünü ora yetirən kimi onu dərhal ordan çıxarıb. Mister Maksi soruşub: “Sizcə, onun orda özü haqda, o biri haqda az qala, açıb deyəcəyi şey nə ola bilər?” Kapitan Mak-Lendon cavab verib: “Mən, ümumiyyətlə, bu barədə düşünmürəm”, onda mister Maksi deyib: “Sizcə, onlar doğrudanmı spirt dolu yük

maşınını qarət ediblər?” Mak-Lendon da ona belə cavab verib: “Əgər sizə desələr ki, Kristmas deyilən bu oğlan həyatında bundan ağır cinayət törətməyib, bu sizə təəccüblü gəlməz?”

Dünən axşam Braun məhz bunları danışıb. Ancaq bunlardan hamının xəbəri var. Camaat çoxdan deyirdi ki, onların bu əməlləri barədə miss Berdenə xəbər vermək, hər halda, pis olmaz. Ancaq elə bilirəm ki, heç kimin ora getməyə həvəsi olmayıb, axı kim bilirdi ki, gedib ona xəbər verəndən sonra bu işin axırı necə qurtaracaq? Mən bilən, yerlilərdən heç kəs ömründə o qadının üzünü görməyib. Doğrusu, heç mən özüm də o köhnə evə getmək istəməzdim; axı heç kim onun evinə getməyib, yalnız arabayla yoldan ötənlər bəzən onu həyətdə nəyləsə qurdalanan görüblər, onda da əynindəki paltar, başındakı ləçək o qədər nimdaş olurmuş ki, heç zənci qadınlar belə onları geymək istəməzmiş. Bəlkə də, özü bilirmiş. Bəlkə, heç əleyhinə də deyilmiş, axı o, şimallıdı və sairə. Bilsəymiş, kim bilir, bunun axırı necə qurtarardı.

Bir sözlə, yatağa girənəcən onu tək qoymaqdan qorxurdum. Dərhal, elə o gecə sizin yanınıza gəlmək istəyirdim. Ancaq onu tək qoymaqdan qorxurdum. Kirayənişinlər hələ dəhlizdən yığışmamışdılar, fikirləşirdim ki, onların hansısa birdən bu barədə söhbət açar, hər şeyi açıb ona deyər; çünki onların artırmada toplaşıb bu barədə danışdıqlarını özüm də eşitdim, o isə matdım-matdım üzümə baxırdı, sifətindən görünürdü ki, yenə də yanğın barədə nəsə soruşmaq istəyir. Buna görə də onu tək qoymağa qorxurdum. Qonaq otağında oturmuşduq, gözlərindən yuxu tökülürdü, mənsə elə hey o oğlanı hökmən tapacağımı deyirdim; deyirdim ki, gedib tanış keşişlə bu haqda danışmaq lazımdır, bu işdə o bizə kömək eləyə bilər. Elə hey mən danışıram, o isə gözləri yarıyumulu halda oturub, bilmir ki, mən onun bu oğlanla evli olmadığını artıq bilirəm. Elə bilir ki, hamını aldadıb. Sonra soruşur ki, haqqında danışmaq istədiyim adam necə adamdır, mən də cavab verirəm, o isə hələ də gözləri yarıyumulu halda oturub, fərqində deyil, nəhayət, ona deyirəm: “Siz mənim dediklərimin heç birini eşitmədiniz,” – bu an, sanki, silkinib özünə gəldi, düzdür, gözlərini açmadı, amma soruşdu: “O hələ də kəbin kəsə bilir?” Deyirəm: “Nə? Nə kəsə bilir?” – “Yəni, o əsl keşişdir? – deyir. – Adamlara kəbin kəsib onları evləndirə bilir?”

Haytauer yerindən tərpənmir. Stolun arxasında oturub, belini dimdik tutub, əllərini paralel şəkildə kreslonun qoltuqları üstünə qoyub. Pencəyi əynində yoxdur, köynəyi də yaxalıqsızdı. Sifəti çox arıq, həm də sallaqdı; gicgahları çallaşmış daz kəllə qutusunun içindən, bir cüt tərpənməz parlaq eynək şüşənin arxasından, elə bil, bir-birinin üstünə qoyulmuş iki sifət baxır. Stolun arxasından görünən gövdənin bir hissəsi qıcqırıb daşmış xəmir kimi yanlara yayılıb, oturmaqdan piy basıb, lırtlaşıb, eybəcər hala düşüb. O, birdən gərilir; nədənsə ehtiyat etdiyi, nədənsə yayınmaq istədiyi indi açıq-aşkar sifətinə yazılıb.

– Bayron, – deyir, – Bayron, siz mənə nə danışırsınız?

Bayron səsini kəsir. Sakitcə keşişin üzünə baxır, sifətinə onun halına acıyan, ona yazığı gələn bir ifadə çöküb.

– Mən bilirdim ki, siz hələ eşitməmisiniz. Bilirdim ki, bunu sizə danışmaq mənim boynuma düşəcək.

– Nəyi hələ eşitməmişəm?

– Kristmas haqqında deyilənləri. Dünən baş verənləri, Kristmas haqda... Kristmasın qanında zənci qanı var. Onun haqda, Braun haqda, dünən baş verənlər haqda.

– Zənci qanı, – Haytauer deyir. Səsi çox yüngül, çox adi çıxır, sanki, xırda bir quş lələyi səssizcə havada uçaraq, çəkisiz bir şey kimi sükutun içinə düşür. O, yerindən tərpənmir. Hələ bir neçə an da tərpənməyəcək. Sonra isə bu təhlükədən yayınmaq, onu özündən uzaqlaşdırmaq istəyi, sanki, bütün vücuduna hakim kəsilir, sanki, onun bir hissəsi kimi sifət cizgiləri də hərəkətə gəlir və Bayron enli, lırt, donuq sifəti birdən-birə necə tər basdığını görür. Ancaq səsinin ahəngi yüngüldü, sakitdi. – Kristmas haqda, Braun haqda nə danışırlar, dünən nələr baş verib? – deyə soruşur.

Uzaq kilsədən gələn musiqi səsi çoxdan susub. Otaqda yalnız cücülərin aramsız cüyültüsü və bir də Bayronun yeknəsəq səsi eşidilir. Haytauer stolun arxasında belini dikəldib. Hər ovcunu kreslonun bir qoltuğunun üstünə qoyub, qurşaqdan aşağısını stol gizlədib – indi o, qədim bir Şərq bütünü xatırladır.

– Bu, dünən səhər baş verib. Kəndçilərdən biri ailəsi ilə birlikdə arabada şəhərə gedirmiş. Yanğını birinci o görüb. Yox: o, oraya gedən ikinci adam olub, çünki deyir ki, ora çatıb qapını sındıranda evdə başqa bir adam da varmış. Deyir ki, onlar evi görəndə arvadına deyib ki, mətbəxdən yaman çox tüstü çıxır, arvadı isə ona deyib: “Ev yanır”. Belə güman edirəm ki, o, arabanı saxlayıb, onlar bir müddət arabada oturub evdən çıxan tüstüyə tamaşa ediblər və elə bilirəm ki, bir az keçəndən sonra o deyib: “Deyəsən elədir”. Mənə elə gəlir ki, arabadan düşüb, gedib ora baxmağı arvadı ona məsləhət görüb. “Evdəkilər yəqin bundan xəbərsizdirlər – elə bilirəm ki, arvadı ona belə deyib, – get, onlara xəbər ver”. O, arabadan düşüb, artırmaya qalxıb, bir qədər orada dayanıb: “Ey! Ey!” – deyə qışqırıb. Deyir ki, yanğının çırtıltısı artıq evin içində də eşidilə bilərdi, ona görə də çiyni ilə vurub qapını sındıraraq içəri girəndə o adamı görüb – yanğını birinci görən adamı. O adam Braun imiş. Ancaq kəndçi onu tanımırmış. Bircə onu deyir ki, sərxoş halda dəhlizdə dayanmışdı, elə bir görkəmdə idi ki, sanki, indicə pilləkəndən üzüaşağı diyirlənmişdi; kəndçi ona deyib: “Eviniz yanır, mister” və yalnız onda başa düşüb ki, o, möhkəm sərxoşdur. Deyir ki, sərxoş adam elə hey deyirmiş ki, yuxarıda heç kəs yoxdur, yuxarı onsuz da yanacaq, oradan heç bir əşyanı çıxarmaq mümkün deyil.

Ancaq kəndçi fikir verir ki, yuxarıda alov o qədər güclü ola bilməz, çünki bütün alov arxa tərəfdə, mətbəxə yaxın yerdəymiş. O adam da həddən artıq sərxoş imiş, şüuru heç nəyi kəsmirmiş. Və deyir ki, nəsə pis bir iş baş verdiyindən dərhal şübhələnib, çünki sərxoş adam onu heç cür yuxarıya buraxmaq istəmirmiş. Yuxarı qalxıb, sərxoş onu tutub saxlamaq istəsə də, onu bir kənara itələyib, yuxarı çıxıb. Deyir ki, sərxoş da onun arxasınca yuxarı qalxmağa çalışaraq, elə hey ona orda heç nə olmadığını söyləyirmiş; deyir ki, sonra sərxoşu bir də aşağı düşəndə yadına salıb, amma baxıb ki, onun izi-tozu da yoxdur. Ancaq elə bilirəm ki, o, Braunu dərhal yadına salmayıb. Çünki, yuxarı qalxanda ordakı qapıları bir-bir açа-açа yenidən qışqırmağa başlayıb, sonra da o qapını açıb və həmin qadını orda görüb.

O susur. Otaqda cücülərin səsindən başqa heç nə eşidilmir. Pəncərənin o tayında, bayırda saysız-hesabsız cücülərin ahəngdar nəbzi, ürək döyüntüsü, sanki, havaya çökmüş mürgünü qovmağa çalışır.

– Görüb, – Haytauer deyir. – O, miss Berdeni görüb. – Onun tükü də tərpənmir. Bayron ona baxır; adama elə gəlir ki, o, danışa-danışa dizlərinin üstünə qoyduğu əllərinə tamaşa edir.

– Deyir ki, döşəmədə uzanılıydı. Başı, demək olar ki, dibindən kəsilmişdi; saçına təzəcə dən düşmüş bir xanım idi. Deyir ki, dayanıb alovun səsinə qulaq asırdım, artıq tüstü içəri dolmuşdu; elə bil, tüstü də mənim dalımca içəri girmişdi. Deyir ki, onu qucağıma alıb otaqdan çıxarmağa qorxdum, çünki baş bədəndən tam qopa bilərdi. Sonra pilləkənlərlə qaça-qaça aşağı düşüb, evdən bayıra atılıb, sərxoşun orda olmadığına heç fikir də verməyib, birbaş yola qaçıb, arvadına qışqırıb ki, arabanı telefon olan yerəcən qovsun, şerifi də çağırsın. Sonra təzədən evə, su bakının yanına qaçıb; deyir elə vedrəni ağzınacan su ilə doldurub onu bakın içərisindən çıxaranda birdən başa düşdüm ki, bu, mənasız işdir; çünki evin arxa hissəsi də artıq od tutub şartaşart yanırmış. Ona görə də təzədən evə cumub, pilləkənlərlə qaça-qaça yuxarı çıxıb, birbaş həmin otağa girib, əl atıb çarpayının üst örtüyünü götürüb, cəsədi ona bürüyüb, sonra da un kisəsi kimi bir ucundan yapışaraq kürəyinə atıb, evdən çıxarıb, gətirib ağacın altına qoyub. Deyir ki, qorxduğu şey də elə onda olub. Örtük açılıb, cəsəd yerdə yanı üstəymiş, bədənin önü bir tərəfə, sifəti isə tamam əks tərəfəymiş. Elə bil, dönüb geriyə baxırmış. Deyir ki, o yalnız sağ olsaydı belə edə bilərdi, ölmüş halda isə belə bir şey eləmək heç cür mümkün deyil.

Bayron susur, gözünün ucuyla stolun o başında oturan adama baxır. Haytauerin tükü də tərpənmir. Onun bir cüt parıldayan eynək şüşəsinin arxasındakı sifətini yavaş-yavaş, amma davamlı tər basmağa başlayır.

– Sonra şerif gəlib çıxır, yanğınsöndürənlər də gəlirlər. Ancaq onlar da heç nə edə bilmirlər, çünki kifayət qədər su tapılmır. Ona görə də köhnə ev axşamacan yana-yana qalır, mən onun tüstüsünü sexdəykən gördüm, o qız yanıma gələndə ona da göstərdim, çünki heç nədən xəbərim yox idi. Miss Berdeni şəhərə aparırlar, bankda bir kağız varmış, orada yazıbmış

ki, o öləndən sonra nə eləmək lazımdı. Orada yazıbmış ki, Şimalda, onun gəldiyi yerdə – nəslinin gəldiyi şəhərdə – qardaşı oğlu var. Qardaşı oğluna teleqram vururlar, iki saatdan sonra cavab gəlir ki, o, qatili tapıb tutana min dollar mükafat verəcək .

Kristmasla Braun isə qaçıb gizlənirlər. Şerif onların komada yaşadıqlarını öyrənir, çünki hamı dərhal Kristmasla Braun haqqında bildiklərini danışmağa başlayır; bunların biri, ya da elə ikisi də bir yerdə bu xanımı öldürdükləri ana qədər susanların hamısının indi birdən-birə dili açılır. Dünənə kimi nə onu, nə də bunu tapmaq mümkün olmamışdı. Kəndçi kişi isə o evdə qarşılaşdığı sərxoş adamın Braun olduğunu bilmirdi. Adamlar belə fikirləşiblər ki, onlar qaçıblar – o da, Kristmas da. Amma dünən axşam Braun üzə çıxıb. Artıq ayılıbmış; saat səkkizdə şəhər meydanında peyda olub və dərhal da dəli kimi qışqırmağa başlayıb ki, onu Kristmas öldürüb, min dolları mənə verin. Polisləri çağırırlar, onu şerifin hüzuruna aparırlar. Orda deyirlər ki, Kristması tutub təhvil versə və sübut edə bilsə ki, qadını Kristmas öldürüb, pul onun olacaq. Bunu eşidən kimi Braunun dili açılıb. O, Kristmasın artıq üç ildi – hələ onunla tanış olmamışdan qabaq – miss Berdenlə ər-arvad kimi bir yerdə yaşadığını onlara açıb deyib. Braun əvvəlcə bunu danışıb ki, Kristmasın komasına köçəndə, o ona həmişə burda, bu komada gecələdiyini bildirib. Sonra deyib ki, bir gecə yata bilmirmiş, buna görə də Kristmasın yataqdan qalxdığını, sanki, nəyəsə qulaq asırmış kimi, gəlib onun yatağının qırağında dayandığını, sonra da barmağının ucunda səssizcə qapıya tərəf gedib onu ehmalca açaraq bayıra çıxdığını eşidib. Braun deyib ki, o da yerindən qalxıb, Kristmasın dalınca düşüb və onun böyük evə yaxınlaşdığını, arxa qapıdan içəri girdiyini görür – ya o qapını onun üçün açıq saxlayıblarmış, ya da onda bu qapının açarı varmış. Braun komaya qayıdıb yatağına uzanıb. Ancaq, bundan sonra heç cür yuxuya gedə bilməyib, Kristmasın onu aldada bilmədiyini yadına saldıqca onu gic gülmək tutub. Təxminən bir saat beləcə yerin içində uzanıb ayıq qalandan sonra Kristmas geri qayıdıb. Və onda, Braun deyib, gülməkdən özümü heç cür saxlaya bilmədim, Kristmasa dedim: “Sən nə yaramazın biriymişsən!” Bunu eşidəndə Kristmas qaranlıqda yerindəcə donub qalıb; Braun özü isə yataqda uzanıb Kristmasa gülürmüş – yəni, sən heç o qədər də fərasətli, fəndgir deyilsənmiş! Və başlayıb ağarmış saçlardan danışmağa, deyib ki, əgər Kristmas istəyirsə, həftəlik ev kirəsini ödəmək hesabına o da bu işi növbə ilə görməyə razıdır.

Sonra deyib ki, Kristmasın gec-tez o qadını, ya da başqa birisini öldürəcəyini məhz o gecə başa düşüb. Deməli, yerində uzanıb, elə hey gülür və elə bilirmiş ki, Kristmas indi gedib yatacaq; Kristmas isə birdən kibrit çəkib yandırır. Deyib ki, dərhal gülməyimi kəsdim, dinməzcə yerimin içində uzanıb ona baxırdım. Kristmas fənəri yandırır, onu gətirib Braunun çarpayısının böyründəki yeşiyin üstünə qoyur. Braun deyib ki, daha gülmürdüm, eləcə uzanmışdım, Kristmas isə onun çarpayısının başı üzərində dayanıb yuxarıdan-aşağı ona baxırmış. “Deməli, lağa qoymağa adam tapmısan, hə?! – Kristmas ona deyib. – Əsl gülməli şey sabah axşam, sən

bərbərxanada onu hamıya danışanda olacaq". Braun deyib ki, əvvəlcə Kristmasın qəzəbləndiyini başa düşməyib, o da onun bu sözünü cavabsız qoymayıb, amma o dərəcədə yox ki, onu özündən çıxarsın və birdən Kristmas həmişəki kimi sakitcə ona deyib: "Deyəsən, sən yaxşı yata bilmirsən. Çoxdandı yuxuya gedə bilmirsən. Sən gərək çox yatasan". – Braun isə soruşub: "Nə qədər çox?" Kristmas deyib: "Bəlkə də – həmişəlik". Dediyinə görə, Braun onda başa düşüb ki, Kristmas bərk hirslənib, onu daha da qıcıqlandırmaq lazım deyil və ona deyib: "Bəs biz dost deyilik? Axı mən başqasının sirrini niyə kiməsə danışmalıyam? Sən mənim sözümə inanmırsan?" Kristmas isə deyib: "Bilmirəm. Heç bilmək də istəmirəm. Ancaq sən mənim sözümə inana bilərsən". Və diqqətlə Braunun üzünə baxıb. "İnana bilərsən?" Braun ona "Hə" deyib.

Deyib ki, o gündən Kristmasın haçansa bir gecə miss Berdeni öldürəcəyindən qorxurmuş; şerif də soruşub ki, bəs onda o nə üçün bu şübhələri barədə vaxtında onlara xəbər verməyib, Braun isə deyib ki, elə bilirmiş, əgər bu barədə heç kimə heç nə deməsə, orada qalıb yaşaya və bu işə mane ola bilər, polisi də narahat eləməz; şerifsə, sanki, mızıldanırmış kimi ona bildirib ki, əgər belə etmiş olsaydı, onda çox xeyirxah iş görmüş olardı və yəqin ki, miss Berden də bunu bilsəydi, ona çox-çox təşəkkür edərdi. Məncə, bax onda Brauna çatıb ki, deməli, onun da işi yaşdır. Çünki dərhal danışmağa başlayıb ki, maşını Kristmasa miss Berden alıb, özü də neçə dəfə Kristması yola gətirməyə çalışıb, neçə ki ilişməyiblər, viski alverinin daşını atmağı məsləhət görüb; polislər diqqətlə ona baxır, o isə getdikcə daha tez-tez, daha çox şeylər danışırmış – guya o, şənbə günü səhər tezdən yuxudan ayılanda Kristmasın sübh obaşdan durub evdən çıxdığını görüb. Guya, Kristmasın hara getdiyini dəqiq bilirmiş; saat yeddidə Kristmas komaya qayıdır, orda dayanıb Braunun üzünə baxır. Sonra deyir: "Bu işi birdəfəlik bitirdim". Braun soruşur: "Nə işi, hansı işi?" Kristmas isə deyir: "Get gir evə, orda görərsən". Braun deyib ki, o anda möhkəm qorxsa da nə baş verdiyini heç ağlına da gətirməyib. Fikirləşib ki, ən uzağı Kristmas o qadını möhkəm əzişdirə bilər. Dediyinə görə, Kristmas təzədən bayıra çıxır; o da durub geyinir, səhər naharı hazırlamaq üçün ocaq qalayanda, təsadüfən qapıdan bayıra baxır və böyük evdə bütün mətbəxin od tutub yandığını görür.

– Onda saat neçə olardı? – şerif soruşur.

– Yəqin ki, səkkiz, – Braun deyir. – Adam nə vaxt yuxudan oyanır? Əgər zəngin deyilsə. Mən isə, bir Allah bilir ki, onlardan deyiləm.

– Ancaq yanğın haqda, – şerif deyir, – yalnız saat on birdə məlumat veriblər. Saat üçdə isə ev hələ də yanırdı. İndi sən nə demək istəyirsən, köhnə, taxta-şalbandan tikilmiş bir ev – nə qədər böyük olur olsun – altı saat yana-yana qala bilər?

Braun oturub döyükmüş halda ora-bura baxır, onlarsa – ətrafdakılar ondan gözünü çəkmirlər, onu üzük qaşı kimi dövrəyə alıblar. Braun onlara: "Mən sizə düzünü deyirəm. Axı siz

özünüz bunu xahiş etdiniz”, – deyir. Özü isə oyan-buyana baxır, başını bulayır. Sonra isə, demək olar ki, var gücüylə çığırır: “Mən nə bilim saat neçəydi? Nədi, bəlkə, siz elə bilirsiniz ki, yonqar sexində zənci, kölə kimi hamballıq edən bir adam qolunda saat gəzdirəcək qədər varlıdı?”

– Sən heç bir yonqar sexində-zadında işləmirsən, ümumiyyətlə, heç yerdə işləmirsən, – polis deyir, – əgər bir adam bütün günü şəhərdə təzə maşında kefi istədiyi kimi gəzməyi özünə rəva görürsə, onda o, bir-iki dəfə məhkəməyə getməyi də, saatın neçə olduğunu bilməyi də özünə rəva görə bilər.

“Axı sizə dedim ki, o mənim maşınım deyil! – Braun deyir. – Bu onun maşınıdır. Onu öldürdüyü o qadın alıb verib ona”.

“Bunun mətləbə dəxli yoxdur, – şerif deyir. – qoyun sözünə davam eləsin”.

Və Braun sözünə davam eləyir, getdikcə daha bərkdən, daha becid danışmağa başlayır, sanki o, Co Braunu Kristmas barədə danışdıqlarının arxasında gizlətməyə çalışır, ta o vaxtacan ki, Braun min dolları qamarlamaq şansını əldən verməsin. Bilirsiniz maraqlı olan nədir: bəzi adamlar elə fikirləşirlər ki, pul qazanmaq və yaxud pul əldə etmək qaydasız oyun kimi bir şeydi. Sonra da deyir ki, yanğını gördüyü anda o qadının nəinki ölüsünün, heç dirisinin də içəridə olduğunu ağlına belə gətirməyib. Deyir ki, heç evə girib baxmaq da ağlına gəlməyib: o, yalnız yanğını necə söndürmək barədə düşünürmüş.

“Bu hadisə – şerif deyir, – səhər saat səkkizdə olub. Siz belə deyirsiniz. Hemp Uollerin arvadı isə yanğın barədə düz saat on birdə məlumat verib. Yalın əllə bu yanğını söndürə bilməyəcəyinizi anlamağınız üçün, deyəsən, sizə xeyli çox vaxt lazım olub”. Bu qədər adamın (qapını arxadan bağlasalar da, cürbəcür sifətlər pəncərələrdən içəri boylanırmış) arasında qalan Braunun çaşqınlıqdan gözləri oyan-buyana səyriyir, hirsindən dili-dodağı əsməyə başlayır. “Hempin dediyinə görə o, qapını qırıb içəri girəndə, orada artıq bir adam varmış, – şerif deyir, – və bu adam onu yuxarı qalxmağa qoymurmuş.” O isə hələ də onların arasında oturub, gözləri hələ də o yan bu yana səyriyə-səyriyə, devikə-devikə qalıb.

Bu andan etibarən o, elə bilirəm ki, ümidini itirməyə başlayıb. Düşünürəm ki, təkcə min dolların yavaş-yavaş əlindən necə çıxdığını deyil, həm də kiminsə artıq onu ələ keçirdiyini gözləri önünə gətirib. Bəlkə də, cibində hesab etdiyi min dolların artıq başqa birisi tərəfindən xərcləndiyi də gözünə görünüb. Çünki, deyilənə görə, bundan sonra dediklərini sanki o, qəsdən bu an, bu məqam üçün gizlədib saxlayıbmış. Elə bil, əvvəlcədən bilirmiş ki, əgər ilişsə, bu onu xilas edəcək; hərçənd etiraf etdiyi şey ağ adam üçün qətlin özündə günahlandırılmaq qədər ağır bir aqibətlə də nəticələnə bilərdi. “Yaxşı, – deyib. – Buyurun. Məni günahlandırın. Sizə kömək etmək istəyən, bildiklərini danışan ağ adamı günahlandırın. Ağ adamı günahkar hesab edin, zəncisə azad gəzsin. Ağ adamı günahlandırın, zənci isə qoy qaçıb canını qurtarsın”.

“Zənci? – şerif deyib. – Zənci?”

Sanki, məhz bu anda başa düşüb ki, onlar artıq onun əlindədir. Sanki, onu nədə şübhəli bilsələr də, bütün bunlar indi onun o birisi haqda danışacaqlarının yanında boş şey olacaq. “Siz yaman da ağıllısınız, – deyib. – Bu şəhərdəkilərin hamısı yaman ağıllıdılar. Üç ildir sizi avam yerinə qoyublar. Üç ildir ona əcnəbi deyirsiz, mənsə elə üçüncü günü başa düşdüm ki, o elə mənim kimi əcnəbidir. O özü bunu mənə açıb deməmişdən qabaq başa düşdüm”. Hamı diqqətlə ona baxıb, arada bir-biriylə göz-gözə gəlsələr də, sonra yenə də baxışlarını ona çeviriblər.

“Bura bax, ağ adam haqqında danışanda sözlərinə fikir ver, – polis ona xəbərdarlıq edib. – Dəxli yoxdur, qatil olsun, olmasın”.

“Mən Kristmasdan danışıram, – Braun cavab verib. – Ağ qadını o öldürüb, özü də bütün şəhərin gözü qabağında onunla üç il bir yerdə yaşayandan sonra; axı siz burda oturub, məni – onu tapa biləcək yeganə adamı, onun nələr törətdiyini yaxşı bilən birini bu qədər uzun-uzadı sorğu-suala çəkənəcən, o bu şəhərdən, sizdən daha çox uzaqlaşmış olacaq. Onda zənci qanı var. Mən bunu ilk baxışdan başa düşmüşdüm. Sizsə – tanışlar-dostlar, ağıllı şeriflər və ilaxır, burada oturub... Bir dəfə o özü bunu mənə etiraf etdi. Bəlkə də, sərxoş idi, ona görə təsadüfən ağzından qaçırdı, bilmirəm. Ancaq səhəri gün mənə yaxınlaşıb dedi (o indi birnəfəsə, ara vermədən, dairə boyu gah bunun, gah da onun sifətinə dişlərini ağarda-ağarda, pişik kimi gözlərini parıldada-parıldada danışırmış), dedi ki: “Dünən axşam mən bir səhv eləmişəm. Bax, sən də onu təkrar eləmə!” Mənsə dedim: “Nə səhv?” O dedi: “Bir az ağlını işlət”. Elə bildim ki, biz Memfisdə olanda o gecə törətdiyi şeydən danışır; axı bilirdim ki, ona qarşı çıxsam, mənim həyatımın onun üçün bir qara sent qədər dəyəri olmayacaq, ona görə də dedim: “Səni başa düşdüm. Özgəsinin işinə qarışmaq fikrim yoxdur. Mən bilən, indiyəcən heç vaxt belə bir şeyə yol verməmişəm”. Əgər onunla bir komada qalmış olsaydınız, Braun deyib, siz də belə deyərdiniz; orda qışqırsaydın da səni heç kim eşitməzdi. Siz də mənim kimi qorxardınız, çünki kömək etmək istədiyiniz adamların özgənin törətdiyi qətli sizin boynunuza yıxmasını istəməzdiniz”. Eləcə, orada oturmuş halda gözlərini elə hey oyan-buyana səyirdə-səyirdə qalıb, onlar da gözlərini ona zilləyiblər, bayırda isə cürbəcür sifətlər pəncərəyə yapışıb qalıb.

“Zənci, – polis deyib. – Mən həmişə fikirləşirdim ki, bu oğlanda nəsə bir qəribəlik var”.

Şerif yenə də söhbətə qarışıb: “Deməli, siz buna görə orda baş verənlər haqda indiyə kimi susmusunuz?”

Braunsa onların arasında oturub, dişlərini ağardıb, ağzının qırağındakı xırda çapıq sütül qarğıdalı dənəsi kimi ağappaq ağarıb. “Siz mənə elə bir adam göstərin ki, – deyib, – mənim yerimə olsa, başqa cür hərəkət edərdi. Sizdən xahişim yalnız budur. Elə bir adam göstərin ki, o da bu adamla mənim qədər bir yerdə yaşadıqdan, onu mənim qədər tanıdıqdan sonra başqa cür hərəkət edə biləcəyini söyləsin”.

“Belə-belə işlər, – şerif deyib, – axır ki, deyəsən, sözün düzünü dediniz. İndi isə Bakla gedin, yaxşı-yaxşı yatıb yuxunuzu alın. Kristmasla mən özüm məşğul olaram”.

“Deməli, həbsxanaya, eləmi? Mən elə belə də bilirdim, – Braun deyib. – Deməli, məni həbsxanaya, barmaqlıqlar arxasına göndərirsiniz, özünüz isə mükafat dalınca qaçırsınız, eləmi?”

“Dilini dinc saxla, – şerif hirssiz-qəzəbsiz ona deyib. – Əgər sənə mükafat düşərsə, çalışacam ki, onu alasan. Bak, apar onu burdan”.

Polis Brauna yaxınlaşıb, əlini onun çiyninə qoyub, o da ayağa qalxıb. Onlar qapıdan çıxanda, pəncərədən içəri baxanlar onları dövrəyə alıblar. “Bak, onu tutmusunuz? Deməli, bu odu?”

“Yox, – Bak onlara deyib. – Dağılışın, uşaqlar, gedin evinizə. Yatmaq vaxtıdır”.

Bayronun səsi tutulur. Sakit, yeknəsəq kəndli nitqi sükut içərisində qırılır. O, yanımcıl və narahat nəzərlərlə Haytauerə sarı baxır, qarşısında oturmuş gözüyumulu, sifətindən göz yaşı kimi tər axan adamı müşahidə edir. Haytauer deyir:

– Bu dəqiqdirmi? Sübut olunubmu ki, onda zənci qanı var? Heç bilirsiniz, Bayron, bu nə deməkdir?! Əgər camaat bilsə ki... əgər onu tutsalar... bədbəxt insan. Bədbəxt bəşəriyyət.

– Braun elə deyir, – Bayron sakitcə, birbaşa, əminliklə cavab verir. – Axı yalançını da elə qorxutmaq olar ki, axırda o, məcbur qalıb düzünü desin; eləcə də əksinə: düz adamı zorla yalan danışmağa məcbur etmək olar.

– Elədi, – Haytauer deyir. O, gözüyumulu, dimdik oturub. – Ancaq onu hələ tuta bilməyiblər. Onlar hələ onu tuta bilməyiblər, Bayron.

Bayron da ona sarı baxmır.

– Hələ yox. Axırıncı dəfə eşitdiyim şey budur ki, onu hələ tuta bilməyiblər. Bu gün onlar iz axtaran itləri də gətiriblər. Amma hələ tutmayıblar. Axırıncı dəfə eşitdiyim şey bu olub.

– Bəs Braun?

– Braun, – Banç deyir. – O... O da onlarla getdi. Bəlkə də, o bu qətli törətməkdə Kristmasa kömək eləyib. Ancaq inanmıram. Elə bilirəm ki, onun gücü, olsa-olsa ancaq evi yandırmağa çatar. Əgər onu yandırıbsa da, elə bilirəm ki, bunu nə üçün elədiyini heç özü də bilməyib. Bəlkə də, o ümidlə eləyib ki, hər şey yanıb kül olsa, onda heç nəyin izi qalmaz və onlar yenə də həmişəki kimi təzə maşında şəhərdə istədikləri cür gəzə, kef çəkə bilərlər. Məncə, o elə fikirləşib ki, Kristmasın törətdiyi şey ağır günah yox, adi bir səhvdir. – Sifəti kütləşir, üzü aşağı sallanır. Yenə də ondan yorğun, acı bir istehza ötüb keçir. – İndi ona, yəqin ki, heç nə olmaz. İndi bu qadın özü onu istədiyi vaxt tapa bilər – əgər bu zaman o, şeriflə, izaxtaran itlərlə birlikdə adam ovuna çıxmamış olsa. Daha heç yana qaçmaz; niyə də qaçsın, axı min dollar, necə deyərlər, düz burnunun ucundadır. Elə bilirəm ki, indi Kristması hamıdan çox o tutmaq istəyir. Təsəvvür edirsiniz, onlar onu həbsxanadan çıxarır, o da onlara qoşulub gedir, sonra isə geri

qayıdanda onu təzədən həbsxanaya salırlar. Həqiqətən gülməlidir. Elə bil, qatil mükafat almaq üçün özü-özünü tutmağa çalışır. Ancaq o bunun əleyhinə deyil, bircə şeyə təəssüflənir ki, iz dalınca qaçmaq əvəzinə, həbsxanada oturub gözləyəndə vaxtı hədər gedir. Bəli. Sabah o qadına deyəcəm. Təkcə bunu deyəcəm ki, o hələlik həbsxanadadır – o və bir cüt izaxtaran it. Bəlkə də, şəhərə apardım, qoy gedib onların hər üçünün bir xaltada olduqlarını, o xaltanı dartışdıra-dartışdıra necə hürdüklərini öz gözləri ilə görsün.

– Siz hələ ona deməmisiniz.

– Nə ona demişəm, nə buna. Çünki mükafat bir yana, Braun onun burda olduğunu bilsə, dərhal şəhərdən qaçar. Amma o, Kristması tutsa və buna görə mükafat alsa, bəlkə də, onda bu qadınla vaxtında evlənə bilər. Qadın hələ heç nə bilmir; hər halda, dünən meydanda arabadan düşəndə bildiyindən artıq heç nə bilmir. Qarnı burnunda, yad bir adamın arabasından yavaş-yavaş ehmalca yerə, tanımadığı adamların arasına düşəndə, sanki, gördüklərinə sakitcə təəccüblənərək – ancaq elə bilirəm ki, təəccüblənib-eləməyib, çünki bura kimi o qədər yolu yavaş-yavaş, pay-piyada gəlib, söz-söhbət isə onu o qədər də yoran deyil – öz-özünə deyirmiş: “Belə-belə işlər... Gör hardan gəlirəm, – düz Alabamadan; deyəsən, axı doğrudan da Ceffersona gəlib çıxmışam”.

5

Gecə yarısıydı. Kristmas iki saat idi ki, yataqda uzanmışdı, amma hələ yuxuya getməmişdi. O, Braunun gəldiyini görməmişdən qabaq eşitdi. Braunun komaya necə yaxınlaşdığını, qapıdan içəri girərkən yıxılmamaq üçün onun çərçivəsində siluet kimi necə ilişib qaldığını gözü ilə görməmişdən qabaq qulağı ilə eşitdi. Braun ağır nəfəs alırdı. O, çərçivənin kənarlarından yapışıb, şirinliyi turşumuz iyrənc tenor səsilə zümzümə eləməyə başladı. Hətta onun ləngər səsi belə, elə bil, spirt iyi verirdi. “Mumla!”, – Kristmas dedi. O bunu yerindən tərpənmədən, səsini yüksəltmədən dedi. Ancaq Braun dərhal susdu. O, hələ də yıxılmamaq üçün qapıdan tutub durmuşdu, içəri girməmişdi. Sonra qapını buraxdı və Kristmas onun ayağı bir-birinə dolaşa-dolaşa necə içəri girdiyini eşitdi; bir saniyə sonra o, nəyləsə toqquşdu. Ağır, xırıltılı və fısıltıyla dolu uzun bir fasilə yarandı. Sonra Braun, kökündən kəsilmiş ağac kimi əcaib bir şaqqıltıyla yerə aşdı, yıxılarkən Kristmasın çarpayısına dəydi və sərsəm bir gülüş otağı başına götürdü.

Kristmas çarpayıdan qalxdı. Qaranlıqda gözlə görünməyən, gülməyi hələ də kəsilməyən və yerdən qalxmağa cəhd belə göstərməyən Braun hardasa onun ayaqlarının altındaydı. “Mumla!”, – Kristmas dedi. Braun isə gülməyinə davam etdi. Kristmas Braunun üstündən adlayıb, əlini stol kimi istifadə etdikləri taxta yeşiyə uzatdı – fənər və kibriti orda saxlayırdılar. Ancaq yeşiyi

yerində tapmadı və dərhal Braun yıxılarkən yerə düşüb sınan fənərin cingiltisini xatırladı. Ayaqları arasında uzanmış Brauna sarı əyildi, əlilə yaxasını axtarıb tapdı, onu dartıb çarpayının altından çıxardı, başını yerdən qaldırıb səsini kəsənəcən ovcunun içi ilə bərkdən, zərblə, hirslə döyməyə başladı.

Braun üst-başı əzilmiş halda yerdə uzanmışdı. Kristmas onun başını yerdən qaldırıb boğuq, pıçıltıya bənzər səslə o ki var söydü. Sonra sürüyə-sürüyə o biri çarpayının yanına gətirdi, arxası üstə onun üstünə atdı. Braun təzədən gülməyə başladı. Kristmas sol əlilə onun ağız-burnunu yumub, sağ əlilə yenidən ara verə-verə, ahəngdar, güclü zərbələrlə döyməyə başladı, sanki, o zərbələrin sayını bilmək istəyirdi. Braun gülməyini kəsdi. Çabalamağa, onun əlindən qurtulmağa çalışdı. O, Kristmasın əlindən qurtulmaq üçün ora-bura dartınır, boğuq, xırıltılı səs çıxarırdı. Yorulub sakitləşə, ölü kimi tərpənməz hala düşməyənəcən Kristmas onu buraxmadı. Yalnız onda əlini bir az boşaltdı. "İndi susacaqsan? – dedi. – Susacaqsan?"

Braun yenidən dartınıb onun əlindən çıxmağa çalışdı. "O qara əlini çək üstümdən, heyvərə zənc..." Əl yenidən onu sıxmağa başladı. Kristmas o biri əli ilə yenidən onun sifətinə bir zərbə vurdu. Braun susdu, sakitcə yerdə uzanılı qaldı. Kristmas əlini boşaltdı. Bir saniyədən sonra Braun asta, yumşaq səslə danışmağa başladı. "Sən zəncisən, başa düşdün? Özün bunu mənə demisən. Özün etiraf etmisən. Mənsə ağ adamam. Mən ağ..." Əl onu yenidən sıxmağa başladı. Braun yenə də səsini kəsdi, əlin ağırlığı altında xırıldaya-xırıldaya, o əli ağzının suyuna batıra-batıra yenidən çabaladı. Sonra sakitləşib ölü kimi tərpənməz hala düşəndə əl boşaldı. Braun sakitcə uzanıb qalmışdı, ağır-ağır, tövşüyə-tövşüyə nəfəs alırdı.

– İndi susassanmı? – Kristmas dedi.

– Hə, – Braun dedi. – O, xırıldaya-xırıldaya nəfəs alırdı. – Qoy bir nəfəsimi dərim. Susacam. Qoy bir nəfəs alım.

Kristmas əlini xeyli boşaltdı, amma tamam çəkmədi. Braunun nəfəsi bir az yüngülləşdi, daha sərbəst nəfəs almağa başladı. Amma Kristmas hələ də əlini onun sifətindən çəkməmişdi. Braunun nəfəsi onun barmaqlarına gah ilıq, gah da soyuq hava kimi dəyirdi və o, yerə sərilmiş bu cəmdəyin başı üzərində dayanaraq, sakitcə fikirləşdi *Mənə nə isə olacaq. Mən nə isə eləyəcəm* O, sol əlini Braunun ağız-burnundan çəkmədən sağ əlini öz çarpayısına, öz yastığına, o yastığın altındakı on iki santimetrlik tiyəsi olan bıçağa uzadıb onu ordan götürə də bilərdi. Ancaq bunu eləmədi. Bəlkə, düşüncə o qədər uzağa, elə bir zülmətə gedib çıxdı ki, ona *Yox, bu o deyil* dedi. Hər halda, bıçağı götürmədi. Bir qədər sonra əlini Braunun sifətindən çəkdi, amma onun yanından aralanmadı. Hələ də çarpayının başı üzərində dayanıb, elə rahat, elə sakit nəfəs alırdı ki, onu heç özü də eşitmirdi. Qaranlıqda gözlə görünməyən Braun da indi sakit, səssiz nəfəs alırdı; bir az keçəndən sonra Kristmas oradan aralandı, gəlib öz çarpayısının üstündə oturdu, siqaret və kibrit tapmaq üçün divardan asılmış şalvarının ciblərini qurdaladı. Kibrit alışıb

Braunun üstünə işıq saldı. Kristmas siqareti yandırmazdan qabaq, kibrit dənəsini havaya qaldırıb Brauna sarı baxdı. O, arxası üstə sərilib qalmışdı, bir əli döşəməyə sallanmışdı. Ağzı açıq idi. Kristmas durub ona baxanacan xoruldamağa başladı.

Kristmas siqaretini yandırdı, yanan kibrit dənəsini barmaqlarının ucuyla açıq qapıya tərəf fırlatdı, yolun yarısında alovun necə söndüyünə tamaşa etdi. Yanmış dənənin döşəməyə dəyərkən çıxaracağı zəif, yüngül zərbə səsini eşidə bilmək üçün qulaq kəsildi; ona elə gəldi ki, onu eşitdi. Sonra qaranlıq otaqda, çarpayının üstündə oturarkən ona elə gəldi ki, o, başqa saysız-hesabsız zəif səsləri: ağacların, qaranlığın, insanların səsini, qımıltısını, pıçıltısını, öz səsini, daim içində yaşatmış olduğu müxtəlif adları, dövrləri, yerləri yaddaşında oyadan digər səsləri də eşidir; onlar onun bütün həyatının məğzi, məcmusudur, hərçənd o özü bunu bilmir, bilmir ki, bütün bunlar onun həyatıdır. Və bunları eşidə-eşidə fikirləşdi *Bəlkə də, Allahdı səbəbkar, mən isə hətta bunu da bilmirəm* O bunu yalnız çap olunmuş, normal doğulsa da artıq ölü olan *Allah məni də sevir* cümləsi kimi, ötən ilki *Allah məni də sevir* afişasının bozarmış, yarısolmuş hərfləri kimi görə bilərdi.

Əlini bir dəfə də olsun siqaretə toxundurmadan onu çəkib qurtardı. Siqaret kötüyünü də kibrit dənəsi kimi barmaqlarının ucu ilə qapıya tərəf fırlatdı. Kibrit dənəsindən fərqli olaraq o, havada sönmədi. Kristmas siqaret kötüyünün qapının o tayında, havada fırlana-fırlana necə közərdiyinə tamaşa etdi. Yuxusu gələcəyinə ümidi olmayan adamlar kimi əllərini boynun ardında çarpazlayıb yatağına uzandı və fikirləşdi *Saat ondan uzanmışam, amma hələ yatmamışam. Saat neçə olar, onu da bilmirəm, amma gecədən xeyli keçib, mənsə heç cür yuxuya gedə bilmirəm* "Çünki o mənim üçün dua etməyə başlayıb", – dedi. Ucadan. Səsi qaranlıq otaqda qəflətən elə bərk çıxdı ki, sərxoş Braunun xorultusunu belə batırdı. "Bax buna görə. Çünki o mənim üçün dua etməyə başlayıb".

Çarpayıdan qalxdı. Yalın ayaqları səssizcə döşəməyə toxundu. O biri çarpayıda Braun xoruldayırdı. Kristmas dayanıb başını səs gələn tərəfə döndərdi. Ayaqyalın, təkcə alt paltarında komadan çıxdı. Bayırda hava bir az işıqlı idi. Başı üzərində ulduz topaları yavaş-yavaş fırlanırdı; otuz il idi bilirdi ki, ulduzlar var, ancaq onun üçün onların heç birinin adı yox idi, heç biri öz rəngi, parlaqlığı, hansı tərəfdə yerləşməsi ilə ona heç nə demirdi. İrəlidə, sıx ağacların arasında yalnız soba borusunu və taxtapuşu seçə bildi. Evin özü isə qaranlıqda görünmürdü. Ona yaxınlaşdı, içəridən nə səs, nə də işıq gəlirdi və o, qadının yatdığı otağın pəncərəsi altında dayanıb fikirləşdi *Hələ üstəlik əgər o yatıbsa. Əgər o yatıbsa* Qapılar heç vaxt bağlı olmazdı, gecənin hansı vaxtında həvəsi onu yuxudan qaldırsa, o bu evə girib qadının yataq otağına yollanar, qaranlıqda onun yatağını çox asanlıqla tapardı. Bəzən qadın yatmamış olardı, onu gözləyər, onun adını çəkərdi. Bəzən isə o bu qadını ağır, kobud əlləriylə durğuzar, çox vaxt elə bu cür kobudluqla da – qadın hələ yuxudan tam ayılmamış – ona yiyələnərdi.

O vaxtdan iki il keçir, onların iki ili indi arxada qalıb; fikirləşdi *Bəlkə də ən təhqiramizi də elə bundadır. Bəlkə mən elə bilirəm ki, məni dolayıb, aldadıblar. O mənə yaşını, bu yaşda qadınlarda nələr baş verdiyini düz deməyib* Qaranlıq pəncərənin altında dayanıb ucadan dedi: "O gərək mənim üçün dua etməyəydi. Əgər mənim üçün dua etməyə başlamasaydı, ona heç nə olmazdı. Qocaldığına, bundan sonra heç nəyə yaramadığına görə o günahkar deyil ki. Amma başa düşməliydi ki, mənim üçün dua etmək olmaz". Onu söyməyə başladı. Qaranlıq pəncərənin altında dayanıb, onu o ki var söydü: yavaş-yavaş, düşünülmüş şəkildə, pis-pis sözlərlə. Üzünü pəncərəyə tərəf tutmamışdı. Elə bil, yarıqaranlıqda öz bədəninə baxırdı; sanki, çəpəraltı çirkab pıçıltısında, sudan da qatı nəsə qara bir məhlul gölməçəsində öz bədəninin boğulmuş meyit kimi tənbəlcəsinə, şirin bir ləzzət içində necə çimdiyinə tamaşa edirdi. Əllərini köynəyinin altına soxub bədəninə toxundurdu, sonra yavaş-yavaş üzüyuxarı qaldırıb, ovuclarının içi ilə qarnına, sinəsinə möhkəm sığal çəkdi. Alt tumanını təkcə bir düymə saxlayırdı. Haçansa onun bütün düymələri yerindəydi. Qırılanda onları bir qadın tikirdi. Belə bir dövr də vardı. Ancaq o dövr keçib getdi. O öz alt tumanını hər yuyuşdan sonra, qadın onun düymələrini tikməyə macal tapmamış, ondan əvvəl ailə camaşırlarının içərisindən tapıb götürməyə başladı. Bircə dəfə qadın onu qabaqladı; onda da o, hansı düymələrin qırıldığına və yenidən yerinə tikildiyinə xüsusi diqqət yetirdi, yadında saxladı. Sonra da yenidən tikilmiş o düymələri soyuq, hissiyyatsız cərrah dəqiqliyi ilə cib bıçağıyla kəsib atdı.

Sağ əlini alt tumanının qabağına soxub – bir vaxtlar bıçaqla elədiyi kimi – onu yanı üstə sürətlə yuxarı çəkdi. Yüngül və sərt bir zərbəylə vurub axırıncı düyməni də qırıb atdı. Tuman aşağı sürüşüb ayaqlarının altına düşəndə qaranlıq havanın rahat nəfəsi onun bütün əzalarını öz ağuşuna aldı – qaranlığın sərin dodaqları, yumşaq sərin dili onun bütün bədənini yaladı. Yerindən tərpənəndə qaranlıq hava ona su kimi gəldi, ayaqları altındakı şehi hiss etdi; onu əvvəllər heç vaxt bu cür hiss etməmişdi. Sınıq həyət qapısından keçib, yolun qırağına çatanda dayandı. Avqust kol-kosu qurşağa qədər qalxmışdı. Yarpaqların və zoğların üstünə yoldan keçən arabaların bir aylıq toz-torpağı çökmüşdü. Qarşıda yol uzanıb gedirdi. O, qaranlığa bürünmüş torpağa, ağaclara nisbətən bir qədər ağımtıl görünürdü. Bir ucu şəhərə gedirdi. O biri ucu isə təpəyə qalxırdı. Tezliklə səma xeyli işıqlandı; təpə daha aydın göründü. Sonra o, maşın səsi eşitdi. Yerindən tərpənmədi. Əlləri belində, çıl-çılpaq, qurşağa qədər kol-kosun içində dayanmışdı, maşın isə təpəni aşıb tədricən ona yaxınlaşır, faraların işığı indi onun da üstünə düşürdü. O bir müddət öz bədəninin, aşkarlayıcı məhluldakı fotoşəkil kimi qaranlıqda yavaş-yavaş ağararaq necə üzə çıxdığına tamaşa etdi. Sonra gözlərini qırpmadan yanından keçən maşının faralarına baxdı. Oradan geriyə bir qadının dəhşətli çığırtısı yayıldı. "Ağ əclaflar! – o, maşının ardınca qışqırdı. – Birinci dəfə deyil ki, sizin ağ qancığınızın biri mənim..." Ancaq maşın artıq uzaqlaşmışdı. Onun dediyini eşidən, duyan yox idi. Maşın yoldan qalxan toz-torpağı,

işığı, getdikcə zəifləyən qadın çığırtısını udaraq sürətlə uzaqlaşıb artıq gözdən itməkdə idi. Üşüməyə başladı. Sanki, o, son aktda iştirak etmək üçün bura gəlmişdi; indi o akt başa çatmışdı və o yenidən sərbəst idi. Evə qayıtdı. Qaranlıq pəncərənin altında ayaq saxladı, alt tumanını axtarıb tapdı, geyindi. Heç bir düyməsi qalmadığından, komaya çatanacan onu əli ilə tutub saxlamalı oldu. Braunun xorultusu qulağına gəldi. Bir anlığa sakitcə qapının ağzında dayanıb, Braunun boğunuq xırıltı ilə yekunlaşan uzun, xorultulu, narahat fısıltısına qulaq asdı. "Deyəsən, onun burnunu lap bərk əzmişəm, – bir anlığa fikrindən keçdi. – Qancıq balası". İçəri girdi, uzanmaq üçün çarpayısına tərəf getdi. Başını yastığına qoymaq istəyərkən, birdən dayandı, əyilmiş vəziyyətdə yerindəcə donub qaldı. Bəlkə də, sərxoş bir adamın xorultusu altda səhərə kimi yuxusuz qalacağını, səhərə kimi cürbəcür saysız-hesabsız səslər eşidəcəyini ağlına gətirdiyi üçün bu ona dözülməz göründü. Durub oturdu, sakitcə çarpayının altını eşələdi, ayaqqabılarını tapdı, geyindi, çarpayının üstündəki yarıyun adyalını – özünün yeganə yataq ləvazimatını götürüb komadan çıxdı. Təxminən üç yüz metr aralıda at tövləsi vardı. O, çoxdan uçub dağılmışdı, otuz il idi orada heç at da saxlamırdılar; ora yollandı. Bərk gedirdi. Gedə-gedə fikirləşdi, həm də ucadan fikirləşdi: "Mən niyə at iyinin içində yatmalıyam?" Sonra tərəddüdlə dedi: "Çünki onlar qadın deyillər. Hətta onların dişisi də kişi kimidi".

İki saatdan az yatdı. Yuxudan ayılanda şəfəq yenicə sökülmüşdü. Keçmişdənqalma, boğaz qıcıqlandıran çürümüş ot və hələ də at peyini iyi verən köhnə, alaqaranlıq tövlənin çatlaq döşəməsi üzərində adyala bürünərək uzanmışdı, pəncərədən sarı rəngə bürünmüş şərq, bir az yüksəkdə isə yetkin yay dövrünün solğun qütb ulduzu görünürdü.

Yuxudan ayılanda yorğunluğu tamam çıxmışdı, elə bil, səkkiz saat yatmışdı. Yuxusu birdən gəlmişdi, onu yuxu aparacağını heç gözləmirdi. Yenidən ayaqlarını bağları açıq ayaqqabılarının içinə soxdu, səliqəylə qatlanmış adyalı qoltuğuna vurub dimdik nərdivanla – gözlə görünməyən çürük pillələri ayağı ilə yoxlaya-yoxlaya, boş əlini bir pillədən o birinə keçirə-keçirə aşağı düşdü. Bayırda onu boz-sarımtıl dan yeri, sərin, təzə-tər hava qarşıladı; dərindən nəfəs alıb o havanı doyunca ciyərlərinə çəkdi.

Al şəfəqə bürünmüş şərq tərəfdə koma, həmçinin soba borusundan başqa evin hər yerini gizlədən kiçik meşəlik aydın görünürdü. Hündür otlar şehdən ağırlaşmışdı. Ayaqqabıları dərhal islandı. Dəri dabanlarını üşütdü, qıçlarına toxunan nəm otlar bir az yumşalmış buz sırsıraları kimi som-soyuq idi. Braun daha xoruldamırdı. İçəri girəndə Kristmas şərq tərəfdəki pəncərədən düşən işıqda ona yaxşı-yaxşı nəzər saldı. İndi Braun rahat nəfəs alırdı. "İçkidən ayılıb, – Kristmas düşündü. – Ayılıb, amma özünün bundan xəbəri yoxdur. Bədbəxt gicbəsər". Ona tərəf baxdı. "Bədbəxt gicbəsər. Yuxudan oyanıb yenə ayıq olduğunu başa düşəndə gör necə hirslənəcək. Uzağı bir saat dözəcək, sonra yenidən içib dəmlənəcək". Adyalı yerinə qoydu,

diaqonal şalvarını, ağ, amma artıq çirklənmiş köynəyini geyindi, kəpənək formalı qalstukunu taxdı. Siqaret yandırdı. Divara mıxla bir güzgü qırığı bərkitmişdilər. Qalstukunu bağlayarkən o güzgüdə öz qaşqabaqlı əksinə baxdı. Nimdaş, geyilməkdən ağırlaşmış şlyapası mıxdan asılmışdı. Onu götürmədi. Əvəzinə başqa mıxdan asılmış kepkasını götürdü, döşəyin altından isə, adətən, üz qabığında ya alt paltarında cavan qadınların, ya da tapançadan bir-birinə güllə atan cavan kişilərin şəkli çap olunan bir jurnal çıxardı.

O, komadan çıxanda hava tamam işıqlaşmışdı. Quşlar səs-səs vermişdilər. Bu dəfə evdən uzağa yollandı. At tövləsinin yanından keçib, çəmənliyə çıxdı. Tezliklə ayaqqabıları, şalvarının balaqları tamam şehə batdı. Ayaq saxladı, şalvarının balaqlarını dizlərinəcən yuxarı qaldırıb, onları səliqəylə qatladı, yoluna davam etdi. Çəmənlik qurtarandan sonra meşə başlayırdı. Burada şeh az idi deyə, şalvarının balaqlarını açıb aşağı saldı. Bir qədər sonra bir dərəyə gəlib çıxdı, burada bulaq vardı. Jurnalı kənara qoyub, çırpı topladı, ocaq qaladı, sonra kürəyini bir ağacın gövdəsinə söykəyərək, ayaqlarını ocağa tərəf uzadıb oturdu. Az keçməmiş yaş ayaqqabılarından buğ qalxmağa başladı. Ocağın istisinin ayaqlarından başlayıb bütün canına necə yayıldığını hiss etdi; gözlərini açanda isə günəşin xeyli yüksəyə qalxdığını, ocağın sönmək üzrə olduğunu görüb başa düşdü ki, yatıb. “Vallah, yuxu məni aparıb, – o, fikirləşdi. – Vallah, yatmışam, özü də bir gündə ikinci dəfə”.

Bu dəfə o, iki saatdan çox yatmışdı, çünki günəşin şüası artıq bulağın üstünə düşərək, durmadan axan suyun üzərində sınıb parçalanır, bərq vururdu. O, ehmalca ayağa qalxdı, qıc olmuş kürəyini düzəltdi, yatmış əzələlərini hərəkətə gətirdi. Sonra cibindən ülgücünü, sabun və sürtgəcini çıxardı. Bulağın qırağında dizi üstə çökdü, uzun tiyəli ülgücünü ayaqqabısına çəkib itilədi, sonra da güzgüymüş kimi suya baxa-baxa üzünü qırxdı.

Ülgüc ləvazimatlarını, jurnalı kolluqda gizlətdi, qalstukunu yenidən boynuna taxdı. Bulaqdan aralanıb, elə bir istiqamətə üz tutdu ki, ev ondan xeyli uzaqda qaldı. Evdən yarım mil uzaqlıqda yola çıxdı. Bir az aralıda, benzindoldurma məntəqəsinin böyründə balaca bir dükan vardı. Ora girdi, satıcı qadından kreker və bir də bir banka ət konservi aldı. Bulağın, ocağın yanına qayıtdı.

Yenə kürəyini ağacın gövdəsinə söykəyib, jurnal oxuya-oxuya səhər yeməyini yedi. Bu vaxta qədər yalnız bir hekayəni oxuyub qurtarmışdı, indi də ikincisinə başlamışdı; jurnalı başdan-ayağa, roman kimi oxuyurdu. Ağzında yeməyini çeynəyə-çeynəyə arabir gözlərini jurnal səhifəsindən ayırıb, yuxarıya, dərənin üstünə yayılan, günəş şüalarının deşib keçdiyi yarpaq çətirinə baxırdı. “Bəlkə, mən bu işi artıq görmüşəm, – deyə o fikirləşdi. – Bəlkə artıq görmüş olduğuma görə bu iş daha məni gözləmir”. Ona elə gəldi ki, dincliklə açılan bu sarı günə o, gedər-gəlməzə aparan yol ayrıcında rastlaşdığı və seçim anında ondan heç bir tələskənlik tələb etməyən bir dəhliz, bir cığır kimi baxa bilər. Ona elə gəldi ki, o burda oturduqca bu sarı gün,

yerə yayxanıb şirin-şirin yuxulayan sarı pişik kimi mürgülü-mürgülü ona göz qoyur. Oxumağına davam etdi. Hər səhifəni qurtardıqca onu ciddi bir ardıcıllıqla çevirib o birinə keçirdi, amma bəzən bir səhifənin, bir sətrin, bəlkə də, bir sözün üstündə ilişib qalırdı. Onda o, başını qaldırıb harasa baxmırdı. Heç tükü də tərpənmirdi; görünür, başı mahiyyətinə hələ vara bilmədiyi bir sözə qarışır, o söz onu özünə çəkirdi; bu dinc, günəşli məkanda bütün varlığı bu qısa və əhəmiyyətsiz adi bir hərf birləşməsindən asılı qalırdı və çəkisiz bir şey kimi yerində donaraq, sanki, zamanın ləng axarına yuxarıdan göz qoyur, fikirləşirdi *Mən yalnız dinclik istəyirdim* Fikirləşirdi: "O gərək mənim üçün dua etməyəydi".

Sonuncu hekayəyə çatanda, oxumağına ara verdi, qalan səhifələri saydı. Sonra başını qaldırıb günəşə baxdı və yenə də oxumağına davam etdi. İndi onu elə oxuyurdu ki, elə bil, küçədə səki daşlarını saya-saya yeriyirdi – düz son səhifəyə, son sözə qədər. Sonra ayağa qalxdı, kibriti yandırıb jurnala od vurdu və onu əlində yellədə-yellədə, səbirlə təmiz yanıb kül olmasını gözlədi. Üzqırxan ləvazimatlarını cibinə soxub dar dərəylə üzüaşağı yola düzəldi.

Bir az gedəndən sonra dərə genişləndi: girintili-çıxıntılı, yuxarısını tikan, kol basmış sıldırım qaya divarlar arasındakı dərənin dibi hamar idi, yumşaq qumdan ağappaq ağarmışdı. Onun başı üzərində hər iki tərəfdəki ağacların budaqları hələ də bir-birinə qarışmışdı; divarın birində əmələ gəlmiş oyuğa şax-şəvəl tökülmüş, onun üstü tamamilə örtülmüşdü. O, quru budaqları bir kənara yığmağa başladı, oyuğun üstünü açıb təmizlədi, iti ağızlı təpcək beli ordan tapıb götürdü. Bu vaxtacan quru şax-şəvəlin altında gizli qalan qumu həmin bellə qazmağa başladı və oradan ard-arda, qapağı yivlə burulub açılan altı dəmir çəllək çıxardı. Onların ağzını burub açmadı. Böyrü üstə yerə yıxdı, iti bellə vurub deşdi; çəlləklərin altındakı qum şırhaşır tökülən viskidən nəmlənib qaraldı, sükut içində olan günəşli havanı spirt iyi bürüdü. O, maska kimi donuq sifətlə çəlləkləri bir-bir, tələsmədən, son damlasına qədər boşaltdı. Sonra onları bir çalaya yığıb, üstünü qumla birtəhər örtdü, quru şax-şəvəli təzədən əvvəlki yerinə daşıyıb, beli gizlətdi. Şax-şəvəl nəm ləkənin üstünü örtsə də, havaya yayılmış spirt iyini gizlədə bilmədi. O, yenə də başını qaldırıb günəşə baxdı. Günortadan keçmişdi.

Axşam saat yeddidə şəhərdə idi, yan küçədəki restoranda, sürtülməkdən pardaxlanıb hamarlanmış piştaxtanın arxasında, kətildə əyləşib şam yeməyini yeyirdi.

Saat doqquzda dəlləkxananın qabağında dayanıb, şüşənin arxasından iş ortağına baxırdı. Daş kimi tərpənməz dayanmışdı, əllərini cibinə soxmuşdu; siqaret tüstüsü bir əzası belə tərpənməyən sifətindən burula-burula havaya qalxırdı; kepkasını isə nimdaş şlyapası kimi çəpəki qoymuşdu, çox zəhmli görünürdü. O qədər soyuq, o qədər zəhmli duruşu vardı ki, əynində kirli qırmızı damalı şalvar, kirli ala-bəzək köynək olan Braun işıqlı, losyon və isti sabun iyi verən boğanaq salonda xırıltılı səslə, əl-qol ata-ata nəsə danışarkən birdən başını qaldırıb sərxoş gözləri

ilə şüşənin o tayındakı adamı görəndə dərhal sözünü yarımçıq kəsdi. O qədər soyuq, o qədər zəhmli idi ki, hətta fit çala-çala küçədən ötən zənci oğlan da Kristması görəndə səsini kəsdi, kənara çəkildi, onun arxa tərəfinə keçəndən sonra sürətlə, tez-tez dönüb geri baxa-baxa ordan uzaqlaşdı. Ancaq Kristmas özü də artıq oradan uzaqlaşırdı. Sanki, o burada yalnız ona görə ayaq saxlamışdı ki, Braun onu görsün.

Tələsmədən, aram addımlarla meydandan uzaqlaşırdı. Həmişə sakit olan küçə indi tamam kimsəsiz idi. Bu küçə zənci məhəlləsindən, Fridmen-Taundan keçib stansiyaya qədər uzanırdı. Saat yeddidə o burda şəhər meydanına, yaxud kinoya gedən həm ağ, həm də qara adamlarla rastlaşa bilərdi; onun yarısında isə onlar evlərinə qayıdırdılar. Amma hələ kino qurtarmamışdı, buna görə də o, indi küçədə tək-tənha idi. Yavaş-yavaş yeriyir, ağların evləri arasında bir fənərdən o birinə doğru irəliləyirdi; ağcaqayın, palıd yarpaqlarının sıx kölgəsi onun ağ köynəyi üstündə qara məxmər zolaqları kimi sayrışırdı. Ucaboy bir kişinin kimsəsiz küçədə tək-tənha gəzməsi qədər qatı yalqızlığı təsəvvürə gətirmək çətindir. O, çox iri, çox da ucaboy olmasa da, səhradakı tənha telefon dirəyindən də yalqız görünürdü. Boş, geniş, kölgələrin tutqunlaşdırdığı küçədə o, öz dünyasından ayrı düşmüş, yolunu azmış bir xəyalat, bir ruh kimi görünürdü.

Sonra birdən harda olduğunun fərqinə vardı. Özü hiss etməsə də küçə dikdirlə üzüaşağı düşmüş, ətrafına baxmağa macal tapmamış onu Fridmen-Tauna – gözə görünməyən zəncilərin yay iylərinin, yay səslərinin arasına gətirib çıxarmışdı. Onlar – bu qeyri-cismani səslər, sanki, onu dövrəyə almışdılar, özgə dildə pıçıldaşır, danışır və gülüşürdülər. Sanki, o, dar, dərin, qaranlıq bir quyunun dibinə düşmüşdü və ordan özünü ətrafdakı, o qədər də aydın seçilməyən, ağ neft çırağı ilə güclə işıqlanan koma cizgilərinin əhatəsində görürdü; elə bil, küçə fənərləri də məhz buna görə az idi, sanki, qara həyatı, qara nəfəsi bir-birinə qarışıb nəsə qatı bir məhlula çevrilmişdi, ona görə də təkcə səslər deyil, həm də hərəkətdə olan bütün cisimlər, elə işığın özü də maye halına düşməli, yaxınlaşmaqda olan gecəni yavaş-yavaş, zərrə-zərrə canına soraraq, onunla vahid, bölünməz bir şey təşkil etməliydı.

İndi o, yerində dayanıb tərpənmirdi, dərindən, ağır-ağır nəfəs alır, qudurmuş vəhşi heyvan kimi ətrafına göz gəzdirirdi. Ağ neft çıraqlarının bürkülü, tutqun işıqları qaranlıqda zənci daxmalarının cizgilərini üzə çıxarırdı. Hər yanda, hətta onun öz içində belə zənci qadınlarının qeyri-cismani, münbit bətnli səslərinin uğultusu eşidilirdi. Sanki, o və onun kişi həyatını təşkil edən bütün şeylər geriyə – işıqsız, isti, nəm ilkin Qadın bətninə qaytarılmışdı. O, dişləri, gözləri parıldaya-parıldaya növbəti küçə fənərinə doğru qaçmağa başladı, ağzına dolan hava qurumuş dodaqlarını, dişlərini üşütdü. Qaranlıq çökəklikdəki dar, çala-çuxur yol fənərə çatanda yana burulub üzüyuxarı, paralel küçəyə qalxırdı. Kristmas qaça-qaça o yola döndü, tövşüyə-tövşüyə, sərt yoxuşla üzüyuxarı – o küçəyə tərəf qaçmağa başladı. Ora çatanda dayandı, nəfəsi kəsilmişdi,

gözləri oyan-buyana səyriyirdi, az qala, ürəyi yerindən qopacaqdı; sanki, o, artıq ətrafındakı havanın soyuq, kəskin, ağ adam havası olduğuna heç cür inana bilmir, yaxud inanmaq istəmirdi.

Sonra o soyudu. Zənci iyi, zənci səsləri arxada, aşağıda qalmışdı. Solunda işıq salxımlarına bürünmüş meydan uzanıb gedirdi: sanki, parlaq qanadlı quşlar həyəcan içində göy üzündən asılı qalmışdılar. Sağ tərəfində bir-birindən gəmirilmiş, təmkinli budaqları ilə ayrılan tək-tük küçə fənərləri cərgəylə addımlayırdılar. O, yenə də yavaş-yavaş, yenə də ağların evlərinin arasıyla yoluna davam etdi, meydandan uzaq olmağa çalışdı. Burada da verandalarda – çəmənliklərdəki kreslolarda da həmçinin – adamlar oturmuşdular; amma o burda rahat, sərbəst yeriyirdi. Arabir onları görə də bilirdi: başların siluetlərini, paltarlı ağ adam fiqurlarının aydın seçilməyən cizgilərini; bir işıqlı verandada kart stolu arxasında dörd nəfər oturmuşdu – zəif lampa işığında aydın görünən gərgin ağ sifətlər və qadınların mənasız kartlar üzərində ağaran yumşaq çılpaq əlləri. "Mənim istədiyim də elə budu, – o fikirləşdi. – Deyəsən, o qədər də çox şey istəmirmişəm".

Bu küçə də üzüaşağı enməyə başladı. Ancaq bu eniş etibarlıydı. Onun havada üzən ağ köynəyi, güclə görünən qara ayaqları ulduzlu avqust səmasına soxulan enli və şaquli kölgələrin – pambıq anbarının, başı üzülmüş mastodont[2] gövdəsi kimi uzun və silindrvarı sisternlərin, yük vaqonları cərgəsinin kölgələri arasında itib-batdı. O, dəmiryolu xəttini keçdi, relslər semafor işığında iki yaşıl ox kimi bir anlığa bərq vurdu və sonra o işıq yenə ordan uzaqlaşdı. Dəmiryolu xətlərindən sonra meşə başlayırdı. Ancaq o, cığırı səhvsiz tapdı. Cığır ağacların arasından dağa qalxırdı; vadinin o tayında, dəmir yolunun uzanıb getdiyi yerdə yenə də bir-birinin ardınca şəhərin işıqları görünməyə başladı. Ancaq o, təpənin zirvəsinə çıxanacan dönüb arxaya baxmadı. Orda isə şəhəri, şəfəqi, ayrı-ayrı işıqları yenidən gördü – ordan baxanda küçələr, sanki, meydandan qaçıb ətrafa dağılırdı. Yola çıxdığı küçəni, az qala onu satan o biri küçəni gördü, bir az uzaqda isə düz bucaq altında sınan parıltılı şəhər səddi və onun bir küncündə bayaq ürəyi çırpınaraq, dişləri ağara-ağara baş götürüb qaçdığı o qara çökəklik görünürdü. Oradan bura nə işıq, nə nəfəs, nə də iy gəlirdi. O, sadəcə qara, anlaşılmaz bir şey kimi titrək avqust işıqlarının salxımları arasında durub qalmışdı. Bəlkə də, o, ilkin nüvə, ilkin xaosun özüydü.

O, zil qaranlığa, ağaclara baxmayaraq qətiyyətlə irəliləyirdi. Tutduğu cığırı gözü ilə seçə bilməsə də, bir dəfə də olsun yolu azıb kənara çıxmadı; meşənin uzunluğu bir mil olardı. Nəhayət, geniş yola çıxdı, ayaqlarını toza basdı. İndi o, getdikcə böyüyən dünyanı, üfüqü görürdü. Adda-budda pəncərələrdən işıq gəlirdi. Ancaq komalar qaranlıq içində idi. Buna baxmayaraq, qan yenə dilə gəldi: danışdı, danışdı. Yeyin-yeyin, onun təqtinə uyğun yeriyirdi; deyəsən o bu adamların zənci olduğunu onları görməmişdən, eşitməmişdən, onlar artıq yerə yatmış tozun fonunda boy verməmişdən əvvəl başa düşmüşdü. Beş və ya altı nəfər idilər, cüt-cüt

---

[2] Mastodont – ibtidai dövrdə yaşamış xortumlu böyük heyvan

qol-qola girib zəncir kimi düzüldükləri güclə hiss olunurdu; yenə də öz qanının hay-küyü arasından onun qulağına gur qadın səslərinin uğultusu gəldi. Yeyin addımlarla birbaş onların üstünə getdi. Onlar onu gördülər, qırağa çəkildilər; səsləri kəsildi. O da istiqamətini dəyişdi, yolu çəpinə kəsib onların önünə çıxdı, sanki, üstlərindən keçib getmək istəyirdi. Qadınlar hamısı bir yerdə, sanki, əmr üzrə geri çəkildilər, yandan keçib onun yolunu açdılar. Kişilərdən biri geriyə boylana-boylana onların dalınca getdi; sanki, qadınlara çatmaq istəyirdi. Digər iki kişi ayaq saxlayıb, Kristmasa tərəf döndü. Kristmas da dayandı. Elə bil, heç biri hərəkət etmirdi, amma o iki nəfər aydın görünməyən iki kölgə kimi uzana-uzana ona yaxınlaşırdı. O, zənci, ucuz paltar və tər iyini duydu. Uzun zəncinin başı yuxarıdan, göydən aşağı əyildi. "Bu ağ adamdır", – o, sakitcə, arxaya baxmadan dedi. "Siz nə istəyirsiniz, ağ adam?" Səsində heç bir təhdid yox idi. Amma yaltaqlıq da hiss olunmurdu.

– Yup, çəkil ordan, – qadınların dalınca gedən zənci dedi.

– Kimi axtarırsınız, rəis? – zənci dedi.

– Yup, – qadınlardan biri incə səslə dedi. – Çəkil də ordan.

Bir anlığa iki baş – biri ağ, biri qara – sanki, qaranlıqdan asılı qaldı: üz-üzə, nəfəs-nəfəsə. Sonra zəncinin başı, sanki, kənara çəkilib itdi; haradansa soyuq külək əsdi. Kristmas yavaş-yavaş geri qanrılıb, yenə də əriyib yox olan, bozumtul yolla eyniləşən fiqurları baxışları ilə müşayiət etdi və birdən anladı ki, ülgüc əlindədi. Ağzı hələ açılmamışdı. O bu ülgücü qorxudan çıxarmamışdı. "Qancıqlar! – o dedi. – Qancıq törəmələri!"

Qaranlıq və soyuq külək əsməyə başladı; hətta ayaqqabılarının üstündəki toz da som-soyuq idi, onu üşüdürdü. "Nə olub mənə?" – o fikirləşdi. Ülgücünü cibinə soxdu, dayanıb siqaret yandırdı. Siqareti ağzına qoymamışdan qabaq, bir neçə dəfə dodaqlarını yalamalı oldu. Kibrit işığında əllərinin necə əsdiyini gördü. "Hamısı narahatlıqdandı" o fikirləşdi. "Hamısı bu lənətə gəlmiş narahatlıqdandı". Bu dəfə ucadan, artıq yeriyə-yeriyə dedi. Göyə, ulduzlara baxdı. "Yəqin ki, tezliklə saat on olacaq, – fikirləşdi. – Dünən də on dəfə vurduğunu eşitdim. Sonra on bir. Sonra on iki. Biri isə eşitmədim. Bəlkə küləyin səmti dəyişmişdi".

Bu gecə saat on birin zəngini o, sınıq darvazaların arxasında, kürəyini ağaca söykəyərək oturmuş halda eşitdi, arxa tərəfdəki ev yenə qaranlıq idi, yenə də sıx ağaclığın içərisində gizlənmişdi. Bu gün o bu barədə fikirləşmirdi *Bəlkə o da hələ yatmayıb* İndi o, heç nə fikirləşmirdi, hələ fikirləşməyə başlamamışdı, hələ səslər də beynində uğuldamağa başlamamışdı. İki mil aralıda saat on ikini vuranadək və orada oturub yerindən tərpənmədən gözlədi. Sonra bir az da gözləyib, ayağa qalxdı, evə sarı getdi. Bərk getmirdi. Amma onda da bu barədə fikirləşmirdi *Nəysə olacaq. Mənə nəysə olacaq*

6

Y a d d a ş, bilgi xatırlamazdan qabaq inanır. Xatırladığından, hətta bilginin ilgiləndiyindən daha uzun müddətə inanır. Bilir xatırlayır inanır ki, sivri damlı, soyuq, uğultulu, təkcə öz tüstü borularının deyil, başqalarının da hisinə batmış, yaşıllıqsız, üstünü kömür qarası basmış bir parça torpaq üzərində dayanan, həmişə tüstülənən zavod zibilliklərilə sıxışdırılmış, katorqa həbsxanası və ya heyvanxana kimi üç metrlik məftil hasarla əhatə edilmiş uzun, tünd qırmızı kərpic binanın bir dəhlizi vardı; orada zil körpə səsləriylə çingildəşən, hamısı eyni mavi forma geyinən yetim uşaqlar indi xatirələr arasında hərdənbir, nizamsız-filansız, qəfil şimşək kimi birdən parlayıb-sönür; hər il get-gedə o binaya daha da yaxınlaşan tüstü borularından qalxan qara hisin, qara qurumun yağış yağanda qara göz yaşı kimi üzüaşağı süzüldüyü solğun divarlar, solğun pəncərələr isə bilgidə həmişəlik həkk olub qalıb.

Nahardan sonrakı istirahət saatında sakit, kimsəsiz dəhlizdə o, kölgəyə bənzəyirdi; hətta beş yaş üçün belə kiçik görünürdü, kölgə kimi ciddi və sakit idi. Dəhlizdə başqa biri olsaydı, bu oğlan uşağının hansı anda hansı qapıya girib hansı otaqda yox olduğunu dəqiq deyə bilməzdi. Ancaq bu saatda dəhlizdə ondan savayı heç kim yox idi. O da bunu bilirdi. Yetimxanada uşaqların qida rejiminə nəzarət eləyən diyetaçı tibb bacısının diş məcununa bir il əvvəl təsadüfən rast gəldiyi gündən bu işlə məşğul idi.

Otağa girəndən sonra ayaqyalın, səssizcə birbaş əlüzyuyana tərəf getdi, diş məcununu əlinə götürdü. Bənövşəyi, sərin və yumşaq məhlulun soxulcan kimi qıvrıla-qıvrıla perqament rəngli barmağına tökuldüyünə tamaşa edərkən əvvəlcə dəhlizdə ayaq səsi, sonra isə qapının ağzında kimlərinsə danışığını eşitdi. Bəlkə də, diyetaçı tibb bacısının səsini tanıdı. Hər halda, onların qapıdan yan keçib-keçməyəcəklərini gözləmədi. Məcun əlində, ayaqyalın, səssizcə addımlayıb, otağın o biri başına keçdi, küncə çəkilmiş pərdənin arxasında gizləndi. Buradakı yüngül qadın ayaqqabılarının, divardan asılmış yumşaq qadın paltarlarının arasında çömbəlib oturdu. Tibb bacısı ilə yanındakı adamın otağa girdiklərini eşitdi.

Diyetaçı tibb bacısı onun üçün yeməyin, qidanın, yeməkxananın, uzun taxta oturacaqlar arxasında keçirilən nahar dəsgahının adi, hərdənbir gözə görünən, amma onda heç bir hiss oyatmayan əlavəsindən başqa bir şey deyildi; bəlkə də, yalnız xoş bir xatırlama, öz-özlüyündə göz üçün xoş olan cavan, dolu, sığallı, ağ-bənövşəyi bir şeydi; dərhal yeməkxananı yadına salırdı, ağzında nəsə yapışqan, şirin, yeməli, həm də bənövşəyi və xəlvəti bir şeyin dadını oyadırdı. O gün, ilk dəfə bu tibb bacısının otağına xəlvətcə girəndə diş məcununu dərhal tapmışdı; onun nə olduğunu bilməsə də dərhal əlinə götürmüşdü, bu qızın nəsə belə bir şeyi olacağını və özünün də hökmən onu tapacağını qabaqcadan hiss eləmişdi. Tibb bacısının yanındakının da səsi ona tanış idi. Bu adam dairə xəstəxanasından gəlmişdi; cavan həkim, kilsə həkiminin assistentiydi; o da arabir yetimxanada görünürdü və hələ düşmən deyildi.

İndi pərdənin arxasında, təhlükəsiz yerdəydi. Onlar gedəndən sonra diş məcununu yerinə qoyub otaqdan çıxacaqdı. Buna görə də orda, pərdənin arxasında çömbəltmə oturub gözləyir, qulaq verməsə də, ehtiraslı qadın pıçıltısının səsini eşidirdi: "Yox! Yox! Burda yox. İndi yox. Birdən görən olar. İçəri girən... Eləmə, Çarli! Xahiş edirəm!" Həkim oğlanın sözlərindən isə, ümumiyyətlə, heç nə başa düşmürdü. Səs də boğuq çıxırdı. Amma qəddar səs idi – indiyə qədər bütün kişilərdən eşitdiyi səslər kimi; zira qadın dünyasından qısa bir müddətə qaçıb yox ola, sonra isə ölüm saatınadək ona sığınıb qalmaq naminə təkrar qaçıb geri qayıda bilmək üçün o, hələ çox balacaydı. Başqa tanış səslər də eşitdi: ayaq tappıltısını, qıfılda açarın burulduğunu. "Yox, Çarli! Çarli, xahiş edirəm! Xahiş edirəm, Çarli!" – qadın pıçıldayırdı. Başqa səslər də gəldi: xışıltı, cırıltı, amma bunlar insan səsi deyildi. O bu səslərə qulaq asmırdı, sadəcə, oturub gözləyirdi, dalğıncasına düşünürdü ki, günün belə bir vaxtında yatağa girmək çox qəribədir. Yenə də nazik pərdənin arxasından get-gedə zəifləyən qadın pıçıltısının səsi eşidildi: "Mən qorxuram! Tez ol! Tez elə!"

O, yumşaq, qadın iyi verən paltarların və ayaqqabıların arasında çömbəlib oturmuşdu. Haçansa yumru olan, indi isə əzilmiş diş məcununu yalnız əlinin təmasıyla görürdü. Soyuq, gözəgörünməz, soxulcanabənzər diş məcununun barmağının üstünə tökülüb, ordan da dərhal, mexaniki surətdə ağzına yol tapdığına, sonra da dilinin ucunda həm şirin, həm də acı bir şey kimi necə əridiyinə gözüylə deyil, dilinin dadıyla tamaşa edirdi. Adətən o, tübiki sıxıb bir udum məcun götürür, sonra isə onu yerinə qoyub otaqdan çıxırdı. Hətta beş yaşında belə bilirdi ki, bundan artıq götürmək olmaz. Bəlkə də, heyvani instinkt buna yol vermirdi: çox yesə, halı pisləşər; bəlkə də, insani hissiyyat onu çəkindirirdi: tübiki çox sıxsa, tibb bacısı hər şeyi başa düşər. Bu gün isə ilk dəfəydi ki, çox götürürdü. Pərdənin arxasında gizlənib gözlədiyi üçün belə alındı. Tübikin necə arıqladığını əlinin təmasıyla görə bilərdi. Onu tər basdı. Sonra anladı ki, xeyli vaxtdır tərləyir, xeyli vaxtdır heç nə eləmir, yalnız tərləyir. İndi o, heç nə eşitmirdi. Yəqin ki, pərdənin o tayında güllə atsaydılar, onun da səsini eşitməzdi. Başı özünə qarışmışdı, necə tərlədiyini, mədəsinin daha götürmək istəmədiyi növbəti məcun diliminin ağzında necə əridiyini görməyə çalışırdı. Doğrudan da, onu heç cür uda bilmirdi. Hərəkətsizdi, sanki, dərin fikrə dalmışdı, kolba şüşəsinə əyilib baxan kimyagər kimi başı sinəsinə əyilmişdi, gözləyirdi. Amma çox gözləmək lazım gəlmədi. Axır ki, birtəhər udduğu məcun parçası birdən içəridə qaynamağa, geriyə, sərin havaya sıçramağa çalışdı. Artıq o, şirin deyildi. Pərdənin arxasında, basırıq, bənövşəyi-qadın iyi verən qaranlıqda ağzından bənövşəyi köpük axa-axa oturub, öz içinin səsinə qulaq asır, əlacsız halda, təəccüb içərisində nə olacağını gözləyirdi. Oldu da. Ümidini tamam üzüb, sakitcə öz-özünə dedi: "Hər şey bitdi".

Pərdə qəfil kənara fırladılanda o, heç başını da qaldırmadı. Kiminsə əlləri qəzəblə onu qusmağın içərisindən dartıb qaldıranda da müqavimət göstərmədi. Heysiz, ağzıaçıq halda o

əllərdən asılı qaldı, şüşə kimi donuq, sərsəm baxışlarını haçansa ona şipşirin yeməli bir şeyi xatırladan o hamar, sığallı əllərin sahibinin artıq hamar, sığallı, ağ-bənövşəyi olmayan, pırtlaşıq, qəzəbli saçlara bürünmüş sifətinə zillədi. "İt balası it! – cır, qəzəbli səs zingildədi, – İt balası it! Nədi, məni pusursan?! İyrənc zənci küçüyü!"

Diyetaçı tibb bacısının iyirmi yeddi yaşı vardı, bu yaş riskə gedib bir-iki dəfə sevgi macərası yaşamaq üçün kifayət qədər olsa da, belə bir iş üstündə qəfil yaxalanmağı həzm edə bilmək üçün xeyli az idi. Bu qız həm də belə bir şeyə inanacaq qədər kütbeyin idi ki, beş yaşında uşaq yalnız eşitdiklərinə əsasən orada nə baş verdiyini nəinki başa düşə, həm də böyüklər kimi bu haqda kiməsə nəsə danışa bilər. Buna görə də növbəti iki gün ərzində hara baxırsa baxsın, hara gedirsə getsin, uşağın gözləri önündən çəkilmədiyini, heyvana xas inadkar, sual dolu baxışlarla diqqətlə onu izlədiyini güman edərək, onun xarakterinə yalnız böyüklərə xas bəzi cizgilər də əlavə etdi; bu qərara gəldi ki, bu uşaq bildiyini nəinki hamıya yaymaq niyyətindədir, həm də onun əzablarını daha da artırmaq üçün bu işi qəsdən uzadır. Daha ağlına da gətirmirdi ki, uşaq özünün pis iş üstündə yaxalandığını, cəzanı gecikdirməklə ona əzab verdiklərini düşünür, buna görə də tezliklə buna son qoymaq, kötək payını almaq, borcunu ödəmək, hesabını qapatmaq üçün hər yerdə onun gözünə soxulmağa çalışır.

İkinci gün əndişəsi son həddə çatdı. Gecə yata bilmədi. Yatağında uzanıb dişlərini, yumruqlarını möhkəm-möhkəm sıxaraq qəzəbdən və dəhşətdən, bundan da betəri, peşmançılıqdan – zamanı, heç olmasa, bir saatlığa, bir saniyəliyə geri qaytarmağın müdhiş, ümidsiz ehtiyacından nəfəsi boğula-boğula, demək olar ki, bütün gecəni oyaq qaldı. Lap elə yaşadığı eşq anının özündən belə imtina etməyə hazır idi. İndi heç cavan həkim də onu bu uşaq qədər maraqlandırmırdı; indi uşaq onun üçün yalnız vasitəyə, özü də onun nicatına deyil, məhvinə işləyən vasitəyə çevrilmişdi. Bu iki adamdan hansına daha çox nifrət etdiyini də bilmirdi. Hətta haçan yuxuya getdiyini, haçan ayıq olduğunu da dəqiq deyə bilməzdi. Çünki o hərəkətsiz, qaş-qabaqlı, perqament rəngli sifət yumulu göz qapaqlarının, tor qişasının önündən bir an belə çəkilmir, daim onu izləyirdi.

Üçüncü gün axır ki, bu yarıyuxulu-yarıayıq vəziyyətin komasından çıxdı; bütün bu günlər ərzində o, günün işıqlı saatlarında və digər sifətlər arasında öz gerçək sifətini eyni anda həm qeyri-təbii, həm də çıxarıb atılması mümkün olmayan ağrılı-acılı ifadəyə malik maska kimi özüylə daşımışdı. Üçüncü gün qəti qərara gəldi. Uşağı tapmaq o qədər də çətin olmadı. Onu dəhlizdə – nahardan sonrakı istirahət saatında bomboş, kimsəsiz dəhlizdə tapdı. Orda boş-bekar dayanmışdı. Bəlkə də, onun dalınca gəlmişdi. Onu gözləyib-gözləmədiyini kimsə ayırd edə bilməzdi. Ancaq diyetaçı tibb bacısı onu burda görəndə təəccüblənmədi, heç o da geriyə dönüb onu – biri artıq hamar, sığallı, ağ-bənövşəyi olmayan, digəri isə təkcə intizardan başqa heç nə

ifadə etməyən ciddi gözlərə malik, qaşqabaqlı iki sifəti görəndə təəccüblənib-eləmədi. “Axır ki, canım qurtaracaq”, – deyə uşaq düşündü.

“Bura bax, – tibb bacısı dedi. Sonra susdu, onun üzünə baxdı. Elə bil, bundan sonra nə deyəcəyini bilmirdi. Uşaq farağat vəziyyətində, hərəkətsiz dayanıb gözləyirdi. Kürəyinin, yanbızlarının əzələləri yavaş-yavaş gərilib qıclaşırdı. – Heç kimə heç nə deməyəcəksən ki?” – diyetaçı tibb bacısı soruşdu.

O, cavab vermədi. Axı hər kəs yaxşı bilməliydi ki, onun bu dünyada haqqında danışmaq istəmədiyi bir şey varsa, o da diş məcunu, qusmaqdır. Tibb bacısının üzünə baxmırdı. Gözünü onun əllərindən çəkmir, gözləyirdi. Biri donun cibindəydi, yumruğunu düymüşdü. Parçanın üstündən bu yumruğun necə möhkəm sıxıldığını uşaq aydın görə bilirdi. Hələ bir dəfə də olsun, ona yumruq vurmamışdılar. Amma onu heç vaxt veriləcək cəzanı üç gün gözləməyə də məcbur etməmişdilər. Tibb bacısı əlini cibindən çıxaranda elə bildi ki, onu vuracaq. Ancaq vurmadı, sadəcə, ovcunu onun gözləri önündə açdı. Ovcunun içində bir gümüş dollar vardı. Sonra tibb bacısı cır, israrlı, dəhlizdə onlardan başqa heç kəs olmasa da alçaq, pıçıltılı bir səslə danışmağa başladı. “Bilirsən buna nə qədər çox şey ala bilərsən? Tam bir dollardır.” O, bundan əvvəl heç vaxt dollar görməmişdi, amma onun nə olduğunu bilirdi. Diqqətlə baxdı. Onun da belə bir şeyi olmasını istərdi – parıltılı pivə şüşəsi qapağını istədiyi kimi. Ancaq tibb bacısının bu şeyi ona bağışlayacağına inanmırdı, çünki özünün belə bir şeyi olsaydı, onu heç vaxt başqasına bağışlamazdı. Tibb bacısının bunun əvəzində ondan nə istədiyini başa düşmürdü. O, sadəcə, cəzalandırılacağını, sonra isə sakit buraxılacağını gözləyirdi. Tibb bacısı israrla, həyəcanla, tələsə-tələsə danışmağa davam etdi: “Tam bir dollar. Heç bilirsən buna nə qədər çox şey ala bilərsən? Dadlı, yeməli şeylər. Bir həftə boyu hər gün. Gələn ay, bəlkə, bir dollar da verdim”.

O nə yerindən tərpəndi, nə də dindi. Ağacdan yonulmuş iri bir oyuncağa bənzəyirdi: balaca, hərəkətsiz, yumrubaş, yumrugöz, əynində kombinezon. Heyrətdən, şokdan, alçaldıcı əlacsızlıqdan yerində donub qalmışdı. Dollara baxarkən ona elə gəlirdi ki, doğranmış odun parçaları kimi sırayla yığılıb qalaqlanmış nəhayətsiz, qorxunc bir diş məcunu qalağını görür; bütün bədəni tox, kəskin ikrah içərisində qıvrılırdı. “Mən daha istəmirəm”, – dedi. “Bir də heç vaxt ondan istəmərəm”, – fikirləşdi.

İndi o, heç tibb bacısının sifətinə baxmağa belə cürət etmirdi. Onu yalnız hiss edə, onun vücudunu, dərin, tir-tir titrəyən nəfəsini eşidə bilərdi. *Bax indi vuracaq* bir anlığa beynindən keçdi. Ancaq tibb bacısı onu heç silkələmədi də. Yaxasından möhkəm yapışdı, amma silkələmədi, sanki, əl özü sahibinin nə etmək istədiyini bilmirdi. Tibb bacısının sifəti o qədər yaxındaydı ki, onun nəfəsini öz yanağında hiss edirdi. Heç onun üzünə baxmadan da bu sifətin nə hala düşdüyünü dəqiq bilirdi. “Get danış onda! – tibb bacısı qəzəblə pıçıldadı. – Hamıya danış! İt balası. Zənci küçüyü!”

Bütün bunlar üçüncü gün olmuşdu. Dördüncü gün tibb bacısı tamamilə ağlını itirdi. O daha heç bir plan qurmurdu. İndi hər hərəkətində fəhminə güvənirdi; sanki, həmin əndişəli günlərdə və yuxusuz gecələrdə saxta sakitlik maskası altında içində bəsləyib böyütdüyü o dəhşətli qorxu və qəzəb hissi onun bütün ruhi gücünü şərin intuitiv, bütün qadınlarda olduğu kimi, səhvsiz dərkinə yönəltmişdi.

İndi tamam sakitləşmişdi. Hətta hövsələsizlikdən, tələskənlikdən də qurtulmuşdu. Sanki, onun öz ətrafına yaxşı-yaxşı göz gəzdirmək, götür-qoy etmək üçün gen-bol vaxtı vardı. Önündəki mənzərəyə tamaşa edərkən birdən baxışları, ağlı, düşüncəsi qazanxananın qapısında oturmuş gözətçiyə sataşdı. Bu nə qabaqcadan hesablanmış, nə də düşünülmüş şeydi. Sadəcə, o, vaqon pəncərəsindən boylanan sərnişin kimi bir anlığa öz içindən bayıra boylanıb, qazanxananın hisli qapısı önündə hörmə kətildə əyləşən, gözündə dəmir sağanaqlı eynək dizləri üstündəki açıq kitabı oxuyan boydan balaca, üst-başı çirkli, bir dəfə də olsun əməlli-başlı nəzər salmasa da varlığından beş ildi xəbərdar olduğu, dəyişilməz əşya kimi, demək olar ki, həmişə orda oturduğuna vərdiş etdiyi bir adamı gördü və buna azacıq da olsun, təəccüblənmədi. Küçədə olsaydı, onun sifətini də tanımazdı. Varlığından bixəbər yanından ötüb keçərdi, hərçənd o, kişiydi. İndi həyat ona düz və adi bir dəhliz kimi görünürdü, həmin dəhlizin qurtaracağında isə o adam oturmuşdu. Dərhal onun yanına yollandı – hara getdiyini hələ əməlli-başlı dərk etməmiş, artıq palçıqlı cığırla ona çatmaq üzrəydi.

Kişi qapının ağzında hörmə kətildə oturmuşdu, dizinin üstündə açıq kitab vardı. Tibb bacısı ona yaxınlaşanda kitabın Bibliya olduğunu gördü. Ancaq onu gözünün ucuyla – kişinin ayağına qonmuş milçəyin fərqinə varırmış kimi gördü. “Siz də ona nifrət edirsiniz, – tibb bacısı dedi. – Siz də daim gözünüzü ondan çəkmirsiniz. Fikir vermişəm. İnkar etməyin”. Gözətçi eynəyini qaşının üstünə qaldırıb diyetaçı tibb bacısına baxdı. O, çox da qoca deyildi. Bu isə onun vəzifəsinə heç cür uyğun gəlmirdi. Sağlam adam idi, ən qüvvətli vaxtıydı; beləsi aktiv, ciddi əməklə məşğul olmalıydı, ancaq zəmanə, şərait, yaxud nəsə başqa bir şey ona xəyanət etmişdi, sağlam, daş kimi möhkəm bədənli, təxminən qırx-qırx beş yaşlı bir kişini götürüb altmış beş-yetmiş yaşlı qocaya yaraşan, sakit, işsiz-gücsüz bir yerə atmışdı. “Siz bilirsiniz, – tibb bacısı dedi. – Uşaqlar onu “zənci” deyə çağırmağa başlamamışdan qabaq bilirdiniz. Siz bura onunla bir vaxtda, bir yerdə gəlmisiniz. Çarli onu yeni il axşamı, gecə pilləkənlərin üstündə tapanda siz heç bir ay deyildi bura işə düzəlmişdiniz. Danışın mənə”. Gözətçinin sifəti yumruydu, bir qədər bürüşmüşdü, çirkliydi, üstəlik onu kirli tük də basmışdı. Gözləri apaydın, bomboz, som-soyuq idi. Həm də onlardan cin yağırdı. Ancaq qadın bunu sezmədi. Bəlkə də, bu gözlər ona cinli görünmədi. Nə isə, indi onlar kömür hisinə batmış qapı ağzında bir-birilə üzbəüz qalmışdılar – cinli gözlər cinli gözlərə baxır, cinli səs cinli səslə danışırdı; iki sui-qəsdçi kimi sakitcə, astadan, kəsik-kəsik. “Beş ildi mən sizə göz qoyuram. – Qıza elə gəldi ki, düzünü deyir. – Burda, bu

kətildə oturub, daim onu izləyirsiniz. Yalnız uşaqlar içəridə olanda burda olmursunuz. Onlar həyətə çıxan kimi isə ona göz qoymaq üçün kətili gətirib burda əyləşirsiniz. Ona baxmaq, uşaqların ona necə "zənci" dediklərini eşitmək üçün. Bütün günü bu işlə məşğulsunuz. Mən bilirəm. Məhz buna görə – ona göz qoymaq, ona nifrət etmək üçün burdasınız. O, bura düşəndən buna hazır olmusunuz. Bəlkə də, onu elə siz gətirmisiniz, pilləkənlərin üstünə siz atmısınız. Dəxli yoxdur: siz bilirsiniz. Mən də bilmək istəyirəm. O danışsa məni işdən qovacaqlar. Bəlkə, Çarlini də... onu da... Deyin mənə. Elə indi, bu saat deyin".

– Həə, – gözətçi dedi. – Mən bilirdim ki, Allahın təyin etdiyi vaxt gəlib çatanda o, orda olacaq, səni yaxalayacaq. Bilirdim. Bilirəm onu ora kim göndərib – murdar əməllərə görə verilən ilahi cəza və əlamət.

– Bəli. O lap yaxında, pərdənin dalındaydı. Aramızda, bax, burdan sizə qədər məsafə vardı. İndi isə deyin. Mən sizin ona necə baxdığınıza fikir vermişəm. Sizi izləmişəm. Düz beş il.

– Bilirəm, – o dedi. – Mən şeytanı tanıyıram. Bəyəm onu yuxudan oyadıb, Allahın bu dünyasına mən göndərməmişəm? Allahın üzü önündə iki ayağı üstə yeriyən iyrəncliyə mən çevirmişəm. Körpə uşaqların dilində O bunu heç vaxt gizlətmir. Sən onların nə dediyini eşitmisən. Onu öz gerçək təbiətinə uyğun düzgün, lənətlənmiş adıyla çağırmalarını onlara mən deməmişəm. Heç vaxt deməmişəm. Özləri anlayıblar. Onlara deyilib, amma bu mən olmamışam. Mən yalnız gözləmişəm – Onun öz vaxtını, bunu öz məxluqlarına açıb deməyə qərar verdiyi anı gözləmişəm. İndi həmin an gəlib çatıb. Bu bir əlamətdi – qadın günahı və əxlaqsızlığı vasitəsilə təkrar üzə çıxan bir əlamət.

– Bəli. Bəs mən nə etməliyəm? Deyin mənə.

– Gözləməlisən. Mən gözlədiyim kimi. Cənabı Allahın hərəkətə gəlib öz iradəsini bəyan etməsi üçün beş il gözləmişəm. Axır ki, bəyan etdi. Sən də gözlə. Vaxtı çatanda O öz iradəsini buyruq sahiblərinə bəyan edəcək.

– Bəli. Buyruq sahiblərinəmi? –Yerlərindən tərpənmədən, rahat nəfəs ala-ala, bir-birinə baxırlar.

– Müdirəyə. Vaxtı çatanda O öz iradəsini ona da bəyan edəcək.

– Sizcə, müdirə bunu biləndə onu başqa yerə göndərəcək? Hə? Ancaq mən gözləyə bilmərəm.

– Allahı da tələsdirə bilməzsən. Bəyəm mən beş il gözləməmişəm?

Qız yüngülcə yumruğunu yumruğuna vurmağa başladı:

– Bəyəm siz başa düşmürsünüz? Bəlkə, elə bu da Allahın işidi ki, siz mənə dediniz. Çünki siz bilirsiniz. Bəlkə, elə Onun istəyi budu: siz mənə deyəsiniz, mən də gedib ona – müdirəyə deyim. – Qızın cinli gözləri sakit idi, cinli səsi də təmkinləşmiş, yumşalmışdı, bircə əlləri rahat dayana bilmirdi.

– Gözləyəcəksən, mən gözlədiyim kimi, – gözətçi dedi. – Allahın lütfkar əlinin ağırlığını, bəlkə də, üç günə hiss edəcəksən. Mənsə düz beş il o ağırlıq altında yaşamışam, göz qoymuşam, Onun vaxtını gözləmişəm, çünki mənim günahım sənin günahından çox böyükdür, çox ağırdır. – Düz qızın sifətinə baxsa da, sanki, onu görmürdü – gözləri görmürdü. Bu bərələ qalmış, bumbuz, fanatik gözlər, elə bil, kor idi. – Mənim elədiyimin, mənim öz günahımı yumaq üçün çəkdiyim əzabların yanında sənin günahın, sənin qadın iztirabların milçək nəcisi boyda kiçik bir şeydi. Mən buna beş il dözmüşəm; sən kimsən ki, öz murdar qadın ayıbınla Cənabı Allahı tələsdirəsən?

Qız dərhal geri döndü.

– Yaxşı. Demirsiniz, deməyin. Mən onsuz da bilirəm. Lap əvvəldən başa düşmüşdüm ki, onda zənci qarışığı var. – O, evə qayıtdı. Daha sürətlə yerimirdi, möhkəm əsnəyirdi. "Bir şey fikirləşib, müdirəni inandırmağın yolunu tapmalıyam. Bu adam heç nə deməyəcək, mənim sözümü müdafiə etməyəcək". Yenə əsnədi, özü də çox bərkdən; bomboş sifətində əsnəkdən başqa heç nə qalmamışdı, sonra o da yox oldu. Ağlına nəsə yeni bir şey gəldi. Əvvəl bu barədə fikirləşməmişdi, indi isə ona elə gəldi ki, fikirləşib, lap elə əvvəldən bilib, çünki bu ona daha ədalətli göründü: onu yalnız burdan çıxarmayacaqlar, həm də ona bu qədər qorxu, iztirab yaşatdığı üçün cəzalandıracaqlar. "Onu zənci yetimxanasına göndərəcəklər, – fikirləşdi. – Əlbəttə. Başqa neyləyə bilərlər ki?"

Birbaş müdirənin yanına getmədi. Əslində, ora getmək istəyirdi, amma bir də onda ayıldı ki, müdirənin otağının qapısına tərəf dönmək əvəzinə yanından keçib, pilləkənlərə doğru gedir, artıq yuxarı qalxır. Elə bil, o öz arxasınca düşmüşdü, hara gedəcəyini görmək üçün addımbaaddım özünü izləyirdi. Sakit, bomboş olan dəhlizdə yenə onu əsnəmək tutdu, xeyli yüngülləşdi. Otağına girib qapını bağladı, soyundu, yatağına uzandı. Pərdələr örtülüydü, içəriyə, demək olar ki, işıq düşmürdü; yarıqaranlıqdan daha qaranlıq olan otaqda arxası üstə, hərəkətsiz uzanmışdı. Gözləri yumuluydu, yumşalmış sifəti heç nə ifadə etmirdi. Bir qədər keçəndən sonra ayaqlarını yavaş-yavaş yığıb-açmağa başladı, mələfənin onların üstüylə əvvəlcə soyuq və yumşaq, sonra isə isti və yumşaq bir şey kimi necə sürüşdüyünü hiss etdi. Fikri haradasa, üç gecədir həsrət qaldığı yuxu ilə indi onu aparmaqda olan, bədənini, sanki, kişiymiş kimi önünə sərdiyi yuxu arasında gəzirdi. "Yalnız müdirəni inandırmaq lazımdır", – o düşündü. Və birdən fikirləşdi *Orda o, qara qəhvə dənələri arasına düşmüş ağ noxud kimi görünəcək*

Bu, günorta olmuşdu. Axşam saat doqquzda təzədən soyunanda isə dəhlizdən gözətçinin onun qapısına tərəf gəldiyini eşitdi. Kim olduğunu bilmirdi, bilə də bilməzdi, amma birdən başa düşdü: addımların astalığından, özünü yetirməyə macal tapmamış açılmağa başlayan qapının döyülməsindən... Taqqıltıya hay vermədi, tez qapıya cumub, açılmağa qoymamaq üçün bütün ağırlığını onun üstünə saldı. "Mən paltarımı dəyişirəm!" – o, artıq qapı arxasındakının kim

olduğunu bilərək, kallaşmış, yorğun səslə dedi. Gözətçi isə heç bir cavab vermədi, inadla, var gücüylə basıb qapını aralamağa çalışdı. “Bura girmək olmaz! – tibb bacısı pıçıltıdan bir az yüksək səslə qışqırdı. – Siz bilmirsiniz onlar...” Səsi lap zəiflədi, qırıldı, tam ümidsizlik içindəydi. Gözətçi cavab vermədi. Qız bütün gücünü toplayıb, yavaş-yavaş açılmaqda olan qapını saxlamağa, dayandırmağa çalışdı. “Aman verin, geyinim, özüm indi bayıra çıxaram. Yaxşı?” Get-gedə öləziyən pıçıltıyla danışırdı, səsinin ahəngi qeyri-ciddi, anlamsız idi, adətən, nə etdiyini özü də bilməyən uşaqla və ya manyakla belə danışırlar: onu sakitləşdirə-sakitləşdirə, ona yaltaqlana-yaltaqlana. “Gözləyin, yaxşımı? Eşidirsinizmi məni? Gözləyəcəksiniz, eləmi?” Gözətçi cavab vermədi. Qapı yavaş-yavaş, durmadan açılırdı. Əynində təkcə gecə köynəyi, bütün ağırlığını qapının üstünə salıb onu açılmağa qoymamağa çalışan qız hansısa parodik zorlama və ümidsizlik səhnəsindəki kuklaya bənzəyirdi. Qapıya dirənərək, yerində donmuş, gözlərini döşəməyə zilləmiş halda o, elə bil, dərin fikrə dalmışdı; sanki, kukla səhnənin tən ortasında öz rolunu unudaraq çaşıb qalmışdı. Sonra geri çevrildi, qapını buraxdı, cəld yatağına sarı qaçdı, baxmadan əl atıb paltarlarından birini qapıb qapıya sarı döndü, beli bir az bükülmüş halda əlindəki paltarı əzmələyib sinəsinə sıxdı. Gözətçi artıq içəriyə girmiş, elə girdiyi yerdəcə dayanmışdı, yəqin ki, onun bu əndazəsiz çaşqınlığını, tələm-tələsikliyini görmüşdü və bunun haçan bitəcəyini gözləyirdi.

Yenə də kombinezondaydı, amma indi başında şlyapası da vardı. Onu çıxarmadı. Bomboz, buz kimi soyuq, cinli gözləri, sanki, yenə də qadını görmürdü, heç ona baxmırdı da.

– Əgər Allahın özü belə sizlərdən birinin otağına girsə, – o dedi, – yenə elə biləcəksiniz ki, sizinlə yatmağa gəlib. Sən ona dedin?

Qız çarpayıda oturmuşdu. Ağarmış bənizini ona tərəf çevirib, sinəsinə sıxdığı paltarını əzişdirə-əzişdirə, sanki, yavaş-yavaş arxası üstə yıxılırdı.

– Dedin?

– Ona neyləyəcək?

– Neyləyəcək? – Qız gözünü ondan çəkmirdi; kişinin par-par parıldayan, hərəkətsiz gözləri, elə bil, ona baxmır, onu mühasirəyə alırdı. Ağzı ağıldankəm adamın ağzı kimi açıq qalmışdı.

– Onu hara göndərəcəklər? – Qız cavab vermədi. – Məni aldatma, Cənabı Allahı aldatma! Onu zənci yetimxanalarından birinə göndərəcəklər, eləmi? – Qızın ağzı yumuldu, sanki, kişinin nədən danışdığını yalnız indi anladı. – E-ee, mən bu barədə fikirləşmişəm. Onu zənci yetimxanasına göndərəcəklər. – Qız cavab vermədi, amma gözü ondaydı, bir qədər ürkək olsa da, müəmmalı baxışlarını ona zilləmişdi, nəsə hesablayırdı. İndi kişi də ona baxırdı, sanki, onun gözləri qızın bədənindən, onun varlığından yapışmışdı. – Cavab ver mənə, Cezavel! – deyə qışqırdı.

– Sıssss! – Qız dedi. – Bəli. Başqa əlacları yoxdu. Onlar bilsələr ki....

– Ah, – kişi dedi. Parıltısı sönən gözlər qadını buraxdı və yenidən kor baxışla onu mühasirəyə aldı. Qız o gözlərə baxanda özünün gölməçədə üzən lazımsız, adi, xırdaca bir çöp parçasından başqa bir şey olmadığını gördü. Sonra kişinin gözləri tədricən qayıdıb insan cildinə düşdü. Qızın yaşadığı otağın içərisinə göz gəzdirməyə başladı, sanki, əvvəllər heç vaxt belə şey – dar, isti, tör-töküntülü, bənövşəyi qadın iyi verən bir otaq görməmişdi. "Arvad murdarçılığı, – dedi. – Allahın üzü önündə". Dönüb otaqdan çıxdı. Bir az keçəndən sonra qız çarpayıdan qalxdı. Dəli kimi əlindəki paltarı əzişdirə-əzişdirə gözlərini açıq qalan qapıya dikib bir müddət yerindən tərpənmədi, sanki, nə etməli olduğunu özü də bilmirdi. Birdən yerindən sıçradı, qapıya tərəf cumdu, onu çırpıb örtdü, arxadan kilidlədi, bütün ağırlığı ilə ona söykəndi, ağır-ağır nəfəs ala-ala, əlindəki açarı iki əliylə bərk-bərk tutub sıxdı.

Sabahı gün tezdən səhər yeməyi zamanı məlum oldu ki, gözətçi də, uşaq da yoxa çıxıb. Onların izini-tozunu belə tapa bilmədilər. Dərhal polisə xəbər verdilər. Sonra açarı gözətçidə olan arxa qapının açıq qaldığını gördülər.

– Ona görə ki, o bilirdi, – diyetaçı tibb bacısı müdirəyə dedi.

– Nəyi bilirdi?

– O uşağın, Kristmasın zənci olduğunu.

– Nə? – Müdirə dedi. O, kresloda özünü geriyə atıb, əsəbi halda diyetaçı tibb bacısının üzünə baxdı. – Zən... İnanmıram buna! – o qışqırdı. – Heç cür inanmaram!

– Siz inanmaya bilərsiniz, – tibb bacısı dedi. – Amma o bunu bilir. Buna görə də onu oğurlayıb.

Yetimxana müdirəsinin yaşı əllini ötmüşdü, sallaq sifəti, mehriban, amma solğun və ümidsiz gözləri vardı. "Mən buna inanmıram", – dedi. Amma hadisənin üçüncü günü diyetaçı tibb bacısını özü yanına çağırdı. O, elə bir hala düşmüşdü ki, sanki, bu üç günü yuxu yatmamışdı. Tibb bacısı isə əksinə, əməlli-başlı gümrahlaşmış, sakitləşmişdi. Hətta müdirə ona gözətçiylə uşağın, axır ki, tapıldığını deyəndə azacıq da olsun, halı pozulmadı. "Littl-Rokda tapıblar, – dedi. – Uşağı ordakı yetimxanaya vermək istəyirmiş. Elə biliblər ki, dəlidir, başını qatıb polis gələnəcən saxlayıblar. – O, qarşısındakı özündən yaşca cavan qadını diqqətlə süzdü. – Siz mənə deyirdiniz ki... O gün siz deyirdiniz ki... Bunu hardan öyrənmişdiniz?"

Tibb bacısı baxışlarını yayındırmadı.

– Mən öyrənməmişəm. Belə bir şey heç ağlıma da gəlməyib. Əlbəttə, bilirəm ki, o biri uşaqların ona "zənci" deməsi də hələ heç nə demək deyil.

– Zənci? – Müdirə təkrar etdi. – O biri uşaqlar?

– Neçə ildi onlar onu bu adla çağırırlar. Bəzən mənə elə gəlir ki, uşaqlarda elə şeyləri duymaq, başa düşmək qabiliyyəti var ki, mənim, yaxud elə sizin yaşda adamlar heç vaxt bunun

fərqinə vara bilmir. Uşaqlarda, bir də o gözətçi kimi qoca adamlarda... Bax, buna görə də uşaqlar həyətdə oynayanda o, həmişə qapının ağzında otururmuş: o uşağa göz qoymaq üçün. Bəlkə də, bunu uşaqların ona "zənci" deməsindən başa düşüb. Bəlkə də, onlardan da qabaq, lap əvvəldən bilirmiş. Xatırlayırsınızsa, onlar, demək olar ki, eyni vaxtda bura gəliblər. Onun burada işlədiyi heç bir ay deyildi, o gecə... yeni il axşamı... yadınızdadır, Çar... o uşağı pilləkəndə tapmışdılar. – Tibb bacısı özündən yaşca böyük qadının pərt, çaşqın baxışlarından gözünü çəkmədən rahatca, dili topuq vurmadan danışırdı. Müdirə onun gözlərinin içinə elə diqqətlə baxırdı ki, sanki, onlardan ayrıla bilmirdi. O isə müdirəyə heç nə olmayıbmış kimi, sakitcə baxırdı. – Bir neçə gün qabaq onunla söhbət eləmişdik, mənə o uşaq haqqında nəsə demək istəyirdi; nəsə deməyə çalışırdı, istəyirdi ki, mən onu kiməsə deyim, axırda, bəlkə də, əsəbi davam gətirmədi, qorxdu, ona görə də deməyi lazım bilmədi, mən də çıxıb getdim... Bu söhbəti elə ordaca unutdum. Tamam ağlımdan çıxdı, amma indi... – Səsi qırıldı. Gözünü müdirəyə zillədi, öz sifəti isə birdən işıqlandı, sanki, nəsə qəfil yadına düşdü; heç kim deyə bilməzdi ki, o bunu bicliklə elədi, yoxsa yox. – Aa-a, elə ona görə...İndi başa düşdüm nəyə görə. Onlar getməmişdən, itməmişdən bir gün əvvəl bilirsiniz nə oldu? Dəhlizdəydim, öz otağıma gedirdim, – söhbətimiz də elə o gün olmuşdu, mənə nəsə demək istəmiş, sonra da fikrini dəyişmişdi, – birdən qabağıma çıxdı, məni saxladı; o da yadımdadır ki, buna çox təəccüb qaldım, axı mən onu heç vaxt binaya girən görməmişdim. Və o dedi... Anormal kimi danışırdı, elə anormal da görkəmi vardı. Qorxdum, elə bərk qorxdum ki, yerimdən tərpənə bilmədim, axı yolumu da kəsmişdi... dedi ki, "Sən ona dedin?" Mən dedim: "Kimə dedim? Nəyi dedim?" Onda başa düşdüm ki, sizdən danışır: bilmək istəyir ki, o uşaq haqqında mənə nəsə demək istədiyini sizə demişəmmi. Nə istəyirdi, mən sizə nəyi deməliydim – başa düşmədim, qorxudan qışqırmaq istəyirdim ki, dedi: " O, əgər bundan xəbər tutsa, neyləyəcək?" Bilmirdim nə cavab verim, yaxamı ondan necə qurtarım, çaşıb qalmışdım, elə bu vaxt dedi: "Deməyə bilərsən. Mən özüm bilirəm neyləyəcək. O bilsə, bu uşağı zənci yetimxanasına göndərəcək".

– Zənci yetimxanasına?

– Özüm də bilmirəm, necə olub ki, biz bu vaxta qədər bunu başa düşməmişik. Təkcə onun sifətinə, gözlərinə, saçlarına baxmaq kifayət idi. Onu elə ora da göndərmək lazımdır, düz demirəm?

Müdirənin solğun, əndişəli gözləri eynək şüşələrinin arxasından qaçaraq, həlməşik yeməyin suyu kimi qatılaşmış, bulanıq baxışlarla baxırdı, sanki, o bu gözləri öz fiziki imkanlarının xaricində olan bir şeyi görməyə zorlamağa çalışırdı. – Bəs onda uşağı nə üçün burdan aparmaq istəyib?

– Nə deyim?! Əgər şəxsən mənim fikrimi bilmək istəyirsinizsə, məncə o, anormal adamdı, dəlidi. Kaş siz o ax... o gün onu dəhlizdə görəydiniz. Əlbəttə, ağ uşaqlarla bir yerdə bu qədər

yaşadıqdan, böyüdükdən sonra zənci yetimxanasına düşmək o uşaq üçün çox ağır olacaq. Onun günahı deyil ki, zəncidi. Ancaq heç bizim də günahımız deyil... – Müdirənin üzünə baxa-baxa susdu. Müdirənin gözləri eynək şüşələri arxasında hələ də qaçaraq, solğun, ümidsiz görünürdü, ağzını açıb nəsə demək istəyəndə dodaqları səyridi. Sözləri də ümidsizdi, amma kifayət qədər inandırıcı, kifayət qədər aydın idi.

– Biz ona bir yer tapmalıyıq. Özü də dərhal. Kimlər bizə müraciət edib? Siz bir o qovluğu mənə verin...

Uşaq yuxudan ayılanda onu harasa aparırdılar. Ətraf zülmət qaranlıq və hava soyuq idi; kimsə – lal-dinməz, addımlarını ifrat dərəcədə ehtiyatla atan bir adam onu qucağında pilləkənlə aşağı düşürürdü. Onu qucaqda saxlayan iki qoldan birilə bədəni arasına bir bağlama sıxılmışdı; bildi ki, bu onun paltarlarıdır. Nə qışqırdı, nə də səsini çıxartdı. Harada olduğunu arxa pilləkənin iyindən, havasından anladı: pilləkən, özünü xatırladığı vaxtdan bəri yatdığı otağın – ondan başqa bu otaqda daha qırx uşağın çarpayısı vardı – arxa qapısından aşağı düşürdü. Onu qucağında aparan adamın – yenə də iyindən – kişi xeylağı olduğunu anladı. Ancaq cınqırını da çıxarmadı, yuxuda olduğu kimi tərpənməz, süst halda uzanıb qaldı, gözəgörünməz qolların üstündə, sanki, havada üzürmüş kimi, yavaş-yavaş aşağıya, oyun meydançasına açılan arxa qapıya doğru irəlilədi.

Onu aparanın kim olduğunu bilmirdi. Bundan narahat deyildi, çünki ona elə gəlirdi ki, hara aparıldığını bilir. Daha doğrusu, nə üçün aparıldığını. Amma hara aparırdılar – bundan narahat deyildi. Çünki iki il əvvəl belə bir hadisənin şahidi olmuşdu; onda üç yaşı vardı. Bir gün on iki yaşlı Alisa adlı qız onların arasından yoxa çıxdı. O qızdan xoşu gəlirdi; bəlkə də, elə buna görə o qızın ona, bir növ, dayəlik etməsinə görə razı olmuşdu; bəlkə də, əksinə – elə buna görə ondan xoşu gəlirdi. Onun gözündə bu qız böyük, demək olar ki, onu yedizdirən, çimizdirən, yatızdıran qadınlar kimiydi, bircə fərqi vardı ki, o onun düşməni deyildi və heç vaxt da olmadı. Bir gecə onu yuxudan oyatdı. Vidalaşmaq istəyirdi, amma o bunu başa düşmədi. Yuxulu, bir qədər də hirsliydi, əməlli-başlı ayıla bilməmişdi, bu da qızın xətrinə dəydi, çünki özü onunla həmişə mehriban olmağa çalışmışdı. Qızın nə üçün ağladığını da başa düşmədi, zira bilmirdi ki, böyüklər də ağlayar, bunu bildiyi vaxt gəlib çatanda isə yaddaşı o qızı çoxdan unutmuşdu. Nə isə, qızın xətrinə dəydi, sonra yuxuya getdi, səhər tezdən isə bir daha onu görmədi. Yox olmuşdu – izi, hətta köhnə paltarı belə qalmamışdı, həmişə yatdığı çarpayını isə indi təzə bir oğlan uşağı tutmuşdu. Onun hara getdiyini heç cür anlaya bilmədi. Elə həmin gün, Alisanı yola hazırlamış olan bir neçə yaşca böyük qızın xəlvətcə, qısıq səslə, bəy evinə aparılacaq gəlini bəzəyən qızlar kimi təngnəfəs təzə dondan, təzə ayaqqabıdan, onu aparan faytondan danışdıqlarını eşitdi. Yalnız onda anladı ki, o, həmişəlik gedib – məftil hasarın dəmir darvazasını öz ardınca birdəfəlik

çırpıb. Və, sanki, yalnız onda onu – çırpılan dəmir darvazanın arxasında yox olduğu anda məğrurlaşan, getdikcə kiçilərək deyil, nəsə adsız, əsrarəngiz bir şey içərisində qürub şəfəqi kimi əriyib yox olan silueti gördü. Onun bu cür yox olanlar arasında nə birinci, nə də axırıncı olmadığını öyrənənəcən bir il vaxt keçdi. Təzə donda, yaxud təzə kombinezonda, səliqəylə bükülüb bağlanmış kiçik, bəzən hətta ayaqqabı qutusundan da xırda bağlamalarla birlikdə həyət darvazasının cırıltısı arxasında itib yox olan təkcə Alisa deyildi, başqaları da vardı. Elə güman etdi ki, indi onun da başına məhz bu iş gəlir. Düşündü ki, onların heç bir iz qoymadan belə necə yoxa çıxdıqları indi ona aydın olur. Elə bildi ki, onları da bu cür zülmət gecədə qucaqda aparıblar.

Hiss etdi ki, qapıya az qalıb. Qapı lap yaxındaydı; onu aparan adamın dinib-danışmadan, ifrat ehtiyatla hələ neçə gözəgörünməz pillə onunla birlikdə aşağı düşəcəyini dəqiq bilirdi. Yanağında o adamın sakit, ağır, ilıq nəfəsini, kürəyində isə gərilmiş, qaxac kimi qıclaşmış qollarını və onun paltarlarının qaranlıqda tələm-tələsik, necə gəldi içinə yığıldığı bağlamanı hiss edə bilirdi. Adam dayandı. O, aşağı əyiləndə uşağın ayaqları havada qövs cızaraq döşəməyə düşdü və barmaqları dəmir kimi soyuq taxtaya dəyəndə üzüyuxarı qatlandı. “Dayan,” – adam dedi. Yalnız bu vaxt uşaq onun kim olduğunu başa düşdü.

Onu dərhal tanıdı və təəccüblənmədi. Yalnız müdirə bu uşağın bu adamı nə qədər yaxşı tanıdığını bilsəydi təəccüblənə bilərdi. Uşaq onun adını bilmirdi və şüurlu məxluqa çevrildiyi son üç il ərzində onlar bir-birilə heç yüz kəlmə belə kəsməmişdilər. Amma o, sanki, onun üçün – Alisa adlı qız da daxil – ətrafındakı bütün insanlar arasında ən yaxın adam idi. Hətta üç yaşındaykən uşaq özü ilə bu adam arasında dilə gətirilməsinə ehtiyac belə duyulmayan bir əlaqə olduğunu hiss etmişdi. Bilirdi ki, həyətdə oynayanda bu adam qazanxananın qapısı ağzında öz kətilində əyləşib ona baxır, diqqətlə, sayıqlığını bir an belə itirmədən onu gözdən qoymur. Əgər yaşı bir az böyük olsaydı, düşünərdi *O mənə nifrət edir, məndən qorxur. O qədər bərk qorxur ki, gözünü bir an üstümdən çəkə bilmir* Yenə o yaşda, amma söz ehtiyatı bir az zəngin olsaydı, ayrı cür düşünə bilərdi *Bax elə buna görə mən başqalarından fərqliyəm; çünki o bütün günü gözünü məndən çəkmir* Amma bu vəziyyətlə barışdı. Elə buna görə də gecə vaxtı onu öz yatağından yuxulu-yuxulu götürüb aşağı düşürən bu adamı tanıyanda təəccüblənmədi; qapının ağzında, zülmət və soyuq qaranlıqda həmin adam ayaq saxlayıb paltarlarını geyinməkdə ona kömək edəndə isə, yəqin ki, bunu düşünərdi *O mənə o qədər dərindən nifrət edir ki, başıma gələcək hansısa bir hadisənin qarşısını almağa çalışır*

Tir-tir əsə-əsə, bacardığı qədər tələsə-tələsə dinməzcə geyindi; onun xırda paltarlarını tapıb seçərkən hər ikisi bəzən nəyisə dəyişik saldılar, amma birtəhər geyinib qurtardı. “Bu da çəkmələrin, – kişi yenə də güclə eşidilən pıçıltıyla dedi. – Al!” Uşaq onları geyinə bilmək üçün soyuq döşəməyə oturdu. İndi kişi ona toxunmurdu. Amma uşaq onun da aşağı əyilib, nəyləsə

əlləşdiyini eşitdi, hiss etdi. “O da öz ayaqqabılarını geyinir,” – o düşündü. Kişi bir az özüylə əlləşdikdən sonra belindən yapışıb onu ayağa qaldırdı. Uşaq çəkmələrinin bağını bağlamamışdı. Onları necə bağlamağı hələ öyrənməmişdi. Çəkmələrini bağlamadığını kişiyə demədi. Ümumiyyətlə, səsini çıxarmadı. Sadəcə, durub gözlədi və birdən onu nəsə iri bir paltara bükdülər – iyindən bildi ki, kişininkidir – sonra yenə yerdən qaldırdılar. Qapı açıldı, aralandı. Təmiz, soyuq hava, küçə fənərlərinin işığı içəriyə soxuldu; o, küçə fənərlərini, çılpaq zavod divarlarını, göydəki ulduzların fonunda hündür, tüstüsü çıxmayan boruları gördü. Məftil hasar küçə işığında ac-yalavac əsgər sırasına bənzəyirdi. Kimsəsiz oyun meydançasından keçib gedərkən onun ayaqları kişinin addımlarının təqtinə uyğun havada yellənir, çəkmələrinin bağları isə topuqlarını döyəcləyirdi. Nəhayət, onlar dəmir darvazaya çatdılar və həyətdən çıxdılar.

Tramvayı çox gözləmədilər. Uşaq bir az böyük olsaydı, bu adamın vaxtı nə qədər dəqiq hesabladığına məəttəl qalardı. Amma o, heç nəyə fikir vermədi, heç nəyə təəccüblənmədi. Sadəcə, çəkmələrinin bağı açıq qalmış, dabanlarına qədər uzanan kişi paltosuna bürünmüş, yumru gözləri geniş açılmış, yuxusu sakit sifətindən tamam çəkilmiş halda yolayrıcında kişi ilə yanaşı dayanmışdı. Tramvay gəldi, işıqlı pəncərə sırası şaqqıldayıb dayandı və onlar ona minənəcən cığıldadı. Vaqon, demək olar ki, bomboş idi; gecə saat üçə işləyirdi. Kişi yalnız indi onun çəkmələrinin bağının açıq olduğunu gördü, əyilib onları bağladı, uşaq isə lal-dinməz ayaqlarını qabağa uzatdı, sakitcə dayanıb ona baxdı. Vağzal uzaqdaydı, uşaq əvvəllər də bir dəfə tramvaya minmişdi, buna görə də onlar vağzala çatmamış yuxu onu apardı. Ayılanda isə onlar artıq çoxdan qatardaydılar. Əvvəllər bir dəfə də olsun qatara minməmişdi, amma bunu heç kim hiss edə bilməzdi. O, tramvaydakı kimi, başdan-ayağa kişi paltosuna bürünmüş halda – bircə başı və ayaqları görünürdü – lal-dinməz oturub pəncərədən bayıra – təpəliklərə, ağaclara, inəklərə baxırdı; o, onların pəncərənin önündən belə sürətlə ötüb keçdiyini heç vaxt görməmişdi. Onun tam ayıldığını görən kişi qəzet bükülüsündən yemək çıxardı. Arasına donuz qaxacı qoyulmuş çörək idi. “Al”, – dedi. Uşaq çörəyi götürüb, pəncərədən baxa-baxa yeməyə başladı.

Hətta üçüncü gün, polislər gəlib onu və kişini götürüb aparanda da o, bir kəlmə demədi, azacıq da olsun, buna təəccüblənmədi. İndi onların qaldıqları ev o gecə tərk etdikləri evdən heç nəylə fərqlənmirdi: başqa adları olan eyni uşaqlar, başqa cür iy verən eyni böyüklər; o evi nə üçün tərk etdiklərini bilmədiyi kimi, burda niyə qala bilmədiklərinin də səbəbini anlaya bilməzdi. Bəlkə də, geri qayıtdığını başa düşürdü; bəlkə də öz uşaq fəhmilə kişinin başa düşmədiyini lap əvvəldən başa düşmüşdü: daha bu cür davam etməyəcək, davam edə də bilməz. Və yenə də qatarda pəncərədən boylanıb – amma bu dəfə əks tərəfdə, əks istiqamətdə – eyni təpəliklərə, eyni ağaclara, eyni inəklərə tamaşa etdi. Polis ona yemək verdi. Yenə də arasına donuz qaxacı qoyulmuş çörək idi, amma bu dəfə onu qəzet bükülüsündən çıxarmadılar. Uşaq buna fikir verdi, amma heç nə demədi, bəlkə də, heç bu barədə düşünmədi də.

Sonra o, evdəydi. Bəlkə də, evə qayıdan kimi onu cəzalandıracaqlarını gözləyirdi; hansı cinayətə görə – bunu heç öyrənmək niyyətində də deyildi, zira çoxdan əxz etmişdi ki, uşaqlar böyükləri böyük kimi qəbul edə bilsələr də, böyüklər uşaqları böyük kimi qəbul etməkdən başqa heç nəyə qabil deyillər. O artıq diş məcunu əhvalatını unutmuşdu. Bir ay bundan əvvəl hər dəqiqə özünü diyetçı tibb bacısının gözünə soxmağa çalışdığı kimi, indi ondan qaçmağa, onun gözünə görünməməyə çalışırdı. Bu işə o qədər aludə olmuşdu ki, səbəbi tamam yadından çıxmışdı və tezliklə o gecəki səfəri də unutdu; zira bu iki hadisənin bir-birilə əlaqəli olduğunu o, heç vaxt bilməyəcəkdi. O gecəki səfəri arabir dumanlı, qarmaqarışıq xatırlayırdı. Və bu təsadüfən qazanxananın qapısına baxanda, həmişə orda oturub ona göz qoyan, indi isə həmişəlik və bu evi tərk edənlərin adətinə uyğun olaraq heç bir iz qoymadan, hətta hörmə kətili belə qapının ağzında saxlamadan yox olan kişini yadına salanda olurdu. Bu adamın hara yox olduğu da onu maraqlandırmırdı, bu heç onun ağlına da gəlmirdi.

Bir axşam onlar sinfə girib onu ordan çıxardılar. İki cavan qız – diyetaçı tibb bacısı onların arasında yox idi – onu hamama apardılar, çimizdirdilər, əyninə təmiz kombinezon geyindirdilər, yaş saçlarını yaxşı-yaxşı daradılar, sonra isə müdirənin kabinetinə gətirdilər. Orda bir kişi oturmuşdu, yad idi. O, bu kişiyə baxan kimi, müdirə ağzını açmağa macal tapmamış hər şeyi başa düşdü. Bəlkə də, yaddaş bilirdi, bilgi xatırlamağa başlamışdı; bəlkə də, arzusu dilə gəlmişdi; zira hər əlacsızlıqda bir ümid görməyi öyrənmək üçün beş yaş hələ çox az idi. Bəlkə də o, dərhal qatardakı səfəri və yeməyi xatırladı, çünki hətta yaddaş da bundan uzağa gedə bilməzdi. “Cozef, – müdirə dedi, – sən kəndə getmək, orda yaxşı adamlarla bir yerdə yaşamaq istərdinmi?

Əynində təzə kombinzon, qulaqları, sifəti ucuz sabunla yuyulmuş, qaba əl-üz dəsmalı ilə sürtülməkdən qıpqırmızı qızarmış halda, od tutub yana-yana dayanıb yad adama qulaq asırdı. O adama bircə dəfə baxdı və qarşısında qalın qəhvəyi saqqallı, saçları çoxdan olmasa da qısa kəsilmiş, iri, cantaraq bir kişi gördü. Saqqal da, saçlar da cod, gur idi, onlarda bir dənə də olsun, ağ tük görünmürdü, sanki, sifətinə yazılmış qırxdan çox yaşın onlara heç bir təsiri olmamışdı. Açıq rəngli, soyuq gözləri vardı. Tünd-qara rəngli, zabitəli kostyum geyinmişdi. Qara şlyapası dizinin üstündəydi, təmiz kor-kobud əl onu, bu yumşaq parçanı belə ovcunun içində bərk-bərk sıxaraq tutub saxlamışdı. Jiletinin üstündən ağır, gümüşü saat zənciri sallanırdı. İri, qara ayaqqabıları döşəmənin üstündə yan-yana dayanmışdı; onları əllə sürtüb parıldatmışdılar. Hətta beş yaşında uşaq belə, baxan kimi bu adamın tütün çəkmədiyini və başqalarının da çəkməsinə dözmədiyini dərhal anlayardı. Ancaq uşaq ona baxmırdı – gözlərindən çəkinirdi.

Lakin bu adamın soyuq, iti, qəsdən olmasa da, zəhmli baxışını öz üzərində hiss edirdi. Bu cür baxışla o, bir atı, yaxud işlənmiş bir kotanı yoxlaya bilərdi, çünki onu hökmən alacağını, buna görə də onda bir qüsur tapacağını hökmən əvvəlcədən bilirdi. Səsi ağır, hökmlü və ləngərliydi və o, dediklərinə diqqətlə, heç olmasa, dinməzcə qulaq asılmasını tələb edən adamın

səsinə bənzəyirdi. “Deməli, siz onun əsli-kökü barədə ya bundan artıq heç nə deyə bilmirsiniz, ya da demək istəmirsiniz”.

Müdirə ona baxmadı. Onun eynək şüşələrinin arxasından baxan gözləri həlməşik yeməyin suyu kimi bulanıq idi – ən azı, bu anda. Dərhal, hətta həddindən artıq tez cavab verdi:

– Biz burda uşaqların əslini, kökünü axtarmaqla məşğul olmuruq. Əvvəl də dediyim kimi, onu beş il iki həftə bundan qabaq yeni il gecəsində, pilləkənlərin üstündə tapıblar. Əgər əsil-kök sizin üçün bu qədər vacibdirsə, onda, ümumiyyətlə, övladlığa uşaq götürməsəniz yaxşıdır.

– Mən o cür demək istəmirdim, – yad adam etiraz etdi. İndi onun səsi azca yumşalmışdı. Öz əqidəsindən bir misqal da olsun, geri çəkilmədən bir andaca üzrxahlıq etməyi bacardı. – Elə bilirəm, miss Atkinsonla da (diyetaçı tibb bacısının soyadı beləydi) söhbət eləməliyəm, çünki bu barədə şəxsən onunla yazışmışam.

Müdirə yenə də ona soyuq, bir an belə gecikmədən, az qala o, sözünü bitirməyə macal tapmamış cavab verdi:

– Mən həm bu uşaq, həm də bizim digər uşaqlar barədə sizə, yəqin ki, miss Atkinsondan az məlumat vermərəm, çünki miss Atkinsonun burda rəsmi vəzifəsi yalnız mətbəx və yeməkxana işlərilə məhdudlaşır. Sadəcə, elə alındı ki, bu məsələylə bağlı sizinlə yazışmalarımızda katibəlik etməyə o özü məmnuniyyətlə razılıq verdi.

– Bunun elə bir əhəmiyyəti yoxdu, – yad adam dedi. – Elə bir əhəmiyyəti yoxdu. Sadəcə, fikirləşirdim ki...

– Nə fikirləşirdiniz? Biz heç kimi bizdən uşaq götürüb saxlamağa məcbur etmirik, elə uşaqları da öz iradələrinin əksinə olaraq – əgər bunun üçün ciddi dəlilləri varsa – harasa getməyə zorla məcbur eləmirik. Bu, elə bir məsələdir ki, tərəflər onu öz aralarında həll etməlidirlər. Biz yalnız məsləhət görürük.

– Hə, hə, – yad adam dedi. – Yenə də deyirəm, bunun elə bir əhəmiyyəti yoxdu. Şübhə etmirəm ki, bu körpə bizə öyrəşəcək. O mənim və missis Makiçernin şəxsində özü üçün yaxşı bir ailə tapacaq. Biz artıq o qədər də cavan deyilik, sakit, dinc yaşamağı xoşlayırıq. O bizdə havayı yeyib, avara həyat sürməyəcək. İşi də o qədər çox olmayacaq, özü üçün nə qədər faydalıdır, o qədər işləyəcək. Heç şübhəm yoxdur ki, öz mənşəyinə baxmayaraq o, bizim yanımızda Allah qorxusu altında, avaralığa, fani şeylərə qarşı ikrah hissilə böyüyəcək.

Beləliklə, iki ay bundan əvvəl diş məcunu ilə imzalanan borc öhdəliyinə, axır ki, xitam verildi və o öhdəliyi hələ də xatırlamayan borc sahibi indi təmiz at çuluna bürünmüş halda, dekabr ala-toranında buz bağlamış çala-çuxurlarla irəliləyən arabada bapbalaca, biçimsiz, tərpənməz bir əşya kimi oturub qalmışdı. Bütün günü yol getdilər. Günorta kişi içərisində üç gün bundan əvvəl hazırlanmış kənd xörəyi olan karton qutunu oturacağın altından çıxarıb onu yedizdirdi. Uşaqla yalnız indi danışdı. Qamçını ovcunun içində sıxıb saxladığı əlcəkli əliylə

axşam toranında uzaqdan zorla işaran yeganə işığı göstərib, dilinə tək bircə kəlmə gətirdi. “Ev,” – dedi. Uşaq heç nə demədi. Kişi yuxarıdan ona baxırdı. O da soyuqdan büzüşmüşdü: iri, enlikürək, biçimsizdi, sərt olmaqdan daha çox qəddar görünən qaya parçasına bənzəyirdi. “Deyirəm ki, sənin evin, bax, odu”. Uşaq yenə də ona cavab vermədi. Onun öz evi heç vaxt olmamışdı, buna görə də heç nə demədi. Heç nə demədən nəsə deyə bilmək üçün isə o hələ çox balacaydı. “Burda sən özünə yer-yurd, yemək tapacaqsan, mömin insanlar qayğına qalacaqlar, – kişi dedi. – İş də gücünə görə olacaq; o səni pis əməllərdən qoruyacaq. Zira, çox keçmədən mən sənə insan üçün iki ən böyük qüsurun – tənbəllik və avaralıq düşüncəsinə qapılmaq, iki ən yaxşı keyfiyyətin is daim çalışmaq və Allah qorxusuyla yaşamaq olduğunu öyrədəcəm”. Uşaq yenə də heç nə demədi. İndiyəcən o nə işləmiş, nə də Allahdan qorxmuşdu. Allah barədə işləməyin nə olduğundan da az bilirdi. İş deyilən şey əllərində dırmıq, kürək bel oyun meydançasında çalışan adamların timsalında həftənin altı günü onun öz gözləri önündə baş verirdi; Allahsa yalnız bazar günləri peyda olurdu. Onda da daimi təmizlik yoxlanışı hesaba alınmazsa, Allah onun üçün qulağa xoş gələn musiqiydi, amma həm də qulaq üçün, ümumiyyətlə, heç bir məna kəsb etməyən kəlmələrdi; bütövlükdə isə xoş bir şeydi, hərçənd bir qədər yorucuydu. Uşaq heç nə demədi. Araba möhkəm silkələnməyə başladı, sağlam, yaxşı qulluq görmüş qatırlar axura, yemə, evə doğru götürüldülər.

Xeyli sonralar – yaddaşın bu yad adamın sifətini qəbul etmədiyi, xatirələrin üz qatından artıq imtina etdiyi zamanlar xatırladığı bir şey də vardı. Müdirənin kabinetindədirlər və o, daş kimi hərəkətsiz dayanıb, ona tanış olmayan bu yad adamın gözlərinə baxmamağa çalışır, amma onun baxışlarını öz üzərində hiss edir, yad adamın gözlərilə düşündüyünü haçan dilinə gətirəcəyini gözləyir. Sonra isə onun səsini eşidir: “Kristmas. Bütpərəst soyadıdı. Küfrdü. Mən onu dəyişəcəm”.

– Buna sizin qanuni haqqınız var, – müdirə cavab verdi. – Bizim üçün vacib şey onların hansı adla, hansı soyadla çağırılması deyil, onlarla necə rəftar olunmasıdır.

Ancaq yad adam artıq heç kimi dinləmirdi, bu dəfə sözünü deyərkən də üzünü heç kimə tərəf tutmadı.

– Bu gündən onun soyadı Makiçern olacaq.

– Ağıllı fikirdi, – müdirə dedi. – Ona öz soyadınızı verməyinizi deyirəm.

– O mənim çörəyimi yeyəcək, mənim dinimə riayət edəcək, – yad adam dedi. – Niyə də mənim soyadımı daşımasın?

Uşaq deyilənlərə qulaq asmırdı. Bu heç onun vecinə də deyildi. Onu az maraqlandırırdı; hətta o qədər az ki, əgər bu yad adam hava isti olmadığı halda onun çox isti olduğunu söyləsəydi, buna ondan daha çox diqqət yetirərdi. O qədər az ki, heç öz-özünə də demədi *Mənim soyadım*

Makiçern deyil. Mənim soyadım Kristmasdır Hələ ki buna görə narahat olmağa dəyməzdi. Hələ qabaqda çox vaxt var idi.

– Doğrudan da, niyə də sizin soyadınızı daşımasın? – müdirə dedi.

7

Yaddaş isə bunu bilir; hətta iyirmi ildən sonra da buna inanır *O gün mən kişi oldum*

Tərtəmiz, amma bərbəzəkdən uzaq olan otağa bazar gününün ab-havası çökmüşdü. Pəncərələrdəki yamaqlı, lakin tərtəmiz pərdələr şumlanmış torpaq və cır alma iyi verən mehdən yüngülcə yellənirdi. Palıd ağacından düzəldilmiş, pedallarına köhnə, nimdaş xalı parçasından üz çəkilmiş sarı rəngli melodeonun[3] üstünə bankada bir dəstə mahmızçiçəyi qoyulmuşdu. Oğlan masa arxasında bərk, taxta kətildə əyləşmişdi; masanın üstündə nikel çıraq, bir də bürünc qarmaqlı, bürünc ilgəkli, bürünc qıfıllı iri Bibliya kitabı vardı. Əyninə tərtəmiz, yaxalıqsız, ağ köynək geyinmişdi. Qara rəngli, kobud parçadan tikilmiş şalvarı da təzəydi. Çəkmələri bir qədər əvvəl, amma naşıcasına, səkkiz yaşlı oğlan uşağının bacardığı qədər mazlanıb təmizlənmişdi, orda-burda, xüsusən də maz dəyməyən arxa tərəflərdə boz ləkələr qalmışdı. Presviterian kataxizisi[4] açıq halda masanın üstündə, onun önündəydi.

Makiçern masanın yanında dayanmışdı. Tərtəmiz sətin köynəkdə və oğlanın onu ilk dəfə görərkən əynində olan elə həmin qara şalvarda idi. Nəm, hələ də dən düşməmiş saçları səliqəylə yumru başının arxasına daranmışdı. Saqqalı da o cür səliqəylə sahmana salınmışdı, o da saçları kimi hələ yaş idi. “Sən bunu yaxşı öyrənmək üçün kifayət qədər çalışmamısan”, – o dedi.

Oğlan başını qaldırmadı. Heç yerində qurcalanmadı da. Amma bu adamın sifəti daha qaya parçasına bənzəmirdi. “Çalışmışam”.

“Onda bir də təkrar elə. Sənə bir saat da vaxt verirəm”. Makiçern cibindən gonbul gümüşü saatını çıxardı, qapağını açdı, onu üzüyuxarı masanın üstünə qoydu, başqa bir bərk, söykənəcəkli kətili masanın yanına çəkib oturdu, tərtəmiz yuyulmuş əllərini dizlərinin üstünə qoydu; təzəcə silinmiş iri çəkmələri döşəmə üzərində dimdik dayanmışdı. Bu çəkmələrdə mazlanmamış yer, heç bir ləkə yox idi. Amma dünən axşam, şam yeməyində vardı. Sonra, oğlan yatmaq üçün soyunub tək bir köynəkdə qalanda onu möhkəm kötəklədilər və o həmin çəkmələri təzədən silib təmizləməli oldu. İndi oğlan masanın arxasında oturmuşdu. Kütləşmiş, hərəkətsiz sifəti heç nə ifadə etmirdi. Tərtəmiz, çılpaq otağa arabir şiddətlənib, sonra öləziyən yaz küləyi dolurdu.

Bütün bunlar səhər saat doqquzda olmuşdu. Onlar saat səkkizdən orda oturmuşdular. Yaxınlıqda bir neçə kilsə vardı, amma presviterian kilsəsi beş mil aralıda idi və ora bir saata

---

3 Melodeon – orqan alətinə bənzər musiqi aləti

4 Presviterianlıq – protestant məzhəblərindən biri; presviterian kataxizisi – həmin məzhəbin dini kitabı

getmək olardı. Missis Makiçern saat onun yarısında göründü. Ürkək-ürkək otağa boylandı, artıq qara donunu geyinmiş, şlyapasını başına qoymuşdu; o, beli azca bükülmüş, bapbalaca, fağır bir qadındı, üzgün sifəti vardı. Öz cantaraq, sağlam bədənli ərindən on beş yaş qoca görünürdü. Heç otağa da girmədi. Başında şlyapa, əynində yuyulmaqdan bozarmış, amma tərtəmiz qara don, əlində çətir və yelpik astanada durub bir an gözlədi; gözlərində qəribə bir ifadə vardı: elə bil, gördüyü, eşitdiyi hər şeyi daha aydın kişi obrazı, kişi səsi arasından görür, eşidirdi; sanki, o – medium, cantaraq, qəddar əri isə bu mediumun tənzimləyicisi, ruhu idi. Bəlkə də, əri onu eşitdi. Amma nə başını qaldırıb ona baxdı, nə də cavab verdi. Qadın geri dönüb, ordan uzaqlaşdı.

Düz bir saatdan sonra Makiçern başını qaldırdı. "İndi bilirsən?" – deyə soruşdu.

Oğlan yerindən tərpənmədi. "Yox", – dedi.

Makiçern yavaş-yavaş, tələsmədən ayağa qalxdı. Masanın üstündən saatını götürdü, qapağını örtdü, qaytarıb cibinə qoydu, zəncirini yenidən aşırmasına keçirdi. "Getdik", – dedi. Dönüb geriyə də baxmadı. Oğlan onun arxasınca düşdü, uzun dəhliz boyu arxa qapıya tərəf getdi; o da şəstlə, dinməzcə, başını dik tutub yeriyirdi. Onların kürəkləri, sanki, irsi bir şeymiş kimi, eyni tərsliyi ifadə edirdi. Missis Makiçern mətbəxdəydi. Hələ də şlyapası başında, çətir və yelpiyi əlindəydi. Onlar bayıra çıxanda qapıya tərəf baxırdı. "Pa", – dedi. Heç biri dönüb ona sarı baxmadı. Elə bil, eşitmədilər, sanki, o, heç nə deməmişdi. Onlar qapıdan keçib bayıra çıxarkən bir zəncirin iki həlqəsinə bənzəyirdilər – bütün kompromisləri qəti rədd etmək sarıdan bir-birilə eyniləşən, bir-birini tamamlayan iki kürək; heç qan qohumluğu da onları bir-birinə bu qədər oxşada bilməzdi. Həyəti keçib tövləyə girdilər. Makiçern burdağın qapısını açıb, kənara çəkildi. Oğlan burdağa girdi. Makiçern mıxdan asılmış qoşqu qayışını götürdü. Qayış da ayaqqabıları kimi nə köhnəydi, nə də təzə. Onlar kimi tərtəmizdi və o da sahibi kimi təmiz, möhkəm, saf dəri iyi verirdi. Kişi oğlana baxdı.

"Kitab hanı?" – deyə soruşdu. Oğlan dinməzcə böyründə dayanmışdı, onun sakit sifəti, hamar perqament sarısı yüngülcə ağardı. "Sən onu gətirməmisən, – Makiçern dedi. – Qayıt, get gətir". Səsi acıqlı deyildi. Bu səsdə, ümumiyyətlə, insana xas, ən azı, şəxsi heç nə yox idi. Sadəcə, yazılmış, yaxud çap olunmuş söz kimi soyuq və rəhmsiz idi. Oğlan geri dönüb, bayıra çıxdı.

Evə girəndə missis Makiçern dəhlizdəydi. "Co", – qadın ona dedi. O isə cavab vermədi. Heç dönüb ona tərəf baxmadı da, buna görə də qadının sifətini, onun bir qədər yuxarı qovzanmış əlinin qaxaclaşmış hərəkətini – insan əlinin bacara biləcəyi ən nəvazişli hərəkətin qaxaclaşmış karikaturasını görmədi. Sifətində daşlaşmış, əyilməz bir ifadə – bəlkə də, məğrurluqdan və ümidsizlikdən, bəlkə də, lovğalıqdan, sarsaq kişi lovğalığından doğan bir ifadə – onun yanından ötüb keçdi. Masanın üstündən katexizisi götürüb tövləyə qayıtdı.

Makiçern əlində qayış gözləyirdi. “Qoy yerə”, – dedi. Oğlan kitabı döşəmənin üstünə qoydu. “Ora yox, – Makiçern qəzəbsiz dedi. – Sən hələ elə bilirsən ki, Allah kəlamını tövlə döşəməsinə, mal-qaranın tapdağı altına atmaq olar?! Amma bunu da sənə öyrədəcəm”. Kitabı yerdən özü götürüb taxçaya qoydu. “Şalvarını çək aşağı, – dedi, – biz onu bulaya bilmərik.”

Şalvar sürüşüb belindən düşdü, oğlan qısa köynəkdə qaldı, qılçaları köynəyin ətəyinədək çılın-çılpaq açıldı. Etinasız, dimdik dayanıb durmuşdu. Qamçının birinci zərbəsi ona dəyəndə yerindən tərpənmədi, heç sifətini də turşutmadı. Sakit, dərin bir ifadə ilə düz qabağa baxırdı – şəkildəki rahib kimi. Makiçern qamçıyla ardıcıl, yavaş, əvvəlcədən hesablanmış ahəngə uyğun zərbələr endirərək, onu hələ də hirssiz və qəzəbsiz döyməyə başladı. Onlardan hansının sifətinin daha gərgin, daha sakit, öz əqidəsində daha möhkəm olduğunu söyləmək çətin idi.

Qamçıyla on zərbə vurdu, sonra əlini saxladı. “Götür kitabı, – dedi. – Şalvara dəymə”. O, katexizisi oğlana uzatdı. Oğlan onu götürdü. Sonra yenə əvvəlki kimi başını dik tutub, əlində kitab dərin bir ehtiram içərisində dimdik dayandı. Bu vəziyyətdə o, eynilə katolik xorunda oxuyan oğlan uşağını xatırladırdı, bircə cübbəsi çatışmırdı, nef[5] yerinə isə burdağ, kor-kobud taxta divar tövlənin dərinliyinə doğru uzanıb gedirdi; o divarın arxasında, quru peyin iyi verən qaranlıqda gözə görünməyən heyvanlar hərdənbir fınxırır, dırnaqlarını tənbəl-tənbəl yerə döyəcləyirdilər. Makiçern belini əymədən axurun qırağına çökdü, qılçalarını yerbəyer eləyib oturdu, bir əlini dizinin üstünə qoydu, gümüş saatını o biri ovcuna aldı; təmiz, saqqallı sifəti daşdan yonulmuş heykəl kimi gərilmişdi, gözləri amansız və soyuq idi, amma acıqlı deyildi.

Beləcə, daha bir saat burda qaldılar. Bu müddət ərzində miss Makiçern yalnız bircə dəfə evin arxa qapısında göründü. Amma heç nə demədi. Sadəcə, başında şlyapa, əlində çətir və yelpik orda dayanıb tövləyə tərəf baxdı. Sonra yenə də qayıdıb evə girdi.

Düz bir saat saniyəbəsaniyə tamam olandan sonra Makiçern saatını qaytarıb cibinə qoydu. “İndi bilirsən?” – deyə soruşdu. Oğlan cavab vermədi – gözünün önündə açıq kitab, dimdik donub qalmışdı. Makiçern kitabı onun əlləri arasından dartıb götürdü. Bu vaxt oğlanın tükü də tərpənmədi. “Katexizisi təkrar elə”, – Makiçern dedi. Oğlan gözlərini qarşıdakı divara zilləmişdi. İndi onun bənizi, dərisinin dolğun rəng tonuna baxmayaraq, tamam ağarmışdı. Makiçern kitabı tələsmədən, səliqəylə taxçaya qoydu, qayışı əlinə aldı. Yenə on dəfə vurdu. Qurtarandan sonra oğlan bir anlıq da dözdü, yerindən tərpənmədi. O hələ səhər yeməyini yeməmişdi; elə ikisi də yeməmişdi. Sonra oğlan səndirlədi, əgər Makiçern əlindən yapışıb onu saxlamasaydı, yıxılacaqdı. “Gəl, – Makiçern onu axura tərəf dartıb dedi, – otur burda”.

“Yox”, – oğlan dedi və əlini Makiçernin əlindən dartıb qoparmağa çalışdı. Makiçern onu buraxdı.

“Nə olub sənə? Xəstəsən?”

---

[5] Xristian məbədinin uzunsov hissəsi

“Yox”, – oğlan dedi. – Səsi xeyli zəif idi, sifəti ağappaq ağarmışdı.

“Götür kitabı,” – Makiçern onu oğlanın əlinin içinə qoyub dedi. Missis Makiçern pəncərədə göründü, o yenə evdən bayıra çıxmışdı. İndi o, uzun, bozarmış don geyinmiş, başına həsir şlyapa qoymuşdu, əlində sidr ağacından badya var idi. Onlara sarı baxmadan pəncərənin önündən keçdi və gözdən itdi. Bir qədər sonra bu ibadət günün səssizliyində quyu çarxının dinc və qəribə, uzun cırıltısı eşidildi. Sonra o, badyanın ağırlığından qaməti əyilmiş halda yenidən gəlib pəncərənin önündən keçdi, tövləyə tərəf baxmadan evə girib gözdən itdi.

Düz bir saat sonra Makiçern gözünü saatdan çəkdi. “Öyrəndin?” – deyə soruşdu. Oğlan cavab vermədi, yerindən qımıldanmadı. Makiçern ona yaxınlaşanda gördü ki, oğlan, ümumiyyətlə, səhifəyə baxmır, onun gözləri tamam dayanıb və ağ vərəq kimi bomboşdur. Kitabı onun əlindən almaq istəyəndə başa düşdü ki, oğlan kəndir və yaxud dirək kimi ondan bərk-bərk yapışıb buraxmır. Kitabı zorla dartıb onun əlindən alanda o, tirtap yerə aşdı və bir daha tərpənmədi.

Ayılıb özünə gələndə gün batmaq üzrəydi. Çardaqda, maili damın altındakı otaqda öz çarpayısında uzanmışdı. Ətrafda sakitlik hökm sürürdü, axşam toranı içəri dolmaqdaydı. İndi halı yaxşıydı, yatağında uzanıb sakitcə gözlərini başı üzərindəki çəp tavana zilləmişdi, buna görə də kiminsə yanında oturduğunu dərhal hiss eləmədi. Bu, Makiçern idi. İndi o da bayır paltarındaydı – tarlaya geydiyi kombinezonda deyil, bozarmış, tərtəmiz yaxalıqsız köynəkdə və bozarmış, tərtəmiz xaki rəngli şalvardaydı. “Yatmamısan ki”, – o dedi. Əlini uzadıb, adyalı onun üstündən kənara çəkdi. “Dur”, – dedi.

Oğlan yerindən tərpənmədi. “Siz məni yenə döyəcəksiniz?”

“Dur, – Makiçern dedi. – Qalx”. Oğlan çarpayıdan düşdü, ayaq üstə durdu – xaşa kimi enli çit alt paltarında lap arıq görünürdü. Makiçern də yör-yöndəmsiz, ağır-ağır yerindən tərpəndi, elə bil, əzələləri əl-qolunu bağlamışdı, ən adi bir hərəkət üçün hədsiz güc sərf etməli olurdu; oğlan uşaq marağı ilə, amma təəccüblənib-eləmədən onun necə yavaş-yavaş, necə ağır-ağır dizi üstə çökdüyünə tamaşa edirdi. “Diz çök”, – Makiçern dedi. Oğlan çökdü; ikisi də – əllə kəsilib qısaldılmış alt paltarındakı oğlan da, şübhə və mərhəmətin nə olduğunu bilməyən qəddar kişi də dar alaqaranlıq otaqda diz çökmüşdülər. Makiçern dua etməyə başladı. O, yeknəsəq, usandırıcı, yuxuladıcı bir səslə uzun-uzadı dua etdi. Allahdan dilədi ki, bu dəfə bazar günü kilsə ibadətinə gedə bilməməyinin və Allaha əziz olan yetim bir uşağa əl qaldırmağının günahını ona bağışlasın. Sonra dilədi ki, uşağın inadkar qəlbi yumşalsın və böyük sözünü dinləmədiyinin günahını – nifrət etdiyi, sözünü eşitmədiyi adamın vəkaləti ilə – ona bağışlansın və Cənabı Haqdan onun özü kimi comərd olmasını, mərhəmət və iltifat göstərməsini istədi.

Duasını oxuyub qurtardı, sonra zorla, ağır-ağır ayağa qalxdı. Oğlan dizi üstə qaldı. Ümumiyyətlə, yerindən tərpənmədi. Ancaq gözləri açıq (sifətini bir dəfə də olsun nə gizlətmiş,

nə də aşağı salmışdı), sifəti isə tamam sakit idi: sakit, dinc, tamamilə ifadəsiz. Kişinin masada nəyisə qurdaladığını eşitdi, çıraq onun üstündəydi. Kibrit dənəsi cızz eləyib alışdı. Alov şüşə şarın altındakı plitə ilə bərabərləşdi, kişinin çıraq şüşəsini tutan əli, sanki, qana bulaşmışdı. Kölgələr ora-bura sayrışıb sonra sakitləşdi. Makiçern masanın üstündən, çırağın yanından nəsə götürdü – katexizis idi. Oğlana tərəf döndü: almacıqlar üzərində qranit qaya çıxıntısına bənzəyən burun, eynək şüşələrilə örtülmüş göz yuvacıqlarının kənarlarına qədər tük basmış sifət.

"Götür kitabı", – o dedi.

Bu hadisə bazar günü, səhər yeməyindən əvvəl başlamışdı. Eləcə bütün günü yemək yeməmişdi; amma nə o, nə də Makiçern bir dəfə də olsun yemək haqqında düşünməmişdilər. Makiçern də heç nə yeməmişdi, hərçənd, stolun başına keçib qida və qidalanmağın zəruriliyi barədə üzr duası oxumuşdu. Naharı da oğlan əsəb sarsıntısından yatıb qaldığı üçün buraxmışdı. Şam vaxtı isə nə o, nə də bu yemək barədə düşünürdü. Oğlan hətta ona nə olduğunu, özünü nə üçün bu cür zəif, süst hiss etdiyini də başa düşmürdü.

İndi çarpayıda uzanarkən yalnız bunları hiss edirdi. Çıraq yanırdı; amma ona elə gəldi ki, başını yana döndərsə, ikisinin də – özünün də, kişinin də çarpayının böyründə diz üstə çökdüyünü, ya da, ən azı, iki cüt dizin xalı üzərində açdığı və içərisi maddi heç nəylə doldurulmamış çalacıqları görəcək. Elə bil, hava özü də hələ yuxulu adam donqultusuna bənzər o yeknəsəq səslə doluydu – o, elə hey danışır, yalvarır, kimləsə, xalça üzərində hətta şəffaf iz belə buraxa bilməyən birisilə höcətləşirdi.

Beləcə, o, arxası üstə, əllərini sinəsində çarpazlayıb, qəbirüstü daş heykəl kimi yatağında uzanmışdı, birdən yenə dar nərdivanda kiminsə addımlarının səsini eşitdi. Kişi addımları deyildi: Makiçernin axşam toranında arabada kilsəyə – presviterian kilsəsinə deyil, yaxınlıqda, üç mil aralıda yerləşən kilsəyə – səhərki hadisələr üçün üzr duası oxumağa getdiyini çoxdan eşitmişdi.

Başını çevirmədən missis Makiçernin pilləkənlə necə ağır-ağır, hıqqına-hıqqına yuxarı qalxdığına qulaq verdi. Sonra çarpayısına yaxınlaşdığını hiss etdi. Ona tərəf baxmırdı, amma çox keçmədən qadının kölgəsi qarşıdakı divara düşdü, göründü və o, missis Makiçernin əlində nəsə gətirdiyini gördü. Məcməyi idi, içində yemək vardı. Qadın məcməyini çarpayının üstünə qoydu. O isə bir dəfə də olsun qadına tərəf baxmadı. Yerindən tərpənmədi. "Co", – qadın dedi. O tərpənmədi. "Co", – qadın yenə dedi. Oğlanın gözlərinin açıq olduğunu gördü. Amma əlini ona toxundurmadı.

– Mən ac deyiləm, – oğlan dedi.

Missis Makiçern yerindən tərpənmədi. Əlini önlüyünün altına soxub durmuşdu. Elə bil, o da ona baxmırdı. Elə bil, üzünü çarpayının üstündən divara tutmuşdu. "Bilirəm nə fikirləşirsən. Yox. Sənə yemək gətirməyi o deməyib. Özüm bu barədə fikirləşdim. Onun xəbəri yoxdu. Bu

yeməyi o göndərməyib”. Oğlan nə dindi, nə də tərpəndi. Sifəti daş heykəl kimi sakit idi, gözlərini yuxarı, maili taxta tavana zilləmişdi. “Bütün günü heç nə yeməmisən. Otur, ye. Sənə yemək gətirməyi mənə o tapşırmayıb. Onun bundan xəbəri yoxdu. Mən özüm hazırlamışam, bayaqdan onun çıxıb getməyini gözləyirdim”.

Bundan sonra oğlan durub oturdu. Onun gözləri önündə çarpayıdan qalxdı, məcməyini götürdü, küncə gedib onu üzüaşağı çevirdi, yeməyi qab-qacaqla birlikdə döşəməyə tökdü. Sonra boş məcməyini əlində müqəddəs bəxşiş qabı kimi tutub – amma cübbədə deyil, əvvəl böyük yaşlı adam üçün alınan, sonra isə kəsilib onun boyuna tikilən alt paltarında – öz çarpayısının yanına qayıtdı. Qadın bu müddət ərzində bircə dəfə də olsun, yerindən tərpənməsə də, artıq ona baxmırdı. Əlləri hələ də önlüyünün altındaydı. Oğlan çarpayısına qalxıb yenidən arxası üstə uzandı, geniş açılmış gözlərini tavana zillədi. O, yalnız qadının tərpənməz, yayğın, beli azca bükülmüş kölgəsini görürdü. Sonra kölgə yox oldu. Başını döndərmədi, lakin qadının küncə gedib orda aşağı çökdüyünü, qab-qacaq qırıqlarını bir-bir döşəmədən qaldırıb məcməyiyə yığdığını eşitdi. Sonra qadın otaqdan çıxdı. Ətrafa sakitlik çökdü. Çıraq bir ahəngdə, plitəsi hay-həşir salmadan yanırdı; divarda arabir ağcaqanadların iri, quş boyda kölgələri görünürdü. O, pəncərədən o taydakı – bayırdakı qaranlığı, baharı, torpağın nəfəsini hiss edir, eşidirdi.

Onda cəmi səkkiz yaşı vardı. Yaddaş onun nələri xatırladığını yalnız uzun illər sonra – qadın otaqdan çıxan kimi dərhal çarpayıdan qalxıb küncə tərəf getdiyi, orda həvəslə diz çöküb, (halbuki dua etmək üçün xalça üzərinə o cür həvəslə diz çökmək istəməmişdi) təhqir edilmiş xörəyin üzərinə əyilərək onu vəhşi heyvan kimi, it kimi acgözlüklə yalamağa başladığı o gecənin üstündən uzun illər keçəndən sonra bildi.

Hava qaralmışdı; indi o burdan bir neçə mil aralıda – evdə olmalıydı. Şənbə axşamları ixtiyarı özündə olsa da, heç zaman evdən, özü də belə gec saatda, bu qədər uzağa getməmişdi. Evə qayıdanda hökmən qamçılanacaqdı. Ona görə yox ki, evdən uzaqdaykən nəsə eləmişdi, ya da eləməmişdi. Heç bir günah işləməsə də, evə qayıdan kimi o, sanki, Makiçernin öz gözü önündə nəsə eləyibmiş kimi hökmən qamçılanacaqdı.

Amma günah işləməyəcəyini, bəlkə, hələ özü də bilmirdi. Alatoranda beşi də köhnə, tərk edilmiş taxta-şalban zavodunun sınıq-salxaq qapısı ağzında bir yerə yığışmışdı; yüz addım aralıda gizlənib, bir qədər əvvəl o qapıdan içəri girən, sonra başını bayıra çıxarıb bir dəfə də ətrafa boylanaraq gözdən itən zənci qızı gözləyirdilər. Bunu uşaqlardan ən böyüyü təşkil etmişdi, içəri də elə o, birinci girmişdi. Qalanları – eyni kombinezon geyinmiş, üç mil radiusunda yaşayan və aralarındakı Co Makiçern adlı oğlan kimi on dörd-on beş yaşlarında yer əkməyi, heyvan sağmağı, odun doğramağı böyüklərdən heç də pis bacarmayan yeniyetmələr növbə tutmaq üçün saman yığıb gətirmişdilər. Yəqin ki, evdə onu gözləyən adamı yadına salmayana

qədər heç bu işin günah olması barədə də düşünməmişdi, çünki on dörd yaşlı yeniyetmə üçün ən böyük günah tay-tuşları arasında bakirə olduğuna görə lağa qoyulmaqdı.

Onun da növbəsi çatdı. Saraya girdi. İçəri qaranlıq idi. Dərhal onu dəhşətli təntiklik tutdu. Əvvəllər, diş məcununu xatırlayanda olduğu kimi yenə də ürəyi bulandı. Amma yerindən tərpənə bilmədi, qadın iyini, zənci iyini duyan kimi zənci qadın arzusunun doğurduğu təntiklik içərisində yerində mıxlanıb qaldı: ta ki o qız dillənib, ona yol göstərənəcən – heç bir sözə bənzəməyən, sanki, öz-özünə alınan qəribə bir səs çıxaranacan gözləməyə məcbur oldu. Onda ona elə gəldi ki, o qızı görür: nəsə yerə sərilmiş, zavallı bir şey idi, bəlkə də, gözləriydi. Aşağı əyilib, sanki, qaranlıq bir quyuya baxdı, onun dibində ölü ulduz işartısına bənzər zəif bir parıltı gördü. Nəhayət, hərəkətə gəldi, çünki ayağı qıza dəymişdi. Sonra yenə dəydi, çünki onu təpiklə vurdu. Və daha dayanmadı, təəccüb və qorxu içərisindəki boğuq çığırtını var gücüylə təpikləməyə başladı. Qız zingildəyirdi, qollarından yapışıb sərt hərəkətlə yuxarı qaldırdı, yumruqlarını qolaylayıb küt, ağır zərbələrlə onu döyməyə başladı; bəlkə də, səsi döyürdü, amma zənci qadın arzusunun doğurduğu təntiklik içərisində bu zərbələr hər dəfə düz qızın bədəninin bir yerinə dəyirdi.

Sonra qız onun yumruğundan yayındı, o özü isə arxa tərəfə yumalandı, çünki o biri uşaqlar onun üstünə cumdular, onu tutub saxlamağa, əl-qolunu burmağa çalışdılar; o isə hirsindən, gücsüzlüyündən tövşüyə-tövşüyə onlara yumruqla cavab verirdi. İndi yalnız kişi iyini, onların iyini duyurdu; ondan aşağıda Qız zingildəyir, qurtulmağa çalışırdı. Qaranlıqda bir-birinə qarışmışdılar, kimin əl-ayağı hara dəyirdisə, ora zərbə endirirdi, sonra hamısı birdən yerə yıxıldı – Co lap altda qaldı. Hətta orda da çarpışır, ağlaya-ağlaya onların əlindən qurtulmağa çalışırdı. Qız isə artıq tamam yaddan çıxmışdı, elə bil, heç olmamışdı. Sadəcə, bir-birilə dalaşırdılar, sanki, aralarından güclü, sərin külək əsib keçmişdi. Onlar onu yerə yıxdılar, tərpənməyə qoymadılar. “İndi dinc durassanmı? Axır ki, əlimizdəsən. Söz verirsənmi ki, dinc durassan?”.

– Yox, – dedi. Çabalayıb onların əlindən çıxmağa çalışdı.

– Bəsdi, Co! Hamımızla bacara bilməzsən. Biz ki, sənlə dalaşmaq istəmirik.

– Yox, – dedi, tövşüyə-tövşüyə yenə çabaladı. Heç kim heç kimi görmürdü. Onlar qızı, bu davanın səbəbkarını, ümumiyyətlə, belə bir səbəbkarın olub- olmadığını tamam yaddan çıxarmışdılar. O biri dördü üçün hər şey birdən-birə, qeyri-ixtiyari alınmışdı: erkəyin bir az əvvəl çütləşdiyi, ya da indi çütləşmək istədiyi dişiyə görə və ya onun uğrunda instinktiv döyüşmək istəyi onları buna vadar etmişdi. Ancaq onun nə üçün döyüşdüyünü onların heç biri başa düşə bilmirdi. Özü də deyə bilmirdi. Sinəsindən basıb yerə sıxmışdılar, alçaqdan boğuq səslə danışırdılar.

– Ey, siz, arxadakılar, çıxın burdan. Sonra biz onu eyni anda buraxarıq.

– Kim tutub onu? Mənim tutduğum kimdi?

– Ey, burax. Dayan... burdadı... Mənnən... – Yenə də hamısı birdən çalxalandılar, süpürüşdülər. Yenə də onu yerə sıxdılar. – Burdadı, bizim altımızdadı. Siz əlinizi çəkin, tez də çıxın. Bizə də çıxmağa imkan yaradın.

İkisi qalxıb dalı-dalı qapıdan çıxdı. Sonra o biri ikisi, sanki, partlayış zərbəsindən uçurmuş kimi, qaranlıq saraydan bayıra sıçrayıb qaçmağa başladılar. Onlar buraxan kimi Co dərhal yumruq atdı, amma bu zərbəsi heç kimi tutmadı. Arxası üstə uzanıb onların dördünün də alatoranda necə qaçdığına, sonra sürətlərini yavaşıdıb, geri boylandığına tamaşa etdi. Yerindən qalxdı, saraydan çıxdı. Qapının ağzında dayanıb, qeyri-ixtiyari üst-başını çırpdı, o biriləri xeyli uzaqda dayanıb ona baxırdılar. O isə onlara tərəf baxmadı. Çıxıb getdi, kombinezonu alatoranda əriyib gözdən itdi. Artıq çox gec idi. Ağır və dopdolu axşam ulduzu yasəmən çiçəyi kimi göydən asılı qalmışdı. O, bir dəfə də olsun, dönüb geri baxmadı. Çıxıb getdi, qaranlıqda xəyalat kimi əriyib yox oldu; o biri uşaqlar bir yerə yığışıb, onun dalınca baxırdılar, bənizləri alaqaranlıqda lap balacalaşmış, ağarmışdı. Birdən onlardan biri gözlənilmədən, uca səslə dedi: “Eyyy!” Co dönüb geri baxmadı. Başqa bir səs astadan, sakitcə, aydın dillə dedi: “Sabah kilsədə görüşənədək, Co.” O, cavab vermədi. Yoluna davam etdi. Aradabir qeryi-ixtiyari kombinezonunun üstünü çırpdı.

Ev irəlidə görünəndə, qərb tərəfdə səma artıq qaranlığa bürünmüşdü. Sarayın arxasındakı otlaqda bulaq qaynayırdı: qaranlıqda söyüd ağaclarının iyi gəlir, yarpaqlar xışıldaşırdı, amma onlar gözlə görünmürdü. O, bulağa yaxınlaşanda körpə qurbağaların qurultusu, bütün simləri eyni anda qırılan musiqi aləti kimi bir andaca kəsildi. Dizi üstə çökdü; o qədər qaranlıq idi ki, hətta suda onun başının silueti belə görünmürdü. Üzünə, qıyılmış gözlərinə su vurdu. Sonra yoluna davam elədi, otlaqdan keçib mətbəx pəncərəsindəki işığa doğru yönəldi. O işıq insan gözü kimi səbirlə, təhdidedici nəzərlərlə onu izləyirdi.

Hasara çatanda dayandı, işıq gələn pəncərəyə baxdı. Hasara söykənib bir qədər gözlədi. Otların arasında cırcıramalar ağız-ağıza vermişdilər. Şehli boz torpaq üzərində, ağacların qara gövdələri arasında işıldaquşlar çaşqın və nizamsız halda gah işarır, gah da yox olurdular. Evin böyründəki ağacda təqlid quşu nəğmə oxuyurdu. Bir az uzaqda, bulaqdan o yanda, meşədə iki çobanaldadan quşunun fiti eşidilirdi. Onlardan da uzaqda, sanki, yay fəslinin son üfüqünün arxasında isə it hürürdü. Hasardan keçdi, iki sağılmamış inəyin onu gözlədiyi tövlənin qapısına çatanda bir nəfərin tərpənməz halda orda oturduğunu gördü.

Makiçerni dərhal tanıdı və buna təəccüblənib-eləmədi, sanki, onların bu görüşü tamamilə təbii, məntiqi, qaçılmaz bir şeydi. Bəlkə də, o anda fikirləşdi ki, hər ikisi həmişə bir-birinə güvənə, arxayın ola bilərlər; yalnız o qadının nə edəcəyini qabaqcadan bilmək mümkün deyil. Bəlkə də o – Makiçernin fikrincə, bu yaşda işləyə biləcəyi ən böyük günahdan imtina etməsinə baxmayaraq – indi özünün, sanki, həmin günahı işləyibmiş kimi ağır şəkildə

cəzalandırılacağında heç bir anlamsızlıq görmürdü. Makiçern yerindən qalxmadı. Hələ də sifətində heç bir ifadə hiss edilmədən, daş kimi tərpənməz oturmuşdu, köynəyi qapının qara əsnəyi arasında zorla ağarırdı. "Mən onları sağmışam da, yedirmişəm də", – o dedi. Sonra asta-asta yerindən qalxdı. Bəlkə də, oğlan qamçının artıq onun əlində olduğunu bilirdi. Qamçı aram-aram, say üzrə yuxarı qalxıb-endi – aram-aram, bərkdən şaqqıldaya-şaqqıldaya. Oğlanın bədəni, sanki, daşdan, dəmirdən idi; elə bil, onun hissiyyat üzvləri hündür bir dirəyin, yaxud hündür bir qüllənin təpəsində tərki-dünya zahid kimi əyləşib, özünü çarmıxa çəkmənin qatı ekstazı içərisində dərin fikrə dalmışdı.

Mətbəxə çatanacan yanbayan addımladılar. Pəncərədən onların üstünə işıq düşəndə kişi dayandı, ona sarı çevrildi, sifətini onun sifətinə yaxınlaşdırıb diqqətlə baxdı.

– Dalaşmısan? – dedi. – Nəyin üstündə?

Oğlan cavab vermədi. Sifətindən heç nə sezilmirdi, dalğın idi. Bir qədər sonra cavab verdi. Səsi rahat, soyuq çıxdı.

– Elə belə.

Ordaca dayanmışdılar.

– Nədi, deyə bilmirsən, yoxsa demək istəmirsən? – Oğlan cavab vermədi. O, yerə baxmırdı. Heç nəyə baxmırdı. – Əgər özün bilmirsənsə, onda axmaqsan. Yox, əgər demək istəmirsənsə, onda, deməli, nəsə bir qələt eləmisən. Qadınla olmusan?

– Yox, – oğlan cavab verdi. Kişi ona baxdı. Sonra dillənəndə səsinin ahəngindən fikirli olduğu hiss edildi.

– Sən heç vaxt mənə yalan danışmamısan. Yəni, bildiyim qədər. – O, oğlana, onun sakit profilinə baxdı. – Kiminlə dalaşmısan?

– Tək deyildilər.

– Aha, – kişi dedi. – Elə bilirəm ki, sən də onları elə-belə, izsiz-filansız buraxmasısan?

– Bilmirəm. Yəqin ki.

– Aha, – kişi dedi. – Get yuyun. Şam yeməyi hazırdı.

Həmin gecə yatağa girəndə bu evdən qaçacağına qəti qərar verdi. Özünü qartal kimi ciddi, müstəqil, nəhəng, amansız və güclü hiss edirdi. Amma bu hiss keçib getdi, hərçənd, o vaxt o öz cisminin, eləcə də bütün ətraf məkanın onun üçün – qartal üçün əsl qəfəs olduğunu hələ anlamamışdı.

Makiçern düyənin yox olduğundan düz iki gün sonra xəbər tutdu. O da ona görə ki, təsadüfən, tövlədə gizlədilmiş təzə bir kostyum tapdı. Yaxşı-yaxşı göz gəzdirəndən sonra onun təptəzə olduğunu, bir dəfə də olsun, geyinilmədiyini başa düşdü. Kostyumu səhər tezdən tapmışdı. Amma bu barədə heç kimə heç nə demədi. Axşam isə tövləyə gəldi; Co inək sağırdı.

Balaca, alçaq bir kətildə, başını inəyin böyrünə əymiş halda otursa da, boyca kişidən geri qalmadığı aydın sezilirdi. Amma Makiçern bunu görmürdü. Gördüyü bir şey vardısa, o da on iki il bundan qabaq, bir dekabr səhəri arabada yanında ürkək, donmuş və laqeyd halda itatəkarcasına oturmuş olan beş yaşlı körpə uşaq idi. "Mən sənin düyəni görmürəm", – Makiçern dedi. Co cavab vermədi. O, badyaya, şırhaşır axan süd şırnağına sarı əyilmişdi. Makiçern arxa tərəfdə oğlanın başı üzərində dayanıb, yuxarıdan-aşağı ona baxırdı.

– Deyirəm ki, sənin düyən ortalıqda görünmür.

– Bilirəm, – Co dedi. – Yəqin çay kənarındadı. Bir halda ki, o mənimdi, ona özüm baxmalıyam.

– Aha, – Makiçern dedi. Amma səsini qaldırmadı. – Əlli dollarlıq bir düyə gecənin bu vaxtında çay kənarında qala bilməz.

– İtsə, ziyan mənə dəyəcək, – Co dedi. – Axı o mənim düyəm idi.

– İdi? – Makiçern təkrar soruşdu. – Deyirsən ki, inək sənin *idi*?

Co başını qaldırmadı. Süd şırnağı sakit bir şırıltıyla onun barmaqlarının arasından badyaya tökülürdü. Arxa tərəfində Makiçernin ordan aralandığını eşitdi. Amma inəyi sağıb qurtaranacan dönüb arxasına baxmadı. Yalnız işini qurtarandan sonra dönüb arxa tərəfə baxdı. Makiçern qapının ağzında taxta məhəccərin üstündə oturmuşdu.

– Sən əvvəlcə südü evə apar, – o dedi.

Co yerindən qalxdı; badya əlində yellənirdi. İnadlı, amma sakit bir səslə dedi:

– Sabah onu taparam.

– Əvvəlcə südü evə apar, – Makiçern təkrar etdi. – Mən səni burda gözləyəcəm.

Co bir saniyə də yerində dayanıb qaldı. Sonra geri döndü. Tövlədən çıxıb mətbəxə yollandı. Əlindəki badyanı masanın üstünə qoyanda missis Makiçern gəlib çıxdı.

– Şam yeməyi hazırdı, – o dedi. – Mister Makiçern evdədir?

Co qapıya sarı döndü.

– İndi gələr, – dedi. Qadının ona baxdığını hiss etdi.

Qadın narahatlıq içərisində, cəsarətsiz halda dedi:

– Sən də onacan yuyunarsan.

– İndi gəlirik. – O, tövləyə qayıtdı. Missis Makiçern qapıya çıxıb onun ardınca baxdı. Hava hələ tamam qaralmamışdı və o, tövlənin qapısı ağzında ərinin profilini gördü. Amma onu çağırmadı. Sadəcə, dayanıb iki kişinin qarşı-qarşıya dayandığına baxırdı. Onların nə danışdığını eşidə bilməzdi.

– Deməli, deyirsən ki, o, indi çay kənarında olar, eləmi? – Makiçern soruşdu.

– Mən dedim ki, orda ola bilər. Otlaqda nə çox yer...

– Aha, – Makiçern dedi. Hər ikisi sakit danışırdı. – Səncə, o, indi harda ola bilər?

– Bilmirəm. Mən ki, düyə deyiləm. Bilmirəm o, harda ola bilər.

Makiçern getdi.

– Gedək, baxaq, – dedi. Co da onun arxasınca otlağa çıxdı. Çayacan milin dörddə biri qədər yol vardı. Sahil boyu sıralanmış ağac topalarının qaranlığında arabir işıldaquşlar parlayıb-sönürdü. Ağacların tuşuna çatdılar. Onların gövdələri hətta gündüzlər belə keçilməz olan bataqlıq çəngəlliyində zorla nəfəs alırdı. – Hayla onu, – Makiçern dedi. Co dinmədi. Yerindən tərpənmədi. Üz-üzə dayanmışdılar.

– Düyə ki mənimdi, – axır ki, dedi, – siz onu körpəykən mənə vermişdiniz. Onu mən böyütmüşəm, mənim mülkiyyətimə vermişdiniz.

– Bəli, – Makiçern dedi. – Vermişdim. Əmlaka, mülkiyyətə sahib olmaq məsuliyyətini sənə öyrətmək üçün vermişdim. Sahibkarın, Allahın rizası ilə sahib olduğu mal-mülk üçün məsuliyyət daşıdığını, tədbirli olmağı, onu çoxaltmağı sənə öyrətmək üçün vermişdim. Hayla onu.

Hələ də üz-üzə dayanmışdılar. Bəlkə də, bir-birinə baxırdılar. Sonra Co çevrilib, bataqlığın kənarı ilə irəli getdi, Makiçern də onun arxasınca yollandı.

– Niyə onu haylamırsan? – o dedi. Co cavab vermədi. Sanki o, çaya, bataqlığa baxmırdı. Əksinə, gözü ev tərəfdə, tənha işıq gələn tərəfdəydi, hərdənbir isə dönüb, gəldikləri yolu ölçürmüş kimi, kişiyə baxırdı. Sürətlə getmirdilər, amma tezliklə otlağın sərhədini bildirən hasarın önünə gəlib çıxdılar. Artıq tamam qaranlıq çökmüşdü. Hasara çatanda Co geri döndü. İndi onlar bir-birinə baxırdı. Yenə də üz-üzə dayanmışdılar. Sonra Makiçern dedi:

– Düyəni neyləmisən?

– Satmışam, – Co dedi.

– Aha. Deməli, sən onu satmısan. Əvəzində nə almısan, bunu mənə deyə bilərsən?

Artıq bir-birilərinin sifətini seçə bilmirdilər. Onlar, demək olar ki, eyni boylu iki kölgə kimiydilər, sadəcə, Makiçern daha enliydi. Köynəyinin yuxarısında ağ ləkə kimi görünən başı Vətəndaş müharibəsi abidələrindəki mərmər top mərmilərini xatırladırdı.

– O düyə mənim öz malım idi, – Co dedi. – Əgər mənim deyildisə, onda niyə belə deyirdiniz? Onu mənə niyə vermişdiniz?

– Tamamilə haqlısan. O sənin idi, sənin şəxsi malın idi. Hələ ki onu satmağına görə səni danlamamışam, əlbəttə, əgər yaxşı qiymətə satmısansa. Hətta əgər səni aldadıblarsa – on səkkiz yaşlı oğlana qarşı, çox güman ki, elə belə də ediblər – yenə də mən səni buna görə tənbeh etmərəm. Hərçənd, həyatı səndən daha yaxşı bilən böyüklərlə bunu məsləhətləşməliydin. Ancaq sən də çox şeyi mənim kimi özün öyrənməlisən. Mən indi səndən yalnız bunu soruşuram: pulu hara qoymusan? – Co cavab vermədi. Onlar qarşı-qarşıya durmuşdular. – Bəlkə, onu saxlamaq üçün analığına vermisən?

– Hə, – Co dedi. Daha doğrusu, dili dedi, onun iradəsindən asılı olmayaraq yalan danışdı. O özü cavab vermək fikrində deyildi. Öz cavabına ağrılı bir heyrətlə qulaq asdı. Ancaq artıq gec idi. – Ona verdim ki, gizlətsin.

– Aha, – Makiçern dedi. Dərindən nəfəs aldı, az qala, ləzzətlə – qalib gəlmiş adam kimi böyük bir məmnunluq içərisində nəfəsini dərdi. – Əlbəttə, indi heç şübhəsiz, deyəcəksən ki, samanlıqda gizlədilən təzə kostyumu da sənə analığın alıb. Bu günəcən əlindən gələn bütün günahlar məlum idi: tənbəllik, naşükürlük, hörmətsizlik, küfr. İndi isə mən daha iki günahını faş elədim: yalan və əxlaqsızlıq. Əxlaqsız işlər üçün deyilsə, bəs onda təzə kostyum sənin nəyinə lazımdır? – Bununla da o, on iki il əvvəl övladlığa götürdüyü uşağın artıq kişi olduğunu etiraf etmiş oldu. Artıq, demək olar, burun-buruna dayanmışdılar, Makiçern ona möhkəm bir yumruq ilişdirdi.

Co ilk iki zərbəyə, bəlkə də, vərdiş etdiyinə görə, bəlkə də, təəccübdən mətanətlə dözdü. Hər halda, bu iki ağır yumruğun hər dəfə sifətində necə möhkəm partladığını bütün əzaları ilə hiss etsə də, dözdü. Sonra burnunun qanını yalaya-yalaya, tövşüyə-tövşüyə kənara sıçradı. Qarşı-qarşıya durmuşdular.

– Bax, bir də mənə əl qaldırma, – dedi.

Sonra çardaqda, öz yatağında buz kimi soyuq, əl-ayağı qıc olmuş halda uzanıb qalanda aşağıdakı otaqdan onların dar pilləkənlərlə üzüyuxarı qalxan səslərini eşitdi.

– Onu mən almışam! – Missis Makiçern dedi. – Mən! Öz pulumla, satdığım yağın puluyla. Sən özün dedin ki, mən o pulu öz istədiyim kimi... xərcləyə bilərəm... Saymon! Saymon!

– Sən ondan da betər ağ yalan uydurursan, – kişi dedi. Makiçernin rahat, eyni ahəngli, sərt, soyuq səsi pilləkən boyu qalxıb onun çarpayısınacan gəldi. O, ona qulaq asmırdı. – Diz çök. Diz çök. DİZ ÇÖK, QADIN. Məndən yox, Allahdan mərhəmət və üzr dilə.

Qadın ilk gündən – on iki il bundan əvvəlki ilk dekabr gecəsindən bəri həmişə onunla mehriban davranmağa çalışmışdı. O gün araba evə yaxınlaşanda o, artırmada dayanıb onları gözləyirdi; bu səbirli, fağır məxluqun cinsiyyətini səliqəylə təpəsinin ortasına yığılıb bağlanmış ağ saçlarından və bir də əynindəki dondan savayı heç nəylə təyin etmək olmazdı. Elə bil, qəddar, fanatik əri onu yavaş-yavaş, tədricən məhv edib içini çürütməmiş, hətta özünün belə istəmədiyi və o qadının bilmədiyi bir şeyə döndərməmiş, çəkicə yaxşı gələn, üzüyola metal kimi elə bircə dəfəyə döyüb, incəldə-incəldə lal ümidlərin, puça çıxmış arzuların kül kimi boz, tutqun qısırlığına çevirmişdi.

Araba dayananda o onlara elə yaxınlaşdı ki, sanki, hər şeyi – uşağı qucağına alıb oturacaqdan necə düşürəcəyini, onu evə necə aparacağını qabaqcadan düşünmüş, yaxşı-yaxşı məşq eləmişdi. Yeriməyə başladığı vaxtdan uşağı heç bir qadın qucağına almamışdı. Buna görə

də dartınıb onun əlindən çıxdı, xırda addımlar ata-ata, büründüyü kişi paltosunun içərisində bapbalaca bir şey kimi itib bata-bata evə özü getdi. Qadın onun böyrünə düşdü, tez-tez sağına-soluna keçdi. İçəridə onu oturtdu; onun uşağa olan bu yavıqlığında, davranışında nəsə bir gərginlik, eqoist bir çaşqınlıq vardı, sanki, hər şeyin təzədən təkrar olunmasını istəyirdi; istəyirdi ki, o da, uşaq da onun əvvəlcədən düşünüb-daşındığı kimi hərəkət eləsin. Uşağın önündə dizi üstə çökdü, onun ayaqqabılarını çıxarmaq istədi və uşaq onun nə eləmək istədiyini başa düşdüyü anacan buna çalışdı. Amma uşaq başa düşən kimi onun əlini geri itələdi, ayaqqabılarını özü çıxardı, ancaq onları yerə qoymadı, əlində saxladı. Qadın onun corablarını soyundurdu, dərhal da bir ləyən isti su gətirdi və onu elə tez gətirdi ki, uşaqdan başqa istənilən adam onun bu ləyəni, bəlkə də, lap sübh obaşdan hazır saxladığını güman edərdi. Uşaq elə onda ilk dəfə ağzını açdı: "Mən dünən yuyunmuşam".

Qadın heç nə demədi. Uşağın önündə dizi üstə çökdü, uşaq isə onun təpəsinin ortasına, ayaqlarını qurdalayan əllərinə baxırdı. İndi o, qadına kömək etməyə çalışmırdı. Onun nə eləmək istədiyini başa düşmürdü, hətta soyuqdan qıc olmuş ayaqlarını isti suya salanda da başa düşmədi. İnanmırdı ki, hər şey bununla bitsin, çünki bu ona həddən artıq ləzzət eləyirdi. Sonrasını, bunun – hansı şəkildə olursa olsun – pis, acılı hissəsinin haçan başlayacağını gözləyirdi.

Sonra qadın onu yatağa uzatdı. Artıq iki il idi ki, o özü geyinir, özü soyunurdu, bu işdə ona nə məsləhət verən, nə də kömək edən vardı – hansısa Alisa adlı qızdan savayı; ancaq bu da çox nadir hallarda olardı. Dərhal yuxuya gedə bilmədi, çünki bərk yorulmuşdu; indi həm də çaş-baş qalmışdı, əsəbiləşirdi, təkcə bir şeyi – bu qadının otaqdan çıxıb getməyini, ona yatmağa imkan verməyini arzulayırdı. O isə çıxıb getmək bilmirdi. Əksinə, kətili çarpayının yanına çəkib, oturdu. Otaqda soba yanmırdı, soyuq idi. Qadının çiynində şal vardı, ona bürünmüşdü, ağzından buğ çıxırdı, elə bil, siqaret çəkirdi. Yuxusu tamam qaçmışdı. Hansı günahına görə, hansı cəza olursa olsun, o həmişə pis, xoş olmayan hissənin haçan başlayacağını gözləyirdi. Başa düşmürdü ki, bu günlük hər şey bununla bitib. Çünki belə bir şey əvvəllər heç vaxt onun başına gəlməmişdi.

Hər şey o gecədən başladı. Ona elə gəldi ki, ömrünün axırına kimi belə də davam edəcək. İndi on yeddi yaşında dönüb geriyə baxarkən o, həyat iflasının, əlacsızlığın və mürgülü instinktin doğurduğu adi, boş və mənasız səylərin uzun bir zəncirə döndüyünü görürdü: onun üçün xəlvətcə hazırlanan yeməklər, həmin xörəkləri xəlvətcə götürüb, xəlvətcə yeməsi üçün edilən israrlar (halbuki o özü bunu istəmirdi, çünki bilirdi ki, Makiçern üçün bunun elə bir əhəmiyyəti yoxdu), bu axşamkı kimi onunla cəza arasında sipər olmağa can atdığı neçə-neçə hadisələr; belə olmalıydımı, olmamalıydımı, haqlı və ya haqsız – kişi də, oğlan da bu hadisələrə təbii və qaçılmaz fakt kimi baxırdı, ta o vaxta qədər ki, qadın işə qarışır, buna nəsə bir rayihə, zəriflik, dad qatırdı.

Bəzən təklikdə olanda qadına açıb demək istəyirdi; əmin idi ki, bu qadın öz əlacsızlığı ucbatından onun dediyini nə başqa cür yoza, nə də ona biganə qala biləcək; sadəcə, bir sirrə agah olacaq və onu hökmən ərindən gizli saxlamağa məcbur qalacaq; çünki ərinin dərhal və əvvəlcədən gözlənilən reaksiyası o xəbərin özünü elə ört-basdır edə və silə bilərdi ki, bir daha onun üstünə qayıtmaq mümkün olmazdı. Yemək istəmədiyi halda ona xəlvətcə yedirtdiyi yeməklərin əvəzini xəlvətcə ödəmək xatirinə o qadına xəlvətcə demək istəyirdi ki: "Qulaq as. Ərin deyir ki, naşükürün, kafirin birini saxlayıb böyüdüb. Bax indi bütün cəsarətini topla, get ona kimi saxladığını, kimi əziyyət çəkib böyütdüyünü de. O öz damı altında, öz süfrəsinin çörəyi ilə, əslində, bir zənci balasını saxlayıb böyüdüb".

Qadın ona qarşı həmişə mehriban olmuşdu. Amansız, qəddar, hakim təbiətli kişi isə onun özünü müəyyən tərzdə aparacağına və buna görə də müəyyən mükafat və ya cəza alacağına güvənirdi; oğlan da kişiyə elə o cür, özünün müəyyən düz və yanlış hərəkətlərinə onun müəyyən tərzdə reaksiya verəcəyinə güvənə bilərdi. Məsələ qadında, onun ən adi, ən məsum hərəkətlərə belə cüzi də olsa, şeytani çalar qatmasında, xəlvəti işlərə olan qadın marağında, qadın həvəsində idi. Qadın onun çardaqdakı otağının divarında, sınıq-salxaq taxta lövhənin arxasında dəmir qutuda pul gizlətmişdi. Bu, o qədər də çox pul deyildi və məlum idi ki, onu ərindən başqa heç kimdən gizlətmir; hərçənd oğlana görə ər üçün bunun elə bir əhəmiyyəti yox idi. Özü üçün isə bu heç zaman sirr olmamışdı. Hələ uşaq vaxtlarında qadın onu özüylə birlikdə xəlvətcə, gizlənqaç oynayan uşaqlar kimi min bir ehtiyatla, oğrun-oğrun çardağa çıxarar və gətirdiyi, barmaqla sayılan beş və ya on sentlik miskin (Allah bilir, hansısa, hətta dünyada heç kimin etiraz belə etməyəcəyi, xırda bicliklərin, yalanların məhsulu olan) sikkələri öz gizlin saxlancına atardı; o isə ciddi, yumru gözləri ilə, hətta dəyərini belə anlaya bilmədiyi bu dəmir pulların cingildəyərək o qabın içərisinə necə düşdüyünə tamaşa edərdi. Qadın ona etibar edirdi və bu etibarını ona zorla verdiyi yeməklər kimi zorla qəbul etdirməyə çalışırdı: birlikdə, bir-birinin yanında görülən hər gizlin, xəlvəti işin özü bu etibar aktının təsdiqinə çevrilməliydi.

Məsələ nə onun nifrət etdiyi ağır işdə, nə də cəza və haqsızlıqlarda idi. Belə şeylərə o, hələ onların ikisini də tanımamışdan qabaq öyrəşmişdi. Başqa bir şey də gözləmirdi; belə şeylər onu nə təəccübləndirir, nə də hirsləndirirdi. Məsələ qadında, onun yumşaqlığında, mehribanlığında idi; ona elə gəlirdi ki, ömrü boyu bunun qurbanı olaraq qalacaq – ən qəddar, amansız kişi məhkəməsindən də çox məhz buna nifrət edirdi. "Bu qadın istəyir ki, mən ağlayım", – əllərini başının arxasına qoyub, əl-ayağı buz kimi qıc olmuş halda, ay işığı altında öz çarpayısında uzanarkən düşündü; kişinin israrlı donqultusunu, sanki, onun otağına qalxan pilləkənlərlə göylərə ucalmaq istəyən səsini eşitdi. "İstəyir ki, mən ağlayım. Fikirləşir ki, onda mən həmişəlik onların əlində olacam".

Səs salmadan, ehtiyatla kəndiri gizlətdiyi yerdən çıxardı. İç tərəfdən pəncərəyə bərkitmək üçün onun bir ucuna əvvəlcədən ilgək vurmuşdu. Artıq bir anın içindəcə ordan yerə düşə, elə o cür də geri qayıda bilərdi; indi, bir illik, bəlkə, ondan da çox təcrübə sayəsində həmin kəndirlə, divara bircə dəfə belə toxunmadan, kölgəyəbənzər pişik yüngüllüyü, pişik cəldliyilə sürüşüb yerə düşə bilirdi. Başını pəncərədən çıxardı, kəndirin açıq ucu xışıltıyla yerə düşdü. Ay işığında kəndir hörümçək torundan da nazik görünürdü. Sonra bir-birinə bağlanmış ayaqqabılarını arxadan kəmərinə keçirib, həmin kəndirlə cəld aşağı sürüşdü, Makiçernlərin yatdıqları otağın pəncərəsi önündən bir anlıq kölgə kimi şığıyıb keçdi. Kəndir düz onların pəncərəsi önündən aşağı sallanırdı. Yerə düşən kimi onu çəpinə bir kənara çəkib tarım bağladı. Sonra ay işığında tövləyə tərəf getdi, samanlığa qalxıb, gizlətdiyi yerdən təzə kostyumu çıxardı. Kostyum səliqəylə kağıza bükülmüşdü. Kağızı açmamış onun qatlarını əli ilə yoxladı. “Tapıb”, – fikirləşdi. “Bilir”. Sonra pıçıltıyla dedi: “Əclaf. Oğraş”.

Qaranlıqda tələm-tələsik geyindi. Artıq gecikirdi, çünki düyə üstündəki dava-dalaşdan sonra onların haçan yuxuya gedəcəklərini gözləməli olmuşdu, günah isə qadındaydı, hər şeyin bitdiyi, ya da, ən azı, sabaha saxlandığı bir anda təzədən işə qarışmışdı. Bükülünün içində bir ağ köynək və qalstuk da vardı. Qalstuku cibinə soxdu. Pencəyi ağ köynəyin üstündən elə geyindi ki, ay işığında çox da seçilməsin. Aşağı düşüb, tövlədən çıxdı. Dəfələrlə yuyulmaqdan yumşalıb əldən düşmüş kombinezondan sonra təzə paltarda özünü rahat hiss etmirdi, elə bil, o, əyninə bir qədər böyük, həm də qabaydı. Ay işığında ev qara, anlaşılmaz, bir qədər də xəyanətkar bir şey kimi görünürdü. Elə bil, canlı, heybətli və anlaşılmaz bir məxluqa çevrilmişdi. Onun yanından keçib, yola çıxdı. Cibindən bir dollarlıq saatını çıxardı. Onu üç gün əvvəl düyədən qazandığı pula almışdı. Amma əvvəllər saatı olmadığı üçün qurmağı unutmuşdu. Dəxli yox idi, saatsız da bilirdi ki, xeyli gecikir.

Yol ay işığında ağacların arasıyla uzanıb gedirdi, budaqların kölgəsi yumşaq toz üzərinə düşmüş qara ləkə kimi dolğun və aydın idi. Sürətlə addımlayırdı; ev xeyli arxada qalmışdı, indi evdən baxsaydılar, onu görə bilməzdilər. Bir qədər irəlidə yol şoseyə çıxırdı. Maşın hər dəqiqə şütüyərək ordan ötüb keçə bilərdi, çünki qıza demişdi ki, əgər yolayrıcına vaxtında gəlib çatmasa, onu birbaş məktəbdə, rəqs təşkil edilən yerdə qarşılayacaq. Ancaq maşın görünmürdü, şoseyə çıxandan sonra da heç nə eşitmədi. Yol da, gecə də kimsəsiz idi. “Bəlkə də, artıq keçib gedib”, – o düşündü. İşləməyən saatını təzədən cibindən çıxarıb baxdı. Saat ona görə işləmirdi ki, onu qurmağa mane olmuşdular. Qocaların ucbatından gecikirdi, məhz onlar saatı qurmağa imkan verməmişdilər; buna görə də indi bilmirdi ki, gecikir, ya yox. Arxada – yolun qaranlıq ucunda, artıq gözlə görünməyən evdə qadın, yəqin ki, çoxdan yuxuya getmişdi; niyə də

getməyəydi, axı onun gecikməsi üçün nə lazımdısa, eləmişdi. Dönüb geriyə, evə sarı baxdı, elə bu halda da – beynində bu fikirlər, evə baxa-baxa yerində donub qaldı; ağlı və bədəni eyni anda dondu, sanki, bir düyməni basıb onları söndürmüşdülər: ona elə gəldi ki, yolda qara kölgələrin arasında nəsə hərəkət edir. Sonra fikirləşdi ki, bəlkə də, heç nə yoxdu, bəlkə də bu, divara düşmüş kölgə kimi onun fikirlərinin proyeksiyası, şəklidir. Fikirləşdi: "Amma kaş o olaydı. Kaş o mənim dalıma düşəydi, maşına necə mindiyimi görəydi. Kaş bizə çatmağa, məni yolumdan saxlamağa çalışaydı." Ancaq yolda heç nə görünmürdü. Yol bomboş idi, orda yalnız xəyanətkar kölgələr oynaşırdı. Sonra uzaqdan, şəhər tərəfdən mühərrik səsi eşitdi. Diqqətlə o tərəfə baxmağa başladı və tezliklə şosedə bir cüt işıq göründü.

Qız şəhərin xəlvəti küçələrinin birində yerləşən, pis ad çıxarmış kiçik bir restoranda ofisiant işləyirdi. Yetkin adam onun otuzu adladığını dərhal, ilk baxışdan anlayardı. Amma Coya görə onun yaşı, yəqin ki, on yeddidən çox olmazdı, çünki bapbalacaydı. Təkcə boyu qısa deyildi, həm də körpə uşaq kimi çox arıq idi. Yetkin adam onun bu balacalığının təbii kövrəklikdən deyil, ruhundakı hansısa pozğunluqdan irəli gəldiyini dərhal sezərdi; bu elə bir kövrəklik idi ki, heç vaxt cavan olmamışdı; onun bədən cizgilərində heç vaxt yeniyetməliyə xas bir şey yaşanmamışdı, yaxud da bütün bunlardan onda heç nə qalmamışdı. Saçları tünd qaraydı. Sümükləri çıxmış sifəti həmişə yerə baxırdı, elə bil, başı bədəninin üstündə düz oturmamış, aşağı sürüşmüşdü. Gözləri oyuncaq heyvanın düymə gözlərinə bənzəyirdi, baxışları isə, sanki, ağır, qəddar idi, halbuki onda qəddarlıqdan əsər-əlamət belə yox idi.

Ona elə buna – boy-buxununun bu cür xırda olduğuna görə yaxınlaşmışdı, sanki, məhz bu cəhəti bu qızı həris, yırtıcı kişi gözlərindən qoruya bilərdi və qorumalıydı, həm də onun öz şansını artırmalıydı. Əgər iri olsaydı, ona yaxınlaşmağa cürət etməzdi. "Mənasız işdi. Yəqin, artıq onun öz oğlanı, kişisi var", – deyə fikirləşərdi.

Bu hadisə payızda, on yeddi yaşı olanda başlamışdı. Adi bir iş günü idi. Adətən, onlar şəhərə şənbə günləri gələrdilər, bütün günü burda qalacaqlarına görə özləri ilə zənbildə, dükandan alınan və xüsusi olaraq səfər üçün saxlanılan soyuq yemək gətirərdilər. Bu dəfə isə Makiçern hüquqşünasla görüşə gəlmişdi və işini tez qurtarıb, nahara kimi evə qayıtmaq fikrindəydi. Amma onun yanından çıxanda – Co küçədə gözləyirdi – saat artıq on iki olmuşdu. Çıxan kimi də saatına baxdı. Sonra başını qaldırıb, məhkəmə binasındakı şəhər saatına və nəhayət, günəşə boylandı; sifətinə təəssüf və qəzəb hissi çökdü. Elə o ifadəylə də Conu süzdü; qapağı açıq saatını ovcunda tutmuşdu, gözlərinə soyuq bir narazılıq çökmüşdü. Sanki, körpə yaşlarından saxladığı bu oğlanı ilk dəfə görürdü, onu öyrənir, qiymətləndirməyə çalışırdı. Sonra gözünü ondan çəkdi. "Gedək, – dedi. – Başqa əlac yoxdu".

Şəhər dəmiryol qovşağıydı. Hətta iş günlərində də küçələr kişilərlə dolu olurdu. Bütün şəhərin kişisayaq əzələli, tranzit ab-havası vardı: hətta ailəli kişilər belə təsadüfdən-təsadüfə, bayramdan-bayrama öz evlərində otururdular; onlar başqa bir mühitdə cərəyan edən ayrıca, gizli bir həyat yaşayır, hərdənbir yolları evə düşəndə isə teatrda əzizlənən mesenatlar kimi evdəkilər onların başına fırlanırdılar.

Makiçernin indi onu gətirdiyi yeri Co ömründə birinci dəfə görürdü. Xəlvəti bir küçədə kiçik bir restorandı: iki kirli pəncərə arasında kirli bir dar qapı... Co buranın restoran olduğunu heç də dərhal anlamadı. Çünki qapının üstündə lövhə-zad yox idi, içəridən isə nə bir səs eşidilir, nə də mətbəx iyi gəlirdi. İçəri girəndə önünə sırayla kətillər düzülmüş uzun bir piştaxta, giriş qapısı ağzında siqaret vitrini arxasında dayanmış kök sarışın bir qadın, piştaxtanın o biri başında isə bir qrup kişi gördü; onlar heç nə yemirdilər və hamısı birdən dönüb siqaret tüstüsünün qatı burulğanı arasından gözlərini Makiçernlə ona zillədilər. Hamısı susmuşdu. Onlara elə baxırdı ki, elə bil, söhbətlərilə birlikdə nəfəsləri də kəsilmişdi, hətta siqaret tüstüsü də saplağından qırılmış yarpaq kimi öz ağırlığı altında havada hara gəldi üzürdü. Kişilər kombinezonda deyildilər, hamısının başında şlyapa vardı, onların sifətləri də bir-birinə bənzəyirdi: nə cavan idi, nə qoca; nə kəndçi sifətiydi, nə də şəhərli. İndicə qatardan düşən, sabahsa burdan çıxıb gedəcək yersiz-yurdsuz adamları xatırladırdılar.

Co ilə Makiçern piştaxtanın arxasında, kətildə oturub yeməklərini yedilər. Co tələm-tələsik yeyirdi, çünki Makiçern də elə yeyirdi. Hətta nahar süfrəsi arxasında belə bu adamın sifətindən təhqirə məruz qalmış zabitəlilik yağırdı. Ucuz, ələstü hazırlanan və ələstü yeyilən yemək sifariş vermişdi. Amma Co bilirdi ki, bunun xəsisliklə heç bir əlaqəsi yoxdu. Xəsislik, ola bilsin ki, onları başqa yerə yox, məhz bura gətirmişdi; Makiçern isə ona görə bu cür ucuz yemək sifariş vermişdi ki, tələsirdi, tez getmək istəyirdi. O, əlindəki bıçaqla çəngəli yerə qoyan kimi kətildən düşdü, dedi: “Gedək”. Qapıdakı siqaret vitrinin arxasında dayanan, saçları latun rənginə boyanmış qadına haqq-hesabı ödədi. Bu qadında nəsə yaşına yenilməyən bir şey – döyüşkən və almaz kimi möhkəm özünəəminlik vardı. Çünki nə onlar içəri girəndə, nə də Makiçern pulu ona verəndə başını qaldırıb bircə dəfə də olsun, onlara tərəf baxmadı. Elə o cür də – başını qaldırmadan yeməyin haqqını cəld və dəqiqliklə hesablayıb, Makiçern pulu ona uzatmağa macal tapmamış xırdasını şüşənin üstünə tökdü; səliqəylə daranmış saçların saxta parıltısı və səliqəli sifət arxasından bu qadının bütün cizgiləri portala keşik çəkən daşdan yonulmuş şir heykəli kimi dəqiq və aydın görünürdü; sanki o öz əminliyini qalxan kimi önünə tutmuşdu – şlyapasını yan qoyan, damağından siqaret düşməyən avara, pis niyyətli kişilər o qalxanın arxasında sürü halında vurnuxa-vurnuxa qala bilərdilər. Makiçern xırdasını yoxlayıb qurtardı, küçəyə çıxdılar. O yenə də Coya baxmağa başladı. Dedi: “Bax, sənə deyirəm, bu yeri yadında saxla. Dünyada elə yerlər var ki, ora ancaq böyüklər, kişilər gedə bilər, sən yaşda oğlanlara, yeniyetmələrə ora getmək

olmaz. Bu yer də onlardan biridir. Bəlkə də səni heç bura gətirməməliydim. Amma belə yerləri də görməyin lazımdı – nədən çəkinməli, nədən uzaq durmalı olduğunu bilməyin üçün. Bir də ki özüm yanındaydım, hər şeyi sənə izah edə, səni ordan qoruya bilərdim. Həm də burda yemək çox ucuzdu".

– Axı ora nə olub? – Co soruşdu.

– Bu sənin işin deyil, şəhərin öz işidir. Sən yalnız bir şeyi unutma: bura mənsiz gəlməyi sənə qadağan edirəm. Gələn dəfə tez də olsa, gec də olsa, evdən özümüzlə nahar gətirərik.

O gün uzun piştaxtanın tən ortasında, hamıdan (bir tərəfdə latunsaçlı qadından, digər tərəfdə isə piştaxtanın o biri başındakı kişilərdən və iri, həddən artıq iri əlləriylə qab-qacağı onların önünə düzən, bir qədər küt, yerədikik sifətli piştaxtanın arxasında uşaq boyundan azca hündür görünən ofisiant qızdan) xeyli aralıda, belini bükməyən, hirsini səssiz büruzə verən bir adamla birlikdə əyləşib, ağzındakı yeməyi tələm-tələsik udarkən o, bunları görmüşdü. Sonra ikisi də bir yerdə ordan çıxmışdılar. Haçansa bura bir də qayıdacağını ağlına belə gətirməmişdi. Ona görə yox ki, Makiçern bunu ona qadağan eləmişdi. Sadəcə, inanmamışdı ki, həyat onu təkrar gətirib bura çıxara bilər. Sanki, öz-özünə demişdi: "Bu adamlar mənə yaddılar. Mən onları görə bilsəm də, nə elədiklərini, niyə elədiklərini başa düşmürəm. Səslərini eşidirəm, amma nə danışırlar, nə üçün danışırlar, kimə danışırlar, anlaya bilmirəm. Anlayıram ki, burda yeməkdən, içməkdən başqa nəsə ayrı bir şey də var. Amma nədi – bilmirəm. Heç vaxt da bilməyəcəm".

Bütün bunlar bir müddət sonra yaddaşın səthindən silinib getdi. Növbəti altı ay ərzində ara-sıra şəhərə gəlsə də, o restoranı görmədi, heç yanından da keçmədi. Keçə bilərdi. Amma nədənsə bu haqda heç düşünmədi də. Bəlkə də, buna ehtiyac duymadı.. Tez-tez ona elə gəlirdi ki, düşüncənin özü bəzən birdən-birə şəklə çevrilir, canlanır, onun gözü önündən getmək istəmir: uzun, bomboş və hansısa, bəlkə də, pis niyyətli piştaxta; bir tərəfdə heykəl kimi dayanıb, sanki, ona keşik çəkən soyuqsifət, gursaçlı bir qadın, o biri tərəfdə başları çiyinlərinə qısılmış, şlyapalarını yan qoyaraq tüstülənən, siqareti siqaretə caladıqca kötüyünü hara gəldi atan kişilər və boyu uşaq boyundan çox da hündür olmayan, əlləri qab-qacaqla dolu, mətbəxlə piştaxta arasında oyan-buyana şütüyən, hər dəfə də əl çatacaq qədər kişilərə yaxın gələn ofisiant qız; kişilər ona tərəf əyilir, siqaret tüstüsünün arasından nəsə deyir, pıçıldayır, sanki, onunla əylənir, yaxud da nəyisə bayram edirlər, onunsa yerədikik, küt sifəti fikirlidi, sanki, heç nəyi eşitmir. "Mən heç bilmirəm onlar ona nə deyirlər", – o fikirləşdi, düşündü *Bilmirəm, bəlkə də onların ona dedikləri elə şeydi ki, böyük yaşlı kişilər onu yanlarından ötən uşağa deməməlidilər* və inandı *Mən hələ bilmirəm, bir anlıq yuxu qapadır göz qapağın, salır zülmət zindana onun həyalı, dalğın, faciəvi, kədərli, cavan və şux sifətin; gözləyir bürünərək gənc istəyin dumanlı, mübhəm, sirli-sehrli əlvan rəng boyasına. Artıq məhəbbəti qidalandıran nəsə var: indi bilirəm ki,*

üç il bundan qabaq o zənci qızdan nə üçün imtina etdim, onu nə üçün əzişdirdim; o da bunu bilməlidi, bununla fəxr etməlidi, fəxr etməlidi və gözləməlidi

Buna görə də o qızı bir də görəcəyini güman etmirdi, zira cavan adamın məhəbbəti arzusu kimi cüzi bir ümidlə özünü doyurur. Çox güman ki, öz hərəkətinə, bu hərəkətində üzə çıxanlara o, heç də Makiçerndən az təəccüblənməmişdi. Hadisə şənbə günü, artıq yazda baş vermişdi. On səkkiz yaşı təzəcə tamam olmuşdu. Makiçern yenə də hüquqşünası görməyə gəlmişdi. Bu dəfə səfərə əvvəlcədən hazırlıq görmüşdü. "Mən bir saat burda olacam, – o dedi. – Gedib gəzə, şəhərə baxa bilərsən". Ötən dəfə olduğu kimi indi də diqqətlə, sınayıcı nəzərlərlə, sağlam düşüncə naminə öz ədalətliliyini islah etmək məcburiyyətində qalan ədalətli adama xas yüngül bir əsəbilik içərisində Conu süzdü. "Al, – dedi. Pul kisəsini açıb, ordan pul çıxardı. On sentlik idi. – Çalış, bunu qabağına çıxan ilk adamaca havayı bağışlamayasan. Qəribə şeydir, – Coya baxa-baxa əsəbi dedi, – insan pulu hara gəldi səpməyi öyrənməyənəcən, onun qədrini bilməyi heç cür öyrənə bilmir. Bir saatdan sonra burda olarsan".

Pulu alıb birbaş həmin restorana yollandı. Onu heç cibinə də qoymadı. Heç bir plan qurmadan, demək olar ki, qeyri-ixtiyarı ora yollandı; sanki, hərəkətlərini başı deyil, ayaqları idarə edirdi. Xırda on sentliyi isti ovcunda körpə uşaq kimi bərk-bərk sıxmışdı. Üstünə tor çəkilmiş qapını açıb ürkək-ürkək içəri girdi. Girərkən ayağı astanaya ilişib büdrədi. Sarışın qadın (elə bil, o bu yarım ildə bircə dəfə də olsun, yerindən tərpənməmişdi, gur, parlaq, dalğalı, latun rəngli saç düzümünə bircə dəfə də olsun, əl gəzdirməmişdi, hətta paltarını belə dəyişməmişdi) siqaret vitrininin arxasından onu izləyirdi. Şlyapalarını yan qoymuş, damaqlarında siqaret, bərbərxana iyi verən həmin kişilər piştaxtanın o biri başında oturub ona baxırdılar. Restoranın sahibi də onların arasındaydı. Onu birinci dəfəydi görürdü. O da o biri kişilər kimi başına şlyapa qoymuşdu, siqaret çəkirdi. Çox hündür adam deyildi, Conun özündən azca hündür olardı, siqaret ağzının bir qırağından elə sallanırdı ki, elə bil, danışmağa mane olmamaq üçün onu qəsdən ora dürtmüşdülər. Sonacan əl vurulmadan, özbaşına yanıb qurtaran, sonra da kötüyü yerə tüpürülərək daban altında basılıb əzilən siqaretin burum-burum havaya qalxan tüstüsü arxasından qıyıq gözüylə ona baxan, sifəti daş kimi ifadəsiz olan bu adamdan Co öz vərdişlərindən birini əxz edəcəkdi. Amma indi yox. Bu, sonralar baş verəcəkdi – həyat o qədər sürətlə fırlanacaqdı ki, əxzetmə həm bilgini, həm də inancı əvəz edəcəkdi. İndi isə o yalnız o biri tərəfdən piştaxtanın üstünə əyilmiş önlüyü çirkli adama baxırdı; bu adam önlüyünü üstünə elə bağlamışdı ki, elə bil, yol kəsən quldur sifətinə saxta saqqal taxmışdı. Əxzetmə sonra gəldi – sadəlövhlüyə qarşı təhqirin bütün cəmilə birlikdə; bu ikisi, sanki, ər-arvad kimidilər, onların iş yeri isə bu restoran kimi bir şeydi: burda müştərilər başqa yerlərdən gətirilən, tez-tez dəyişdirilən naşı ofisiant qızların payladığı ən ucuz, ən adi – təki restoranın adını doğrultsun – xörəkləri yeməyə məcburdular; və o, qısamüddətli, gur kef günlərində burda gördüklərinin hamısını, xəlvəti örüşdə

yorğun, peşəkar madyanların arasına düşmüş cavan ayğır kimi sadəlövh və coşqun bir heyrət içərisində seçib-seçələmədən əxz edir, mənimsəyirdi, əvəzində isə özü də bu adsız, saysız-hesabsız kişilərin qurbanına çevrilirdi.

Ancaq bütün bunlar hələ olmamışdı, xeyli sonralar olacaqdı. Pulu ovcunda bərk-bərk sıxıb piştaxtaya yaxınlaşdı. Əmin idi ki, kişilər indi susub ona baxırlar, çünki mətbəx qapısının arxasında qəzəblə cızıldayan tavanın səsindən başqa heç nə eşitmirdi; fikirləşdi *O qız ordadır. Buna görə onu görmürəm* Ehmalca kətilin üstünə qalxdı. Əmin idi ki, indi hamının gözü ondadır. Siqaret vitrininin arxasındakı sarışın qadın ona baxır, restoran sahibi gözünü ondan çəkmir və tənbəl tüstü burumu indi, yəqin ki, onun sifətinin önündə donub qalıb. Restoran sahibi sonra tək bircə kəlmə dedi. Co bildi ki, bu sözü deyərkən o, yerindən tərpənmədi, heç siqaretinə də əl vurmadı. "Bobbi," – restoran sahibi dedi.

Kişi adıdı. O bunu düşünmədi. Bu, bir göz qırpımında, özü də birdən baş verdi: *Qız yoxdu. Onun yerinə kişi xeylağı götürüblər. Pul da havayı getdi, o dediyi kimi* Ona elə gəldi ki, indi dönüb burdan çıxa bilməz; çıxmaq istəsə də, sarışın qadın onu saxlayacaq. Ona elə gəldi ki, piştaxtanın o biri başındakı kişilər də bunu başa düşür, ona gülürlər. Və eləcə gözlərini yerə dikib, pulu ovcunun içində möhkəm sıxa-sıxa, tərpənmədən kətilə yapışıb qaldı. İki iri əl piştaxtanın üstündə, onun gözləri önündə peyda olmayanacan ofisiant qızı görmədi. Yalnız onda ofisiant qızın paltarındakı naxışları, onun önlüyünü və həmin iki iri, sümüklü əli gördü; piştaxtanın qırağına qoyulan bu əllər elə tərpənməz idi ki, elə bil, onlar da qızın mətbəxdən gətirdiyi qablar kimi bir şey idi. "Qəhvə, bir də piroq", – Co dedi.

Qızın səsi çox məyus, tamam anlamsız çıxdı. "Limonlu, şokoladlı, kakaolu".

Səsin gəldiyi hündürlüyə nəzərən, sanki, bu əllər heç cür onun ola bilməzdi. "Hə", – Co dedi.

Əllər yerindən tərpənmədi. Heç səsdə də heç bir dəyişiklik olmadı. "Limonlu, şokoladlı, kakaolu. Hansından?" Kənardan baxanlara onlar, yəqin ki, qəribə görünürdülər. Qara, üstü ləkəli, yağlav, parıldayana qədər sürtülmüş piştaxtanın biri bu, digəri o tərəfində üz-üzə dayanmışdılar, bir az da, ibadət edənlərə oxşayırdılar: tərtəmiz, amma səfil-sərgərdan geyimli, utancaqlıqdan simasına nəsə maddi dünyaya aid olmayan, günahsız bir ifadə çökmüş kəndçisifət yeniyetmə oğlan və onun önündə məyus halda, intizar içində donub qalmış, bapbalaca bir qız... O qədər balaca ki, sanki, ona da qeyri-maddi dünyanın həmin möhürü vurulmuşdu. Qızın arıq, sivriləşmiş sifəti vardı. Almacıq sümüklərinin ətrafında dərisi tarım dartılmışdı, gözlərinin altına qara dairələr çökmüşdü. Yarıyumulu gözləri, elə bil, dibsiz idi, heç işığı da əks etdirmirdi. Alt çənəsi o qədər sivri görünürdü ki, sanki, bu qədər diş ora heç cür sığa bilməzdi.

"Kakaolu", – Co dedi. Daha doğrusu, dili dedi, çünki dərhal da bu sözdən imtina etmək istədi. Çünki cəmi on sent pulu vardı. Ancaq o pulu ovcunun içində elə möhkəm sıxmışdı ki,

onun on sent olduğunu da unutmuşdu. Pulu sıxan ovcu tərlədi, nəmləndi. Əmin idi ki, kişilər yenə də ona baxır, yenə də ona gülürlər. O, onların səsini eşitmir, onlara tərəf baxmırdı. Amma bunun məhz belə olduğuna əmin idi. Əllər piştaxtanın üstündən çəkildi. Sonra geri qayıtdı, önünə bir boşqab və fincan qoyuldu. İndi o, qıza – onun sifətinə baxırdı. "Piroq neçəyədi?" – dedi.

"Piroq on sentədir." Qız piştaxtanın arxasında, onun önündə dayanmışdı, əlləri yenə də qara taxtanın üstündəydi, duruşu hələ də yalnız yorğunluq və intizar ifadə edirdi. Bir dəfə də olsun ona baxmadı. Co alçaqdan, ümidsiz bir səslə dedi: "Deyəsən, mən daha qəhvə istəmirəm".

Qız bir müddət yerindən tərpənmədi. Sonra iri əl piştaxtanın üstündən çəkildi, qəhvə fincanını götürdü; əl də, qəhvə də yox oldu. Oğlan da başını aşağı salıb tərpənməz qalmışdı, gözləyirdi. Və nəhayət, eşitdi. Restoran sahibinin səsini yox. Siqaret vitrininin arxasında dayanmış qadının səsini.

– Nə olub? – həmin qadın dedi.

– O, qəhvə istəmir, – ofisiant qız dedi. Onun səsi, danışığı get-gedə uzaqlaşırdı, elə bil, sual onu yolda haqlamışdı. Bu səs həm də boğuq, sakit idi. Sarışın qadın da sakit danışırdı.

– Bəyəm o, əvvəldən qəhvə sifariş verməmişdi? – deyə o soruşdu.

– Yox, – ofisiant qız hamar, get-gedə uzaqlaşan, aralanan səslə dedi. – Mən düz başa düşməmişəm.

Ordan çıxanda, siqaret vitrininin arxasındakı qadının buz kimi soyuq sifətinin yanından birtəhər, gözə dəymədən sivişib keçmək istəyərkən bütün ruhu təhqir və qəzəbdən alışıb-yananda əmin idi ki, bir daha o ofisiant qızı görmək istəməyəcək, heç görə bilməyəcək də. O qızı bir də görmək, yaxud o küçəyə, o çirkli qapıya uzaqdan da olsa, bir də göz atmaq üçün haçansa özündə güc tapacağına heç cür inana bilmirdi; amma hələ bunu da düşünmürdü *Cavan olmaq çox dəhşətli şeydi. Çox dəhşətli şeydi. Çox dəhşətli* Şənbə günləri yaxınlaşanda şəhərə getməkdən boyun qaçırmaq üçün min bir səbəb, bəhanə axtarıb tapmağa çalışırdı, Makiçern isə hələ heç nədən şübhələnmədən ona baxır, göz qoyurdu. Co günlərini gərgin, həddindən artıq gərgin işləməklə keçirirdi; Makiçern ondakı bu dəyişikliyə mat-məəttəl qalmışdı. Ancaq səbəbini heç cür anlaya, bundan nəsə bir nəticə çıxara bilmirdi. İşləmək ona qadağan edilməmişdi. Gərgin iş ona gecələri də rahat keçirməyə imkan verirdi, çünki o qədər möhkəm yorulurdu ki, yatmaya bilmirdi. Zaman ötüb keçdikcə ümidsizlik, qəzəb və xəcalət hissi korşalır, təsirini itirirdi. Restoranda baş verənləri yenə tez-tez xatırlayır, təzədən yaşayırdı. Amma indi onlar səsi cığıldayan, kimin nə oxuduğu yalnız melodiyanın ritminə görə bilinən köhnə patefon valı kimi saralıb solmuşdu. Nəhayət, Makiçern də vəziyyətlə barışmaq məcburiyyətində qaldı. Dedi:

– Axır vaxtlar sənə çox fikir vermişəm. Heç nə başa düşə bilmirəm; ya gərək öz gözlərimə inanmayam, ya da elə biləm ki, nəhayət, Allahın sənin taleyinə yazdıqlarını artıq qəbul etməyə

başlamısan. Amma haqqında dediyim bu xoş sözlər səni yoldan çıxarmamalıdır, mən buna imkan verə bilmərəm. Bir gün məni bu dediklərimə görə peşman etmək üçün, təzədən tənbəllik və avaralıq girdabına yuvarlanmaq üçün sənin hələ xeyli vaxtın və fürsətin olacaq; elə istəyin də; buna heç bir şübhəm yoxdur. Lakin cəza kimi mükafat da insan üçün Allah tərəfindən buyrulub. O düyəni görürsən? Bu gündən o sənindir, şəxsi malındır. Elə et ki, haçansa bunu sənə verdiyimə görə peşman olmayım".

Co ona təşəkkür etdi. İndi o, düyəyə baxıb ucadan deyə bilərdi: "Bu mənim özümündür, öz malımdır". Ona baxdı və yenə də, sanki, düşünmədən, bir göz qırpımında, özü də birnəfəsə içindən keçdi *Bu hədiyyə deyil. Bu heç vəd də deyil, təhdiddir* və fikirləşdi: "Bunu mən xahiş etmədim. Özü verdi. Mən ondan xahiş etmədim", çünki içində bir əminlik vardı *Allah özü şahiddir, mən onu öz alın tərimlə qazandım*

Bir ay keçdi. Şənbə günü səhər tezdən idi. "Elə bilirdim şəhərə getmək daha sənin xoşuna gəlmir", – Makiçern dedi.

– Bir dəfə getməklə mənə heç nə olmaz, – Co cavab verdi. Cibində yarım dollar pulu vardı. Bunu ona missis Makiçern vermişdi. Düzdü, özü beş sent istəmişdi. Qadın isə zorla onu yarım dollar götürməyə məcbur etmişdi. O da pulu alıb, soyuq bir ikrahla ovcunda gizlətmişdi.

– Elədi heç nə olmaz, – Makiçern dedi. – Yaxşı da işləmisən. Amma şəhərə getmək öz həyat yolunu hələ dəqiq müəyyən eləməmiş, hələ tamam bişməmiş cavan üçün pis vərdişdi.

Ora gizlincə qaçıb getmədi, hərçənd, lazım gəlsəydi, o cür də edərdi, hətta zor da işlədərdi. Makiçern özü onun işini yüngülləşdirdi. Cəld, tələm-tələsik restorana yollandı. Bu dəfə içəri girəndə ayağı büdrəmədi. Ofisiant qız orada yox idi. Bəlkə də, bunu salona fikir verəndən sonra anladı. Sarışın qadının oturduğu siqaret vitrininin önündə ayaq saxladı, əlindəki yarım dollarlığı onun üstünə qoydu. "Sizə beş sent borcum var. Bir fincan qəhvəyə görə. Mən o vaxt ondan həm qəhvə, həm də piroq istəmişdim, amma bilmirdim ki, o, on sentədir. Buna görə sizə beş sent borcluyam". Piştaxtaya tərəf baxmadı. Şlyapalarını yan qoyub, damaqlarında siqaret tüstülədən kişilər yenə orda oturmuşdular. Belinə çirkli önlük bağlamış restoran sahibi də ordaydı; Co, nəhayət, onun siqaret tüstüsünün arasından keçib gələn səsini eşitdi.

– Nolub orda? Ona nə lazımdı?

– Deyir ki, Bobbiyə beş sent borcu var, – qadın cavab verdi. – Bobbiyə beş sent vermək istəyir. – Qadın sakit danışırdı. Restoran sahibinin də səsi sakit idi.

– İlahi, sən özün saxla, – o dedi. Coya elə gəldi ki, salonda hər şey səs-küyə çevrilib. Qulaq asmadan eşidir, baxmadan görürdü. Qapıya tərəf yollandı. Yarım dollarlıq sikkə şüşə vitrinin üstünə atılıb qalmışdı. Restoran sahibi uzaqdan da olsa, onu görə bildi, dedi:

– Bəs o nə üçündü?

– Deyir ki, bir fincan qəhvəyə görə bizə borcu var, – qadın izah elədi.

Co artıq qapıya çatmaq üzrəydi.

– Bura bax, Cek, – restoran sahibi onu arxadan səslədi. Co dayanmadı. – Onun pulunu özünə qaytar, – restoran sahibi hələ də yerindən tərpənmədən yumşaq səslə dedi. Heç bir hərəkətin təsirinə məruz qalmayan siqaret tüstüsü, yəqin ki, sifətinin önündə yenə də öz ahəngi ilə yuxarı qalxırdı. – Qaytar ver özünə, – o, dedi. – Bilmirəm onun nə bicliyi var. Ancaq burda keçməz. Qaytar pulunu. Ey, kəndçi, sən öz fermana çıxıb getsən yaxşıdı. Orda beş sentə, bəlkə, hansısa qızın başını tovlaya bilərsən.

Və budur, artıq küçədədir, araba təkəri kimi iri, yarım dollarlıq sikkə tər içində çimir, əlində islanırdı. Gülüş səsləri isə onu arxadan qovurdu. Kişilərin istehzalı gülüşü altında qapıdan çıxmış, oranı tərk etmişdi. Bu gülüş küçədə də onu haqladı, sanki, yerdən qaldırıb bir müddət özüylə apardı; sonra sürətlə irəliyə şığıdı, öləziyib sönəndə isə onu yerə – səkiyə atdı. Və o, ofisiant qızla üz-üzə qaldı. Qızın əynində qara palto, başında şlyapa vardı, başını aşağı salıb yeyin-yeyin gedirdi, onu dərhal görmədi. Amma görən kimi ayaq saxladı; o vaxt restoranda olduğu kimi yenə də başını qaldırmadı, ona tərəf baxmadı, amma baxıbmış kimi hər şeyi anladı. Dedi: “Aha-a. Deməli, siz mənə pul verməyə gəlmişdiniz. Özü də onların gözü qabağında. Onlar da sizə güldülər, eləmi? Bir işə bax”.

– Fikirləşdim ki, birdən o pulu siz özünüz ödəməli olarsınız... Fikirləşdim ki...

– Bir buna bax. Bəlkə, bunu unudasan, hə?! Unut getsin.

Üz-üzə dayansalar da bir-birinə baxmırdılar. Onları bağçada seyrə dalarkən bir-birinə rast gəlmiş iki rahibə bənzətmək olardı.

– Mən, sadəcə, fikirləşirdim ki...

– Siz harada yaşayırsınız? – qız soruşdu. – Kənddəmi? Bir işə bax. Adınız nədir?

– Makiçern deyil, – o dedi. – Kristmasdır.

– Kristmas? Bu sizin soyadınızdı? Kristmas! Bir işə bax...

Yeniyetmə vaxtlarında da, ondan sonra da özü kimi dörd-beş uşaqla şənbə günləri ova, ya da balıq tutmağa gedərdi. Qızları isə ancaq bazar günləri kilsədə görürdü. Qız deyəndə ağlına yalnız bazar günləri, bir də kilsə gəlirdi. Buna görə də onlara diqqət yetirmək ağlına belə gəlmirdi. Fikir verə bilmirdi. Diqqət yetirsəydi, bu – hətta onun üçün – dinə nifrətdən imtina etmək olardı. Amma oğlanlarla birlikdə olanda öz aralarında qızlardan danışırdılar. Bəlkə də, onların hansısa (məsələn, o vaxt zənci qızla danışıb onu yola gətirən oğlan) bu haqda bilirdi. “Onlar hamısı bunu istəyir, – o, qalanlarına demişdi. – Ancaq bəzən bunu eləyə bilmirlər”. Qalanları bunu bilmirdi. Onlar bilmirdilər ki, qızların hamısı bunu eləmək istəyir, bunu eləyə bilmədikləri vaxtların olduğundan isə tamam bixəbər idilər. Onlar bu işi başqa cür təsəvvür

edirdilər. Ancaq sonuncudan bixəbər olduqlarını boyunlarına alsaydılar, onda birinciyə əmin olmaq üçün əllərinə fürsət düşmədiyini də etiraf etmiş olardılar. Buna görə susub, o oğlanın dediklərinə qulaq asırdılar. "Bu onlarda ayda bir dəfə olur". O, hadisənin fiziki tərəfini necə təsəvvür etdiyini də onlara danışdı. Bəlkə doğrudan bilirdi. Hər halda, danışdıqları kifayət qədər canlı, kifayət qədər inandırıcı alınırdı. Əgər o, bunu ruhi bir vəziyyət, əslində nə olduğu yalnız güman edilən bir şey kimi təsvir etsəydi, onlar ona qulaq asmazdılar. Ancaq o, burunda iyi duyulan, gözlə görünən və onlarda dərin maraq oyadan əyani bir mənzərə təsvir edirdi: istəyə işgəncə verən, onu qəzəbləndirən şeyin müvəqqəti, amansız əlacsızlığı; müntəzəm surətdə dövri çirklənmənin qaçılmaz qurbanına çevrilməyə məhkum olmuş hamar, gözəl bir bardaq, istək iqamətgahı. O, bunu belə təsvir edirdi, qalan beş oğlan isə sualedici, sui-qəsdçi nəzərlərlə bir-birinin üzünə baxa-baxa dinməzcə ona qulaq asırdı.

Növbəti şənbə günü Co onlarla ova getmədi. Makiçern isə elə bildi ki, o, ova gedib, çünki tüfəng evdə deyildi. Ancaq o, tövlədə gizlənmişdi. Bütün günü orda qaldı. Sonrakı şənbə günü yenə tək-tənha, sübh tezdən, uşaqlar onu çağırmağa gəlməmişdən əvvəl tüfəngi götürüb evdən çıxdı. Ancaq ov eləmədi. Yalnız günün sonunda, evdən təxminən üç mil aralıda bir qoyun vurdu. Daha doğrusu, xəlvəti bir dərədə qoyun sürüsünə rast gəldi, gizlincə yaxınlaşıb, onlardan birinə tüfənglə atəş açdı. Sonra isə dodaqları qurumuş halda, tir-tir əsə-əsə, yan-yörəsinə baxa-baxa dizi üstə çöküb, əlini can verməkdə olan heyvanın isti qanına batırdı. O, canındakı xofu bu cür dəf etdi, bu cür onun öhdəsindən gəldi. Dostunun nə danışdığını unutmamışdı. Sadəcə, onunla barışdı. Onunla yaşaya biləcəyini kəşf etdi. Elə bil, məntiqi bir kənara qoyub, ümidsizliyin gətirdiyi sakitliklə öz-özünə dedi *Yaxşı. Qoy belə olsun. Ancaq mənim üçün deyil. Mənim həyatımda, mənim sevgimdə deyil* Bütün bunlar üç-dörd il əvvəl olmuşdu, indi isə tamam unudulmuşdu – əqlin inadkarlığına güzəştə gedilərək nə gerçək, nə də yalan olduğu qəbul edilmədən unudulan fakt kimi.

Bir fincan qəhvənin pulunu qaytarmaq istədiyi həmin şənbə gününün sonrakı bazar ertəsi gecə ofisiant qızla yenidən görüşdü. Onda hələ kəndiri yox idi. Pəncərəyə çıxıb üç metr yüksəklikdən yerə tullandı və piyada beş mil yol gedib şəhərə çatdı. Evə, öz otağına necə qayıdacağı barədə heç düşünmədi də.

Şəhərə çatdı və qızın dediyi tində dayanıb onu gözlədi. Bura sakit yer idi; vaxtından xeyli tez gəlmişdi; fikirləşdi *Bunu unutmamalıyam. Elə etməliyəm ki, nəyi necə və haçan eləməyi o özü mənə göstərsin. Elə etməliyəm ki, bunu bilmədiyimi, indi ondan öyrəndiyimi başa düşməsin*

Qız gəlib çıxanacan bir saatdan çox gözlədi. Bu qədər tez gəlmişdi. Qız piyada gəldi. Ona yaxınlaşıb önündə durdu, bapbalacaydı, yenə də səbirli və intizar içərisindəydi, yenə də gözlərini yerə dikmişdi, qaranlıqdan peyda olmuş adama bənzəyirdi. "Siz artıq burdasınız," – o dedi.

– İmkan tapan kimi gəldim. Onların yatağa girməsini gözləməli oldum. Qorxdum gecikəm.

– Çoxdan burdasınız? Çox gözlədiniz?

– Bilmirəm. Bütün yolu qaça-qaça gəlmişəm. Qorxurdum gecikəm.

– Qaça-qaça? Üç mil yolu?

– Beş mil. Üç yox.

– Bir işə bax. – Hər ikisi susdu. İki kölgə kimi üz-üzə dayanmışdılar. Bir il, bəlkə də, bir az çox keçəndən sonra həmin gecəni xatırlayarkən bunu birdən başa düşmüş, öz-özünə demişdi *Elə bil onu vuracağımı gözləyirdi.* – Hə-ə, – qız dedi.

Onu yavaş-yavaş əsməcə tutmağa başladı. Qızın iyini – sakit, müdrik, bir azca yorğun intizarın iyini duydu; fikirləşdi *O gözləyir, gözləyir ki, mən başlayım, mənsə bilmirəm bunu necə eləyim* Səsi hətta özünə belə sarsaq göründü:

– Məncə artıq çox gecdi.

– Gecdi?

– Fikirləşirəm ki, sizi gözləyən ola bilər. Siz evə getməyənəcən onlar...

– Var...Gözləyən var... – Qızın səsi öləzidi, kəsildi. İki kölgə kimi dayanmışdılar; qız yerindən tərpənmədən dedi: – Mən Meymlə, Maksla bir yerdə yaşayıram. Siz onları tanıyırsınız. Restorandan. Onları orda görmüş olmalısınız, o beş senti qaytarmaq istəyəndə... – O, gülməyə başladı. Səsində heç bir sevinc hissi yox idi, ümumiyyətlə, heç nə yox idi. – Təsəvvür edirəm. Təsəvvür edirəm, əlinizdə beş sent ora necə girmisiniz. – Gülməyini kəsdi. Ancaq heç bu da onun bir saniyə əvvəl şən olduğuna dəlalət eləmirdi. Sakit, yazıq, başıaşağı səs yenidən dilləndi: – Mən bu axşam səhv eləmişəm. Bir şeyi unutmuşam. – Bəlkə də, qız ondan "Nəyi?" sualını gözləyirdi. Amma o bunu soruşmadı. Necə vardısa eləcə dayanmışdı, sakit, alçaq, get-gedə öləziyən səs heç cür beyninə girmirdi. Tüfənglə vurub öldürdüyü qoyunu çoxdan unutmuşdu. Təcrübəli dostunun danışdıqlarını uzun müddət özüylə yaşatmışdı. O qoyunu öldürməklə bu faktın xofundan çoxdan, lap çoxdan qurtulmuş, xilas olmuşdu, indi yaddaş üçün o, canlı ola bilməzdi. Buna görə də qızın nə demək istədiyini əvvəlcə başa düşmədi. Onlar tində dayanmışdılar. Bura şəhərin qıraq yeriydi, burda küçə düz xətt boyu ölçülüb biçilmiş çəmənliklərdən keçib çılpaq tarlalara, bu cür şəhərlərin ətraf ərazilərini təşkil edən xırda, ucuz evlərə doğru uzanan yola çevrilirdi. Qız dedi:

– Qulaq asın. Bu gün bir az xəstə kimiyəm. – O heç nə başa düşmədi. Heç bir cavab vermədi. Bəlkə, heç başa düşməyi də lazım deyildi. Bəlkə o bunsuz da öz taleyindən nəsə bir hoqqa gözləyirdi, fikirləşdi: "Hər şey bu qədər yaxşı alına bilməz". Bu fikir başa çatmamış düşüncə onu ötüb keçdi *Bu qız indicə yox olacaq. Burda olmayacaq. Mənsə sonra evdə, çarpayıda uzanacaq, elə biləcəm ki, heç o evdən bayıra çıxmamışam da* Qızın səsi hələ də eşidilirdi: – Mən sizə "bazar ertəsi axşam" deyəndə ayın hansı günü olduğunu unutmuşam. Bəlkə

də, qəfil rastlaşdığımıza görə. Şənbə günü küçədə. Nə isə, hansı gün olduğunu unutmuşam. Yalnız siz çıxıb gedəndən sonra yadıma düşdü.

Onun da səsi qızınkı kimi sakit idi.

– Bərk xəstəsiniz? Evdə dərman-zad yoxudu atasınız?

– Dərman atam... – Onun səsi qırıldı. Sonra dedi: – Bir işə bax. – Birdən dedi: – Artıq gecdi. Siz hələ dörd mil yol getməlisiniz.

– Mən artıq o yolu gəlmişəm. Artıq burdayam. – Onun səsi sakit, yumşaq, ümidsiz idi. – Məncə, bir azdan gec olacaq, – o dedi. Sonra nəsə dəyişdi. Qız bu dəyişikliyi ona baxmadan, səsi sərtləşməmişdən qabaq hiss elədi: – Sizin nəyiniz xəstədir ki?

Qız dərhal cavab vermədi. Sonra başı aşağı, yerindən tərpənmədən dedi:

– Sizin heç vaxt qız dostunuz olmayıb. And içərəm ki, olmayıb. – O cavab vermədi. – Olmayıb, eləmi? – O, cavab vermədi. Qız onun üstünə yeridi. İlk dəfə ona toxundu. Əlini əlinə – iki əli ilə, ehmalca. Yuxarıdan qıza baxarkən, o, aşağı sallanmış, sanki, boyun üzərində anadangəlmə düz oturmayan başın siluetini gördü. Qız dili topuq vura-vura, kələ-kötür sözlərlə, özünə məlum olan beş-üç kəlməylə hər şeyi ona izah etdi. Ancaq o, bütün bunları çoxdan eşitmişdi. İndi isə öldürülmüş qoyunun, bu xilaskar qurbanın yanından sürətlə ötüb geriyə – çay kənarında oturduğu günə doğru qaçırdı; onda o, heç nədən inciməmiş, heç nəyə təəccüblənməmişdi, daha çox qəzəblənmişdi. Qızın tutduğu əl birdən sərt hərəkətlə geri dartınıb, ondan azad oldu. Qız bu əlin onu vuracağını güman etmirdi; əslində o əldən başqa şey gözləyirdi. Amma bunun nəticəyə dəxli olmadı. Oğlan – fiqur, kölgə – qaranlıqda əriyib yox olanda, qıza elə gəldi ki, o qaçır. Gözdən tamam itsə də onun addım səslərini hələ bir müddət eşidə bildi. Qız ordan dərhal çıxıb getmədi. Oğlan onu tərk etdiyi anda olduğu kimi hərəkətsiz, başı aşağı durub qaldı, elə bil, hələ də ona dəymiş şilləni gözləyirdi.

O qaçmırdı. Amma yeyin-yeyin, sürətlə gedirdi – burdan beş mil aralıdakı evə tərəf yox, əks istiqamətə üz tutmuşdu; pəncərəsindən atılıb qaçdığı otağa necə qayıdıb girəcəyi haqda hələ də düşünmürdü. Bir xeyli gedəndən sonra yoldan çıxdı, çəpərin üstündən tullanıb əkin tarlasına düşdü. Tarlada nəsə bitmişdi. Ondan sonra ağaclar, meşə gəlirdi. Meşəyə çatdı, özünü qalınqabıq ağac gövdələrinin arasına, budaqlarla örtülmüş, dərin sükutu və kəskin iyi adamın nəfəsini kəsən gözəgörünməz cəngəlliyə verdi. Sanki, qaranlıq mağaradaymış kimi görünməzlik və bilinməzlik içərisində birdən ona elə gəldi ki, ay işığında ağara-ağara getdikcə uzaqlaşan bir dəstə yaraşıqlı güldan görür. Onların heç biri qüsursuz deyildi. Hamısının çatı vardı və bu çatlardan nəsə ölü rəngli, çirkli maye axırdı. Ağaca toxundu, əllərilə onun gövdəsinə söykəndi, yenə də önündə ay işığına bürünmüş güldan cərgəsi gördü. Onu qusmaq tutdu.

Növbəti bazar ertəsi axşamınacan özünə kəndir tapdı. Yenə həmin tində durub gözləyirdi; yenə xeyli tez gəlmişdi. Sonra qızı gördü. Qız düz onun yanına gəldi. “Elə bilirdim, burda olmayassınız”, – dedi.

– Doğrudan? – Qızın əlindən tutub onu yola apardı.

– Hara gedirik? – qız soruşdu. Heç nə demədi, qızı dartıb arxasınca apardı. Onunla ayaqlaşa bilmək üçün qız, az qala, yüyürmək məcburiyyətində qaldı. Heyvan kimi, amma naşıcasına yorğaladı; onu başqa heyvanlardan fərqləndirən əlamətləri – ayaqqabıları, paltarı, bəstəboyluğu buna əngəl törədirdi. Qızı yoldan kənara, bir həftə əvvəl üstündən tullandığı çəpərə sarı dartıb apardı. – Dayan... – qız dedi. Sözlər kəsik-kəsik çıxırdı. – Çəpər... Mən burdan... necə... – Qız aşağı əyilib, onun üstündən atlandığı tikanlı çəpər məftilinin altından keçmək istəyəndə donu ilişdi. O da aşağı əyildi, donun ilişən yerindən var gücüylə dartıb onu cırıltıyla qopardı.

– Təzəsini alaram, – dedi. Qız heç nə demədi. Onu hansısa bitkilərin, şırımların arasıyla ağaclığa, meşəyə tərəf dartışdıran, aparan gücə təslim oldu.

Səliqəyə dolayıb bir həlqəyə yığdığı kəndiri çardaqda – öz otağında, missis Makiçernin xırda pulları gizlətdiyi yerdə, sınıq-salxaq taxta lövhənin arxasında saxlayırdı; yalnız onu daha dərində – missis Makiçernin əlinin çatmayacağı qədər dərində gizlətmişdi. Bu fikri də elə o qadından əxz eləmişdi. Bəzən, qocalar aşağıda öz otaqlarında yuxuda xoruldayarkən kəndiri sakitcə ordan çıxaranda o bu ziddiyyət barədə düşünürdü. Bəzən hətta bu sirrini qadına açmaq, bu günah alətini ondan öyrəndiyi, ondan mənimsədiyi üsulla, onun saxlanc yerində necə gizlətdiyini ona demək istəyirdi. Ancaq onu da bilirdi ki, açıb desə, qadının istədiyi yeganə şey yenə ona kömək etmək olacaq; istəyəcək ki, o bu günahı işləməkdə davam eləsin; çünki yalnız o halda bu günahın gizli qalmasında ona kömək edə, onun işinə yaraya bilərdi; bilirdi ki, qadın bu barədə onunla o qədər pıçıldaşacaq, o qədər göz-qaş edəcək ki, əvvəl-axır Makiçern istər-istəməz bu işdən duyuq düşəcək.

Beləcə, oğurluğa, qadının saxlancından xəlvətcə pul götürməyə başladı. Çox güman ki, onu bu işə o qız təhrik etməmişdi, çünki qız onunla pul barədə danışmamışdı. Çox güman ki, o heç kef üçün pul ödədiyini də başa düşmürdü. Sadəcə, uzun illər boyu missis Makiçernin öz pulunu bəlli bir yerdə gizlətdiyini gözləriylə görmüşdü. Sonra özü də nəyisə gizlətməli olmuşdu; çünki gizlətmək məcburiyyətində idi. Onu bildiyi ən təhlükəsiz yerdə gizlətmişdi. Və hər dəfə kəndiri ordan çıxaranda və ya qaytarıb yenə orda təkrar gizlədəndə gözü istər-istəməz miss Makiçernin dəmir pul qutusuna sataşmışdı.

Birinci dəfə əlli sent götürdü. Bir qədər tərəddüd etdi, bilmədi əllimi, yoxsa iyirmi beşmi götürsün. Axırda əlli sent götürdü, ona elə bu qədər lazım idi. Bu pula o, köhnə, üstünü milçək

batırmış konfet qutusu aldı; qutunu satan adam onu dükan lotereyasında on sentə udmuşdu. O konfet qutusunu ofisiant qıza bağışladı. Bu onun ilk hədiyyəsi idi. Qutunu ona elə bir tərzdə uzatdı ki, elə bil, bu qıza nəsə bağışlamaq indiyəcən heç kimin ağlına gəlməmişdi. Qız iri əllərini uzadıb, üstünün əlvan boyası solmuş qutunu ondan alanda sifətinə qəribə bir ifadə çökdü. Çarpayının üstündə əyləşmişdi – Maks adlı kişi və Meym adlı qadınla birlikdə yaşadığı balaca bir evdə, qızın yataq otağındaydılar. Bir axşam, bundan təxminən bir həftə əvvəl Maks onun yataq otağına gəlmişdi. Bu vaxt qız soyunurdu, çarpayının üstündə oturub corablarını çıxarırdı. Maks damağında siqaret içəri girdi, kamoda söykəndi.

– Varlı fermer, – o dedi. – Con Ceykob Astor, samanlıqdan.

Qız üstünü bir-təhər örtüb, tərpənmədən başı aşağı oturub qaldı.

– O mənə haqqını ödəyir.

– Nəylə? Nədi beş sentinin əvəzini hələ alıb qurtarmayıb? – Maks ona baxdı. – Kəndçilərə pulsuz xidmət göstəririk? Mən səni Memfisdən bura bunun üçün gətirmişəm? Bir o qalıb ki, yeməyi də onlara pulsuz verək.

– Mən ancaq işdən sonra, boş vaxtlarımda onunla oluram.

– Bəlkə, başqa cür eləməliydin. Mən bunu sənə qadağan edə bilmərəm. Amma sənə baxanda ürəyim bulanır. Ömründə bir dollarlıq kağız pulun belə üzünü görməmiş kəndçi uşağın felinə düşmüsən. Halbuki, şəhərdə gör nə qədər pullu oğlanlar var, onlar sənin işinə daha yaxşı yarayarlar.

– Bəlkə o mənim xoşuma gəlir, heç burasını fikirləşmisən?

Maks gözünü ona – aşağı dikilmiş başın təpəsinə, dizlərin üstünə düşmüş iri əllərə zilləmişdi. Özü isə kamoda söykənib, siqaretini çəkirdi. – Meym! – dedi. Bir az gözləyib bir də təkrar etdi: – Meym! Bura gəl. – Divarlar nazik idi. Bir qədər sonra qapıda sarışın qadının arxayın addım səsləri eşidildi. O, içəri girdi. – Eşitdin bu nə deyir? – kişi dedi. – Deyir ki, bəlkə o mənim xoşuma gəlir. Romeo və Cülyetta. Aman Allah!

Sarışın qadın ofisiant qızın qara təpəsinə baxdı.

– Nə olub?

– Heç nə. Əla! Maks Konfrey indi sizə miss Bobbi Alleni, azyaşlı oğlanın məşuqəsini təqdim etmək istəyir.

– Çıx bayıra, – sarışın qadın dedi.

– Bu dəqiqə. Mən, sadəcə, ona beş sentin xırdasını gətirmişdim. – O, otaqdan çıxdı. Ofisiant qız yerindən tərpənmədi. Sarışın qadın kamoda yaxınlaşıb ona söykəndi, yenə də gözlərini qızın aşağı dikilmiş başına zillədi.

– Barı sənə haqqını ödəyirmi?

– Hə. Ödəyir.

Sarışın qadın yenə ona baxdı; o da bundan əvvəl Maks elədiyi kimi, kamoda söykənmişdi.

– Memfisdən buracan o qədər yol ölçmüsən. Bu qədər uzaq yerə bəyəm ona görə gəlib çıxmısan ki, olanını kiməsə havayı paylayasan?

Ofisiant qız yerindən tərpənmədi:

– Bunun ki, Maksın işinə heç bir maneçilyi yoxdu.

Sarışın aşağı sallanmış başa baxırdı. Sonra dönüb qapıya tərəf addımladı.

– Bax ha, elə et ki, maneçiliyi olmasın, – o dedi. – Bu o qədər də uzun sürə biləcək iş deyil. Kiçik şəhərlərin belə şeylərə təhəmmülü yoxdu. Mən bilirəm. Özümün də başıma az gəlməyib.

Əlvan boyası solub rəngini itirmiş, ucuz konfet qutusu əlində – bir həftə əvvəl sarışın qadınla söhbət edərkən oturduğu kimi – çarpayının üstündə əyləşmişdi. İndi sarışın qadın deyil, Co kamoda söykənib ona baxırdı. Onu gülmək tutdu. Üstü əlvan boyalı konfet qutusunu sümüklü, iri əllərində tutub güldü. Co gözlərini ondan çəkmirdi. Onun yerindən necə qalxdığına, başıaşağı halda yanından necə keçib getdiyinə tamaşa elədi. O, qapıdan çıxıb "Maks!" deyə çağırdı. Co, Maksı yalnız restoranda, özü də başı şlyapalı, çirkli önlükdə görmüşdü, başqa heç yerdə onunla rastlaşmamışdı. İndi içəri girəndə isə damağında heç siqaret də yox idi. Əlini Coya uzatdı.

– Necəsən, Romeo ?

Co, hələ də onun kim olduğunu yaxşı anlamadan əlini sıxdı.

– Mənim adım Co Makiçerndir, – dedi. Sarışın qadın da gəldi. Onu da ilk dəfəydi ki, restorandan kənarda görürdü. Qadının içəri necə girdiyinə, qızın konfet qutusunu necə açdığına göz qoydu, fikir verdi. Qız qutunu içəri girənlərə uzatdı.

– Co bağışlayıb, – dedi.

Sarışın qadın baxışlarını qutunun üstündə gəzdirdi. Əlini belə tərpətmədi.

– Çox sağ ol, – dedi. Kişi də qutuya nəzər saldı, o da əlini tərpətmədi.

– Belə-belə işlər, – o dedi. – Sən bir işə bax, bəzən Yeni il bayramı gör nə qədər uzun çəkirmiş. Elə deyil, Romeo? – Co kamodun yanından geri çəkildi. O bu otağa birinci dəfəydi düşmüşdü. Bir qədər əndişəli, ancaq heç bir həyəcan keçirmədən, sınayıcı nəzərlərlə kişiyə baxdı, onun heç nə ifadə etməyən, rahibləri xatırladan sifətinə göz qoydu. Amma bir söz demədi. Dillənən qız oldu:

– Xoşuna gəlmirsə, yemə. – Conun gözü Maksdaydı, gözünü onun sifətindən çəkmədən qızın məhzun səsini dinləyirdi: – Bunun sənə... heç kimə maneçiliyi yoxdu... Mən işdən boş vaxtlarda... – O nə qıza, nə də sarışın qadına tərəf baxmırdı. Hələ də sakitcə, anlaşılmazlıq içərisində, lakin qorxu hissi keçirmədən Maksı izləyirdi. İndi də sarışın qadın danışırdı; Coya elə gəldi ki, onlar, özü burda ola-ola onun haqqında, amma öz dillərində danışırlar; özləri də bilirlər ki, o bu dili başa düşmür.

– Gedək, – sarışın qadın dedi.

– Aman Allah, – Maks dedi. – Mən ki, Romeonu içkiyə qonaq etmək istəyirdim.

– O özü bunu istəyirmi? – sarışın qadın soruşdu. O, hətta Coya müraciət edəndə də, elə bil, Maksla danışırdı. – İçmək istəyirsiniz?

– Onu çətinə salma, ötən dəfə nə elədiyini yadına sal. De ki, pulsuz olacaq.

– Bilmirəm, – Co dedi. – Heç vaxt dadına baxmamışam.

– Aman Allah, – Maks dedi. – Pulsuz heç nəyin dadına baxmayıb. – Co ilə əl tutub salamlaşandan bəri o, bir dəfə də olsun, dönüb ona tərəf baxmamışdı. Elə bil, yenə də bu adamlar onun anlamadığı dildə ondan danışır, onun haqda nəsə deyirdilər.

– Gəl gedək, – sarışın qadın dedi. – Di gedək də.

Onlar getdilər. Sarışın qadın içəridə olduğu müddətdə bircə dəfə də olsun, ona tərəf baxmadı, Maks isə baxmasa da bir an belə onu gözdən qoymadı. Sonra hər ikisi yox oldular. Co kamodun yanında, qız isə başıaşağı, əlində ağzı açıq konfet qutusu otağın ortasında dayanmışdı. Otaq darısqal idi, ətirqarışıq kif iyi verirdi. Co ilk dəfəydi bura düşmüşdü. Haçansa bura düşəcəyini ağlına belə gətirməmişdi. Pəncərələrin pərdələri örtülüydü. Yuxarıdan asılmış tək lampa çılpaq idi, abajur yerinə onun başına istidən sapsarı saralmış jurnal vərəqi keçirilmişdi.

– Hər şey yaxşıdı, – Co dedi. – Öz qaydasındadı. – Qız dillənmədi, heç yerindən də tərpənmədi. Co isə bayırdakı qaranlığı, əvvəllər ikilikdə qaldıqları gecələri düşündü. – Gedək, – dedi.

– Gedək? – Qız təkrar elədi. Bu zaman o, qıza baxdı. – Hara? Nə üçün? – O hələ də başa düşmürdü. Qızın kamoda necə yaxınlaşdığına, konfet qutusunu onun üstünə necə qoyduğuna fikir verdi. Qız onun gözü qabağında soyunmağa başladı, paltarlarını bir-bir əynindən çıxarıb yerə tulladı.

Co dedi:

– Burda? Elə burda? – İlk dəfəydi çılpaq qadın görürdü, hərçənd düz bir ay idi ki, bu qızla yaşayırdı. Lakin belə bir gözəl mənzərə ilə qarşılaşa biləcəyini heç ağlına da gətirməmişdi.

O gecə onlar yalnız söhbət etdilər. Çarpayıda bir yerdə uzanıb, qaranlıqda o ki var danışdılar. Daha doğrusu, Co danışdı. Danışa-danışa da bütün gecəni fikirləşdi: “İlahi! İlahi! Demək bu belə olurmuş”. O da qızla yanaşı çılpaq uzanmışdı, əlini ona toxundurur, ondan danışırdı. Harda anadan olması, indiyəcən nə işlər görməsi barədə deyil, yalnız onun bədənindən danışırdı; sanki, indiyəcən heç kim nə bu qızla, nə də başqa birisilə belə şeylər eləməmişdi. Sanki, o, danışa-danışa uşaq həvəsi, uşaq marağı ilə qadın bədəni barədə hər şeyi öyrənməyə çalışırdı. Qızsa ilk dəfə görüşdükləri gecə söz açdığı xəstəliyindən danışdı. Co bu dəfə eşitdiklərindən dəhşətə gəlib sarsılmadı. Çılpaqlıq kimi, bədənin quruluşu kimi bu da onun üçün nəsə əvvəllər baş verməmiş, yaxud mövcud olmamış bir şey idi. Buna görə o da qıza öz

bildiklərini söylədi. Üç il bundan əvvəl taxta-şalban zavodunda zənci qızla olan əhvalatdan söz açdı. O bunları sakit-sakit, məmnunluq içərisində danışır, danışdıqca da əlini yanındakı qızın bədənində gəzdirirdi. Yəqin ki, o, qızın ona qulaq asıb-asmadığını da dəqiq deyə bilməzdi. Sonra: "Sən heç mənim dərimin rənginə, saçlarıma fikir vermisən?" – deyə soruşdu və əlini qızın bədənində gəzdirə-gəzdirə onun cavabını gözlədi.

Qız pıçıltıyla cavab verdi.

– Hə. Fikirləşirdim ki, yəqin əcnəbi-zadsan. Hər halda, bizim tərəflərdən deyilsən.

– Yox, heç də elə deyil. Əcnəbi-zad deyiləm. Amma sən bunu çətin anlarsan.

– Bəs onda kimsən? Necə yəni əcnəbi-zad deyilsən?!

– Özün tap.

Onlar astadan danışırdılar. Ətrafa qatı sükut çökmüş, gecə yarını çoxdan keçmişdi, istək, yorğunluq arxada qalmışdı.

– Mən tapa bilmirəm. Axı sən kimsən?

Onun əli qızın görünməyən yanı üstə yavaş-yavaş, sakitcə gəzişirdi. Dərhal cavab vermədi. Ona görə yox ki, qızın marağını bir az da coşdurmaq istəyirdi. Sadəcə, bundan sonra deyəcəyini hələ yaxşı-yaxşı düşünüb götür-qoy eləməmişdi. Qız təkrar soruşdu. Bu dəfə o dedi: "Məndə zənci qanı var".

Bunu eşidəndə qız yerin içində hərəkətsiz düşüb qaldı; amma bu, başqa bir hərəkətsizlik idi. Co isə, elə bil, bunu hiss etmədi. O, sakitcə uzanmışdı, əli isə qızın bir yanı boyu yavaş-yavaş aşağı-yuxarı gəzişirdi.

– Nə? – qız heyrətlə dedi.

– Yəqin ki, məndə zənci qanı var. – Gözləri qapalıydı, əli hələ də yorulub usanmadan qızın bədənində gəzişirdi. – Dəqiq bilmirəm. Amma fikirləşirəm ki, var.

Qız yerindən tərpənmədi. Amma dərhal dedi:

– Sən məni aldadırsan.

– Aldadıb-eləmirəm, – o da tərpəşib-eləmədən cavab verdi; əli isə hələ də qızı tumarlamaqdaydı.

– İnanmıram, – qaranlıqda qızın səsi eşidildi.

– İnanmırsan, heç inanma, – o dedi; əli hələ də onu tumarlamaqdaydı.

Növbəti bazar günü miss Makiçernin qutusundan yarım dollar da götürdü, onu ofisiant qıza verdi. Bir-iki gündən sonra, missis Makiçernin pulların yox olduğunu başa düşdüyünü və bu işdə məhz ondan şübhələndiyini düşündü; çünki buna əsası vardı. Çünki həmin gün qadın mister Makiçernin onların söhbətini eşitməyəcəyinə tam əmin olduğu anadək səbrini basıb gözləmişdi. Sonra demişdi: "Co." O isə bir anlıq işinə ara verib, qadının ona tərəf baxmayacağını bilə-bilə üzünü ona sarı çevirmişdi. Qadın isə yenə də ona tərəf baxmadan zəif, heysiz, yumşaq səslə

demişdi: “Mən bilirəm, cavan adama... böyüyəndə pul lazımdı. Mister Makiçernin ver... sənə verdiyindən daha çox pul...” Qadının səsi öləziyib tamam kəsilənədək onun üzünə baxmışdı. Yəqin ki, səsin haçan kəsiləcəyini gözləmişdi. Sonra demişdi:

– Pul? Pul mənim nəyimə lazımdı?

Növbəti şənbə günü qonşuya odun doğrayıb iki dollar qazandı. Hara getmək istədiyi, harda olduğu, nə iş gördüyü barədə Makiçernə yalan danışdı. Pulu ofisiant qıza verdi. Makiçern odun haqq-hesabından xəbər tutdu. Bəlkə də, fikirləşdi ki, Co pulu gizlədib saxlayır. Ya da ola bilsin ki, missis Makiçern ona belə demişdi.

Co həftədə iki gecəni ofisiant qızla – onun otağında keçirirdi. İlk vaxtlar bu otağa ondan başqa kiminsə girə biləciyini təsəvvürünə belə gətirmirdi. Son ana qədər elə bilirdi ki, bu istisna yalnız ona, onun xatirinə edilib. Son ana qədər, bəlkə də, bu fikirdəydi ki, Maksla Meymin könlünü almaq lazımdı; ona görə yox ki, onun ofisiant qızla əlaqəsi vardı, ona görə ki, bu evə rahatca gələ bilirdi. Lakin həmin gündən sonra bir daha onlarla o evdə rastlaşmamışdı; hərçənd orda, o evdə olduqlarını dəqiq bilirdi. Onun bura gəlməsindən evdə olmasından, yaxud konfet qutusuyla bağlı hadisədən sonra da gəlməsindən xəbərdar olub-olmadıqlarına isə tam əmin deyildi.

Adətən, onlar küçədə görüşür, sonra isə tələsmədən ya qızın yaşadığı o evə, ya da başqa yerə gedirdilər. Bəlkə də o, son ana qədər elə güman edirdi ki, bu qaydanı özü qoyub. Amma bir axşam qız görüş yerinə gəlmədi. Co məhkəmə binasındakı saat on ikini vuranacan dayanıb onu gözlədi. Sonra qızın yaşadığı evə yollandı. Bundan əvvəl heç vaxt belə etməmişdi, hərçənd qızın ona evə təkbaşına gəlməyi qadağan etdiyini də xatırlamırdı. Hər halda, həmin gecə ora təkbaşına yollandı, ümid edirdi ki, ev zülmət qaranlıq içində olacaq. Ev, doğrudan da, qaranlığa bürünmüşdü, amma yatmamışdı. O dərhal anladı. Dərhal anladı ki, qaranlıq pərdələrin o tayında, qızın otağında hələ də yatmayıblar və qız orda tək deyil. Bunu necə anladığını özü də dəqiq deyə bilməzdi. Və anladığı şeyin doğru olduğunu ömründə heç özünə belə etiraf etməzdi. “Yəqin ki, Maksdır, – o fikirləşdi. – Yəqin ki, bu, Maksdır”. Amma eyni zamanda, həm də buna inanmırdı. Dəqiq bilirdi ki, otaqda qızın yanındakı kişi xeylağıdır. Düz iki həftə görüş yerinə getmədi, halbuki qızın onu orda gözlədiyini bilirdi. Sonra bir axşam həmin tinə getdi; qız da gəlib çıxdı. Bir kəlmə deyib-danışmadan ona bir yumruq ilişdirdi; yumruğunun nəyə və necə dəydiyini özü də yaxşı hiss etdi. İndi o, bu günədək inanmaq istəmədiyi şeyin həqiqət olduğunu dəqiq bilirdi. Qız çığırdı. Bir də vurdu. Qız pıçıltıyla dedi: “Burda yox. Burda vurma”. Sonra onun ağladığını gördü. Xatırladığı qədər, özü bu vaxtacan ömründə ağlamamışdı. İndi isə ağlayır, söyüş söyə-söyə onu döyürdü. Sonra qız onu qucaqladı. Artıq onu döyməyə heç bir səbəb qalmamışdı. “Yaxşı, di bəsdi, – qız deyirdi, – bəsdi, bəsdi”.

O gecəni səhərəcən elə orda, tində qaldılar. Nə yoldan kənara çəkildilər, nə də başqa bir yerə gəzməyə getdilər. Ot basmış dikdirdə oturub söhbət etdilər. Bu dəfə qız danışırdı – özü barədə danışırdı. Amma onun hekayəsi o qədər də uzun olmadı. Sadəcə, Conun lap əvvəldən bildikləri indi daha aydın şəkil aldı: restoran, damağından siqaret düşməyən, yanlarından keçərkən hırıldaya-hırıldaya bu qıza söz atan işsiz-gücsüz kişilər və onun özü – başı sallaq, məhzun, yazıq görkəmdə aramsız obaş-bubaşa şütüyən ofisiant qız... Onun söhbətinə qulaq asarkən, sanki, burnuna adsız, ünvansız kişilərin torpağın xoş ətrini boğan çirkab iyi gəlirdi. Qızın başı aşağı sallanmış, əlləri hərəkətsiz halda dizlərinin üstünə düşmüşdü. Əlbəttə, o bunları görmürdü. Bunları görmək ona heç lazım da deyildi.

– Mən elə bilirdim, sən bilirsən, – qız dedi.

– Yox, – dedi. – Yəqin ki, bilmirdim.

– Elə bilirdim bilirsən.

– Yox, – o dedi. – Yəqin ki, bilmirdim.

İki həftə sonra o, tüstüdən gözlərini qıya-qıya siqaret çəkməyə və içməyə başladı. Axşamlar Maksla, Meymlə, bəzən isə daha üç-dörd kişi və bir, ya iki qadınla birlikdə içirdi; bəzən bu qadınlar şəhərin özündən olurdu, bəzən isə onlar Memfisdən gətirilən, işsiz-gücsüz kişilərin gün keçirdikləri restoranda bir həftə, yaxud bir ay piştaxta arxasında ofisiant kimi çalışan qadınlar idi. Çox vaxt birlikdə içdiyi adamların adlarını belə bilmirdi, amma şlyapasının qıraqlarını onlar kimi əzməyi yaxşı öyrənmişdi; bunu heç də onlardan pis bacarmırdı: axşamlar o şlyapanı yan qoyub, Maksgilin pərdələri örtülmüş otağına yığışmış yad adamlarla bir yerdə yeyib-içir, ümidsiz yeniyetmə səsilə onlara ofisiant qız haqqında, onun qulağı eşidə-eşidə ağzına gələni danışır, onu öz "qəhbəsi" adlandırırdı. Hərdənbir isə qızı Maksın maşınında şəhərə rəqsə aparır və Makiçernin bundan xəbər tutmaması üçün əvvəlcədən tədbirli olmağa çalışırdı. "Heç bilmirəm eşitsə, nəyə daha çox hirslənəcək, – bir dəfə qıza dedi, – sənlə bir yerdə olmağıma, yoxsa rəqsə getməyimə?" Bir dəfə isə onlar Conu o evdə, əvvəllər buraya ayaq basa biləcəyini xəyalına belə gətirmədiyi bir yerdə ölü kimi sərxoş halda yatağa salmalı oldular. Səhəri gün, görməsinlər deyə ofisiant qız özü onu sübh obaşdan maşında evlərinə apardı. Gündüz isə Makiçern tərs, donqultulu bir səslə gözünü ondan çəkmədi.

– Demişdim axı, o düyəni sənə verdiyimə məni peşman etmək üçün əlinə hələ çox fürsət düşəcək, – Makiçern dedi.

9

Makiçern yataqdaydı. Otağa qaranlıq çökmüşdü, amma o hələ yatmamışdı. Missis Makiçernlə yanaşı uzanmışdı, onun yuxuya getdiyini güman edir, gərgin halda, sürətlə

fikirləşirdi: “Kostyum geyilib. Amma haçan? Gündüz ola bilməz, çünki həmişə gözümün qabağındadı; bircə şənbə günlərindən başqa, o da günortadan sonra. Ancaq istənilən şənbə günü günortadan sonra tövləyə gedib, geyinməyini özüm tələb etdiyim kostyumu ordan çıxarıb geyə, sonra yenə qaytarıb gizlədə bilər; bu cür bəzənib-düzənmək isə ona yalnız günah işlər görmək üçün lazım ola bilər, elə lazım olub da”. İndi o bilirdi, sanki, ona demişdilər. Demişdilər ki, kostyum gizlincə geyilir – özü də, çox güman ki, gecələr. Əgər belədisə, onda oğlanın əxlaqsız işlər görməkdən başqa nə məqsədi ola bilər? Özü ömründə bir dəfə də olsun, əxlaqsız iş tutmamışdı, hətta yanında kiminsə əxlaqsız şeylərdən danışmağına belə imkan verməmişdi. Nə isə, yarım saat gərgin düşünəndən sonra artıq Conun əmælləri barədə hər şeyi bilirdi – hətta onun özünün danışa biləcəyindən də çox; yalnız yer və adam adlarından savayı. O, hətta bunları Conun öz ağzından eşitsəydi, çox, çox güman ki, inana bilməyəcəkdi; zira bu tip insanlarda xeyir kimi şər və onun mexanizmi, gedişatı haqda da əvvəlcədən yaranmış möhkəm, dəyişməz təsəvvür olur. Beləliklə, fanatizmlə bəsirət, demək olar ki, eyni anda hərəkətə gəlmişdi; yalnız fanatizm bir qədər gecikmişdi: Co kəndirlə üzüaşağı sürüşərkən ay işığında onun pəncərəsi önündən sürətlə, qara kölgə kimi ötüb keçəndə Makiçern onu dərhal tanımadı, bəlkə də, gözlərinə inanmadı; halbuki kəndir düz gözləri önündə üzüaşağı sallanırdı. Yerindən qalxıb pəncərəyə yaxınlaşanacan isə Co artıq kəndiri yana çəkib bağlamış, ordan xeyli uzaqlaşmışdı; indi o artıq tövləyə sarı gedirdi. Pəncərədən onun arxasınca baxarkən Makiçerni pak, ruhani bir qəzəb hissi bürüdü; belə bir hissi yalnız ən yüksək cəza ilə ittiham olunan müttəhimin aşağı əyilib məhkəmə ittihamçısının qoluna tüpürdüyünü görən hakim keçirə bilərdi.

Evlə şose arasındakı yolun tən yarısında – ağaclıqda gizlənmişdi, ordan şosenin kənarında dayanmış Conu görə bilirdi. Zəif də olsa, maşının səsini eşitdi, onun Coya çatan kimi dayandığını, oğlanın ona mindiyini də gördü. O maşında daha kimlərin də olduğu, bəlkə də, onu maraqlandırmırdı. Bəlkə də, bunu bilirdi və yalnız onların hara yollandıqlarını görmək istəyirdi. Bəlkə, bunu da bildiyinə əmin idi (halbuki maşın istənilən tərəfə gedə bilərdi, ətrafda nə qədər desən münasib yer vardı, bu yol onların hansına desən, gedib çıxa bilərdi), çünki dərhal hələ də pak, ruhani bir qəzəb içərisində geri dönüb, sürətlə evə yollandı, sanki, dəqiq bilirdi ki, bundan da güclü və bundan pak qəzəb hissi özü onu lazım olan yerə aparacaq və onda bu hissiyyatına zərrə qədər də olsa, şübhə yaranmayacaq. İpdən toxunma sürütmələrdə, başıaçıq, şlyapasız, ətəyi şalvarının içinə salınmış gecə köynəyində, aşırmasının qayışları aşağı sallanmış halda birbaş axura yönəldi, iri, qoca, güclü, ağ atını yəhərləyib – həyətdən çıxanda missis Makiçern mətbəx qapısı ağzından onu səsləsə də – yola, ordan da şoseyə tərəf ağır-ağır, dördnala çapdı. Heyvanın belinə sinib elə onun kimi gərgin, qabağa əyilmiş halda, elə o cür ləngərli, ağır dördnala qaçışla, sürətin dəhşətli mücəssəməsi kimi şose boyu irəli çapdı; hərçənd sürətin özündən əsər-əlamət

belə yox idi, sanki, hər ikisi öz qüdrətlərinə və bəsirətlərinə soyuq, yenilməz, sarsılmaz bir əminlik içərisindəydi, sanki, onlara nə sürət, nə də ünvan bilgisi lazım idi.

Elə o sürətlə də birbaş, bütün gecənin və az qala, bütün əyalətin içindən axtarıb tapdığı yerə tərəf çapdı; hərçənd o yer çox uzaqda deyildi. Heç dörd mil getməmiş irəlidə musiqi səsi eşitdi, sonra yolun qırağında birotaqlı məktəb binasının işıqlı pəncərələrini gördü. Məktəb binasının harda olduğunu əvvəldən də bilirdi, amma axşamlar orda rəqs təşkil olunduğundan xəbəri yoxdu, bu ona heç lazım da deyildi. Hər halda, atını birbaş o binaya tərəf çapdı, boş maşınların, arabaların, yəhərli at və qatırların kölgələrinin dövrələdiyi ağaclığa girib, at hələ dayanmağa macal tapmamış onun belindən yerə sıçradı. Heç onu bağlamadı da. Yerə sıçradı və ayağında toxunma sürütmələr, aşırmasının qayışları aşağı sallana-sallana, yumru başını, qısa, küt, qəzəbli saqqalını irəli uzatmış halda açıq qapıya, açıq pəncərələrə – musiqi səsi gələn və ağ neft işığında kölgələrin müəyyən bir təqt altında sayrışdığı yerə tərəf qaçdı.

İçəri girərkən, bəlkə də, düşünürdü ki, (əgər həmin anda, ümumiyyətlə, düşünürdüsə) indi onun hərəkətlərini cəngavərlik mələyi cənabı Mikayılın Özü yönləndirir. Deyəsən, görmə qabiliyyəti də içəridəki qəfil işıqdan, qarmaqarışıqlıqdan zərrə qədər korşalmadı, çünki başları ona tərəf çevrilən bədənləri oyan-buyana itələyə-itələyə, arxasında heyrət dalğası, ürkək, zəif qışqırıq səsləri buraxaraq onların arasından zorla keçib, öz arzusu ilə oğulluğa götürdüyü, özü bildiyi kimi düzgün tərbiyə etməyə çalışdığı oğlana tərəf cumdu. Co ofisiant qızla rəqs edirdi, onu hələ görmürdü. Qız əvvəllər onu yalnız bir dəfə görsə də, yəqin ki, yadında saxlamışdı, indi ona bircə dəfə baxmağı kifayət edərdi. Çünki dərhal yerində donub qaldı, sifətinə dəhşətli bir ifadə çökdü, Co bunu görən kimi geri çevrildi. Makiçern artıq onlara çatmışdı. O da bu qızı əvvəllər yalnız bircə dəfə görmüşdü, amma yəqin ki, kişilərin əxlaqsız söhbətlərinə qulaq asmaq istəmədiyi kimi, ona da baxmaq istəməmişdi. İndi isə Conu hələlik sonraya saxlayıb, əvvəlcə birbaş qızın üstünə yeridi. "Çəkil kənara, Cezavel!" – dedi. Onun səsi heyrətə bürünmüş susqunluq, ağ neft lampasının işığı altında dəhşətdən donmuş sifətlər, qəfil kəsilən musiqidən sonra yaranan sükut, təzə-tər yay fəslinin dinc, aylı gecəsi içərisində ildırım kimi çaxdı. "Çəkil kənara, fahişə qadın!"

Yəqin ki, nə qədər sürətlə hərəkət etdiyinin, nə qədər sürətlə danışdığının fərqində deyildi. Yəqin, ona elə gəlirdi ki, hər cür tələskənlikdən, qəzəbdən uzaqdır, nəhəng, ədalətli bir qaya kimi yerində sakitcə dayanıb, zəif, gücsüz bəşəriyyətin bura yığışmış tör-töküntüləri isə Taxt-tacın qəzəblənmiş cəzalandırıcı elçisi önündə qorxudan lərzəyə gələrək dərin bir ah içərisində boğula-boğula qalıb. Körpə yaşından evində saxladığı, yedirib-içdiyi, geyindirdiyi oğlanın sifətinə yumruq atan əl də, yəqin ki, onun əli deyildi; sifət cəld yana qaçıb zərbədən yayındıqdan sonra təkrar yerinə qayıdanda artıq o da, yəqin ki, həmin uşağın sifəti deyildi. Lakin bu onu təəccübləndirmədi; zira indi onu uşağın deyil, Şeytanın sifəti maraqlandırırdı, çünki onu da yaxşı

tanıyırdı. Buna görə də gözünü o sifətə zilləyib, ona zərbə endirmək üçün əlini havaya qaldıraraq əzmlə üstünə yeridi və artıq şəhid olmağa hazır fədai kimi başını Conun var gücüylə ona tərəf çırpdığı kətilin altına verərək olumsuzluğa qovuşdu. Bəlkə də, bu qovuşma onu bir qədər təəccübləndirdi, amma bu təəccübü çox da güclü olmadı və heç də uzun sürmədi.

Sonra hamı heyrət içərisində, çığıra-çığıra Conun yanından kənara çəkildi; o, zərbədən qırılmış kətil əlində, otağın ortasında tək-tənha dayanıb atalığına baxırdı. Makiçern arxası üstə yerə sərilmişdi. İndi tamam sakit görünürdü. Elə bil, yuxuya getmişdi: yumru başı bu rahatlıq anında belə məğrurluğunu itirməmişdi, hətta alnındakı qan da sakitcə, dinclik içərisində axırdı.

Co ağır-ağır nəfəs alırdı. Bunu özü də eşidirdi, sonra başqa, sanki, uzaqdan gələn zərif, cingiltili bir səs eşitdi. Diqqətlə qulaq verib bu səsi – qadın səsini tanıyanadək xeyli vaxt keçdi. Sonra səs gələn tərəfə baxdı: iki kişi onu tutub zorla saxlamışdı, qız isə dartınır, çırpınıb onların əlindən çıxmağa çalışırdı; saçları dağılmış, alnının üstünə tökülmüşdü, qəzəbdən əyilib normal cizgiləri öz formasını itirən, ağappaq ağarmış sifət ona çəkilən boyaya bulaşaraq iyrənc hala düşmüşdü, cırıq ağız yırtığı isə ətrafa od püskürürdü. “Mənə fahişə dedi!” – deyə çığırıb kişilərin əlindən qopdu. “Qoca kaftar! Buraxın məni! Buraxın məni!” Səs söz deməkdən vaz keçdi, yenidən çığırtıya çevrildi; dartınır, çırpınır, onu tutub saxlamağa çalışan kişilərin əllərini gəmirmək istəyirdi.

Co əlində qırıq kətil, ona tərəf getdi. İçəridəkilər – cürbəcür əlvan rəngli libaslar, poçt ilə gətirilmiş corablar, ayaqqabılar geyinmiş qızlar; əyinlərinə elə onlar kimi poçt ilə gətirilmiş enli kostyumlar geyinmiş, əlləri yapalaq kimi kor-kobud, nəhayətsiz şırımlar və tənbəl qatırlarla işləyən kəndçi nəslindən olduqları gözlərindən oxunan kişilər, cavan oğlanlar dəstə-dəstə divara sığınıb ona baxırdılar. Co əlindəki kətili yellədə-yellədə qaçmağa başladı. “Buraxın onu”, – dedi. Qız dərhal dartınmağına ara verdi, çığıra-çığıra bütün qəzəbini ona yönəltdi, sanki, onu indi gördü, burda olduğunu indi dərk etdi.

“Sən! Sən məni bura gətirdin! Kəndçi oğraş, görüm səni lənətə gələsən! Oğraş köpəyoğlu! Qancığın qarnından çıxanlar... Elə sən də, o da. Gör bir kimi mənim üstümə salıb, ömründə üzünü belə görmədiyim...” Co, sanki, anlaqlı şəkildə kiminsə üzərinə hücum çəkməmişdi; yuxarı qaldırdığı kətilin altında sifəti tamamilə sakit görünürdü. Qızı tutub saxlamağa çalışan kişilər onu buraxdılar, lakin o, bunu hiss etmirmiş kimi, hələ də dartınır, kiminsə əllərindən qopmağa çalışırdı.

“Çıx get burdan!” – Co qışqırdı. Əlindəki kətili oyan-buyana qovzayaraq yerində fırlandı, ancaq sifəti hələ də sakit idi. “Geri çəkilin!” – dedi, hərçənd heç kim ona tərəf bir addım belə atmamışdı. Hamı səsini udmuş, döşəməyə sərilmiş adam kimi yerində donub qalmışdı. Co əlindəki kətili sağa-sola qovzaya-qovzaya dalı-dalı qapıya tərəf çəkildi. “Tərpənməyin!

Demişdim axı, bir gün öldürəcəm! Bunu ona demişdim axı!" Kətili sağa-sola qovzaya-qovzaya, sifətində sakit bir ifadə, dalı-dalı qapıya tərəf getdi. "Heç kim yerindən tərpənməsin!" – dedi, gözlərini sürətlə, ara vermədən, sanki, maska taxılmış sifətlərin üzərində gəzdirdi. Sonra əlindəki kətili yerə atıb geri döndü, cəld qapıdan bayıra, yumşaq və xal-xal ay işığına bürünmüş torpağın ağuşuna atıldı. Qızı, maşına minəndə haqladı. Möhkəm tövşüyürdü, ancaq səsi hələ də sakit idi: sifəti, elə bil, yuxuya getmişdi, amma ağır nəfəs alırdı, eşitmək olurdu. "Get, şəhərə qayıt, – o dedi. – Mən də ora gələcəm, qoy..." Güman ki, hələ nə dediyinin, nə hadisə baş verdiyinin fərqində deyildi: qız maşının qapısı ağzında geri dönüb, onu şapalaqlamağa başlayanda yerindən tərpənmədi, səsi də əvvəlki kimi sakit çıxdı: "Yaxşı. Düzdü. Orda olacam, qoy..." Sora geri dönüb ordan qaçdı, qız isə hələ də onu şapalaqlayırmış kimi əllərini havada oynadırdı.

Makiçernin atı harda saxladığını, ümumiyyətlə, bura atla gəlib-gəlmədiyini heç cür bilə bilməzdi. Ancaq, hər halda, düz o atın üstünə qaçdı, sanki, atalığının hadisələrin daim bir axarda, heç bir istisnasız gərdiş etdiyinə möhkəm inamı ona da sirayət etmişdi. Dərhal atın belinə sıçrayıb şoseyə tərəf çapdı. Maşın artıq o yola çıxmışdı. Ora çatanda onun qırmızı işıqlarının getdikcə kiçilərək gözdən itdiyini gördü.

Qoca qoşqu atı asta, ahəngdar, dördnala qaçışla evə qayıdırdı. Yeniyetmə oğlan onun belində rahat, sərbəst oturmuşdu, xeyli qabağa əyilərək özünü rahatca tarazlamışdı və yəqin ki, bütün qadağaları, Olmazları həmişəlik bir kənara atdığı, şərəf və qanun məngənəsindən, axır ki, birdəfəlik qurtulduğu üçün Faust kimi sevinirdi. Hərəkətdə ikən kəskin at tərinin kükürd qoxusuna bənzər iyi burnuna vururdu; gözlə görünməyən külək üzünə əsirdi. O, ucadan qışqırdı: "Axır ki, mən bunu elədim! Axır ki, mən bunu elədim! Demişdim axı eləyəcəm!"

Şosedən cığıra dönüb, atın sürətini azaltmadan ay işığı altında evə doğru çapdı. Fikirləşirdi ki, ev qaranlıq olacaq, amma qaranlıq deyildi. Heç bir tərəddüd keçirmədi; indi gizlətdiyi kəndir də şərəf və ümid kimi, on üç ildir ən başlıca düşmənlərindən biri olan və budur, hələ də yuxuya getməyib onu gözləyən bu zəhlətökən qarı kimi artıq onun üçün yaşanmış, geridə qalmış həyatın bir hissəsinə çevrilmişdi. Qarıyla Makiçernin yataq otağında işıq yanırdı, qadın özü isə gecə köynəyində çiynində şal qapının ağzında dayanmışdı. "Co?" – o dedi. Oğlan yeyin addımlarla dəhlizə girdi. Sifəti Makiçernin kətil başına çırpılan zaman gördüyü sifət kimiydi. Bəlkə də, qadın hələ ona əməlli-başlı diqqət yetirə bilməmişdi. "Nə olub? – qadın dedi. – Atan ata minib getdi. Mən onun..." Bu anda oğlanın sifətini gördü. Ancaq geri çəkilməyə macal tapmadı. O, qadını vurmadı, sadəcə, onu qapıya gedən yoldan dərhal, tələm-tələsik yox etmək üçün əliylə kobudcasına kənara itələdi. Sanki, qapı önünə çəkilmiş pərdəni hirslə kənara çəkdi.

"O rəqsdədir, – Co dedi. – Çəkil yolumdan, qarı". Qadın geriyə döndü, bir əliylə şalını sıxıb, o biri əliylə qapıdan yapışdı, Co otağın içindən keçib, pilləkənlərlə qaça-qaça çardaqdakı otağına çıxanacan onun ardınca baxdı. Yuxarı qaçarkən Co bir dəfə dönüb arxaya boylandı. Bu

zaman qadın lampa işığında onun dişlərinin necə parıldadığını gördü. “Orda rəqsdədir, eşidirsən? Ancaq rəqs-zad eləmir”. Arxaya dönüb, lampaya tərəf baxa-baxa qəhqəhə çəkdi; sonra başını qabağa döndərib gülməyinə və qaçmağına ara vermədən, yenə də qaça-qaça, gülə-gülə gözdən itdi – əvvəlcə başı, sonra isə bütün bədəni yox oldu; sanki, qaça-qaça elə bir şeyə çırpıldı ki, o şey onu yazı taxtasına tabaşirlə çəkilmiş şəkil kimi silib yox elədi.

Qadın hıqqına-hıqqına pilləkənlə onun ardınca yuxarı qalxdı. Elə dərhal, Co yanından ötüb keçən kimi dalınca düşdü; sanki, ərini burdan aparan qarşısıalınmaz qüvvə oğulluğu ilə birlikdə evə qayıtmış, ərindən ona keçmişdi. Bir əliylə məhəccərdən yapışıb, o biri əliylə şalını sinəsinə sıxa-sıxa, dinib danışmadan, arxadan onu səsləmədən dar pilləkənlərlə yuxarı dırmaşdı. Bu anda o, mövcud olmayan hökmdarın əmrini yerinə yetirən ruha bənzəyirdi. Co lampanı yandırmamışdı. Amma otağa zolaq-zolaq ay işığı düşürdü, hərçənd qadın onun nə etdiyini bunsuz da görə bilərdi. Divardan yapışmışdı, ayaq üstə güclə dura bilirdi, əlini divarda gəzdirə-gəzdirə birtəhər çarpayının yanına çatanda isə çökdü, onun üstündə əyləşdi. Bunacan xeyli vaxt keçdi, çünki qadın öz saxlancına tərəf boylananda Co artıq çarpayıya yaxınlaşmışdı; qadın ay işığında onun dəmir qutunu necə ağzı üstə çevirdiyini, xırda sikkələri, kağız pulları necə qarmaladığını, onları cibinə necə soxduğunu gördü. Yalnız bu anda Co ona – bir əliylə çarpayıya dirsəklənən, o biri əliylə isə şalından yapışıb bir qədər arxaya əyilərək oturan qadına tərəf baxdı. “Mən özüm qəsdən bunları səndən xahiş edib istəmədim, – o dedi. – Yadında saxla. Özüm istəmədim, qorxdum ki, verəcəksən. Onları özüm götürdüm. Bunu unutma”. Və sözünü bitirməmiş, dönüb qaçmağa başladı. Qadın onun aşağıdan gələn işığı necə yarıb keçdiyinə, pilləkənlə necə aşağı düşdüyünə arxadan tamaşa elədi. Oğlan gözdən itsə də, onu hələ də eşidirdi. Sonra dəhlizdən qaçaraq ayaq səslərini, bir qədər sonra isə həyətdən yüyəni buraxılmış at ayaqlarının tappıltısını duydu, çox keçməmiş bu tappıltılar da kəsildi, eşidilməz oldu.

Gecə saat birin zəngi eşidiləndə Co qoca, artıq yorulub əldən düşmüş atı şəhərin mərkəzi küçəsilə çapırdı. At çoxdan təngnəfəs olmuşdu, tez-tez büdrəyirdi, amma Co yoğun dəyənəklə onun sağrısına həmahəng zərbələr endirir, zorla qaçmağa məcbur edirdi. Bu, qamçı deyildi, sınıq süpürgə sapıydı, bundan əvvəl miss Makiçern onu çiçək ləkində hansısa bitkiyə dayaq vurmuşdu. At hələ də dördnala qaçsa da, onun sürəti piyada yeriyən adamın sürətindən azca iti olardı. Elə dəyənək də o cür yorğun, son dərəcə yavaş-yavaş qalxıb-enirdi, atın belindəki cavan oğlan isə hələ də bütün bədənini qabağa əyib onun yalmanına sinmişdi, elə bil, atın necə əldən düşdüyündən xəbərsiz idi; ya da ay işığında ala-bulaya çalan küçədə ayaqlarını zorla, yavaş-yavaş yerə basan bu yorğun, heydən düşmüş heyvanı zorla irəli qovurdu. Bu vəziyyətdə onlar – at və onun belindəki oğlan – qəribə, ilğımlı bir görünüş almışdılar; onlar oğlanın, bəlkə də, bu qədər basqılı olmayan, amma ən azı, bu qədər hövsələsiz, bundan da cavan istəyinə ram olub

haçansa o qızı gözləməyə məcbur qaldığı tinə doğru inadla, heysiz halda dördnala çaparkən yavaşıdılmış kino lentini xatırladırdılar.

At isə artıq ayaq üstə möhkəm dura, dördnala qaça bilmirdi, ağır-ağır zorla nəfəs alırdı; hər dəfə nəfəs alanda, elə bil, inildəyirdi. Dəyənək isə durmadan qalxıb-enir, atın sürəti zəiflədikcə, zərbələrin sayı da artırdı. At getdikcə sürətini yavaşıdaraq özünü səkinin qırağına verməyə çalışdı. Co cilovu özünə tərəf möhkəm dartıb, onu bir də vurdu, amma at özünü zorla səkinin qırağına çatdırıb, ay işığının almalı kölgəsində bütün bədəni əsə-əsə dayandı, başını yerə dikib, elə ağır nəfəs aldı ki, elə bil, insan səsi çıxarırdı. Belindəki oğlan isə hələ də atın yalmanına sinib, indicə irəli sıçrayacaq bir vəziyyət almışdı; əlindəki dəyənəklə qəzəblə atın sağrısına döyəcləyirdi. Əgər dəyənəyin şappıltısı, yazıq heyvanın iniltisi olmasaydı, onları pyedestalı tərk edib, ay işığında adda-budda kölgəyə bürünən sakit, bomboş küçədə yorğun-arğın halda donub qalmış atlı heykəlinə bənzətmək olardı.

Co atdan düşdü. Ön tərəfinə keçib, onu irəli dartışdırmağa başladı, sanki, atı öz gücü ilə hərəkətə gətirmək, sonra da belinə sıçramaq istəyirdi. Atsa yerindən tərpənmək bilmirdi. Co inadından əl çəkmədi; onu irəliyə dartışdırmaqda davam etdi. Bu vəziyyətdə onlar – atla oğlan yenə də daş heykəl kimi qarşı-qarşıya, demək olar ki, baş-başa donub qaldılar; elə bil, ibadət edirdilər, ya da nəyəsə diqqətlə qulaq asır, yaxud nə haqdasa məsləhətləşirdilər. Sonra Co əlindəki dəyənəklə yerindən tərpənmək bilməyən atın başına döyməyə başladı. Var gücü ilə vururdu, axırda dəyənək qırıldı, amma o dayanmadı; əl boyda dəyənək qırığı ilə onu döyməyinə davam etdi. Bir qədər sonra isə – artıq ata acı çəkdirə bilmədiyinimi başa düşdü, yoxsa qolumu yoruldu – əlindəki ağac parçasını yerə atıb sürətlə ordan uzaqlaşdı. Heç dönüb geriyə də baxmadı. Ağ köynəyi kölgələr arasında getdikcə kiçilə-kiçilə bu atın həyatından birdəfəlik qaçıb getdi, sanki, belə bir heyvan heç vaxt mövcud olmamışdı.

Həmişə görüşə gəldiyi tini ötüb keçdi. Əgər o bu anda, ümumiyyətlə, nəsə sezsəydi, nəsə düşünsəydi, yəqin ki, bunu demiş olardı *İlahi gör bu haçan olub. Gör haçan olub* Yol artıq çınqıllı küçəyə dönmüşdü. Hələ, ən azı, bir mil yol getməliydi, buna görə də qaçmağa başladı – amma o qədər də bərk yox; ehtiyatla, bir ahəngdə, sanki, ayağının altına diqqət eləyirmiş kimi başını azca aşağı sallayaraq peşəkar qaçış ustası kimi dirsəklərini yanına qısaraq qaçırdı. Ay işığında ağappaq ağaran yol, adətən, dünən hardan gəldikləri, sabahsa hara gedəcəkləri bilinməyən adamların, şəhərətrafı zirzibilliklərdə məskunlaşan sakinlərin yaşadığı xırda, nizamsız səpələnmiş, sınıq-salxaq evlərin arasında itib-batırdı. Bütün evlərə qaranlıq çökmüşdü – yalnız birindən, onun qaçıb çatmaq istədiyi evdən başqa.

Evin tuşuna çatanda qaça-qaça dönüb yoldan çıxdı; eyni sürətlə atılan addım səsləri gecənin sakitliyində aydın eşidilirdi. Bəlkə də, o artıq ofisiant qızın əynində qara yol paltarı, başında şlyapa çamadanlarını yığışdırıb onu gözlədiyini xəyal etmişdi (necə gedəcəkləri, nəylə

gedəcəkləri barədə isə bir dəfə də olsun düşünməmişdi), bəlkə, elə Meymlə Maksı da gözü önünə gətirmişdi, amma yəqin ki, onlar geyinməmişdilər: kişi pencəksiz, bəlkə də, sadəcə, alt paltarında, qadın isə mavi kimonoda; hər ikisi vida anının qaydasına uyğun qayğıkeş, şən, hay-küylü olmalıydılar. Əslində isə o, ümumiyyətlə, heç nə barədə düşünmürdü, axı qıza yola hazırlaşmağı da tapşırmamışdı. Bəlkə də, ona elə gəlirdi ki, bunu qıza deyib, ya da o özü bunu başa düşməlidi, çünki keçmiş hərəkətləri və gələcək üçün planları Conun özünə çox sadə və hamının dərhal başa düşəcəyi bir şey kimi görünürdü. Bəlkə də ona elə gəlirdi ki, qız maşına minəndə evə pul dalınca getdiyini də ona söyləyib.

Qaçıb artırmaya çıxdı. İndiyəcən, hətta bu evdə keçirdiyi ən xoş günlərdə belə, həmişə mümkün qədər tez və nəzərə çarpmadan yoldan xəlvətcə sivişib bu artırmanın, onu gözlədikləri evin daldasına sığınmaq istəmişdi. Qapını döydü. Əvvəlcədən də güman etdiyi kimi, qızın otağında işıq yanırdı, dəhlizdə də həmçinin; pərdəsi bağlı pəncərələrdən cürbəcür səslər eşidilirdi, amma o səslərdə şən əhval-ruhiyyədən daha çox narahatlıq duyulurdu; bunun belə olacağını özü də qabaqcadan hiss etmişdi, düşünmüşdü *Yəqin onlar elə bilirlər ki, artıq gəlməyəcəm. Lənətə gəlmiş yabı. Lənətə gəlmiş yabı* Yenə qapını döydü, lap bərkdən, sonra onun dəstəyindən yapışıb silkələməyə, dartışdırmağa başladı, sifətini pərdə tutulmuş şüşəsinə yapışdırdı. İçəridəki səslər susdu. Evdən cınqırtı belə eşidilmədi. İki işıq – qızın otağındakı pərdənin və qapının bulanıq şüşəsinə çəkilmiş örtüyün işığı gur və rahatca yanırdı; o, dəstəkdən yapışıb qapını var gücü ilə itələdiyi an, elə bil, evdəkilərin hamısı birdən öldü. Yenə, demək olar ki, heç bir fasilə vermədən qapını döydü; qapı əlinin altında qəfil və sakitcə (nə pərdəyə kölgə düşdü, nə də addım səsi eşidildi) açılarkən o hələ də onu tıqqıldadırdı. Sanki, qapı özü onu dartıb içəri saldı, ayağını kandardan içəri qoyanda Maks qapının arxasından peyda olub yolunu kəsdi. O, əməlli-başlı geyinmişdi, hətta şlyapası da başındaydı. – Kimi görürəm, – dedi. Bunu o qədər də ucadan demədi, hər şey elə alındı ki, sanki, o özü Conu dartıb dəhlizə salmış, oğlan artıq evin içində olduğunu dərk etməyə macal tapmamış qapını örtmüşdü. Ancaq səsi yenə də ikibaşlı, anlaşılmazdı, elə bil, həm səmimiydi, həm də heç bir məmnunluq, nəşə ifadə etmirdi, tamamilə bomboş idi; sanki, əvvəllər həmişə özüylə gəzdirdiyi, Coya da arxasından baxdığı sifət ifadəsi kimi son dərəcə zahiri, saxta bir şeydi; Co məhz buna görə o vaxtlar Maksa çaşqınlıq, qəzəb içində baxardı. – Axır ki... Bu da bizim Romeo, – o dedi. – Bil-strit kralı.– Bu dəfə səsini bir az ucaltdı, “Romeo” sözünü isə lap ucadan dedi. – Keç içəri, qonağımız ol.

Co artıq tanış qapıya doğru gedirdi, yenə də, az qala, qaçırdı, bu qaçışa heç ara vermişdimi?! Maksı dinləmirdi. Bil-srtitin, Memfisdə bu üç-dörd məhəllədən ibarət olan bu yerin adını belə eşitməmişdi; onunla müqayisədə Harlem yalnız kinodekorasiya ola bilərdi. O, heç nəyə baxmırdı. Buna görə də dəhlizin lap dərinliyində dayanmış sarışın qadını birdən gördü. Onun dəhlizə haçan çıxdığını anlamadı, çünki Co içəri girəndə o qadın orda deyildi. İndi isə

ordaydı, elə bil, birdən-birə göydən düşmüşdü. O da geyinikli idi, əynində qara yubka vardı, şlyapası da əlindəydi. Yanındakı qara açıq qapının o tayında, yarıqaranlıq otaqda isə yol yükü – bir neçə çamadan hazır vəziyyətdə qoyulmuşdu. Bəlkə də o, heç bunları görmədi. Bəlkə, göz atıb bir anlığa *Mən heç bilmirdim ki, onun bu qədər çox əşyası var* düşüncəsindən də sürətlə, bir qırpıma gördü. Bəlkə, elə o an ilk dəfə ağlına gəldi ki, onların getməyə heç bir miniyi yoxdu, düşündü *Bəs mən bütün bunları necə aparacam* Ancaq dayanmadı, tanış qapıya tərəf getdi. Və yalnız əli ilə toxunanda o qapının arxasına ölü bir sükut çökdüyünü hiss etdi; elə bir sükut ki, artıq on səkkiz ildir bildiyi kimi, onu tək adam heç cür yarada bilməz. Amma yenə dayanmadı, yəqin ki, dəhlizin yenidən boşaldığını, sarışın qadının eşidilmədən, görünmədən yenidən yoxa çıxdığını da hiss etmədi.

Qapını açdı. İndi o qaçırdı, yəni insan qəfil yerə mıxlanıb qaldığı anda özündən, öz bilgisindən xeyli qabağa qaçdığı kimi. Ofisiant qız çarpayıda oturmuşdu, onu bu pozada bir dəfə də olsun görməmişdi. Əvvəldən güman etdiyi kimi qız qara paltarda, qara şlyapada idi. Başını aşağı salıb oturmuşdu, qapı açılanda da onu qaldırmadı, baxmadı, həddən artıq gen paltarda qeyri-təbii görünən hərəkətsiz əlində siqaret tüstülənirdi. Otaqdakı yad kişini də Co elə bu an gördü. Əvvəllər onunla heç rastlaşmamışdı. Ancaq indi bunun fərqində deyildi. O bunu da, yarıqaranlıq otaqda bir anlığa gözünə dəyən, sonra isə gözün düşüncə sürətilə ayaqlaşa bilmədiyi üçün unutduğu çamadanları da yalnız sonralar xatırladı.

Tanımadığı, yad adam da çarpayıda oturmuşdu, siqaret çəkirdi. Şlyapasını gözünün üstünə basmışdı, buna görə də ağzı yaxşı görünmürdü, üstünə kölgə düşmüşdü. O, nə yaşlı, nə də cavan idi. Maksa çox oxşayırdı, elə bil, doğma qardaş idilər – Afrika kəndlərindən birinə düşən iki ağ adamın yerlilərin gözündə doğma qardaşa bənzədikləri kimi. Onun sifəti, daha doğrusu işıq düşən çənəsi daş kimi donuq idi. Yad adamın ona tərəf baxıb-baxmadığını bilmirdi. Maksın arxada dayandığından da xəbərsizdi. Amma nədən danışdıqlarını anlamasa da, onlara qulaq asmasa da səslərini eşidirdi: *Özündən soruş*

O hardan bilir Bəlkə də o bu sözləri eşitdi. Amma yox. Yəqin ki, bu səslər onun üçün möhkəm bağlanmış pəncərələrin, ya da baxdığı, amma hələ görə bilmədiyi səliqəylə düzülmüş çamadanların arxasından eşitdiyi həşərat vızıltısı qədər də əhəmiyyətli deyildi. *Bobbi deyir ki, o, dərhal aradan sivişib çıxdı*

Bəlkə, o bilir. Bir bilək görək də, biz niyə burdan baş götürüb qaçırıq

İçəri girdiyindən, qaçmağa ara vermədiyindən bəri hələ də yerindən tərpənməmişdi. Maks onun çiyninə toxunanda elə sərt arxaya döndü ki, elə bil, qaçan adamı qəfil tutub saxlamışdılar. Heç ağlına da gətirməzdi ki, Maks da otaqdadır. Çiyninin üstündən çıldırmış kimi hirsli-hirsli ona baxdı. “De görək, cavan oğlan, – Maks dedi. – Nə baş verib orda?”

– Harda – orda? – Co dedi.

– Qocanı deyirəm. Səncə, onun işini birdəfəlik bitirmisən? Amma düzünü de. Sən ki, Bobbinin belə bir zibilə bulaşmasını istəməzsən.

– Bobbi, – Co dedi. Fikirləşdi *Bobbi, Bobbi* Geriyə dönüb yenidən qaçmağa başladı; bu dəfə Maks, o qədər kobud olmasa da, əl atıb onun çiynindən yapışdı.

– Bura bax, – Maks dedi. – Burda biz hamımız dostuq axı. Sən onun işini bitirmisən?

– İşini bitirmişəm? – Co aramsız uşaq suallarından təngə gəlmiş adam kimi hövsələsini zorla basıb hirslə dedi.

Sonra yad adam dilləndi:

– Kətili başına çırpdığın adamı deyirik. O öldü?

– Öldü? – Co təkrar etdi. Baxışlarını yad adama tərəf çevirdi. Bu vaxt yenə ofisiant qızı gördü və yenə də qaçdı. Amma bu dəfə, doğrudan da, hərəkətə gəldi. Hər iki kişini tamam unutdu. Çarpayıya yaxınlaşdı, sifətində vəcd və qalibiyyətqarışıq bir ifadə, cibindən nəsə çıxarmağa çalışdı. Ofisiant qız ona tərəf baxmırdı. İçəriyə girdiyi andan bəri bir dəfə də olsun, ona tərəf baxmamışdı, amma çox güman ki, o, bunu heç hiss eləməmişdi də. Qız bir dəfə də olsun, yerindən qımıldanmamışdı, əlindəki siqaret hələ də tüstülənirdi. Onun rəngi qaçmış, iri, tərpənməz əlləri bişmiş ət kimi cansız idi. Yenə kimsə arxadan Conun çiynindən yapışdı. Bu dəfə yad adam idi. O, Maks çiyin-çiyinə dayanmışdı; hər ikisi Coya baxırdı.

– Uzatma. Əgər qocanın işini bitirmisənsə, elə də de. Bilirsən, belə bir şeyi uzun müddət gizli saxlaya bilməzsən. Uzağı bir ay, ay yarımdan sonra onsuz da hər şey üzə çıxacaq.

– Sizə dedim axı, bilmirəm! – Co dedi. Əsəbi halda, amma hələ qəzəbsiz, gah bunun, gah da onun sifətinə baxa-baxa. – Mən onu vurdum. O da yıxıldı. Ona əvvəlcədən demişdim. Demişdim ki, bir gün öz payını alacaq. – Gah bunun, gah da onun sifətinə baxırdı – hər ikisi sakit, ifadəsiz, demək olar ki, eyni idi. Yad adamın yapışdığı çiynini dartışdırmağa başladı.

İndi də Maks danışırdı.

– Bəs bura niyə gəlmisən?

– Mən niyə... – dedi. – Mən niyə bura... – hirsli baxışlarını bu sifətdən o sifətə keçirə-keçirə öləziyən səslə təkrar etdi, amma hələ ki, qəzəbini boğa bilirdi. – Nə üçün gəlmişəm? Bobbini aparmağa. Siz elə bilirsiniz mən.... mən ki evə, evlənmək üçün pul götürməyə getmişdim... – yenidən onları tamam unutdu, beynindən çıxarıb atdı. İrəli dartınıb, yenə də heç nəyi xatırlamadan, məğrur-məğrur, təntənəylə üzünü qıza sarı çevirdi. Yəqin ki, bu təntənəli an o kişilərin hər ikisini havaya sovrulan bir cüt kağız parçası kimi onun həyatından silib atdı. Yəqin ki, o heç Maksın qapıya tərəf dönüb, kimisə çağırdığını, bir saniyədən sonra sarışın qadının otağa girdiyini də hiss etmədi. Ofisiant qızın başını aşağı salıb hərəkətsiz halda oturduğu çarpayının – qızın üzərinə əyildi, cibindəki kağız, sikkə pulları qamarlayıb çarpayının üstünə tökməyə başladı. – Ala! Buna bax. Bax. Gedib gətirdim. Görürsən?

Sonra isə üç saat bundan əvvəl məktəbdə – görmədiyi, hiss etmədiyi, heyrətdən donub qalmış adamların arasında olduğu kimi külək yenidən onun üstünə hücum çəkdi. Ofisiant qız onu altdan geri itələyib, yerindən sıçrayarkən zərbədən dikəldi; sanki, yarıyuxuluymuş kimi sakitcə dayanıb, qızın əzik-üzük, dağılmış pulları yerdən yığıb onun üzünə necə çırpdığına sakitcə tamaşa elədi; sakitcə qızın qəzəbdən əyilmiş sifətinə, çığıran ağzına, çığıran gözlərinə baxdı. Onların arasında bircə özüözünə sakit, təmkinli göründü; elə təkcə səsi o qədər sakit idi ki, qulağına deyil, beyninə işləyirdi: "Deməli, sən istəmirsən? – o dedi. – Deməli, sən istəmirsən?"

Sanki, məktəbdə baş verənlər təkrar olundu: qızı tutub saxlamışdılar, o isə çığıra-çığıra dartınıb onların əlindən çıxmağa çalışırdı, saçları pırtlaşmış başı dartınıb silkələnirdi, sifəti, hətta ağzı isə əksinə, ölü adamınkı kimi tərpənməz idi.

– Əclaf! Qancıq balası! Gör mənim başıma nə oyun açdın, mən ki sənlə həmişə ağ adam kimi davranmışdım! Ağ adam kimi!

Ancaq bütün bunlar, çox güman ki, hələ də onun üçün adi bir hay-küy idi; bir az uzun çəkən külək vıyıltısı kimi heç cür şüuruna işləmirdi. Sakitcə dayanıb qıza, onun indiyə kimi bu halda görmədiyi sifətinə baxır, ağrılı bir çaşqınlıq içərisində sakitcə danışırdı (ucadanmı, ürəyindəmi – bunu özü də bilmirdi) *Mən ki, ona görə öldürdüm. Hətta pulu da ona görə oğurladım* sanki, bunu elə indicə eşitdi, indicə xəbər tutdu, elə bil, indicə ona dedilər ki, belə bir iş tutub.

Sonra uzun çəkən şiddətli külək o qızı da üçüncü bir kağız parçası kimi onun həyatından sovurub apardı. Qırıq kətil hələ də əlindəymiş kimi, ətrafa əl-qol atmağa başladı. Sarışın qadın artıq çoxdan otaqdaydı. Onu burda ilk dəfə gördü, amma gördüyünə təəccüblənmədi – qadın göyə qalxan ağ polis əlcəyi qədər ehtiram doğuracaq almaz təmkinliyi, heç tükü belə tərpənməyən heykəl duruşu ilə, elə bil, birdən-birə yerin altından peyda olmuşdu. İndi mavi kimono qara yol paltarının üstündən geyilmişdi. O, sakitcə dedi: "Götürün onu. Vaxtdır, gəlin gedək. Tezliklə polislər bura tökülüşəcək. Onlar onu harda axtaracaqlarını yaxşı bilirlər".

Bəlkə də, onun nə dediyini tam eşitmədi, heç ofisiant qızın bağırtısını da: "O özü mənə deyib ki, zəncidi! İt balası! Bu zənci küçüyünü havayıca yaxınına burax, sonra da keç kəndçi polislərin caynağına! Özü də kəndçi rəqs meydançasında". Hələ də kətili əlində sıxıbmış kimi əl-qol ata-ata o iki kişinin üstünə atılanda, bəlkə də, uzun çəkən külək vıyıltısından başqa heç nə eşitmirdi. Çox güman ki, heç onların onun üstünə yeridiklərindən də xəbəri yox idi. Çünki atalığı kimi, hansısa küt bir vəcd içərisində özünü birbaş yad adamın yumruğunun altına verdi. Bəlkə də, nə birinci, nə də ikinci zərbəni hiss etdi, ancaq sifətindən tutan bu iki yumruqdan sonra arxası üstə tirtap yerə düşüb, bir müddət əvvəl özünün vurub aşırdığı adam – atalığı kimi yerindəcə donub qaldı. Şüurunu itirməmişdi, çünki gözləri açıq idi, sakitcə onlara baxırdı. Gözlərində nə ağrı, nə təəccüb, nə də başqa bir şey hiss olunurdu. Amma, deyəsən, yerindən

tərpənə bilmirdi; sadəcə, yerdə uzanıb dərin fikrə dalmış adam tək sakitcə iki kişiyə, bir də tökmə heykəl kimi tərpənməz, hamar, parıltılı sarışın qadına baxırdı. Bəlkə, heç onların səsini də eşitmirdi, eşitsə də bu səslər indi onun üçün bayırdakı cücülərin pəncərədən gələn yeknəsəq, quru vızıltısı kimi heç bir əhəmiyyət kəsb etmirdi:

Bir işə bax – ömrüm boyu arzusunda olduğum bir yer gör necə murdarlandı

O gərək bu cür murdar adamlarla oturub durmayaydı

Necə özünü saxlasın? Özü anadan onlar kimi doğulub

Doğrudanmı o zəncidi? Nəsə heç oxşamır

Gecə Bobbiyə özü deyib bunu. Ancaq elə bilirəm ki, qız da bu barədə heç onun özündən çox bilmir. Bu cür kənd bicəngənələrindən nə desən gözləmək olar

Biz bunu öyrənərik. İndi baxıb görərik, onun qanı qara qanıdı, yoxsa ağ Co sakit, dinməzcə uzanıb, matdım-matdım yad adamın necə aşağı əyildiyinə, onun başını qaldırıb yenə də sifətinə, bu dəfə daha yaxından, daha möhkəm zərbəylə vurduğuna baxdı. Bir qədər sonra isə mətbəxdə qaşıq yalayan körpə uşaq kimi dodaqlarını yaladı. Yad adamın əlini bir daha havaya necə qaldırdığını gördü. Amma o elə orda – havada qaldı.

Bəsdir. Memfisə getmək lazımdı

Qoy birini də ilişdirim Co sakitcə uzanıb o ələ baxırdı. Bu vaxt Maks da yad adamın yanında göründü, o da aşağı əyilmişdi. *Dəqiq bilmək üçün bir az da axıtmaq lazımdı*

Düz deyirsən. Qoy kefini pozmasın. Bu da onun üçün havayı olacaq

Əl onu vurmadı. Sarışın qadın onların yanında göründü. Yad adamın biləyindən yapışıb onu saxladı. *Dedim ki, bəsdir*

10

Bilgi, heç nəyə acımadan, minlərlə amansız, kimsəsiz küçələri yaxşı xatırlayır. Bu küçələr o gecədən – döşəmədə uzanıb son addım səsinin necə kəsildiyini, sonuncu qapının necə örtüldüyünü (onlar heç işığı da söndürmədilər) eşitdiyi, özünün isə hələ də sakitcə, arxası üstə, gözləri açıq halda uzanıb qaldığı, başı üzərində asılmış eyni ahəngdə, eyni şiddətlə yanan darboğaz şüşənin gözünü acıtdığı, sanki, evdə hamının ölmüş olduğu o gecədən başlayırdı. Nə qədər belə, uzanılı qaldığını bilmirdi. Tamamilə heç nə fikirləşmir, heç bir acı çəkmirdi. Bəlkə də, hardasa, içində iradəsi ilə hissiyyatı arasındakı naqilin qırıldığını, onun yenidən hərəkət edə bilməsi üçün bu iki qırıq, yanıb ütülmüş, bir-birindən aralanmış ucun bir-birinə yapışmağa, birləşməyə can atdığını hiss edirdi. Yola çıxmaq üçün son hazırlıqlarını bitirərkən onlar, bir evi həmişəlik tərk edən adamların atıb getmək istədikləri əşyaları ayaqları altında tapdaladıqları kimi hərdənbir onu da tapdalayıb üstündən keçirdilər. *Ey bobbi ey balaca darağın burda qalıb sən*

onu unutmusan bu da bizim romeonun pulcuğazları allah bilir yolda hansı bazar günü məktəbinin kassasını soyub indi onlar bobbinindi bəyəm görmədin özü ona verdi səxavəti gözünə girsin nə deməkdir götür onları qızım hamısını yığışdır hesab elə ki borcunu ödəyib ya da xatirə hədiyyəsi və ya buna bənzər bir şey kimi qəbul elə nədi götürmək istəmir belə de sən bir bədbəxtliyə bax gör nə müşkülə düşmüşük burda atıb getməyəcəyik ki döşəmə çürüyəcək onda deşiklər açılacaq artıq belə bir deşik açılıb, amma o çox böyükdür bu pul ona çatmaz ona ümumiyyətlə heç nə çatmaz ey bobbi ey balaca düz eləyirsən mən özüm onları bobbi üçün götürərəm heç nəyi götürə bilməzsən yəni demək istədim ki yarısını götürərəm bobbi üçün əl vurmayın onlara heyvərələr onlar nəyinizə lazımdı bu onun pullarıdır aman allah pul onun nəyinə gərəkdi o ki hər şeydən pulsuz istifadə edir onlar ona gərək deyil istəyirsən bobbidən soruş gör ona pul lazımdı biz ona nə üçün ödəyək havayı verirlər dedim ki onlara əl vurma mənim deyil ki burda qoyub gedəm bobbinindi sənin ki deyil yoxsa lənət şeytana deyirsən ki onun sənə də borcu qalıb yoxsa məndən xəlvət sən də özünü kredit hesabına ona təslim etmisən dedim ki, onlara əl vurma rədd ol sən də bu nə puldur hərəyə beş-altı dollar ancaq düşər Sonra sarışın qadın onun üstünə əyildi, – bu zaman o, sakitcə qadına baxırdı, – donunun ətəyini qaldırdı, corabının boğazından bir dəstə pul çıxardı, onların arasından bir əskinas götürüb onun şalvarının kiçik saat cibinə soxdu. Sonra qadın yox oldu *tez olun tez olun burdan çıxaq sən özün hələ hazır deyilsən hələ kimononu qatlayıb çamadana qoyacaqsan yaxanı bağlayacaq ən azı bir dəfə də pudralanacaqsan mənim çamadanımı, şlyapamı bura gətir indi get yox sən bobbinin qalan çamadanları götür gedin maşına minin maksla məni orda gözləyin elə bilirsiniz mən sizi burda tək qoyacam ki onun o axırıncı pulunu da əkişdirəsiniz tez olun çıxın burdan*

Sonra onlar çıxıb getdilər: son addım, son qapı cırıltısı. Sonra o, maşın mühərrikinin işə düşdüyünü eşitdi, cücülərin səsi batdı; maşının gurultusu onların vızıltısından daha gur çıxırdı, sonra bərabərləşdi, yavaş-yavaş zəiflədi, axırda yalnız cücülərin vızıltısı qaldı. Lampanın düz altında uzanmışdı. Hələ tərpənə bilmirdi, sadəcə, heç nə görmədən baxır, heç nə anlamadan dinləyirdi; naqilin ucları hələ birləşməmişdi və o, hərdənbir uşaq kimi dodaqlarını yalaya-yalaya sakitcə uzanıb qalmışdı.

Sonra naqilin ucları bir-birinə toxundu, birləşdi. Bunun hansı anda baş verdiyini dəqiq bilmədi, yalnız birdən hiss etdi ki, başı bərk ağrıyır, ehmalca qalxıb oturdu, tədricən özünə gəlib ayağa qalxdı. Başı gicəllənirdi, bütün otaq düşüncələri kimi yavaş-yavaş, yellənə-yellənə başına fırlanırdı; buna görə də düşüncəsi *Hələ yox* dedi. Amma hələ də heç bir ağrı hiss etmirdi, heç zorla kamoddan yapışıb güzgüdə şişkin, qana bulaşmış sifətinə baxmağa, əlini ona toxundurmağa başlayanda da hiss etmədi. “Aman allah, – dedi. – Gör məni nə hala salıblar”. O hələ fikirləşmirdi, hələ şüuruna gedib çatmamışdı *Artıq burdan getmək lazımdı Artıq burdan getmək lazımdı* Qapıya yaxınlaşdı, kor, yaxud lunatik adamlar kimi əllərini irəliyə uzatdı.

Qapıdan necə keçdiyini his etmədən, dəhlizə çıxdı, sonra o biri yataq otağına girdi, yəqin ki, hələ bu barədə fikirləşməsə də, çıxış qapısına doğru getdiyinə ümid edirdi. Bu yataq otağı da darısqal idi. Amma ona elə gəldi ki, sarışın qadın hələ də burdadı, nahamar, darısqal divarlar onun döyüşkən, almaz təmkinli mötəbərliyi önündə şişib dağılır. Çılpaq kamodun üstündə yarım litrlik viski şüşəsi atılıb qalmışdı, demək olar ki, doluydu. Götürüb onu yavaş-yavaş, qurtum-qurtum, heç bir acılıq hiss etmədən içdi, ayaq üstə dura bilmək üçün kamoddan yapışdı. Soyuq, melassa[6] kimi dadsız viski boğazına axdı. Viski şüşəsini yerinə qoydu, kamoda söykənib başını aşağı saldı, heç nə fikirləşmədən, bəlkə, özü də bilmədən gözləməyə başladı; bəlkə də, ümumiyyətlə, heç nəyi gözləmirdi. Sonra içdiyi viski bədənində qızışmağa, özü isə yavaş-yavaş başını bulamağa başladı, içi-içalatı tədricən qızışıb hallandıqca düşüncəsi də o cür yavaş-yavaş hərəkətə gəldi: "Burdan getmək lazımdı". Dəhlizə qayıtdı. İndi beyni aydınlaşmışdı, yalnız bədəni sözünə baxmırdı. Onu bütün dəhliz boyu çıxış qapısına çatanadək birtəhər, divardan tuta-tuta özüylə daşımalı oldu, fikirləşdi: "Hə, tez ol, özünə gəl. Burdan çıxmaq lazımdı". Fikirləşdi *Birtəhər təmiz havaya, soyuğa, sərin qaranlığa çıxa bilsəydim* Əllərilə qapının dəstəyini necə axtardığına tamaşa elədi, onlara kömək etmək, zorla saxlamaq, yönləndirmək istədi. "Yaxşı ki, qapını arxadan bağlamayıblar, – deyə düşündü. – Aman Allah, yoxsa səhərəcən burda qalardım. Bu halda nə pəncərəni açа, nə də bayıra çıxa bilərdim". Axır ki, qapını açdı, bayıra çıxdı, onu arxasınca örtdü, özünə əziyyət vermək istəməyən bədənini bu işə zorla məcbur etdi; tərk edilmiş evdəki iki lampa hələ də tərk edildiklərindən xəbərsiz halda, bir vaxtlar ucuz şəhvani gecələrə, çirkli, bulaşıq stəkanlara, çirkli, minilmiş yataqlara biganə qaldıqları kimi indi də içəridə hökm sürən sakitliyə, boşluğa, bu atılmışlığa biganə halda sakitcə yanırdı. Bədəni bir az özünə gəldi, indi sözünə daha yaxşı qulaq asırdı. Qaranlıq artırmadan keçib ay işığına düşdü; baş-gözü qana bulaşmış, ac mədəsi viskinin dəmindən qızışıb qəddarlaşmış, azğınlaşmış halda, burdan başlayıb düz on beş il davam edəcək küçəyə çıxdı.

Bir müddət sonra içkinin dəmi avazıdı, sonra yenisilə əvəz olundu, yenidən avazıdı, amma küçə bitmək bilmədi. O gecədən başlayaraq yüzlərlə küçə hiss olunmayan döngələri, bir-birini əvəzləyən mənzərələri, cürbəcür dayanacaqları ilə bir-birinə calandı; kimməsə yol yoldaşı oldu, nəyəsə xəlvəti mindi, gah qatarda, gah yük maşınında, gah da arabada elə hey yol getdi; budur, iyirmi, iyirmi beş, otuz yaşında sifətində hələ də daş kimi tərpənməz, qəddar ifadə, çirkli, cırıq da olsa, şəhərli kostyumunda arabada əyləşib, arabaçı isə onun kim olduğunu, hardan gəlib hara getdiyini heç cür kəsdirə bilmir, soruşmağa da cəsarəti çatmır. Küçə onu çəkib özüylə Oklahamaya, Missuriyə, hətta lap cənuba – Meksikaya apardı, ordan da geriyə, şimala – Çikaqoya, Detroyta qaytardı, sonra isə təzədən cənuba və nəhayət, Missisipiyə gətirib çıxardı. Bu küçə düz on beş il uzandı: şəhərlərin vəhşi, iyrənc fasadları arasından keçib getdi; bu

[6] Melassa – qara patka, mət (şəkəri çıxarılmış çuğundur tullantısı)

şəhərlərdə o, əynində heç dəyişmədiyi diaqonal şalvar, ayağında zığa-palçığa bulaşmaqdan qapqara qaralmış yüngül ayaqqabılarla dolaşdı, dəmir boşqablarda bir payı on-on beş dollara alaçiy, boyat xörəklər yedi, onların haqqını iri qurbağa qalınlığında olan, yenə də zığa-palçığa bulaşmış, yağlav əskinas dəstəsindən götürdüyü pullarla ödədi; bu pul dəstəsi onun dəyərini müəyyənləşdirən qızılın özü kimi, sanki, bitməz-tükənməz bir şeydi. Bu küçə sapsarı buğda tarlalarından keçib getdi; burada sapsarı qızmar iş günlərini adamın ətini ürpəşdirən ulduzlu sentyabr gecələrinin som-soyuq sərsəm ay işığı altında, saman tayalarında ağır, daş kimi yuxular əvəz elədi: o, qara fəhlə, şaxtaçı, qızılaxtaran, qumarxana carçısı oldu; orduya yazıldı, dörd ay qulluq elədi, sonra ordan da qaçdı, bir daha ələ keçmədi. Bu küçə hökmən, gec ya tez, adlarını belə yadında saxlaya bilmədiyi şəhərlərdən, onların bir-birindən seçilməyən məhəllələrindən keçdi, bu məhəllələrdə o, gecəyarısının qaranlıq, şübhəli künc-bucaqlarında qadınlarla yatdı, pulu olanda haqlarını verdi, olmayanda, dəxli yoxdu, yenə də onlarla yatdı, sonra isə onlara zənci olduğunu dedi. İlk vaxtlar, o hələ Cənubda olanda bu fənd yaxşı işləyirdi. Hər şey ona asan, rahat başa gəlirdi. Yalnız bircə qorxusu vardı: buna görə ya yatdığı qadın, ya da onun dəllalı olan qadın onu söyüb batıra bilərdi; hərçənd elə hallar da olmuşdu ki, digər müştərilər onu bəsdi deyincə döyüb əzişdirmişdilər və o, bir də özünə hardasa küçədə, ya da həbsxanada gəlmişdi.

Neçə ki Cənubdaydı (nisbi mənada), bu fəndi alınırdı. Amma bir dəfə işləmədi. Yenə də yataqdan qalxanda yatdığı qadına zənci olduğunu dedi. “Nə olsun, – qadın təəccübləndi. – Mən də elə bilirəm ki, yenə italyana-zada rast gəlmişəm”. Laqeydcəsinə ona baxdı; sonra, yəqin ki, sifətində nəsə görüb dedi: “Nə olsun zəncisən? Çox normal görkəmin var. Heç bilirsən səndən əvvəl necə qapqarasın yola salmışam!” Qadın ona baxdı. Bu dəfə yerindəcə donub qaldı. “Bura bax, nədi, bilmirsən hara düşmüsən? Bəyəm bura sənin üçün “Rits” oteli-zaddı?” Dərhal da səsini kəsdi. Qadın indi onun sifətinə baxırdı; sonra gözünü ondan çəkmədən dalın-dalın geri çəkilməyə başladı, bənizi ağarmış, ağzı açıla qalmışdı, sanki, qışqırmaq istəyirdi. Sonra qışqırdı. Onu tutub saxlaya bilmək üçün isə iki polis nəfəri lazım oldu. Polislər əvvəlcə elə güman etdilər ki, qadın ölüb.

Bundan sonra ürəyi bulandı, özünü çox pis hiss elədi. Əvvəllər o, ağlına da gətirməzdi ki, qara dərili kişilərlə yatan ağdərili qadınlar da var. Düz iki il özünü beləcə, pis hiss elədi. Bəzən o, min bir kələk, min bir atmaca ilə ağları ona “zənci” deməyə necə məcbur etdiyini, onları əzişdirdiyini və yaxud özünün əzişdirildiyini xatırlayırdı; indi isə onu “ağ” adlandıran zənciylə dalaşmışdı. İndi o, Şimalda yaşayırdı – əvvəlcə Çikaqoda, sonra isə Detroytda. Zəncilərlə yaşayır, ağlardan uzaq qaçırdı. Zəncilərlə yeyib-içir, zəncilərlə yatıb-dururdu - davakar, özünəqapalıydı, ondan nə desən gözləmək olardı. İndi gününü zənci qadınla keçirirdi, bu qadını, elə bil, qapqara ağacdan yonmuşdular. Gecələr onunla yanaşı uzananda yuxusu qaçır, birdən ağır-

ağır, dərindən nəfəs alıb-verməyə başlayırdı. Bunu qəsdən eləyirdi və hər dəfə nəfəsini içəri çəkəndə zəncilərin qara iyini, qara, dərkedilməz düşüncəsini, qara varlığını öz canına hopdurmağa, nəfəsini bayıra buraxanda isə ağ qanını, ağ düşüncəsini, ağ varlığını canından qovub çıxarmağa çalışan ağ sinəsinin necə möhkəm qalxıb-endiyini duyur, hətta gözlərilə görürdü. Ancaq bu zaman canına çəkməyə, özü üçün doğmalaşdırmağa çalışdığı o iyin təsirindən burun pərləri bomboz bozarıb şişir, cismani nifrət və ruhi inkar bütün varlığını qıc vəziyyətə salırdı.

Fikirləşirdi ki, özündən deyil, tənhalıqdan qaçıb yox olmağa çalışır. Küçə isə hələ də uzanıb gedirdi: pişik kimi onun üçün də hər yer eyni idi. Bu yerlərin heç birində dinclik tapa bilmirdi. Dövranlar, əhvallar dəyişə-dəyişə küçə hələ də uzanıb gedir, həmişə də kimsəsiz, bomboş görünürdü: o özünü sükut içərisində daim hərəkətə məhkum, gah söndürülən, gah da yenidən alovlandırılan ümidsizliyin cəsarəti, yaxud gah söndürülməsi, gah da alovlandırılması lazım gələn cəsarətin ümidsizliyi tərəfindən qaçarağa götürülən saysız-hesabsız avatarlar[7] kimi də görə bilərdi. Artıq otuz üç yaşına çatmışdı.

Bir axşam üstü küçə Missisipidə bir əyalət yoluna çevrildi. Kiçik bir şəhərin yaxınlığında onu Cənuba gedən yük qatarından yerə düşürdülər. Bu şəhəri tanımırdı; adının nə olduğu da onu maraqlandırmırdı. Bir də ki, o heç bu şəhəri görmədi də. Meşə ilə onun ətrafına dolandı, sonra yola çıxdı, onun sağına, soluna baxdı. Yol adi, torpaq yol idi, amma işlək olduğu aydın görünürdü. Yol boyu adda-budda bir neçə zənci daxması səpələnmişdi, sonra isə təxminən, yarım mil aralıda böyük bir ev gözünə dəydi. Sıx ağac kollarının arasından dikələn bu ev, görünür, bir vaxtlar zənginlikdən xali olmamışdı. Amma indi ağac kollarının arıtlanmağa, budanmağa ehtiyacı vardı, evin özü isə neçə illərdi ağardılmamışdı. Lakin aydın görünürdü ki, evdə yaşayan var, o isə son iyirmi dörd saat ərzində heç nə yeməmişdi. “Bu ev, yəqin ki, işə yarayar,” – deyə o düşündü.

Gün artıq batmağa hazırlaşsa da, ora dərhal getmədi. Arxasını evə tərəf çevirib, əynində kirli ağ köynək, bomboz bozarmış diaqonal şalvar, ayağında toz-torpağa batmış cırıldayan şəhər ayaqqabıları, başında şəstlə gözünün üstünə basdığı mahud kepka, üzündə üç günün qırxılmamış tükü əks istiqamətə yollandı. Amma bu görkəmdə o heç də avaraya oxşamırdı-hər halda, qarşıdan gələn, əlindəki vedrə tez-tez dizinə ilişən zənci oğlan uşağı onu avaraya bənzətmədi. Oğlanı saxlayıb sorğu-suala tutdu.

– Bax orda, o böyük evdə kimlər yaşayır? – ondan soruşdu.

– Orda, miss Berdenin evindəmi?

– Missis Berdenin əri var?

---

[7] Avatar – induizmə görə, allahların təcəssüm etməsi, onların hansısa bir məxluq cildində Yer üzərinə enməsi

– Yox, ser. Onun əri yoxdur. Orda ondan başqa heç kim yaşamır.

– Hə-ə. Yəqin, qoca qarıdır.

– Yox, ser. Miss Berden qoca deyil. Amma cavan da deyil.

– Deməli, orda tək yaşayır. Bəs qorxub eləmir?

– Bu şəhərdə ona kim pislik eləyəcək? Qonşuluqdakı qaradərililər həmişə onun qeydinə qalırlar.

– Qaradərililər onun qeydinə qalır?

Bu anda oğlan uşağı, sanki, özü ilə onu sorğu-suala tutan kişi arasındakı qapını örtdü.

– Axı burda ona kim pislik eləyəcək? O ki heç kimə pislik eləmir.

– Yəqin ki, elədi, – Kristmas dedi. – Bu yolla getsəm, o biri şəhər çox uzaqdadı?

– Deyillər ki, otuz mil olar. Siz ki bu qədər yolu piyada getməyəcəksiniz, elə deyil?

–Yox, – Kristmas dedi. Sonra dönüb yoluna davam elədi. Zənci oğlan onun arxasınca baxdı. Sonra o da dönüb, əlindəki vedrə bozarmış şalvarına dolaşa-dolaşa öz yoluyla getdi. Bir qədər gedəndən sonra dönüb geriyə baxdı. Onu sorğu-suala tutan adam xeyli aralanmışdı, amma o qədər də yeyin yerimirdi. Rəngi bozarmış, yamaqlı, dar pencək geyinmiş zənci oğlan təzədən yoluna davam etdi. Ayaqları yalın idi. Bir az getdikdən sonra yolundan qalmadan atdanıb-düşməyə başladı, şokolad rəngli, sümükləri çıxmış topuqlarının, gödək, bomboz bozarmış şalvarının ətrafını qıpqırmızı toz dumanı bürüdü; ritmə, musiqi təqtinə uyğun, amma motivsiz bir notda mızıldandı:

Demə ki, bacarmaram,
Bəs kim bacara bilər?
Ağ qız istəyir könlün,
Başdan keçəsən gərək.

Kristmas evdən yüz yard aralıda, kolluqda uzanıb əvvəlcə saatın doqquzu, sonra da onu vurduğuna qulaq verdi. Ağaclığın arasından dikələn kvadrat formalı nəhəng ev gözləri önündə səyriyirdi. Yuxarıdakı pəncərədən işıq gəlirdi. Pəncərənin tayları açıq olduğundan içəridə ağ neft çırağının yandığını, arabir uzaq divara düşən adam kölgəsini aydın görürdü. Amma adamın özünü bircə dəfə də olsun aydın görə bilmədi. Bir müddət keçəndən sonra çırağın işığı söndü.

Ev qaranlığa büründü; bir daha o tərəfə baxmadı. Kolluqda qaranlıq torpağın üstündə üzüqoylu uzanmışdı. Önündəki kolluğu zil qaranlıq bürümüşdü; bu müdhiş, qatı, soyuq, min bir düşüncəli qaranlıq onun köynəyinin, şalvarının içinə soxulurdu, sanki, günəş işığı kolluqların arasında azıb qalmış bu nəmişli havaya heç zaman toxunmamışdı. O, günəş şüasının nə olduğunu bilməyən nəm torpağın əynindəki paltarın altından yavaş-yavaş paçasının arasına, yanbızlarına,

sinəsinə, sonra da çiyinlərinə doğru necə acgözlüklə qalxdığını hiss etdi. Alnını çarpaz qollarının üstünə dirədi, burun pərlərinə münbit, qapqara torpağın kəskin iyi doldu.

Bir az aralıda qaralan evə tərəf bircə dəfə də olsun baxmadı. Bir saatdan artıq kolluqda hərəkətsiz halda uzanıb qaldı və yalnız bundan sonra qalxıb ordan çıxdı. Gizlənib eləmədi. Evə xəlvətcə yaxınlaşmadı, o qədər də ehtiyatlı olmağa çalışmadan birbaş ona tərəf yollandı. Sadəcə, təbii yerişiymiş kimi addımlarını ehmalca ata-ata artıq siluet cizgiləri də qaranlığa bürünən evin başına dolanıb, onun arxa tərəfinə keçdi: mətbəx burda olmalıydı. İşığı sönmüş pəncərənin altında ayaq saxlayıb içəri boylanarkən saldığı səs pişiyin saldığı səsdən yüksək olmazdı. Onun addım səslərini duyan kimi aşağıda, ayağının altındakı otların arasında dərhal səslərini kəsib onu kiçik bir sükut adasıyla-öz zəif səslərinin yüngül sarı kölgəsi ilə dövrəyə alan mığmığalar yenidən vızıldaşmağa başladılar və o, yoluna davam edəndə elə o cür də zəif, həssas işbirliyi ilə səslərini kəsdilər. Evin arxa tərəfində ona bitişik birmərtəbəli, balaca bir fligel[8] vardı. "Mətbəx bu olmalıdı, – o fikirləşdi. – Elədi, özüdü ki var". Səsini içinə udmuş cücülərin yaratdığı adayla birlikdə sakitcə ona yaxınlaşdı. Mətbəx binasının divarında qapı aydın seçilirdi. Əgər o qapını itələsəydi, açıq olduğunu görərdi. Ancaq itələmədi. Onun yanından keçib, pəncərənin altında dayandı. Oraya qalxmamışdan əvvəl, lap yuxarıdakı işıqlı pəncərənin torsuz olduğunu xatırladı.

Mətbəx pəncərəsi də bağlı deyildi, hətta açıq qalsın deyə arasına taxta parçası da qoymuşdular. "Bunu necə başa düşmək olar?" – o düşündü. Əllərini pəncərənin alt taxtasının üstünə qoyub, rahatca nəfəs ala-ala, heç nəyə qulaq kəsilmədən, heç yerə tələsmədən – sanki, bu dünyada harasa tələsməyə heç bir lüzum yoxmuş – onun önündə dayanıb qaldı. "Hə-əəəə... Di gəl bunu başa düş. Hı-ıım..." Sonra pəncərəyə qalxdı; bilinməzliyin və qara zülmətin ilkin bətninə səssizcə və hərəkətsiz qayıdan kölgə kimi birdən sorulub qaranlıq mətbəxin içinə düşdü. Bəlkə də bu anda o, haçansa gecələr xəlvətcə girib-çıxdığı pəncərə barədə, ora girib-çıxarkən güvəndiyi kəndir barədə düşündü; bəlkə də, düşünmədi.

Yəqin ki, düşünmədi – fürsət anında başqa heç bir pəncərə barədə düşünməyən pişik kimi düşünmədi. Pişik kimi o da, elə bil, qaranlıqda görürdü, heç bir səhvə yol vermədən birbaş düz yemək olan yerə getdi, sanki, onun harda olduğunu qabaqcadan bilirdi, ya da bunu qabaqcadan bilən hansısa bir qüvvə onu ora apardı. Görünməyən boşqabdan görünməyən əllərilə görünməyən yeməyi yedi. Yediyinin nə olduğuna tamam biganə idi. Heç nə hiss elədiyini, hansı yeməyin dadını xatırlamağa çalışdığını da dərk etmirdi; birdən çənəsi çeynəməyə ara verdi və düşüncəsi, acı məğlubiyyətlərə, bundan da acı qələbələrə şahid olmuş, adi, nəzərə çarpmayan tin və döngələrdən yan keçib, iyirmi beş il əvvələ, küçəyə qayıtdı; dəhşətli ilk məhəbbət dövründə, indi adını belə xatırlamadığı o qızı dayanıb gözlədiyi tindən də beş mil geriyə sıçradı, hətta ondan da beş mil o yandakı tində nəfəsini dərdi *İndi biləcəm. Mən əvvəllər hardasa belə bir şey yemişəm.*

---

[8] – ə ı ı ə ə ə ə

İndi bu dəqiqə biləcəm və yaddaş işə düşdü, tanıdı *bilirəm bilirəm nəinki bilirəm hətta eşidirəm eşidirəm başımı aşağı əyib yeknəsəq nəsihətcil səsi dinləyirəm elə bil bu səs heç vaxt bitmək bilməyəcək elə hey bu cür donquldanacaq və gözümün ucuyla baxıb tərs inadkar yumru başı küt enli saqqalı görürəm onlar da aşağı əyilib mənsə düşünürəm ki Axı bu adam bunları yeməkdən özünü necə saxlaya bilir və ağzımın iyini duyuram dilim intizarın isti duzuyla ağlayır gözüm boşqabdan qalxan isti buğun dadına baxır* "Noxuddu – o, ucadan dedi. – Aman Allah, melassayla bişirilmiş çöl noxududu".

Deyəsən, keçmişə təkcə düşüncəsi qayıtmamışdı, yoxsa səsi daha əvvəl eşidərdi; çünki onu çıxaran kəs də, bayaq o özü pəncərənin qabağında heç nədən ehtiyatlanmadığı kimi, səs salmamağa, gizlincə yaxınlaşmağa çalışmamışdı. O, bəlkə də, bu səsi eşitmişdi. Ancaq sürütmə geyinmiş ayaqların yumşaq addım səsləri ev tərəfdən yavaş-yavaş mətbəxə yaxınlaşanda onun heç tükü də tərpənmədi; sonra qəfil geri çevriləndə bir andaca bərələn gözlərilə iç qapıdan ona tərəf yaxınlaşan zəif işığı gördü. Açıq mətbəx pəncərəsi lap yaxındaydı, bir-iki addıma dərhal bayıra sıçraya bilərdi, amma yerindən tərpənmədi. Heç əlindəki boşqabı da yerə qoymadı. Hətta çeynəməyinə də ara vermədi. Qadın qapıdan içəri girəndə əlində boşqab otağın tən ortasında dayanıb, ağzındakı yeməyi çeynəyirdi. Qadının əynində solğun xələt vardı, əlindəki şamı xeyli hündürdə tutduğu üçün işıq düz onun sakit, ciddi, heç bir təlaş keçirməyən sifətinə düşürdü. Zəif şam işığında ona otuz – otuz bir yaş ancaq vermək olardı. Qapının ağzında dayanmışdı. Bir dəqiqədən də çox beləcə, demək olar ki, eyni pozada dayanıb – birinin əlində boşqab, o birininkində isə şam – bir-birinə baxdılar. Co çeynəməyinə ara verdi.

– Əgər sizə, sadəcə, yemək lazımdısa, onu burda tapa bilərsiniz, – qadın çox quru, sakit, asta səslə dedi.

11

Gecə yatmaq üçün soyunmuş qadının yarıçılpaq bədəninə yuxarıdan düşən zəif, yumşaq şam işığında baxanda ona otuz – otuz bir yaş ancaq vermək olardı. Onu gündüz işığında görəndə isə Co anladı ki, otuz beşi çoxdan haqlayıb. Sonralar qadın özü dedi ki, qırx yaşı var. "Elə dedi ki, onu qırx bir kimi də, qırx doqquz kimi də anlamaq olar", – Co fikirləşdi. Ancaq bu, elə ilk gecədə baş vermədi; o qadın neçə yaşı olduğunu ona deyənəcən neçə-neçə bu cür gecələr ötüb keçdi.

Qadın, ümumiyyətlə, ona az şey danışırdı. Hətta Co onun qarımış qız yatağının daimi müsafirinə çevrildikdən sonra belə, onlar çox az, təsadüfdən-təsadüfə danışırdılar. Bəzən ona elə gəlirdi ki, onlar, ümumiyyətlə, danışmırlar və o, bu qadını qətiyyən tanımır. Sanki, o, iki qadınla üzləşmişdi: biri gündüzlər hərdənbir gördüyü, bir-iki kəlmə kəssə də, düz-əməlli

danışmadığı, o biri isə birlikdə yatdığı, amma gözü ilə görmədiyi, bir kəlmə belə kəsmədiyi qadın idi.

Hətta bir il keçəndən sonra da (artıq yonqar sexində işləyirdi), o bu qadını gündüzlər yalnız şənbə günləri işdən sonra və bazar günləri, ya da qadının onun üçün hazırlayıb, mətbəx masasının üstündə saxladığı yeməyin dalınca evə gəlməyə imkan tapdığı vaxtlar görürdü. Bəzən qadın özü də mətbəxə düşərdi, amma heç vaxt o yeyib qurtaranacan orda qalıb gözləməzdi; bəzən isə xüsusən də daxmada yaşadığı vaxtlar, ilk dörd-beş ay ərzində qadın onu arxa tərəfdəki artırmada qarşılayardı; onlar orada dayanıb, demək olar ki, bir-birlərini tanımayan adamlar kimi söhbət edərdilər. Həmişə də ayaq üstə olardılar: qadın özünün, görünür, çoxsaylı, tərtəmiz, çit ev donlarından birində, bəzən də başına bağladığı kənd yaylığında, o isə artıq tər-təmiz ağ köynəkdə və hər həftə ütülənən diaqonal şalvarda olardı. Heç vaxt danışmaq, söhbət eləmək üçün bir yer tapıb əyləşməzdilər. Co onu oturulu halda yalnız bircə dəfə görmüşdü, o da bir dəfə birinci mərtəbədəki pəncərədən içəri boylanarkən qadının orda əyləşib nəsə yazdığını görərkən olmuşdu. Bu qadının poçtla çoxlu məktub alıb göndərdiyini, hər səhər vaxtının bir qismini birinci mərtəbədəki, demək olar ki, yaşanmayan, mebeldən kasad otaqlardan birində üstü sürtülüb solmuş, cızıq-cızıq olmuş yazı masasının arxasında tələm-tələsik nəsə yazmaqla keçirdiyini heç bir maraq göstərmədən öyrənib biləndən düz bir il sonra isə onun əlliyə qədər ünvandan şəxsi və işgüzar sənədlər aldığından, direktorlara, qəyyumlara, müəllimlərə işgüzar, maliyyə yönümlü, dini məsləhətlər, tələbə qızlara, hətta Cənubdakı onlarla zənci kollecinin məzun qızlarına şəxsi və praktik məsləhətlər göndərdiyindən xəbər tutmuşdu. Qadın bəzən üç-dörd günlüyünə evdən yoxa çıxır, harasa qeyb olurdu; ürəyi istədiyi vaxt gecə onunla görüşə bilsə də, yoxa çıxdığı zamanlar onun məktəbləri ziyarət etdiyini, müəllimlərlə, şagirdlərlə görüşdüyünü yalnız bir ildən sonra aydınlaşdıra bilmişdi. Memfisdə qadının bütün işlərilə bir zənci vəkil məşğul olurdu; o, bu şəhərdəki məktəblərdən birinin qəyyumlar şurasının üzvüydü və qadının vəsiyyətnaməsindən əlavə onun ölümündən sonra cənazəsinin harda, necə dəfn olunması barədə öz əliylə yazdığı təlimatı da buradakı seyfdə saxlayırdı. Bunu biləndən sonra şəhərin ona münasibətini anladı, hərçənd onu da yaxşı başa düşürdü ki, şəhər bu qadın haqqında onun özündən də az şey bilir. Öz-özünə dedi: “Deməli, burda mənə dəyib-toxunan olmaz”.

Bir dəfə ağlına gətirdi ki, qadın bircə dəfə də olsun onu evə dəvət etməyib. O, bircə dəfə də olsun mətbəxdən o yana keçməyib; mətbəxə isə artıq özündən razı halda, dişlərini ağarda-ağarda girir, girərkən də düşünürdü: “O artıq məni buraya buraxmaya bilməz. Özü də bunu yaxşı bilir”. Elə mətbəxə də gündüzlər yalnız qadının onun üçün hazırlayıb masanın üstünə qoyduğu yeməyə görə gedirdi. Gecələr evə girəndə isə hər dəfə birinci gecəki hala düşürdü: hətta qadın onu gözləsə belə, yataq otağına qalxarkən özünü oğru, qarətçi kimi hiss edirdi. Hətta bir il keçəndən sonra da o bu qadının yanına elə girirdi ki, elə bil, hər dəfə onu yenidən qızlıqdan məhrum

edəcəkdi. Elə bil, hər növbəti gecə qəsdən bu qadını artıq çoxdan məhrum etdiyi, yaxud edə bilmədiyi və heç zaman da edə bilməyəcəyi şeydən yenidən məhrum olmaq məcburiyyəti qarşısında qoyurdu.

Bəzən o bu barədə düşünür, bu qadının ilk gecəki əyilməz, göz yaşının, şikayətlənməyin nə olduğunu bilməyən, az qala, kişi təslimini xatırlayırdı. Uzun illərin qəlb yalqızlığı axırda ona gətirib çıxarmışdı ki, bu qadının özünüqoruma instinkti onun qadın xislətini qurban vermiş, ona cismani kişi möhkəmliyi, kişi mətinliyi aşılamışdı. Şəxsiyyət ikiləşmişdi: bir tərəfdən, bu qadını yuxarı qaldırılmış şam işığında ilk dəfə görəndə (bəlkə də, sürütməli ayaqların yaxınlaşmaqda olan addımlarının səslərini ilk dəfə eşitdiyi anda) onun gözləri önündə dərhal, bir andaca, şimşək çaxarkən birdən aydınlanan peyzaj kimi, ləzzətli, nəşəli, əgər belə deyildisə, ən azı, münasib sığınacaq və asan ov mənzərəsi açılmışdı, digər tərəfdən isə irsən keçən, həm də yaşadığı mühitin yetişdirdiyi elə bir kişi əzələsi, elə bir kişi düşüncə tərzilə rastlaşmışdı ki, onunla ölüm-dirim savaşı aparmağa məcbur idi. Bu qadında qadın qətiyyətsizliyi, öz istəyini, əzəl-axır təslim olmaq niyyətini gizlədən, ört-basdır edən utancaqlıq xisləti yox idi. Ona elə gəlirdi ki, bu qadın onunla – kişiylə, hər ikisi üçün heç bir dəyəri olmayan, lazımsız bir əşya üstündə, yalnız prinsip xatirinə mübarizə aparır.

Növbəti dəfə onu görəndə fikirləşdi: "İlahi. Mən qadınlar haqqında nə qədər az şey bilirəm, amma elə bilirdim onları yaxşı tanıyıram". Bu elə səhəri gün baş verdi: ona baxa-baxa, onu dinləyə-dinləyə, yaddaşın artıq on iki saatdır bildiyi şeyi təsəvvürünə belə gətirə bilmədi, düşündü *Onun paltarının altda elə bir şey ola bilməz ki, bu baş versin* Onda hələ yonqar sexində işləmirdi. Demək olar ki, bütün günü qadının onu buraxdığı komada, damağında siqaret, qollarını başının altında çarpazlamış halda çarpayıda uzanıb qalmışdı. "İlahi, – o fikirləşdi, – elə bil, qadın mən idim, kişi o". Əslində heç də tam mənada elə deyildi. Çünki qadın son anadək müqavimət göstərmişdi. Amma bu müqavimət qadın müqaviməti, yəni gerçək olduğu təqdirdə heç bir kişinin qıra bilməyəcəyi müqavimət deyildi; zira qadınlar fiziki döyüş qaydalarına heç vaxt riayət etmirlər. Bu qadın isə ciddi şəkildə, bütün döyüş qaydalarına uyaraq müqavimət göstərirdi; o qaydalara ki, onlar döyüşün müəyyən məqamında bir tərəfi, – həmin tərəf hələ də müqavimət göstərməyə davam edib-etməsə belə – məğlub elan edir. O gecə işığın mətbəxdən yoxa çıxıb, sonra qadının yataq otağında peyda olduğunu görənəcən gözlədi. Birbaş evə yollandı. Ora şiddətli ehtiras deyil, sakit bir qəzəb içərisində getdi. "Mən indi ona göstərərəm", – ucadan dedi. Heç ehtiyatla, xəlvət yeriməyə də çalışmadı. Sırtıq bir ədayla evə girib, pilləkənlərlə yuxarı qalxmağa başladı; qadın onu dərhal eşitdi. "Kimdi?" – dedi. Ancaq səsində həyəcan, tələş hiss olunmadı. Cavab vermədi. Pilləkənlərlə yuxarı qalxıb otağa girdi. Qadın hələ paltardaydı, o, içəri girəndə üzünü qapıya tərəf çevirdi. Amma heç nə demədi. Yalnız ona baxdı, o isə masaya tərəf gəldi, üfürüb çırağı söndürəndə fikirləşdi: "İndi qaçacaq". Qabağını kəsmək üçün dərhal

qapıya tərəf atıldı. Ancaq qadın qaçmadı. Qaranlıqda onu bir az əvvəl, işıq yanarkən olduğu yerdə, eyni vəziyyətdə tapdı. Paltarlarını dartıb cırmağa başladı. Kal, boğuq səslə onun üstünə bağırdı: "Mən indi sənə göstərəcəm! Göstərəcəm qancıq!" Qadın dartınıb ondan qurtulmağa çalışmadı. Əksinə, bəlkə də, son anda, ehtiyac yaranan kimi qıçlarının vəziyyətini azacıq dəyişməklə ona kömək də etdi. Ancaq zorla qucaqladığı bədən onun barmaqları altında hələ tam soyumamış meyit kimiydi. Buna rəğmən onu buraxmadı; və əgər əlləri bu bədəni hələ də vəhşi kimi, kobudluqla xıncım-xıncım sıxıb-əzişdirirdisə, yalnız qəzəbdən belə eləyirdi. "Axır ki, heç olmasa mən onu qadın elədim, – o düşündü. – İndi məndən zəhləsi gedəcək. Heç olmasa bunu ona öyrətdim".

Növbəti gün yenə komadan çıxmadı, bütün günü yataqda uzanıb qaldı. Heç nə yemədi; qadının ona yemək saxlayıb-saxlamadığını öyrənmək üçün mətbəxə də getmədi. Günəşin batmağını, qaranlığın çökməsini gözlədi. "Günəş batan kimi burdan əkilərəm", – deyə o düşündü. Fikirləşdi ki, bir də onu görməyəcək. "Yaxşısı budu özüm burdan çıxıb gedim, – o düşündü. – Ona elə bir fürsət vermək lazım deyil ki, özü məni bu komadan qovsun. Heç olmasa buna imkan verməməliyəm. Hələ elə hal olmayıb ki, ağdərili qadın məni haradansa qovsun. Tək bircə dəfə qaradərili qadın məni bayıra atıb, qovub". Beləcə, çarpayıda uzanıb, ağzındakı siqareti tüstülədə-tüstülədə günəşin batmağını gözləyirdi. Açıq qapıdan günəşin aşağı endiyini, kölgələrin getdikcə uzanaraq mis rəngə çaldığını görürdü. Sonra mis rəngi qatılaşan toranlıqda yavaş-yavaş yox olub, bənövşəyiyə çevrildi. Qurbağaların səsini eşitdi, qaranlıq qatılaşdıqca daha aydın görünən işıldaquşlar açıq qapının önündən uçub keçdilər. Sonra yerindən qalxdı. Olan-qalanı bircə ülgücdən ibarət idi, onu da cibinə soxdu, artıq yola çıxmağa – istər uzunluğu bir mil, istərsə də min mil olsun, – döngələri gözlə görünməyən bu küçə onu hara aparacaqdısa ora getməyə hazır idi. Ancaq birbaş evə yollandı. Elə bil, ayaqlarının onu ora aparmaq istədiyini dərhal hiss etmiş, bu istəyə güzəştə getmiş, təslim olmuşdu *Yaxşı Yaxşı* fikirləşə-fikirləşə qaranlıqda buxarlanıb evə, arxa artırmaya, oradakı heç vaxt bağlı olmayan qapıya doğru getdi. Ancaq dəstəyi özünə tərəf çəkəndə qapı açılmadı. İlk anda əli də, özü də buna inana bilmədi; sakitcə dayanıb hələ heç nə fikirləşmədən əlin dəstəyi necə dartışdırdığına tamaşa etdi, cəftənin cırıltısını dinlədi. Sonra sakitcə geri döndü. Hələ qəzəb onu çulğamamışdı. Mətbəx qapısına doğru yollandı. Bu qapının da bağlı olacağına ümid edirdi. O qapının bağlı olmasını istədiyini yalnız açıq olduğunu görəndə dərk etdi. Bunu özü üçün təhqir saydı. Sanki, ayaq altına salıb tapdalamağa, rüsvay etməyə çalışdığı bir düşmən dimdik, sağ-salamat önündə dayanıb, fikirli halda, kinli-kinli, nifrətlə onu süzürdü. Mətbəxə girən kimi evə açılan iç qapıya – birinci gecə qadının əlində şam önündə dayandığı qapıya tərəf getmədi. Birbaş qadının ona yemək saxladığı masaya yaxınlaşdı. Görməyə ehtiyac yox idi. Əlləri özü görürdü; boşqablar hələ ilıq idi; fikirləşdi *Zənci üçün yal saxlayıb. Zənci yalı.*

Əlini, sanki, uzaqdan izləyirdi. Əlin boşqabı masanın üstündən necə götürdüyünə, yuxarı, başı üstə necə qaldırdığına göz qoydu; özü isə dərindən, ağır-ağır nəfəs alaraq gərgin halda düşüncəyə daldı. Oyun oynayırmış kimi bərkdən çıxan səsinə qulaq verdi: "Donuz qaxacıdı", – əlinin yuxarı, başı üstə qaldırdığı boşqabı var gücüylə divara, gözə görünməyən divara necə çırpdığına tamaşa elədi; bu şaqqıltının kəsilməsini, yenidən sükut çökməsini gözlədi, sonra o birisini götürdü. Onu da iyləyib, əlilə ağırlığını yoxladı. Bu dəfə boşqabdakının nə olduğunu tapa bilmək üçün özünü o qədər də əziyyətə salmadı. – Lobyadı, yoxsa göyərti? – dedi. – Lobyadı, yoxsa ispanaq?.. Yaxşı. Hesab edək ki, lobyadı. – Var gücü ilə onu da divara çırpdı, sonra şaqqıltı tamam kəsilənəcən gözlədi. Üçüncü boşqabı götürdü. – Nəsə soğanlı şeydi, – dedi, fikirləşdi *Amma əladı. Bu mənim əvvəlcə niyə ağlıma gəlməyib?* Arvad yemidi, – dedi. Onu da var gücüylə, tələsmədən divara çırpdı, şaqqıltıya qulaq verdi, gözlədi. Sonra başqa bir səs eşitdi: ev tərəfdən qapıya yaxınlaşan addım səsi. "Bu dəfə əlində çıraq gələcək", – deyə fikirləşdi, bir anlığa ağlından keçdi *Əgər dönüb baxsaydım, qapının altdan işıq düşdüyünü görərdim* Əli isə bu vaxt daha bir boşqabı var gücüylə divara çırpdı *İndi o yəqin lap qapının ağzındadır* Kartofdu, – axır ki, qətiyyətlə dedi. Hətta qapı arxasındakı cəftənin necə açıldığını eşidəndə, işığın içəri düşüb başı üzərinə qaldırdığı boşqabı aydınladanda belə dönüb o tərəfə baxmadı. – Hə, bu, kartofdu, – o, başı özünə qarışmış halda, ətrafındakılara fikir vermədən öz-özüylə oynayan körpə uşaq kimi dedi. Bu dəfə boşqabın necə qırıldığını həm eşitdi, həm də gördü. Sonra işıq yoxa çıxdı; yenə qapının əsnəyi eşidildi, yenə cəftə cırıldadı. Amma yenə də dönüb baxmadı. Növbəti boşqabı götürdü. – Çuğundurdu, – dedi. – Dəxli yoxdu, onsuz da çuğunduru sevmirəm.

Ertəsi gün yonqar sexində işə düzəldi. İşə cümə günü çıxdı. Çərşənbə gecəsindən bəri heç nə yeməmişdi. Şənbə günü yalnız günün ikinci yarısını normadan əlavə işlədikdən sonra axşamüstü məvacib aldı. Elə həmin axşam şəhər restoranında, üç gün ərzində ilk dəfə olaraq yemək yedi. Daha evə ayaq basmırdı. İlk vaxtlar nə daxmaya gələndə, nə də ondan çıxanda bir dəfə də olsun dönüb o tərəfə baxmırdı. Altı ay ərzində daxma ilə sex arasına öz cığırını saldı. Bu cığır sapla çəkilmiş düz xətt kimi bütün binalardan yan keçib, dərhal meşəyə girir, ordan çıxan kimi birbaş onun iş yerinə, yonqar topalarının yanınacan uzanırdı və getdikcə də daha aydın seçilirdi. Saat beş otuzda, iş vaxtının bitdiyini bildirən sex fiti çalınanda o cığırla öz daxmasına qayıdır və sonra şam eləmək üçün şəhərəcən iki mil yolu dəf etməmişdən qabaq hökmən ağ köynəyini, qara ütülü şalvarını geyinirdi; sanki, iş paltarından utanırdı. Bəlkə də, bu utancaqlıq deyildi, hərçənd utancaqlığın nə olduğunu anlamağa qadir olmadığı kimi, bunun utancaqlıq olub-olmadığını da anlaya bilməzdi.

Artıq evə fikir verməməyə, təsadüfən gözünə sataşsa da, onu görməməyə çalışırdı. Əvvəlcə elə bildi ki, qadın özü onu çağıracaq. "O özü birinci işarə verəcək", – deyə fikirləşdi. Ancaq qadın heç bir işarə vermədi; bir müddət keçəndən sonra isə ona elə gəldi ki, artıq özü də bunu

ondan gözləmir. Hər halda, ilk dəfə şüurlu şəkildə o evə tərəf baxanda qan beyninə vurdu, bütün sinirləri yerindən oynadı; onda başa düşdü ki, bütün bu vaxt ərzində o qadını görməkdən çəkinib, o qadının ona açıq-aşkar, təmkinli bir nifrətlə baxmağından qorxub; bunu anlayan kimi bütün bədənini tər basdı, sanki, üstündən ağır bir yük götürüldü. "Bu iş artıq bitdi, – o düşündü. – Mən artıq bu işin öhdəsindən gəldim". Bu, həqiqətən, baş verəndə isə heç bir sarsıntı keçirmədi. Bəlkə də, buna hazır idi. Hər halda, tamamilə təsadüfən o tərəfə baxıb, o qadını arxa həyətdə boz donda, boz yaylıqda görəndə qan beyninə sıçradı. Qadının bütün bu vaxt ərzində onu izləyib-izləmədiyini, ümumiyyətlə, onu görüb-görmədiyini, indi də ona baxıb-baxmadığını heç cür anışdıra bilmədi. "Sən mənə dəyib-toxunmasan, mən də sənə heç nə eləmərəm", – ürəyində fikirləşdi, düşüncə isə öz işindəydi *Yəqin, mən bunu yuxuda görmüşəm. Əslində, belə şey olmayıb. O paltarın altında elə bir şey yoxdur ki, o iş də ola bilsin*

İşə yazda girmişdi. Bir axşam sentyabr ayında işdən evə qayıdarkən, daxmaya girəndə heyrətdən donub qaldı. Qadın çarpayıda əyləşib ona baxırdı. Başına heç nə örtməmişdi. İndiyə kimi onu heç vaxt başı açıq görməmişdi, hərçənd gecə qaranlığına bürünmüş yastıqda yanlara tökülən, amma hələ pozulub pırtlaşmamış gur saçların varlığını hiss etmişdi. Ancaq bu saçları işıqda görmək hələ ona nəsib olmamışdı, indi isə gözlərini yalnız onlara zilləmişdi, qadın isə ona baxırdı; birdən öz-özünə: "İndi özü bunu istəyir. *Mən bilirdim ki, bu saçlara dən düşüb* Qadın olmaq istəyir, amma bacarmır", – dedi və dərhal da yerindən tərpənib ona sarı getdi. Fikirləşdi, bildi *O mənimlə danışmağa gəlib* Artıq iki saat keçsə də qadın hələ danışıb qurtarmamışdı; tam qaranlıqda çarpayının üstündə yan-yana əyləşmişdilər. Qadın ona deyirdi ki, qırx bir yaşı var, bu evdə doğulub, ömrü boyu burda yaşayıb. Ömründə bir dəfə də olsun Ceffersondan uzaqda yarım ildən çox qalmayıb, bu cür səfərlərə də çox nadir hallarda çıxıb; onda da özü üçün, doğmaları üçün yad olan bu yurdu ona doğmalaşdıran bu ev, bu adi taxtalar, mismarlar, torpaq, ağaclar, kollar üçün möhkəm darıxıb; hətta indi, qırx ildən sonra belə onun, bütün ömrünü keçirdiyi bu diyarın cingiltili samitləri və kar saitləri seçilən danışığında bütün həyatı boyu üzlərini cəmi üçcə dəfə gördüyü, ömründə Nyu-Hempşirdən kənara çıxmayan nyu-hempşirli qohumlarının danışığında olduğu kimi, Nyu-İnqlənd ləhcəsi aydın eşidilirdi. İşığı söndürülmüş qaranlıq otaqda qaranlıq çarpayıda onun yanında əyləşib sakit, usanmaq bilməyən, az qala, kişi səsinə bənzər bu səsin artıq hansı tərəfdən gəldiyini kəsdirə bilməyən Kristmas fikirləşdi: "O da elə bütün qadınlar kimidir. İstər on yeddi, itərsə də qırx yeddi yaşları olsun, bir kişiyə təslim olmaq vaxtı yetişəndə onların heç biri uzun-uzadı zəvzəmədən ötüşə bilmir".

Kalvin Berden Nataniel Berrinqton adlı bir keşişin oğluydu. Ailənin ən kiçiyi, onuncu uşağı olmuşdu və on iki yaşında, hələ öz adını belə yazmağı bilmədiyi (ya da atasının düşündüyü kimi, onu öyrənmək həvəsində olmadığı) çağlarında gəmiyə minib evdən qaçmışdı. O, Kaliforniyada Horn burnu ətrafında üzmüş, orda katolikliyi qəbul etmişdi; dörd il monastırda

yaşamışdı. On ildən sonra Qərbdən Missuriyə gəlib çıxmışdı. Gələndən üç həftə sonra, Kentukki yolu ilə Karolinaya mühacirət edən hugenot[1] ailəsindən bir qızla evlənmişdi. Toydan bir gün sonra isə demişdi: "Artıq, ağlımı başıma yığmaq vaxtıdı". Elə həmin gündən ağılını başına yığmağa başladı. Toyun lap qızğın çağıydı, elə ordaca ilk addımını atdı: rəsmən bəyan elədi ki, katolik kilsəsindən üz döndərir. Bunu toy salonunda bəyan elədi, israrla tələb etdi ki, bütün toy iştirakçıları ona yaxşı-yaxşı qulaq assınlar, buna öz etirazlarını bildirsinlər; özü də etiraz məsələsini xüsusi vurğuyla tələb etdi, hərçənd, etiraz edən-zad yox idi; daha doğrusu, dostları gəlib onu ordan aparanacan olmadı. Ertəsi gün dedi ki, tamamilə ciddi danışır; o, qurbağa yeyənlərin, kölə saxlayanların kilsəsinə mənsub olmaq istəmir. Bu hadisə Sent Luisdə baş vermişdi. Orda o özünə ev aldı, bir ildən sonra ata oldu. Ata olandan sonra isə dedi ki, bir il əvvəl katolik kilsəsilə əlaqəsini oğlunun ruhunu xilas etmək naminə kəsib; oğluna elə bələk vaxtından öz nyu-inqləndli əcdadlarının dinini təlqin etməyə başladı. Yaxınlıqda unitarian[2] ibadətxanası yox idi, ingilis Bibliyasını isə Berden özü oxuya bilmirdi. Amma Kaliforniyada keşişlərdən ispanca oxumağı öyrənmişdi, körpə yeriyən kimi Berden (indi o özünü Berden adlandırırdı, çünki əsl soyadının necə yazıldığını bilmirdi, keşişlər isə bu adı ona məhz bu cür cızmağı öyrətmişdilər, zira kəndir, bıçaq, yaxud da tapança dəstəyi onun əlinə qələmdən daha rahat yatırdı) ona Kaliforniyadan gətirdiyi ispan kitabını oxumağa başladı; amma xarici dildəki mistikanın bu həzin, qulağaxoş avazını tez-tez, yarısı Nyu-İnqlədin bitib-tükənmək bilməyən bazar günlərində atasından əxz etdiyi cansıxıcı, boş məntiqdən, yarısı isə cəhənnəm odu və gerçək kükürdlə bağlı istənilən kənd moizəçi-metodistinin həsəd apara biləcəyi kələ-kötür dualardan ibarət ekspromtlar və mülahizələr korlayırdı. Onlar – ucaboy, arıq, nord sifətli kişi və dərisinin rənginə, bədən quruluşuna görə anasına çəkmiş balaca, qarabuğdayı, şux oğlan uşağı otaqda tək oturmuşdular; sanki, başqa-başqa irqdən idilər. Oğlu beş yaşına çatanda Berden bir nəfərlə kölelik üstündə mübahisə edərkən onu vurub öldürdüyü üçün ailəsi ilə birlikdə qaçmaq, Sent Luisi tərk etmək məcburiyyətində qaldı. "Demokratlardan mümkün qədər uzaq olmaq" üçün Qərbə tərəf üz tutdu.

Yeni məskən saldığı qəsəbə dükandan, dəmirçixanadan, kilsədən və iki meyxanadan ibarət idi. Burada Berden vaxtının çoxunu kobud, gur səsilə köləliyi, kölə sahiblərini lənətləyərək siyasətdən danışmaqla keçirirdi. Onun ad-sanı buralara da gəlib çıxmışdı; burada da bilirdilər ki, daim üstündə tapança gəzdirir, buna görə də ona diqqətlə qulaq asır, ən azı, sözünü kəsmirdilər. Bəzən, xüsusilə də şənbə axşamları evə soda qatılmamış viskidən, öz hay-küylü moizələrindən buğlana-buğlana gəlib çıxardı. Sonra da ağır, kobud əlləriylə oğlunu möhkəm silkələyib yuxudan

---

[1] əsrin fransız protestantları

[2] Unitarian – təriqət adı; unitarianlar Allahın üç sifətdə birləşdiyini inkar edir, onun tək olduğuna inanır, dini düşüncə sərbəstliyinə xüsusi önəm verir, digər inanclara tolerant münasibət bəsləyir, fərdin mühüm olduğunu və hər dini icmanın müstəqilliyini qəbul edirlər; onlar, eyni zamanda, mərkəzləşmənin, bir dövlət sistemi daxilində birləşmənin tərəfdarı kimi çıxış edirlər.

oyadardı (üç mavi gözlü qız uşağı da doğduqdan sonra ana vəfat etmişdi). "Ya mən sənə iki şər şeyə nifrət etməyi öyrədəcəm, – oğluna deyərdi, – ya da sənin dərinə saman təpəcəm. Bu iki şər şeydən biri cəhənnəm, o biri isə kölə sahibləridir. Eşidirsən məni?"

– Eşidirəm, – oğlu cavab verərdi. – Heç eşitməmək olur ki? Get yat, qoy mən də yatım.

O, din təbliğçisi, missioner deyildi. Odlu silaha əl atdığı əhəmiyyətsiz, həm də heç biri ölümlə nəticələnməyən bir-iki epizod nəzərə alınmazsa, fikri-zikri, demək olar ki, yalnız öz törəmələri ilə məşğul idi. "Cəhənnəm olsun onların hamısı, – o öz uşaqlarına deyirdi. – Amma neçə ki, əl-qolumu işlədə bilirəm, Allah sevgisini zorla da olsa dördünüzün də beyninə yeridəcəm". Hər bazar günü bu işlə olurdu. Hər bazar bütün ailə yaxşı-yaxşı yuyunub, tərtəmiz geyindikdən sonra – uşaqlar çit, parusin paltarda, ata isə belindəki tapançadan bir tərəfi şişib dombalan mahud pencəkdə, böyük qızının hər şənbə günü öz rəhmətlik anasından heç də pis ütüləmədiyi yaxalıqsız büzməli köynəkdə olardı – zövqsüz bəzədilmiş tərtəmiz qonaq otağına yığışır, Berden isə haçansa cildi qızıl suyuna çəkilmiş bərbəzəkli kitabdan onların heç birinin anlamadığı dildə dini mətnlər oxuyurdu. Bu o vaxta kimi davam etdi ki, axırda oğlu evdən baş götürüb qaçdı.

Oğlunun adı Nataniel idi. O, on dörd yaşında evdən baş götürüb qaçdı, bir də düz on altı ildən sonra onların yanına qayıtdı; bütün bu müddət ərzində ondan yalnız ikicə dəfə şifahi xəbər gəldi. Birinci dəfə Koloradodan, ikinci dəfə isə Meksikadan. Bu xəbərləri gətirənlər onun oralarda neylədiyi, nə işlə məşğul olduğu barədə heç nə demədilər. "Mən ondan ayrılanda hər şey çox yaxşıydı", – xəbər gətirən çapar dedi. Bu, ikinci çapardı; 1863-cü il idi və ondan xəbər gətirən qonaq mətbəxdə əyləşib, qabağına qoyulan səhər yeməyini saxta, yalançı bir ehtiramla tıxışdırırdı. İkisi artıq xeyli böyümüş olan üç qız əyinlərində enli don, əllərində boşqab, ağızları azca ayrıla qalmış halda taxta masanın böyründə dayanıb ona qulluq edirdilər, ata isə başını yeganə qoluna söykəyib masa arxasında qonaqla üzbəüz əyləşmişdi. Digər qolunu o, iki il əvvəl Kanzasda süvari partizan dəstəsində döyüşərkən itirmişdi; saqqalına, saçlarına artıq dən düşmüşdü. Amma hələ də güclüydü, hələ də pencəyinin bir tərəfi belindəki tapançadan şişib dombalmışdı.

– Balaca bir cəncələ düşmüşdü, – xəbər gətirən adam dedi. – Ancaq axırıncı dəfə onun haqqında eşitdiyim bu olub ki, vəziyyəti çox yaxşıdı.

– Nə cəncələ? Hansı cəncələ? – Ata dərhal soruşdu.

–Bir meksikalını öldürmüşdü. O meksikalı iddia edirmiş ki, guya, oğlun onun atını oğurlayıb. Özünüz bilirsiniz də, bu ispanlar, hətta bir meksikalını öldürüb-eləməyəndə belə ağ adamlara necə münasibət bəsləyirlər. – Xəbər gətirən adam önündəki qəhvədən bir qurtum aldı. – Bir də axı oralarda ciddi olmadan ötüşmək mümkün deyil, ölkəyə o qədər naşı, təcrübəsiz adamlar axışıb gəlir ki... Çox minnətdaram, – o, önündəki boşqaba bir neçə isti qarğıdalı kökəsi

qoyan böyük qıza dedi, – çox sağ olun, xanım, zəhmət çəkməyin, yağı özüm götürərəm. Camaat danışırdı ki, o at heç də o meksikalının olmayıb. Onun, ümumiyyətlə, heç vaxt atı olmayıb. Bir də ki, ispanlar da əhalini ciddi nəzarətdə saxlamağa məcburdurlar, çünki Şərqdən gedənlər Qərbi orda çox pis tanıdıblar.

Ata əsəbiləşdi.

– Lap Allaha and içərəm. Əgər orda nəsə bir cəncəl iş olubsa, Allaha and olsun ki, o hökmən onda iştirak edib. Ona deyin ki, – ata tamam qəzəblənib özündən çıxdı – əgər sarıqarın keşişlərin onu yoldan çıxarmalarına imkan versə, o murdar qiyamçılar kimi onu özüm yerindəcə güllələyərəm.

– Ona deyin ki, qayıdıb evə gəlsin, – böyük qız söhbətə qarışdı. – Siz ona yalnız bunu deyin.

– Oldu, xanım, – xəbər gətirən adam dedi. – Hökmən deyərəm. Mən indi Şərqə, İndianaya gedirəm. Qayıdan kimi dərhal onu axtarıb taparam. Hökmən deyərəm. Hə, az qalmışdı unudum. Dedi sizə çatdırım ki, arvad da, uşaq da sağ-salamatdılar.

– Kimin arvadı, kimin uşağı? – ata dedi.

– Onun, – qonaq dedi. – Bir daha sizə öz təşəkkürümü bildirirəm. Sağ olun. Salamat qalın.

Onların yanına qayıtmamışdan bir az əvvəl oğlu üçüncü dəfə xəbər göndərdi. Günlərin bir günü evin önündə onun necə qışqırdığını eşitdilər. 1866-cı il idi. Ailə bir daha köçüb, Qərbə tərəf yüz mil aralıda məskən salmışdı, oğul isə oturacağının altında bir cüt köhnə ayaqqabı və içərisi qızıl tozu, pul sikkəsi, külçə daş-qaşla dolu iki dəri kisə gizlədilən tarantası[9] Kanzas və Missuri boyunca irəli-geri qovaraq onları tapanacan iki ay vaxt itirmişdi. O, qışqıra-qışqıra üstü çimlə örtülmüş komaya yaxınlaşanda qapının ağzında kətildə bir kişi oturmuşdu. “Bax o, atamdı, – Nataniel yanında gətirdiyi qadına dedi. – Görürsən?” Atası hələ altmışı haqlamasa da, gözləri xeyli zəifləmişdi. Kalvin öz oğlunu yalnız tarantas dayanandan sonra, qızlar çığıra-çığıra evdən bayıra qaçışanda tanıdı. Tanıyan kimi də yerindən qalxıb var gücü ilə nəsə bağırdı. “Bu da biz, – Nataniel dedi. – Axır ki, öz evimizdəyik”.

Kalvin dilinə bir kəlmə də olsun xoş söz gətirmədi. Yalnız qışqırıb, söyüş söydü. “İndi sənin dərinə saman təpəcəm! – deyə çığırdı. – Qızlar! Vanqi, Bekki! Sara!” Bacılar artıq ordaydılar. Onlar öz büzməli donlarında, atalarının bağırtısında itib-batan çılğın çığırtıları ilə birlikdə çoxdan özlərini bayıra atmış, güclü hava axınına düşmüş şar balonları kimi ora uçmuşdular. Atanın əynindəki zəngin, yaxud iş-gücdən uzaq adamın, ya da bazar günlərində geyinilən kilsə pencəyini xatırladan pencəyin yaxası açıq idi və o, sifətini turşudaraq, əl atıb belində nəyisə dartışdırdı; sanki, indicə tapançasını çıxaracaqdı. Amma sadəcə, yeganə əliylə şalvarının dəri qayışını dartıb çıxardı və çıxaran kimi də onu havada yellədə-yellədə çığırtısı bir-

[9] Tarantas – üstü örtülü minik arabası

birinə qarışmış qadınların arasına cumdu. “İndi sənə göstərərəm! – o bağırdı. – İndi bilərsən ki, evdən qaçmaq nə deməkdi!” Qayış iki dəfə Natanielin çiynindən tutdu. Amma o, cəmi ikicə dəfə havaya qalxıb-enə bildi, çünki bu iki kişi dərhal bir-birinin üstünə atılıb əlbəyaxa oldular.

Bu, oyuna bənzəyirdi – ölümcül, son dərəcə əyləncəli, amma ciddi bir oyuna; elə bil, iki aslan bir-birilə çarpışırdı və bunun sonu qanla bitə də, bitməyə də bilərdi. Onlar bir-birinin yaxasından yapışdılar, qayış havadan asılı qaldı: arıqsifət, saqqalına dən düşmüş, nyu-inqləndli boz gözləri bərələ qalan qocayla ona heç oxşamayan, burnu bir az əyri, ağappaq dişləri təbəssüm içərisində qıcanan cavan üz-üzə, kəllə-kəlləyə dayanmışdılar. “Bəsdi, – Nataniel dedi. – Görmürsən tarantasdan bizə kimlər baxır?”

Bu ana kimi onların heç biri tarantas tərəfə gözucu da olsa baxmamışdı. Onun içində bir qadın, bir də on iki yaşlı oğlan uşağı oturmuşdu. Ata dönüb qadına tərəf bircə dəfə baxdı; uşağa baxmağın isə onun üçün heç bir əhəmiyyəti yox idi. Qadına tərəf baxdı və xəyalat görübmüş kimi ağzı açıla qaldı. “Yevangelina!” – o, heyrət içində dedi. Qadın mərhum arvadına bəzəyirdi, elə bil, onun doğma bacısıydı. Anasını çətin ki, xatırlaya bilən oğlu, demək olar ki, tamamilə onun eyni olan bir qadınla evlənmişdi.

– Bu, Xuanadır, – o dedi. – Yanındakı da Kalvin. Biz gəlmişik ki, burda evlənək.

Axşam yeməkdən sonra Nataniel uşaqla arvadını yatmağa göndərib danışmağa başladı. Çırağın başına yığışmışdılar: ata, bacılar və axır ki, evə qayıdan oğul. Orada bir dənə olsun anqlikan[10] keşişi yoxudu, Nataniel izah etdi, hamısı katoliklər idi. “Biz biləndə ki, çikomuz[11] olacaq, Xuana katolik keşişindən danışmağa başladı. Mən isə heç cür razı ola bilməzdim ki, Berden bütpərəst kimi doğulsun. Onun könlünü almaq üçün əsl anqlikan keşişi axtarmağa başladım. Amma hər dəfə ortaya bir iş çıxdı, vaxt eləyib keşiş tapa bilmədim; sonra da uşaq doğuldu, yəni tələsməyə lüzum qalmadı. Xuana isə daim narahat idi, hökmən keşişin yanına getmək istəyirdi; bir dəfə – iki ildən sonra eşitdim ki, Santa Feyə ağ dərili keşiş gələcək, gününü isə dəqiq bilmirdim. Hazırlaşıb ora yollandıq, amma vaxtında yetişə bilmədik. Biz ora çatanda həmin keşişi harasa aparan dilicanın[12] yalnız tozanağını görə bildik. Yenə də gözləməyə məcbur qaldıq, iki ildən sonra Texasda bəxtimizə daha bir fürsət düşdü. Ancaq burada da, elə bil, qəsdən reyncerlərə[13] ilişdim; rəqs zamanı şerifin köməkçisinə qarşı şuluqluq eləmişdilər, möhkəm dava düşmüşdü, davanı yatırmaqda onlara kömək etməli oldum. Hər şey bitəndən sonra isə bu qərara gəldik ki, evimizə qayıdaq və burda adam kimi evlənək. Ona görə də indi burdayıq”.

Artıq qocalmış, saçları ağarmış ata ciddi bir görkəm alıb çıraq işığında sakitcə oğlunu dinləyirdi, amma sifəti fikirliydi, sanki; o, dərin mürgüyə getmiş hansısa düşüncəni, çaşqınlığa

---

10 Anqlikan – İngiltərədə protestant dininin bir qolu

11 Uşağımız (ispanca)

12 Dilican – dörd təkərli minik arabası

13 Reyncer – süvari (atlı) polis

qərq olmuş hansısa qəzəbi ifadə edirdi. “Daha bir qarabəniz Berden, lənətə gəlsin bu nəsli, – o dedi.–Camaat elə biləcək ki, mənim uşaqlarım kölə alverçisindəndi. İnnən belə də onun haqqında bu cür düşünəcəklər”. Oğlu ona diqqətlə qulaq asırdı, hətta arvadının qiyamçı deyil, ispan qızı olduğunu belə atasına izah etməyə çalışmırdı. “Qara, boydan kasad köpək uşağı! Bunların ona görə boyu çıxmır ki, Allahın qəzəbinin ağırlığına tab gətirə bilmirlər; ona görə qaradılar ki, bəşər övladının kölə xisləti onların canını, qanını zəhərləyib”. Onun baxışları laqeyd, təəssübkeş və inadcıl idi. “Amma biz indi onların hamısını – qarasını da, ağını da azadlığa çıxarmışıq. İnnən belə onlar da ağarmağa başlayacaq. Yüz ildən sonra hamısı yenidən ağ adam olacaq. Bəlkə, onda biz onlara Amerikaya qayıtmağa icazə verdik”. O susdu, yavaş-yavaş hirsi soyumağa başladı. “Vallah, – birdən dedi, – qara olsa da, əsl kişi qaməti var. Babası kimi iri adam olacaq, atası kimi liliputa oxşamayacaq. Anası da, özü də nə qədər qarabəniz olsalar da, iri, cüssəli kişi olacaq”.

Qadın tədricən qaranlıq çökən daxmada, çarpayıda Kristmasla diz-dizə oturub bunları danışırdı. Bir saat ərzində heç biri yerindən tərpənməmişdi. Kristmas indi onun sifətini aydın görmürdü; qadının qırıq-qırıq eşidilən səsi onu, yaddaşda heç bir əks-səda doğurmayan dincliyin gətirdiyi mürgüdən yerində ləngər vuran qayıq kimi yüngülcə yırğalayırdı; onu qulağının bir ucuyla dinləyirdi. “Onun da adı babamınkı kimi Kalvin idi, o da babam kimi hündürboyluydu, hərçənd nənəmin nəslinə, bir də öz anasına çəkdiyi üçün qarabənizdi. Amma onun anası mənim anam deyildi. Biz Kalvinlə atabir qardaş-bacıydıq. Babam ailədə on uşağın, atam iki uşağın, Kalvin isə onların hamısının ən axırıncısıydı”. Sabiq kölə sahibi olan Sartoris adlı bir konfederat[14] zabiti bu evdən iki mil aralıda – şəhərdə onu zəncilərin seçkilərdə iştirakı məsələsi üstündə tapança ilə vurub öldürəndə iyirmi yaşı təzəcə tamam olmuşdu.

Qadın Kristmasa qəbirlərdən də danışdı; qardaşının, babasının, atasının və onun iki arvadının qəbirləri evdən yarım mil aralıda, otlaqdakı təpəcikdə, sidr ağaclarının altında uyuyurdu; Kristmas onu dinməzcə dinləyə-dinləyə fikirləşdi: “Eh-h. İndi də məni onlara baxmağa aparacaq. Çarə yoxdur, getməliyəm”. Ancaq qadın onu ora aparmadı. O gecə o qəbirlərin harda olduğunu, əgər istəsə gedib onlara baxa biləcəyini desə də, bir daha bu barədə söz açmadı.

– Bəlkə də, onları tapa bilməzsiniz, – qadın dedi. – Çünki o gecə babamla Kalvini evə gətirəndə, atam qaranlıq düşənəcən gözlədi, sonra da onları aparıb basdırdı, qəbir yerlərini gizlətdi, təpəcikləri yerlə bir eləyib üstünü şax-şəvəllə, zirzibillə örtdü.

– Gizlətdi? – Kristmas dedi.

Qadının səsində qadına məxsus heç bir hüzn, nisgil yox idi.

---

[14] Konfederat – ABŞ-da Vətəndaş müharibəsi zamanı Cənub ştatlarının tərəfində döyüşən ordu mənsubları

– Gizlətdi ki, heç kəs onları tapa bilməsin. Qazıb ordan çıxarmasın, bəlkə də, çıxarıb murdarlamasın. – Sonra isə cüzi bir səbirsizliklə sözünə davam elədi. – Burda heç kimin bizi görməyə gözü yox idi. Biz onlar üçün yankiydik. Gəlməydik. Gəlmədən də betər – düşmən idik. Torbagəzdirən, qarətçiydik. Müharibənin yaraları hələ yaddaşlarda çox təzəydi, hətta məğlublar belə ağıllanmağa macal tapmamışdılar. Guya, biz zənciləri qarətə, zorakılığa şirniklendirirdik; onlar buna belə ad qoymuşdular. Ağların üstünlüyünü təhlükəyə salırdıq. Buna görə də təkqol qoca bir adamı, ömründə səs verməyə hələ macal tapmamış cavan bir uşağı tapançadan açdığı iki atəşlə yerindəcə vurub öldürdüyünə görə polkovnik Sartorisi bu şəhərdə, mən bilən, az qala, qəhrəman eləmişdilər. Bəlkə də, haqlıydılar. Bilmirəm.

– Yox bir? – Kristmas dedi. – Doğrudanmı, onlar belə bir şey eləyə bilərdilər? Ölüləri qəbirdən qazıb çıxardardılar? Görəsən, qanı fərqli olan adamlar bir-birinə nifrət etməyə nə vaxt son qoyacaqlar?

– Nə vaxt? – Qadın susdu. Sonra sözünə davam etdi. – Bilmirəm. Bilmirəm onları qazıb çıxardardılar yoxsa yox. O vaxt mən hələ dünyaya gəlməmişdim. Mən Kalvin öldürüləndən on dörd il sonra doğulmuşam. Amma atam güman edirdi ki, onlar belə bir iş tutmağa qadirdilər. Buna görə də o qəbirlərin üstünü basdırıb gizlətmişdi. Sonra Kalvinin də anası vəfat etdi, atam onu da orda, Kalvinlə babamın yanında dəfn elədi. Beləliklə, ora hiss olunmadan bir növ bizim ailə qəbiristanlığımıza çevrildi. Bəlkə də, atam onu orda dəfn etmək niyyətində olmamışdı. Yadımdadı, mənim anam (onu Kalvinin anası vəfat edəndən dərhal sonra atamın xahişinə əsasən bizim nyu-hempşirli qohumlarımız göndərmişdilər. Axı atam tək qalmışdı. Fikirləşirəm ki, babamla Kalvin burda dəfn olunmasaydılar, atam başqa yerə çıxıb gedərdi), anam deyərdi ki, Kalvinin anası öləndə atam burdan birdəfəlik çıxıb getmək istəyirmiş. Amma Kalvinin anası yay vaxtı, istidə öldüyündən onu Meksikaya, qohumlarının yanına aparmaq mümkün olmayıb. Ona görə də burda dəfn edib. Yəqin, elə ona görə burda qalıb. Bəlkə də, artıq qocalmağa başladığı üçün... Elə Vətəndaş müharibəsində vuruşanların da hamısı qocalıbmış, zənciler isə nə kimisə öldürmüş, nə də zorlayıblarmış. Bir sözlə, onu burda dəfn edib. O, qəbirin də üstünü basdırıb gizlətməli olub, fikirləşib ki, birdən kimsə onu görüb Kalvini, babamı yada sala bilər. Hər şey çoxdan olub bitsə də, artıq əfsanəyə, nağıla çevrilsə də, risk eləmək istəməyib. Bir il sonra isə Nyu-Hempşirdəki qohumumuza məktub göndərib. O məktubda yazıb: "Yaşım artıq əllini haqlayıb. Ürəyim istəyən hər şey varımdır. Mənə yaxşı bir arvad göndərin. Kimliyinin fərqi yoxdur, təki yaxşı evdarlığı olsun, yaşı da otuz beşdən aşağı olmasın". Elə həmin zərfin içinə anamın qatarla gələ bilməsi üçün yolpulu da qoyub. İki aydan sonra anam bura gəlib və onlar elə həmin gün evləniblər. Bu, onun üçün ildırım sürətli toy olub. Çünki birinci dəfə – Kalvinlə, onun anası ilə Kanzasda babamı axtardıqları zaman – evlənmək üçün onlar düz on iki il gözləyiblər. Ata evinə həftənin ortasında gəlib çıxdıqları üçün isə toyu bazar gününə saxlayıblar.

Açıq havada, çay kənarında toy məclisi qurublar, cavan bir öküz qızardıb, ortalığa bir çəllək viski qoyublar; çağıra bildiklərinin, özü eşidib gələnlərin hamısı ora yığışıb. Toya şənbə günü səhər tezdən hazırlaşmağa başlayıblar, keşiş isə axşam gəlib. Atamın bacıları bütün günü Kalvinin anasına gəlinlik paltarı, fata tikməklə məşğul olublar. Gəlinlik paltarını un xaşasından, fatanı isə salun[15] sahibinin piştaxta arxasından asılan rəsmin üzərinə örtdüyü miçətkən cunasından tikiblər. Cunanı müvəqqəti borca götürüblər. Hətta Kalvin üçün də kostyuma bənzər bir şey düzəldiblər. Onda on iki yaşındaymış, istəyiblər ki, toyda şafer[16] olsun. Kalvin isə olmaq istəmirmiş. Toydan qabaqkı gecə bunu bilib və səhəri gün (kəbin mərasimini səhər saat altıda, ya da yeddidə keçirmək istəyirmişlər) tezdən hamı yuxudan ayılıb yemək yeyəndən sonra Kalivini tapa bilməyəndə mərasim bir qədər təxirə salınıb. Axırda onu tapıb, tikdikləri kostyumu zorla əyninə geyindiriblər; beləcə toy mərasimi başlayıb: Kalvinin anası əldə tikilmiş gəlinlik və cunadan fata, atam isə Meksikadan gətirdiyi üstü naxışlı uzunboğaz ispan çəkmələrini geyinib, saçlarına da ayı yağı sürtüb parıldadıbmış. Babam isə gəlinə xeyir-dua verib yola salan atanı əvəz etməliymiş. Amma Kalvini axtarıb tapanacan o özünü hər fürsətdə viski çəlləyinin yanına verdiyi üçün vaxtı çatanda gəlini ortalığa gətirmək əvəzinə geniş bir nitq söyləyib. Linkoln haqqında, köləlik haqqında uzun-uzadı mühakimələr irəli sürüb; hamı buna məəttəl qalıb: axı o toyda iştirak edənlərin hansı bunu inkar edə bilərdi ki, Musa peyğəmbər İsrail övladları üçün nədirsə Linkoln da zəncilər üçün odur və Qırmızı dəniz, qara irqin onu keçə, Müqəddəs torpağa yetişə bilməsi üçün hökmən qanla doldurulmalıdır. Mərasimi davam etdirə bilmək üçün onu sakitləşdirmək o qədər asan olmayıb. Toydan sonra orada cəmi bir ay qalıblar. Çünki günlərin bir günü atamla babam Şərqə, Vaşinqtona gedib orada, azad olunmuş zəncilərə köməklik göstərmək barədə hökumətdən rəsmi göstəriş alıblar və sonra buraya, Ceffersona gəliblər. Atamın bacılarından başqa bütün ailə bura köçüb. Qızların ikisi ərə gedibmiş, kiçiyi isə onlardan birinin yanında qalmaq istəyib; babamla atam, Kalvinlə anası bura köçüb, özlərinə ev alıblar. Sonra da onların, yəqin ki, lap əvvəldən hazır olduqları həmin hadisələr baş verib və mənim anam Nyu Hempşirdən bura gələnəcən atam tək yaşamalı olub. O vaxta qədər onlar bir-birinin üzünü də görməyiblər; heç şəkillərini də. Anam bura gəlib çatdığı gün evləniblər, iki ildən sonra isə mən doğulmuşam, atam adımı Kalvinin anasının xatirəsinə Coana qoyub. Məncə, daha oğlu olmasını istəmirmiş. Onu o qədər də yaxşı xatırlaya bilmirəm. Bir insan kimi, bir şəxsiyyət kimi ondan yadımda təkcə məni Kalvinlə babamın qəbirlərinə baxmağa aparmağı qalıb. Aydın yaz günüydü. Yadımdadı, hara getdiyimizi dəqiq anlamasam da, getmək istəmirdim. Sidr ağaclarının yanına getmək istəmirdim. Bilmirəm niyə. Axı cəmi dörd yaşım vardı; orda nə olduğunu heç cür anlaya bilməzdim. Əgər anlaya bilsəydim belə o yaşda, yəqin ki, belə bir şey məni çətin

---

15 Salun – restoran (köh.)

16 Şafer – sağdış və ya soldış (köh.)

qorxudaydı. Yəqin, atamda nəsə elə bir şey vardı ki, o, sidr ağacları vasitəsilə mənə təsir etmişdi. O bu ağaclıqda nəsə elə bir iz qoymuşdu ki, mən ora getməkdən qorxurdum; qorxurdum ki, ora getsəm həmin iz mənə keçəcək və onu heç vaxt unuda bilməyəcəm. Bilmirəm. Ancaq məni zorla ora apardı, orda dayanıb qəbirlərə baxanda dedi: "Yadında saxla. Sənin babanla qardaşın burda yatır, onları bir nəfər ağ adam deyil, baban da, qardaşın da, mən də, sən də bu dünyaya gəlməmişdən çox-çox əvvəl Allahın bütöv bir irqi düçar etdiyi lənət damğası qətlə yetirib. Bu irq lənətlənib və ağ irqin öz günahlarına görə düçar olduğu lənətin və cəza hökmünün əbədi bir hissəsi kimi yaşamağa məhkum edilib. Bunu unutma. Allahın bu hökmünü, Allahın bu lənətini unutma. Onun bizləri əbədi olaraq düçar etdiyi cəza hökmünü və lənəti. Məni də. Sənin ananı da. Hətta uşaq olsan belə, özünü də. İndi doğulan və hələ doğulmamış hər bir ağ körpəni düçar etdiyi lənəti. Heç kim bundan qaça bilməz". Mənsə ona dedim: "Mən də?" O dedi: "Elə sən də. Hamıdan əvvəl elə sən". Ağlım kəsəndən zənciləri görmüşdüm, onların kim olduğunu bilirdim. Onlar mənim üçün yağış, mebel, yemək, yuxu kimi bir şey idi. Amma o gündən sonra onlar mənim üçün, sadəcə, adam olmaqdan çıxıb, nəsə başqa bir şeyə – məni, bizim hamımızı, bütün ağ adamları, bütün yerdə qalanları öz ağuşu altına çəkən kölgəyə çevrildilər. Bundan sonra doğulacaq bütün ağ uşaqları gözlərim önünə gətirdim; ana bətnindən qurtulan kimi, hələ hava udmağa macal tapmamış qara kölgə onları zorla çəkib öz ağuşuna alırdı. Özü də bu qara kölgə mənə xaç şəklində görünürdü. Sanki, hələ ağızlarını açıb hava udmağa macal tapmamış ağ körpələr nəinki üstlərini, həm də altlarını bürüyən, qolları kimi yanlara açılan o kölgədən qaçıb qurtulmağa çalışırdılar; elə bil, onları çarmıxa çəkirdilər. Onda heç cür anlaya bilmirdim ki, bu gördüklərim həqiqətdir, yoxsa məni qara basır. Amma çox qorxunc bir mənzərəydi. Gecə ağladım. Nəhayət, atama dedim, deməyə çalışdım. Ona demək istəyirdim ki, mən xilas olmalı, bu kölgənin ağuşundan çıxmalıyam, yoxsa öləcəm. "Çıxa bilməzsən, – dedi. – Sən mübarizə aparmalısan, böyüməlisən. Böyüyə bilmək üçün isə o kölgəni özünlə birlikdə böyütməlisən. Ancaq heç vaxt onu boyun bərabərinə qaldıra bilməyəcəksən. Bunu mən indi anlayıram, bura gələndə isə anlamırdım. Ondan heç cür qurtula bilməzsən. Qara irqin lənəti – Allahın lənətidir. Ağ irqin lənəti isə-qara insandır, o, həmişə Allahın sevimlisi olacaq, çünki O onu bir dəfə lənətləyib". Qadın susdu. Qapının alaqaranlıq çərçivəsində işıldaquşlar səyrişirdi. Nəhayət, Kristmas dedi:

–Səndən bir şey soruşmaq istəyirdim. Ancaq deyəsən, indi onun cavabını özüm də bilirəm.

Qadın tərpənmədi. Səsi sakit idi.

– Nəyi?

– Atan nə üçün o adamı... adı nəydi, – Sartorisi vurub öldürmədi?

– A-a, – qadın dedi. Yenidən ortalığa sükut çökdü. Qapının ağzında işıldaquşlar səyrişir, uçuşurdular. – Sən olsan öldürərdin? Öldürərdin?

– Hə, – o dərhal, fikirləşmədən dedi. Sonra hiss etdi ki, qadın ona, səs gələn tərəfə baxır, guya, qaranlıqda onu görə bilərdi. İndi qadının səsi, demək olar ki, tamam mehribanlaşmışdı – çox sakit, çox dinc idi.

– Valideynlərinin kim olduğu barədə heç bir məlumatın yoxdu?

Əgər qadın indi onun sifətini görə bilsəydi, onun necə tutqun, fikirli olduğunu görərdi.

– Bircə onu bilirəm ki, onların birində zənci qanı olub. Bunu sənə əvvəl də demişəm.

Qadın hələ də ona sarı baxırdı; bunu onun səsindən anladı. Səs sakit, mehriban, mərhəmətli olduğu qədər də biganəydi:

– Hardan bilirsən?

Dərhal cavab vermədi. Sonra dedi: – Bilmirəm. – Yenə susdu; amma qadın onun səsindən anladı ki, kənara, qapıya tərəf baxır. Sifəti qaşqabaqlıydı, tamamilə hərəkətsizdi. Sonra təzədən yerində qurcalandı, danışdı: səsində şən olmasa da, məzəli, eyni anda həm ciddi, həm də istehzalı bir eyham hiss olundu: – Əgər belə deyilsə, onda mən ömrümün çoxunu havayı yaşamışam, yalan deyirəmsə, lənətə gəlim.

İndi, sanki, qadın da sakitcə, nəfəsini içinə çəkib danışa-danışa, amma heç nədən şikayətlənmədən, keçmişi qurdalamadan düşünürdü: – Bu haqda çox fikirləşmişəm. Atam niyə polkovnik Sartorisi vurub öldürməyib. Məncə, ona görə ki, qanı fransız qanı olub.

– Fransız qanı? – Kristmas dedi. – Doğrudanmı, atası da, oğlu da eyni gündə vurulub öldürülən fransız belə, bu dəhşətdən dəli olub ağlını itirmir? Görünür, sənin atan dinə uyubmuş. Bəlkə də, din təbliğçisi imiş.

Qadın xeyli müddət cavab vermədi. Qapıda işıldaquşlar səyrişir, hardasa çox uzaqda qəmgin, həzin səslə it ulayırdı.

– Bu barədə də çox fikirləşmişəm, – qadın dedi. – Axı onda olan olmuş, keçən keçmişdi. Nə bayraq uğrunda, hərbi geyimdə törədilən, nə də bayraqsız, hərbi geyimsiz törədilən qətllərin heç biri yaxşılıqla bitməmiş, yaxşı heç nə gətirməmişdi. Heç nə. Biz isə yad idik, gəlməydik, çağrılmadan, istənilmədən ayaq basdığımız bu diyarın adamları ilə həmfikir deyildik, onlar kimi düşünmürdük. Atam həm də yarı qarışıq fransız idi. O dərəcədə fransız idi ki, hər kəsin öz doğma torpağına, ata-baba yurduna sevgisinə hörmət bəsləyirdi; hər bir insanın öz doğulduğu torpağın öyrətdiyi kimi davranmalı olduğunu yaxşı başa düşürdü. Məncə, buna görə.

12

İkinci mərhələ məhz belə başladı. Sanki, çirkab kanalına düşmüşdü. Sanki, bu ilk, ağır və kişi təsliminə başqa bir həyatdan boylanıb baxırdı; canlı qulağın, demək olar ki, aydın eşitdiyi şaqqıltı ilə qopub-tökülən bir qəlb skeletinin iflası kimi sarsıdıcı və ağrılı olan bu təslim aktının

özü bir tənəzzül, çöküş idi; həlledici döyüşün sabahı günü məğlub generalın sübh tezdən üzünü qırxıb üst-başını səliqəyə salaraq, döyüş meydanının toz-torpağından təmizlənmiş uzunboğaz çəkmələrdə öz qılıncını qalibə təhvil verməsi kimi bir şeydi.

Bu kanal ancaq gecələr axırdı. Gündüzlər isə hər şey öz həmişəki axarında davam edirdi. O, səhər saat yeddinin yarısında işə gedirdi. Daxmadan çıxır, ev tərəfə bir dəfə də olsun baxmadan yonqar sexinə yollanırdı. İşdən isə axşam saat altıda qayıdırdı, yenə evə tərəf bir dəfə də olsun dönüb baxmadan birbaş komaya gedirdi. Yuyunandan sonra ağ köynəyini, səliqə ilə ütülənmiş qara şalvarını geyinib mətbəxə yollanırdı; orda masanın üstündə qoyulmuş şam yeməyi onu gözləyirdi, masanın arxasına keçib, o qadının üzünü belə görmədən yeməyini yeyirdi. Ancaq bilirdi ki, evdədir və bu köhnə evin içinə çökməkdə olan qaranlıq indi nəyisə qırır, nəyisə intizarın əsirinə çevirir. Bilirdi ki, qadın o günü necə keçirib; onun da günləri həmişəki kimi eyni idi, sanki, gündüz həyatını onun əvəzinə başqası yaşayırdı. Bu qadının ev işlərilə necə məşğul olduğunu, günün müəyyən vaxtını üstü yeyilmiş masanın arxasında oturub nəsə yazıb-pozduğunu, yaxud da böyük yolun hər iki – həm aşağı, həm də yuxarı başından, uzun illərdir tapdanmış və çarxa bərkidilən təkər milləri kimi evdən cürbəcür səmtə uzanan cığırlarla bura gələn zənci qızları sorğu-suala tutduğunu, dinlədiyini bütün günü xatırlamağa, təsəvvürünə gətirməyə çalışırdı. Bu qızların o qadınla nə danışdıqlarını bilmirdi, hərçənd onların gizlin deyil, açıq-aşkar, çox vaxt tək-tək, bəzən isə ikibir, üçbir, üstlərinə önlük, başlarına yaylıq bağlamış halda, bəzən də çiyinlərinə kişi pencəyi ataraq evə gəldiklərini, sonra isə evdən ayrılan həmin cığırlarla tələsmədən, amma həm də ləngimədən çıxıb getdiklərini az görməmişdi. Arabir onları xatırlayır, fikirləşirdi *İndi o bu işi görür. İndi də o işi görür* amma qadının özü barədə o qədər də çox düşünmürdü. Əmin idi ki, o da gündüzlər onun haqqında bundan – yəni özünün onun haqqında düşündüyündən artıq düşünmür. Gecələr isə qaranlıq yataq otağında qadın ona öz gündəlik işlərindən inadla, bütün təfərrüatı ilə söhbət açır, ondan da israrla öz gündəlik işləri barədə danışmasını tələb edirdi; bu, tamamilə adi aşiq-məşuq oyunu idi; hər ikisinin gündəlik işlərinin sözlə ifadə edilməsinə olan amiranə və şiddətli bir tələbatdan doğurdu, buna görə də o sözləri dinləmək heç məcburi də deyildi. Şam yeməyini yeyəndən sonra ora, qadının onu gözlədiyi yerə gedirdi. Vaxt keçir, ikinci dövrün yeniliyi kütləşərək vərdişə çevrilirdi və o, mətbəx qapısı ağzında dayanıb, qaranlığa baxa-baxa çoxdan onu gözləyən, öz arzusuna uyğun olaraq özü seçdiyi vəhşi, boş küçəni görür, bəlkə də, nəsə bəd bir şey baş verəcəyini qabaqcadan duyur, hiss edir, düşünürdü *Bu həyat mənim üçün deyil. Bura mənim yerim deyil*

Bu, əvvəlcə onu möhkəm sarsıtdı: amansız, bivec bir Nyu İnqlənd buzluğu birdən-birə Nyu İnqlənd Bibliyasındakı cəhənnəm oduna verilmişdi. Bəlkə də, o bu amansız, vəhşi bir istəkdən doğan özünüinkarda neçə-neçə qısır, geri qaytarılması mümkün olmayan illərdən yığılıb qalmış neçə-neçə arzu və istəyin gizləndiyini, bu qadının özünü öz əcdadlarının əbədi cəhənnəm oduna

tuş edərək, təkcə günah deyil, həm də çirkab gölündə üzə-üzə o illərin heyifini, elə bir gecədə almağa, onları hamısının əvəzini elə bir gecədə (sanki, bu onun yer üzündə son gecəsiymiş kimi) çıxmağa çalışdığını başa düşürdü. Bu qadında yasaq, ədəbsiz sözlərə qarşı qarşısıalınmaz bir ehtiras, onlar ondan eşitməyə, öz dilinə gətirməyə acgöz bir hərislik vardı. O, yasaq mövzulara, yasaq şeylərə adamı qorxudan, sadəlövh bir uşaq marağı göstərirdi – cərrahın insan əzalarına, onların imkanlarına dərin, heç vaxt zəifləməyən elmi marağı kimi. Gündüzlər isə qarşısında təmkinli, som-soyuq, demək olar ki, kişiyəbənzər, həm də xeyli yaşlı, ömrünün iyirmi ilini tənhalıq içərisində, heç bir qadın qorxu-ürküsü keçirmədən, uzaq qonşuluğunda yalnız zəncilərin – o da az-maz, – məskunlaşdığı yalqız bir evdə yaşayan bir qadın görürdü; bu qadın hər gün müəyyən saatlarda sakitcə masa arxasında əyləşib həm ruhani, həm bankir, həm də tibb bacısı sifətində qocalara, cavanlara sakitcə məsləhətlər yazırdı.

Həmin dövrdə (bunu bal ayı adlandırmaq olmazdı) Kristmas onun, eşqə düşmüş qadın oyanışının hər mərhələsindən necə keçdiyini diqqətlə izləyirdi. Tezliklə qadının davranışı onu təkcə heyrətə gətirmədi, həm də təşvişə saldı, çaşdırdı. Qadının qısqanclıq tutmaları onu qəfil yaxaladı. Onun belə bir təcrübəsi ola bilməzdi; bunun üçün nə mümkün səhnə, nə də rəqib olacaq bir qadın vardı; Kristmas bilirdi ki, qadın özü də bunu yaxşı bilir. Elə bil, qadın bütün bunları qəsdən uydurmuşdu – qəsdən onunla oyun oynayır, tamaşa çıxarırdı. Ancaq o bu rolu elə bir xırsla, elə bir qətiyyət və əminliklə oynayırdı ki, Kristmas birinci dəfə onun sayıqladığını güman etdi; üçüncü dəfə isə bu qənaətə gəldi ki, qadın dəli olub. Qadın birdən-birə, gözlənilmədən eşq ayinlərinə qarşı şiddətli bir həvəs, zəngin bir ixtiraçılıq bacarığı nümayiş etdirməyə başladı. Namələr, məktublar üçün gizli bir yer ayırmağı tələb etdi. Bunun üçün uçub dağılmaqda olan at tövləsinin arxasındakı dirəyin oyuğunu seçdilər. Qadının yazdığı məktubları ora necə qoyduğunu bir dəfə də olsun öz gözlərilə görə bilmədi, ancaq o, hər gün ondan gedib ora baxmağı tələb edirdi; gedib oyuğu yoxlayanda isə hökmən ordan məktub tapırdı. Getmədən, o oyuğu yoxlamadan yalandan orda heç nə tapmadığını deyəndə isə məlum olurdu ki, yalanını tutsun deyə qadın ona tələ qurub. Və qadın dərhal qışqırıb hönkür-hönkür ağlayır, haray-həşir qoparırdı.

Bəzən o məktublarda qadın hansısa saatdan sonra evə gəlməyini tələb edirdi, halbuki, o evə uzun illərdi ondan başqa heç bir ağ adamın ayağı dəyməmişdi; iyirmi il idi ki, qadın bütün gecələrini bu evdə tək-tənha keçirmişdi; sonra düz bir həftə qadın onu evə, öz yanına pəncərədən girməyə məcbur etdi. Bu zaman bəzən hardasa gizlənirdi və Kristmas qaranlığa bürünmüş evdə bütün künc-bucağı arayıb axtarmalı olur, axırda onu hardasa anbarda, ya da yaşanmayan otaqların birində tapırdı; qadın, gözləri qaranlıqda pişik gözü kimi par-par parıldaya-parıldaya, nəfəsi kəsilmiş, tıncıxmış halda burda onu gözləyirdi. Bəzən də ətrafdakı kolluqlardan birində görüş təyin edirdi, o da onu orda çılın-çılpaq vəziyyətdə, ya da cırıq-cırıq, parça-parça olmuş

paltarda, qızğın bir nimfomaniya[17] tutması içərisində tapırdı; bu vaxt onun ağappaq bədəni qaranlıqda elə erotik, elə nümayişkaranə pozada olurdu ki, belə bir şeyi yalnız Petroniya dövrünün Berdsleyi çəkə bilərdi. Qadın boğuq, heyi kəsilmiş nəfəs hıqqıltsı ilə dolu divarsız yarıqaranlıqda dəlisovlaşır, əlləri özbaşınalıq eləyir, saçının hər tükü səkkizayaqlı ilbiz caynaqları kimi dikəlib canlanır və dəlisov bir pıçıltı eşidilirdi: "Zənci! Zənci! Zənci!"

Altı aya qadın tamam korlandı. Demək olmazdı ki, Kristmas onu korlayıb yoldan çıxarmışdı. Çünki bütün nizamsız, adsız əlaqələrinə baxmayaraq, onun həyatı sağlam və normal günah içərisində keçən hər bir həyat kimi, demək olar ki, kifayət qədər ədəbli olmuşdu. Bu korlanmanın mənşəyi qadından da çox onun özü üçün anlaşılmazdı. Hardan əmələ gəlir bu – o, mat-məəttəl qalmışdı; ancaq bundan betəri o idi ki, bu korlanma onun özünə də sirayət etmişdi. Qorxmağa başladı. Nədən – özü də bilmirdi. Amma artıq kənardan özünü bataqlığa düşüb boğulan, onun dibsiz dibinə sorulan adam kimi görürdü. Bu düşüncəsi hələ fikir şəklində formalaşmamışdı. Hələ öz qarşısında yalnız küçəni – kimsəsiz, vəhşi, soyuq küçəni görürdü. Məhz soyuq; bəzən dərin fikrə gedir, ucadan öz-özünə deyirdi: "Burdan getmək lazımdı. Burdan rədd olub getmək lazımdı".

Amma nə isə həmişə fatalistin[18] əl-qolunu bağlayan bir şey – maraqmı, bədbinlikmi, adi ətalətmi onu burdan çıxıb getməyə qoymurdu. Qadınla əlaqə isə davam edir, getdikcə onu gecələrin bu despotik, yorucu azğınlığına daha dərindən bağlayırdı. Çox güman ki, buradan çıxıb gedə bilməyəcəyini özü də anlayırdı. Hər halda, heç yerə getmir və bir bədəndə iki məxluqun, sanki, ay işığı altında ağaran və növbə ilə bir-birinin başından basıb suya batırmağa çalışan, sonra da silkinib qara, yapışqan gölməçənin səthinə çıxan iki fiqurun necə boğuşduğunu sakitcə müşahidə edirdi. Onlardan biri – birinci mərhələyə aid sakit, təmkinli, soyuq qadın əxlaqsızlığa və düşkünlüyə məhkum olsa da, bu əxlaqsızlığa və məhkumluğa yuvarlanarkən belə öz toxunulmazlığını, möhkəmliyini qoruyub saxlamağa can atırdı; ikincisi isə bu toxunulmazlıqdan, bu möhkəmlikdən qeyzlə imtina edərək, qara dibsiz uçuruma can atır, yenidən cismani təmizliyə qovuşmağa çalışırdı; zira o bu təmizliyi o qədər uzun müddət qoruyub saxlamışdı ki, indi onu heç cür itirə bilməzdi. Bəzən onlar iki bacı kimi bir-birinə sarılmış halda qara səthin üzünə çıxır, üst-başlarından qapqara su axırdı. O zaman əvvəlki aləm geri qayıdırdı: otaq, divarlar, pəncərədən o tayda yay gecəsində qırx ildən bəri uğuldaşan cücülərin saysız-hesabsız dinc xoru... Qadın yad bir adam kimi vəhşi, əlacsız gözlərlə ona baxırdı; o isə bu qadına baxa-baxa düşüncəsindəki fikrini təzələyirdi: "Dua eləmək istəyir, amma heç bunu da bacarmır".

Qadın şişməyə başladı.

---

17 – ı ə ə ə ə ə ə ç

18 – ğ

Bu mərhələ birincidən fərqli olaraq birdən – kulminasiya nöqtəsində qırılmadı. O elə tədricən, elə yavaş-yavaş üçüncü mərhələyə çevrildi ki, birinin harda bitib, o birinin hardan başladığını heç özü də deyə bilməzdi. Yay da payıza bu cür keçir, günəş qərbdə batarkən kölgələr uzandığı kimi payızın soyuq nəfəsi də tədricən, qarşısıalınmaz bir qüvvə ilə yayın başının üstünü alır; ilk payızda ölgün yay da sönməkdə olan ocağın qəfil alovları kimi hərdən bir bu cür birdən canlanıb sonra öləziyir. Bu mərhələ iki il davam etdi. O, hələ də yonqar sexində işləyirdi, boş vaxtlarında isə yavaş-yavaş, ehtiyatla, yalnız bir neçə etibarlı alıcıya viski satmağa başlamışdı; bu alıcıların heç biri digərini tanımırdı. Qadın bundan tamam xəbərsiz idi, halbuki, o öz viski ehtiyatını onun ərazisində gizlətmişdi, alıcılarla örüşün o tayındakı meşəlikdə görüşürdü. Əslinə qalsa, bilsəydi belə, buna etiraz etməzdi. Elə missis Makiçern də gizli kəndirə etiraz etməzdi; çox güman ki, o bu qadına da, missis Makiçernə də öz gizlin işlərini elə eyni səbəbə görə açıb deməmişdi. Missis Makiçern və kəndir barədə, ona vermək istədiyi pulu hardan tapdığını demədiyi ofisiant qız barədə, nəhayət, indiki məşuqəsi və viski barədə düşüncələrə dalarkən viskini pul qazanmaq xatirinə deyil, onu əhatə edən qadınlardan nəyisə gizlətməyə məhkum olduğuna görə satdığına inanmağa hazır idi. Bu arada bəzən o qadını gündüzlər də görürdü – uzaqdan, evin arxasında; tərtəmiz, hər yeri örtülü ciddi libasın altında həddən artıq şişkin, həddən artıq yetişmiş, bataqlıq törəməsi kimi ilk toxunuşdaca çirkab axıtmağa hazır olan nəsə yaşayır, açıq-aşkar tərpəşirdi; qadın bir dəfə də olsun dönüb nə daxmaya, nə də ona sarı baxmırdı. Və digər – yalnız qaranlıqda yaşayan məxluq barədə düşünəndə ona elə gəldi ki, indi gündüz işığında o, gecə öz bacısı tərəfindən boğulub öldürülmüş bir qadının xəyalatını görür və bu xəyalat indi hətta inildəmək qabiliyyətini belə itirmiş olan köhnə dinclik səhnələrini məqsədsiz-filansız, boş-boşuna dolaşmağa çıxıb.

Əlbəttə, ikinci mərhələnin ilkin qəzəbi sonsuzacan davam edə bilməzdi. Əvvəlcə bu bir şəlaləyə bənzəyirdi; indi isə qabarma və çəkilmələrlə əvəz olunmuşdu. Qabarma vaxtı qadın, demək olar ki, həm özünü, həm də onu aldada bilirdi. Bunun yalnız qabarma olduğu düşüncəsi, sanki, onda daha şiddətli etiraz, daha şiddətli qəzəb doğururdu və bu etiraz, bu qəzəb onun özünü də, tərəf-müqabilini də tamamilə ağlasığmaz şəhvani eksperimentlərə sövq edir, öz güclü təzyiqi ilə onları vurub, öz iradələrindən asılı olmadan, kim bilir, haralara tullayırdı. Sanki, qadın başa düşmüşdü ki, vaxtı azdır, ömrünün payızı qapının ağzını kəsdirib, amma bu payızın onun üçün nə demək olduğunu hələ bilmirdi. Yəqin ki, bu zaman onu yalnız instinkt – şəhvani və itirilmiş illərin əvəzini çıxmaq instinkti idarə edirdi. Sonra çəkilmə başlayırdı. Və onlar yorulub əldən düşmüş, doymuş halda, güclü şimal-qərb küləyi yenicə avazıyıbmış kimi quruda sərilib qalır, yad adamlar tək ümidsiz, narazı halda (o, bezginlik içərisində, qadın isə gözlərində dərin bir ümidsizlik) bir-birinə baxırdılar.

Ancaq payız artıq qadının üzərinə çökmüşdü. O, uşaqdan danışırdı, elə bil, instinkti ona xəbərdarlıq etmiş, özünə bəraət qazanmağın, ya da günahını yumağın vaxtı gəlib çatdığını bildirmişdi. Bu barədə o, çəkilmə vaxtında danışırdı. İlk vaxtlar onların hər gecəsi həmişə sel kimi gur axınla başlayırdı, sanki, gündüz saatlarının ayrılığı onun bir anlığa da olsa gur şəlaləni təsəvvürünə gətirə bilməsi üçün qurumaqda olan xırda axınları bir yerə yığıb cəmləşdirirdi. Amma sonra hətta o axınların da buna gücü yetmədi: indi Kristmas qadının yanına yad adam kimi, könülsüz, artıq necə geri qayıdacağı barədə düşünə-düşünə gedirdi; qaranlıq yataq otağında yad adam kimi onunla yanaşı əyləşib, sanki, üçüncü – yenə yad bir adam haqqında söhbət edə-edə ondan uzaqlaşırdı. Birdən bunu da anladı ki, indi onlar, sözləşiblərmiş kimi, yalnız yataq otağında görüşürlər, elə bil, artıq evlidilər. Daha o bu qadınla bu qaranlıq evdə gizlənqaç oynamalı olmurdu; onun qadını tapmaq üçün hər yeri arayıb axtardığı, qadınınsa, onu bürüyən şəhvani həyəcandan nəfəsi tıncıxaraq, bərkdən tövşüyə-tövşüyə qaranlıq evin hansısa küncündə, ya da açıq havada, kolluğun içində çılın-çılpaq gizləndiyi gecələr artıq at tövləsinin arxasındakı dirəyin oyuğundakı gizlin namə yeri kimi çoxdan keçmişə gömülmüşdü.

Hər şey ölüb getmiş, keçmişdə qalmışdı: hətta son dərəcə qüsursuz oynanılan gizlin biabırçı şəhvət və qısqanclıq səhnələri belə. Hərçənd xəbəri olsaydı, indi onun qısqanclıq üçün əsası da vardı. Təxminən həftədə bir dəfə Kristmas, guya, iş dalınca harasa gedirdi. Onun Memfisə getdiyindən, orda başqa qadınlarla – pulla alınan qadınlarla ona xəyanət etdiyindən xəbəri yox idi. Bunları bilmirdi. Bəlkə də, indiki halında bunlara inanmazdı da; nə qədər pərt olsa da, heç bir dəlil-sübuta da qulaq asmazdı. Çünki indi o, bir qayda olaraq, gecələrin çox hissəsini yuxusuz keçirirdi, yalnız gündüzlər, nahardan sonra yatıb yuxusunu alırdı. Xəstələnib eləməmişdi; bunun günahı bədənində deyildi. Həmişəkindən də sağlam idi; iştahı da güclüydü, on iki kilo kökəlmişdi. Yuxusuzluğu bu doğurmamışdı. Bunun səbəbi qaranlığın özündə, torpaqda, öləziməkdə olan yaydaydı: ordan onu nəsə qorxunc bir şey təhdid edirdi; amma fəhmi, instinkti onu inandırmağa çalışırdı ki, bunun ona xətəri dəyməyəcək; onu qəfil haqlayıb, xəyanətkarcasına satacaq, amma heç bir ziyan vurmayacaq: əksinə, o xilas olacaq, həyat əvvəlki kimi, hətta ondan da yaxşı davam edəcək, daha qorxusuz-ürküsüz olacaq. Qorxunc olanı isə bu idi ki, o, xilas olmağı arzulamırdı. “Mən hələ dua etməyə hazır deyiləm”, – o, sakitcə, pıçıltıyla, gözləri geniş açılmış halda öz-özünə dedi, ara vermədən pəncərədən içəri dolan ay işığı isə otağı getdikcə qatı təəssüf qarışıq mümkünsüzlük soyuğuna bürüyürdü. “Məni indi dua etməyə məcbur etmə. İlahi, əzizim, qoy mən hələ bir qədər də əxlaqsızlıq girdabında qalım”. Bütün keçmiş həyatı, ac illəri indi ona boz bir tunel kimi görünürdü, onun uzaq, geriyə qaytarılması mümkün olmayan ucunda isə çılpaq, bakirəliyin boğub öldürdüyü döşləri, çox sürətlə ötüb keçən son üç ildən əvvəl olduğu kimi, əbədi tənə zərbindən göm-göm göynəyirdi. “İlahi, əzizim, bir az da möhlət ver. İlahi, əzizim, bir az da möhlət ver”.

Buna görə də indi Kristmas onun yanına gələndə onlar süst, soyuq halda, yalnızca adətkərdə olduqları üçün ehtiras ayinini yerinə yetirdikdən sonra qadın uşaqdan danışmağa başlayırdı. Əvvəlcə o, ümumiyyətlə, uşaqdan danışır, bu barədə yalnız ümumi şeylər söyləyirdi. Bəlkə də, bu sadəcə, instinktiv qadın fəndgirliyi, qadın çərənçiliyi idi, bəlkə də, belə deyildi. Hər halda, Kristmas onun niyyətini dərhal anlamadı, sonra qadının bu barədə tamamilə mümkün bir şey kimi, ciddi danışdığını başa düşəndə isə bu kəşfindən heyrətə gəldi. Dərhal "Yox" dedi.

– Nə üçün? – qadın soruşdu. Fikirli halda ona baxdı. O, qadını dərhal anladı, fikirləşdi *Ərə getmək istəyir. Uşaq bəhanədir. Mən nə qədər uşaq istəyirəmsə, o da elə o qədər istəyir* " Bu, sadəcə, tələdir, – o düşündü. – Ondan elə bunu da gözləmək lazım idi, necə ağlım kəsməyib. Bir il əvvəl burdan rədd olub getməliydim". Ancaq bunu ona deməyə qorxdu, "evlənmək" sözünün onların arasına girməsindən, dilə gətirilməsindən qorxdu, öz-özünə götür-qoy etdi: "Bəlkə, o hələ bu barədə düşünmür, mən özüm çaşıb onu bu fikrə sala bilərəm". Qadın gözünü ondan çəkmirdi.

– Axı niyə də olmasın? – qadın dedi. Onunsa beynində bir anlığa şimşək kimi çaxıb keçdi *Doğrudan da, niyə də olmasın. Bu halda ömrünün sonunadək rahatlıq, təminat əldə etmiş olarsan. Daha səfil, sərgərdan kimi yaşamassan. Axı evliliyin indiki halımdan nəyi pisdir* sonra da fikirləşdi: "Yox. Əgər buna sıyılsam, deməli kim olmaq istədiyimə çatmaq üçün sərf elədiyim bu otuz ili havayı, boş yerə yaşamışam". Dedi:

– Əgər biz uşaq istəsəydik, məncə, bunu iki il əvvəl edərdik.

– O vaxt istəmirdik.

– Elə indi də istəmirik, – o dedi.

Bu, sentyabrda olmuşdu. Milad bayramından dərhal sonra qadın ona dedi ki, hamilədir. O, sözünü qurtarmamış Kristmas öz hökmünü verdi: yalan deyir. Onda anladı ki, üç aydan çoxdur ondan bu sözləri gözləyir. Ancaq qadının sifətinə baxan kimi başa düşdü ki, yalan demir. Əmin oldu ki, yalan demədiyini qadın özü də bilir. Fikirləşdi: "İndi deyəcək ki, evlən. Amma mən, ən azı, o bunu deməmişdən qabaq qaçıb evdən çıxa bilərəm".

Lakin qadın o sözü demədi. O, çarpayıda hərəkətsiz oturmuşdu, əllərini dizlərinin üstünə qoyub, hərəkətsiz sifətini aşağı sallamışdı (şimallı və hələ də qarımış qız sifətini: sümükləri aydın bilinən, uzunsov, demək olar ki, kişi sifətinə bənzər bir sifəti; özününkünün əksinə olaraq, onun dopdolu bədəni indi həmişəkindən dadlı, vəhşicəsinə yetişmiş, dəymiş görünürdü). Qadın fikirli-fikirli, həyəcansız, sanki, tamamilə kənar bir şey haqqında danışırmış kimi dedi: " İri, koppuş. Lap elə zəncidən olan qeyri-qanuni bir uşaq. Onda atamın, Kalivinin oxşarlığını görmək istərdim. İndi istəsən, sənin üçün qaçıb getməyin əsl vaxtıdı". Ancaq o, elə bil, öz dediklərini eşitmir, dediyi sözlərə heç bir məna verə bilmirdi – artıq ölməkdə olan yayın başı üstünü payız, yarıölüm müjdəçisi kəsərkən, onun inadkarcasına son dəfə parlamasının heç bir əhəmiyyət kəsb

etmədiyi kimi. “Artıq hər şey bitdi, – qadın sakitcə fikirləşdi. – Qurtardı”. Hər şey, yalnız ümiddən savayı, qəti əmin olmaq üçün hələ bir ay da keçəcəkdi; bunu zənci qadınlardan öyrənmişdi – yalnız üçüncü ayda bunu dəqiq demək olar. Buna görə də hələ bir ay gözləməli, təqvimi izləməliydi. Səhv salmamaq üçün təqvimdə işarə qoydu; yataq otağının pəncərəsindən hər gün bu ayın necə ötüb keçdiyinə tamaşa etdi. Şaxta düşmüş, artıq bəzi yerlərdə yarpaqlar saralmağa başlamışdı. Təqvimdə işarə olunan gün gəlib çatdı və ötüb keçdi; daha dərindən əmin olmaq üçün özünə bir həftə də vaxt verdi. Sonra sevincindən çığırıb eləmədi, çünki başqa cür olacağını da gözləmirdi. “Mənim uşağım olacaq”, – sakitcə ucadan dedi.

“Sabah çıxıb gedəcəm”, – Kristmas elə həmin gün özünə söz verdi. Amma sonra fikirləşdi: “Bazar günü gedərəm. Həftəlik məvacibi alanacan gözləyim, sonra çıxıb gedərəm”. Səbirsizliklə şənbə gününü gözləməyə, hara gedəcəyini götür-qoy eləməyə başladı. Həftə ərzində bir dəfə də olsun onunla görüşmədi. Fikirləşdi ki, qadın özü onu çağıracaq. Hiss elədi ki, ilk həftələrdə olduğu kimi yenə də öz daxmasına girib çıxarkən evə tərəf baxmaqdan çəkinir. Qadını heç görmürdü. Aradabir zənci qadınlar gözünə dəyirdi; onlar payız soyuğundan qoruna bilmək üçün əllərinə keçənə bürünərək adət elədikləri cığırlarla o evə gəlib-gedir, gəlib-gedirdilər. Başqa heç nə. Şənbə günü gəlib çatdı, amma o yenə də çıxıb getmədi. “Bir az da pul toplamaq lazımdı, – fikirləşdi. – Bir halda ki, məni burdan zorla qovmurlar, heç mən də tələsmirəm. Gələn həftə gedərəm”.

Getmədi, qaldı. Hava soyumuşdu, aydın və sopsoyuq idi. Küləyin at oynatdığı daxmada pambıq adyalın altına girib evdəki yataq otağı barədə, oradakı isti divar sobası, enli, qalın, yaxşı-yaxşı sırınmış yorğanlar barədə düşünürdü. Az qala, özünə yazığı gəldi, əvvəllər heç vaxt belə şey olmamışdı. “Heç olmasa mənə başqa bir adyal verərdi”, – deyə düşündü. Onu dükandan özü də ala bilərdi. Amma almamışdı. Qadınsa təklif eləməmişdi. Gözlədi. Özü də hesab etdiyi kimi, lap çox gözlədi. Sonra bir fevral axşamı daxmaya gələndə yatağın üstündə bir məktub tapdı. Çox qısa, cəmisi bir cümlədən, az qala, əmrdən ibarət idi: gecə hökmən evə gəlməlidir. Buna təəccüb-lənmədi. Gec-tez ağlını başına yığmayan qadına bircə dəfə də olsun rast gəlməmişdi – əlbəttə, əgər onun həyatında başqa bir kişi də yox idisə. İndi dəqiq bilirdi ki, sabah burdan çıxıb gedəcək. “Elə bunu gözləyirmişəm, – o fikirləşdi. – Haqqını haçan ödəyə biləcəyimi gözləyirmişəm”. Təkcə üst-başını təzələmədi, üzünü də qırxıb təmizlədi. Özü də hiss etmədən bu görüşə əsl bəy kimi hazırlaşdı. Həmişə olduğu kimi mətbəxdə onun üçün süfrə açılmışdı; görüşmədikləri bu müddət ərzində qadın şam yeməyini bir dəfə də unutmamışdı. Çörəyini yedi, sonra yuxarı qalxdı. Tələsmədən. “Bütün gecə bizim ixtiyarımızdadır, – o fikirləşdi. – Daxmanı boş görəndən sonra sabah, birisi gün xatırlamaq istədiyi çox şey olacaq”. Qadın divar sobasının yanında əyləşmişdi. O, içəri girəndə heç başını da çevirmədi. – Kətili yaxına çək otur, – dedi.

Üçüncü mərhələ belə başladı. Bir müddət bu mərhələ onda hətta əvvəlkilərdən də möhkəm çaşqınlıq yaratdı. O bu qadından coşqun ehtiras, öz günahının lal etirafını, ən azı – əgər onun könlünü ələ almağa başlarsa – üzüyolalıq gözləyirdi; o hətta buna hazır idi də. Amma tamam özgə, qucaqlamaq istəyərkən təmkinli kişi qətiyyətiylə onun əlini kənara itələyən yad bir qadınla üzləşdi.

– Başla, – Kristmas dedi, – mənə nə sözün varsa, de. Bəlkə, bundan sonra söhbətimiz daha yaxşı alınacaq. Qorxma, bunun uşağa heç bir zərəri olmaz.

Qadın onu bircə kəlmə ilə durdurdu; ilk dəfə qadının sifətinə diqqətlə baxdı – orada soyuq, dalğın, fanatik ifadə gördü.

– Sən heç bilirsənmi ki, – qadın dedi, – öz həyatını boş yerə sərf eləyirsən? – Və o, heyrətdən yerindəcə donub qadının üzünə baxa-baxa qaldı, elə bil, qulaqlarına inana bilmirdi.

Bu sözlərin mənası ona dərhal çatmadı. Qadın bir dəfə də olsun ona tərəf baxmadı. Sifətində soyuq, hərəkətsiz bir ifadə, fikirli baxışlarını sobaya zilləmiş halda onunla yad adam kimi danışırdı, o isə təhqir olunmuş kimi, çaşqınlıq içərisində dinləyirdi. Qadın istəyirdi ki, zənci məktəblərilə bağlı işləri – yazışmaları, müntəzəm səfərləri o öz boynuna götürsün. Bu planı hərtərəfli ölçüb-biçmişdi. Bütün təfərrüatı ilə ona izah edirdi, o isə bütün bunlara getdikcə artan qəzəb və heyrət içərisində qulaq asırdı. Bu işlərə rəhbərlik ona keçəcəkdi, qadın isə onun katibəsi, köməkçisi olacaqdı: onlar məktəblərə birgə gedəcək, zənci evlərini birlikdə ziyarət edəcəkdilər; nə qədər möhkəm qəzəblənsə də o, bu planın dəlilik olduğunu yaxşı anlayırdı. Amma dinc soba işığında qadının sakit profili çərçivəyə salınmış portret kimi çılğınlıqdan uzaq və ciddi idi. O evdən çıxarkən birdən qadının uşaq barədə bir kəlmə də olsun danışmadığını xatırladı.

Qadının ağlını təmiz itirdiyinə hələ inanmağı gəlmirdi. Fikirləşirdi ki, bütün bunlara səbəb hamiləlikdir, elə buna görə də onu yaxın buraxmır, əl vurmağa qoymur. Onunla mübahisə eləmək istədi. Amma bu daş-divarla mübahisə etmək kimi bir şey oldu; qadın heç onun sözünü də kəsmədi, sakitcə axıracan dinlədi, sonra da soyuqqanlılıqla qaldığı yerdən sözünə davam etdi, elə bil, o, heç nə deməmişdi. Nəhayət, qalxıb otaqdan çıxanda o, qadının bunu hiss elədiyinə də tam əmin deyildi.

Sonrakı iki ay ərzində qadını yalnız bir dəfə gördü. Günləri həmişəki kimi keçirdi, bircə fərqi vardı ki, artıq o evə yaxın düşmürdü, yonqar sexində işlədiyi ilk aylarda olduğu kimi, yenə də şəhərdə nahar eləyirdi. Ancaq o vaxtlar, işləməyə yenicə başlayanda gündüzlər qadın haqqında fikirləşmirdi, o heç yadına da düşmürdü. İndi isə özüylə bacara bilmirdi. Heç cür fikrindən çıxmır, demək olar ki, daim gözünün önündə dururdu: evdə səbirsizliklə onu gözləyən, qır-saqqız, sərsəm bir qadın. Birinci mərhələdə o, sanki, küçədə, qarla örtülü torpaq üstündə yaşamış və evə girməyə can atmışdı; ikincisində – gününü qaynar, quduz bir qaranlıqda

keçirmişdi; indi isə boş bir düzənliyin ortasına düşmüşdü, burda nə ev, nə də qar vardı, heç külək də əsmirdi.

İndi o qorxmağa başlamışdı, halbuki, bu vaxtacan onun canına yalnız çaşqınlıq, bir də yəqin ki, nəsə bəd, qaçılmaz bir hadisə baş verəcəyinin ürküsü hakim kəsilmişdi. İndi onun viski ticarətində yeni bir şəriki də vardı: Braun adlı sərgərdanın birisiydi, yonqar sexinə yazda işə düzəlmişdi. Bu adamın axmaq, avam olduğunu başa düşürdü, amma əvvəlcə fikirləşdi: "Mən nə desəm onu eləyəcək, hər halda, buna ağlı çatar. Ona düşünmək lazım gəlməyəcək". Yalnız bir müddət keçəndən sonra öz-özünə dedi: "İndi bilirəm ki, axmaq nədir. Bu o adamdır ki, hətta özünün belə ağıllı məsləhətinə qulaq asmır". Braunu ona görə şərik götürdü ki, gəlməydi və onda nəsə şən, şux bir sadəlövhlük, kütlük vardı, ürəkli, qorxmaz adam da deyildi; bilirdi ki, bütün naqis cəhətlərinə rəğmən, istənilən qorxaq adam ağıllının əlində özündən savayı hər kəs üçün faydalı ola bilər.

Qorxurdu ki, birdən Braun o qadının bu evdə yaşadığını öyrənər və öz ağılsızlığı ucbatından onun bütün işlərini korlayar. Qadından qaçdığı üçün də ehtiyatlanırdı: gecə vaxtı onun yadına qəfil nəsə düşər, durub daxmaya gələr. Fevraldan bəri onunla bircə dəfə – qadının yanına gedib, Braunun da onunla bir yerdə daxmada qalacağını ona deyərkən görüşmüşdü. Bu, bazar günü olmuşdu. Evə gedib qadını səsləmiş, qadın da arxa artırmaya çıxıb onu sakitcə dinləmişdi. "Buna elə bir ehtiyac yox idi", – demişdi. Onda Kristmas onun nəyi nəzərdə tutduğunu anlamamışdı. Yalnız sonralar başa düşdüyü şey birdən-birə bütöv, çap olunmuş bir ifadə kimi beynində parlamışdı *O elə bilir mən bu adamı ona görə bura dartıb gətirmişəm ki, onu özümdən bir az da uzaq eləyim. Fikirləşir ki, mən elə bilirəm, bu adam yanımda olsa, daxmaya gəlməkdən çəkinəcək; məni sakit buraxacaq*

Beləliklə, bu fikri, qadının nə edə biləcəyi qorxusunu düşüncəsinə yeritdi, elə bildi ki, bunu qadının da şüuruna yeridib. Ona elə gəldi ki, əgər qadın belə fikirləşirsə, deməli, Braunun yanında qalması onu təkcə daxmaya gəlməkdən çəkindirməyəcək, həm də buna təhrik edəcək. Lakin artıq bir aydan çox keçsə də, qadın heç nə eləmir, ona yaxınlaşmaq üçün bir addım belə atmırdı, buna görə də fikirləşdi ki, indi ondan hər şey gözləmək olar. İndi özü gecələr yuxusuz qalmağa başladı. Fikirləşdi: "Mən nəsə eləməliyəm. Deyəsən, nəsə eləyəcəm".

Fəndgirlik eləyib Braundan yayınmağa, daxmaya ondan əvvəl, tək gəlməyə çalışırdı. Hər dəfə də qadını orda görəcəyindən qorxurdu. Ancaq daxmaya gəlib onu bomboş görəndə özünün qorxu keçirməyə, yalan danışmağa, tələm-tələsik evə gəlməyə məcbur qaldığı halda, qadının evdə sakit-xürrəm oturub, yalnız onu indimi, yoxsa bir az da əzab-əziyyət verəndən sonra satacağı barədə düşünməsi onu özündən çıxarır, möhkəm qəzəbləndirirdi. Başqa vaxt olsaydı, onların arasındakı münasibətdən Braunun xəbər tutub-tutmaması heç vecinə də olmazdı. Qadınlarla əlaqəli nəyisə gizli saxlamaq, yaxud onlara əsl kübar münasibəti bəsləmək onun

xarakterinə uyğun deyildi. Bu, əslində, praktik, işgüzar bir məsələydi. Qadının onun məşuqəsi olduğunu bütün Cefferson bilsəydi belə, bu onu azacıq da olsa ürkütməzdi. Gizli viski alveri və həftədə otuz-qırx dollarlıq təmiz qazanc – onu əndişələndirən yalnız buydu; elə buna görə də şəxsi həyatından heç kəsin xəbərdar olmasını istəmirdi. Bir səbəbi buydu. İkinci səbəb isə məğrurluğu ilə bağlıydı. Əgər onların arasındakı münasibətin nəyə çevrildiyindən – qadının təkcə öz həyatını alt-üst etməklə qalmayıb, onun da həyatını alt-üst etməyə, onu nəsə bir zahidə, ya da zəncilər arasında missionerə çevirməyə çalışdığından kimsə (kim olur-olsun, dəxli yoxdu) xəbər tutsaydı, hökmən ya ölər, ya da öldürülərdi. Onu da dəqiq bilirdi ki, əgər Braun onların münasibəti barədə nəyisə duysa, nəyisə bilsə, bunu hökmən qalanları da biləcək. Beləliklə, uydurmalı olduğu bütün yalanlardan, qaçaqaçdan sonra hər dəfə daxmaya yaxınlaşıb, qapının dəstəyini özünə tərəf çəkəndə fikirləşirdi ki, indi – bircə saniyədən sonra bu cür əndişə içində, tələm-tələsik evə qaçmağının əbəs olduğu üzə çıxacaq, amma yenə də ehtiyatlı olmaqdan imtina etməyə cürəti çatmır, özünün bu qorxaqlığından, acizliyindən qeyzlənərək qadına olmazın nifrət edirdi. Ancaq bir axşam qapını açanda çarpayının üstündə bir namə gördü.

İçəri girər-girməz qaranlıq otaqda adyalın üstündə çətin sezilən dördkünc, ağappaq bir şey gözünə dəydi. Bu məktubun məğzi, məzmunu onun üçün o qədər aydın idi ki, bu haqda bir an belə düşünmədi. Özündə hər hansı bir səbirsizlik duymadı, yalnız yüngüllük hiss etdi. “Hə, deməli, hər şey bitdi, – bükülü kağızı hələ əlinə götürməmiş fikirləşdi. – Yenə hər şey köhnə qaydada davam edəcək. Daha zəncilər, uşaqlar barədə heç bir söhbət olmayacaq. Axır ki, ağıllanıb. Bundan bir şey çıxmayacağını, bununla heç nəyə nail ola bilməyəcəyini başa düşüb. Başa düşüb ki, ona yalnız kişi lazımdı, kişi istəyir. Özü də kişi ona yalnız gecə lazımdı; gündüzlər neyləyir, nə işlə məşğul olur – bunun heç bir əhəmiyyəti yoxdur”. Bax, elə o anda indiyə kimi burdan nə üçün çıxıb getmədiyini başa düşməliydi. Bu dördkünc kağız parçasının onu qandaldan, zindandan da möhkəm tutub saxladığını dərhal anlamalıydı. Amma bu barədə düşünmədi. İndi o özünü yenə də xoş bir vədin, xoş bir nəşənin ağuşunda görürdü. Yenə hər şey sakit, qaydasında olacaqdı. Hər iksi belə istəyir; həm də o qadının cilovu artıq onun əlindədir. “Nəyə lazımdı o cür sarsaq-sarsaq şeylər, – hələ də açıb baxmadığı məktubu əlində tutaraq fikirləşdi, – sarsaq, murdar şeylər. O odursa, mən də mənəm. Həm də bütün bu olub-bitənlərdən, o cür sarsaq-sarsaq şeylərdən sonra”, – və gecə, işlərini görüb qurtardıqdan sonra, sakitcə deyib-gülmək vaxtı çatanda bütün olub-keçənlərə, bir-birinə, özlərinə necə güləcəklərini təsəvvürünə gətirdi.

Beləcə, məktubu heç açmadı. Sonraya saxladı, fit çala-çala üzünü qırxdı, yuyundu, paltarını dəyişdi. Bu işləri görüb qurtarmağa macal tapmamış Braun gəlib çıxdı.

– Belə-belə işlər, – Braun dedi. Kristmas onun bu sözünə heç bir reaksiya vermədi. Divara vurulmuş güzgüyə baxa-baxa qalstukunu bağladı. Braun otağın ortasında dayanmışdı: ucaboy,

arıq, cavan bir adam idi, çirkli kombinezondaydı, qarabuğdayı, iradəsiz, xoş sifəti və qaynaşan gözləri vardı. Ağzının bir qırağındakı nap-nazik, ağ çapıq xırda tüpürcək selinə bənzəyirdi. Bir qədər sonra Braun soruşdu: – Deyəsən, harasa hazırlaşırsan?

– Doğrudan? – Kristmas dedi. Ona tərəf dönmədi. Fitlə yeknəsəq, amma düzgün tərzdə nəsə minor, həzin zənci mahnısı çalırdı.

– Bir halda ki, sən artıq geyinib-kecinmisən, – Braun dedi, – onda mən yuyunmasam da olar.

Kristmas ona tərəf döndü.

– Hara hazırlaşırsan?

– Sən şəhərə getmirsən?

– Bəyəm mən belə bir şey dedim? – Kristmas dedi. Yenidən güzgüyə tərəf çevirildi.

– Hə-ə? – Braun Kristmasın boynunun arxasına baxa-baxa dedi. – Deməli, bu gün sənin nəsə başqa işin var. – O, Kristmasdan gözünü çəkmirdi. – Amma bu gecə çox soyuq olacaq, belə bir havada nəm torpaqda yatmaq müşkül işdir, özü də döşəyin arıq-marıq bir qız olsa.

– Doğrudan? – Kristmas dedi və fit çala-çala diqqətlə, tələsmədən qalstukunu boğazına bağladı. Sonra geriyə dönüb, pencəyini götürdü, əyninə geyindi; Braun gözünü ondan çəkmirdi. Kristmas qapıya tərəf getdi. – Sabaha qədər, – dedi. Qapı arxasınca örtülmədi. Bilirdi ki, Braun astanada dayanıb, onun arxasınca baxır. Ancaq o, iz itirməyə çalışmadı. Birbaş evə sarı yollandı. “Görmək istəyir, qoy görsün, – deyə fikirləşdi. – İstəyir, lap dalımca düşsün”.

Mətbəxdə onun üçün süfrə açılmışdı. Yeməyə oturmamışdan əvvəl ağzı açılmamış məktubu cibindən çıxardı, onu süfrəyə, boşqablardan birinin yanına qoydu. Məktub zərfsiz idi, onu nəyəsə qoyub ağzını surquclamamışdılar, buna görə də öz-özünə açıldı, sanki, inadla oxunmasını istəyirdi. Ancaq o məktuba tərəf heç gözünün ucu ilə də baxmadı. Yeməyə girişdi. Tələsmədən, arxayın-arxayın yeyirdi. Artıq son tikəsini yeyib qurtarmışdı ki, birdən başını qaldırıb qulaq verdi. Sonra yerindən qalxdı, pişik kimi səs salmadan, gizlincə qapıya yaxınlaşıb, onu qəfil, cəld bir hərəkətlə dartıb açdı. Bayır tərəfdən sifətini qapıya, daha doğrusu, indi onun olduğu yerə söykəyib duran Braunu önündə gördü. İşıq üstünə düşdüyü an onun sifətində gərgin bir uşaq marağı həkk olunmuşdu; Kristmasın gözləri önündə bu ifadə təəccüblə əvəz olundu, sonra isə dartınıb normal görkəm aldı. Braunun səsi təntənəli, ancaq eyni zamanda, asta, ehtiyatlı, sui-qəsdçi səs idi, elə bil, o artıq xahiş gözləmədən, məsələnin məğzinə varmadan, sadəcə, yoldaşlıq, yaxud da qadın əleyhinə kişi həmrəyliyi naminə Kristmasın tərəfinə keçmiş, onunla ittifaq qurmuşdu.

– Belə-belə işlər, – o dedi. – Deməli, sən hər gecə bura əkilirmişsən. Necə deyərlər, lap burnumuzun ucunda...

Kristmas ağzını açmadan ona bir yumruq ilişdirdi. Zərbə güclü alınmadı, çünki Braun sadəlövh, şən bir qaqıltı ilə artıq geri atılmışdı. Zərbədən sonra onun gülüşü kəsildi; cəld geriyə sıçradı, işıq selindən kənara düşüb qaranlıqda görünməz oldu, oradan onun hələ də yavaş, astadan çıxan səsi eşidildi; elə bil, yumruqdan sonra da o öz yoldaşının planını pozmaq istəmirdi, ancaq bu səs artıq sakit də deyildi, heyrətə gəlmiş, qorxmuş səs idi: "Bax bir də vursan..." Kristmas tələsmədən, səssizcə onun üstünə yeridi, Braun dalı-dalı geri çəkildi; o, boyca Kristmasdan hündür idi, amma artıq bir ayağı qaçaraqda olan bu uzundraz insan fiquru, sanki, indicə kökündən qopacaq, şappıltı ilə yerə səriləcəkdi. Yenə onun qorxuyla, yalançı təhdidlə dolu, amma bu dəfə hündürdən çıxan səsi eşidildi: "Bax bir də vursan..." Bu dəfə zərbə çiynindən tutdu, arxaya dönüb qaçmaq istədiyi an onu haqladı. Qaçmağa başladı. Yüz metr aralanandan sonra, addımlarını yavaşdıb geriyə baxdı. Sonra dayanıb ona tərəf döndü. "Eyy, sarıqarın italyan əclaf, – onu sınamaq üçün dedi və dərhal da başını geri çevirdi, sanki, səsin hündürlüyünü düzgün hesablamamışdı, o, istədiyindən bərk çıxmışdı. Evdən heç bir səs gəlmədi; mətbəx qapısı yenə qaranlıq, yenə örtülü idi. O, təkrar bərkdən qışqırdı: "Eyy, lənətə gəlmiş sarıqarın italayan əclaf! Mən sənin kiminlə mazaqlaşdığını bir gün hökmən öyrənəcəm". Heç yerdən səs gəlmədi. Hava çox soyuq idi. Geri dönüb donquldana-donquldana daxmaya yollandı.

Mətbəxə qayıdandan sonra da Kristmas masanın üstünə atdığı, hələ oxunmamış məktuba sarı baxmadı. Birbaş qapıya, pilləkənlərə tərəf getdi. Tələsmədən, təntimədən, addımlarını eyni ahəngdə ata-ata yuxarı qalxmağa başladı. Yataq otağının qapısını, onun altından düşən işığı – divar sobasının işığını gördü. Astaca qapıya yaxınlaşdı, dəstəyindən yapışdı. Sonra onu açdı və heykəl kimi yerindəcə donub qaldı. Qadın masanın arxasında, lampa işığında oturmuşdu. Kristmas tanış ciddi libasda tanış fiquru gördü, sanki, bu libası geyim-keciminə fikir verməyən kişi xeylağı üçün tikmişdilər, onu məhz belə bir adam geyinmişdi. Sonra qadının başını gördü; onun ağarmış saçları tarım, eybəcər şəkildə yığılıb top halda bir yerə bağlanmışdı, xəstə bədəndə çıxmış fıra bənzəyirdi. Qadın başını qaldıranda isə gözü polad sağanaqlı eynəyə sataşdı, əvvəllər onun eynək taxdığını heç vaxt görməmişdi. Kristmas hələ də qapının ağzında dayanmışdı, hələ də onun dəstəyindən tutmuşdu, yerindən tərpənmirdi. Ona elə gəldi ki, öz içində gerçəkdən bu sözləri eşidir *O məktubu gərək oxuyaydım. O məktubu gərək oxuyaydım* və fikirləşdi: "Mən nəsə eləyəcəm. Nəsə eləyəcəm".

Üstü kağızla dolu – qadın məhz onlara görə yerindən qalxmamışdı – masanın böyründə dayanıb, onu nəsə ağlasığmaz bir şeyə dəvət edən buz kimi soyuq səsi dinləyəndə də o sözləri eşidirdi; dili qadının ardınca onun dediklərini təkrar edir, gözləri masanın üstünə səpələnmiş müəmmalı kağızlara, sənədlərə baxır, beynindən isə rahat, arxayın tərzdə bu fikirlər keçirdi: görən bu, nə kağızıdı? Bəs o sənəd nə sənədidi?

– Məktəbə, – onun dili təkrar etdi.

– Hə, – qadın dedi. – Səni qəbul edərlər. İstənilən biri qəbul edər. Mənim hesabıma. İstədiyini seçə bilərsən. Biz hətta pul da ödəməyəcəyik.

– Məktəbə, – onun dili təkrar etdi. – Zənci məktəbinə?! Mən?!

– Hə. Sonra da Memfisə gedərsən. Piblsin kontorunda hüquq öyrənə bilərsən. O, sənə öyrədər. Sonra da bütün hüquqi məsələləri öz öhdənə götürərsən. Bax, burdakıların hamısını. Pibls nəylə məşğul olur, hamısını.

– Sonra isə zənci vəkilin konturunda hüquq öyrənim, – onun dili dedi.

– Hə. O zaman bütün işləri, bütün pulları sənə verəcəm. Hamısını. Onda haçan sənə pul lazım olarsa, özün... özün necə bilirsənsə, elə də eləyərsən; hüquqşünaslar yolunu bilirlər... elə eləmək olar ki, onları götürüb xərcləyəndə, hətta bundan xəbər tutsalar belə, heç kim səni nədəsə günahlandıra, töhmətləndirə bilməz... hətta o pulu qaytarıb yerinə qoymasan da... amma sən qaytara da bilərsən, heç kim bundan xəbər tutmaz...

– Zənci kollecinə? Zənci vəkilin yanına? – Yox, – onun səsi sakitcə, hətta etiraz kimi də deyil, sadəcə, bir xatırlatma kimi çıxdı. Onlar bir-birinə baxmırdılar; o, içəri girdiyi andan bəri qadın bir dəfə də olsun başını qaldırıb ona baxmamışdı.

– Onlara aç de.

– Zənciləre deyim ki, mən də zənciyəm? – Nəhayət, qadın başını qaldırıb ona baxdı. Sifəti çox sakit idi. Artıq o, yaşlı qadın sifətiydi.

– Hə. Lazımdı. Səndən pul almamaları üçün. Mənim hesabıma olsun deyə.

O anda Kristmas, sanki, öz dilinə əmr elədi: “Bəsdir. Bəsdir üyüdüb tökdün. Qoy mən də öz sözümü deyim”. Qadına tərəf əyildi. O isə yerindən tərpənmədi. İki sifət, az qala, bir-birinə toxundu; biri soyuq, ölü kimi ağappaq, fanatik və sərsəm idi, o biri isə perqament rəngindəydi, dodaqlar səssiz və sırtıqcasına rişxənd edirmiş kimi büzülmüşdü. Kristmas sakitcə dedi:

– Sən qocasan. Əvvəllər buna heç fikir verməmişəm. Qoca qarı. Artıq saçların da ağarıb. – Qadın dərhal onu vurdu – ovcunun içiylə, oturuşunu belə dəyişmədən. Onun bu yumşaq, cır şapalağı qarşısında Kristmasın zərbəsi əks-səda kimi partladı. Yumruqla vurdu, sonra isə, sanki. üzərindən uzun, aramsız külək əsibmiş kimi, dartıb qadını kətildən qaldırdı, özünə tərəf çəkdi, gözlərini hərəkətsiz, soyuqqanlı sifətə zillədi və birdən nəyisə dərk etdi, bu dərk aramsız külək kimi iliyinə işlədi. – Sənin uşağın-zadın yoxdu, – dedi. – Heç vaxt da olmayıb. Qocalıqdan başqa heç bir dərdin yoxdu. Sadəcə, qocalmısan, hər şeyin bitib-tükənib, heç nəyə yaramırsan. Bütün qüsurun da elə budu. – Qadını ağuşundan buraxdı, sonra onu bir də vurdu. Qadın çarpayının üstünə sərildi, ona baxdı, o isə yenidən bu sifətə bir yumruq ilişdirdi, sonra da başı üzərində dayanıb, qadının haçansa onun dilindən eşitməyi çox sevdiyi və eşidərkən də aşağıda, qılçalarının arasında pıçıltılı, pozğun bir tumar hiss etdiyi (bunu özü ona demişdi) ədəbsiz sözləri

üyüdüb tökməyə başladı. – Vəssalam. Sən, sadəcə, bitib tükənmisən. Artıq heç nəyə yaramırsan. Vəssalam.

Qadın yanı üstə, ağzı qanamış halda, üzü ona tərəf uzanmışdı, gözlərini ondan çəkmirdi.

– Kaş ikimiz də öləydik, – dedi.

Adyalın üstündəki məktubu qapını açan kimi gördü. Sonra çarpayıya yaxınlaşdı, onu götürüb açdı. Hasar dirəyindəki oyuğu indi özgə söhbətlərindən, ömründə yaşamadığı başqa bir həyatdan götürülən bir şey kimi xatırladı. Çünki kağız, onun forması, görünüşü, yazıldığı mürəkkəb – hamısı o vaxtkılarla eyni idi. Bu məktublar heç vaxt uzun olmazdı; indi də uzun deyildi. Ancaq o vaxtkı lal vədləri, sözlə ifadə olunmayan sevinc, nəşə hisslərini indi bu məktub ona heç cür xatırlatmırdı. Orda yazılanlar məzar yazısı kimi soyuq, əmr kimi qısa, yığcam idi.

İlk düşüncəsi ora getməmək oldu. Fikirləşdi ki, getməyə cəsarəti çatmaz. Sonra anladı ki, əksinə, getməməyə cəsarəti çatmayacaq. Bu dəfə paltarını dəyişmədi. Tərli iş geyimində özünü may ayının axırlarının ala-toranlığına verdi, gəlib mətbəxə çıxdı. Artıq burda onun üçün süfrə açılmırdı. Bəzən o, yaxınlıqdan keçərkən, mətbəx masasına göz atıb fikirləşirdi: “İlahi. Görən, axırıncı dəfə mən haçan rahatca oturub eləmişəm”. Ancaq bunu heç cür xatırlaya bilmirdi.

Evə girib, pilləkənlərlə yuxarı qalxdı. Hələ pilləkəndəykən qadının səsini eşitdi. Yuxarı qalxıb, yataq otağının qapısına yaxınlaşdıqca bu səs daha ucadan eşidilirdi. Qapı açıq deyildi, örtülüydü; yeknəsəq səs onun arxasından gəlirdi. Sözləri seçə bilmirdi; yalnız yeknəsəq uğultu eşidirdi. Onları anışdırmağa cəsarəti çatmadı. Qadının bu saat nə işlə məşğul olduğunu anlamağa ürək eləmədi. Dayanıb gözlədi, bir qədər sonra səs kəsildi, qadın qapını açdı, o, içəri girdi. Çarpayının yanından keçərkən döşəməyə göz atdı, ona elə gəldi ki, yerdə diz yerlərinin izi aydın seçilir, dərhal da gözünü ondan çəkdi, sanki, orda öz ölümü görmüşdü.

Həmişə olduğu kimi, çıraq hələ yandırılmamışdı. Onlar oturmamışdılar. İki il əvvəlki tək yenə də qaranlıqda ayaq üstə dayanıb danışırdılar və qadının səsi yenə köhnə bayatılar oxuyurdu: “... yaxşı, əgər istəmirsənsə məktəb olmasın... Onsuz da ötüşmək olar... Ruhuna nə deyirsən... Tövbə eləmək...” O isə som-soyuq, hərəkətsiz halda dayanıb, qadının haçan qurtaracağını gözləyirdi. “... cəhənnəm odu... əbədi, əbədi əzab-əziyyət...”

– Yox, – o dedi. Qadın da onu sakitcə dinləyirdi; o bilirdi ki, qadını, qadın da bilirdi ki, onu inandıra bilməyib. Nə o, nə də qadın – heç biri təslim olmadı; ən pisi də bir-birini rahat buraxmadılar, o heç çıxıb getmədi də. Və onlar, sanki, öz törəmələrilə – öz günah və həzzlərinin saysız-hesabsız kölgələrilə dolu bu səssiz alaqaranlıqda zülmətin yavaş-yavaş çeynəyib udduğu hərəkətsiz, yorğun, bomboş və dikbaş, heç nəyə əyilməyən iki sifət kimi üz-üzə dayanmışdılar.

Sonra Kristmas ordan çıxdı. Yeknəsəq, həlim, ümidsiz, heç vaxt bilməyə, anışdırmağa cəsarəti çatmayacaq şeylərdən və kəslərdən danışan səs isə qapı arxasınca tam örtülənə, cəftəsi

cırıldayıb bağlananacan qulağından getmədi. Düz üç aydan sonra, bir avqust gecəsində baxımsız bağçada ağacların altında oturub, iki mil aralıdakı məhkəmə binasındakı saatın əvvəlcə onu, sonra isə on biri vurduğunu eşidəndə, ağlına belə bir sakit əminlik hakim kəsildi: o, kor taleyin itaətkar quludur; hərçənd ona elə gəlirdi ki, özü buna inanmır. Öz-özünə *Mən bunu eləməliydim* dedi, artıq keçmiş zamanda danışırdı: *Mən bunu eləməliydim. O özü belə dedi*

Qadın bunu iki gecə əvvəl demişdi. Kristmas yenə daxmada məktub tapmış, onun yanına getmişdi. Pilləkənlərlə yuxarı qalxdıqca yeknəsəq səs həmişəkindən daha bərk, daha ucadan və daha aydın eşidilirdi. Səbəbini yuxarı qalxanda gördü. Bu dəfə qapı açıq idi, qadınsa çarpayının böyründə dizi üstə yerə çökmüşdü, o, içəri girəndə də ayağa qalxmadı. Heç yerindən qımıldanmadı da; səsi də kəsilmədi. Başı aşağı əyilməmişdi. Sifəti, demək olar ki, qürurla yuxarı baxırdı, sanki, mütiliyin dini ehkamlara uyğun bu pozası qürurdan doğmuşdu və səsi alaqaranlıqda çox mülayim, sakit, təmkinli, özünü fəda edirmiş kimi çıxırdı. Elə bil, onun içəri girdiyini sezmədi, sözünü bitirməyənədək bunun fərqinə varmadı. Yalnız sözünü bitirəndən sonra başını geri çevirdi.

– Mənimlə yanaşı diz çök, – dedi.

– Yox, – Kristmas dedi.

– Diz çök, – qadın dedi. – Onsuz da Onunla sən özün danışmayacaqsan. Yalnız diz çök. Yalnız Ona doğru ilk addımı at.

– Yox, – o dedi. – Mən gedirəm.

Qadın yerindən tərpənmədi, aşağıdan yuxarı, çiyninin üstündən ona baxdı.

– Co, – dedi, – sən qalacaqsan? Heç olmasa bunu eləyəcəksən?

– Hə, – o dedi. – Qalacam. Amma bir az tez ol.

Qadın yenidən dua etməyə başladı. Sakit, astadan, elə həmin mütilik və qürur içərisində dua edirdi. Kristmasın ona öyrətdiyi xüsusi sözləri dilə gətirmək lazım gələndə, onları dilə gətirir, qətiyyətlə, dili dolaşmadan tələffüz edir, Allahla elə danışırdı ki, sanki, O, kişiydi və burda, bu otaqda digər iki kişinin arasındaydı. Qadın sakit, yeknəsəq, cinsi bilinməyən bir səslə özü haqda, onun haqda iki yad adam kimi danışırdı. Sonra susdu. Sakitcə yerindən qalxdı. Alaqaranlıqda üz-üzə dayandılar. Bu dəfə qadın sual da vermədi, o isə ona cavab verməli olmadı. Bir qədər keçəndən sonra qadın dedi:

– Yalnız bir şey qalır.

– Yalnız bir şey qalır, – o da dedi.

“Artıq hər iş görülüb, hər şey bitib”, – o, qaranlıq kolluqda oturub, saatın son zənglərinin uzaqda necə öləzidiyinə qulaq verə-verə sakitcə fikirləşdi. İndi oturduğu yer iki il bundan əvvəl, o sərsəm gecələrin birində qadını haqlayıb tapdığı yer idi. Ancaq bütün bunlar başqa zamanda, başqa həyatda baş vermişdi. İndi isə bura sakit, dinc yer idi, üstündə oturduğu qaranlıq torpağın

nəfəsi də somsoyuğuydu. Ətrafı bürümüş qatı sükut içərisində o, yaşamış olduğu bütün zamanların saysız-hesabsız səslərini eşidirdi – sanki, bütün keçmişi birrəngli naxışla bəzədilmişdi. Və onun ardı vardı: sabahkı gecə, birrəngli naxışa bürünəcək bütün sabahlar onun davamına, ardına çevriləcəkdi. Bu barədə düşünür, saysız-hesabsız təkrarlardan ibarət olan bu davama sakitcə heyran qalırdı; zira haçansa baş verənlərin, olanların hamısı bir-birinin eyni olub, zira sabah da olacaqlar və olmuşlar eyni olacaq. Vaxt gəlib çatdı.

O, torpağın üstündən qalxdı. Kölgədən çıxıb evin ətrafına dolandı, mətbəxə girdi. Ev qaranlıq idi. Səhər tezdən daxmadan çıxandan sonra bir daha ora qayıtmamışdı, buna görə də qadının ona məktub qoyub-qoymadığını, indi onu gözləyib-gözləmədiyini bilmirdi. Buna baxmayaraq, ehtiyatla yeriməyə, səs salmamağa çalışmırdı. Sanki, yuxu deyilən şey ağlına belə gəlmirdi, qadının yatmış olub olmadığı vecinə də deyildi. Tələsmədən pilləkənlərlə yuxarı qalxıb yataq otağına girdi. Demək olar ki, elə o dəqiqə çarpayıdan qadının səsi eşidildi:

– Çırağı yandır.

– Bunun üçün işıq lazım olmayacaq, – o dedi.

– Yandır çırağı.

– Yox, – dedi. Çarpayının qırağında dayanmışdı. Ülgüc əlindəydi. Hələ ağzını açmamışdı. Qadın daha heç nə demədi, birdən Kristmas, sanki, bədəninin ondan ayrıldığını hiss elədi. Bədəni masaya yaxınlaşdı, əlləri ülgücü onun üstünə qoydu, çırağı axtarıb tapdı, kibriti çəkdi. Qadın yataqdan qalxıb oturmuşdu, kürəyini çarpayının baş tərəfinə söykəmişdi. Gecə köynəyinin üstündən şala bürünüb, uclarını sinəsinə sıxmışdı. Əllərini şalın üstündən bir-birinə çatıb, onun qatları altında gizlətmişdi. Kristmas masanın yanında dayanmışdı. Bir-birinə baxırdılar.

– Sən mənimlə dua etmək üçün diz çökəcəksənmi? – qadın dedi. – Bunu səndən xahiş eləmirəm.

– Yox, – o dedi.

– Mən bunu xahiş eləmirəm. Səndən xahiş eləmirəm. Mənimlə birlikdə diz çök!

– Yox.

Onlar bir-birinə baxırdılar.

– Co, – qadın dedi. – Son dəfə deyirəm. Mən xahiş eləmirəm. Bunu yadında saxla. Diz çök!

–Yox, – o dedi. Və bu an qadının əllərinin bir-birindən aralandığını, sağ əlin şalın altından çıxdığını gördü. Onda qədimi, demək olar ki, kiçik tüfəng boyda, amma ondan ağır olan bir atımlıq dayandoldurum tapança vardı. Lakin nə tapançanın, nə onu tutan əlin divardakı kölgəsi azacıq da olsa tərəddüd içində deyildi, onların hər ikisi qorxunc məxluqa bənzəyirdi; geriyə dartınaraq hər an öz ovunun üzərinə atılmağa hazır zəhmli ilan başına bənzəyən və artıq çəkilmiş olan tətiyin də müdhiş kölgəsi onlara qarışmışdı; o da tərəddüd etmirdi. Qadının da gözlərində

tərəddüd əlaməti yox idi. Bu gözlər tapança lüləsinin qara dairəsi kimi donub qalmışdı. Onlarda nə ehtiras, nə də qəzəb hiss olunurdu. Təəssüf hissinin, ümidsizliyin, əminliyin özü kimi hərəkətsiz və sakit idilər. Ancaq Kristmas indi onlara baxmırdı. İndi tapançanın divardakı kölgəsini izləyirdi; elə bu vaxt tətiyin açılmağa hazır kölgəsi birdən gurladı.

Yolun ortasında dayanıb, yaxınlaşmaqda olan fənərlərin işığı altında əlini yuxarı qaldırsa da qabaqdan gələn maşının dayanacağına ümidi yox idi. Amma dayandı – gülməli tərzdə qəfil çığırtı ilə yolu cırmaqlayıb, sanki, burnu ilə yeri dimdiklədi. Balaca, köhnə, əzik-üzük bir maşın idi. Ona yaxınlaşanda Kristmasa elə gəldi ki, iki gənc sifət iki saralmış, çaşqın şar kimi fənər işığında havada üzür; daha yaxın sifət – qızın sifəti qorxudan dəhşətə gəlib heysiz halda geri dartındı. Ancaq həmin an o, bunu görmədi.

– Hə, nə deyirsiniz, getdiyiniz yerəcən məni də apara bilərsiniz? – soruşdu. Heç birindən səs çıxmadı; onlar lal və anlaşılmaz bir qorxu içərisində ona baxırdılar, amma o özü bunu hiss etmədi. Arxa qapını açıb maşına mindi.

İçəridə yerini rahatlayanda, qız boğuq səslə hıçqırmağa başladı, qorxunun şiddəti artdıqca, yəqin ki, o da ona uyğun güclənəcəkdi. Maşın hərəkətə gəldi; sanki, birdən irəli atıldı, yeniyetmə oğlan isə əlini sükandan çəkmədən, başını yana döndərmədən pıçıltıyla qıza acıqlandı: “Sakit ol! Sus! Yeganə xilas yolumuz bundadır. Susacaqsan, ya yox?” Kristmas bunu da eşitmədi. O, arxada oturmuşdu və qabaqda qorxunun at oynatdığı ağlına da gəlmirdi. Yalnız bir anlığa fikrindən keçdi ki, bu cavan oğlan maşını bu qədər dar yolda, deyəsən, yaman bərk sürür.

– Bu yol hara gedir? – o soruşdu.

Oğlan ona cavab verdi və üç il bundan əvvəl, ilk dəfə Ceffersona gələrkən zənci uşağın dediyi şəhərin adını çəkdi. Sürücü oğlanın səsi nəsə yüngül, qupquruydu.

– Siz ora getmək istəyirsiniz, rəis?

– Lap yaxşı, – Kristmas dedi. – Hə. Hə. Yarayar. Bu mənim işimə yarayır. Siz də ora gedirsiniz?

– Əlbəttə, – oğlan yüngül, boğuq səslə dedi. – Siz hara istəsəniz. – Yanındakı qız yenə də körpə heyvan balası kimi astadan için-için zarımağa başladı; oğlan isə taxta kimi qupquru baxışlarını maşının atlana-atlana şütüdüyü yoldan çəkmədən yenə də astadan, pıçıltıyla onun üstünə çığırdı: – Suss! Sakit ol. Suss! Suss! – Ancaq Kristmas bu dəfə də heç nə görmədi. O, parlaq fənər işığında yalnız önündə taxta kimi quruyub qalmış iki gənc boynu, bir də qarşıdakı yolun hərdənbir ağarıb çalxalandığını görürdü. Amma onlara da, hərdənbir ağaran yola da heç bir maraq göstərmədən baxırdı; hətta birdən-birə oğlanın çoxdan bəri onunla danışdığının fərqinə varanda da buna laqeyd qaldı; azmı-çoxmu getmişdilər, indi hardaydılar bilmirdi. Oğlan artıq

yavaş-yavaş, eyni şeyləri təkrar edə-edə, sanki, xarici bir vətəndaşla söhbət edirmiş kimi daha asan sözləri seçməyə, onları daha aydın, anlaşıqlı tərzdə tələffüz etməyə çalışırdı.

– Qulaq asın, rəis. Onda bu tərəfə dönəcəm. Bu daha kəsə yoldur. Buranı kəsmədən keçib daha rahat yola çıxacağıq. Dümdüz gedəcəm. Kəsə çıxarıq. Orda yol daha rahatdır. Tez çatmaq üçün. Başa düşürsünüz?

– Olsun, – Kristmas dedi. Maşın sürətlə irəli şığıdı, atlana-atlana, döngələrdə yanı üstə əyilərək irəlilədi; təpəciklərin üstündən elə sürətlə şığıyıb keçirdi ki, elə bil, təkərlərinin altından yer qaçırdı. Poçt qutularının asıldığı dirəklər fənərlərin işığında uçur, güclə gözə dəyirdi. Arabir qaranlıq evlər görünürdü. Oğlan danışırdı:

– Bax indi bayaq sizə dediyim döngəyə çatacağıq. Bax, burda. Mən ora dönəcəm. Ancaq bu o demək deyil ki, biz yoldan kənara çıxırıq. Mən, sadəcə, çəpinə kəsəcəm, orda yol daha rahatdır. Başa düşürsünüz?

– Olsun, – Kristmas dedi. Sonra isə niyəsini özü də bilmədən soruşdu: – Yəqin, siz hardasa bu tərəflərdə yaşayırsınız?

Bu dəfə qız danışdı. Sərt bir hərəkətlə geri qanrıldı – onun xırda, bapbalaca bənizi qorxu və tələşdan, kor siçan ümidsizliyindən bomboz bozarmışdı.

– Bəli! – o, bərkdən çığırdı. – Hər ikimiz! Bax, orda! Biz ora çatan kimi mənim atam, qardaşlarım... – Onun səsi birdən kəsildi, qırıldı; Kristmas oğlanın öz ovcu ilə onun ağzını yumduğunu, qızınsa dartınıb qurtulmağa çalışdığını gördü; ovucun təzyiqi altında qızın səsi boğuq halda nəsə donquldanırdı. Kristmas qabağa əyildi.

– Burda , – dedi. – Burda düşəcəm. Burda məni düşürə bilərsiniz.

– Hamısı sənə görə oldu! – oğlan əlacsız tələş və həyəcan içərisində qışqırdı. – Əgər sən sussaydın...

– Saxla maşını... – Kristmas dedi. – Mən sizə heç nə eləyən deyiləm. Sadəcə, düşmək istəyirəm.

Yenə maşın qabaq təkərlərinin üstünə yıxılıb, qəfil dayandı. Amma mühərrik var gücüylə uğuldamaqdaydı və Kristmas ayağını torpağa basmağa macal tapmamış maşın irəli sıçradı; o, dərhal özünü yerə atmalı, yıxılmamaq üçün bir neçə addım qabağa qaçmalı oldu. Bu zaman nəsə ağır, küt bir şey zərblə böyrünə çırpıldı. Maşın tam sürətlə uzaqlaşır, gözdən itirdi. Ondan hələ də qızın zingiltili çığırtısı eşidilirdi. Sonra maşın gözdən itib yox oldu; yenə hər yana qaranlıq, ayaq altda hiss edilməyən tozun və ulduzlu yay gecəsinin sükutu çökdü. Naməlum əşya ilə vurulan zərbədən böyrü əməlli-başlı göynəyirdi; birdən həmin əşyanın sağ əlində olduğunu hiss etdi, onu yuxarı qaldırdı, qədimi, ağır tapançanı ovcunda bərk-bərk sıxıb saxladığını gördü. Onu əlində tutduğundan xəbərsiz idi, haçan, nə üçün götürdüyünü də xatırlamırdı. Ancaq indi əlindəydi. “Mən maşına sağ əlimi qaldırmışdım, – o fikirləşdi. – Təəccüblü deyil ki, onlar niyə

bu qədər ...” Ovcundakı tapançanı bir kənara tullamaq üçün əlini havaya qaldırdı. Sonra fikrini dəyişdi, kibrit çəkdi və zəif, öləziyən işıqda diqqətlə ona baxdı. Kibrit dənəsi yanıb qurtardı, söndü, ancaq o, elə bil, iki lüləsi də dolu olan bu qədimi tapançanı hələ də aydın görürdü: tətiyi basılan, amma gülləsi açılmayan lüləni də, atəş açmaq üçün tətiyi hələ çəkilməmiş lüləni də. “Biri onun, biri mənim üçün”, – o dedi. Əlini qovzayıb var gücü ilə tapançanı özündən uzağa tulladı. Tappıltı ilə kolluğa düşdüyünü eşitdi. Sonra yenidən ətrafa sükut çökdü. “Biri onun, biri mənim üçün”.

13

Kəndçi kişinin yanğını gördüyü andan beşcə dəqiqə sonra camaat hadisə yerinə axışmağa başladı. Şənbə günü şəhərə gedənlər də miniklərini burda saxladılar. Qonşuluqda yaşayanlar piyada gəldilər. Bura zənci daxmalarından, yorğun, taqətdən düşmüş tarlalardan ibarət bir yer idi və başqa vaxt olsaydı, bütöv bir xəfiyyə dəstəsi belə burda heç on nəfəri – kişi, qadın, ya uşaq olsun – tapıb bir yerə toplaya bilməzdi; amma indi yarımca saatın içində xeyli adam yığışmışdı – hadisə yerinə dəstə-dəstə, qrup-qrup, tək-tək, ailəliklə axışan adamlar, elə bil, yerin altından peyda olurdular. Sanki, yarışa çıxıblarmış kimi mələşə-mələşə şütüyən maşınlarda şəhərdən hələ də yeniləri gəlirdi. Onlarla birlikdə şişman, rahat, zahirən rəhmdil, amma fəndgir, ayıq ağıla malik əyalət şerifi də gəlib çıxdı və mələfəyə bükülmüş meyitin ətrafına toplaşıb ona çaşqın halda, öz gələcək portretlərini gözləri önünə gətirərək xəyala dalan böyüklər kimi donuq, uşaq heyrətilə baxan adamları kənara itələməyə başladı. Bu adamların arasında yankilər, ağdərili kasıblar, hətta bir müddət şimalda yaşamış cənublular da vardı; onlar bunun əsl zənci cinayəti olması, bir zənci fərdi deyil, Zənci tərəfindən törədilməsi barədə ucadan, açıq şəkildə mülahizələr söyləyir, bilir, inanır və güman edirdilər ki, qətlə yetirilmiş bu qadını həm də, ən azı, bir dəfə boğazını kəsib üzməmişdən əvvəl, bir dəfə də bundan sonra zorlamışdılar. Şerif yaxına gəlib meyitə baxdı, sonra isə onun ortalıqdan götürülməsini, bu bədbəxtin yad gözlərdən gizlədilməsini əmr etdi.

İndi onlara boş qalmış meyit yerinə, bir də yanan evə baxmaqdan savayı heç nə qalmamışdı. Bir az da keçəndən sonra isə mələfənin yeri də unuduldu, onun torpağın hansı parçasını örtdüyünü heç kim dəqiq xatırlaya bilmədi və yalnız yanğına tamaşa eləməli oldular. Beləliklə, indi onlar bir vaxtlar bilginin doğulduğu üfunətli mağaralar dövründən bu günədək özlərilə gətirdikləri ibtidai bir heyrət içərisində yanğına tamaşa edir, elə bil, havaya yüksələn alovu ölümün özü kimi birinci dəfəydi görürdülər. Sonra hay-küy içində, zingildəyə-zingildəyə, siqnal verə-verə yanğın maşını özünü yetirdi. O təzəydi, rəngliydi, qızıl suyuna çəkilmişdi, əl siqnalı və qızılı rəngli, təmkinli, ötkəm, məğrur səsli zəngi vardı. Başı şlyapasız kişilər və

cavanlar üzüm salxımı kimi onun yan-yörəsindən elə rahatca asılmışdılar ki, fizika qanunlarına qarşı belə bir heyrətamiz biganəlik yalnız milçəklərə xas ola bilərdi. Bu maşın məzhəkəçi şlyapası kimi bir toxunuşda əlçatmaz yüksəkliyə sıçrayan mexaniki nərdivanlarla təchiz olunmuşdu; ancaq burada onların harasa sıçramasına, nəyinsə ütündən aşmasına ehtiyac yox idi. Onun dairə şəklində səliqə ilə yığılıb bükülmüş tər-təmiz, hələ işlənməmiş qolları telefon trestinin populyar jurnallardakı reklamlarını xatırladırdı. Öz dükanlarını, kontorlarını tərk edib bura tələsən şlyapasız kişilər onun üstündən yerə atıldılar – hətta siqnal dəstəyini fırladan adam da. Yaxına gəldilər, mələfəyə bükülmüş meyiti görənlər onlara bir-birindən fərqli bir neçə yer göstərdilər; gələnlərdən bəziləri – artıq tapançası cibində olanlar dərhal günahkarı edam etməyə çağırdılar.

Amma bunun üçün münasib adam yox idi. Çünki qadın o qədər dinc yaşamış, heç kimin işinə qarışmamışdı ki, doğulduğu, ömür sürdüyü və yad, gəlmə adam kimi öldüyü şəhər əvvəldən buna heyrət etmiş, özünü təhqir olunmuş saymışdı; və indi bu qadın öz ölümü ilə onlara çılğın bir tamaşa, əsl qədim Roma bayramı bəxş etsə də, onlar yenə onu heç vaxt bağışlamayacaq, meyitini belə dinc və rahat buraxmayacaqdılar. Yox, belə olmayacaqdı. Rahatlığa qovuşmaq o qədər də asan deyil. Buna görə də onlar qaynaşır, dəstə-dəstə bir yerə yığışıb öz hirs və qeyzlərini izhar edirdilər – alovun, qanın, üç il bundan əvvəl ölsə də, yalnız indi yaşamağa başlayan cəsədin onları intiqama çağırdığına tamamilə əmin idilər; göylərə vəcdlə ucalan bu alovun, əbədi hərəkətsizliyə düçar olmuş bu cəsədin artıq insan ziyankarlığı və ağrısı üçün əlçatmaz bir sahilə yetişdiyinə dəlalət etdiyinə isə heç cür inanmırdılar. Yox, heç inana da bilməzdilər. Çünki inam üçün başqa şeylər daha cəzbediciydi. Çoxdan tanış mallarla dolu dükan rəflərindən, piştaxtalardan daha maraqlıydı; o mallar ona görə alınmamışdı ki, sahibi onların arzusunda olmuşdu, onlardan xoşu gəlmişdi, yaxud onlara yiyələnmək ona xüsusi ləzzət vermişdi; yox o bu malları daha fəndgirliklə satmaq, yaxşı qazanc əldə etmək üçün almışdı, – buna görə də hələ sata bilmədiyi mallara və onları ala bilən, amma hələ almamış adamlara qəzəblə, bəzənsə böyük narazılıq və yaxud dilxorçuluq içində baxırdı. Üfunətli kabinetlərdən daha maraqlıydı; o kabinetlərdən ki, orda çoxdankı yalanların və acgöz tamahların xəyalatları arasında gizlənmiş vəkillər və yaxud əllərində məşum bıçaqlar, məşum dava-dərmanlar olan həkimlər öz müştərilərini gözləyir və onlara təlqin etməyə çalışırlar ki, guya, bütün çabaları axırda hökmən onların özlərinin işdən qovulmaları ilə nəticələncək və inanırlar ki, müştərilər yazılı təlimatlara müraciət etmədən onların dediklərinə hökmən inanacaqlar. Qadınlar da bura yığışmaqdaydı – kimisi bayrama gəlibmiş kimi təptəzə, kimisi də tələm-tələsik əyninə keçirdiyi paltarda; onların gözlərində sirli, qaynar parıltılar sayrışırdı, istifadəsiz döşləri həsrətdən soluxub sınıxmışdı (dincə qoyulmaqdansa ölüm onlar üçün həmişə daha xoş olub); bura yığışmışdılar ki, susmaq bilməyən *Kim*

öldürüb? Kim öldürüb? uğultusunu saysız-hesabsız güclü daban taqqıltıları ilə *Onu hələ tuta bilməyiblər? Hə-ə. Tuta bilməyiblər? Tuta bilməyiblər?* şəklində həkk etsinlər.

Şerif də yanğına təəccüb və təəssüflə baxırdı, çünki cinayətin törədildiyi yerə artıq baxış keçirmək mümkün deyildi. Bu uğursuzluğa görə insan müdaxiləsinə borclu olduğunu hələ dərk etməmişdi. Hələ ki, günahkar od idi. Ona elə gəlirdi ki, od qəsdən, hər şeyin izini itirmək üçün öz-özünə alışıb. Ona elə gəlirdi ki, od cinayətlə əlbir olub; halbuki, əcdadları məhz onun sayəsində öz nəslini yer üzündə bu qədər uzun müddət yaşada bilmiş, nəhayət, onun özünü dünyaya gətirmişdi. İndi o, çaşqın və əsəbi halda həm ümid, həm də faciə rəngli bu uğursuz abidənin ətrafında aramsız gəzişirdi; nəhayət, köməkçisi gəlib çıxdı və ona dedi ki, evdən bir qədər aralıdakı komada lap bu yaxınlaracan kiminsə yaşadığının izini tapıb. Yanğını ilk görən kəndçi isə (o hələ şəhərə gedib çıxmamışdı; onun arabası, iki saat bundan əvvəl durduğu yerdən bir addım da irəli getməmişdi və indi o da üst-başı dağınıq, sifəti kütləşmiş, yorğun və pörtmüş halda tamaşaçılar arasında əl-qol ata-ata ora-bura vurnuxurdu, səsi tamam batmış, boğuq pıçıltıya dönmüşdü) dərhal qaçıb evə girərkən orda bir adam gördüyün xatırladı.

– Ağ adam idi? – şerif soruşdu.

– Hə. Dəhlizdəydi, ayaq üstə güclə dururdu, elə bil, pilləkənin başından indicə dığırlanıb yerə düşmüşdü. Məni heç cür yuxarı buraxmaq istəmirdi. Deyirdi ki, özü çıxıb baxıb, yuxarıda heç kim yoxdu. Amma mən aşağı düşəndə o artıq orda yox idi.

Şerif yaxında dayananların üzünə baxdı.

– Daxmada kim yaşayırdı?

– Mən bilmirdim orda yaşayan var, – köməkçisi dedi. – Yəqin, zəncilər olub. Bu qadın haqqında deyilənlərə inansan, o, zənciləri hətta evin içərisinə də buraxa bilərmiş. Ancaq bir şeyə məəttəl qalmışam ki, onlar nə üçün əvvəllər bunu etməyiblər.

– Zəncilərdən birini yanıma gətirin, – şerif dedi. – Köməkçisi və daha iki-üç nəfər bir zəncini onun yanına gətirdilər. – Bu daxmada kim yaşayırdı? – şerif soruşdu.

– Mən bilmirəm, mister Uatt, – zənci dedi. – Fikir verməmişəm. Heç bilməmişəm ki, orda kimsə yaşayır.

Sifətləri bir-birindən fərqlənməyən, həris gözlərində alovun sönük közü artıq tüstülənib alışmağa başlayan adamlar yavaş-yavaş şerifin, köməkçisinin və zəncinin ətrafına yığışdılar. Elə bil, onların beş hiss üzvünün hamısı, apofeozda[19] olduğu kimi, yalnız təkcə görmə üzvündə cəmləşmişdi, onların arasında gəzişən sözlər isə, sanki, küləkdən, havadan doğulurdu *Bu odu? Bu öldürüb? Şerif onu yaxalayıb. Şerif onu artıq yaxalayıb* Şerif onlara baxdı.

– Aralanın burdan, – o dedi. – Hamınız. Gedin yanğına tamaşa eləyin. Əgər mənə kömək lazım olsa, sizi çağıraram. Di dağılışın burdan.

---

[19] Apofeoz – bəzi teatr tamaşalarında axırıncı təntənəli səhnə

O, geri döndü, köməkçilərini də, zəncini də yanına alıb daxmaya yollandı. Yaxına buraxılmayanlar arxada bir yerə toplaşmış halda dayanaraq üç ağ adamla bir zəncinin daxmaya girib qapını necə örtdüklərinə tamaşa elədilər. Onlardan arxada isə alov artıq evi həzm edib qurtarmaq üzrəydi, çırtıltısı ətrafı bürümüşdü; amma onun səsi, gəldikləri yer heç də onunku qədər məlum olmayan o biri səslərdən güclü deyildi *Əgər bu odusa, onda biz niyə dayanıb gözləyirik. Ağ qadını öldürüb, qara əclaf* Bu adamların heç biri heç vaxt bu evə ayaq basmamışdılar. Qadının sağlığında öz arvadlarını da onun yanına buraxmamışdılar. Daha gənc, uşaq yaşlarında isə (bəzilərinin vaxtilə hətta ataları belə) küçədə onun dalınca düşüb "Zənci məşuqəsi! Zənci məşuqəsi!" deyə bağırmışdılar.

Daxmaya girəndən sonra şerif birtəhər çarpayılardan birinin üstünə çökdü. Dərindən nəfəs aldı: çəllək-adam, ağır, dolu çəllək kimi hərəkətsiz qaldı.

– Hə, indi mən bilmək istəyirəm ki, bu daxmada kim yaşayır, – dedi.

– Sizə dedim axı, bilmirəm, – zənci cavab verdi. Bunu mızıldana-mızıldana, ürkək halda, gizli bir ehtiyatlılıqla dedi. O, gözünü şerifdən çəkmirdi. İki ağ adam isə arxasında dayanmışdı, onları görmürdü. Hətta gizlicə də olsa, gözünün ucuyla belə onlara tərəf baxmırdı. Güzgüdə özünə baxan adam kimi gözünü yalnız şerifin sifətinə zilləmişdi. – Bəlkə də, onların artıq başlamaq istədiklərini elə o güzgüdə gördü. Bəlkə də, heç görmədi, çünki şerifin sifətində nəsə dəyişdisə, nəsə sezildisə, bu, bir göz qırpımında oldu. Ancaq dönüb geri baxmadı; qayış kürəyində çatlayanda sifəti cəld, həm də bircə anlığa qırışdı, ağzının qıraqları yanlara dartıldı, gülürmüş kimi dişləri ağarıb qıcırdandı. Dərhal da yumşalıb əvvəlki donuq vəziyyətinə düşdü.

– Görürəm, sən heç yadına salmağa da çalışmırsan, – şerif dedi.

– Ona görə yadıma sala bilmirəm ki, heç nə bilmirəm, heç nədən xəbərim yoxdu, – zənci dedi. – Mən ki, bu ətrafda yaşamıram. Axı, siz ağ adamlar, evimin harda olduğunu yaxşı bilirsiniz.

– Mister Buford deyir ki, sən, bax, orda, düz yolun qırağında yaşayırsan, – şerif dedi.

– Yolun qırağında çox adam yaşayır. Mister Buford mənim evimin harada olduğunu bilməmiş olmaz.

– Yalan danışır, – köməkçi dedi. Adı Buford idi. Qayış da onun əlindəydi, dəmir ucu açığ idi. Qayışı əlində tutub hazır dayanmışdı. Suya sıçramaq əmri gözləyən tula kimi gözü şerifdə idi.

– Bəlkə də, hə, bəlkə də, yox, – şerif dedi. O, gözünü zənciyə zilləmişdi. Şişman, yöndəmsiz bədəninin ağırlığından çarpayının yayları çökmüşdü. – Sadəcə, hələ anlaya bilmir ki, mən zarafat eləmirəm. Hələ bu camaatı demirəm, burda elə bir həbsxana-zad da yoxdu ki, bir şey olsa, onu orda gizlədəsən. Olsa belə, onlar buna imkan verməzlər, işini elə yerindəcə bitirərlər.

Bəlkə də şerifin gözləri yenə bir işarə, siqnal verdi; bəlkə də, yox. Ya da zənci özü bu işarəni hiss etdi; bəlkə də, yox. Qayış yenidən şaqqıldadı, onun dəmir ucluğu zəncinin kürəyini sivirdi.

– Yenə yadına sala bilmədin? – şerif dedi.

– İki ağ adam qalır, – zənci dedi. Səsi biganəydi, nə acıq, nə də başqa bir şey hiss olunurdu. – Kim olduqlarını, nəylə məşğul olduqlarını bilmirəm. Bu bizim işimiz deyil. Heç kim onları görməyib. Sadəcə, eşitmişəm, adamlar deyirdilər ki, orda iki ağ adam yaşayır. Kim olduqlarının isə bizə dəxli yoxdur. Bundan artıq heç nə bilmirəm. İstəyirsiniz lap ölənəcən döyün. Bundan artıq heç nə bilmirəm.

Şerif yenidən fısıldadı.

– Bəsdi. Görünür, dediyi kimidi.

– Elədi, o dediyi ağ adamlardan biri yonqar sexində işləyən Kristmasdı, o biri isə Braun, – üçüncü kişi dedi. – Ceffersonda spirt iyi verən istənilən adamı küçədə saxlasan, bunu dərhal sizə deyə bilər.

– Görünür, elədi ki, var, – şerif dedi.

Və şəhərə qayıtdı. Onun getdiyini görən kimi camaat da dağılışmağa başladı. Sanki, daha baxmağa heç nə qalmamışdı. Meyiti əvvəlcə aparmışdılar, indi də şerif burdan çıxıb gedirdi. Sanki, o bu adamları doymuş əzaların əyyaşlığından, yeknəsəq günlərdən savayı həyatda nəsə başqa bir şeyin də mövcud olduğuna ümidləndirərək hərəkətə gətirən, həyəcanlandıran bu müəmmanı, bu sirri öz yöndəmsiz, ağır, fısıldaya-fısıldaya nəfəs alan şişman cəmdəyinin içində gizlədib özüylə aparırdı. Artıq baxılası heç nə qalmamışdı – yanğından başqa; ona üç saat idi tamaşa edirdilər. Artıq ona öyrəşmiş, vərdiş etmişdilər; bu yanğın onların həyatının, gündəlik yaşantılarının ayrılmaz hissəsinə çevrilmişdi, küləksiz havada göylərə yüksələn tüstü sütunu şəklində möhtəşəm, sarsılmaz bir abidə kimi şüurlarına hopmuşdu, istədikləri an qayıdıb ona tamaşa edə bilərdilər. Ona görə də bu insan karvanı şəhərə çatanda, onda matəm yürüşünə xas təkəbbürlü bir rəsmilik vardı: şerifin avtomobili öndə irəliləyir, qalanları isə birlikdə qaldırdıqları toz dumanı içərisində, tez-tez siqnal verə-verə, mələşə-mələşə onun arxasınca tələsirdilər. Şəhər meydanına çatmamış, yol ayrıcında onlar küçədə dayanmış kənd arabasından sərnişin düşənə qədər bir dəqiqəliyinə ləngiməli oldular. Şerif maşının pəncərəsindən boylanıb, cavan bir qadının arabadan yavaş-yavaş, ehmalca – hamilə qadınlara xas yöndəmsiz ehtiyatlılıqla düşdüyünü gördü. Sonra araba yerindən tərpəndi; karvan da yoluna davam edib meydanı keçdi; buradakı bankda xəzinədar artıq seyfi açıb, mərhumənin saxlamaq üçün ona verdiyi zərfi çıxarmışdı, zərfin üstündə bu sözlər yazılmışdı: *Mən öləndən sonra açılmalıdır. Coanna Berden.* Şerif öz kabinetinə girəndə xəzinədar artıq əlində zərf onu orda gözləyirdi. Zərfin içindəki yalnız bircə vərəqdən ibarət idi və o vərəqə zəfin üstündəki eyni xətlə təkcə bunlar yazılmışdı: *Vəkil İ. İ.*

Piblsə – Bil-Strit, Memfis, Tenessi və Nataniel Berrinqtona – Sent Ekseter, Nyu Hempşir, xəbər göndərilsin. Başqa heç nə.

– Bu Pibls zənci vəkildir, – xəzinədar dedi.

– Doğrudan? – şerif dedi.

– Hə. İndi mən neyləməliyəm?

– Yəqin ki, kağızda nə yazılıbsa, onu da eləmək lazımdı, – şerif dedi. – Ya da mən özüm bunu eləyərəm.

O, iki teleqram göndərdi. Memfisdən yarım saatdan sonra cavab gəldi. O biri teleqramın cavabını isə iki saat gec aldılar; sonra onca dəqiqənin içərisində şəhərə belə bir şayiə yayıldı ki, miss Berdenin əmisi oğlu qatilin tutulması üçün min dollar mükafat təyin edib. Kəndçi kişinin yanan evin içinə girərkən gördüyü adam axşam saat doqquzda üzə çıxdı. Ancaq onun bu adam olduğunu hələ bilmirdilər. O onlara bunu deməmişdi. Onlar yalnız bunu bilirdilər ki, şəhərə bu yaxınlarda köçmüş olan, hamının spirtli içki alverçisi – özü də əsas alverçi kimi deyil – tanıdığı Braun axşam çox həyəcanlı halda meydana gəlib və şerifin harda olduğunu soruşub. Elə o andan etibarən hər şey yavaş-yavaş yoluna düşməyə başladı. Şerif bilirdi ki, Braunla başqa bir adam, başqa bir gəlmə – Kristmas arasında nəsə bir əlaqə var; ancaq o adamın üç ildir Ceffersonda yaşamasına baxmayaraq, şəhər onun haqqında Braun haqqında bildiyindən də az bilirdi; yalnız indi şerifə məlum oldu ki, Kristmas üç ildir miss Berdenin evinin arxa tərəfindəki daxmada yaşayırmış. Braun danışmaq istəyirdi, ucadan, qışqıra-qışqıra və israrla onu dinləmələrini tələb edirdi; amma onun əsl niyyətinin min dollar mükafat olduğu dərhal üzə çıxdı.

– Sən ittihamçı tərəfdən şahidmi olmaq istəyirsən? – şerif ondan soruşdu.

– Heç kim olmaq istəmirəm, – Braun kobud şəkildə, bir qədər də heyrət içində boğula-boğula etiraz etdi. – Mən onu kimin öldürdüyünü bilirəm və bunu yalnız pulu alandan sonra deyəcəm.

– Sən əvvəlcə onu öldürəni tut gətir, onda pulu alarsan, – şerif dedi.

Sonra Braunu şəhərdən qaçmasın deyə həbsxanaya apardılar.

– Elə bilirəm ki, bu, artıq işdi, – şerif dedi. – Neçə ki, min dollar ortalıqdadı, onu burdan qovsan da getməz.

Braunu – o hələ də qeyzlə çığırıb-bağırır, etiraz edir, əl-qolunu oynadırdı – həbsxanaya göndərəndən sonra, şerif qonşu şəhərə zəng vurdu, orda bir cüt iz axtaran it saxlayırdılar. O itləri səhər tezdən qatarla göndərəcəklərinə söz verdilər.

Bazar günün həzin, qəmli sübh şəfəqlərinə bürünmüş yorğun, kefsiz platformada otuz ya da qırx adam dayanıb gözləyərkən qatar axır ki, gəlib çıxdı və onun işıqlı pəncərələri soyuqdan tir-tir əsirmiş kimi silkələnib bir anlığa dayandı. Qatar sürət qatarı idi və Ceffersonda həmişə dayanmırdı. İndi də burda yalnız o iki iti düşürənəcən ləngidi: min ton ağırlığında bahalı və

mürəkkəb metal qurğular qəzəbli bir parıltı və şaqqıltı ilə platformaya soxulub, boş və mənasız insan səslərilə dolu, demək olar ki, qulaqbatırıcı bir sükuta dirəndi, sonra qayışbaldır, əmr qulu iki xəyalatı qusmaq, bayıra atmaq üçün durdu; bu sallaqqulaq məxluqların xırda sifətləri qəmgin, məzlum halda, demək olar ki, srağagündən bəri yatmayan, indi isə onları vahiməli, əlacsız bir səbirsizliklə dövrəyə alan insanların yorğun, rəngi qaçmış sifətlərinə baxırdı. Elə bil, bu qətlin iyrəncliyi bütün sonrakı hərəkətlərə də sirayət etmiş, onları qorxunc, paradoksal, ağıla və təbiətə zidd bir şeyə çevirmişdi.

Şerif və onun dəstəsi yanıb kül olmuş evin soyuq xarabalığının yanından keçib, daxmaya yaxınlaşanda günəş təzəcə doğmuşdu. Gün işığından, günəş istisindən cəsarətə gəldiklərindənmi, yoxsa insanların qızğın təqib coşqusunun təsirinə düşdüklərindənmi, itlər daxmaya çatan kimi hürməyə və irəli dartınmağa başladılar. Bərkdən fınxıra-fınxıra, ikisi də eyni anda nəyinsə iyini tutub, onları saxlayan adamı arxalarınca dartıb apardılar. Yan-yana yüz metr qaçandan sonra dayandılar, qəzəblə yeri eşməyə başladılar, kiminsə haçansa boş konserv qutularını basdırdığı çalanı dırnaqları ilə qazıb üzə çıxardılar. İtləri çəkib ordan uzaqlaşdırdılar. Daxmadan bir qədər aralıya aparıb, yenidən buraxdılar. İtlər bir az oyan-buyana qaçdılar, dişlərini qıcırdatdılar, sonra yenə izə düşdülər və yenidən cana gəlib, dilləri sallana-sallana, ağızlardan köpük axa-axa – adamlar da arxalarınca qaça-qaça, onları qısqırdıb qızışdıra-qızışdıra – irəli, daxmaya tərəf cumdular və orda boş qapının ağzında ayaqlarını yerə dirəyərək, ağızlarını göyə tutub, gözlərini yumaraq, italyan operasındakı bir cüt bariton kimi ehtirasla, vəcdlə ulamağa başladılar. Adamlar itləri avtomobildə geri, şəhərə qaytardılar, onlara yal verdilər. Onlar meydandan keçəndə kilsələrdə artıq zəng çalınır, küçələrdə isə insanlar əllərində açıq rəngli çətirlər, Bibliya və dua kitabları nizamla ora tələsirdilər.

Həmin axşam bir kəndçi oğlan atası ilə birlikdə şerifin yanına gəldi. Oğlan danışdı ki, cümə günü gecə vaxtı maşınla evə gələrkən cinayət yerindən bir neçə mil aralıda əli tapançalı bir kişi maşınını saxlatdırıb. Oğlan əvvəl elə bilib ki, onu soymaq, hətta öldürmək istəyirlər, buna görə də həmi adamı aldatmaq, maşını birbaş öz həyətlərinə sürmək, sonra qəfil yerə atlanıb camaatı köməyə çağırmaq qərarına gəlib; amma adam yolda nədənsə şübhələnib, dərhal maşını saxlatdırıb və düşüb. Oğlan bunları danışandan sonra ata dərhal maraqlandı ki, min dollardan onların payına nə qədər düşəcək.

– Onu tutub gətirin, sonra bu barədə danışarıq, – şerif cavab verdi.

İtləri yuxudan oyatdılar, başqa bir maşına mindirdilər, oğlan o adamın düşdüyü yeri göstərdi; orada itlərin başını buraxdılar, onlar dərhal meşəyə doğru cumdular və istənilən metala qarşı özlərinə məxsus korşalmayan iybilmə qabiliyyətləri sayəsində iki lüləsi də dolu tapançanı tapdılar.

– Qədimi şeydir, kapsullu tapançadı, bundan Vətəndaş müharibəsi dövründə istifadə edirmişlər, – köməkçi dedi. – Kapsullardan biri deşilib, amma güllə açılmayıb. Sizcə o, bu tapançanı neyləyirmiş?

– İtləri buraxın, – şerif dedi. – bəlkə, xaltaları onları narahat edir.

Elə də elədilər. İtlər azadlığa çıxdılar; yarım saatdan sonra tamamilə itib yox oldular. Adamlar onları deyil, onlar adamları itirdilər. Hardasa kiçik bir çayın o tayında, onun o biri sahilindəki təpələrdə idilər, adamlar onların səsini aydın eşidirdilər. İtlər artıq əvvəlki kimi inamla, məğrur, məmnun halda hürmürdülər. İndi ümidsiz halda, uzun-uzadı ulaşırdılar, adamlar isə israrla onları çağıra-çağıra qalmışdılar. Ancaq heyvanlar, yəqin ki, onların səsini eşitmirdi. İtlərin səsi isə aydın gəlirdi, amma kilsə zəngini xatırladan bu aciz, yazıq ulartılar, elə bil, bir boğazdan gəlirdi; sanki, onlar yan-yana oturmuşdular. Bir müddət sonra onları elə o halda, arxın yanında böyür-böyürə tapdılar. Dəstə hava işıqlanana qədər, maşınları qoyub gəldikləri yerə gedən yol seçilə bilənədək orada qaldı. Sonra isə bazar ertəsinin sübh şəfəqi doğdu.

Bazar ertəsi havanın hərarəti daha da yüksəlməyə başladı. Çərşənbə axşamının gecəsi ətrafa çökmüş qaranlıq gündüzün qaynar istisindən sonra boğucu, yorucu bir şeyə çevrilib, havada azacıq belə tərpəniş yoxdu; Bayron ayağını evin kandarından içəriyə basan kimi kişi xeylağının umuduna qalmış bir evin kəsif, üfunətli iyindən burun pərlərinin necə gərginləşdiyini, bozardığını hiss edir. Haytauer içəri girəndə isə az hərəkətli şişmanlığın, səliqəsiz oturaq həyatın, yuyunmağa biganəliyin doğurduğu sallaq, kirli bədənin və kirli paltarın turşumuş iyi daha dözülməz olur. İçəri girərkən Bayron bundan əvvəl bir neçə dəfə olduğu kimi yenə eyni şeyi fikirləşir: “Bu onun öz işidir. Bəlkə də, mən bu cür eləmərəm, ancaq onun üçün bu cür xoşdur, bu onun öz işidir”. Və bir dəfə, sanki, bunun cavabını tapdığını xatırlayır; qəfil ağlına gəlmişdi, beyni birdən işıqlanmışdı: “Bu ilahi bir iydir. Əlbəttə, bizə ona görə pis iy kimi gəlir ki, özümüz pisik, günaha batmışıq”.

Yenə də onlar qarşı-qarşıya əyləşiblər – biri üstündə lampa yanan masanın bu, digəri o biri başında. Bayron yenə də oturacağı daş kimi bərk kətildə daş kimi hərəkətsiz oturub, başını aşağı dikib. Səsi təmkinlidi, tərsdi, təkcə nəsə xoşagəlməz deyil, həm də mötəbər, inandırıcı olmayan bir şey haqda danışan adamın səsinə bənzəyir.

– Mən ona qalmaq üçün başqa bir yer axtarmaq istəyirəm. Elə yer ki, orda çox adam olmasın. Elə yer ki, o orda...

Haytauer onun aşağı əyilmiş sifətinə tamaşa edir.

– Köçmək onun nəyinə lazımdı? Bir halda ki, orda rahatdı; bir şey olsa qadın da yanındadı.

Bayron cavab vermir. Hərəkətsiz, başı aşağı halda oturub; sifəti sakitdi, inadlıdı; Haytauer ona baxa-baxa fikirləşir: “Ona görə belədi ki, çox hadisələr baş verib. Həddən artıq çox. İş də elə

bundadı. İnsan, ağırlığına dözə biləcəyi, yaxud dözməli olduğundan xeyli, müqayisəyəgəlməz dərəcədə çox işlər görür, hərəkətlər törədir. O da bax elə bu cür öyrənib ki, hər şeyə dözə, hər yükü daşıya bilər. İş də elə bundadı. Dəhşətlisi də elə budu. İnsan hər şeyə dözə, hər yükü, hər cür yükü öz çiynində daşıya bilər, bilər". O, Bayrondan gözünü çəkmir.

– Bəs nə olub, bütün bu köç məsələsi miss Birdə görədir?

Bayron əvvəlki kimi yenə başını qaldırmır, yenə əvvəlki kimi sakit inadkar səslə danışır:

– Ona elə bir yer lazımdı ki, özünü öz evindəki kimi hiss eləsin. Vaxtına çox az qalıb, pansiondakıların isə demək olar ki, hamısı kişilərdir... Ona o vaxta qədər sakit bir otaq lazımdı, daha ordakı hər at alverçisinin, yaxud hər məhkəmə iclasçısının dəhlizdə ağzına gələni çərənlədiyi yer kimi yox...

– Anlayıram, – Haytauer deyir. Bayronun sifətini izləyir. – Yəni, istəyirsiniz ki, mən onu öz yanıma buraxım. – Bayron cavab vermək istəyir, amma o sözünə davam edir; onun da səsi soyuqdur, rahatdır: – Yox, bu mümkün deyil, Bayron. Əgər bu evdə başqa bir qadın da olsaydı, başqa bir qadın da yaşasaydı, onda başqa məsələ. Əlbəttə, adam özü də xəcalət çəkir, burda bu qədər boş yer, sakitlik ola-ola heç nə eləyə bilmirsən. Bilirsiz, mən onu düşünürəm, özümü yox. Haqqımda nə danışırlar danışsınlar, bunun mənim üçün elə bir əhəmiyyəti yoxdu.

– Mən onu demirəm, – Bayron başını qaldırmır. Keşişin baxışlarını öz üzərində hiss edir. Fikirləşir *Özü bilir ki, mən bunu demirəm. Bilir. Bunu elə belə dedi. Bilirəm indi nə fikirləşir. Heç mən də ondan başqa şey gözləmirdim. Axı niyə də başqalarından fərqli fikirləşməlidi, lap elə mənim haqımda olsa belə* – Axı yəqin ki, siz özünüz başa düşürsünüz.

Bəlkə də, keşiş başa düşür. Ancaq Bayron başını qaldırmır ki, buna əmin olsun. O, cansıxıcı, yeknəsəq səslə, başıaşağı danışmağına davam edir, Haytauer isə həmişəkindən fərqli olaraq belini bir azca dikəldib masanın üstündən qarşısındakı adamın arıq, pis havalardan codlaşmış, çox işləməkdən nurlanmış sifətinə baxır.

– Mən sizi bu işə bulaşdırmaq istəmirəm, çünki sizin buna aidiyyətiniz yoxdur. Hətta o qızın üzünü də görməmisiniz, bundan sonra da çətin ki, görəsiniz. Bunu başa düşmək üçün... yəqin ki, heç o oğlanı da görməmisiniz. Sadəcə, dedim ki, bəlkə, siz...

Onun səsi qırılır. Keşiş belini dikəldib masanın üstündən ona baxır, ancaq heç bir yardım təklif etmir.

– İnsan nəyisə eləməmək qərarına gələndə, elə bilirəm ki, o özü-özünə güvənməlidi. Ancaq nəyisə eləmək istəyəndə, məncə, gərək hökmən, kimdən olursa olsun, ala biləcəyi hər məsləhətə qulaq assın. Sizi isə bu işə bulaşdırmaq istəmirəm. Bu barədə arxayın ola bilərsiniz.

– Deyəsən, anlayıram, – Haytauer deyir. Aşağı əyilmiş sifətdən gözünü çəkmir. "Mən artıq bu həyatdan kənardayam, – o düşünür. – Buna görə də bu işə qarışmaq, müdaxilə etmək fayda-

sızdır. Hətta bu həyata qayıtsam belə, o, onsuz da məni eşitməyəcək, o qadın, o kişi də həmçinin (hələ onların körpəsini demirəm)" – Axı siz dediniz ki, qadın onun burda olduğunu bilir.

– Bəli, – Bayron fikrə qərq olmuş halda deyir. – Mən elə bilirdim ki, orda nə o qadına, nə o kişiyə, nə də körpəyə ziyan vura biləcək heç bir hərəkətə yol vermərəm. Amma qadın ora gələn kimi ağzıma gələni çərənlədim, hər şeyi ona açıb dedim.

– Mən onu demirəm. Axı onda siz özünüz də bilmirdiniz. Qalan şeyləri nəzərdə tuturam. O və... o birisi... Hər halda, üstündən üç gün keçib. O qadın sizsiz də bunları öyrənib biləcəkdi. Bu üç gün ərzində hökmən kimdənsə eşidəcəkdi.

– Kristmas. – Bayron yenə də başını qaldırmır. – Ağzının qırağındakı ağ çapıqdan söz salan kimi daha heç nə danışmadım, ona heç nə demədim. Axşam şəhərə – evə qayıdanda yol boyu qorxurdum ki, bu dəqiqə onu soruşacaq. Elə hey fikirləşirdim ki, nəsə uydurum, başını qatım, soruşmağa macal tapmasın. Mən elə bilirdim, bu spirt alverçisini özü axır ki, axtarıb tapmış olsa belə, onun bəd niyyətini – sadəcə, onu ağır gündə qoyub qaçmadığını, üstəlik tapa bilməsin deyə adını da dəyişdirdiyini ondan gizli saxlayıram, sən demə özü bütün bunların hamısını bilirmiş. – Bayron, sanki, öz səsinə təəccüb qalıbmış kimi danışır, sözünə davam edir. – Mənim ondan nəyisə gizləməyə ehtiyacım da yox idi, amma yalan şirin şeydir. Elə bil, nə deyəcəyimi, haçan yalan söyləməyə başlayacağımı qabaqcadan bilirdi. Sanki, özü bu barədə fikirləşir, mən hələ deməmişdən o inanmırdı; və bunda elə bir əlahiddə şey də yox idi. Amma onun hansısa parçası əsl həqiqəti bilirdi, mən onu onsuz da aldada bilməzdim... – Onun dili dolaşır, duruxur; keşiş belini dikəldib, masanın üstündən ona baxır, heç bir yardım göstərmir. – Elə bil, o iki parçaydı, bir parçası bilirdi ki, o oğlan alçağın, əclafın biridi. O biri parçası isə bütün ruhu ilə əmin idi ki, əgər bir kişiylə bir qadının uşağı doğulmalıdısa, Allah özü bu işin qayğısına qalacaq, vaxtı çatanda onların bir yerdə olmasını Allah özü təmin edəcək. Yəni, əgər Allah qadınların qeydinə qalırsa, demək onda onları kişilərdən də qoruyacaq. Yox, əgər Allah bu iki yarının bir-birilə görüşməsini... necə deyərlər, bir-birinə qovuşmasını... lazım bilmirsə, onda mən niyə buna çalışmalıyam.

– Boş şeydir, – Haytauer deyir. O, masanın üstündən qarşıdakı donuq, tərs, asketik sifətə – küləklərin quma büründüyü səhrada uzun illər yaşamış tərki-dünya zahid sifətinə baxır. – O qadının yalnız bircə əlacı qalıb, hökmən Alabamaya qayıtmalıdı. Öz doğmalarının yanına.

– Məncə, yox, elə deyil, – Bayron, sanki, bu sözləri gözləyirmiş kimi dərhal, qətiyyətlə cavab verir. – Bunsuz da ötüşə bilər. Məncə, o, bunsuz da ötüşə bilər. – Ancaq gözlərini qaldırmır. Keşişin baxışlarını öz üzərində hiss edir.

– Bəs Bru... Braun bilirmi ki, o, Ceffersondadır?

Kənardan baxan olsaydı, Bayronun indicə gülümsəyəcəyini zənn edərdi. Üst dodağı azca yuxarı qalxır, ancaq onun bu mimikasında heç bir şən əhval-ruhiyyə sezilmir; o, kölgə oyunu kimi zəifdir.

– Yox, başı bərk qarışıqdı. Min dollarlıq o mükafat barədə xəbər tutandan sonra başını lap itirib... Gülməli işdi. Bu, truba çalmağı bilməyən bir adamın var gücü ilə onun içinə üfürməsinə, bu yolla ondan hansısa musiqi səsi çıxaracağına ümid eləməsinə bənzəyir. Hər on iki-on beş saatdan bir onu meydandan keçirib harasa aparırlar, özü də əl-qolu bağlı halda, halbuki indi onu heç zorla da burdan qovub qaçıra bilməzsən – hətta iz axtaran itləri üstünə salsan belə. Şənbə gecəsini həbsxanada keçirib, elə hey qışqırırmış ki, min dollarlıq mükafat məsələsində ona fırıldaq gəlmək istəyirlər, deyirmiş ki, guya, Kristmasa o özü kömək eləyib; yalnız bundan sonra Bak Konner onun kamerasına gedib və deyib ki, əgər səsini kəsib, başqa məhbuslara rahat yatmağa imkan verməsə, ağzına tıxac basacaq. O da dərhal səsini kəsib; bazar günü gecə onlar itləri də götürüb axtarışa gedəndə isə elə qaraqışqırıq salıb ki, onu da özləriylə aparmağa məcbur olublar. Amma itlər bir işə yaramayıb. O isə qışqıra-qışqıra heyvanları söyməyə, döyməyə başlayıb ki, iz tuta bilmirlər; Kristmas barədə şerifə ilk dəfə özünün məlumat verdiyini, hər şeyin təmiz, ədalətli olmasını istədiyini, bundan başqa heç bir niyyətinin olmadığını yenidən hamıya danışmağa başlayıb, axırda şerif özü onu bir qırağa çəkib, onunla təklikdə söhbət etməli olub. Ona nə deyib, nə qoyub, heç kəs bilmir. Bəlkə də, hədələyib ki, bu saat onu geriyə, həbsxanaya göndərəcək, bir də heç vaxt özləriylə götürməyəcək. Bir sözlə, o sakitləşib, onlar da yollarına davam ediblər. Şəhərə isə yalnız bazar ertəsi günü gecədən xeyli keçmiş qayıdıblar. O hələlik sakitdi. Bəlkə də, yorulub, əldən düşüb. Bu qədər vaxtı yuxusuz qalıb, həm də, deyirlər ki, elə hey itləri öz dalınca qaçmağa məcbur edirmiş, axırda şerif bundan təngə gəlib, deyib ki, ora-bura qaçmasın; sonra hədə-qorxu gəlib ki, itlər ondan başqa nəyinsə izinə düşə bilsin deyə, bu saat onu köməkçisinin qoluna qandallayacaq. O, hələ şənbə günü, həbsxanaya göndəriləndə üzünü qırxmayıbmış, indi isə sifətini tamam saqqal basıb. Yəqin ki, bu görkəmdə indi özü Kristmasdan daha çox qatilə oxşayır. Onu möhkəm söyür, lənətləyirmiş; sanki, Kristmas qəsdən, onun acığına qaçıb gizlənib, gizlənib ki, o öz halal haqqını – min dolları ala bilməsin. Gecə onu təzədən həbsxanaya aparıb, ağzını bağlayıblar. Bu gün səhər tezdən isə yenidən təzə iz dalınca düşüblər, onu da, itləri də özlərilə götürüblər. Camaat danışır ki, onlar şəhərdən çıxanacan o, yenə də elə hey deyinir, qaraqışıqırıq salırmış.

– Deyirsiniz ki, o qadın bunları bilmir? Yəni bunu ondan gizli saxlayıblar?! Sizcə, bu qadının onu axmaq yox, əclaf hesab etməsi daha yaxşıdır, hə?

Bayronun sifəti yenə donuqlaşır, artıq gülümsəmir; indi o çox ciddidir.

– Bilmirəm. Bu hadisə dünən yox srağagün, bazar axşamı, mən sizdən evə qayıdanda baş verdi. Elə bilirdim yatağa girib, artıq çoxdan yuxudadır, amma gördüm ki, qonaq otağında

oturub, məni görən kimi soruşdu: “Nədi? Orda nə olub?” Ona tərəf baxmasam da hiss edirdim ki, mənə baxır. Dedim ki, bir zənci ağ qadını qətlə yetirib. Bu dəfə ona yalan danışmadım. Deyəsən, hətta yalan danışmağa məcbur qalmadığıma xeyli sevindim də. Amma fikirləşməyə macal tapmamış, arxasınca ağzımdan qaçırdım: “Evi də yandırıb”. Artıq çox gec idi. Axı o yanğının göyə ucalan tüstüsünü mən özüm ona göstərmişdim, orda iki nəfərin – Braunla Kristmasın yaşadığını özüm ona demişdim. Hiss edirdim ki, mənə baxır, bax indi sizin mənə baxdığınızı hiss etdiyim kimi. O dedi: “O zəncinin adı nədi?” Elə bil, Allah özü istəyir ki, qadınlar kişi yalanı arasından nəyə ehtiyacları varsa onu öyrənib bilsinlər – özü də heç nə soruşub eləmədən. Nəyə ehtiyacları yoxdursa, nəyi bilməli deyillərsə, onu bilməsinlər, heç ağıllarına da gətirməsinlər. Buna görə də indi onun nəyi bildiyini, nəyi bilmədiyini qəti deyə bilmərəm. Təkcə bir şeyi dəqiq bilirəm: axtardığı adamın qatildən çuğulluq elədiyini və indi isə iz axtaran itləri qabağına qatıb, onu öz qanadı altına alan, himayədarlıq edən bir adamın ovuna çıxmadığı vaxtlarda həbsxanada yatdığını ona mən deməmişəm. Bu barədə bir kəlmə də danışmamışam.

– İndi neyləmək istəyirsiniz? O qadın hara köçmək istəyir?

– Ora getmək, onu orda gözləmək istəyir. Demişəm ki, indi orda yoxdur, şerifə kömək etməyə gedib. Əslində, yalan deməmişəm. Çünki bundan qabaq onun harda yaşadığını soruşmuşdu, mən də demişdim. Deyir, bir halda ki, bu onun evidir, onda gedib oğlan gələnəcən orda qalmalıdı. Deyir ki, oğlan özü də bunu istəyərdi. Axı mən ona necə izah edə bilərdim ki, onun bu saat ən çox istəmədiyi şey də məhz budur. Elə bu gün axşam, mən işdən qayıdan kimi ora köçməyə hazırlaşırdı. Artıq əşyalarını bir bağlamaya yığıb, şlyapasını da geyinmişdi, məni gözləyirdi. “Özüm tək də gedərdim, – dedi. – Amma qorxdum ki, azaram, yolu tapa bilmərəm”. Mən dedim: “Hə elədi; ancaq bu gün çox gecdir, yaxşısı budu sabah gedək”, o isə dedi: “Qaranlığın düşməyinə hələ bir saat var. Burdan ora isə cəmi iki mil yoldu, elə deyil?” Mən dedim: “Gəl bir az gözləyək, əvvəlcə bunun üçün icazə almalıyam”. O isə: “Kimdən? Bəyəm ora Lukasın evi deyil?” –deyə soruşdu. Hiss edirdim ki, diqqətlə mənə baxır, sonra dedi: “Axı mən bilən, siz dediniz ki, Lukas orda yaşayır”, özü isə mənə baxırdı. Sonra soruşdu: “Mənim barəmdə məsləhətləşməyə getdiyiniz o keşiş kimdi?”

– İndi siz onun gedib orda qalmağına imkan verəcəksiniz?

– Bəlkə, belə yaxşıdı. Orda təkcə qalacaq, bu hadisələr yoluna düşənəcən hər cür söz-söhbətdən uzaq olacaq.

– Deməli, o qadın qəti qərara gəlib və siz də onu saxlamayacaqsınız. Saxlamaq istəmirsiniz.

Bayron gözlərini qaldırmır.

– Bu, bir yandan baxanda, doğrudan da, o oğlanın evidir. Mən bilən, bundan sonra onun ömründə bir də belə evi olmayacaq. Braun ona...

– O daxmada tək-tənha, özü də bu vəziyyətdə?! Axı bu gün-sabah doğacaq. Ən yaxın evlər, zənci komaları ordan, azı, yarım mil aralıdadır. – O, gözünü Bayrondan çəkmir.

– Mən bu haqda fikirləşmişəm. Elə eləmək olar ki, o orda...

– Nə edə bilərsiniz? Orda ona kim baxacaq?

Bayron dərhal cavab vermir; gözlərini qaldırmır. Amma danışmağa başlayanda səsində inadkarlıq duyulur.

– Bəzi şeyləri gizlin də etmək olar, amma şər məqsədlə yox, keşiş həzrətləri. İnsanlar buna necə baxacaqlar baxsınlar, dəxli yoxdu.

– Bayron, kənardan insanlara necə görünürsə görünsün... Mən düşünmürəm ki, siz nəsə şər, şeytani əməl törədə bilərsiniz. Amma məsuliyyəti boynunuza götürüb deyə bilərsinizmi ki, şərin həddi-hüdudu haracandır, harda o, görüntüyə keçir? Əməllə görüntü arasındakı həddin hansı nöqtəsində şər dayanır, irəli gedə bilmir?

– Yox, – Bayron deyir. Yüngülcə yerində qurdalanır; elə danışır ki, elə bil, yuxudan indi ayılır: – Ümidvaram ki, yox. Məncə, mən düzgün iş tutmaq istəyirəm.

"İlk dəfədir ki, – Haytauer fikirləşir, – o mənə yalan danışır. Ömründə ilk dəfədir ki, kiməsə – istər qadın, istər kişi olsun, hətta özünə belə – yalan söz deyir". Masanın üstündən bir dəfə də olsun dönüb ona baxmayan inadcıl, ciddi sifətə baxır. "Bəlkə, bu hələ yalan deyil, axı bunun yalan olduğunu özü də başa düşmür?" Və deyir:

– Çox gözəl, – sifətinə, sallaq çənəsinə, gözlərindəki qara çuxurlara heç cür uyğun gəlməyən süni bir kəskinliklə deyir. – Deməli, qərarınız qətidir. Siz onu ora, o oğlanın evinə aparacaq, orda ona qulluq edəcək, çalışacaqsınız ki, bu hadisələr bitənəcən heç kim onu narahat eləməsin. Sonra da o oğlana... Berçdi, Braundu nədi... ona deyəcəksiniz ki, o qız burdadır.

– O isə yenə qaçacaq, – Braun deyir. Gözlərini qaldırmır, amma, elə bil, nəsə bir təntənə, nəsə bir məmnunluq hissi onu öz ağuşuna alır, bu hissini vaxtında boğmağa, gizlətməyə macal tapmır; indi isə artıq çox gecdir. İlk anlarda o bunu gizlətməyə heç səy də göstərmir; başını qaldırıb inamla, cəsarətlə, gümrah-gümrah keşişə baxır. Keşiş də diqqətlə onu süzür.

– Hə-ə, deməli siz buna çalışırsınız? – Haytauer deyir. Masanın üstündəki çırağın işığı hər ikisinin üstünə düşür. Nəfəsi kəsilmiş gecənin nəhayətsiz sükutu açıq pəncərədən içəri dolur. – Bir fikirləşin neyləyirsiniz. Siz ərlə arvadın arasına girməyə çalışırsınız.

Bayron özünü ələ alır. Artıq onun sifətində heç bir təntənə yoxdu. Amma özündən yaşlı adamın sifətinə qətiyyətlə baxır. Bəlkə də, səsini ələ almaq istəyir. Amma bacarmır.

– Onlar hələ ər-arvad deyillər, – o deyir.

– Qadın da belə fikirləşir? Sizcə, o da belə fikirləşir? – Onlar bir-birlərinə baxırlar. – Ah, Bayron, Bayron. Kilsədə mızıldanılan beş-on sözün qadın təbiətinin əyilməzliyi ilə müqayisədə nə dəyəri var? Xüsusilə də doğulacaq körpə ilə müqayisədə?

– Nə bilim, bəlkə də, o qaçmayacaq. Əgər pulu, mükafatı ala bilsə. Min dollara o qədər vurub keflənə bilər ki, hər şeyə, hətta evlənməyə belə cəsarəti çatar.

– Ah, Bayron, Bayron.

– Nədi, sizcə, mən... nə etməliyəm? Nə məsləhət görürsünüz?

– Ceffersondan çıxıb gedin. Həmişəlik. – Onlar bir-birlərinə baxırlar. – Yox, – Haytauer deyir. – Sizə mənim köməyim lazım deyil. Sizə artıq məndən qat-qat güclü biri kömək eləyir.

– Kim kömək eləyir?

– Şeytan, – Haytauer deyir.

"Bəli, şeytanın gözü *onun* da üstündədi", – Haytauer fikirləşir. Onu evə aparan yolu artıq yarı eləyib, dirsəyindən içi dolu zənbil asılıb. "Onun da. Onun da", – addımlaya-addımlaya düşünür. Bərk istidir. Qollu köynəkdə, qara şalvardadır, uzun, arıq ayaqları, iri sümüklü əlləri var, süst, sallaq qarnı eybəcər hamiləlik kimi qeyri-təbii görünür. Köynəyi ağ rəngdədir, amma təmiz deyil; ağ, pambıq parçadan olan, səliqəsiz bağlanmış qalstuku kimi yaxalığı da kirlidi; üzü iki-üç gündür qırxılmayıb. Panaması da kirlidi, onun altından isə istiyə görə başına bağladığı kirli yaylığın qıraqları, künc düyünləri görünür. Bazarlıqdan qayıdır; bunun üçün həftədə iki dəfə şəhərə gedir; bu gün də orada özünün oturaq həyatdan və gec-gec yuyunmaqdan kəskin iy verən, səliqəsiz, tör-töküntülü, çal saçlı, ölü dırnaqlı kişi bədəni ilə birlikdə, gözlərində çirkli qara eynək həmişə bazarlıq elədiyi, aldığı şeylərin pulunu nağd ödədiyi, içi ərzaqla dolu dükana girmişdi.

– Hə-ə, axır ki, bu zəncinin izinə düşə bildilər, – dükan sahibi dedi.

– Zəncinin? – Haytauer heyrətlə soruşdu. Xırdasını cibinə soxmağa çalışdığı anda yerindəcə donub qaldı.

– Onu deyirəm də... o qatili. Mən həmişə deyirdim ki, onda nəsə var. O, ağ deyil. Yəni göründüyü kimi deyil. Amma bu camaata nəyisə sübut etmək mümkündü bəyəm, gərək...

– İzinə düşüblər? – Haytauer dedi.

– Bəs necə, görüm onu lənətə gəlsin. Axmağın biriymiş, heç bu mahaldan qaçıb getməyi belə ağlına gətirməyib. Şerif onu axtarıb tapmaq üçün zəng vurub bütün mahalı ayağa qaldırıb, bu qara əc... hım, qatil isə onların lap qulağının dibindəymiş.

– Onlar onu... – O dolu zənbilin üstündən piştaxtaya söykəndi. Onun sivri kənarının qarnının ətinə girdiyini hiss elədi. Piştaxta möhkəm idi, yerindən tərpənmədi; amma elə bil, ayağının altındakı yer özü harasa qaçmağa hazırlaşmışdı, yüngülcə silkələndi. Sonra cilovu buraxılmış kimi yavaş-yavaş, tələsmədən hərəkətə gəldi və sürətlə, sərt, amma fəndgir bir üsulla üzüaşağı cumdu; halbuki üstünə milçək daraşmış konserv qutularının düzüldüyü rəflər, satıcının özü gözlə görüldüyü qədər heç yerindən də tərpənməmişdi; bu, məkrli, təhqiramiz, aldadıcı bir

duyğu idi. O isə fikirləşirdi: “Yox, eləməyəcəm! Yox, eləməyəcəm! Mən qarışmamaq haqqını satın almışam. Onun haqqını ödəmişəm. Haqqını ödəmişəm”.

– Onu hələ tuta bilməyiblər, – dükan sahibi dedi. – Ancaq tutacaqlar. Bu gün səhər tezdən, heç hava işıqlanmamış şerif itləri kilsəyə aparıb. Ondan cəmisi altı saat geridədilər. Təsəvvür edirsiniz, bu gicbəsər ...yaxşı şey ağlına gətirməyib; elə bircə bu hərəkəti onun zənci olduğuna dəlalət edir... – Sonra Haytauer bunu eşitdi. – Başqa şey istəmirsiniz ki?

– Nə? – o dedi. – Nə?

– Ayrı heç nə götürməyəcəksiniz ki?

– Hə. Hə. Ayrı bir şey... – Ciblərini qurdalamağa başladı, dükan sahibinin gözü onda idi. Əl bayıra çıxdı, hələ də qurdalanır, nəyisə axtarırdı. Birdən piştaxtaya toxundu, xırda, sikkə pullar yerə töküldü. Dükan sahibi piştaxtanın o biri qırağına diyirlənən sikkələrdən bir neçəsini tutub saxladı.

– Bunlar nə üçündür? – dükan sahibi təəccübləndi.

– Şey... – Haytauerin əli dolu zənbilin içində qurdalanırdı. – Şey...

– Siz hamısının haqqını ödəmisiniz. – Dükan sahibi maraq içində ona baxırdı. – Bu xırdaları mən özüm indicə sizə qaytardım. Bir dolların qalığıdı.

– Aa-a, – Haytauer dedi. – Elədi. Mən... mən, sadəcə... – Satıcı pulları yerdən yığdı. Ona uzatdı. Alıcının onun əlinə toxunan əli buz kimi soyuq idi.

– Hamısı bu zəhrimar istidəndir, – dükan sahibi dedi. – Adamı lap əldən salır. Bəlkə, bir az oturub dincələsiniz, sonra gedərsiniz. – Ancaq deyəsən, Haytauer onu eşitmədi. Artıq qapıya doğru yönəlmişdi, satıcı onun arxasınca baxırdı. Əlində zənbil küçəyə çıxdı, sanki, buz üstündə yeriyirmiş kimi ürkək-ürkək, ehtiyatla hərəkət edirdi. Bərk istiydi; asfaltdan buğlanıb qalxan isti hava meydandakı tanış binaları canlı və titrək işıq kölgələri kimi haləyə bürümüşdü. Gedə-gedə düşünürdü *Onun da. Onun da* Artıq sürətlə yeriyirdi, buna görə də növbəti tinə çatıb, nəhayət, onu gözləyən kimsəsiz, ölü bir evin yerləşdiyi kimsəsiz, ölü bir küçəyə dönəndə nəfəsi tamam kəsildi. “Hamısı istidəndi”, – üst şüur ona deyir, təsdiqləyir, başa salırdı. Ancaq bir şey aramsız olaraq – hətta bu boş, indi heç bir kimsənin o lövhəyə baxmaq, nəyisə xatırlamaq üçün ayaq saxlamadığı sakit küçədə, öz evinin, sığınacağının gözlə göründüyü yerdə belə – alt şüurunda elə hey fırlanır, aldadır, təsəlli verirdi: “Yox, eləməyəcəm. Yox, eləməyəcəm. Mən qarışmamaq haqqını satın almışam”. Artıq az qala, ucadan inadla təkrar edir, özünə bəraət qazandırmağa çalışır: “Onun haqqını ödəmişəm. Qiymət öldürməyə çalışmamışam. Heç kim bunu dana bilməz. Mən yalnız sakitlik istəmişəm; onların haqqını artıqlaması ilə ödəmişəm, qiymət öldürməyə çalışmamışam”. Küçə yırğalanır, havada üzürdü; tər bassa da günortanın bu qızmar istisi belə ona soyuq gəlirdi. Sonra tər, qızmar isti, göz önündəki ilğım – hamısı bir andaca bir-birinə

qarışaraq, hər cür məntiqi və bəraəti rədd edən, amansız alov kimi onları udub əridən qətiyyətə çevrildi: *İstəmirəm! İstəmirəm!*

Axşam alatoranında kabinetin pəncərəsi önündə oturub küçəyə baxarkən Bayronun fənər işığının altına girib sonra çıxdığını görəndə, oturduğu kresloda özünü bir az qabağa verdi. İlk anda – küçədə gördüyü fiqurun kim olduğunu tanıyan kimi fikirləşdi *Aa-a. Onun bu axşam gələcəyini gözləyirdim. Hətta yalandan olsa belə şeytana özünü bənzətmək onun təbiətinə xas deyil* Bunu fikirləşib qurtarmamış silkindi, özünü bir az da qabağa verdi: küçə fənərinin parlaq işığında yaxınlaşan adamı tanıdı, bir an sonra isə elə bildi ki, səhv eləyir, hərçənd əmin idi ki, səhv eləmir, bu adam Bayrondan başqası ola bilməz, çünki o artıq həyət qapısına tərəf dönmüşdü.

Bu gün Bayron başqa adamdı. Bu onun yerişindən, gərdişindən də duyulur; Haytauer bir az qabağa əyilib öz-özünə deyir *Elə bil, məğrur olmağı, yaxud dikbaşlıq eləməyi öyrənib* Bayron başını dik tutub, çiyinlərini qabardaraq iti addımlarla yeriyir; Haytauer birdən, az qala, ucadan deyir: "O nə isə eləyib. Nəsə bir iş görüb". Qaranlıq pəncərəyə tərəf əyilərək, ağzında dilini nırçıldada-nırçıldada o fiqurun sürətlə görmə bucağından çıxıb itdiyinə, artırmaya, qapıya tərəf getdiyinə tamaşa eləyir, bir saniyədən sonra isə addım səsləri, qapı tıqqıltısı eşidilir. "Mənimləsə bölüşmək istəmədi, – o fikirləşir. – Mən onu dinləyərdim, danışa-danışa fikirləşməsinə mane olmazdım." Artıq onu otaqda gözləyir, masanın böyründə ayaq saxlayır ki, çırağı yandırsın. Sonra giriş qapısına tərəf gedir.

– Mənəm, keşiş həzrətləri, Bayrondu, – Bayron deyir.

– Mən sizi tanıdım, – Haytauer deyir. – Hərçənd ki bu dəfə aşağıda ayağınız pilləkənə ilişmədi. Bayron, siz bu evdə çox olmusunuz, amma bu günə qədər bir dəfə də olsun aşağıda ayağınız pilləkənə ilişmədən yuxarı qalxmamısınız. – Adətən, Bayronun bu evə ziyarətləri, qonaq sıxılmasın deyə bu cür bir qədər zarafatyana və ilıq notlarla müşayiət olunurdu, qonaq tərəfindən isə bu çaşqın, yöndəmsiz, bütün məğzi ev sahibinə qarşı ehtiram göstərməkdən ibarət olan kəndçi utancaqlığı ilə qarşılanırdı. Bəzən Haytauerə elə gəlirdi ki, o, Bayronu – sanki, bu adamın üstündə yelkən varmış kimi – qəsdən, bircə dəfə nəfəsini içəri çəkməklə bu evə dartıb gətirir.

Bu dəfə Bayron, Haytauerin sözünü bitirməsini gözləmədən içəri girir. Təntimədən, sifətindəki yeni, qətiyyətlə dikbaşlıq arasında qalan bir ifadəylə birlikdə otağa daxil olur.

– Elə bilirəm ki, ilişmədən gəlməyim ilişərək gəldiyimdən betər xoşunuza gəlməyəcək, – Bayron deyir.

– Siz mənə ümid verir, yoxsa təhdid edirsiniz, Bayron?

– Yox, mən bunu təhdid kimi demədim, – Bayron deyir.

– Aha, – Haytauer deyir. – Başqa sözlə, siz mənə ümid yeri qoymursunuz. Nə olar, ən azı, bu barədə xəbərdar edilmiş oldum. Mən sizi elə küçə fənərinin işığında görən kimi bunu anladım. Amma görürəm nə barədəsə danışmaq istəyirsiniz. O şey barəsində ki, mənimlə məsləhətləşməyi lazım bilməsəniz də, artıq eləmisiniz.

Onlar kabinetə tərəf gedirlər; Bayron qapının ağzında ayaq saxlayır, dönüb aşağı, ev sahibinin sifətinə baxır.

– Deməli, siz bilirsiniz, – o deyir. – Artıq eşitmisiniz. – Başını hələ də qabağa döndərməyib, amma ev sahibinə də baxmır. – Olsun... – deyir. – Əlbəttə, insanın ağzını bağlamaq mümkün deyil. Hətta qadının belə. Amma hər halda, bilmək istərdim ki, bunu sizə kim deyib. Ona görə yox ki, elədiyim işə görə xəcalət çəkirəm. Mən bunu heç sizdən gizlətmək fikrində də deyildim. Fürsət düşən kimi özüm hər şeyi açıb deyəcəkdim.

Onlar işıqlı otağın qapısı ağzında dayanıblar. Bayronun əlində bir neçə bağlama, kağız paket olduğunu Haytauer indi görür, yəqin ki, onlar ərzaqla doludu.

– Nəyi? – Haytauer deyir. – Siz mənə nəyi demək istəyirdiniz? Nə isə, hələ bir içəri keçin. Bəlkə, bunu mən özüm də bilirəm. Amma siz danışanda sifətinizi görmək istəyirəm. Bax, bunu bəri başdan deyirəm, Bayron. – İşıqlı otağa keçirlər. Bağlamalardakı yemək idi: o özü belə bağlamaları çox daşımışdı, ona görə də bunu dərhal anlamaq çətin olmadı. – Əyləşin, – deyir.

– Yox, – Bayron cavab verir. – Burda, sizin yanınızda çox oturmayacam. – Və ciddi, təmkinli, amma bir qədər yazıq, güvənsiz də olsa qətiyyətli, israrsız da olsa əmin bir duruşla ayaq üstə dayanır; ən yaxın adamının belə başa düşməyəcəyi, bəyənməyəcəyi, bununla heç cür razılaşmayacağı, amma özünün düzgün hesab etdiyi bir işi görməyə hazırlaşan adama bənzəyir. Deyir: – Bu sizin xoşunuza gəlməyəcək. Ancaq başqa cür də mümkün deyil. İstərdim siz də belə düşünəsiniz. Yəqin ki, bu sizin üçün çətin olacaq. Neyləyək, məncə, hər şey belə də olmalıdı.

Haytauer əyləşir, qaşqabağını töküb yenə də masanın üstündən ona baxır.

– Deyin görüm, neyləmisiniz, Bayron?

İndi Bayronun danışığı da ayrı cürdü: qısa, yığcam, dili dolaşmadan danışır, sözləri dəqiq, yerli-yerində seçir.

– Bu axşam onu ora apardım. O daxmanı əvvəlcədən yığışdırıb təmizləmişdim. Orda özünə yer elədi. Özü belə istədi. O oğlanın heç vaxt belə bir evi olmayıb, bundan sonra da olmayacaq, elə bilirəm ki, bu qadının orda qalmağa tam haqqı var, həm də axı ev sahibi hələlik orda yaşamır. Necə deyərlər, hardasa başqa yerdə ilişib qalıb. Bilirəm, bu sizin xoşunuza gəlməyəcək. Siz bunun üçün çox səbəblər göstərə bilərsiniz, hamısı da ciddi, mühüm. Deyəcəksiniz ki, daxma o oğlanın da deyil, onu ora necə buraxmaq olar? Olsun. Bəlkə də, elədir. Amma nə ştatda, nə də ölkədə elə bir adam tapılmaz ki, o qızın buna haqqı olmadığını desin. Deyəcəksiniz ki, bu vəziyyətdə onun yanında qadın xeylağının olması lazımdı. Düzdü. Orda, o qədər cavan olmasa

da, ağıllı bir zənci qadın var – o daxmadan cəmi iki yüz metr aralıda yaşayır. İstədiyi vaxt kətildən, çarpayıdan qalxmadan onu köməyə çağıra bilər. Deyəcəksiniz ki, o qadın ağ deyil. Onda sizdən soruşum: o, doğmağa başlayanda Ceffersondakı ağ qadınlardan nə gözləyə bilər? Axı heç bir həftə deyil ki, bura gəlib. Ağzını açıb bir ağ qadınla beş dəqiqə söhbət eləyən kimi, o onun ərsiz olduğunu, əli cibində, kefi kök, damağı çağ yer üzündə veyillənən o əclaf haqqında ara-sıra nəsə eşitsə də, ümumiyyətlə, heç vaxt ona ərə gedə bilməyəcəyini dərhal başa düşəcək. Bu halda ağ qadınların ona çoxmu köməyi dəyə bilər? Əlbəttə, yaxşı bir yataqda uzanıb, hamının gözü qabağında deyil, evdə – bir otaqda doğa bilməsi üçün onlar onun qayğısına qala bilərlər. Ancaq mən bundan danışmıram. Elə bilirəm ki, onun barəsində "Qarnını dombaldıb küçələrə düşən bir qıza hələ bu da – evsiz-eşiksiz doğmağı da azdı" deyən bir adamla mübahisə eləmək çox çətindir. Axı uşaq ki bunu özü seçməyib. Hətta seçmiş olsaydı belə, yansın mənim dilim… istənilən bədbəxt körpənin, məncə, burda – bu dünyada onu gözləyən acı aqibətdən ... daha yaxşısına... daha artığına haqqı çatır... Elə bilirəm ki, nə dediyimi başa düşürsünüz. Məncə, siz özünüz də belə deyərdiniz. – Haytauer gözünü masanın üstündən ona zilləyib, o isə rəvan, təmkinli bir ahənglə danışır, sözlər öz-özünə axır, bu o vaxta qədər davam edir ki, nitqi nəsə həddən artıq yeni və anlaşılmaz olan, yalnız duyğunun qavraya bildiyi bir şeyə dirənir. – Və üçüncü səbəb. Ağ qadın – özü də orda tək-tənha. Bu sizin xoşunuza gəlməyəcək. Hər şeydən daha çox xoşunuza gəlməyəcək.

– Ah, Bayron, Bayron.

Bayronun səsi tutqunlaşır. Amma başını aşağı salmır.

– Mən evdə onunla bir yerdə qalmıram. Mənim öz çadırım var. Özü də o evə çox yaxın da deyil. Elə yerdədi ki, bir şey olsa, səsini eşidə bilərəm. Qapıya cəftə də düzəltmişəm. Kim istəyir, haçan istəyir gəlsin – məni yalnız çadırda görəcək.

– Ah, Bayron, Bayron.

– Bilirəm, çoxlarından fərqli olaraq, siz belə düşünməzsiniz. Elə indi də. Bilirdim ki, başa düşəcəksiniz, hətta əgər o... əgər buna... Başa düşürəm, siz ona görə belə danışırsınız ki, başqalarının buna nə rəng verəcəklərini yaxşı bilirsiniz.

Haytauer yenə də Şərq bütü pozasını alıb, əllərini kreslonun qoltuqlarının üstünə qoyub.

– Bu şəhərdən çıxıb gedin, Bayron. Gedin. Elə indi, bu saat. Təcili. Bu yeri, bu dəhşətli, çox dəhşətli, qorxunc yeri tərk edib gedin. Mən sizin içinizi şüşə kimi aydın görürəm. Deyəcəksiniz ki, məhəbbətin nə olduğunu ilk dəfədir anlamısınız; mənsə deyirəm ki, ümidin nə olduğunu anlamısınız. Başqa heç nəyin, yalnız ümidin. Ümid üçün heç bir obyektin əhəmiyyəti yoxdur, elə sizin özünüz üçün də. O qızın, sizin indi seçdiyiniz yolun yalnız bircə sonluğu var: ya günaha batmalı, ya da evlənməlisiniz. Siz Günaha batmaq istəməyəcəksiniz. Əsl faciə də məhz bundadı, Allah özü məni bağışlasın. Sizin üçün bu ya evlənmək olmalıdı, ya da heç nə.

Buna görə də evlənməyə çalışacaqsınız. Siz onu buna inandıracaqsınız; bəlkə də, artıq inandırmısınız, – əgər bunu başa düşə, belə bir şeyə yol verə bilibsə; yox, əgər belə deyilsə, onda nə üçün burda qalmağa razılıq verib, nə üçün axtardığı adamı hökmən görməyə can atır? Mən sizə "Günahı seçin" deyə bilmərəm, çünki onda siz nəinki mənə nifrət edəcəksiniz, bu hissi həm də o qıza da ötürəcəksiniz. Buna görə də deyirəm: burdan çıxıb gedin. İndi. Dərhal. Gedin və bir daha geri dönüb baxmayın. Ancaq bunu eləməyin, Bayron.

Onlar bir-birinə baxırlar.

– Mən bilirdim ki, bu sizin xoşunuza gəlməyəcək, – Bayron deyir. – Deyəsən, sizin yanınızda oturub qalmamaqla düzgün hərəkət eləmişəm. Amma bunu sizdən gözləmirdim. Bəyəm siz də rüsvay olunmuş, xəyanətə tuş gəlmiş bir qıza qarşı əks cəbhədə yer almısınız?!

– Uşağı olan bir qadına xəyanət eləmək mümkün deyil, ananın əri – o, ata olsa da, olmasa da – artıq aldadılmış kişidi. Özünüz üçün azacıq da olsa ümid yeri saxlayın, Bayron. Əgər hökmən evlənmək istəyirsinizsə, nə qədər tənha qadın, ərsiz, bakirə qız var. Artıq bir dəfə başqasını seçmiş olan, indi isə seçimindən imtina etmək istəyən bir qadına özünüzü qurban verməyiniz ədalətli deyil. Düzgün iş deyil. Sizə başucalığı gətirməyəcək. Allah nikahı bunun üçün yaratmayıb. Yaradıb? Nikahı qadınlar kəşf edib.

– Qurban? Mən bəyəm qurbanam? Mənə elə gəlir ki, qurban...

– Bircə ona yox. Lina Qrouv kimilərinə bu dünyada iki kişi həmişə tapılacaq, onların sayı bir legiondur: Lukas Berçlər, Bayron Bançlar. Amma nə Linanın, nə də başqa bir qadının bir kişidən artığına haqqı yoxdur. Heç bir qadının. Yaxşı qadınlar qaba rəftarlı, içki düşkünü və sair bu qəbildən olan pis kişilərin əlindən zillət çəkirlər. Ancaq hansı qadın – istər yaxşı, istərsə də pis olsun – pis kişidən kişilərin yaxşı qadınlardan çəkdikləri qədər zillət çəkib? Deyin mənə, Bayron?

Onlar sakitcə, qızışmadan, biri digərinin dediyi sözü götür-qoy edə bilmək üçün arabir susaraq, amma öz əqidəsindən heç cür dönmək istəməyən iki adam kimi söhbət edirlər.

– Elədi, məncə, haqlısınız, – Bayron deyir. – Hər halda, sizə yanılırsınız demək mənə düşməz. Ancaq siz də mənə səhvsən deməməlisiniz, hətta səhv olsam belə.

– Elədi, – Haytauer cavab verir.

– Hətta səhv olsam belə, – Bayron deyir. – Nə isə, gecəniz xeyrə qalsın. – Və sakitcə əlavə edir: – Oracan bir xeyli yoldu.

– Elədi, – Haytauer onunla razılaşır. – Mənim də bir-iki dəfə o tərəflərə yolum düşüb. Yəqin ki, üç mil olar.

– İki mil, – Bayron deyir. – Nə isə. – Çıxmaq üçün geri çevrilir. Haytauer yerindən tərpənmir. Bayron içəri girəndən bəri yerə qoymadığı bağlamaları əlində rahatlayır. – Gecəniz bir daha xeyrə qalsın, – deyir və qapıya tərəf gedir. – Elə bilirəm ki, tezliklə görüşərik.

– Olar, – Haytauer deyir. – Sizə nəsə bir köməyim dəyə bilərmi? Nəsə bir şey lazımdımı? Adyal, yaxud başqa bir şey?

– Çox sağ olun. Elə bilirəm ki, hər şeyi var. Bəzi şeylər orda əvvəldən də vardı. Minnətdaram, çox sağ olun.

– Mənə bildirəcəksinizmi? Təzə bir şey olsa. Körpə doğ... Həkimlə danışmısınız?

– Bunu özüm həll edəcəm.

– Artıq onunla danışmısınız? Şərtləşmisiniz?

– Özüm hər şeyi həll edəcəm. Sonra sizə xəbər verərəm.

O artıq yoxdur. Haytauer pəncərədən onun küçəyə necə çıxdığına, sonra da əlində yemək bağlamaları şəhər kənarına doğru iki millik yolu necə dəf etməyə başladığına tamaşa edir. O, tamam gözdən itdi – şəst, iti addımlarla çıxıb getdi; şişman, yeriyəndə dəqiqədənbir dayanıb nəfəsini dərməli olan, artıq oturaq həyat tərzi yaşayan bir qoca belə bir sürətli yerişə tab gətirə bilməzdi. Və Haytauer pəncərə önündə bir az qabağa əyilib, qızmar avqust istisində, içərisində yaşadığı iyi – artıq həyatda olmayan insanların iyini, ölgünləşən lırtlığın və kirli paltarın məzar qoxusuna bənzər iyini duymadan hələ də eşidildiyini güman etdiyi addım səslərinə qulaq verir; hərçənd onların çoxdan susmuş olduğunu özü də yaxşı bilir, fikirləşir "İlahi, ona rəhmin gəlsin. İlahi sən özün ona kömək elə"; fikirləşir *Cavanlıq. Cavanlıq. Onu nəylə müqayisə etmək olar, bu dünyada heç nə onunla müqayisə edilə bilməz* Sakitcə fikirləşir: "Gərək dua etməyi tərgitməyəydim". Artıq addım səsləri kəsilib. Yalnız bayırdakı cücülərin saysız-hesabsız və susmaq bilməyən xorunu eşidir və pəncərə altlığına tərəf əyilərək, torpağın cürbəcür qaynar, kəskin iylərini ciyərinə çəkə-çəkə cavanlığında, cavan vaxtlarında qaranlığı, gecələr ağaclar arasında gəzməyi, ağac dibində oturmağı necə sevdiyi barədə düşünür. Onda torpaq, ağacların qabığı canlı, ibtidai məxluqa çevrilir, dirilir və anlaşılmaz, vahiməli yarıfərəh-yarıdəhşət hissi onu öz ağuşuna alırdı. Bundan yaman qorxurdu. Dəhşətə gəlirdi; qorxa-qorxa sevirdi. Amma bir dəfə, seminariyada oxuyanda başa düşdü ki, daha qorxmur. Elə bil, hansı qapısa qəfil çırpılıb örtüldü. Bundan sonra heç vaxt qaranlıqdan qorxmadı. Sadəcə, ona nifrət etdi: ondan qaçdı – dörd divar arasına, süni işığa qaçdı. "Bəli, – o fikirləşir. – Gərək dua etməyi tərgitməyəydim". Pəncərənin qabağından çəkilir. Kabinetin bir divarına kitablar düzülüb. Onların önündə dayanır, nəyisə axtarır, nəhayət, axtardığını tapır. Bu, Tennisondur. Cildi tamam əldən düşüb. Kitabları-nın çoxu seminariya dövründən qalıb. Çırağa yaxın oturub, onu açır. Çox uzun çəkmir. Tezliklə dördnala çapan zərif kəlamların, çoxdan qurumuş ağacların və sönmüş ehtirasların yorğun bay-ğınlığı sürətlə, ehmalca, sakitcə onu öz ağuşuna alır. Bu, dua etməkdən daha yaxşıdır, çünki ucadan, danışa-danışa fikirləşmək əziyyəti çəkmirsən. Bu, hətta kilsədə xədim bir adamın, başa düşülməsi lazım olmayan dildə oxuduğu duaya qulaq asmaq kimi bir şeydir.

– Orda, daxmada kimsə var, – köməkçisi şerifə dedi. – Gizlənib eləmir, deyəsən, orda yaşayır.

– Get bax, – şerif dedi.

Köməkçi getdi və qayıtdı.

– Bir qadındı. Cavan bir qadın. Özü də, deyəsən, hələ orda çox qalacaq. Bayron Banç da ordadı, daxmadan aralıda – təxminən, burdan poçta qədər aralıda özünə çadır qurub.

– Bayron Banç? – şerif deyir. – Nə qadınıdı o elə?

– Bilmirəm. Buralı deyil. Cavandı. Nə var danışdı. Mən heç ayağımı içəri qoymamış danışmağa başladı, elə bil, nitq söyləyirdi. Sanki, çoxdan bu cür danışmağa öyrəşib, vərdiş eləyib. Məncə, elə bu cürdü, ərini axtara-axtara Alabamadan bura gələnəcən, həqiqətən, buna vərdiş eləyib. Guya, o, harasa işə düzəlməyə gedibmiş, bu da onun dalınca düşüb, yolda buna deyiblər ki, o burdadı. Elə bu vaxt Bayron içəri girdi, dedi ki, mən özüm hamısını danışaram. Dedi ki, gəlib sizə də danışmaq istəyirmiş.

– Bayron Banç, – şerif təkrar edir.

– Bəli, – köməkçi təsdiqləyir. – Deyir ki, qadın hamilədi, uşağı olacaq. Özü də vaxtına çox az qalıb.

– Uşağı olacaq? – şerif təkrar edir. Köməkçisinə baxır. – Özü də Alabamadan. Ya da başqa bir yerdən. Sən mənə Bayron Banç haqda ağzına gələni danışma.

– Mən ki, elə bir şey demədim, – köməkçi deyir. – Mən demirəm ki, uşaq Bayrondandır. Hər halda, Bayron özü belə demir. Mən sizə onun mənə dediklərini danışıram.

– Hə-ə, – şerif deyir. – Aydındı. Bəs onda o qadın nə üçün ordadı. Deməli, uşaq bu ikisindən birindəndi. Kristmasdandı. Elədi?

– Yox. Bayron bu barədə də danışdı. Qadın eşitməsin deyə məni bayıra çıxardı, hər şeyi açıb tökdü. Deyir ki, gəlib sizə də danışmaq istəyirmiş. Uşaq Braundandı. Amma onun soyadı Braun deyil. Lukas Berçdi. Bayron hər şeyi mənə danışdı. Bu Braunmudu, Berçmidi, onu Alabamada necə atıb qaçıb... Qadına deyib ki, guya, özünə iş, mənzil axtarmağa gedir, sonra onu yanına çağıracaq. Ancaq vaxtı yetişir, ondan isə xəbər-ətər yoxdu – haradadı, nə işlə məşğuldu, yazıq heç nə bilmir, buna görə də daha gözləməmək qərarına gəlir. Pay-piyada yola düşür, yolda rast gəldiyi hər kəsdən Lukas Berç adlı oğlanı tanıyıb-tanımadıqlarını soruşur. Bu minvalla bir müddət keçdikdən sonra yolda kimsə deyir ki, belə bir adam haqda eşidib və onun fikrincə, bu, Berçmidi, Bançmıdı, nədi, hardasa Ceffersonda yonqar sexində işləyir; buna görə o da bura gəlir. Şənbə günü, biz qətl yerində olanda arabada gəlib, yonqar sexinə gedib və orada məlum olub ki, o, Berç yox, Bançdı. Bayron deyir ki, ağlına heç nə gətirmədən, təsadüfən ona ərinin

Ceffersonda olduğunu söyləyib. Deyir ki, sonra onu divara dirəyib, Braunun harda yaşadığını deməyə məcbur edib. Ancaq Bayron, Braundu, Berçdi, nədi, onun Kristmasla birlikdə bu qətlə bulaşdığını ona söyləməyib. Yalnız bunu deyib ki, Braun harasa iş dalınca gedib. Məncə, elə düzünü deyib. İş deyilsə, bəs nədi? Min dollardan ötrü özünü bu qədər oda-közə vuran, canından da keçməyə hazır olan belə bir adamı ömrümdə görməmişəm. Bir sözlə, qadın deyib ki, Braunun evi, çox güman ki, elə Lukas Berçin ona söz verdiyi evdir, buna görə də ora köçüb, dalınca getdiyi işdən azad olub qayıdanacan onu orda gözləmək qərarına gəlib. Bayron deyir ki, buna heç cür mane ola bilməyib; necə deyərlər, Braun haqqında bir neçə dəfə yalan söylədikdən sonra həqiqəti açıb ona demək istəməyib. Bayron deyir ki, guya, əvvəldən yanınıza gəlib bütün bunları sizə danışmaq istəyirmiş, ancaq siz onu qabaqlamısınız, o heç o qadını orda əməlli-başlı yerbəyer də edə bilməyib.

– Lukas Berç? – şerif deyir.

– Mən özüm də məəttəl qaldım, – köməkçi deyir. – İndi onunla neyləmək fikrindəsiniz?

– Heç nə, – şerif deyir. – Elə bilirəm ki, onlar orda heç kimə maneçilik törətmirlər. O ev mənim deyil, onları ordan mən qova bilmərəm. Bir də ki, Bayron düz deyib, o Berçdi, Braundu, nədi, onun hələ bir xeyli müddət başı işdən açılmayacaq.

– Bəs o qadının burda olduğunu Brauna deməyəcəksiniz?

– Yox, niyə də deyim, – şerif cavab verir. – Bu mənim işim deyil. Mən onun Alabamada, ya da hardasa atıb gəldiyi arvadlarla məşğul olmuram. Mən ancaq burda, Ceffersonda yuva salmış ərlə məşğulam.

Köməkçi şaqqanaq çəkib gülür.

– Doğrudan da, elədir, – o deyir. Sonra özünə gəlir, fikrə gedir. – Əgər min dolları almasa, məncə, onun bağrı çatlayacaq, öləcək.

– Çətin, – şerif deyir.

Çərşənbə günü, gecə saat üçdə bir zənci çulsuz qatırda şəhərə gəldi. Şerifin evinə gedib, onu yuxudan oyatdı. O, iyirmi mil aralıda yerləşən zənci kilsəsindən, hər gecə keçirilən çilə ibadətindən birbaş buraya gəlmişdi. Bundan əvvəlki gecə himnin tən ortasında arxa tərəfdə dəhşətli şaqqıltı eşidilmiş, ibadətə yığışanlar geriyə dönüb baxarkən bir adamın qapıda dayandığını görmüşdülər. Qapı bağlı deyilmiş, heç tamam örtülməyibmiş də, lakin bu adam, görünür, qapının dəstəyindən yapışıb, onu divara elə möhkəm çırpıb ki, bu səs rəvan dua səsini tapança gülləsi kimi kəsib keçib. Sonra o, cəld oturacaqların arası ilə duanın bir andaca kəsildiyi yerə, keşişin donub qaldığı, hələ belini düzəltməyə, əlini aşağı salmağa, ağzını yummağa macal tapmadığı kafedraya doğru cumub. Yalnız bu zaman onun ağ adam olduğunu gördülər. İki ağ neft çırağının saldığı işıqdan daha da qatılaşan mağara qaranlığında adamlar içəri girənin sifətini

o, keçidin ortasına çatmayanacan seçə bilməyiblər. Yalnız onda bu adamın sifətinin qara olduğunu görüblər, bir qadın bərkdən çığırıb, adamlar yerlərindən sıçrayıb, qapıya tərəf atılıblar; tövbə skamyasında oturan, artıq, az qala, ağlını itirməkdə olan başqa bir qadın yerindən sıçrayıb ağ, bərəlmiş gözlərini ona zilləyərək qışqırıb: "Bu şeytandı! Bu İblisin özüdü!" Sonra bayıra qaçmağa çalışarkən yolu səhv salıb, düz onun üstünə yüyürüb, o isə qadını yumruqla vurub yerə sərib, üstündən keçib, çığırmaq üçün ayrılmış ağızların, dalı-dalı geriyə çəkilən adamların arası ilə birbaş kafedraya gedib, orda keşişin yaxasından yapışıb.

"Hətta onda da heç kim ona heç nə eləmədi, – çapar danışdı. – Hər şey qəflətən olduğu üçün onun kim olduğunu, hardan gəldiyini, nə istədiyini heç kim bilmirdi. Qadınlar qışqırıb bağırır, o isə Bidenberi qardaşın boğazından yapışıb, onu kafedradan aşağı sürükləyirdi. Bidenberi qardaşın onunla danışmağa, onu sakitləşdirməyə çalışdığını gördük, o isə Bidenberi qardaşı möhkəm silkələyir, yanaqlarına vururdu. Qadınlar elə bərkdən qışqırıb bağırırdılar ki, hətta Bidenberi qardaşın ona nə dediyini də eşidə bilmirdik – ancaq Bidenberi qardaş ona barmağını da vurmadı – bu vaxt ağsaqqallar, dyakonlar[20] ona yaxınlaşdılar, onunla danışmaq istədilər, o isə Bidenberi qardaşı buraxıb, qoca Tompson Atanı vurub, – səksən yaşı var yazığın – düz tövbə skamyasının altına saldı, sonra da əyilib, kətili əlinə götürdü, onu camaatın üstünə qovzamağa başladı, hamı geri çəkildi. Hər kəs çığırıb-bağırır, qapıya tərəf qaçırdı. O isə geri döndü, kafedraya çıxdı, (bu vaxt yazıq Bidenberi qardaş naəlac qalıb o biri tərəfdən aşağı enirdi) orda dayandı: başdan-ayağa kir, çirkab içindəydi, sifətini qara saqqal basmışdı, orda dimdik dayanıb keşiş kimi əlini yuxarı qaldırdı. Və Allahı söyməyə, təhqir eləməyə başladı. Elə bərkdən, qışqıra-qışqıra söyürdü ki, qadınların çığırtısını da batırmışdı; adamlar isə Roz Tompsonu – Tompson Atanın nəvəsini, qızının oğlunu zorla tutub saxlamışdılar, altı fut boyu var, ağzı açıq ülgüc əlində qışqırırdı: "Öldürəcəm onu. Buraxın məni, qardaşlar. O mənim babama əl qaldırıb, onu vurub. Öldürəcəm. Buraxın. Xahiş edirəm buraxın". Adamlar bayıra çıxmağa can atır, itələşə-itələşə keçidlə qapıya doğru qaçışır, hamısı birdən qapıya soxulurdular, o isə kafedrada dayanıb Allahı söyür, o biri adamlar isə Rozu dartıb bayıra çıxarmağa çalışır, Roz da yalvara-yalvara onlara deyirdi ki, onu buraxsınlar. Ancaq hər halda, biz Rozu birtəhər bayıra çıxarıb kolluqda gizlənə bildik, o isə hələ də kafedrada qışqıra-qışqıra Allahı söyürdü. Sonra susdu, qapıya çıxıb orda dayandığını gördük. Yenə də Rozu zorla tutub saxlamalı olduq. Yəqin ki, Rozu buraxmamağa çalışanda o, bizim səs-küyümüzü eşitdi, çünki möhkəm, qəhqəhəylə gülməyə başladı. Orda – qapının ağzında işığı kəsərək, dimdik dayanıb, bərkdən, var gücüylə gülürdü, sonra yenidən söyməyə başladı və skamyanın ayağını əlinə götürüb içəri tulladı. Bir çırağın necə cingildəyib sındığını eşitdik, kilsə daha da qaranlıqlaşdı, sonra o biri çıraq cingildədi, tamam qaranlıq oldu, onun özünü isə artıq heç cür görmək mümkün deyildi. Rozu tutub saxladıqları

[20] Dyakon – aşağı dərəcəli keşiş

yerdə yenidən hay-küy qopdu, kimsə pıçıltı ilə qışqırdı: “Əlimizdən çıxdı, saxlaya bilmədik” və Rozun yenidən kilsənin içinə necə qaçdığını eşitdik; bax elə bu zaman dyakon Vayns mənə dedi: “Roz onu öldürəcək. Qatırın belinə atlan, şerifin dalınca get. Necə görmüsən, hamısını danış”.

– Ancaq heç kim ona heç nə eləməmişdi, rəis, – zənci dedi. – Heç adını da bilmirik. Əvvəllər bir dəfə də olsun üzünü görməmişik. Rozu da tutub saxlamaq üçün çox çalışdıq. Axı o, çox iri adamdı, amma bu adam hamının gözü qabağında onun babasını yumruqla vurub yerə sərdi, Roz da əlində ülgüc, özü də ağzı açıq, o ağ adamın dalınca təkrar qaçıb kilsəyə girərkən gözü ayağının altını görmürdü, əlinə kimin keçəcəyinin fərqində belə deyildi. Amma Allah haqqı, biz onu tutub saxlamaq üçün çox çalışdıq.

Zənci şerifə yalnız bunları danışdı, çünki yalnız bunları bilirdi. Dərhal da qatırına minib geri qayıtdı: ancaq hələ bilmirdi ki, o bunları şerifə danışarkən zənci Roz artıq kilsə yaxınlığındakı bir daxmada huşsuz halda yatağa uzandırılıb, çünki o, artıq zülmət qaranlığa bürünmüş kilsənin içinə cumarkən qapının arxasında pusquda duran Kristmas əlindəki skamya ayağı ilə vurub onun beyninin sümüyünü qırmışdı. Var gücü ilə, qəzəblə, qaçan ayaqların səsini və qapıya soxulan enli kölgəni nişan alaraq bircə dəfə vurdu; elə o andaca onun arxası üstə çevrilmiş skamyanın üstünə aşaraq necə susduğunu eşitdi. Dərhal da kilsədən bayıra, torpağın üstünə tullandı, sərbəst vəziyyət alaraq yerində donub-qaldı; skamyanın ayağı hələ də əlindəydi, sakit idi, heç tövşümürdü də. Sanki, hava da sərin idi, tərləmirdi; qaranlıq ona sərinlik gətirirdi. Kilsənin həyəti – oraqşəkilli, qupquru, tapdanmış ağımtıl torpaq kolluqlarla, ağaclarla əhatə olunmuşdu. Bilirdi ki, kolluqlar zəncilərlə doludu: onların baxışlarını öz üzərində hiss edirdi. “Baxırlar, diqqətlə baxırlar, – o düşündü. – Hətta məni görmədiklərini belə bilmirlər”. Ağır-ağır nəfəs alırdı; hiss eləyirdi ki, əli özündən asılı olmadan qalxıb-enir, sanki, skamya ayağının ağırlığını yoxlamaq istəyir, elə bil, onu heç vaxt əlinə almamışdı. “Sabah üstünə naxış vuraram”, – o düşündü. Sonra səliqə ilə onu divara söykədi, köynəyinin cibindən siqaret, kibrit çıxardı. Kibriti yandırıb, başı bir az yana əyilmiş halda yerində dondu, xırda sap-sarı od alışana qədər bu vəziyyətdə qaldı. Heyvan dırnağının səsini eşitdi. Bu səsin neçə başladığına, yavaş-yavaş bərkidiyinə, sonra isə öləziyib yox olduğuna qulaq verdi. “Qatırla gedir, – alçaq səslə dedi. – Şəhərə yaxşı xəbərlər aparır”. Siqaretini yandırdı, kibrit dənəsini kənara tullayıb, tüstünü hərisliklə uda-uda, zəncilərin bu kiçicik canlı guşəyə yönəlmiş baxışlarını üzərində hiss edə-edə ordaca dayanıb qaldı, yerindən tərpənmədi. Siqaretini çəkib qurtaranacan orda qalsa da, sayıqlığını itirməmişdi. Belini divara söykəyib, skamya ayağını sağ əlində tutmuşdu. Siqareti sonunacan çəkdi, sonra onun kötüyünü uzağa, zəncilərin gizləndiyini hiss etdiyi kolluğun içinə fırlatdı. “Kötüyü tutun, uşaqlar”, – gecənin lal sükutunda birdən onun səsi möhkəm gurladı. Kolluqda gizlənmiş zəncilər siqaret kötüyünün göz vura-vura torpağın üstünə necə düşdüyünə,

bir müddət orda necə közərə-közərə qaldığına tamaşa etdilər. Ancaq onun ordan haçan çıxıb getdiyini, hansı tərəfə yollandığını heç cür görmədilər.

Sabahı gün səhər tezdən, saat səkkizdə şerif öz dəstəsi və itlərlə birlikdə ora gəldi. Bir qəniməti – həm də itlərin heç bir köməyi olmadan – onlar dərhal ələ keçirdilər. Kilsə bomboş idi; bütün zəncilər, sanki, yerin altına girib yox olmuşdular. Adamlar içəri girib, səssizcə burdakı dağıntıya tamaşa etdilər. Sonra bayıra çıxdılar. İtlər dərhal kiminsə izinə düşdülər, amma onlar harasa yollanmamışdan əvvəl köməkçi divardakı yarıqda bir kağız parçası gördü. Görünür, o bura təsadüfən düşməmişdi; açıb baxdılar, cırıq bir siqaret bürməsi olduğunu gördülər; iç, ağ tərəfinə nəsə yazılmışdı. Özü də kor-kobud – ya bacarıqsız əllə, ya da qaranlıqda yazılmışdı; çox qısaydı. Şerifə ünvanlanmış, amma imza qoyulmamış tək bir cümlədən ibarət idi. "Bəs mən sizə nə demişdim", – şerifin yanınca gələnlərdən biri dedi. Onun da üzü indiyəcən bir dəfə də olsun görmədikləri qaçağınkı kimi qırxılmamışdı, çirkliydi, sifəti hiddət və uğursuzluqdan gərginləş-miş, sərsəm hala düşmüşdü; səsi, sanki, son vaxtlar uzun müddət qışqırıb-bağıran, ara vermədən danışan adam kimi batmışdı, xırıltılıydı: "Mən hamınıza demişdim! Demişdim axı!"

– Nə demişdin? – şerif öz soyuq, sakit nəzərlərini ona zilləyib, əlindəki kağızı buraxmadan soyuq, sakit bir tərzdə soruşdu. – Haçan demişdin? O isə qeyzlə, artıq heç nəyə dözməyə tabı qalmamış adam kimi əlacsız, dilxor halda şerifə baxdı; gözlərini ondan çəkməyən köməkçi düşündü: "Əgər o bu mükafatı almasa, doğrudan da öləcək". Həmin adamın ağzı səssizcə açıldı, acıqlı sifətinə ağır bir nigarançılıq, heyrət ifadəsi çökdü, sanki, öz qulaqlarıyla eşitdiklərinə inana bilmirdi.

– Mən sənə demişəm, – şerif cansıxıcı, yeknəsəq səslə sözünə davam etdi, – əgər bu işi necə aparmağım xoşuna gəlmirsə, qayıdıb şəhərdə gözləyə bilərsən. Orda oturub gözləməyin üçün yaxşı yer də var. Özü də dili qarnında, yoxsa, deyəsən, gün sənin başını əməlli-başlı xarab eləyib. Demişəm sənə, ya yox? Hə? Cavab ver.

O, ağzını yumdu. Sanki, var gücünü toplayaraq baxışlarını zorla yana çəkdi, qurumuş boğazını zorla dilə gətirdi: "Bəli."

Şerif ağır-ağır geri çevrildi, əlindəki kağızı sıxıb əzişdirdi.

– Çalış, bir də bunu beynindən çıxarma, – o dedi. – Əgər səndə beyin deyilən bir şey varsa. – Səhərçağı günəş şüalarının işıqlandırdığı sakit, diqqətli sifətlər onları dövrəyə almışdı. – Mənim buna şübhə etməyimə gəlincə, əgər bilmək istəyirsənsə, bunu Çənabı Allahın özü buyurur. – Kimsə pıqqıldadı. – Bəsdi, hay-küy saldınız, – şerif dedi. – Getdik. İtləri burax, Byuf.

Getdilər, amma itlərin xaltası hələ də əllərindəydi. Onlar dərhal izə düşdülər. İz yaxşı bilinirdi, şeh düşdüyü üçün asan seçilirdi. Qaçaq adam, deyəsən, onu heç gizlətməyə də çalışmamışdı. Onlar hətta bulaqdan su içmək üçün əyildiyi yerdə onun dizlərinin, ovuclarının izini də aydın gördülər.

– Bu qədər qatil görmüşəm, – köməkçi dedi, – amma heç biri onları təqib edənlərin kim olduğunu heç vaxt nəzərə almayıb. Bu axmağın isə heç ağlına da gəlməyib ki, biz itlərdən də istifadə edə bilərik.

– Şənbədən bəri hər gün bu itləri onun izinə salırıq, – şerif dedi. – Amma hələ də onu tuta bilməmişik.

– Onlar köhnə izlər idi. Bu günə kimi bu cür yaxşı bilinən, təzə izə rast gəlməmişik. Amma bu gün o, səhvə yol verib. Bu gün hökmən ələ keçəcək. Bəlkə də, nahar vaxtınacan əlimizdə olacaq.

– Yaşayarıq, görərik, – şerif dedi.

– Görəcəksiniz, – köməkçi dedi. – İz dəmir yolu xətti kimi düz gedir. O xətti tutub get. Baxın, hətta ayaqqabısının altı da apaydın görünür. Bu axmağın ağlı kəsməyib ki, toz-torpaqlı geniş yola çıxsın, orda başqa izlər arasında öz izini itirməyə çalışsın, itlər də onu tapa bilməsin. Saat onacan itlər bu izin son ucunu haqlayacaqlar.

Elə də elədilər. Tezliklə iz sərt düz bucaq altında yana döndü. Onları yola çıxardı, başlarını yerə sallamış itlər yol boyu bir qədər getdikdən sonra yana döndülər, yoldan aralanıb bir az aralıda – pambıq tarlasındakı anbara doğru gedən cığıra düşdülər. Onlar yumşaq, gurultulu səsləriylə bərkdən hürməyə, irəli cummağa, o yan-bu yana fırlana-fırlana, səbirsizlikdən dişlərini qıcırdada-qıcırdada adamların əllərindən dartınıb çıxmağa çalışdılar.

– Bay səni, axmaq! – köməkçi dedi. – Dincəlmək üçün burda oturub: bu da izi – altı diş-diş ayaqqabılar. İndi bizdən uzaqbaşı bir mil uzaqlıqda olar! İrəli, uşaqlar! – İrəli cumdular: itlər hürə-hürə qabağa dartınır, adamlar isə onların arxasınca yortma qaçırdılar. Şerif üzü tüklü adama tərəf döndü.

– Bax indi fərqlənmək imkanın var, hamıdan qabağa qaç, get onu tut, min dollar da sənin olsun, – o dedi. – Nəyi gözləyirsən?

Adam cavab vermədi; indi heç kimin danışmağa halı yox idi, təngnəfəs olmuşdular, xüsusilə də itlərin dalınca bir mil qaçandan sonra; onlar hələ də hürə-hürə irəli dartınırdılar; sonra yoldan kənara sapdılar, ilan kimi qıvrıla-qıvrıla təpəyə dırmaşan cığırla qaçıb qarğıdalı tarlasına çıxdılar. Burda səslərini kəssələr də, sürətlərini azaltmadılar; hətta əksinə, daha da artırdılar; adamlar indi var güclərilə qaçırdılar. Hündür, adam boyda qarğıdalıların arasında bir zənci koması vardı.

– O burdadır, – şerif tapançasını çıxara-çıxara dedi. – Ehtiyatlı olun, uşaqlar. Onun da silahı var.

Məharətlə düşünülmüş hiyləgər bir hərəkət etdilər: tapançalarını çıxarıb, gizlincə evi mühasirəyə aldılar, şerif köməkçinin müşayiəti altında daxmaya tərəf sıçradı, şişmanlığına baxmayaraq, özünü ustalıqla divarın dibinə, pəncərələrin arasındakı ölü zonaya verdi. Divara

sığına-sığına evin küncünü keçdi, təpiklə vurub qapını açdı və əlində tapança içəri atıldı. İçəridə balaca bir zənci uşağı vardı. Lüt, çılın-çılpaq idi, soyumuş ocağın közü üstündə oturub ağzında nəsə çeynəyirdi. Deyəsən, tək-tənha idi, amma bir saniyə keçməmiş içəri qapıda bir qadın peyda oldu, şerifi görəndə ağzı açıla qaldı, əlindəki çuqun tavanı yerə saldı. Onun ayağında kişi ayaqqabıları vardı, dəstə üzvlərindən biri onların qaçaq adama məxsus olduğunu dərhal anladı. Qadın onlara ağ bir adamdan söz açdı; onun sübh obaşdan öz ayaqqabılarını onunkuyla – qadın həmin an ərininkiləri geyibmiş – dəyişdiyini bildirdi. Şerif diqqətlə ona qulaq asdı. "Pambıq anbarının böyründəmi dəyişdi?" – deyə soruşdu. Qadın "Hə" dedi. Şerif öz dəstəsinin, xalta qayışlarını gəmirən itlərin yanına qayıtdı. İtlərə tamaşa elədi, adamlar əvvəlcə onu sorğu-suala tutdular, sonra susub ona baxdılar. Tapançasını necə cibinə soxduğunu, sonra isə dönüb itlərin hərəsinə möhkəm bir təpik ilişdirdiyinə tamaşa elədilər. – Bu lənətə gəlmiş qarınqululari şəhərə göndərin, – o, hirslə dedi.

Ancaq şerif çalışqan adamdı. Qaçağın pambıq anbarına bir də qayıdacağını öz adamları kimi o da yaxşı bilirdi; onun təsəvvürünə görə bütün bu müddət ərzində Kristmas məhz orda gizlənmişdi; ancaq bunu da yaxşı bilirdi ki, onlar ora çatanda Kristmas artıq orda olmayacaq. İtləri daxmadan zorla ayıra bildilər, onlar ehtiyatla, məharətlə, səssizcə pambıq anbarını mühasirəyə alaraq, qəfil, lazımi qaydada, amma xeyli ümidsiz halda, əllərində tapança içəriyə soxulanda orda yalnız qəfil yaxalanmaqdan heyrətə gələrək qorxuya düşmüş çöl siçanını ələ keçirə bildilər; artıq saat onun istisi adamı ütürdü. Buna rəğmən itlər hələ də şerifin ixtiyarında idi – onlar heç cür anbara yaxın düşmək, yoldan aralanmaq istəmirdilər, ayaqlarını möhkəm dirəyərək başlarını dartıb xaltadan çıxarmağa, geriyə, bir az əvvəl zorla çıxarıldıqları daxmaya tərəf qaçmağa can atırdılar; elə bil, bu daxma maqnit kimi onları özünə çəkirdi. Onları anbara salanacan iki nəfər əməlli-başlı tər tökməli oldu, amma qayışlarını azca boşaldan kimi itlər, sanki, kiminsə əmrilə irəli sıçrayıb, qaçaq adamın kölgəli tərəfdə, şehi hələ qurumamış, hündür otluqdakı ayaq izləri boyu anbarın ətrafına dövrə vurdular, sonra isə yenidən yola qaçıb, xaltaları boğazlarını kəsə-kəsə, onları dartıb saxlamağa çalışan iki nəfəri arxalarınca əlli metr sürüdülər; bu adamlar, axır ki, fürsət tapıb qayışları bir ağaca dolayaraq, onları birtəhər saxlaya bildilər. Bu dəfə şerif onlara təpik də vurmadı.

Nəhayət, təqibin gurultusu, qışqırığı, hay-küy və hiddəti yavaş-yavaş öləzidi, eşidilməz oldu. Şerif düz tapmamışdı; adamlar itlərlə birlikdə anbarın yanından ötüb-keçəndə Kristmas orda yox idi. O yalnız ayağındakı ayaqqabıların – qara, qapqara, zənci iyi verən başmaqların bağını bağlamaq üçün orda ayaq saxlamışdı. Elə bil, onlar kor balta ilə dəmir filizindən kəsilib düzəldilmişdilər. Bu kor-kobud, ayağını əzən nahamar ayaqqabılara baxaraq, dişlərini zorla aralayıb tək bircə kəlmə söz dedi: "Hah". Sanki, ağ adamların onu, nəhayət ki, qara dibsiz bir

bataqlığa – otuz ildir onu gözləyən, onu udmaq istəyən bataqlığa qovub saldıqlarını öz gözləriylə görürdü və indi o, doğrudan da, bu bataqlığa düşmüşdü, artıq qara lehmə topuqlarınacan onu öz canına çəkmişdi.

Hava yenicə işıqlanır, gün təzəcə doğur: boz və kimsəsiz ətraf quşların dinc və ürkək oyanışına bürünüb. O, dərindən, ağır-ağır nəfəs alır, hər nəfəs aldıqca özünün bozumtul alatoranda əridiyini, qəzəbdən, ümidsizlikdən xali olmayan bu sakit kimsəsizliyə qarışdığını hiss edir. "İstədiyim də elə bu idi, – sakit, dərin bir heyrət içərisində düşünür. – Bu otuz ildə istədiyim elə buydu. Deyəsən, otuz il üçün o qədər də çox şey istəməmişəm".

Çərşənbədən bəri çox yatmamışdı, artıq növbəti çərşənbə gəlib çatmış, hətta ötüb-keçmişdi, amma o bunu bilmirdi. İndi vaxt barədə düşünəndə ona elə gəlirdi ki, bu otuz ili çəpər dirəkləri kimi dümdüz sıralanmış, öz ayrıca adı və nömrəsi olan günlərin hasarı arasında yaşayıb, bir dəfə gecə yuxuya gedəndən sonra isə ondan kənarda, azadlıqda yuxudan ayılıb. Cümə günü, o gecə qaçaq düşəndən sonra bir müddət günlərin hesabını köhnə adəti üzrə yadında saxlamağa çalışdı. Bir dəfə bütün gecəni ot tayasında uzanıb yuxusuz qalarkən bir kənd evinin səhəri necə açdığına tamaşa elədi. Hava işıqlanmamışdan bir az qabaq mətbəxdə sarı lampa işığının yandığını gördü, sonra isə boz, hələ qatı qaranlıqda tək-tük, zorla eşidilən balta tıqqıltısını və qonşuluqdakı pəyədə oyanmaqda olan qaramalın fınxırtısı arasında insan yerişinin – kişi addımlarının səsini eşitdi. Sonra tüstü və xörək iyini – isti, kəskin xörək iyini duydu, öz-özünə təkrar eləməyə başladı *O vaxtdan heç nə yeməmişəm O vaxtdan heç nə yeməmişəm* Orda, ot tayasında sakitcə uzanaraq, kişilərin səhər yeməyini yeyib nə vaxt çöl işinə gedəcəklərini gözlədi; sonuncu dəfə cümə günü Ceffersonda restoranda yediyi şam yeməyini yadına salıb, o vaxtdan bəri neçə gün keçdiyini hesablamağa çalışdı, başı buna o qədər qarışdı ki, axırda günlərin adı onun üçün yeməkdən daha vacib bir şeyə çevrildi. Nəhayət, kişilər evdən çıxıb gedəndə tayanın üstündən aşağı düşdü, hələ xeyli aşağıda olan günəşin boz-sarı işığına çıxdı, mətbəx qapısına doğru yollandı; yemək üçün heç kimdən heç nə xahiş eləmədi. Hazırlaşmışdı, eləyəcəkdi. Kobud sözlərin ağlında necə sıralandığını, dilinin ucuna doğru necə getdiyini hiss etdirdi. Sonra bir dəri, bir sümüyü qalmış arıq bir qadın qapıda göründü, ona baxdı və qorxu qarışıq heyrətdən bərələ qalmış baxışlardan anladı ki, qadın onu tanıyıb, fikirləşdi *O məni tanıyır. Bura da gəlib çatıb* sonra özünün alçaq səsini eşitdi: "Deyə bilərsinizmi, bu gün həftənin hansı günüdür? Mən yalnız bu günün hansı gün olduğunu öyrənmək istəyirdim".

"Hansı gündür?" Qadının sifəti elə onunku kimi arıq idi, gövdəsi də o cür arıq, o cür sırtıq, o cür taqətsiz görünürdü. Qadın dedi: "Rədd ol burdan! İkinci gündü! Rədd ol burdan! Bu saat ərimi çağıracam!"

Qapı çırpılan kimi alçaqdan dedi: "Çox sağ olun". Sonra qaçmağa başladı. Necə qaçdığını xatırlamırdı. Bir müddət elə bildi ki, guya, hansısa məqsədə – məhz elə bu qaçış zamanı birdən

yadına düşmüş hansısa mənzilə doğru qaçır, buna görə də ağılın özünü əziyyətə salıb onun nə üçün qaçdığını xatırlamağa ehtiyacı yox idi, çünki qaçmağın özü hələ çətin deyildi. Hətta xeyli asan idi. O, tamamilə yüngül, çəkisiz olmuşdu. Tam sürətlə qaçdığı anlarda belə ona elə gəlirdi ki, ayaqları yumşaq torpaq üzərində yavaş-yavaş, yüngül addımlar atır, bilərəkdən kefi istədiyi kimi gəzir – ta ki yıxılanacan. Ayağı büdrəmədi. Sadəcə, tirtap yerə düşdü, amma hələ də ayaq üstə olduğunu, hələ də qaçdığını düşünürdü. Əkin tarlasının qırağındakı xırda arxın içində üzü üstə düşüb qalmışdı. Sonra birdən dedi: "Durmaq, ayağa qalxmaq lazımdı". Durub oturanda məlum oldu ki, gün günortanı xeyli keçib, artıq günəş onun üstünə əks tərəfdən düşür. Əvvəlcə elə bildi ki, yəqin, yıxılarkən tərs düşüb, buna görə günəş indi əks tərəfdədir. Sonra başa düşdü ki, gün artıq batmağa doğru gedir. Anladı ki, qaçarkən yıxılanda səhər tezdən idi, indi isə axşam düşüb; hərçənd ona elə gəlmişdi ki, dərhal, elə yıxılan kimi durub oturub. "Yuxu məni aparıb, – o düşündü. – Altı saatdan çox yatmışam. Yəqin, elə qaça-qaça yuxulamışam, bundan xəbərim olmayıb. Elə belə də olub".

Buna təəccüblənmədi. Zaman, işıqlı və qaranlıq vaxt kəsimləri çoxdan öz ardıcıllığını itirmiş, bir-birinə qarışmışdı. Onlar, sanki, indi bir bütöv olmuşdular, bir-birindən göz qapaqlarının iki hərəkəti arasındakı an qədər ayrılır, bir-birinə keçmirdilər. Onun bir vaxtdan o birinə haçan keçəcəyi, uzandığını xatırlamadan yatıb qaldığını, yaxud oyandığını xatırlamadan yeridiyini haçan anlayacağı barədə heç bir təsəvvürü yox idi. Bəzən ona elə gəlirdi ki, ot tayasında, arxın içində, tərk edilmiş tövlədə keçirdiyi yuxulu gecə dərhal başqa bir gecəyə keçir, onların arasında hara qaçdığını görə biləcəyi gündüzçağı, işıqlı vaxt intervalı olmur; gündüzün yerini həyəcan, qaçış dolu başqa bir gündüz alır, onların da arasında heç bir gecə, heç bir dinclik vaxtı olmur; sanki, günəş qüruba getmək əvəzinə, üfüqdə dövrə vurur, elə həmin qövs üzrə də geri qayıdır. Yeriyə-yeriyə – bulaq başında əl-ayağını yerə dirəyib üzü üstə su içərkən də – mürgüləyəndə növbəti anın onun gözləri qarşısında gündüzün günəş, yoxsa gecənin ay işığı ilə açılacağını heç cür kəsdirə bilmirdi.

İlk vaxtlar daim ac qalırdı. Ağaclardan, kollardan çürümüş, cürbəcür qurdların dəlik-deşik etdiyi meyvələri yığıb yeyirdi; bəzən sürünə-sürünə qarğıdalı zəmisinə girir, onları aşağı əyib, yetişmiş, daş kimi bərk sütülləri gəmirirdi. Daim yemək barədə düşünür, təsəvvürünə cürbəcür xörəklər, cürbəcür təamlar gətirirdi. Üç il bundan əvvəl mətbəxdə onu gözləyən şam süfrəsini yadına salır, boşqabı divara çırpmamışdan qabaq əlini necə yavaş-yavaş, inamla başı üzərinə qaldırdığı anı təzədən yaşayır, təəssüf və peşmançılıq sancısının ağrısından qıvrıla-qıvrıla qalırdı. Ancaq günlərin birində aclığı yoxa çıxdı. Bu, qəfil və ağrı-acısız bir şey oldu. O soyudu, sakitləşdi. Ancaq bilirdi ki, nəsə tapıb yeməlidir. Özünü çürük meyvələri, daş kimi bərk qarğıdalı dənələrini yeməyə məcbur etdi; yavaş-yavaş çeynəyir, heç bir dad hiss etmirdi. Bunlardan o ki var yedi, əvəzini isə qanlı ishal sancıları ilə ödəməli oldu. Hər dəfə də bundan

dərhal sonra aclıq ona qənim kəsildi, qarnı möhkəm yemək istədi. İndi o, qida çatışmazlığının deyil, yemək zərurətinin xəstəsinə çevrilmişdi. Axırıncı dəfə haçan normal insan kimi isti xörək yediyini xatırlamağa çalışdı. Hissiyyatı hansısa evi, daxmanı onun yadına saldı. Ev idimi, daxma idimi, qaralarınmıydı, ağlarınmıydı – dəqiq xatırlaya bilmədi. Sonra yorğun-əzgin, xəstə, tük basmış sifətində məmnun bir nigarançılıq ifadəsi, lal-dinməz oturarkən birdən zənci iyini duydu. Yerindəcə donub-qaldı (bulaq başında kürəyini ağaca söykəyib oturmuşdu, başını geri atmış, əllərini dizlərinin üstünə qoymuşdu, əzgin sifəti ölü rəngindəydi), gözünə zənci yeməyi, zənci xörəyi göründü, onun iyini aldı. Bu yemək hansısa bir otaqdaydı. Ora necə düşdüyünü heç cür xatırlaya bilmirdi. Ancaq o otağın hər yerinə qaçaqaç, qəfil dəhşət havası çökmüşdü, sanki, adamlar elə indicə burdan dəhşət içində qaçıb getmişdilər. O isə masanın arxasında oturub gözləyirdi, qaçaqaçla nəfəs alan bu boşluqda, səssizlikdə heç nə barədə düşünmürdü. Sonra önünə yemək gəldi, uzun, zirək, qara ovucların arasından qəfil masanın üstünə düşdü və o ovuclar da boşqabı buraxmağa macal tapmamış tezcə çəkilib yox oldular. Ona elə gəldi ki, ağzındakı yeməyi çeynəyib udarkən çıxardığı səslərlə yanaşı, ətrafdakı ah-uflardan da zəif, dəhşət və ikrah dolu başqa bir səs də eşidir – hətta onu dinləməsə belə. “Deməli, bu daxmada olub, – o düşündü. – Onlar qorxurlarmış. Öz qardaşlarından qorxurlarmış”.

O gecə qəribə bir istək onu öz ağuşuna aldı. Uzanmışdı, yuxu ərəfəsindəydi, amma hələ yatmamışdı, elə bil, yuxuya ehtiyac duymurdu; elə bil, özünü buna zorla məcbur etməyə çalışırdı – heç nə yemək istəməyən, buna heç bir ehtiyac duymayan mədəsini zorla yeməyə vərdiş etdirdiyi kimi. Bu istək o mənada qəribə idi ki, o bunun nə mənbəyini, nə motivini, nə də izahını ayırd edə bilmirdi. Birdən anlamışdı ki, həftənin hansı günü olduğunu hesablayıb bilməyə çalışır. Elə bil, yalnız indi onda israrlı və təcili bir tələbat – onu məqsəddən, müəyyən bir gündən, yaxud hərəkətdən ayırmış olan ötən günləri nəsə bir çatışmazlıq, yaxud artıqlıq olmasın deyə həyatından silib atmaq tələbatı yaranmışdı. Sonra bu tələbat onun şüurunda, sanki, huşsuzluq uçurumuna yuvarlandı, indi onu yuxu əvəz edirdi. Şehli-boz sübhçağında yuxudan ayılanda isə bu tələbat o qədər aydınlaşdı ki, artıq ona qəribə görünmədi.

Hava işıqlanır, səhər açılır. O, yerindən qalxıb, bulağa doğru gedir, cibindən ülgücünü, sürtgəcini, sabununu çıxarır. Amma sifətini aydın görə bilməsi üçün hava hələ tam işıqlanmayıb, buna görə də bulaq başında oturub, onun aydın görünəcəyi anı gözləyir. Sonra buz kimi soyuq, yandırıcı sabun köpüyünü səbirlə sifətinə sürtür. Əl tir-tir əsir; işi nə qədər qaçaraq, təcili olsa da, tamam taqətsizdi, özünü hökmən ələ almalıdı. Ülgüc korşalıb; onu ayaqqabısının böyrünə sürtərək itiləmək istəyir, amma dəri codlaşıb, şehdən xeyli nəmlənib. Üzünü qırxır – zorla, bir təhər. Əl əsir; o qədər də təmiz alınmır, bir neçə yerdən üzünü kəsir, soyuq su ilə qanı dayandırmağa çalışır. Ülgüc ləvazimatını gizlədib, ordan uzaqlaşır. Dümdüz, sanki, xətt boyunca irəliləyir, daha asan yeri qoyub, dərə-təpəylə gedir. Tezliklə torpaq yola çıxıb onun kənarında

oturur. Bu, sakit bir yoldu, sakitcə üzə çıxır, sakitcə də gözdən itib yox olur, onun qalın, bozumtul toz örtüyündə yalnız ensiz və az sayda təkər, bir də at, qatır dırnaqlarının izləri görünür, insan ləpiri isə ancaq adda-budda gözə dəyir. Yolun kənarında oturub, pencəksizdi, haçansa ağ olan köynəkdə, haçansa ütülü olan, indi isə toz-torpağa, zığa-palçığa batmış şalvardadı, kəsik-kəsik olmuş sifətində qurumuş qan ləkələrinin izi qalıb, yorğunluqdan və soyuqdan yavaş-yavaş titrəyir, amma atrıq günəş qalxıb, tədricən canını qızdırmağa başlayıb. Bir müddət keçəndən sonra döngədən iki zənci qadın çıxır; onlar ona yaxınlaşırlar. Səsini çıxarmayanacan onu görmürlər; yerə bitmiş kimi donub-qalırlar, ağımtıl-bərələ qalmış gözlərini ona zilləyirlər. "Bu gün hansı gündür?" – o təkrar soruşur. Onlar heç nə demirlər, ona baxırlar. Başını yüngülcə tərpədir. "Gedin", – o deyir. Onlar gedirlər. Onları baxışları ilə müşayiət etmir. Sadəcə, gözlərini indicə dayandıqları yerə dikir, elə bil, gedərkən onlar bir cüt balıqqulağının içindən çıxdılar. Ordan necə qaçdıqlarını isə o görmür.

Sonra orda oturub, günəş istisindən yavaş-yavaş qızışa-qızışa, özü də hiss etmədən yuxuya gedir, zira qulağına çatan növbəti səs laxlamış taxtayla dəmirin dəhşətli cırıltısı, bir də heyvan dırnaqlarının dördnala tappıltısı olur. Gözlərini açanda döngənin arxasında yoxa çıxan, gözdən itən arabanı, onun içində oturub heyrətlə ona baxan sərnişinləri, arabaçının tez-tez havaya qalxıb-enən əlini və qamçısını görür. "Bunlar da tanıdılar, – o düşündü. – Bunlar da, o ağ qadın da. O gün yanlarında yemək yediyim zəncilər də. Bu adamların hansı istəsəydi, məni ələ keçirə bilərdi. Axı onların hamısı bir şey istəyir: istəyirlər ki, məni tutsunlar. Ancaq məni görən kimi qaçırlar. Hamı istəyir ki, məni tutsunlar, ancaq mən özüm onların qarşısına çıxıb: "Bu da mən *Bəli mən onlara demək istərdim ki Bu da mən Mən yorulmuşam Qaçmaqdan yorulmuşam Öz həyatımı içi yumurta ilə dolu zənbil kimi daşımaqdan yorulmuşam* deyəndə onlar məndən qaçırlar. Guya, məni tutmaq üçün nəsə xüsusi bir qayda var, bu cür tutmaq isə o qaydaya uyğun deyil".

Yenidən özünü kolluğa verir. İndi o ayıq-sayıqdır, gələn arabanı gözü görməmişdən əvvəl eşidir. Araba tuşuna çatmayanacan gizləndiyi yerdən çıxmır. Çatanda irəli çıxıb deyir: "Eyy." Araba dayanır – cilovlar sərt hərəkətlə geri dartılır. Zəncinin başı ona tərəf dönür – o da sərt hərəkətlə; sifət əvvəlcə heyrətə, sonra isə – onu tanıyan kimi – dəhşətə gəlir.

– Bu gün həftənin neçənci günüdür? – Kristmas soruşur.

Zənci ağzı açıla halda gözlərini ona dikir.

– N.. nə dediniz?

– Bu gün həftənin neçənci günüdür? Dördüncü? Beşinci? Hansıdır? Hansı gündür? Mən sənə heç nə eləməyəcəm.

– Beşinci, cümə günüdü, – zənci deyir. – İlahi, cümə günüdü.

– Cümə günü, – Kristmas təkrar edir. Yenə başını yellədir. – Yeri, çıx get.

Qamçı havada oynayır, qatırlar yerindən götürülür. Bu araba da qamçı zərbəsi altında sürətlə üzüaşağı yellənib gözdən itir. Kristmas isə artıq geri çevrilib, yenidən meşəyə girir.

Onun tutub getdiyi yol yenə də dərə-təpəni, çala-çuxuru vecinə almayan geodeziyaçı xətti kimi dümdüzdür. Amma tələsmir. Harda olduğunu, hara getdiyini, ora çatmaq üçün nə qədər vaxt lazım gəldiyini yaxşı, dəqiq bilən adam kimi yeriyir. Sanki, bu doğma torpağın hər qarışına, hər mənzərəsinə birinci və axırıncı dəfə yaxşı-yaxşı, doyunca baxmaq istəyir. Təbiətin qoynunda böyümüş, kişiləşmişdi, zahiri görkəmini, düşüncə tərzini də təbiət özü formalaşdırmışdı, amma o, üzməyi bacarmayan matros kimi, bu təbiətin əsl siması, onun hissiyyatı haqqında heç nə öyrənməmişdi. Düz bir həftəydi ki, bu təbiətin ən xəlvət yerlərində gizlənmiş, özünə sığınacaq tapmışdı, lakin o, torpağın itaət etməli olduğu sarsılmaz qanunlara hələ də yad idi. Asta, rəvan addımlarla irəliləyərkən bir müddət ona elə gəlir ki, məhz bunlar – ətrafa baxıb gördükləri – ona bu qədər sakitlik, dinclik, rahatlıq gətirib; amma birdən, qəflətən əsl həqiqəti anlayır. Özünü qupquru, yüm-yüngül hiss edir. “Mən daha yemək dərdi çəkməməliyəm, – o düşünür. – Məsələ də bundadır”.

Günortayacan səkkiz mil yol getdi. Budur, indi enli çınqıl yola, şoseyə çıxır. Bu dəfə əlini qaldıranda araba sakitcə dayanır. Arabanın sürücüsü zənci oğlan uşağının sifətində, o adamlardan, onu tanıyanlardan fərqli olaraq, heç bir təəccüb, heç bir qorxu hiss olunmur.

– Bu yol hara gedir? – Kristmas soruşur.

– Motstauna. Mən ora gedirəm.

– Motstaun. Ceffersondan da keçəcəksən?

Oğlan boynunun dalını qaşıyır.

– Bilmirəm, o hardadı. Mən Motstauna gedirəm.

– Hə-ə... – Kristmas deyir. – Aydındı. Deməli, sən buralı deyilsən.

– Bəli, ser. Biz burdan iki əyalət o yanda yaşayırıq. Üç gündü yoldayam. Motstauna da birillik düyə dalınca gedirəm, onu orda atam alıb. Siz Motstauna getmək istəyirsiniz?

– Bəli, – Kristmas cavab verir. Arabaya qalxıb oğlanın böyründə oturur. Araba yerindən tərpənir. “Motstaun”, – o fikirləşir. Cefferson cəmi iyirmi mil aralıdadır. “İndi bir az dincələ bilərəm, – o fikirləşir. – Yeddi gündü dinclik nədi bilmirəm, buna görə də indi bir az dincəlmək olar”. Fikirləşir ki, bu cür rahatca oturubsa, araba onu yırğalayan kimi, bəlkə, yuxuya da gedər. Ancaq getmir. Nə yuxusu gəlir, nə də aclıq hiss edir; heç yorğunluğu da yoxdur. Hardasa bunların arasında, ortasında qalıb, arabanın ahənginə uyğun yırğalana-yırğalalana, dalğın, hissiyyatsız halda buğlanır. Vaxtın, məsafənin ölçüsünü təmiz itirib; beləcə bəlkə də bir, bəlkə də üç saat keçir. Zənci oğlan deyir:

– Motstaun. Bax, odur.

Baxır, güclə sezilən döngədən o yanda üfüqdə alçaq tüstü topasını görür; yenidən küçəyə, otuz ildir uzanıb gedən küçəyə çıxır. Küçə daş döşənmiş küçəydi, burda yeyin-yeyin yerimək lazım idi. Bu küçə qəribə bir çevrə cızırdı, amma o bu çevrədən heç cür qırağa çıxa bilməmişdi. Son yeddi gündə ayağı daş döşənmiş küçəyə dəyməsə də, otuz ildə getdiyindən çox yol getmişdi. Amma hər halda, o çevrədən qırağa çıxa bilməmişdi. "Hər halda, bu yeddi gündə otuz ildə getdiyimdən çox uzağa getmişəm, – o düşündü. – Amma bu çevrədən qırağa heç cür çıxa bilməmişəm. Özüm öz ətrafıma cızdığım çevrəni heç cür yarıb keçə bilməmişəm, indən belə isə onu heç cür təzədən cıza bilmərəm". Arabada oturub sakitcə fikirləşir, aşağıda isə çəkmələri – qara, zənci iyi verən çəkmələri ön taxtaya dirənib: indi topuğundan olan qara lehmə qara ölüm kimi dabanlarından başlayaraq ayaqları boyu açıq-aşkar yavaş-yavaş, sürünə-sürünə üzüyuxarı qalxır.

15

Kristmasın cümə günü ələ keçdiyi Motstaun şəhərində Haynslar deyilən bir cüt qoca ər-arvad vardı. Onlar buraya çoxdan köçmüşdülər və çox yaşlıydılar. Zəncilərin qonşuluğunda artırmalı, kiçik bir evdə yaşayırdılar: necə və nəyin hesabına – şəhər bunu bilmirdi, çünki tamamilə yoxsul və işsiz-gücsüz idilər; şəhərin bildiyi qədər, ər Hayns son iyirmi beş ildə beşcə gün belə bir yerdə işləməmişdi.

Motstauna otuz il bundan əvvəl köçmüşdülər. Günlərin bir günü qonşular gözlərini açanda onun arvadını o vaxtdan bəri yaşadıqları bu evdə görmüşdülər; hərçənd evin sahibi ər Hayns birinci beş il ərzində evə yalnız ayda bir dəfə – şənbə və bazar günləri gəlirdi. Tezliklə məlum oldu ki, o, Memfisdə hansısa qulluq sahibidi. Nə iş gördüyünü heç kəs bilmirdi, çünki elə o vaxtdan anlaşılmaz adam idi; ona otuz yaş da vermək olardı, əlli də, soyuq fanatizm qarışıq dəlilik yağan baxışları isə hər cür ünsiyyətə, sözə-söhbətə tamam qapalıydı. Şəhər onların hər ikisinə – ərə də, arvada da bir qədər dəli kimi baxırdı: adamayovuşmazdılar, boz, torpaq rəngindəydilər, əksər insanlarla müqayisədə boydan xeyli qısaydılar, elə bil, başqa cinsdən, başqa xəmirdən yoğurulmuşdular. Ancaq ər Hayns birdəfəlik Motstaunda köç saldıqdan, o kiçik evdə öz arvadı ilə birlikdə yaşamağa başladıqdan sonra beş, ya altı il ərzində gücü çatan cürbəcür təsadüfi işlərdə çalışdı. Sonra buna da son qoydu. Şəhər əvvəlcə buna məəttəl qaldı: indi onlar necə, nəyin hesabına yaşayacaqlar?! Ancaq bir az keçəndən sonra bu barədə düşünməyi belə unutdu; sonralar ər Haynsın pay-piyada bütün əyaləti dolaşıb, zənci kilsələrində moizələr oxuduğunu eşidəndə, zənci qadınların əllərində nəsə, çox güman ki, pay-puş, zaman-zaman arxa qapıdan onların evinə girdiklərini, sonra da o evdən əliboş çıxdıqlarını görəndə də şəhər yenə əvvəlcə buna bir qədər təəccüb qaldı, amma tezliklə onu da unutdu. Ya unutdu, ya da, qoca

Hayns zərərsiz olduğu üçün bunu ona bağışladı; ancaq cavan Haynsı belə şeyə görə heç cür bağışlamaz, hökmən gözümçıxdıya salardı. Sadəcə, bu qərara gəldi: "Onlar dəlidilər, zənci dəlisi olublar. Bəlkə də, yankidilər" və bununla da sakitləşdi. Bəlkə də, şəhər bu adamın zənci qəlblərinin xilası işinə sadiqliyini deyil, özünü – bu qocaların zəncilərdən sədəqə götürməsinə biganəliyini bağışlamışdı; zira əqlin ən xoşbəxt xisləti vicdanın həzm etmədiyi şeyi unutmaqdır.

Beləliklə, iyirmi beş ildi bu qoca ər-arvad dolanışıq üçün heç bir məlum gəlir mənbəyinə malik deyildi, şəhər isə pay-puş gətirən zənci qadınlara, ağzı bağlı nimçə və qazançalara göz yumurdu; hərçənd bu nimçə və qazançaların bir qismi həmin zənci qadınların qulluqçuluq etdikləri ağ adamların mətbəxlərindən götürülürdü. Bəlkə, bunu da əqlin unutqanlığı ilə izah etmək olardı. Hər halda, şəhər buna heç cür fikir vermirdi və düz iyirmi beş ildi bu qoca ər-arvad, sanki, buraya Şimal qütbündən gəlib düşmüş bir cüt müşk öküzü[21], yaxud da buz dövründən qalma bir cüt vəhşi heyvan kimi öz mamır basmış tənhalıqlarının ən dərin cəngəlliyində yaşayırdılar.

Arvadı, demək olar ki, heç vaxt görməzdilər, Dok dayı kimi tanınan ər isə şəhər meydanının daimi sərgərdanlarından idi: o, sifətində hələ də keçmiş cəsurluğunmu, dəlisovluğunmu, yaxud da bəsirətliliyin və ya ifrat mənəm-mənəmliyinmi izləri qalan, əynində yaxalıqsız, kirli parusin köynək, əlində özü yonub düzəltdiyi, dəstəyi ovucun təzyiqindən pardaxlanıb qoz rənginə çalan və şüşə kimi par-par parlayan ağır bir əsa olan, üst-başı kirli qocaydı. Əvvəllər, Memfisdə hansı qulluqdasa işləyərkən ayda bir dəfə evə gəldiyi vaxtlar özü barədə az-maz nəsə deyərdi; özü də bunları, sadəcə, müstəqil, heç kimdən və heç nədən asılı olmayan adamlara xas əminliklə deyil, həm də bir vaxtlar – bir az uzaq keçmişdə bundan da mötəbər bir adam olduğuna dəlalət edən xüsusi bir ədayla danışardı. Bu danışıqda uğursuzluğa düçar olmuş adamlara xas heç bir məyusluq hiss olunmazdı. Əksinə, onda daha çox haçansa özündən aşağılara hökm etmiş, sonra isə könüllü surətdə – onun fikrincə, müzakirəsinə ehtiyac duyulmayan, başqaları üçün dərkedilməz səbəblərə görə – öz həyat yolunu dəyişmiş adama xas əminlik duyulurdu. Amma bütün zahiri bitkinliyinə baxmayaraq, onun bu söhbətləri boş, mənasız bir şey kimi səslənirdi. Buna görə də hələ o vaxtlar onu bir az ağıldankəm hesab edirdilər. Ona görə yox ki, özü barədə danışarkən, sanki, bir şeyi deyəndə başqa bir şeyi gizlətməyə çalışırdı. Sadəcə, onu dinləyənlərin fikrincə, bu adamın danışdıqları insan imkanlarının hüdudları sayılan (və yaxud sayılmalı olan) çərçivəyə heç cür sığmırdı. Bir müddət onlara elə gəldi ki, bu adam əvvəllər keşiş olub. Sonra o, dumanlı və əzəmətli ifadələrlə Memfisdən danışmağa başladı, sanki, bütün ömrü boyu orda mühüm, amma adını heç cür dilinə gətirmədiyi rəhbər vəzifədə işləmişdi. "Elədi, – Motstaunda onun arxasınca cürbəcür lətifələr

[21] Müşk öküzü – yalnız Şimali Amerikanın arktik bölgələrində yaşayan, bütün bədəni tüklə örtülü məməli heyvan; müşk iyi verdiyi üçün müşk öküzü adlanır.

qoşmağa başladılar, – o orda dəmiryoluna rəhbərlik edib. Keçiddə dayanaraq, qatar keçərkən əlindəki qırmızı bayrağı havaya qaldırmaq kimi məsul bir işlə məşğul olub". Yaxud: "Məşhur qəzetçiymiş. Parkda yerə tökülən köhnə qəzet vərəqlərini yığıb-yığışdırırmış". Ancaq heç kim, hətta ən diribaş, ağızdan yava adamlar belə bu sözləri onun üzünə deməyə cürət etmirdi.

Sonra o, Memfisdəki işini itirdi, ya da özü atdı. Bir şənbə günü axşam evə gəldi və bazar ertəsi geri qayıtmadı. O vaxtdan bütün günü şəhərin mərkəzində, meydanda gəzib-dolaşmağa başladı – qaradinməz, üst-başı kirli, gözlərindən ətrafa qəzəb, qorxu saçan bir qoca; adamlar onun gözlərindəki bu ifadəni dəliliklə izah edirdilər; ondan qocalmış qəddarlıq iyi, qəddarlıq üfunəti gəlirdi – kül içində kömür kimi çürüməkdə olan, haçansa dörddəbiri ehtiraslı, qızğın əqidə inancından, dörddəüçü isə yumruq döyüşü hünərindən ibarət inadkar protestant fanatik-liyinə malik bir iy... Buna görə nə onun payi-piyada bütün əyaləti dolaşıb zənci kilsələrinə ibadətə getdiyi, ya da o kilsələrdə moizə oxumağa başladığı şəhər əhlinə məlum olanda onlar buna təəccüblənmədilər. Təəccüblənmədilər ki, nə üçün tamamilə zənci səxavəti və sədəqə-sindən asılı olan bu ağ adam təkbaşına uzaq zənci kilsələrinə gedib, oradakı ibadəti yarımçıq kəsir, kafedraya qalxır, öz ölgün səsilə sərt, bəzən isə qəzəblə, ədəbsiz söyüşlər işlədərək, onları dərisi öz dərilərindən azacıq belə ağ olan insanlara itaət etməyə çağırır, ağ irqin üstünlüyünü təbliğ edir, özünü bu irqin ən nümunəvi nümayəndəsi kimi (qeyri-ixtiyari, qatı mövhumatçı bir paradoks) qələmə verir. Zəncilərə elə gəlirdi ki, o ya Allahın qəzəbinə tuş gəlmiş, ya da Allah tərəfindən nişanlanmış anormal bir adamdır. Güman ki, onlar onun nə dediyini dinləmir, ya da heç başa düşmürdülər. Bəlkə də, onu Allahın özü kimi qəbul edirdilər, çünki onlara görə, Allah da ağdəriliydi və Onun da əməlləri onlar üçün tamamilə anlaşılmaz idi.

Kristmasın adı ilk dəfə şəhərdə yayıldığı gün kiçikdən-böyüyə hamı – balaca oğlan uşaq-ları, dükançılar, kontor işçiləri, digər boş-bekar adamlar və seyrçilər (onların arasında kombine-zonlu kəndçilər daha çox idi) birdən harasa qaçmağa başlayanda Hayns da şəhər mərkəzindəydi. O da qaçmağa başladı. Ancaq bərk qaça bilmirdi, sonra önündə getdikcə çoxalan insan kürəkləri ona heç nəyi görməyə imkan vermədi. Buna rəğmən o, zorakı bir inadla heç kimdən geri qalmaq istəmədən, sanki, hələ də sifətindən oxunan keçmiş dəlisovluğunu birdən yadına salaraq, əvvəlcə önündəkilərin kürəyindən itələyə-itələyə, sonra isə əlindəki əsayla onları kötəkləyə-kötəkləyə qarşıdakı hay-küylü, bütöv bir şey kimi ləngərləyən qarışıqlığa yetişməyə çalışdı; adamlar, nəhayət, geri dönüb baxanda onu dərhal tanıdılar, tutub saxlamaq istədilər, amma o, dartınıb onların əlindən çıxdı, yenidən ağır əsanı işə saldı.

"Kristmas? – o çığırdı. – Onlar "Kristmas" deyə qışqırırlar?"

"Kristmas! – onu tutanlardan biri çığırdı, onun da sifəti qəzəbdən əyilmişdi. – Kristmas! Ceffersonlu ağ zənci, ötən həftə o qətli törədən adam".

Hayns hirslə ona baxdı, dişsiz ağzında azacıq tüpürcək köpüyü göründü. Sonra yenə də qəzəb içərisində var gücüylə, söyüş söyə-söyə onların əlindən qurtulmağa çalışdı: yüngül, uşaq əli kimi zəif sümüklü, arıq, sısqa, qocalmış əlindəki əsayla onları qovmağa, sifəti qana bulaşmış əsirin ortasında qaldığı comalağa girə bilmək üçün özünə yol açmağa can atdı. "Dayan, Dok dayı! – deyə onu tutub saxlamağa çalışdılar, – dayan, Dok dayı. Onu artıq tutublar. Daha heç yana qaça bilməz. Bir hövsələn olsun".

Ancaq o, əlindəki əsayla onları vurur, ağzı köpüklənə-köpüklənə, zəif, titrək səslə söyüş yağdıra-yağdıra əllərindən qurtulmağa çalışırdı; onu saxlamağa cəhd göstərənlər isə sanki, hədsiz təzyiqdən sıçrayıb əllərindən çıxmaq istəyən su şlanqını zorla saxlayıblarmış kimi gərgin vəziyyətdə idilər. Bu comalağın içərisində yalnız tutulan adam sakit, təmkinliydi. Haynsı zorla da olsa tutub saxlamışdılar; o, söyüş yağdıra-yağdıra çığırıb-bağırır, qocalıb əldən düşmüş sümükləri, əzələ lifləri bu hədsiz iltifatdan cuşa gəlib qəzəblə coşurdu. Nəhayət, birtəhər onların əlindən sıyrılıb irəli cumdu, comalağın ən sıx yerinə soxuldu, adamları oyan-bu yana itələyərək, lap qabağa keçdi, əsirlə üzbəüz qaldı. Bir anlığa yerində dondu, kinli-kinli əsir adamın sifətinə baxdı. Bu, xeyli uzun çəkdi, ancaq adamlar təkrar onu qamarlayıb tutanacan, əlindəki əsanı havaya qaldırıb əsirə bir zərbə ilişdirdi, yenə vurmaq istəyirdi; lakin axır ki, onu tutub saxlaya bildilər; o, əlacsız halda qeyzlə fınxırır, ağzından yüngül, nazik tüpürcək köpüyü axırdı. Ağzını yuma bilməmişdilər. "Öldürün bu it balasını! – o qışqırırdı. – Öldürün. Öldürün onu".

Yarım saatdan sonra iki kişi maşında onu evinə gətirdi. Biri maşını sürürdü, o birisi isə arxa oturacaqda Haynsı tutub saxlamışdı. Tüklü, kir basmış sifəti indi avazımış, gözləri yumulmuşdu. Onu maşından çıxarıb qucaqlarında həyət qapısından keçirərək, kərpic qırıntısı və yararsız sement artığından düzəldilmiş cığırla artırmaya gətirdilər. İndi gözləri açılmışdı, amma tamamilə boş, ifadəsizdilər, alnının altında onların yalnız bulanıq, göyərmiş ağ pərdələri görünürdü. O, tamam heydən düşmüşdü, tərpənib-eləmirdi. Onlar artırmaya çatanda arvadı bayıra çıxdı, qapını arxasınca örtüb, gələnlərə baxmağa başladı. Onlar bu qadının onun arvadı olduğunu dərhal anladılar, çünki qocanın yaşadığı evdən çıxmışdı. Kişilərdən biri, hətta yerli olsa belə, əvvəllər bircə dəfə də olsun bu qadının üzünü görməmişdi.

– Nə olub? – qadın soruşdu.

– Elə bir şey yoxdur, – birinci kişi dedi. – Orda, bizim şəhər mərkəzində əməlli-başlı qarışıqlıq düşüb, bir də ki bu isti... Deyəsən, bütün bunlar ona pis təsir eləyib. – Qadın qapının ağzında dayanmışdı, sanki, onları içəri buraxmaq istəmirdi; o, çirkli, çiy kündəyəbənzər yumru sifəti və bir yerə yığılıb sıx bağlanmış yağlav saçları olan pota, kök bir qadındı. – Ötən həftə Ceffersonda bir xanımı öldürən Kristmas adlı zəncini təzəcə ələ keçiriblər, – kişi izah elədi. – Dok dayı da bundan bir az həyəcanlanıb.

Missis Hayns artıq geri dönmək üzrəydi, sanki, qapını açmaq istəyirdi. Bunu eşidəndə – kişi sonra yol yoldaşına danışdı – birdən yerində donub-qaldı, elə bil, kimsə onu arxadan daşla vurdu.

– Kimi ələ keçiriblər? – deyə qadın soruşdu.

– Kristması, – kişi dedi. – O zənci qatili. Kristması.

Qadın artırmanın kənarında ayaq saxlayıb, boz, donuq sifətini onlara tərəf çevirdi. "Elə bil, mənim ona nə deyəcəyimi əvvəlcədən bilirdi, – onlar maşına tərəf qayıdanda kişi öz yoldaşına dedi. – Elə bil, bu adamın həm o olmasını, həm də olmamasını deməyimi istəyirdi".

– O necə adamdı? – qadın soruşdu.

– Əməlli-başlı görə bilmədim, – kişi dedi. – Üz-gözü qan içindəydi. Onu ələ keçirərkən bizimkilər ağız-burnunu bir balaca əzişdiriblər. Cavan oğlandı. Ancaq heç zənciyə oxşamır, ağappaq adamdı, mən necə, o da elə. – Qadın yuxarıdan-aşağıya onlara baxırdı. İki tərəfdən qoluna girdikləri Hayns artıq özü ayaq üstə dura bilirdi, sanki yuxudan ayılırmış kimi sakitcə nəsə mızıldandı. – Nə deyirsiniz, Dok dayını hara aparaq? – kişi soruşdu.

Qadın cavab vermədi. "Elə bil, öz ərini tanımaq belə istəmirdi", – kişi sonra öz yoldaşına dedi.

– Ona neyləyəcəklər? – qadın soruşdu.

– Onamı? – kişi təkrar etdi. – Hə-ə, bildim zəncini deyirsiniz. Buna Ceffersonda qərar verəcəklər. O, oralıdı, onlarınkıdı.

Bomboz, yerində donmuş qadın onlara hardansa, çox-çox uzaqlardan baxırdı.

– Onlar Ceffersona qədər gözləyəcəklərmi?

– Onlarmı? – kişi təkrar etdi. – Hə-ə, – o dedi. – Amma, əgər Cefferson bu işi çox uzatmasa. – O, yenidən qocanın qolundan yapışdı. – Bu kişini hara aparaq? – Bu vaxt qadın yerindən tərpəndi. Artırmadan aşağı düşüb onların yanına gəldi. – Biz onu içəri apararıq, – kişi dedi.

– Özüm apararam, – qadın cavab verdi. O, Haynsla bir boyda idi, ancaq ondan daha doluydu. Qocanın qoltuğundan yapışdı. – Yufus, – sakitcə çağırdı. – Yufus. – Sonra isə kişilərə: – Buraxın. Mən özüm onu tutaram, – sakitcə dedi.

Onlar onu buraxdılar. Qoca artıq birtəhər yeriyə bilirdi. Qarı onu artırmaya çıxarıb, içəri aparanacan onların ardınca baxdılar. Qadın isə dönüb geri baxmadı.

– Bu qadın bizə heç sağ ol da demədi, – ikinci kişi dedi. – Biz gərək o qocanı geri qaytarıb zənci ilə bir yerdə həbsə atdıraydıq, deyəsən o bu zəncini hardansa çox yaxından tanıyır...

– Yufus, – birinci kişi dedi. – Yufus. Onu on beş ildir tanıyıram, amma əsl adını əməlli-başlı bilmirmişəm. Yufus.

– Gedək. Geri qayıdaq. Görək orada neyləyirlər.

Birinci kişi hələ də evə, qoca ərlə arvadın içəri girib gözdən itdiyi qapıya tərəf baxırdı.

– Qadın da onu tanıyır.

– Kimi?

– Zəncini deyirəm. Kristması.

– Getdik. – Maşına qayıtdılar. – Görəsən, bu gicbəsər niyə qətl törətdiyi yerdən cəmi iyirmicə mil aralı olan bizim bu şəhərə gəlib, niyə mərkəzi küçədə hamının gözü qabağında, aşkar şəkildə avaralanmağa başlayıb? Ağlı kəsməyib ki, onu burada tanıyıb tuta bilərlər? Kaş onu birinci mən görmüş olaydım. O min dollar bilirsən, necə işimə yarayardı?! Mənimki heç vaxt gətirmir...

Maşın yerindən tərpəndi. Birinci kişi hələ də gözlərini ərlə arvadın gözdən itdiyi qapıdan çəkməmişdi.

Onlar isə mağara kimi qaranlıq, dar və üfunətli balaca evin dəhlizində dayanmışdılar. Heydən düşmüş qoca hələ də yarıbihuş vəziyyətdə idi, arvadı onu ehmalca kreslonun yanına gətirib, orda əyləşdirdi; kənardan baxan olsaydı, bunu yalnız qayğıkeşlik və zəruri bir şey kimi başa düşərdi. Ancaq onun geri qayıdıb, qapını arxadan bağlamağına – qadın məhz belə elədi – heç bir lüzum olmadığını düşünərdi. Sonra yaxına gəlib onun başı üzərində dayandı. İlk baxışdan elə görünə bilərdi ki, qadın, sadəcə, qayğı, mərhəmət hissilə ona baxır. Ancaq bir az sonra kənar müşahidəçi dərhal anlayardı ki, bütün vücudu tir-tir əsən qadın qoca ərini kresloya ya o, döşəməyə yıxılmasın deyə, ya da öz nitqi təkrar açılanacan əsir kimi saxlamaq üçün əyləşdirib. Ağır, pota, bomboz torpaq rəngli qadın suda boğulmuş adam sifətilə ona tərəf əyildi. Danışmağa başlayanda səsi titrədi, onu toparlamağa çalışarkən özü də tir-tir əsdi; ərinin yarıuzanılı halda yıxılıb qaldığı kreslonun qoltuqlarından yapışıb təmkinli, amma titrək səslə dedi: “Yufus. Mənə qulaq as. Əvvəllər heç vaxt bunu səndən soruşmamışam. Otuz ildi soruşmamışam. İndi mənə deməlisən. Mən bunu bilməliyəm, sən hökmən mənə deməlisən. O vaxt Millinin uşağını neylədin?”

O uzun günü onlar – satıcılar, avaralar, əyni kombinezonlu kəndçilər, bütün kütlə səhərdən-axşamacan meydanda, həbsxana önündə toplaşıb hey uğuldaşdılar; bu hadisəni hay-küylə qızğın müzakirə etdilər. Bu uğultu, bu hay-küy şəhərin gah bu, gah da o başında peyda oldu, külək kimi, yanğın kimi birdən öləziyib, sonra yenidən gurlaşdı; yalnız kölgələr xeyli uzanıb axşamın düşdüyünü bildirəndə kəndçilər arabalarda, toz-torpağa batmış maşınlarda dağılışmağa, şəhərlilər isə şam yeməyinə yollanmağa başlayanda kəsdi. Sonra o, qadınların, ailə üzvlərinin də iştirakıyla, elektrik işığına qərq olmuş şəhər evlərində, təpələrin arxasında ağ neft çırağı ilə işıqlanan kənd evlərində yenidən qızışdı. Səhəri gün – əyalət insanı üçün xoş, ləng bazar günü isə əyinlərinə tərtəmiz köynək, şıq aşırmalı şalvar geyinmiş hadisə şahidləri kənd kilsələrinin və

ya kölgəli həyət evlərinin önündə çöməlib, araba və maşınlar qapıda qonaqları gözləyərkən, ev sahibələri mətbəxdə nahar hazırlayanacan hər şeyi təkar danışmağa başladılar: "Heç zənciyə oxşamır, ağappaq adamdı, mən necəyəm, o da elə. Amma, görünür, zənci qanı istər-istəməz özünü göstərib. Elə bil, özü qəsdən tutulmağa hazırlaşıb, evlənməyə hazırlaşan adamlar kimi əməlli-başlı geyinib-kecinib də. Halbuki bir həftə bundan əvvəl özü onların əlindən qaçmışdı, qurtulmaq istəmişdi. O evə od vurmasaydı, heç bir aydan sonra da bu qətldən xəbər tuta bilməzdilər. Viski satdırdığı o Braun deyilən oğlan olmasaymış, heç kim ondan şübhələnməzmiş, çünki özünü ağ adam kimi aparırmış; nə isə viski alverini də, bu qətli də həmin Braunun üstünə yıxmaq istəyirmiş, amma o, hər şeyi necə var, açıb deyib.

Dünən səhər şənbə günü, günün günorta çağı, küçədə camaatın gur olan vaxtı Motstauna gəlib çıxıb. Ağların bərbərxanasına girib, onlar da heç nə başa düşməyiblər, çünki tamam ağ adama oxşayır. Hətta çəkməsilən ayağındakı ayaqqabıların özununkü deyil, xeyli iri olduğunu görəndən sonra da heç nə anlamayıblar. Başını, üzünü qırxdırıb, pulunu ödəyib, ordan çıxıb, birbaş mağazaya gəlib; təzə köynək, qalstuk, həsir şlyapa alıb – hamısını da öldürdüyü qadının puluna. Sonra günün günortaçağı küçədə obaş-bubaşa saymazyana gəzişməyə başlayıb, yanından ötüb-keçən adamlar da heç nə başa düşməyiblər, öz işlərində olublar; Holidey də bax elə o vaxt onu görüb, yanına qaçıb, cəld qolundan yapışaraq deyib: "Sənin adın Kristmas deyil?" Zənci də "Hə" deyib. Heç adını da gizlətmək istəməyib. Ümumiyyətlə, heç nə eləməyib. Özünü zənci kimi yox ağ adam kimi aparıb. Əsas məsələ də bundadı. Camaat buna görə belə bərk qəzəblənib. Sən bir buna bax, qatil olasan, adam öldürəsən, özün də geyinib-kecinib, şəhərdə kefin istədiyi kimi gəzəsən; elə bil, camaata meydan oxuyurmuş – cəsarətiniz varsa, gəlin, məni tutun; halbuki qaçıb aradan çıxmağa çalışmalıydı, yağışa, qara düşsə də, palçığa, çirkaba batsa da, qaçıb meşədə-zadda gizlənməliydi. Amma o, özünün qatil olduğundan, ən betəri isə zənci olduğundan xəbərsizmiş kimi ortalıqda öz kefinə veyllənirmiş.

Deməli, elə o andaca Holidey (bir az da həyəcanlandığından – necə olmasa arada min dollar məsələsi var axı – zəncinin ənginə bir-iki dənə möhkəm ilişdirib və yalnız bu zaman o, ilk dəfə özünü zənci kimi aparıb, yəni bu zərbələrə sakitcə dözüb, bircə kəlmə də deyib-eləməyib; ağız-burnu al-qana batsa da, sifəti bozarmış halda, lal-dinməz dayanıb key-key onun üzünə baxıb) – deməli, Holidey dərhal onun yaxasından yapışaraq qışqırmağa başlayıb, birdən o qoca, Hayns – hamı onu Dok dayı kimi tanıyır – birdən o da ortalığa atılıb əlindəki iri dəyənəklə zəncini əməlli-başlı kötəkləməyə başlayıb, axırda iki nəfər zorla onu zəncidən ayırıb, sonra da sakitləşdirib maşında evlərinə aparıblar. Ancaq heç kim başa düşməyib ki, o bu zəncini doğrudan da tanıyır ya yox. Taytıya-taytıya irəli cumub çığırırmış: "Bunun adı Kristmasdı?" – adamları itələyə-itələyə özünü zənciyə çatdırıb, bir anlığa duruxub onun üzünə baxıb, sonra da əlindəki dəyənəklə vur ki, vurasan. Sifəti elə gündəymiş ki, elə bil, özündə deyilmiş. Axırda onu ordan

zorla aralaşdırmağa məcbur olublar, gözləri axır, ağzından köpük tökülürmüş, əlindəki dəyənəklə hara gəldi ilişdirirmiş, sonra birdən-birə leş düşüb. Nəsə, iki nəfər maşında onu evinə aparıb, arvadı qapıya çıxıb, qoluna girib, onu içəri keçirib, o iki nəfər isə şəhərə qayıdıb. Onlar heç cür anlaya bilməyiblər ki, bu zənci yaxalananda o, nə üçün bu qədər qəzəblənib; fikirləşiblər ki, evdə hirsi soyuyar. Amma heç yarım saat keçməmiş o, yenidən meydanda peyda olub. Tamam ağlını itirib, dəli olubmuş: tində dayanıb yoldan ötənlərin üstünə çığırır, onları qorxaq adlandırırmış; deyirmiş ki, niyə onlar bu qaradərili əclafı həbsxanadan çıxarıb, Ceffersonsuz-zadsız, yerindəcə dar ağacından asmırlar. Sifəti elə haldaymış ki, dəlixanadan qaçan adama oxşayırmış, sanki, onu uzun müddət bu cür sərbəst buraxmayacaqlarını, tezliklə tutub geriyə, dəlixanaya qaytaracaqlarını özü də bilirmiş. Hələ deyirlər ki, bu adam keşiş olub.

Qışqırırmış ki, onun bu zəncini öldürməyə tam haqqı var. Ancaq nə səbəbə – bunu demirmiş; qəzəbdən qızışıb o dərəcədə ağlını itiribmiş ki, nə danışdığını özü də bilmirmiş, onu bir anlığa susdurub, nəyisə soruşub aydınlaşdırmaq isə çox müşkül iş imiş. Artıq başına xeyli adam toplaşıbmış, o isə qışqıra-qışqıra elə hey deyirmiş ki, bu zəncinin sağ qalıb-qalmamasına yalnız o qərar verə bilər, buna yalnız onun haqqı çatır. Birdən adamlar fikirləşməyə başlayırlar ki, bəlkə, elə bunun da yeri həbsxanadır, o da bu zənciylə birlikdə ora salınmalıdır; amma elə bu vaxt arvadı gəlib ora çıxıb.

Oraya yığışan adamların arasında elələri vardı ki, Motstaunda otuz ildən çox yaşasa da, bu qadının üzünü bircə dəfə də olsun görməmişdi. Buna görə də əvvəlcə – ta ki özü ağzını açıb danışmayanacan – heç kəs onu tanımayıb, çünki əvvəllər görənlər belə həmişə onu yaşadığı zənci məhəlləsindəki kiçik daxmanın böyür-başında, qadın cübbəsində, başında da ərinin nimdaş həsir şlyapası xeyli uzaqdan görmüşdülər. İndi isə o, əməlli-başlı geyinib-kecinibmiş. Əynində tünd-qırmızı rəngdə ipək don, başında lələkli şlyapa, əlində çətir varmış – ərinin çığırıb-bağırdığı insan yığınına yaxınlaşıb deyib: “Yufus.” Əri dərhal səsini kəsib; dəyənək hələ də havadaymış, əli tir-tir əsirmiş, açıq qalmış ağzından köpük tökülürmüş. Ərinin qoluna girib. Çoxları əlindəki dəyənəyin qorxusundan ona yaxın düşmək belə istəməzdi: istənilən an o bu dəyənyi kimə desən ilişdirə bilərdi – əlbəttə, qəsdən yox, özü də bilmədən. Arvadı isə birbaş özünü həmin dəyənəyin altına verib, ərinin əlindən tutub kənara çəkib, gətirib mağazanın önündəki stulda oturdub, sonra da deyib: “Mən qayıdanacan burada otur, gözlə. Heç yana tərpənmə. Özü də bəsdir qışqırdın”.

Qoca Hayns dərhal qışqırığını kəsib. Lap körpə uşaq kimi. Harda qoyublar, orda da oturub qalıb, arvad isə heç dönüb geriyə də baxmayıb. Buna hamı məəttəl qalıb. Yəqin, ona görə ki, bu qadını öz evindən, ya da o evin yan-yörəsindən savayı heç vaxt heç yerdə görməmişdilər. Kişini isə qəddar, az qala, qudurmuş bir adam kimi tanıyırdılar – onun əksinə çıxmağa cürət eləyən adam nə elədiyini əvvəlcədən düşünməliydi. Bir sözlə, hamı bu işə mat-məəttəl qalıb. Heç kim ağlına belə gətirə bilməzdi ki, bu adama əmr etmək olar. Fikirləşiblər ki, yəqin, bu qadın onun

haqqında nəsə bilir, buna görə də kişi ondan qorxur. Qadının tapşırdığı kimi, o stulda oturub gözləyib, əvvəlki qıy-qışqırığından, hərbə-zorbasından əsər-əlamət belə qalmayıb; başı sinəsinə düşüb – iri dəyənəkli əli tir-tir əsir, ağzı yavaş-yavaş köpüklənir, köynəyinin üstünə tökülürmüş.

Qadın isə ordan birbaş həbsxanaya yollanıb. Ora daha çox adam toplaşıbmış, çünki xəbər veriblərmiş ki, Ceffersondan zəncini aparmağa gəliblər. Qadın birbaş onların arasından keçərək həbsxana binasına girib, Metkafa deyib:

– Mən tutulan adamı görmək istəyirəm.

– Onu nə üçün görmək istəyirsiniz? – Metkaf soruşub.

– Mən ona heç nə eləməyəcəm, – qadın deyib. – Yalnız ona baxmaq istəyirəm.

Metkaf ona deyib ki, elə bura yığışan adamların hamısı ona baxmaq istəyir; onun məhbusu qaçırmaq niyyətində olmadığını da yaxşı başa düşür, amma o, burda yalnız nəzarətçidir, buna görə də şerifin icazəsi olmadan heç kimi içəri buraxa bilməz. Qadın isə öz tünd-qırmızı donunda sakitcə dayanaraq onun üzünə elə baxırmış ki, heç şlyapasındakı lələk belə tərpənmirmiş.

– Hardadır şerif? – soruşub.

– Yəqin ki, öz yerində, kabinetində, – Metkaf deyib. – Gedin onu tapın, icazə kağızı alın. Yalnız bundan sonra o zəncini görə bilərsiniz.

Fikirləşib ki, bunu deməklə iş bitdi. Qadının geri dönüb otaqdan çıxdığını, həbsxana önündə toplaşmış adamların arasından keçərək, küçəylə geriyə, meydana qayıtdığını görüb. İndi lələk tərpənirmiş. O, yəqin ki, ləleyin necə tərpəndiyini hasarın üstündən görürmüş. Sonra qadın meydandan keçərək məhkəmə binasına üz tutub. Onun ora nə üçün getdiyini küçədəki adamlar bilmirmişlər, çünki, Metkaf həbsxanada nələr baş verdiyini hələ onlara danışmağa macal tapmayıbmış; buna görə də onlar, sadəcə, qadının məhkəmə binasına necə girdiyinə tamaşa ediblər. Sonra Rassel danışırmış ki, öz kabinetində oturubmuş, təsadüfən başını qaldıranda xırda pəncərədən arakəsmənin arxasında həmin ləleli şlyapanı görüb. Başa düşə bilməyib ki, o, başını qaldıranacan bu qadın orda çoxdan dayanıb gözləyirmiş, ya yox. Deyirmiş ki, qadının boyu arakəsmədən azca hündür idi, yalnız başı görünürdü, elə bil, heç bədəni yox idi. Sanki, kimsə xəlvətcə ora gəlib, üstünə sifət rəsmi çəkilmiş bir hava şarını ordan asıb, başına da gülməli bir şlyapa keçiribmiş , lap komikslərdəki şəkillər kimi. Qadın ona deyib:

– Mən şerifi görmək istəyirəm

– O burda yoxdur, – Rassel deyib. – Mən onun köməkçisiyəm. Sizə necə yardım edə bilərəm?

Qadınsa dimdik dayanıb, heç bir cavab verməyib. Sonra soruşub:

– Onu harda tapmaq olar?

– Yəqin ki, evdədir, – Rassel deyib. – Bu həftə çox gərgin işləyib. Heç gecələr də yatmayıb – Cefferson polisinə kömək eləyirdi. Yəqin ki, indi bir az mürgüləmək üçün evə gedib. Bəlkə,

mənim sizə bir köməyim... – Deyir, bir də baxdım ki, qadının izi-tozu belə qalmayıb. Pəncərədən boylandım, onun meydandan keçib, dərhal tini dönərək şerifin yaşadığı evə tərəf getdiyini gördüm. Deyir, onun kim olduğunu, hardan gəldiyini heç cür anlaya bilmədim.

Şerifi heç cür tapa bilmədi. Bir də ki, onsuz da, çox gec idi. Şerif, əslində, əvvəldən həbsxanadaydı, yalnız Metkaf bunu ona bildirməmişdi; qadın ordan uzaqlaşan kimi isə Ceffersondan iki maşında gələn polislər həbsxanaya girmişdilər. Sürətlə gəldilər, tez də içəri girdilər. Ancaq onların orda olmaları xəbəri artıq hər yana yayılmışdı, həbsxananın önünə iki yüzdən çox adam – kişi, uşaq, qadın yığışmışdı; hər iki şerif onların qarşısına çıxdı, bizimki nitq irad etməyə başladı, adamlardan qanuna hörmətlə yanaşmalarını xahiş etdi; dedi ki, o da, ceffersonlu həmkarı da söz verirlər ki, zənci tezliklə məhkəmədə mühakimə olunacaq, onun barəsində hökmən ədalətli qərar çıxarılacaq; kimsə camaatın arasından söz atdı: "Cəhənnəm olsun sizin ədalətiniz. Bəyəm o, ağ qadına qarşı ədalətli rəftar edib?" Bu sözdən sonra kütlə dərhal hərəkətə gəldi, daha da sıxlaşmağa, çığır-bağır salmağa başladı, sanki, onlar şeriflərin deyil, mərhumənin önündə bir-birinin səsini batırmağa çalışırdılar. Şerif isə yenə də sakitcə dedi ki, onu şerif seçdikləri gün and içərək onlara söz verib, indi o sözü yerinə yetirmək istəyir. "Mənim zənci qatillərə, – o dedi, – burdakı ağ adamların heç birindən artıq rəğbətim yoxdu. Ancaq rəsmi qaydada and içmişəm və Allaha and olsun ki, o andı yerinə yetirəcəm. Burda qan-qaraçılıq salmaq lazım deyil, mən öz andımdan qətiyyən dönən deyiləm. Yaxşısı budur, bunu nəzərə alasınız". Holidey də ordaydı, şeriflərin yanında dayanmışdı. O, qayda-qanuna riayət olunması, heç bir mərəkə qopmaması üçün hamıdan çox canfəşanlıq göstərirdi. "Aha, – kimsə yerdən qışqırdı, – biz yaxşı bilirik ki, sən nə üçün onun daş-qalaq edilməsini istəmirsən. O zəncinin bizim üçün sənin kimi min dollar dəyəri yoxdur ki?! O bizim üçün heç min lax yumurtaya da dəyməz". Bu an şerif yenə danışmağa başladı: "Nə olsun ki, Hollidey onun burda öldürülməsini istəmir?!. Bəyəm biz hamımız bunu istəmirik? Axı mükafatı bizim vətəndaşımız alacaq: o pullar burda, Motstaunda xərclənəcək. Əgər onu Ceffersondan biri alsaydı, onda necə? Düz demirəm, camaat? Bir özünüz fikirləşin". Səsi bir qədər cırlaşmışdı, oyuncaq səsinə, xalq önündə çıxış edərkən təkcə camaatın eşitmək istədiyinin deyil, həm də onun, yarımçıq da olsa, artıq qəbul etdiyi qərarın əleyhinə danışan vəzifəli adamın səsinə bənzəyirdi.

Amma onun bu sözləri, elə bil, camaatı inandırdı, hərçənd özləri də yaxşı bilirdilər ki, əgər pulları Holidey kimi bir adam xərcləməli olsa, nə Motstaun, nə də başqa bir şəhər onun üzünü belə görməyəcək. Hər halda, bir qədər sakitləşdilər. Xalq deyilən şey qəribə məxluqatdı. Əgər daim onun önünə təzə bir dəlil, sübut çıxarmasan, nə düşüncəsində, nə də əməlində nədənsə yapışıb sabit qala bilmir. Sonra təzə bir sübut, dəlil gətirsən belə, dəxli yoxdu, yenə fikrini dəyişir. Bir sözlə, onlar öz inadlarından heç də tamam dönməmişdilər; demək olar ki, o ana qədər kütlə, bir növ, içəridən bayıra təzyiq göstərirdisə, indi bayırdan içəri sıxırdı. Şeriflər də

bunu anladılar, ancaq onu da anladılar ki, bu vəziyyət uzun sürə bilməz; ona görə də cəld həbsxanaya girib, tez də çıxdılar – o qədər tez çıxdılar ki, içəri girdiklərinə belə inanmaq mümkün deyildi – zənci aralarındaydı, arxadan isə onların beş və ya altı köməkçisi gəlirdi. Yəqin ki, dustağı qapının arxasındaca hazır saxlamışdılar, çünki çox tez bayıra çıxdılar: zənci başını aşağı salmış halda onların arasındaydı, ceffersonlu şerifin bir qoluna qandallanmışdı; kütlə onları görən kimi bir ağızdan "Aaaaaaaaaaaah!" deyə bağırdı.

Adamlar aralanıb küçəyə – Ceffersondan gəlmiş birinci maşına doğru cığır açdılar; mühərrik artıq işə salınmışdı, sürücü də sükan arxasındaydı, şeriflər vaxt itirmədən dərhal dustağı maşına tərəf apardılar, elə bu anda o qoca qarı, missis Hayns yenidən peyda oldu. Camaatı yarıb keçmişdi. Boyu çox balaca olduğundan adamlar yalnız şlyapasındakı lələyin arabir qalxıb enərək kütləni necə yavaş-yavaş yarıb-keçdiyini görmüşdülər, sanki, ona maneçilik törətməsələr də, bundan iti sürət ala bilməzdi, amma işə düşmüş traktor kimi dayanası da deyildi. Adamları yarıb, şeriflərlə dustaq üçün açılan cığıra çıxdı; onu tapdalamamaq üçün camaat geri çəkilməli oldu. Sifəti suvaq parçasına bənzəyirdi, şlyapası yana əyilmiş, lələyi gözünün üstünə düşmüşdü, ətrafı görə bilmək üçün onu yuxarı atmaq lazım idi. Amma o bunun fərqində belə deyildi. Onların qabağını kəsib zənciyə baxır, getmələrinə imkan vermirdi. Bircə kəlmə də danışmadı, elə bil, ona bircə şey lazım idi, məhz o şeyə görə – zəncinin sifətinə bircə dəfə də olsa baxmaq üçün camaatı bu qədər narahat etmiş, bu cür bəzənib-düzənmiş və şəhərə gəlmişdi. Sonra geri dönüb adamların arasında gözdən itdi, ceffersonlu polislərlə birlikdə zəncini aparan maşınlar ordan uzaqlaşandan sonra adamlar onu görmək üçün ətrafa boylananda izi-tozu belə qalmamışdı. Adamlar yenə meydana axışdı, Dok dayı da yerində – qadının onu əyləşdirib gözləməyi tapşırdığı stulda yox idi. Ancaq hamı meydana getməmişdi. Bir çoxları orda qalıb hələ də həbsxana binasına tamaşa edirdi, sanki, indicə oradan zəncinin özü yox, kölgəsi çıxarılmışdı.

Fikirləşiblər ki, yəqin, qadın Dok dayını evlərinə aparıb. Stul isə Dolların dükanının önündəymiş; Dollar deyir ki, qadın camaatdan bir az qabaq ora qayıdıb. Deyir, o gələnəcən Dok dayı yerindən tərpənməyib, qadın onu stulda necə qoymuşdusa, eləcə də oturub qalıb; gələn kimi əliylə onun çiyninə vurub, o da dərhal yerindən qalxıb, bir yerdə çıxıb gediblər. Dollar bunu öz gözləriylə görüb. Deyir ki, Dok dayının vəziyyətinin çox pis olduğu sifətindən bilinirdi, əslində, bu halda o, evdə oturmalıydı, bayıra çıxmamalıydı.

Ancaq qadın onu evə aparmayıb. Bir qədər sonra adamlar Dok dayının heç bir yardıma ehtiyacı olmadığını, özü yeridiyini görüblər. Elə bil, hər ikisi eyni işi görmək istəyirmiş. Eyni işi – amma fərqli səbəblərə görə; hər ikisi də bilirmiş ki, o birinin bu işi tutmağa başqa səbəbi var; əgər onlardan hansısa bu işi öz istədiyi kimi görsə, bu, o biri üçün pis nəticələnəcək. Sanki, hər

ikisi bunu sözsüz başa düşür, bir-birinə göz qoyurmuş; ancaq hər ikisi bunu da dərk edirmiş ki, bu işə necə başlamağı qadın daha yaxşı bilir.

Onlar birbaş Salmonun kirayə maşın verdiyi qaraja gediblər. Onunla qadın danışıb. Deyib ki, Ceffersona getmək istəyirlər. Yəqin, ağlına da gətirməyib ki, Salmon adambaşına iyirmi beş sentdən çox pul istəyə bilər, buna görə də o, üç dollar deyəndə, qulaqlarına inanmayıb, bir də soruşub. "Üç dollar, – Salmon deyib, – bundan ucuz verə bilmərəm". Yanaşı dayanıblarmış, amma Dok dayı bu söhbətə qarışmayıb, sanki, bunun ona dəxli yoxmuş və nədənsə narahat olmağına dəymədiyini bilirmiş: qadın, onsuz da, onu ora çatdıracaqdı.

– Yox, – qadın deyib, – mənim bu qədər pulum yoxdu.

– Bundan ucuz isə heç cür mümkün deyil, – Salmon deyib. – Bəlkə, qatarla mümkün ola. Orda bilet əlli iki sentədir.

Qadın artıq ordan uzaqlaşıb, Dok dayı isə it kimi onun dalınca düşüb.

Bu, saat dörddə olub. Saat altıya kimi onları məhkəmə həyətindəki skamyada oturmuş görüblər. Danışıb-eləmirmişlər: sanki, bir yerdə olduqlarını unudublarmış. Yan-yana oturub qalıblar, deməli, qadın geyinib-kecinibmiş, bayram libasındaymış. Bəlkə, elə bu cür geyinib-kecinmiş halda bir şənbə axşamını şəhərdə keçirmək onun xoşuna gəlirmiş. Ya da bu, başqalarının Memfisə yollanıb, orda keçirdikləri bütöv bir gün qədər ona ləzzət verirmiş.

Saat altının zəngi çalınanacan orda oturublar. Zəng çalınanda yerlərindən qalxıblar. Onları orda görən adamlar danışırlar ki, qadın ərinə bircə kəlmə də deməyib; sadəcə, budaqdan uçan bir cüt quş kimi eyni anda qalxıblar – qalxmaq üçün kimin kimə işarə verdiyini anlamaq heç cür mümkün olmayıb. Dok dayı bir az arxadan gedirmiş. Meydanı keçib, stansiyaya gedən küçəyə çıxıblar. Adamlar hələ üç saat ərzində ordan heç bir qatar keçməyəcəyini bildikləri üçün buna mat-məəttəl qalıblar: doğrudanmı, onlar qatarla harasa getməyə hazırlaşırlar?! Amma sonra qocalar onları bundan da betər heyrətə salıblar. Stansiyanın yanındakı balaca kafeyə girib şam eləyiblər; axı Ceffersona gəldikləri gündən bəri – bu uzun illər ərzində onların nəinki kafedə nahar etdiklərini, heç bir yerdə küçəyə çıxdıqlarını belə görən olmamışdı. İndi isə bu qadın gör onu haralara gətirib çıxarmışdı; bəlkə də, nahar üçün şəhərə qayıtsalar, qatara gecikə biləcəklərindən ehtiyat eləmişdilər. Hələ saat yeddinin yarısı olmamış kafeyə girib, piştaxtanın önündəki kətillərdə əyləşib, qadının Dok dayı ilə məsləhətləşmədən sifariş verdiyi yeməkləri yeməyə başlayıblar. Qadın kafe sahibindən Ceffersona gedən qatarın haçan gələcəyini soruşub, o isə cavab verib ki, gecə saat ikidə. "Bu gün, – deyib, – Ceffersonda yaman qarışıqlıq olacaq. Siz şəhərdə maşın kirayə edib, qırx beş dəqiqəyə orda ola bilərsiniz. Gecə saat ikiyəcən burda oturub qatarı gözləmək nəyinizə lazımdı?!" Elə bilib ki, gəlmədilər; başlayıb şəhərə necə getməyi onlara izah etməyə.

Qadın ona heç nə deməyib; yeməklərini yeyib qurtarandan sonra çətirdən çıxardığı əsgi bükülüsündən bir beş, bir də onsentlik götürərək yeməyin haqqını ödəyib, Dok dayı isə yerində oturub gözləyirmiş, lunatiklər kimi sir-sifətindən cin yağırmış. Sonra ordan çıxıblar, kafe sahibi elə bilib ki, onun dediyinə qulaq asıb, maşın götürmək üçün şəhərə getmək qərarına gəliblər, amma pəncərədən baxanda ehtiyat dəmir yollarını keçərək stansiyaya tərəf getdiklərini görüb. Arxadan onları səsləmək istəyib, amma sonra vaz keçib. "Fikirləşdim ki, – deyir, – yəqin, mən onu səhv başa düşmüşəm. Bəlkə də, onlara saat doqquzda cənub tərəfə gedən qatar lazım imiş".

Sərnişinlər – kommivoyajörlər[22], işsiz-gücsüz avaralar və digər adamlar – stansiyaya yığışıb saat doqquz qatarına bilet almağa başlayanda onlar gözləmə zalında skamyada oturublarmış. Kassir deyir ki, axşam saat səkkizin yarısında, şam yeməyindən qayıdanda ciddi diqqət yetirməsə də, gözləmə zalında kimlərinsə oturduğunu görüb; sonra qadın kassaya yaxınlaşıb, burdan keçən qatarın Ceffersonda haçan olacağını ondan soruşub. Kassirsə bu vaxt bərk məşğul olduğundan, yalnız gözünü qaldırıb, işindən ayrılmadan deyib: "Sabah". Ancaq deyir, sonra onu nəsə pəncərədən boylanan yumru sifətə və əlbəttə ki, ondan yuxarıda yellənən lələyə bir də baxmağa məcbur edib. Qadınsa deyib:

– Mənə o qatara iki bilet verin.

– Bu qatar gecə saat ikidə gələcək, – kassir deyib. O da qadını tanımayıb. – Əgər Ceffersona tez çatmaq istəyirsinizsə, şəhərə gedib, kirayə maşın götürsəniz, yaxşıdır. Şəhərin yolunu tanıyırsınız?

Qadınsa yerində dayanıb, bükülü əsgidəki beş, onsentlik sikkə pulları çıxarıb sayıb; ona iki bilet verəndən sonra kassir pəncərədən, qadının başı üstündən baxaraq Dok dayını gözləmə zalında görəndə onun kim olduğunu başa düşüb. Deyir ki, saat doqquz qatarının camaatı stansiyaya yığışmışdı, qatar gəldi də, getdi də, amma onlar hələ də orda oturmuşdular. Dok dayı isə, deyir, elə o cür yarıyuxulumu, yarıbihuşmu haldaymış – bunu dəqiq anlamaq mümkün deyilmiş. Deməli, qatar çıxıb gedib, adamlarınsa heç də hamısı oradan dağılışmayıb. Bəziləri kassir gözləmə zalının işıqlarını söndürənəcən orda qalıblar; qalıb pəncərədən baxıb, ya da zala girib Dok dayı ilə arvadının orda necə oturduqlarına tamaşa ediblər.

Ancaq bəzi adamlar hətta bundan sonra da oranı tərk etməyiblər. Pəncərədən boylanıb onların qaranlıqda necə oturduqlarına göz qoyublar. Bəlkə də, ancaq şlyapadakı lələyi, bir də Dok dayının çallaşmış başını görə biliblər. Birdən Dok dayı ayılmağa başlayıb; o mənada yox ki, harda olduğundan, yaxud da istədiyi deyil, tamam başqa yerə düşdüyündən heyrətə gəlib. Sadəcə, uzun müddət maşınla sürətlə üzüaşağı şütüyən və artıq mühərriki söndürmək lazım gəldiyini birdən-birə, qəfil başa düşən adam kimi qəfil silkinib ayılıb. Qadının ona necə "Susssssss" dediyini eşidiblər, bundan sonra Dok dayının səsi yavaş-yavaş kəsilib. Sonra kassir

[22] Kommivoyajör – ticarət agenti

zalın işığını yandırıb saat iki qatarının gəldiyini onlara xəbər verənəcən beləcə oturub qalıblar; bu vaxt qadın yenə də uşaq başı tovlayırmış kimi ona "Susssssssss. Susssssssss" – deyib, Dok dayı isə bağırmağa başlayıb: "Rəzillik və iyrənclik! Rəzillik və iyrənclik!"

16

Qapını döyəndən sonra heç bir cavab almayan Bayron artırmadan aşağı düşür, evin ətrafına dolanıb, çəpərli arxa həyətə çıxır. Tut ağacının altındakı kreslonu dərhal görür. Bu, yamaqlı, bomboz bozarmış, parusin bir şezlonqdu, uzun illərin istifadəsindən o qədər sallaqlaşıb ki, içi boş görünür, sahibinin əndazədən çıxmış şişman, piy basmış vücudu belə onun ağuşunda itib-batır; ona yaxınlaşarkən Bayron fikirləşir ki, fəaliyyətsizliyi, bikarçılığı, tərki-dünyalığı özündə cəmləşdirən bu cansız kreslo, bir növ, bu adamın simvoludu, hətta onun əsl mahiyyətinin təcəssümüdü. "Bu adamı, mən yenə onu narahat eləyəcəm", – o, adəti üzrə, dodağını azca aralayaraq düşünür, düşünür *Yenə də? Bundan əvvəl verdiyim narahatlıqlar indikinin yanında ona boş, mənasız bir şey kimi görünəcək. Yenə də bazar günü. Bir də ki bazar günü niyə də ondan intiqam almaq fikrinə düşməsin – axı bu günü də insanlar özlərindən uydurublar*

Arxadan kresloya yaxınlaşır, onun içinə boylanır. Haytauer yatıb. Onun şişman qarnının üstündə, ağ köynəyin (bu gün o, həm təzədi, həm də təmiz) nimdaş qara şalvar üzərində köpüb şişdiyi yerdə cildi üzüyuxarı açılmış bir kitab var. Haytauerin əlləri dinc, məhrəmanə tərzdə kitabın üzərinə düşüb qalıb. Köynəyi köhnə dəbli, sinə hissəsi büzməli, amma pis ütülənmiş, yaxalıqsızdı. Ağzı açıq qalıb, lırt, bürüşük sifəti, qaralmış alt dişləri görünən dəyirmi yarıqdan və sivri burnundan aşağı sallanıb; təkcə burnu sinnin və yaşanmış uzun illərin dağıdıcı təsirinə məruz qalmayıb. Bayron yuxarıdan yatmış sifətə baxır, ona elə gəlir ki, bu adam, zəbt edilmiş qalada unudulub qalan bayraq kimi məğlubiyyət qarmaqarışıqlığında öz yenilməz məğrurluğunu və mərdliyini qoruyub saxlayan bu burundan daim kənar qaçıb, ondan imtina edib. Tut yarpaqları arasından göy üzünü əks etdirən işıq şüaları yenə də eynəyin üstünə düşür, onun şüşələrində bərq vurur; buna görə də Bayron, Haytauerin haçan gözünü açdığını hiss eləmir. O yalnız dodaqların bir-birinə sıxıldığını və Haytauer durub oturmamışdan əvvəl, önündəki əllərin necə tərpəndiyini görür.

– Hə, – keşiş deyir, – hə? Kimdi bu... A-aa, Bayron sizsiniz?

Bayron yuxarıdan-aşağı baxır, onun sifəti çox ciddidi. Bu dəfə onda heç bir mərhəmət hiss olunmur. Bu sifətdə təmkinlikdən, qətiyyətdən başqa heç nə yoxdu. Heç bir ifadə hiss etdirməyən quru bir səslə deyir:

– Dünən onu tutublar. O vaxt qətl barədə heç nə eşitmədiyiniz kimi, yəqin ki, bunu da bilmirdiniz.

– Tutublar?

– Kristması. Motstaunda. O bu şəhərə gedib, bildiyim qədər, orda küçədə gəzərkən onu tanıyıblar.

– Tutublar, – Haytauer qalxıb kresloda oturur. – Siz də bura gəlmisiniz ki, mənə onun tutulduğunu... Onların onu...

– Yox. Hələlik heç nə eləməyiblər. Hələlik sağdır. Həbsxanadadır. Ona heç nə olmayıb.

– Heç nə olmayıb... Siz deyirsiniz ki, hələ heç nə olmayıb. Bayron deyir ki, hələ heç nə olmayıb... Bir qadının aşnasına öz yoldaşını min dollara satmaqda yardımçı olan Bayron Banç... indi o Bayron Banç deyir ki, heç nə olmayıb. O qadını öz övladının atasından gizlədən, sonra da onu ... Deyimmi indi, aşna Bayron? Deyimmi? Yoxsa, Bayron Banç həqiqəti gizli saxlamaq istədiyi üçün mən də onu deməkdən imtina eləyim?

– Əgər aralıqda gəzən şayiələr həqiqət kimi qəbul edilirsə, onda bu, həqiqətdir. Xüsusilə də mənim onların hər ikisini həbsxanaya saldırmağım.

– İkisini də?

– Yəni Braunla bir yerdə. Hərçənd, məncə, camaatın çoxu bu fikirdədir ki, Braun adam öldürməyə, ya da öldürülməsinə kömək etməyə nə qədər qadirdisə, qatili tutmağa, yaxud tutulmasına kömək etməyə də bir o qədər qadirdi. Amma indi onlar çox rahatca deyə bilərlər ki, Bayron Banç onu öz xeyri üçün həbsxanaya saldırıb.

– Həə, elədi. – Haytauerin səsi cingiltili, yüksəkdi, azca titrəyir. – Bayron Banç, ictimai rifahın və əxlaqın qatı gözətçisi. Varis, mükafat sahibi, çünki o mükafat indi filankəsin morqanatik[23] arvadına qismət olacaq... Deyimmi, kimin? Bayronu da bu siyahıya daxil edimmi? – Bu nəhəng, heydən düşüb özünü kresloya yıxmış adam ağlamağa başlayır. – Mən belə fikirləşmirəm. Siz bunu anlamırsınız. Amma özümü hər şeydən kənarda tutmağa öyrəşdirdiyim... məni buna zorla öyrəşdirdikləri bir vaxtda gəlib məni bu cür narahat etmək, bir daha əndişələndirmək heç də ədalətli iş deyil... Bu qoca yaşımda, onların rəva gördükləri hər şeylə barışdığım vaxtda belə bir şeyin mənə tuş gəlməsi, məni haqlaması... – Bir dəfə Bayronla qarşı-qarşıya oturarkən onun sifətindən tər göz yaşı kimi axmışdı; indi isə göz yaşı tər kimi axır.

– Mən bilirəm. Bilirəm ki, bu, yaxşı deyil. Sizi narahat etmək olmaz. Amma bilmirdim. Bu hadisəylə uğraşmağa başlayanda bunu ağlım kəsmirdi. Yoxsa... Ancaq siz ruhanisiniz. Bundan imtina edə bilməzsiniz.

– Mən ruhani deyiləm. Öz istəyimə görə yox. Bunu unutmayın. Mən öz istəyimə görə ruhanilikdən imtina etməmişəm. Mənim bu imtinam sizin kimi, o qadın kimi, həbsdəki o adam kimi, eləcə də vaxtilə mənə qarşı öz bəd niyyətlərini rişxənd və zorakılıqla həyata keçirən, indi də o mənfur niyyətlərini bu adamın üzərində icra edə bilmək üçün onu tutub ora salan adamlar

[23] Morqanatik – adi adamın padşah nəslinə mənsub adamla evlənməsi

kimi insanların iradəsinə, ən betəri onların buyruğuna əsasən baş verib; halbuki bu adamı da onları yaradan eyni Allah yaradıb; halbuki, onu məhz özləri bu həddə gətirib çıxarıblar, buna görə də indi tikə-tikə parçalamağa hazırdılar. Seçim mənim olmayıb. Bunu unutmayın.

– Bilirəm. Çünki seçim etmək insana heç də tez-tez nəsib olmur. Siz bundan xeyli əvvəl öz seçiminizi etmisiniz. – Haytauer ona baxır. – Mən hələ doğulmamışdan əvvəl sizə seçim haqqı verilib, siz də nə mən, nə o qadın, nə də o adam hələ həyatda yox ikən öz seçiminizi etmisiniz. Bax onda siz bu yolu seçmisiniz. Məncə, pis adamlar kimi yaxşılar da öz seçimlərinin haqq-hesabını ödəməlidirlər. O qadın kimi, o adam kimi, mənim kimi. Yerdə qalan bütün insanlar kimi, o biri – digər qadın kimi.

– Digər qadın? Bəyəm başqa qadın da var? Doğrudanmı, sinnimin bu çağında, altmışımda həyatımı iki əxlaqsız qadın korlamalı, rahatlığımı əlimdən almalıdı?

– Bu, başqa bir qadındı, – özü də əxlaqsız deyil. Otuz ildi yox olubmuş. İndi üzə çıxıb. Bu qadın onun nənəsidi.

– Kimin nənəsidi?

– Kristmasın, – Bayron deyir.

Qaranlıq pəncərədən həyət qapısına, ordan da küçəyə baxa-baxa gözləyən Haytauer uzaqdan gələn musiqi səsinə qulaq verir – dərhal, o səs başlayan kimi. Hər çərşənbə, hər bazar axşamı qaranlıq pəncərə önündə oturarkən o səsi gözlədiyini heç də şüurlu şəkildə dərk etmir. Amma onun haçan başlayacağını saata baxmadan, demək olar ki, saniyə dəqiqliyilə bilir. Artıq iyirmi ildir ki, saatdan istifadə etmir, ona heç ehtiyac da duymur. Mexaniki zamandan daim uzaq qaçır. Ancaq elə buna görə də heç vaxt onu səhv salmır. Sanki, təhtəlşüurunda əqlin iştirakı olmadan, qeyri-ixtiyari doğulan bir neçə dəyişməz, kristallaşmış sabit vaxt ölçüsü vardı və bu gerçək dünyada onun bütün keçmiş həyatını indiyəcən məhz bu ölçülər idarə etmiş, onlar nizama salmışdı. Keçmiş həyatında saata baxmadan bazar gününün tezdən və axşam ibadətləri, çərşənbə gününün axşam ibadəti zamanı isə onun əvvəli və axırı bildirən iki an arasında məhz harda olmaq, nə etmək, kilsəyə haçan girmək, oxuduğu duanı və ya moizəni hansı anda yekunlaşdırmaq lazım gəldiyini dərhal və dəqiq təyin edə bilirdi. Və budur, axşam toranı hələ qatı qaranlığa çevrilməmiş öz-özünə deyir *İndi onlar bir yerə yığışırlar, küçə boyu yavaş-yavaş axışır, tini-səkini dönür, bir-birilə salamlaşırlar: qrup halında, cüt-cüt, tək-tək. Kilsənin içində də alçaq səslə öz dərd-sərlərindən danışırlar; xanımlar aralıqdan keçən tanışlarını salamlamaq üçün onlara əl eləyir, astaca yelpiklərini yelləyirlər. Missis Karuders də* (bu qadın onun orqançalanı idi, demək olar ki, iyimi beş il bundan əvvəl vəfat edib) *onların arasındadı; indi o, yerindən durub xorun yanına qalxacaq* Bazar axşamı ibadətinə yığışıblar. Həmişə ona elə gəlib ki, insanın Allaha ən yaxın olduğu vaxt məhz bu saatdır – həftənin yeddi gününün heç bir anında insan Ona

bu qədər yaxın düşə bilmir. Bütün kilsə toplantıları arasında yalnız bu ibadət anında Vəd və ali məqsədi təcəssüm etdirən nəsə ruhi bir rahatlıq mövcuddur. Qəlb də, şüur da əgər onlara rəva görülübsə, məhz bu vaxt təmizlənir; həftə bütün ağrı-acısı ilə birlikdə başa çatıb – arxada qalıb, onun günahları səhər ibadətinin ciddi və təmkinli qeyzi ilə yuyulub; növbəti həftə, öz ağrı-acısı ilə birlikdə hələ doğulmayıb, qəlb hələ ki rahat və dincdir; hələ ki inanc və ümid onu öz şirin sərinliyinin ağuşuna alıb.

Qaranlıq pəncərənin önündə əyləşib, ona elə gəlir ki, onları gerçəkdən görür *Budur bir yerə yığışırlar, qapıdan içəri girirlər. Demək olar ki, hamısı burdadır* Və o danışmağa başlayır: "İndi. İndi", – özünü azca qabağa verir; budur, sanki, onun işarəsiylə musiqi başlanır. Orqanın dərin, gurultulu melodiyası yay gecəsinə yayılır, bu bütövləşmiş, genişmiqyaslı melodiya ağır-ağır yüksəlir, boğazdan azad olmuş səslər, sanki, çarmıxa çəkilir, çarmıx forması alır; vəcdlə, əzəmətlə ətrafa yayılır, təsir gücü artır. Ancaq indinin özündə belə onda nəsə sərt, qaçılmaz, düşünülmüş bir ahəng eşidilir və ehtirasdan daha çox fədakarlıq duyulur; o xahiş edir, yalvarır – sevgi, həyat üçün yox – hər bir protestant musiqisi kimi o da bunları insanlara qadağan edir – yüksək, təntənəli ahəngdə ölüm tələb edir, sanki, ölüm ən gözəl nemət imiş. Onu bəyənərək öz dualarında mədh etmək üçün səslərinə güc verənlər – o musiqinin mədh və simvolizə etdiyi duyğularla tərbiyə alıb böyüyənlər indi, sanki, öz duaları ilə həmin tərbiyə alıb böyüdükləri duyğulardan intiqam alırlar. Bu musiqini dinləyərkən ona elə gəlir ki, öz həyat tarixçəsinin, doğulduğu torpağın, öz tayfa qanının – onu doğuran və əhatə edən, nə nəşəni, nə acını həzm etməyə, nə də onlardan boyun qaçırmağa dava-dalaşsız qadir olmayan xalqının apofeozunu eşidir. Nəşə, sevinc, sanki, bu adamlar üçün dözülməz şeylərdir: onlar bundan xilas yolunu dəlisovluqda, sərxoşluqda, dava-dalaşda, ibadətdə – acıdan da elə o cür – görünür, heç vaxt sağalmayacaq dəlisovluq azarında tapırlar *Buna görə də mənsub olduqları din axı niyə də onları həm özlərini, həm də bir-birilərini öldürməyə məcbur etməsin?* O fikirləşir. Ona elə gəlir ki, bu musiqidə o, bu adamlar üçün sabaha nələr hazırlandığının, nə etməli olacaqlarının bəyanını, təsdiqini eşidir və onlar artıq bundan xəbərdardırlar. Ona elə gəlir ki, bundan əvvəlki həftə gur sel axını kimi ötüb-keçib, sabah başlayacaq növbəti həftə isə dərin bir uçurumdur və indi o gur axın sərt sıldırımın təpəsindən bu dibsiz uçurumun qaranlığına sıçrayarkən bəraət üçün deyil, son salam atəşi kimi, tək bircə dəfə, var gücüylə, zildən, qəzəbli bir qiyyə çəkdi və onun bu qiyyəsi hansısa allaha deyil, həbsxana barmaqlığı arasından bu insanlara və bundan savayı iki kilsəyə qulaq kəsilən, edamına da məhz bu adamların xaç qaldıracaqları məhkum insana tuşlanıb. "Bunu həm də sevinə-sevinə edəcəklər", – o, qaranlıq pəncərəyə üz tutaraq deyir. Hansısa önduyğudan, nəsə hətta istehzadan da dəhşətli bir şeydən dodaqlarının, ovurdlarının gərildiyini hiss edir. "Zira, ona rəhm eləmək onlar üçün özlərinə şəkk gətirmək kimi bir şey olardı, onlar özləri rəhmə ümid bəsləyir və ona ehtiyac duyurlar. Onlar bunu sevinə-sevinə edəcəklər, sevinə-sevinə. Bax

elə buna görə də bu çox qorxunc bir şeydir, qorxunc, çox qorxunc". Sonra özünü bir az qabağa verib üç nəfərin evə yaxınlaşdığını, həyət qapısına tərəf döndüyünü görür – küçə fənəri işığında, kölgələrin arasında onlar üç siluetə dönür. Birinin Bayron olduğunu artıq bilir, indi onun arxasınca gələn iki nəfərə baxır. Başa düşür ki, biri qadın, o biri kişidir, ancaq qadının qadın libası olmasa, onları bir-birindən ayırd etmək çox çətindi: eyni boyda, eyni endədirlər, normal kişidən, normal qadından iki dəfə dolu olan bu adamlar bir cüt ayını xatırladırlar. O gülməyə başlayır, hələ ki onu kəsmək barədə düşünmür. "İndi Bayronun bircə güllü yaylığı, bir də sırğası kəmdi," – o düşünür və gülür – səssiz, öz içində, səssiz-səmirsiz gülür; sonra özünü ələ almağa çalışır, çünki Bayron indicə qapını döyəcək, gedib onu açmalı olacaq.

Bayron onları – pota, sifəti daş kimi hərəkətsiz, əynində tünd-qırmızı don, başında lələkli şlyapa olan qadını və üst-başı son dərəcə kirli, güman ki, xeyli qoca, keçisayaq saqqalı tütündən sapsarı saralmış, gözlərindən cin yağan kişini kabinetə gətirir. Onlar içəri ürkək-ürkək deyil, amma nəsə oyuncağa bənzər bir şey kimi girirlər, elə bil, onları hansısa primitiv bir yaylı mexanizm hərəkətə gətirir. İkisindən biri – qadın özünə daha əmin, hər halda, daha ağlıbaşında görünür. Onun hərəkətlərində nəsə bir sıxıntı, küt mexaniklik sezilsə də, hiss olunur ki, bura müəyyən məqsədlə, yaxud ən azı, qeyri-aydın ümidlə gəlib. Qoca isə – bu, Haytauerə ilk baxışdan bəlli oldu, – ruh düşkünlüyü içindədi, sanki, hara düşdüyünü anlamır, heç bununla maraqlanmır da; bununla belə, onda nəsə qəfil partlaya biləcək qorxunc bir gərginlik duyulur – bihuş olsa da, həm də ayıq-sayıqdı.

– Bu odur, – Bayron astadan deyir. – Missis Haynsdır.

Onlar hərəkətsiz dayanıblar: qadın, sanki, uzun səyahətdən sonra, ona tanış olmayan yerdə, tanış olmayan adamlar arasında məqsədinə dəqiq çatdığına əminmiş kimi, bərbəzəkli daş heykəl təki yerində quruyub qalıb; lal-dinməz gözləyir; kişi isə sakitdir, xəyalən burda yox, hardasa başqa yerdədir, amma daxilən çox qəzəbli və həddən artıq çirklidir. Sanki, heç biri ev sahibinə, – nə maraq üçün, nə də elə-belə – baxmaq ehtiyacı duymur. Ev sahibi oturmağa yer göstərir. Bayron qadını stulun yanına gətirir, o, əlindəki çətiri buraxmadan ehmalca stula çökür. Kişi dərhal oturur. Haytauer stol arxasında öz yerinə keçir.

– Bu qadın mənimlə nə barədə danışmaq istəyir? – o soruşur.

Qadın heç bir hərəkət eləmir. Görünür, eşitmədi. O, nəsə vəd edilmiş bir şeyin ardınca uzun və kəşməkəşli yoldan gəlmiş adamı xatırladır; indi isə qollarını yanına salıb gözləyir.

– Bu odu, – Bayron deyir. – Keşiş Haytauerdi. Ona danışın. Ona nəyi bildirmək istəyirdinizsə, açıb deyin. – Qadın Bayrona baxır, amma onun sifətində heç nə ifadə olunmayıb. Əgər bunun arxasında dilsiz-ağızsız olmaq xisləti gizlənibsə, onda nitq qabiliyyəti bu sifətin

hərəkətsizliyi sayəsində tamam heçə enib, yox, əgər ümid, yaxud cəhd gizlənibsə, onda onların heç izi-tozu da görünmür. – Nə üçün gəldiyinizi deyin. Ceffersona nə üçün gəldiyinizi.

– Ona görə ki, – qadın danışmağa başlayır. Onun səsi gözlənilməz dərəcədə qalın, hətta kobuddur, hərçənd o qədər də yüksək deyil. Sanki, səsinin bu qədər hörültülü çıxacağını o özü də gözləmirmiş; öz səsindən heyrətə gəlibmiş kimi susur, baxışlarını bir sifətdən o birinə dikir.

– Danışın mənə, – Haytauer deyir. – Çalışın, danışın.

– Ona görə ki, mən... – səs yenə dirənir, sanki öz-özündən heyrətə gəlmiş kimi yenə qırılır, hərçənd hələ də yüksək deyil. Elə bil, bu üç söz səsin dəf edə bilmədiyi çox çətin bir əngələ çevrilib; bu əngəli aşmaq üçün özünü necə zorladığı istər-istəməz hiss olunur. – Mən heç onun necə ayaq açdığını, yeridiyini belə görməmişəm, – o deyir. – Otuz ildi ondan ayrı düşmüşəm. Onda o, heç yeriyə də bilmirdi... öz adını belə deyə bilmirdi...

– Rəzillik və iyrənclik! – birdən qoca dik atılır. Səsi gur, kəskin, güclü çıxır. – Rəzillik və iyrənclik! – Səsini kəsib susur. Düşdüyü yuxulu, amma sayıq vəziyyətdən qəfil silkinib, qeyzlə, peyğəmbərcəsinə bu üç sözü qışqırır və yenidən əvvəlki halına qayıdır. Haytauer diqqətlə ona baxır, sonra baxışlarını Bayrona tərəf çevirir. Bayron sakitcə izah edir:

– O bunların qız nəvəsidir. O, – başıyla yüngülcə, Haytauerin odlu quduz baxışlarla süzdüyü qocanı göstərir, – uşaq doğulandan dərhal sonra onu harasa aparıb. Hara apardığını, neylədiyini qadın bilməyib. Heç sağ olub-olmadığını da bilmirmiş, ta ki...

Qoca elə həmin sarsıdıcı qəfil hərəkətlə yenidən onların sözünü kəsir. Bu dəfə bərkdən qışqırmır: indi onun səsi Bayronun özününkü qədər sakit və məntiqlidir. O, aydın, amma bir qədər qırıq-qırıq danışır:

– Bəli. Qoca Dok Hayns onu apardı. Allah özü qoca Dok Haynsa kömək etdi, buna görə də qoca Dok Hayns da Allaha yardımçı oldu. Allah öz iradəsini körpə uşaqların diliylə bəyan etdi. Uşaqlar onun ardınca "Zənci! Zənci!" deyə qışqırdılar – Allahın önündə, elə insanların da önündə Allahın iradəsini dilə gətirdilər. Qoca Dok Hayns isə Allaha dedi: "Bu azdır. Onlar uşaqdılar, öz aralarında bir-birinə "zənci"dən pis ad qoya bilərlər"; və Allah dedi: "Səbir elə, ona göz qoy, çünki, mənim sizin dünyanızdakı əyyaşlıqla, rəzilliklə məşğul olmağa vaxtım yoxdu. Mən onu artıq nişan verdim, indi isə elə edəcəm ki, insanlar da bunu bilsinlər. Səni isə Öz iradəmin gözətçisi və mühafizi təyin edirəm. Ona göz qoymağı və nəzarət etməyi sənə tapşırıram". – Səs qırılır. Tədricən avazıyıb susmur, sadəcə, birdən-birə qırılır, sanki, qramafon valını dinləmək istəməyən adamın əli val iynəsini birdən onun üstündən götürür. Haytauer gözünü qocadan ayırıb, Bayrona – demək olar ki, ona da – odlu baxışlarla baxır.

– Bu nədi? Bu, nə deməkdi? – o soruşur.

– Çox çalışdım ki, qadını tək gətirim, burda sizinlə onsuz söhbət eləsin, – Bayron deyir. – Amma onu qoymağa yer olmadı. Qadın deyir ki, hər an gözü üstündə olmalıdı. Dünən

Motstaunda adamları o məhbusu daş-qalaq etməyə çağırırmış, özü də hələ nə günah işlədiyini bilmədən.

– Daş-qalaq eləyiblər? – Haytauer deyir. – Onun nəvəsini daş-qalaq eləyiblər?

– Qadın belə deyir, – Bayron səsinin ahəngini dəyişmədən cavab verir. – Deyir ki, bura da elə o məqsədlə gəlib. Ona əngəl olmaq üçün gəlməli olub.

İndi də qadın danışmağa başlayır. Bəlkə də, onların nə dediyinə qulaq asmışdı. Ancaq sifəti əvvəlki kimi hələ də ölgündü, heç nə ifadə etmir; cansız, zəif səs, az qala, qocanın səsi kimi birdən, qəfil işə düşür:

– O, əlli ildi belədi. Əlli ildən, əlli ildən çoxdu mən bu zülmü çəkirəm. Biz hələ evlənməmişdən əvvəl də həmişə dava-dalaş salardı. O gecə Milli anadan olanda da dava saldığına görə həbsə atmışdılar. Onun əlindən nələr çəkməmişəm?! Deyirdi ki, dalaşmağa məcburdu, çünki boyda hamıdan balacadı, onlar onu hara gəldi buyurmağa çalışırlar. Bu onda ağılsızlıqdan, boş-boşuna məğrurluqdandı. Amma mən ona deyirdim ki, şeytan səni azdırır. Haçansa bir gün şeytan qəfil başının üstünü kəsdirib səndən tələb edəcək: "Yufus Hayns, mənim haqqımı qaytar". Milli doğulan günün sabahı mən ona bax bunu dedim – zəiflikdən başımı belə yerdən qaldıra bilmirdim, onu isə yenə təzəcə həbsdən buraxmışdılar. Ona elə belə də dedim; axı Allah ona xəbərdarlıq etmiş, işarə vermişdi: öz qızı doğulan gecə, doğulan saat o, həbsxanaya düşmüşdü – bu, göylərin ona xəbərdarlığıydı, Allah öz qızının tərbiyəsini ona etibar etmirdi. Bununla, Allah ona işarə edirdi ki, şəhər (onda o, dəmir yolunda konduktor işləyirdi) ona ziyandan başqa yaxşı heç nə gətirmir. Onda o özü də bunu başa düşdü, çünki bu, ilahi bir əlamət idi və biz daha heç bir şəhərdə qalmadıq; sonra taxta-şalban zavodunda usta kimi işə düzəldi, yaxşı qazanırdı, çünki hələ boş-boş, mənasız yerə, məğrurluğuna uyub içindəki şeytanı əfv etdirmək, ona bəraət qazandırmaq naminə Allahın adından danışmağa başlamamışdı. Buna görə də o gecə Lem Buş sirkdən evə qayıdarkən Milli yanında olmadığı üçün arabanı saxlamadığına görə Yufus evə girib, komodun gözünü açıb, içindəkiləri hara gəldi tullayaraq, tapançasını axtarıb tapmağa çalışanda ona dedim: "Yufus, səni şeytan yoldan çıxarıb. Sən indi Millini qurtarmaq üçün bu qədər qızışmamısan"; o isə: "Lap elə şeytan olsun. Lap elə şeytan olsun", – dedi, məni vurub çarpayıya yıxdı, eləcə orda uzanılı qalıb ona baxdım... – qadın susur. Ancaq səsi yavaş-yavaş, öləziyən ahənglə deyil, val iynəsi qəfil cığırından çıxıbmış kimi birdən kəsilir. Haytauer yenə də gözlərini ondan ayırıb, qəzəb qarışıq heyrətli baxışlarla Bayrona baxır.

– Mən də elə bunları eşitmişəm, – Bayron deyir. – Mən də əvvəl heç nə anlaya bilmirdim. Onlar Arkanzasda, bu qocanın usta işlədiyi taxta-şalban zavodunun həyətində yaşayırmışlar. Qız onda on səkkiz yaşındaymış. Bir dəfə gecə vaxtı şəhərə gedən bir sirk dəstəsi zavodun yanından keçir. Dekabr ayıymış, elə hey yağış yağırmış, sirk furqonlarından biri onların yaxınlığında

körpüdə palçığa batır, onların evinə gəlib, kişini yuxudan oyadırlar, furqonu çıxarmaq üçün ondan bel istəyirlər...

– Allahın nifrətinə tuş gəlmiş murdar qadın vücudu! – deyə birdən qoca qışqırır. Sonra səsi avazıyır, sakitləşir, sanki, bununla diqqəti cəlb etmək istəyirmiş. Yenidən tez-tez, sürətlə danışmağa başlayır, nitqi inandırıcı, dumanlı, fanatikcəsinədir, özü haqda üçüncü şəxsin diliylə danışır. – O bilirdi. Qoca Dok Hayns bilirdi. O artıq onda, onun donunun altında Allahın nifrətinə tuş gəlmiş qadın əlamətini görmüşdü. O getdi, plaşını geyindi, fənəri götürdü, geri qayıtdı, qız da artıq qapının ağzında dayanmışdı, o da plaşdaydı; o, qıza dedi: "Gir içəri, get yat", – qız isə: "Mən də gedirəm", – dedi; o, bir də qıza: "Keç içəri, get, öz otağında yat", – dedi; qız içəri keçdi, o isə gedib sexdən iri belləri götürdü, furqonu palçıqdan çıxardı. Az qala, dan yeri ağarana qədər işlədi, elə bildi ki, qızı Allahın ona bəxş etdiyi atanın əmrinə tabe olub. Amma bunu bilmək lazım idi. Allahın nifrətinə tuş gəlmiş qadın vücudunun niyyətindən xəbərdar olmaq lazım idi; iki ayağı üstə gəzən bu rəzillik və murdarçılıq timsalının artıq Allahın gözündə iylənmiş olduğunu bilmək lazım idi. Qoca Dok Hayns o əclafın meksikalı olduğu barədə uydurmalara heç inanardımı?! Qoca Dok Hayns onun eybəcər sifətində Uca Allahın qara lənətini çoxdan oxumuşdu. Əgər o, bu uydurmalara....

– Bu nədi? – Haytauer soruşur. Bərkdən, sanki, öz səsilə qocanın səsini batırmağa çalışır. – Bu nə deməkdi?

– Oğlan sirkdə çalışırmış, – Bayron izahat verir. – Deyib ki, o, meksikalıdı – bu gedib onları yolda haqlayanda qızı ona belə deyib. Bəlkə də, oğlan qıza özünü bu cür qələmə verib. Bu isə – yenə qocaya işarə eləyir – hardansa öyrənib ki, oğlanın qanında zənci qarışığı var. Bəlkə də, sirkdəki başqa adamlar bunu ona deyib. Bilmirəm. Bunu hardan bildiyi barədə o, bir kəlmə də olsun danışmır, elə bil, bunun heç bir əhəmiyyəti yoxmuş. Səhəri gün gecə baş verənlərdən sonra isə, doğrudan da, heç bir əhəmiyyəti olmayıb.

– Səhəri gün?

– Məncə, həmin gecə, sirk körpüdə ilişib qalanda qız, hər halda, evdən qaçıb. O deyir ki, qaçıb. Hər halda, buna görə belə hərəkət eləyib, əgər o, bunu bilməsəydi, əgər qız evdən qaçmamış olsaydı, o, belə hərəkət etməzdi. Çünki səhəri gün qız qonşularla bir yerdə sirkə gedib. O buna razı olub, çünki ötən gecə evdən qaçdığından xəbəri olmayıb. Hətta qız geyinib-kecinmiş halda qonşu arabasına minəndə belə heç nədən şübhələnməyib. Ancaq onların qayıtmağını gözləyərkən, arabanın onların evinin yanında dayanmadan ötüb-keçdiyini, sanki, qızı düşürmək üçün durmaq niyyətində olmadığını eşidib. Onun dalınca qaçıb, arxadan qışqırıb onları səsləyəndə qonşu arabanı saxlayıb, ancaq qız onun içində olmayıb. Qonşu deyib ki, qız sirkin önündə bizimlə vidalaşdı, şəhərdən altı mil aralıda yaşayan başqa bir qızın yanında gecələyəcəyini söylədi; o, Haynsın bundan xəbərsiz olduğuna məəttəl qalıb, çünki qız arabaya

minəndə səfər çantasını da özüylə götürübmüş. Hayns səfər çantasını görməyib. Və bu da – Bayron daşsifət qadına işarə edir; onun onu dinləyib-dinləmədiyini anlamaq çətindi, – bu da deyir ki, şeytan onun beynini doldurmuşdu, şeytan onu idarə eləyirdi. Deyir ki, qızın harda ola biləcəyini onun özü kimi əri də heç cür güman edə bilməzdi, amma evə qayıtdı, tapançasını götürdü, onu saxlamaq istəyəndə məni də vurub çarpayıya yıxdı, atı yəhərləyib onların ardınca çapdı. Deyir ki, onlara çatmaq üçün ən qısa yolu seçib, gecə qaranlığında beşmi, altımı mümkün yoldan ən qısasını seçə bilib – özü də onların hansı yolla getdiklərindən tam xəbərsiz olduğu halda. Amma bunu bacarıb. Onları tapıb, sanki, harda olacaqlarını əvvəlcədən bilirmiş; elə bil, qızın meksikalı dediyi o adamın özüylə orda görüşmək üçün qabaqcadan şərtləşibmiş. Sanki, əvvəlcədən bilirmiş. Zil qaranlıq imiş, buna görə də o arabanı uzaqdan görəndə bunun məhz axtardığı araba olduğunu, əslində, heç cür ayırd edə bilməzmiş. Ancaq birbaş onun – gecə vaxtı ilk gördüyü arabanın ardınca çapıb. Sağ tərəfdən ona yaxınlaşıb, zil qaranlıqda, bir söz belə demədən, at belində çapa-çapa, əyilib ordakı adamın yaxasından yapışıb; halbuki o, yad da, qonşu da, tamamilə başqa bir adam da ola bilərdi – axı o, meksikalı deyilən adamın heç sifətini də görməmişdi. Ancaq bir əliylə yaxasından yapışıb, o biri əliylə də tapançanı başına dirəyib və... atəş açıb, sonra qızı atın tərkinə mindirib evə gətirib. O arabanı, öldürdüyü adamı elə ordam – yolda qoyub. Yenə yağış yağırmış.

O susur. Və dərhal qadın danışmağa başlayır, elə bil, sarsılmaz bir təmkin içərisində bayaqdan Bayronun haçan susacağını gözləyirmiş. Eyni ölgün, asta səslə danışır: iki yeknəsəq səs deyişirmiş kimi bir-birini əvəzləyir; iki qısır səs, sanki, yuxudaymış kimi, hüdudsuz bir məmləkətdə qansız-cansız insanların törətdiyi bir hadisəni nəql edir:

– Çarpayıda uzanılı qalmışdım, onun evdən necə çıxdığını, sonra isə atı tövlədən çıxarıb, dördnala çaparaq evin yanından necə uzaqlaşdığını eşitdim. Orda geyinili halda uzanılı qalıb çırağa baxırdım. Nefti qurtardı, yerimdən qalxdım, onu mətbəxə apardım, təzədən doldurdum, pilətəsinin qarasını təmizlədim, sonra soyunub, çıraq işığında çarpayıya uzandım. Hələ də möhkəm yağış yağırdı, soyuq idi, sonra atın həyətə qayıtdığını eşitdim, artırmada dayanmışdı; qalxıb şalımı çiynimə atdım, evə girdiklərini eşitdim. Yufusun, Millinin ayaq səslərini duydum: dəhlizdən keçib qapıya yaxınlaşdılar; Milli qapının ağzında dayandı, sifəti, saçları yağışdan su içindəydi, təptəzə paltarı təmiz palçığa batmışdı, gözləri yumuluydu, sonra Yufus ona möhkəm bir şillə ilişdirdi, döşəməyə yıxıldı, orda uzanılı qaldı, sifəti azca da olsun, dəyişmədi, ayaq üstə necəydisə, yerdə də eləydi. Yufus da qapının ağzında dayanmışdı, o da su içindəydi, hər yeri palçığa batmışdı, üstümə bağırdı: "Bəs deyirdin, mən şeytanın sozüylə durub-otururam. Al, budu, şeytanın əkdiyini sənə gətirmişəm. Soruş, gör, nəyi var. Soruş ondan". Mənsə elə yorulmuşdum, elə üşüyürdüm ki...Ona dedim: "Nə olub?" O isə çığırdı: "Get, o çirkaba bax, özün görəcəksən. Bəlkə də, o bunu aldadıb, yalandan deyib meksikalıdı. Məni ki, aldatmayıb.

Yəqin ki, heç bunu da aldatmayıb. Buna ehtiyac da olmayıb. Sən o vaxt demişdin ki, bir gün şeytan məndən öz haqqını tələb etməyə gələcək. Bax o, indi gəlib. Mənim arvadım mənə fahişə doğub. Ancaq haqq-hesab çəkmək vaxtı çatanda, heç olmasa, şeytan mənə kömək elədi. Yolu göstərdi, gülləni hədəfə sərrast yönəltdi".

Bax elə buna görə də bəzən düşünürdüm ki, şeytan Allahı üstələyib. Məlum oldu ki, Milli hamilədi, uşağı olacaq, Yufus də ondan qurtulmaq üçün həkim axtarmağa başladı. Elə bilirdim, tapa biləcək, bəzən də mənə elə gəlirdi ki, əgər kişiylə qadın bu dünyada yaşamalıdısa, onda elə belə qalsa yaxşıdı. Bəzən də ümid eləyirdim ki, tapacaq – məhkəmə uzanıb bitənəcən nə qədər əzab-əziyyət çəkdim, sirk sahibi isə məhkəməyə gəlib, o adamın, həqiqətən, meksikalı olmadığını, qanında zənci qarışığı olduğunu bildirdi; Yufus da elə həmişə bunu deyirdi, sanki, şeytan onun qulağına pıçıldamışdı ki, bu adam zəncidi. Məhkəmə bitəndən sonra Yufus yenə tapançasını götürüb and içdi ki, hökmən həkim tapıb gətirəcək – ölüsü də olsa, dirisi də; evdən çıxıb gedirdi, həftələrlə itib-batırdı, artıq hamı bundan xəbərdardı; gecə-gündüz Yufusu başqa yerə köçmək üçün yola gətirməyə çalışdım, çünki bircə sirkdəki o adam onun zənci olduğunu demişdi, bəlkə, heç o da dəqiq bilmirdi, həm də o artıq burdan çıxıb getmişdi, çətin bir də onunla rastlaşaydıq. Ancaq Yufus heç yana köçmək istəmirdi; Millinin də vaxtı çatmaq üzrəydi, Yufus isə əli tapançalı hələ də bu işə razı olacaq bir həkim axtarırdı. Sonra eşitdim ki, onu yenə tutub həbsxanaya salıblar; həkim axtardığı yerlərdə, ibadət yığıncaqları zamanı kilsələrə girib həkim soraqlaşırmış, bir kilsədə isə kafedraya çıxaraq özü moizə oxumağa, zəncilərin əleyhinə danışmağa, ağ adamları ayağa qalxmağa, onların hamısını qırmağa çağırıb; kilsədəki adamlar onu susmağa, kafedradan aşağı enməyə məcbur ediblər, o isə tapançasını düz kiləsinin içərisində çıxarıb, polislər gəlib onu tutub aparanacan hamını tapançayla hədələyib; ilk vaxtlar lap dəli kimiydi. Orda onun başqa şəhərdə də bir həkimi əzişdirdiyini, sonra da qaçıb gizləndiyini öyrəniblər. Bu minvalla, o, həbsxanadan çıxıb evə qayıdanda Millinin vaxtına lap az qalmışdı, bu gün-sabahlıq idi. Fikirləşdim ki, yəqin, fikrindən dönüb, axır ki, Allah yoluna qayıdıb, çünki artıq evdə dava-dalaş salmırdı, hətta Milli ilə hazırladığımız körpə əşyalarını tapanda da heç nə demədi, təkcə bunu soruşdu ki, az qalıb? Hər gün soruşurdu, biz də fikirləşirdik ki, kilsələri gəzəndən, həm də həbsxanada yatandan sonra, o gecə Milli doğulanda olduğu kimi, artıq vəziyyətlə barışıb. Nəhayət, vaxt gəlib çatdı, bir gecə Milli məni oyadıb dedi ki, ağrısı başlayıb, durub geyindim, Yufusu həkim dalınca göndərdim, o da geyinib evdən çıxdı. Mənsə lazım olan şeyləri yığıb topladım, gözləməyə başladıq; artıq Yufus həkimlə çoxdan qayıtmış olmalıydı, ancaq hələ də gəlib çıxmamışdı, bir az da gözlədim, elə bilirdim ki, həkim indicə içəri girəcək, sonra artırmaya çıxdım, nə görsəm yaxşıdı: Yufus qucağında tüfəng pilləkənin başında oturub. Üstümə çığırdı: "Qayıt, gir içəri, fahişə anası". Mən də ona ancaq "Yufus" deyə bildim. Tüfəngi üstümə çəkib bağırdı: "Qayıt, gir içəri. Qoy şeytan öz barını özü yığıb aparsın: axı o özü əkib

bunu”. Arxa qapıdan çıxmaq istədim, dərhal eşitdi, əlində tüfəng qaçıb evin başına dolandı, lüləsi ilə məni vurub yerə yıxdı, geriyə, Millinin yanına qayıtmalı oldum, o isə qapının arxasında dayanıb, Milli ölənəcən onu gözdən qoymadı. Milli canını tapşırandan sonra isə çarpayıya yaxınlaşdı, körpəyə baxdı, onu əlinə götürüb yuxarı, çıraqdan da hündürə qaldırdı, sanki, kimin – Allahınmı, yoxsa şeytanınmı üstün gələcəyini gözləyirdi. Mənsə o qədər əldən düşmüşdüm ki... çarpayının qırağında zorla oturmuşdum, gözlərimin önündə isə divarda, lap hündürdə onun özünün, əllərinin, körpənin kölgəi sayrışırdı. Onda fikirləşirdim ki, Allah üstün gəlib. İndi isə bilmirəm. Körpəni Millinin yanında yatağa qoydu və otaqdan çıxdı. Sonra qapıdan çıxıb harasa getdiyini eşitdim, yerdən qalxıb sobanı yandırdım, süd qızdırmağa başladım...

Qadın susur; onun qaba, hörültülü səsi öləziyib kəsilir. Haytauer stolun üstündən ona baxır: tünd-qırmızı paltarlı bu daşsifət qadın içəri girəndən bəri bir dəfə də olsun yerindən tərpəşməyib, əvvəldən necə oturmuşdusa, eləcə də qalıb. Sonra yenidən danışmağa başlayır, yenə hərəkətsizdi, dodaqları belə tərpəşmir, elə bil, cansız oyuncaqdı, səsi isə, sanki, hardansa, qonşu otaqdan gəlir.

– Sonra Yufus xəbərsiz-ətərsiz yox oldu. Hara getdiyini zavod sahibi də bilmirdi. Başqa bir usta tutdu, ancaq məni evdən qovub çıxarmadı, çünki Yufusun harda olduğunu bilmirdik, qarşıdansa qış gəlirdi, qucağımda da körpə uşaq vardı. Mister Gilman kimi mən də Yufusun harda olduğu barədə heç nə öyrənə bilmədim. Ta ki məktub gələnəcən. Məktub Memfisdən gəlmişdi, içində ancaq poçtla göndərilən pul kağızı vardı, üstünə bir kəlmə də söz yazılmamışdı. Yəni, yenə heç nə öyrənə bilmədim. Sonra, noyabrda daha bir pul kağızı gəldi, o da məktubsuzdu. Tamam əldən düşmüşdüm... Milad bayramına iki gün qalmış arxa həyətə çıxıb odun doğrayandan sonra içəri qayıdanda körpəni evdə tapmadım. Bayıra çıxdığım ən çoxu bir saat olardı, ancaq necə olmuşdusa, onun nə evə girdiyini, nə də ordan çıxdığını görə bilməmişdim. Gərək görəydim. Yufus yastığın üstünə kiçik bir məktub atıb getmişdi, o yastığı mən çarpayının qırağına qoymuşdum ki, körpə yerə yıxılmasın... Elə əldən düşmüşdüm ki. Hey oturub gözləyirdim, Milad bayramından sonra Yufus gəlib çıxdı, amma mənə heç nə izah eləmədi. Bircə onu dedi ki, köçürük, fikirləşdim ki, yəqin, körpəni qabaqcadan aparıb, indi mənim dalımca qayıdıb. Heç hara köçdüyümüzü də bilmirdim, yalnız çox uzaq olmadığını dedi, mənsə həyəcandan, az qala, dəli olmuşdum: körpə bizsiz, təkbaşına orda neyləyir; o isə bu barədə bircə kəlmə də danışmırdı, elə bilirdim heç vaxt ora gedib çıxmayacağıq. Axır ki, gedib çıxdıq, körpə orda da yox idi, mən ona “De görüm, sən mənim Comu neynəmisən?” dedim, o isə o gecə Milli yataqda can verərkən ona baxdığı kimi mənə baxıb qışqırdı: “O uşaq Allahın nifrətidir, mənsə Onun iradəsini yerinə yetirən bir alət”. Səhəri gün yenə yox oldu, hara getdi, bilmədim, sonra yenə pul kağızı gəldi, o biri ay isə özü gəlib çıxdı, dedi ki, Memfisdə işləyir. Başa düşdüm ki, o, Conu hardasa, Memfisdə gizlədib; fikirləşdim ki, bəlkə də, belə yaxşıdı, yaxşı-pis, heç olmasa, özü orda ona baxır – axı mənim əlim ona çatmır. Bilirdim ki, gözləmək

lazımdı, o özü mənə deyənəcən gözləmək lazımdı, hər dəfə də buna ümid eləyirdim ki, yəqin, gələn dəfə məni də özüylə Memfisə aparacaq. Beləcə, gözləyirdim. Tikişlə məşğul olur, Co üçün xırda paltarlar tikirdim; hər dəfə Yufus gələnəcən onların hamısını hazır eləməyə, körpə Comun əyninə necə yaraşdığını, onun orda xəstə olub-olmadığını soruşub bilməyə çalışırdım, o isə heç nə demirdi. Elə olurdu ki, gəlib oturur, Bibliyanı əlinə alıb, ucadan oxumağa başlayırdı, halbuki onu məndən başqa dinləyən yox idi; bərkdən, az qala, qışqıra-qışqıra oxuyurdu, sanki, mənim Bibliyada deyilənlərə heç bir inamım olmadığını düşünürdü. Düz beş il mənə heç nə demədi, heç mən onun tikdiyim şeyləri Coya aparıb-aparmadığını da dəqiq bilmirdim. Soruşmağa qorxurdum, onu qəzəbləndirmək istəmirdim, fikirləşirdim ki, demir-deməsin, mənim əlim çatmasa da, heç olmasa, özü Conun yanındadır. Beləcə, beş il gəlib-keçdi, bir gün evə gələndə dedi: "Burdan köçürük". Fikirləşdim ki, nəhayət, indi onu görəcəm; əgər bir günahımız var idisə, biz artıq onun cəzasını artıqlaması ilə çəkmişdik, hətta mən özüm belə Yufusu bağışladım. Çünki elə bilirdim, bu dəfə, axır ki, Memfisə gedirik. Ancaq Memfisə getmədik. Motstauna yollandıq. Memfisdən keçib-getməli olduq, yol boyu ona yalvarmağa başladım. Yolun başında elə hey yalvarırdım. Yalvarırdım ki, heç olmasa, bir dəqiqəliyə, bir saniyəliyə onu mənə göstərsin; heç əl də vurmayacam, heç danışdırmayacam da – sadəcə, üzünü görüm. Yufus isə buna imkan vermədi. Stansiyadan kənara çıxmadıq. Qatardan düşdük, yeddi saat o biri qatarı gözlədik, bu qədər vaxt ərzində stansiyadan bir addım belə kənara atmadıq, Motstauna gəldik. Yufus isə bir daha Memfisə işləməyə qayıtmadı, bir müddətdən sonra mən ona dedim: "Yufus". O, üzümə baxdı, yenə dedim: "Mən düz beş il gözlədim, heç vaxt sənin zəhləni tökmədim. İndi, heç olmasa onun sağ olub-olmadığını de". O isə cavabında dedi: "Sağ deyil"; Mən bir də soruşdum: "Həyatda sağ deyil, yoxsa mənim üçün? Mənimçün sağ deyilsə, qoy olmasın. Sən mənə bircə bunu de, mən ki, beş ildi sənin zəhləni tökməmişəm". O isə dedi: "Nə sənin üçün, nə mənim üçün, nə Allah, nə də Allahın bütün bu işıqlı dünyası üçün o sağ deyil, heç vaxt da sağ olmayacaq".

Qadın yenidən susur. Haytauer stolun üstündən sakit, ümidsiz bir heyrətlə ona baxır. Bayron da yerində donub-qalıb, başı azca aşağı enib. Onlar üçü də sahil sularının yuyub çılpaqlaşdırdığı üç sahil daşı kimi tərpənməzdilər; yalnız onlar, amma qoca yox. İndi o, demək olar ki, diqqətlə dinləyir; hərçənd tam diqqətli olduğu anlarda belə adama elə gəlir ki, o, heç nə eşitmir; yarıbayğın, bihuş halda olanda isə çox güman ki, içərisinə yönəlmiş baxışları adamı elə sıxışdırır ki, elə bil, əlindən tutub dartır; sanki, bu adamda müstəsna bir bacarıq – bu iki haldan bir-birinə bir göz qırpımında keçmək qabiliyyəti var. Birdən-birə gümrah, gur, sərsəm bir qaqqıltı ilə qəhqəhə çəkməyə başlayır; inanılmaz dərəcədə qoca, inanılmaz dərəcə çirkli olan bu adam danışmağa başlayır:

– Bu, Allahın özüydü. Bu *O* idi. Qoca Dok Hayns da Allaha yardımçı oldu. Nə etmək lazım olduğunu qoca Dok Haynsa Cənabı Allahın özü dedi, qoca Dok Hayns da Onun dediyini elədi. O vaxt Cənabı Allah qoca Dok Haynsa dedi: "İndi sən izlə. İzlə gör, Mənim iradəm necə yerinə yetirilir." Qoca Dok Hayns da izlədi və körpə uşaqların, Allahın yetimlərinin dilindən eşitdi, bunu onların dilinə, ağlına Allah Özü salmışdı, çünki onlar hələ pak körpə uşaqlardı, hətta aralarındakı qızlar belə hələ günah və rəzilliyin tamını dadmamışdılar: "Zənci! Zənci!" Bu, günahsız körpələrin dilindən faş oldu. "Mən sənə nə demişdim?" – Cənabı Allah qoca Dok Haynsa dedi. "Artıq mən Öz iradəmin icrasına qərar verdim, Mən artıq gedirəm. Artıq burda elə bir günah qalmayıb ki, Mən onunla məşğul olum, çünki pozğun qadın əxlaqsızlığından Mənə nə?! Hərçənd elə bu da Mənim məqsədimə xidmət edir". Qoca Dok Hayns isə soruşdu: "Necə, bəyəm pozğun qadın əxlaqsızlığı da Sizin məqsədinizə xidmət edir?" Allah isə dedi: "Gözlə, görəcəksən. Elə bilirsən, Milad gecəsində Mən o gənc həkimi artırmaya təsadüfən çıxarmışdım ki, Mənim nifrətimi, o adyala bükülmüşü orada tapsın? Elə bilirsən, müdirə təsadüfən həmin gün işə çıxmamışdı ki, cavan pozğun qadınlar ona Kristmas adını qoyub, Mənim oğlumu təhqir etsinlər? İndi Mən gedirəm, çünki Öz iradəmi artıq işə salmışam, səni isə burda buna göz qoymaq üçün saxlayıram". Və qoca Dok Hayns gözlədi, ona göz qoydu. Allahın qazanxanasından o uşaqlara, onların arasında olan, amma onların bilmədiyi, torpağın belə murdar bir ləkə kimi üz döndərdiyi, o sözlə damğalanmış bu ikiayaqlı şeytan toxumuna daim göz qoydu. Çünki o daha başqa uşaqlarla bir yerdə oynamırdı. Tək-tənha, sakitcə bir kənarda dayanırdı, bax onda qoca Dok Hayns hər şeyi başa düşdü; başa düşdü ki, o, Allah cəzası haqda gizli xəbərdarlığı dinləyir və qoca Dok Hayns ona dedi: "Niyə sən əvvəlki kimi o biri uşaqlarla bir yerdə oynamırsan?" O susub heç nə demədi, qoca Dok Hayns ona dedi: "Ona görə ki, sənə "zənci" deyirlər?" O, yenə susdu, qoca Dok Hayns dedi: "Sən ona görə özünü zənci hesab edirsən ki, Allah sənin sifətində bunu işarə edib?" O isə dedi: "Allah da zəncidi?" Bu zaman qoca Dok Hayns ona bunları dedi: "O, bütün qəzəbli ağaların Cənabı Allahıdır, Onun iradəsi gerçəkləşəcəkdir. Nə sənindir, nə mənim, çünki sən də, mən də Onun məqsədinə, Onun intiqamına xidmət edirik". Və o çıxıb getdi, qoca Dok Hayns isə onun Allahın qisasçı iradəsini necə eşitdiyinə, necə dinlədiyinə göz qoydu, qoca Dok Hayns onun həyətdə çalışan zəncini necə izlədiyini gördü; zənci iş vaxtı hara gedirdisə, o da dalınca düşür, ona baxırdı, ta o vaxtacan ki, zənci bezib ona dedi: "Ay oğlan, nədi mənə gözətçilik edirsən?" O isə ondan soruşdu: "Necə olub ki, sən zəncisən?" Zənci ona dedi: "Kim sənə deyib ki, mən zənciyəm, ağ küçük balası?" O isə dedi: "Mən zənci deyiləm". Zəncisə dedi: "Sən ondan da pissən. Çünki kim olduğunu bilmirsən. Ən betəri də budu ki, bunu heç vaxt bilməyəssən. Yaşayassan, öləssən, amma heç vaxt bilməyəssən". O isə dedi: "Allah zənci deyil". Zəncisə ona dedi: "Məncə, Allahın kim olduğunu sən daha yaxşı bilərsən, çünki sənin kim olduğunu tək bir Allah bilir". Ancaq Allah demədi, O

orda yox idi, çünki Öz iradəsinin icrasını nizama salıb, ona nəzarət etməyi qoca Dok Haynsa tapşırmışdı. Öz Oğlunun müqəddəs ildönümündə bu iradənin icrasını nizama saldığı ilk gecədən ona nəzarəti qoca Dok Haynsa həvalə etmişdi. Çox soyuq gecəydi, qoca Dok Hayns artırmanı və Allahın iradəsinin icrasını yaxşı görə bilmək üçün qaranlıqda lap yaxın tində dayanmışdı, əxlaqsızlıq və şəhvət girdabına bulaşmış o gənc həkimin ayağa qalxıb, aşağı əyilib, Allahın o nifrətini yerdən götürüb içəri apardığını gördü. Qoca Dok Hayns onun dalınca getdi, hər şeyi gördü, eşitdi. Müdirə gəlib çıxmamış, Allahın müqəddəs ildönümünü romlu, şərablı yumurta kökəsi və viskiylə murdarlayan həmin o əxlaqsız qadınların adyalı necə açdıqlarını da gördü. Və o qadın – həkimlərin Cezebeli, Allahın başqa bir aləti olan o qadın dedi: "Adını Kristmas qoyaq". Digəri isə dedi: "Kristmas – sonra nə? Kristmas – sonra nə?" və Allah qoca Dok Haynsa buyurdu: "Onlara de"; və onların hamısı nəfəslərindən rəzalət yağa-yağa qoca Dok Haynsa baxdılar və çığırışdılar: "Bu ki, Dok dayıdı. Dok dayı, buna bax, gör Santa Klaus bizə nə gətirib, pilləkənin üstündə qoyub gedib". Dok dayı isə dedi: "Onun adı Cozefdi" və onda hamısı gülməyini kəsdi, təəccüblə qoca Dok Haynsa baxdılar, o qadın, həkimlərin Cezebeli dedi: "Siz hardan bilirsiniz?" Qoca Dok Hayns isə cavab verdi: "Allah belə buyurur". Onda hamısı təzədən gülüşməyə başladı, bağırışdılar: "Elə Kitabda da belədir: Conun oğlu Kristmas, Conun oğlu Co. Co Kristmas". Sonra da dedilər: "Co Kristmasın şərəfinə" və qoca Dok Haynsı da Allahın nifrəti şərəfinə içməyə məcbur etmək istədilər, amma o onların qədəhlərini geri itələdi. Ona yalnız gözləmək və göz qoymaq lazım idi, gözlədi də; şərin şərdən çıxması üçün Allahın təyin etdiyi vaxt gəlib çatdı. Həkimlərin Cezebeli öz şəhvət yatağından qalxan kimi hələ günah və qorxu üfunətindən arınmamış birbaş qaçıb üstümə gəldi. "O, çarpayının altında gizlənmişdi", – dedi, qoca Dok Hayns ona dedi: "Bu ətirli, şirnikdirici sabundan öz xoşunla öz ziyanına özün istifadə eləmisən, Allahın nifrətinə, lənətinə tuş gəlmisən. Öz cəzandı, çəkməlisən"; o isə dedi: "Siz onunla danışa bilərsiniz. Onunla necə söhbət etdiyinizi özüm görmüşəm. Siz onu yola gətirə bilərsiniz"; qoca Dok Hayns isə ona dedi: "Sənin zina işlərinə baş qoşmağa nə vaxtım, nə də həvəsim var, Allahın isə məndən betər". O isə dedi: "O bunu hamıya yayacaq, məni işdən qovacaqlar. Rüsvay olacam". Qadın şəhvət və zina iyi verə-verə qoca Dok Haynsın önündə dayanmışdı, Allahın ona qarşı iradəsi icra olunurdu, çünki Allahın öz atasız və anasız yetimlərinə sığınacaq verdiyi evi murdarlamışdı. "Sən heç nəsən, – qoca Dok Hayns dedi, – sən və bütün pozğun qadınlar. Siz hamınız Allahın qəzəbli məqsədi üçün adi alətlərsiniz, o məqsədsiz bir sərçə belə yerə qona bilməz. Sən, onsuz da, Allahın adi bir alətisən, Co Kristmas kimi, qoca Dok Hayns kimi". O çıxıb getdi, qoca Dok Hayns isə gözləyir, göz qoyurdu və tezliklə o, yenə gəldi, sifəti qəddar səhra vəhşisinin sifətinə dönmüşdü. "Mən ona yer tapdım, burdan göndərdim", – dedi, qoca Dok Hayns isə ona dedi: " Necə yəni, mən göndərdim?" Çünki o, qoca Dok Haynsa heç bir yeni xəbər gətirməmişdi, çünki Cənabı Allah Öz məqsədini Özü seçdiyi alətindən gizli

saxlamamışdı və qoca Dok Hayns dedi: “Sən artıq Allahın öncədən cızdığını yerinə yetirmisən. İndi sakitcə çıxıb gedə bilərsən, gedib öz murdar əməllərini Məhşər gününədək davam etdirə bilərsən”. Onun sifəti qəddar səhra vəhşisinin sifətinə dönmüşdü, ucadan qəhqəhə çəkərək öz boyalı murdar çirkabını Allahın üstünə tökdü. Və gəldilər, o şeytan toxumunu ordan apardılar. Qoca Dok Hayns onu arabada necə apardıqlarını öz gözləriylə gördü, gedib yenidən Allahı gözlədi. Allah da gəlib qoca Dok Haynsa dedi: “İndi sən də get. Burda artıq qadın şərindən başqa heç bir şər qalmayıb, o da buna dəyməz ki, Mənim seçdiyim alət ona göz qoymaqla, onu izləməklə məşğul olsun”. Allah ona get deyən kimi Qoca Dok Hayns da çıxıb getdi. Ancaq Allahla əlaqə saxladı, bir gecə Ona dedi: “Bəs o küçük, İlahi?” – Allah dedi: “O hələ Mənim torpağım üzərində gəzir.” Və qoca Dok Hayns Allahla əlaqə saxladı, bir gecə Ona dedi: “Bəs o küçük, İlahi?” Allah dedi: “O, hələ Mənim torpağım üzərində gəzir”, – və qoca Dok Hayns Allahla əlaqə saxladı, bir gecə özünü yırtdı, dağıtdı, bərkdən qışqırdı: “Bəs o küçük, İlahi? Mən hiss edirəm! İti dişləri, iti caynaqları çox yaxında hiss edirəm!” Allah dedi: “Bu odu, o küçükdü. Sənin işin hələ bitməyib. O Mənim torpağım üçün əsl rəzalət və iyrənclik mücəssəməsidi”.

Uzaq kilsədən gələn musiqi sədaları çoxdan susub. Açıq pəncərədən yalnız yay gecəsinin dinc və saysız-hesabsız civiltiləri eşidilir. Haytauer stol arxasında əyləşib, indi o qaçarkən yalan və hiylə ilə tutulub saxlanılan yör-yöndəmsiz vəhşi heyvana həmişəkindən daha çox bənzəyir: budur, indi onu aldadıb tora salanların özləri faş olub tələyə düşüblər. Qalan üç nəfərin üçü də üzünü, sanki, hakimmiş kimi ona tutub oturub. Onlardan ikisi heykəl kimi tərpənməzdi: daşsifət, intizar içində gözləyən qaya kimi səbirli qadın və odu amansızcasına söndürülən şam fitili kimi yanıb kösövə dönmüş kişi. Bircə Bayron diri görünür. Sifəti aşağı sallanıb. Bəlkə də, gözü dizlərinin üstünə qoyduğu əllərinə baxır; baş barmağı ilə şəhadət barmağı yavaş-yavaş bir-birinə sürtülür, sanki, nəyinsə sarığını açır; sanki, başı buna qarışdığından gözünü ondan çəkmir. Haytauerin səsini eşidən kimi Bayron anlayır ki, keşiş ona müraciət etmir, ümumiyyətlə, dedikləri burdakıların heç birinə ünvanlanmayıb.

– Onlar məndən nə istəyirlər? – o deyir. – Nə istəyirlər, nəyə ümid edirlər, onların fikrincə, mən nə edə bilərəm?

Cavabında heç kimdən səs çıxmır; görünür, nə qarı, nə də qoca onu eşitmədi. Bayron qocanın eşidəcəyini, onsuz da, güman etmir. “Ona heç bir kömək lazım deyil”, – o fikirləşir. “Yox, ona heç cür kömək etmək olmaz. Ona mane olmaq lazımdı”, – o fikirləşir, rastlaşdıqları andan bu yana düz on iki saatdır, öz arvadıyla birlikdə bir yerdən o birinə sürünən bu qocanın yarıbayğın, eyni zamanda manyakcasına gərgin vəziyyətdə olduğunu xatırlayır. “Ona mane olmaq lazımdı. Onun bu qədər əlacsız, köməksiz olması bu qadından savayı hələ çox adamın xeyrinədir”. O, diqqətlə qadına baxır. Sakitcə, demək olar ki, nəvazişlə deyir:

– Davam eləyin. Nə istədiyinizi ona deyin. O sizin ondan nə istədiyinizi bilmək istəyir. Deyin ona.

– Mən fikirləşirdim ki... – qadın danışmağa başlayır. Yerindən tərpənmədən danışır. Səsi inamsız olmaqdan daha çox xırıltılıdır, sanki, onu nəsə, nitq hüdudlarından kənarda olan, yalnız bilinə və hiss edilə bilən bir şeyi deməyə məcbur edirlər. – Mister Banç dedi ki, bəlkə...

– Nə? – Haytauer soruşur. Sərt, hövsələsiz, bir qədər cır səslə danışır; o da yerindən tərpənmir, kresloda yayxanıb, əlləri onun qoltuqları üstündədir. – Nə? Bəlkə nə?

– Mən fikirləşirdim ki... – Səs yenidən kəsilir. Pəncərədən cücülərin civiltisi eşidilir. Səs yenidən dirçəlir, ifadəsiz, tutqundu; qadın da başını aşağı sallayaraq oturub, sanki, diqqətlə, sakitcə öz səsinə qulaq asır. – O mənim nəvəmdi, qızımın oğludu. Mən yalnız fikirləşirdim ki, əgər mən... əgər o... – Bayron sakitcə qulaq asır, fikirləşir *Qəribədir, Allah haqqı. Belə baxanda elə bilərsən ki, bunlar bir-biriylə yer dəyişdiriblər. Sanki, bu qadının deyil, məhz qocanın zənci nəvəsini asmalıdılar* Səs sözünə davam edir: – Bilirəm, tanımadığın adamı narahat etmək yaxşı iş deyil. Ancaq siz xoşbəxt adamsınız. Subay, tənha kişi xeylağı, heç bir sevgi acısını dadmadan rahat yaşayıb qocalmış bir adamsınız. Mən nə qədər yerli-yataqlı danışsam da, yəqin ki, siz, onsuz da, heç nə anlamayacaqsınız. Ancaq bunu fikirləşirdim ki, ola bilərmi, bircə günlüyə də olsa, sanki, bu iş baş verməmiş olsun. Sanki, insanlar onu heç vaxt o cür – qatil adam kimi tanımayıblar,... – Səs yenidən susur. Qadın yerindən tərpənmir. Elə bil, bayaq öz səsinə qulaq asdığı kimi indi də araya çökən sükuta elə həmin maraqla, o cür sakitcə və təəccübsüz qulaq asır.

– Davam eləyin, – Haytauer səbirsiz uca səslə deyir, – davam eləyin.

– Axı mən onu gördüyüm vaxtlar hələ nə yeriyə, nə də danışa bilirdi. Otuz ildi onu görməmişəm. Demirəm ki, o, belə bir şey, yəni bu adamların dediyini eləməyib. Demirəm ki, o cəza almamalıdır, öz doğmalarını sevən və itirən adamları iztirab çəkməyə necə məcbur edibsə, o özü də o cür əzab, iztirab çəkməlidir. Ancaq heç olmasa, bircə günlüyə buraxa bilsəydilər... Sanki, heç nə olmayıbmış kimi. Adamların ona qarşı heç bir kini-küdurəti yoxmuş kimi. Sadəcə çox uzun müddətə harasa səfərə çıxıbmış, bu vaxt ərzində böyüyüb, ərsəyə çatıb, geri qayıdıbmış kimi.... Heç olmasa, bircə günlüyə belə olsaydı. Sonra mən heç nəyə qarışmazdım. Əgər o bu işi tutubsa, mən onu necə müdafiə edə bilərəm, cəzadan necə qurtara bilərəm? Yalnız bircə günlüyə, başa düşürsüz? Elə bil, çox uzun müddətə harasa səfərə çıxıbmış, indi geri qayıdıb, mənə o səfərindən danışır və heç kimin də ona qarşı zərrə qədər kini-küdurəti yoxdu.

– Hə-ə, – Haytauer yüksək, sirayətedici səslə danışmağa başlayır. O heç bir hərəkət eləmir, kreslonun qoltuqlarını bərkdən sıxan əlləri gərginlikdən ağappaq ağarıb, ancaq paltarın altındakı bədənin yavaş-yavaş əsməcə tutduğunu, onun bu əsməcəni zorla ram etməyə çalışdığı aydın görünür. – Deməli, belə, – o deyir. – Hamısı buymuş. Bu, belə asanmış. Asanmış. Asanmış. –

Çox güman ki, dayana bilmir. – Asanmış. Asanmış. – Əvvəlcə sakit danışırdı, indi isə sanki, qışqırır. – Bunlar məndən nə istəyirlər? İndi mən neyləməliyəm? Bayron! Bayron! İndi bunlar üçün mən nə etməliyəm? – Bayron ayağa qalxır. Stolun kənarında dayanıb, əllərini onun qırağına qoyaraq, üzünü Haytauerə tərəf çevirib. Haytauer əvvəlki kimi yerindən tərpənmir, yalnız lırt gövdəsi əsməcədən getdikcə daha möhkəm titrəməyə başlayır. – Deməli belə. Necə olub ki, mən əvvəlcədən anlamamışam. Axı bunu Bayron xahiş edəcək. Necə olub ki, mən bunu əvvəlcədən anlamamışam. Bu işi Bayronla mənim alnıma yazıblar. Buyurun, buyurun. Sözünüzü deyin. Niyə belə özünüzü itirmisiniz?

Bayron stola, stolun üstündəki əllərinə baxır.

– Heç yaxşı olmadı. Heç yaxşı olmadı.

– Hə-ə. Təsəlli verirsiniz. Gec deyil ki? Bu təsəlliniz mənim üçündü, yoxsa Bayron üçün? Bəs siz məndən nə istəyirsiniz? Axı bu sizsiniz. Mən dərhal başa düşdüm. Ah, Bayron, Bayron. Sizdən əla rejissor çıxarmış.

– Bəlkə, siz kommivoyajör, ticarət agenti, dəllal demək istəyirdiniz, – Bayron deyir. – Heç yaxşı olmadı. Mən özüm də bunu bilirəm. Siz deməsəniz də, bilirəm.

– Ancaq mən ki sizin kimi bəsirətli, hər şeyi əvvəlcədən görüb bilən adam deyiləm. Deyəsən, siz mənim sizə nə deyəcəyimi qabaqcadan bilirsiniz, özünüz isə mənə nə çatdırmaq istədiyinizi demək istəmirsiniz. Axı siz məndən nə istəyirsiniz? Gedib bu qətli öz boynuma götürüm? Hə?

Bayronun sifəti bir anlığa dəyişir – çöhrəsinə zəif, istehzalı, yorğun, bir az da qəmgin ifadə çökür.

– Təxminən, belə bir şey. – Sonra sifəti düzəlir; indi çox ciddiləşib. – Əlbəttə, belə bir şeyi xahiş etmək heç də yaxşı iş deyil. Allah özü şahiddir ki, mən bunu çox yaxşı başa düşürəm. – Stolun kənarı ilə yavaş-yavaş, demək olar ki, özündən asılı olmadan hərəkət edən əlinə baxır. – Yadımdadır, mən sizə bir dəfə demişdim ki, yaxşı olmaq elə pis olmağın özü kimi insana heç də havayı başa gəlmir; bunun da əvəzini ödəmək lazımdır. Haqq-hesab tələb olunanda məhz yaxşı adamlar onu ödəməkdən imtina edə bilmirlər. Ona görə imtina edə bilmirlər ki, onları heç cür bu haqq-hesabı zorla ödəməyə məcbur etmək olmaz – onlar, bir növ, düz, vicdanlı qumarbaz kimidilər. Pis adamlar isə imtina edə bilərlər; çünki, onsuz da, heç kim onların bu haqq-hesabı dərhal, yaxud ümumiyyətlə, haçansa ödəyəcəklərinə ümid eləmir. Yaxşılar imtina etməyi bacarmırlar. Bəlkə də, yaxşılar pislərdən daha çox, daha sürəkli ödəməli olurlar. Sizin üçün isə bu, ilk dəfə deyil, axı siz, təxminən, belə bir hesabı bir dəfə ödəməli olmusunuz. Ondakına baxanda bu dəfə o qədər də çətin olmamalıdı.

– Davam eləyin. Davam eləyin. Deyin, mən nə etməliyəm?

Bayron fikirli-fikirli gözlərini yavaş-yavaş, dayanmadan hərəkət edən əlinə zilləyib.

– Axı, o bu qadını öldürdüyünü, onsuz da, boynuna almayıb. Onların da Braunun dediklərindən savayı elə bir ciddi sübutu yoxdu – o da bir qəpiyə dəyməz. Siz deyə bilərsiniz ki, həmin gecə o burda, sizin yanınızda olub. Elə o biri – Braunun, guya, onun gedib o böyük evə girdiyini gördüyü gecələr də. Adamlar sizə inanacaqlar. İstər-istəməz inanacaqlar. Onun o qadınla ər-arvad kimi yaşayıb sonra da onu öldürməyindən daha çox, sizin barənizdə eşitdikləri daha tez ağıllarına batacaq. Bir də ki siz artıq xeyli qocasınız. İndi onlar sizə elə bir ciddi xətər yetirməzlər. Başqa nə eləsələr də, məncə, bunun elə bir anlamı olmayacaq, siz artıq belə şeylərə çoxdan öyrəncəlisiniz.

– Hə-ə, – Haytauer deyir. – Əlbəttə. Əlbəttə. Onlar inanarlar. Bu çox asan, çox yaxşı işdi. Hamı üçün yaxşıdı. Belə olan halda o, əzab və iztiraba düçar etdiyi adamların içinə qayıdar; mükafatsız qalan Braunu isə uşağın ona məxsus olduğunu boynuna qoymaqla qorxutmaq mümkündü, onda o, yenə də qaçıb itər – özü də bu dəfə həmişəlik. Sonra bir o qadın qalar, bir də Bayron. Mənsə kimin nəyinə lazımam, adi bir qocayam – bu yaşa qədər sevgi acısını dadmadan yaşamaq xoşbəxtliyi nəsib olmuş adi bir qoca. – Onu şiddətli, aramsız əsməcə tutur; başını yuxarı qaldırır. Çıraq işığında sifəti işıldayır, elə bil, nəyləsə yağlanıb. Qəzəbdən əyilib öz cizgilərini itirmiş sifət çıraq işığında par-par parıldayır; səhər tezdən şux görünən solğun, təmiz köynək indi tərdən yaşarıb. – Ona görə yox ki, bunu bacarmıram, buna cəsarət eləmirəm, – o deyir, – ona görə ki, istəmirəm! İstəmirəm! Eşidirsiniz? – Əlləri qoltuqlardan aralanır. – Ona görə ki, mən bunu eləmək istəmirəm! – Bayronun bircə əzası belə tərpənmir. Əli stolun qırağında donub-qalıb; Haytauerə baxa-baxa fikirləşir *O mənə qışqırmır. Deyəsən, kimsə başqa birini, ona məndən də yaxın olanı buna inandırmaq lazım gəldiyini özü yaxşı bilir* Çünki Haytauer artıq var gücüylə bağırır: – İstəmirəm! İstəmirəm! –Yumruqları havaya qalxıb, sifətindən tər süzülür, sarı-bozumtul dərinin lırt, sallaq qırışları genişlənib; bir-birinə möhkəm sıxılmış çürük dişlər bayırda qalıb. Birdən onun səsi daha da yüksəlir: – Rədd olun! – Haytauer çılğıncasına çığırır. – Rədd olun mənim evimdən! Rədd olun mənim evimdən! – Və yumruq-larını qabağa atıb üzü üstə stola sərilir. Qoca ərlə arvadın arxasınca qapıdan çıxarkən Bayron bir anlığa çevrilib geriyə baxır, Haytauerin ölü kimi tərpənmədiyini, elə o vəziyyətdə, daz başının, möhkəm sıxılmış yumruqlarının qalpaqlı lampa işığı altında stolun üstünə düşüb qaldığını görür. Açıq pəncərənin çöl tərəfində cücülərin civiltisi hələ də susmayıb, bir an belə kəsilmir.

Bu, bazar günü axşam olmuşdu. Səhər tezdən isə Linanın uşağı oldu. Bayron dördnala çapdığı qatırın cilovunu çəkib onu altıca saat əvvəl tərk etdiyi evin qabağında saxlayanda dan yeri təzəcə ağarırdı. Tələsik qatırın belindən yerə sıçrayıb, tanış dar cığırla qaranlıq artırmaya doğru qaçdı. Bu təlaş və tələskənliyə rəğmən ona elə gəldi ki, sakitcə kənarda dayanıb özünə tamaşa edir; sifətini turşudub təəccübsüz-filansız fikirləşdi: "Bayron Banç uşaq doğuzdurur. Əgər bunu ikicə həftə əvvəl özüm görsəydim, gözlərimə inanmazdım. Onlara deyərdim ki, yalan danışırlar".

Altı saat əvvəl keşişi tək qoyub getdiyi evin pəncərəsindən işıq gəlmirdi. Qaça-qaça qapıya yaxınlaşarkən axşam daz başın, möhkəm sıxılmış yumruqların, lırt, ağır gövdənin üzü üstə stola necə sərilib qaldığını xatırladı. "Ağlım kəsmir, bu gecə rahat uyuya bilsin, – o fikirləşir. – Ancaq əgər oyunbazlıq eləmirdisə... oyunbazlıq eləmirdisə... – Ürəyində də olsa, özü haqda "mamaça" sözünü dilinə gətirmək istəmədi, Haytauer isə hökmən bu sözü işlədərdi, bunu dəqiq bilirdi. – Hökm deyil ki, bu barədə fikirləşim, – o düşündü. – Əgər bir insan ona tuşlanmış tapançadan qaçırsa, yaxud sinəsini onun önünə verirsə, bu hərəkətinin qoçaqlıq və ya qorxaqlıq olduğu barədə düşünməyə heç cür macal tapa bilməz".

Qapı bağlı deyildi. Belə olacağını, yəqin ki, əvvəlcədən bilirdi. Şaqqıltı sala biləcəyinin fərqinə varmadan, heç bu barədə düşünmədən qaranlıq dəhlizi gözüyumulu yarıb-keçdi. Sonuncu dəfə ev sahibini qalpaqlı lampa işığı altında stolun üstünə sərilmiş halda gördüyü otaqdan savayı, bu evin heç bir yerinə bələd deyildi. Ancaq qaranlıqda ona lazım olan qapıya doğru elə əminliklə getdi ki, sanki, onun harda olduğunu ya dəqiq bilir, ya aydın görür, yaxud da kimsə bir başqası onu yönləndirirdi. "Haytauer, yəqin ki, belə deyərdi, – onu arxadan qovub tələsdirən, burda hər cür izdən, irizdən məhrum edən qaranlıqda fikirləşdi. – Elə o da. – O, indi bu saat daxmada yataqda uzanıb doğuş sancıları ilə əlləşən Linanı nəzərdə tuturdu. – Ancaq o "başqası"nı bunların hərəsi bir cür adlandırardı. Otağa girməmişdən əvvəl Haytauerin xorultusunu eşitdi. "Deyəsən axı, əhvalı elə də möhkəm pozulmayıb, – o fikirləşir. Dərhal da fikrini dəyişir. – Yox. Bu doğru deyil. Ədalətli deyil. Axı heç mən özüm də o fikirdə deyiləm. Axı onun nə üçün yuxuya gedə bildiyinin, mənimsə hələ də oyaq qaldığımın səbəbini özüm yaxşı bilirəm: o qocadır, mən cavan, o mənim qədər dözümlü ola bilməz".

Çarpayıya yaxınlaşdı. Qaranlıqda gözlə görünməyən ev sahibi möhkəm xoruldayırdı. Bu xorultuya tam və qəti təslimçilik ruhu hakim kəsilmişdi. Yorğunluq, əzginlik deyil, məhz təslimçilik, sanki, o, insana ya məğlubiyyətdən, ya da qalibiyyətdən yapışıb durmaq imkanı verən, özündə MƏN VARAM qüvvəsini cəmləşdirən, imtina edildiyi təqdirdə isə çox vaxt ölümlə nəticələnən bütün gücündən – qürurundan, ümidindən, qorxu və məğrurluğundan əl çəkib, onu möhkəm düyünlənmiş bir yumruğa tərk etmişdi. Bayron çarpayının yanında dayanarkən yenə fikirləşdi *Yazıq. Yazıq adam* Ona elə gəldi ki, əgər indi qocanın yuxusunu

pozsa, bu, indiyəcən ona vurduğu ən ağır yara olacaq. "Ancaq gözləyən mən deyiləm axı, – o fikirləşdi. – Allah özü şahiddi buna. Yəqin, ona görə ki, başqaları kimi O da axır vaxtlar mənə göz qoyur, bundan sonra nə eləyəcəyimə nəzər yetirir".

Yatan adama toxundu – bərkdən yox, amma qətiyyətlə. Haytauerin xorultusu kəsildi; iri, lırt gövdə Bayronun əli altında silkinib dikəldi.

– Bəli? – o dedi. –Nə? Nə olub? Kimdi bu?

– Mənəm, – Bayron dedi. – Yenə Bayrondu. Deyəsən, ayıldınız.

– Hə. Nə…

– Hə, – Bayron dedi. – Qarı deyir ki, vaxtı çatıb. Vaxt yetişib.

– Qarı?

– Deyin görüm, işığı necə... Missis Hayns. O onun yanındadır. Mən həkim dalınca gedirəm. Amma qorxuram ki, vaxtında çatdırmayam. Qatırı sizin üçün saxlayıram. Elə bilirəm ki, siz ora mənsiz də gedib çıxa bilərsiniz. O kitab hələ sizdədi?

– Kitab? Hansı kitab?

– Zənci qadını doğuzdurarkən istifadə etdiyiniz kitab. Deyirəm, birdən lazım olar, ona görə yadınıza salmaq istədim. Birdən mən həkimi vaxtında gətirib çatdıra bilməsəm. Qatır çöl qapının arxasındadı. Yolu özü tanıyır. Mənsə şəhərə həkim dalınca gedirəm. Çalışacam ki, tez gətirim. – Geri döndü. Arxada Haytauerin qalxıb çarpayıda oturduğunu eşitdi, duydu. Otağın ortasına çatanda tavandan asılmış lampanı tapıb yandırmaq üçün ayaq saxladı. Lampa yananda artıq qapıya doğru gedirdi. Dönüb geriyə da baxmadı. Arxadan Haytauerin səsi eşidildi: "Bayron! Bayron!" O dayanmadı, heç cavab da vermədi.

Hava işıqlanırdı. Bomboş küçədə, başına hələ də mığmığalar toplaşıb vızıldaşan adda-budda fənərlərin solğun işığında yeyin addımlarla irəliləyirdi. Ancaq getdikcə hava daha sürətlə işıqlanırdı; o, meydana çatanda şərq tərəfdəki fasadların cizgiləri işıqlaşmaqda olan səmanın fonunda aydın sezilirdi. Sürətlə düşünürdü. Həkimlə qabaqcadan danışmamışdı. İndi isə yolboyu həqiqi ata kimi qorxu və qəzəb içərisində bu biabırçı, bağışlanmaz səhlənkarlığa görə özünə lənət yağdırırdı. Ancaq onun bu əndişəsi heç də yalnız atalıq hissi ilə bağlı deyildi. Bu əndişənin arxasında hələ onun özünə də aydın olmayan nəsə, başqa bir şey də vardı. Tələsmək zərurəti ilə pərdələnmiş bu şey, sanki, əqlin dərin bir qatında pusquda dayanıb fürsət düşən kimi irəli şığımağa, onu caynaqları arasına alıb sıxmağa hazırlaşırdı. Ancaq hələlik bunu fikirləşirdi: "Cəld bir qərara gəlmək lazımdı. Deyirlər, o zənci qadın doğarkən bu onun uşağını qaydasında qəbul edib. Amma indi məsələ başqa cürdü. Gərək keçən həftə bu işi görəydim, həkimlə qabaqcadan görüşüb danışaydım, elə olsaydı, indi bu son dəqiqədə kiməsə nəyisə izah etmək, ev-ev gəzib buna razı olan, məcbur qalıb uyduracağım yalanlara inanan adam axtarmaq lazım gəlməzdi. Lənət şeytana, doğrudanmı, mənim kimi son vaxtlar bu qədər yalan danışmağa məcbur olan bir

adam indi elə bir şey tapıb uydura bilməyəcək ki, ona hər kəs inansın – istər qadın, istərsə də kişi. Ancaq deyəsən, bacarmayacam. Görünür, bu iş – inandırıcı tərzdə yalan danışmaq mənlik deyil". Yeyin-yeyin, sürətlə yeriyirdi, addımlarının səsi bomboş küçədə yalqızcasına əks-səda verirdi; özü dərk etməsə də, qərar artıq qəbul olunmuşdu. Onun üçün bunda nəsə bir qəribəlik, ya da gülməli bir şey yox idi. Bu qərar ağlına həddən artıq sürətlə gəldi, onu tam dərk etməyə macal tapmamış elə o sürətlə də beyninə həkk olundu; ayaqları artıq o qərarı yerinə yetirirdi. Onu, zənci uşağı doğularkən vaxtında gəlib çıxa bilməyən həkimin evinə apardı; məhz elə o zaman Haytauer məcbur qalıb o uşağı ülgüc və kitabın köməyi ilə qəbul etmişdi.

Həkim bu dəfə də gecikdi. O geyinənəcən Bayron gözləməli oldu. Artıq xeyli qocalmış, vasvasılaşmış bu adam belə erkən saatda yuxudan oyadılmağından o qədər də məmnun qalmamışdı. Sonra o, dəmir yeşikdə saxladığı maşın açarını axtarmağa başladı, elə yeşiyin öz açarı da o qədər tez tapılmadı. Kilidini qırmağa isə o, Bayrona icazə vermədi. Bu minvalla, onlar daxmaya gəlib çatanda şərq tərəf artıq qızılı rəngə boyanmışdı, şıltaq yay günəşi doğmaq üzrəydi. Və ötən müddət ərzində xeyli qocalmış olan bu iki adam daxmanın qapısı önündə yenidən üz-üzə gəldi, yenə də peşəkar həvəskara uduzdu – çünki həkim astanaya ayaq basan kimi içəridən körpə çığırtısı eşidildi. Həkim gözlərini qıyıb əsəbi halda keşişə baxdı. "Bəli, cənab həkim, – keşiş dedi. – Nahaq yerə Bayron sizi çağıracağını mənə qabaqcadan deməyib. İndi evdə rahatca yatmış olardım.

Həkim keşişin böyründən keçib qapıya tərəf üz tutdu.

– Deyəsən, bu dəfə işiniz o səfərkindən uğurlu olub, odəfəki məsləhətlərin sizə xeyri dəyib. Amma sir-sifətiniz elə gündədi ki, elə bil, sizin özünüzə həkim lazımdı. Ya da bir fincan qəhvə.

Haytauer cavabında nəsə dedi, ancaq həkim onu dinləmədən yoluna davam etdi. Otağa girdi, qatlama çarpayıda ona tanış olmayan, halsız, bənizi qaçmış cavan bir qadın uzanmışdı, təzəcə doğulmuş körpəni dizləri üstünə almış tünd-qırmızı paltarlı bir qarı onun yanında oturmuşdu – o da ona tanış deyildi. Qaranlıq küncdəki başqa bir çarpayıda isə qoca bir kişi yatmışdı. Onu görəndə həkim öz-özünə dedi ki, bu adam lap ölüyə oxşayır, çünki o cür ağır, dərin yuxuya getmişdi. Ancaq qocanı dərhal, içəri girən kimi görmədi. Əvvəlcə körpəni dizləri üstündə saxlayan qarıya yaxınlaşdı.

– Belə-belə işlər, – dedi. – Görünür, Bayron bərk həyəcanlanıb. O mənə demədi ki, bütün ailə, hətta baba da, nənə də burda olacaq.

Qarı çevrilib ona baxdı. Həkim fikirləşdi: "Oturmuş halda olsa da, bu qarı da elə o qoca kimi heç diri adama oxşamır. Hətta, deyəsən, nənə cəhənnəm, heç ana olduğunu da ağlı kəsmir".

– Hə, – qarı dedi.

Uşağa qısılıb, aşağıdan-yuxarı ona baxırdı. Həkim fikir verib gördü ki, onun sifəti heç də mənasız, axmaq deyil. Bu sifət ona həm dinc, həm də dəhşətli göründü; sanki, bu dinclik və dəhşət çoxdan, lap çoxdan bitib-qurtarmış, yalnız indi, yenidən, özü də qoşa doğulmuşdu. Ancaq onun gözünə sataşan başlıca şey qarının duruşu idi, onda nəsə daşa və eyni zamanda yerə sinmiş vəhşi heyvana xas bir xislət vardı. Qarı başı ilə yatmış qocanı göstərdi; həkim ilk dəfə baxışlarını onun yatdığı çarpayıya dikdi. Qarı bic-bic, amma hələ də həyəcanlı, dəhşətdən hələ tam qurtulmamış bir səslə dedi: "Mən onu aldatdım. Dedim ki, bu dəfə arxa qapıdan gələcəksiniz. Mən onu aldatdım. Sizsə artıq burdasınız. İndi siz Milliyə kömək edə bilərsiniz. Mənsə Coya baxaram". Sonra bütün bunlar yox oldu. Onun gözləri önündə bu həyat, bu canlanma qarının sifətindən bir andaca silinib itdi, sanki, onda heç vaxt belə bir şey ola bilməzmiş kimi küt, donuq bir şeyə çevrildi; indi qarının gözləri həkimə küt, lal bir narahatçılıq içində, sualedici nəzərlərlə baxırdı; sonra o, uşağın üzərinə elə bir tərzdə əyildi ki, sanki, indicə kimsə onu oğurlayacaqdı. Bəlkə də, körpəni onun bu hərəkəti oyandırdı; o çığırdı. Və narahatçılıq da silinib itdi. Kölgə kimi yüngülcə çəkilib yox oldu; qarı taxta kimi qupquru, ifadəsiz sifətini aşağı sallayıb, fikirli-fikirli gözlərini körpəyə dikdi. "Bu Codur, – dedi. – Mənim Millimin körpə balası".

Həkim içəri keçəndən sonra qapıda dayanıb gözləyən Bayron da o çığırtını eşitdi və ona nəsə, dəhşətli bir şey oldu. Gecə missis Hayns onu çadırdan çağırmışdı. Səsi elə tələşlıydı ki, o, az qala, şalvarını qaça-qaça geyindi, gecə yatmaq üçün paltarını belə soyunmamış missis Haynsın yanından güllə kimi keçib özünü daxmaya atdı. Onu görəndə yerindəcə donub-qaldı. Missis Hayns böyründə dayanmışdı, nəsə deyirdi; yəqin ki, o da ona cavab verdi, nəsə dedi. Hər halda, dərhal qatırı çullayıb şəhərə çapdı, bütün yol boyu bu qadının çarpayıda uzanmış halı – azca dirsəklənərək, əlacsız ağrıdan çığıra-çığıra mələfəylə örtülən bədəninə baxan sifəti gözləri önündən çəkilmədi. Bütün yol boyu – Haytaueri yuxudan oyadanda da, həkimə əşyalarını yığışdırmaqda kömək edəndə də gözü önündə yalnız bunu gördü; qəlbində gizlənmiş o caynaqlı məxluq isə öz işindəyidi, məqam gözləyirdi, düşüncəsi elə sürətlə qaçırdı ki, fikirləşməyə belə macal tapa bilmirdi. Məsələ də bundaydı. Düşüncə o qədər sürətliydi ki, heç nə fikirləşə bilmirdi – həkimlə birlikdə komaya gəlib çatanacan o bu cür də davam etdi. Yalnız onda, komanın önündə dayanıb körpənin çığırtısını eşidəndə ona nəsə dəhşətli bir şey oldu.

Yalnız indi anladı ki, bomboş meydandan keçib həkim axtardığı, onunla əvvəlcədən niyə danışmadığına qeyzləndiyi zaman qəlbində gizlənmiş o caynaqlı məxluq nə imiş. Yalnız indi anladı ki, həkimlə əvvəlcədən danışmaqdan niyə imtina edib. Çünki, missis Hayns onu çadırdan köməyə çağırdığı ana qədər o özünə (o qadına) həkim lazım olacağına, hökmən lazım olacağına inanmayıb. Sanki, bütün həftə ərzində gözləri o qadının qarnının necə şişdiyini görsə də, əqli buna heç cür inanmayıb. "Yox, mən inanır, bilirdim, – o fikirləşdi. – Əgər belə olmasaydı, onda bütün bunlar nə üçün idi: niyə ora-bura qaçır, cürbəcür yalanlar uydurur, camaatın zəhləsini

tökürdüm?” Ancaq onu da aydın bilirdi ki, buna yalnız missis Haynsın yanından güllə kimi keçib başını daxmaya soxandan sonra inanıb. Missis Haynsın tələşlı səsi onu yuxudan ayıldanda nə olduğunu, nə baş verdiyini dərhal anlamışdı. Nə üçün oyadıldığını, beş gündü məhz bunu gözlədiyini bildiyinə görə tələm-tələsik geyinmiş, şalvarını bir təhər qaça-qaça əyninə taxmışdı. Amma yenə inanmamışdı. İndi başa düşürdü ki, püfərək daxmaya qaçıb içəri baxanda onu orda oturulu vəziyyətdə görəcəyinə ümid eləmişdi; bəlkə də, o qadının həmişəki kimi onu qapıda qarşılayacağını, həmişəki kimi yenə də o qadını sakit, zamana ram olmayan görkəmdə görəcəyini sanmışdı. Amma əlini qapıya uzatmamış içəridən əvvəllər ömründə eşitmədiyi səslər eşitmişdi. Çığırtıya bənzər yanıqlı inilti səsi həm ehtiraslı, həm də acizanəydi, sanki, o, nə Bayrona, nə də başqa kişilərə aydın olmayan bir dildə kiməsə, nəyəsə yalvarırdı. Sonra missis Haynsın yanından keçib qapını açanda onu çarpayıda gördü. O, bu qadını hələ yataqda görməmişdi və həmişə fikirləşmişdi ki, haçansa (və ya əgər) belə bir imkanla qarşılaşsa, yəqin ki, onu gərgin, özünü toparlamış, bəlkə də, azacıq gülümsər halda görəcək və bu qadın, ən azı onun orda, onun yanında olduğunu biləcək. Ancaq o, içəri girəndə qadın heç ona tərəf baxmadı da. Sanki, heç qapının açıldığını da hiss etmədi, içəridə özündən və kişilərə aydın olmayan bir dildə yanıqlı iniltiylə müraciət etdiyi o şeydən başqa kiminsə, nəyinsə olduğunu belə duymadı. Çənəsinin altına qədər üstü örtülüydü, dirsəklənib qalxdı, boğazını irəli uzatdı. Saçları açılıb çiyinlərinə tökülmüşdü, gözləri iki qara deşiyə oxşayırdı, dodaqları başının altındakı balınc kimi ağappaq ağarmışdı və bu cür tələşlı bir görkəmdə, sanki, heyrət və şübhə içərisində mələfənin altındakı bədəninə tamaşa edib yenə də bərkdən, incimiş kimi, yazıq-yazıq çığırdı. Missis Hayns artıq onun başı üzərinə əyilmişdi. O, taxta sifətini qırmızı çiyninin üstündən ona sarı döndərdi. “Gedin. – dedi. – Gedin, həkim gətirin. Artıq sancısı başlayıb”.

Tövləyə necə getdiyi yadında deyil. Bir də onda ayıldı ki, ordadır, qatırın cidarını açır; çulu çıxarıb onun belinə atdı. Əli, ayağı çox cəld hərəkət edirdi; düşüncəsi isə aram-aram axırdı. Niyəsini indi anladı. İndi başa düşdü ki, niyə düşüncəsi o cür ahəstə, aram-aram axırmış: fırtına başlayanda piyi də dənizin səthinə bu cür tökürlər. “Kaş ki, bunu onda anlayaydım, – fikirləşdi. – Kaş ki bunu onda anlayaydım. Kaş bu mənə onda çataydı”. Yerindən qımıldanmadan, ümidsizlik içərisində, təəssüflə düşündü. “Bəli. Dönüb birdəfəlik çıxıb gedərdim. Gedərdim, elə hey gedərdim, Allah bilir, haracan, Allah bilir, nə qədər, lap elə əsrin sonuna kimi”. Ancaq belə etmədi. Qatırı çapa-çapa komanın yanından keçib-getdi, düşüncəsi isə ahəstə, aram-aram axırdı və o, hələ bunun niyəsindən xəbərsizdi. “Bircə bu daxmadan uzaqlaşsaydım, bircə onun qışqırığını bir də eşitməsəydim”. Bir müddət, geniş yola çıxanacan beyni bununla məşğul oldu, altındakı xırda, əzələli heyvan sürətini artırmağa başlamışdı, düşüncə yağı isə hələ də ahəstə, aram-aram axırdı: “Əvvəlcə Haytauerin yanına getməliyəm. Qatırı ona saxlayaram. Kitabı götürməyi də ona xatırlatmaq lazımdı. Bunu heç cür unutmaq olmaz”, – yağ əriyib axa-axa onu,

Haytauerin yaşadığı evin önünə gətirib çıxardı; burda o, cəld qatırın belindən yerə sıçrayıb, püfərək evə tərəf qaçdı. İndi beyni başqa şeylə məşğul idi. “Bu işi gördüm”, – o fikirləşdi *Hətta həqiqi bir həkim tapmaq mümkün olmasa belə* Bu fikir onu meydanacan gətirdi, orda onu tərk etdi; indi o, pusquda dayanmış o caynaqlı məxluqun varlığını artıq yaxından hiss edir, fikirləşirdi *Hətta həqiqi bir həkim tapa bilməsəm belə. Çünki həkim lazım olacağına heç vaxt inanmamışdım. İnanmamışdım* Qoca həkimlə birlikdə maşının açarını dəmir yeşikdən götürmək üçün onun öz açarını axtarıb tapanacan bu fikirlər tələsmək zərurətilə birlikdə eyni qoşquya qoşulmuş paradoks kimi beynindən dördnala çapıb keçdi. Nəhayət, açarı tapdılar; tələsmək zərurəti bir müddət hərəkətin özüylə – bomboş yolda, bomboş sübh səması altında irəli şığıyan maşının sürətilə eyniləşdi; yaxud da bəlkə də, o özü, sadəcə olaraq, adətən, belə vəziyyətlərdə bütün insanların elədiyi kimi, bütün həyat gerçəkliyini, özünün bütün qorxu və əndişəsini həkimin üzərinə yıxdı. Hər halda, bu fikir onu geriyə, daxmaya qaytardı, orda o, həkimlə birlikdə maşından düşüb, içəridə hələ də çırağı yanan daxmanın qapısına yaxınlaşdı və bu onun üçün axırıncı rahatlıq anı oldu; çünki o an ötüb-keçən kimi dərhal ağır zərbə aldı: caynaqlı məxluq qəfil arxadan üstünə atıldı. Körpə çığırtısını eşitdi. Və onda başa düşdü. Hava sürətlə işıqlaşırdı. Bəstəboy, heç nəyi ilə seçilməyən, küçədən keçərkən ömründə bir kəsin – nə bir qadının, nə də bir kişinin dönüb baxmadığı bu adam dinc sükutun doğurduğu sərin rahatlıq içərisində sakitcə dayanmışdı. Ciddi, sərt bir təəccüb içərisində düşünürdü *Sanki, missis Hayns məni çağırmayanacan, mən onun səsini eşitməyənəcən, sifətinə baxmayanacan, Bayron Bançın indi onun üçün bir heç olduğunu öz gözlərimlə görməyənəcən bu qadının qız olmadığını heç cür anlaya bilməmişəm* Fikirləşdi ki, bu, çox dəhşətli şeydir, amma hələ hamısı deyil. Hələ yenə nəsə var. Başını aşağı sallamadı. Dan şəfəqlərinə bürünmüş səmanın altında hərəkətsiz dayanmışdı, düşüncəsi isə sakit-sakit, aram-aram daha da irəli gedirdi *Deməli, keşiş Haytauerin dediyi kimi, bu da mənim üçün saxlanılıb. İndi mən hökmən ona deməliyəm. Lukas Berçə hökmən deməliyəm* Artıq bunda heç bir acı rahatlıq yox idi. Bu nə isə çox dəhşətli, sağalmaz bir yeniyetmə ümidsizliyiydi *Axı mən indiyə kimi heç onun Berç olduğuna da inanmırdım. Elə bil, mən də, o qadın da, bu işə qarışdırdığım bütün adamlar da – heç birimiz özümüz deyilmişik, sadəcə, heç bir məna kəsb etməyən söz yığınıymışıq, bununla belə, yalnız öz bildiyimizi eləmişik, öz bildiyimizi eləmişik və heç bir söz qıtlığı hiss etməmişik. Bəli. Axı mən onun Lukas Berç olduğuna indiyədək inanmırdım. İnanmırdım ki, yer üzündə Lukas Berç adında birisi var*

“Uğurlu olub, – Haytauer deyir, – uğurlu olub. Mən heç bilirəm ki, uğur nə olan şeydi”. Ancaq həkim artıq daxmaya girmişdi. Bir saniyəlik duruxmadan sonra Haytauer çarpayının önündəki adamların çiyni üstündən irəli baxır, həkimin gümrah səsini eşidir. Qarı indi sakitcə oturub, amma Haytauerə elə gəlir ki, ən uzağı, bircə saniyə əvvəl körpəni ondan zorla aldı – lal

və qəzəbli sərsəmlik anında bu qadın onu əlindən yerə sala bilərdi. Qarı körpəni, az qala, ana bətnindən azad olmamış dartıb onun əlindən alaraq göyə qaldırıb, sonra isə ağır, yöndəmsiz ayı kimi belini aşağı əyərək o biri çarpayıda yatan qocaya qeyzlə baxanda bu lallıq öz qəzəbini gizlədə bilməmişdi. Haytauer buraya gələndə qoca artıq yuxuya getmişdi. Elə bil, heç nəfəsi də gəlmirdi, qarı isə çarpayının böyründə, kətildə oturmuşdu. Uçurum üzərində asılıb qalmış qayanı xatırladırdı və Haytauer ilk andaca fikirləşdi *Bu qadın artıq onu öldürüb. Bu dəfə vaxtında ehtiyat tədbiri görüb* Sonra başı qarışdı: qarı yanında olsa da, onu tamam unutdu, bir də onu yalnız hələ nəfəs almağa macal tapmamış körpəni dərhal qapıb göyə qaldıraraq, dişi pələng kimi qəzəbli baxışlarla o biri çarpayıda yatan qocanı tərs-tərs süzəndə yadına saldı. Sonra yenicə doğulmuş körpə ilk dəfə havanı içinə çəkib ağlamağa başladı, qarı da anlaşılmaz, vəhşi, təntənəli bir səslə qışqıraraq, sanki, ona hay verdi. Haytauer körpəni zorla onun əlindən almağa çalışarkən, qadının sifəti, demək olar ki, tamam cin sifətinə dönmüşdü. "Bir özünüz baxın – Haytauer dedi. – Diqqətlə baxın. O yatıb. Bu dəfə o onu heç yana aparmayacaq". Qarı isə dinməzcə, vəhşi baxışlarla, sanki, insan dilini anlamırmış kimi aramsız onun üzünə baxırdı. Ancaq qəzəb və təntənə artıq sifətindən silinib yox olmuşdu: xırıltıyla zingildəyir, körpəni geri almağa çalışırdı. "Ancaq ehtiyatlı olun, – Haytauer dedi. – Ehtiyatlı olun, yaxşımı?" Başını tərpətdi, zingildəyə-zingildəyə ehmalca körpəni sığallamağa başladı. Amma əlləri əsmirdi, Haytauer uşağı ona verdi. İndi isə budur, oturub, onu dizləri üstündə saxlayır, gecikmiş həkim isə çarpayının yanında dayanıb gümrah, zəvzək səsilə nəsə danışır, əlləri isə sürətlə işləyir, nəsə edir. Haytauer geri dönüb daxmadan çıxır, ehtiyatla, qocasayağı addımlarla sınıq pilləkənlərdən aşağı enir, elə bil, onun lırt, sallaq qarnında nəsə dinamit kimi ölümsaçan, partlayıcı bir şey gizlədilib. Artıq bayırda sübhçağı deyil, səhər açılıb: gün çıxıb. Dayanıb ətrafa göz gəzdirir; çağırır: "Bayron". Cavab gəlmir. Sonra fikir verib, bir az aralıda, çəpər dirəyinə bağlanmış qatırın da yerində olmadığını görür. Dərindən köks ötürür. "Deməli belə, – o fikirləşir. – Bayronun mənə verdiyi bu qədər əzab-əziyyətdən sonra indi mən evəcən iki mil yolu da piyada getməliyəm. Bu, Bayrona yaraşan hərəkət deyil. Nifrətə yaraşan deyil. Bir də ki, onsuz da, bizim əməllərimiz çox vaxt özümüzə yaraşmır. Həmçinin biz də öz əməllərimizə".

O – sallaqqarın, başındakı panaması kirli, əynindəki qaba gecə köynəyinin ətəyini necə gəldi basıb qara şalvarının içinə salmış bu arıq qoca pay-piyada, yavaş-yavaş şəhərə doğru yollanır. "Yaxşı ki, vaxt tapıb ayaqqabılarımı geyə bilmişəm", – o fikirləşir. "Çox yorulmuşam, – təəssüf içində düşünür. – Yorulmuşam, da yata bilmirəm". O bu barədə təəssüf içində, addımlarının ritminə uyğun halda yorğun-yorğun düşünür və öz həyət qapısına çatan kimi evə sarı dönür. Artıq günəş xeyli yüksəlib, şəhər yuxudan oyanıb; ordan-burdan tüstü qalxır – səhər yeməyi hazırlayırlar. "Qatırı orda mənim üçün saxlmayandan sonra barı belə bir yaxşılıq edəydi,

evə məndən tez gedib, sobamı yandırmış olaydı. Bir halda ki, iki millik yolu piyada getməyi mənim iştahamın açılmağı üçün faydalı hesab eləyib".

Mətbəxə keçir, yavaş-yavaş, naşıcasına – iyirmi beş il əvvəl ilk gündə olduğu qədər naşıcasına sobanı yandırır; sonra qəhvəni onun üstünə qoyur. "Yenə də uzanacam, – o fikirləşir. – Hərçənd əminəm ki, yenə yata bilməyəcəm". Birdən fikirlərinin nə dediyinə heç özü də qulaq asmayan deyingən qadının səbəbsiz-filansız sızıldanmağı kimi zəhlətökən olduğunu hiss edir; adəti üzrə özü üçün bol səhər yeməyi hazırladığını görəndə, sanki, bundan məmnun deyilmiş kimi, dilini ağzında marçıldada-marçıldada yerindəcə donub-qalır. "Axı mən özümü pis hiss etməliydim", – o düşünür. Ancaq özünü pis hiss etmədiyi ilə razılaşmalı olur. Bu uzun, xaşalqarın, tənha adam yalqız, tör-töküntülü mətbəxdə dayanıb, dibində dünəndən bomboz yağ bulaşığı qalmış çuqun qazançanı əlində tutarkən, birdən, az qala, qaynar, az qala, təntənəli bir şey güclü dalğa, qabarma kimi onu öz ağuşuna alır. "Mən onlara göstərdim! – o düşünür. – Həyat özü qocanın ayağına gəlir, onlar isə gec qalırlar. Onlara yalnız onun artıqları qalır, Bayron, yəqin ki, belə deyərdi". Amma bu, boş və mənasız bir qürurdur. Tədricən səngiyən qaynar dalğaya isə bunun heç bir dəxli yoxdur, o, bütün tənbehlərə qarşı kardı. O fikirləşir: "Nolsun? Nolsun ki, mən təntənə, qürur hissi keçirirəm?" Amma bu qaynarlıq, bu dalğa coşqusu, deyəsən, bu fikrə qarşı da laqeyddir, heç bir yardıma ehtiyac duymur; hətta apelsinin, yumurta qayğanağının, sifəti qızarmaqda olan çörəyin maddiliyi də onu soyuda bilmir. O isə stolun üstündəki boş, çirkli boşqablara baxaraq bu dəfə ucadan deyir: "Vallah, düz sözümdü. Mən heç indi bunları yuya da biməyəcəm". Ancaq bütün gecəni yuxusuz qalmağına baxmayaraq, yataq otağına da getmir. Hələ də həmin məqsəd və qürur havasında qapıya yaxınlaşıb içəriyə baxır və fikirləşir: "Əgər qadın olsaydım, belə eləyərdim. Qadın hökmən belə edərdi: dincəlmək üçün gedib yatağa girərdi". Kabinetə tərəf yönəlir. O – iyirmi beş il əvvəl yuxudan ayıldığı andan ta bir də yuxuya gedənəcən heç nə eləməyən bu qoca indi o kabinetə aydın məqsədi olan bir adam kimi girir. İndi götürəcəyi kitab da Tenninson deyil; bu dəfə özünə kişi qidası seçir. "IY Henri" kitabını götürür və arxa həyətə keçib, tut ağacının altından asılmış şezlonqa uzanır – özünü ağır-ağır, kökündən qırılmış ağac kimi onun içinə yıxır. "Ancaq yenə yatmağa imkan tapa bilməyəcəm, – o düşünür, – çünki tezliklə yenə Bayron gəlib məni durğuzacaq. Amma indi onun mənim üçün nə düşünüb tapdığını öyrənmək, bəlkə də, bu yuxusuzluğa dəyər".

Tez, demək olar ki, dərhal yuxuya gedir, xoruldamağa başlayır. Əgər indi kimsə yaxınlaşıb o kresloya baxsaydı, eynəkdə bərq vuran iki səma parçası altında məsum, sakit və özünəəmin bir sifət görərdi. Ancaq yaxınlaşıb eləyən olmur, altı saatdan sonra isə yuxudan ayılanda ona elə gəlir ki, kimsə onu çağırdı. Cəld yerindən qalxıb oturur, altındakı kreslo ağırlıqdan cır-cır cırıldayır. "Bəli? – deyir. – Bəli? Nə olub?" Yaxınlıqda heç kim olmasa da, sanki, nəyisə gözləyirmiş kimi qulağını şəkləyib ətrafa göz gəzdirir, sifətinə yenə də həmin yenilməz, əmin

ifadə çöküb. Sevinc ifadəsi də hələ soyumayıb. “Mənsə ümid eləyirdim ki, bir az yatıb soyuyaram, – o fikirləşir və dərhal da özünə düzəliş eləyir. – Yox. *Ümid eləyirdim* yox. *Qorxurdum* demək istəyirdim. Nə isə, hər halda, mən təslim oldum, – o, sakitcə, yerindən tərpənmədən düşünür. Sonra əlini əlinə sürtür – əvvəlcə yüngülcə, sonra isə bir az günahkarmış kimi. – Hər halda, təslim oldum. Mən bunu özümə rəva görəcəm. Bəli. Bəlkə, elə bu da mənim taleyimə yazılıb, mənim üçün saxlanılıb. Mən buna qarşı çıxmayacam”. Və öz-özünə deyir, fikirləşir *Uşağı mən qəbul elədim. Hələ heç kimə mənim adımı qoymayıblar. Axı mən bilirəm ki, belə hallar olub: bəzən minnətdar ana doğuş vaxtı ona kömək edən həkimin adını öz övladına qoyub. Hər halda, ortada Bayron var. Birincilik haqqı, əlbəttə ki, ona məxsusdu. O qadın hələ yenə doğacaq, özü də bir dəfə yox* gənc, güclü, hətta doğuş zamanı çəkdiyi bütün ağrı-acılara baxmayaraq, dinc qorxmazlığını bir an belə itirməyən qadın bədənini yadına salır *Bir dəfə yox. Çox doğacaq. Bütün həyatı, bütün taleyi bundan ibarət olacaq. Və o taleyə sakitcə boyun əyən nəcib insan toxumu nəcib torpağa yayılacaq; bu sağlam, möhkəm toxumlardan tələsmədən, təntimədən ana və qız törəyəcək. Amma indi hələlik Bayrondan törəyəcəklər. Yazıq oğlan. Məni piyada gəlməyə məcbur qoysa da, onun bu halına acımamaq olmur*

Evə girir. Üzünü qırxır, gecə köynəyini çıxarıb, dünən geyindiyini geyir, yaxalığını, qalstukunu taxır, panamasını başına qoyur. Meşənin içiylə getsə də, burda yerimək daha çətin olsa da, daxmayacan olan yol ordan evə qayıtdığından az vaxt aparır. “Bunu tez-tez eləməliyəm, – o düşünür, yarpaqların arasından hərdənbir üstünə düşən günəş işığını, istini, torpağın, ağacların kəskin, həyatverici ətrini duyur, buradakı gur sükuta qulaq kəsilir. – Bu şakərdən də imtina etmək lazım deyil. Ola bilsin ki, bu vərdişlərimin hər ikisi təzədən geri qayıtsın – dua qədər qiymətli olmasalar belə.”

Meşədən otlağa çıxır, daxma otlağın qurtaracağındadır. Ondan arxada geniş bir ağaclıq görünür, yanan ev ordadır, amma bir vaxtlar onun dirək və sallamaları olmuş tirlərin qaralmış, səssiz başları burdan görünmür. “Bədbəxt qadın, – o düşünür. – Bədbəxt, sonsuz qadın. Bircə həftə də artıq yaşasaydı, xoşbəxtliyin bu yerlərə təkrar qayıtdığının şahidi olardı. Xoşbəxtliyin, şaqraq həyatın bu qısır, məhv edilmiş torpağa yenidən qayıtdığını öz gözlərilə görərdi”. Ona elə gəlir ki, münbit tarlaların, ətraf məhəllələrdəki qara məhsuldar həyatın xəyalatlarını, sinə qışqırıqlarını, çoxuşaqlı qadınları, evlərin önündə oynaşan çılpaq uşaqları öz gözlərilə görür, bütün varlığı ilə hiss edir; o böyük ev yenə də hay-küylüdü, nəvə-nəticələrin zil səsləri içərisində itib batıb. Daxmaya yaxınlaşır. Qapını döymür, onu açmağa başlayanda şən, şaqraq səslə soruşur:

– Həkimə içəri girmək olarmı?

İçəridə anayla körpədən başqa heç kim yoxdu. Qadın yastığa söykənərək yarıoturmuş halda uzanıb, körpə qucağındadır. Haytauer içəri girdiyi an o heç bir əndişə keçirmədən, amma

diqqətlə qapıya baxa-baxa çılpaq döşünü mələfə ilə örtüb gizlədir, çöhrəsi apaydın, mehribandı, elə bil, indicə gülümsəyəcək. Sonra bu ifadə Haytauerin gözləri önündə bir andaca sönüb yox olur.

– Mən elə bildim...

– Hə, siz elə bildiniz, kimdi? – Haytauer gülə-gülə soruşur. Çarpayıya yaxınlaşır, ona – anasının sinəsindən asılı qalmış körpənin bapbalaca, büzüşmüş, gil heykəlciyə bənzər, yuxulu və bədənsiz kimi görünən sifətinə baxır. Qadın utana-utana sakitcə mələfəni bir az da yuxarı çəkir, daz, qarnı şişman arıq kişi isə başı üzərində dayanıb; onun mehriban sifəti təntənə ilə alışıb-yanır. Qadın üzüaşağı, körpəyə baxır.

– Bununla bacarmaq çətin işdi. Hərdən elə bilirəm artıq yatıb, amma yerə qoyan kimi dərhal çığırmağa başlayır, məcbur olub təzədən qucağıma alıram.

– Burda tək qalmağınız heç yaxşı deyil... – Haytauer deyir. Ətrafa göz gəzdirir. – Bəs o qarı ...

– O da getdi. Şəhərə. Özü bunu deməsə də, bilirəm ki, ora getdi. Qoca burdan xəbərsiz əkildi, qarı da yuxudan oyananda onun harda olduğunu məndən soruşdu; dedim ki, çıxıb getdi, o da onun dalınca yollandı.

– Şəhərə? Xəbərsiz əkildi? – Haytauer sonra sakitcə dedi: – A-a. – Sifəti ciddiləşdi.

– Qarı bütün günü onu gözdən qoymurdu. O da onu. Mən özüm gördüm. Yalandan özünü elə göstərirdi ki, guya, yatıb. Qarı da elə bilirdi ki, yuxuya gedib. Nahardan sonra isə dözmədi, mürgülədi. Axı yazıq keçən gecə heç yatmamışdı, ona görə də nahar eləyəndən sonra gəlib stulda oturan kimi yuxu onu basdı. Qoca isə onu pusurdu, sakitcə çarpayıdan qalxdı, mənə göz vurur, ağız-burnunu əyirdi. Qapıya sarı getdi, arada dönüb yenə mənə göz vurur, ağız-burnunu əyirdi və barmaqlarının ucunda, səssiz-səmirsiz bayıra çıxdı. Mən onu saxlamadım, qarını da durğuzmadım. – Bərələ qalmış, ciddi gözləriylə Haytauerə baxır. – Qorxdum. Qəribə danışığı var. Adama da nəsə, birtəhər baxır. Elə bil, ona görə mənə göz vurub, ağız-burnunu əymirdi ki, qarını durğuzmayım, yox, elə bil, o, bununla əgər onu durğuzsam başıma nələr gələ biləcəyini göstərmək istəyirdi. Buna görə də qorxdum. Körpə qucağımda, uzanıb gözlədim, qarı isə mənsiz, özü də çox tez oyandı. Onda başa düşdüm ki, yuxulamaq istəmirmiş. Elə bil, ayaq üstə, qocanın yatağına tərəf cumanda tamam ayıldı; əliylə çarpayının altını-üstünü yoxladı, sanki, onun çıxıb getdiyinə inana bilmirdi. Yatağın yanında dayanıb adyalı əlləşdirir, elə bil, qocanın hardasa, onun altında itib-batdığını güman edirdi. Sonra mənim üzümə baxdı – bircə dəfə. Özü də nə göz vurdu, nə də ağız-burnunu əydi, amma kaş əyəydi. Soruşdu, mən də dedim, dərhal şlyapasını başına qoyub evdən çıxdı. – O, Haytauerə baxır. – Ancaq onun burdan çıxıb getməyinə çox sevindim. Belə demək yaxşı deyil, eləmi – özü də mənə bu qədər yaxşılıq eləyəndən sonra. Amma axı...

Haytauer çarpayının başı üzərində dayanıb. Sanki, onu görmür. Sifəti çox ciddidir; burda dayandığı qısa müddətdə, elə bil, düz on il qocalıb. Ya da əksinə, içəri girəndə özü deyildi, başqa, özünə yad bir adamıdı, yalnız indi əslində necə var, o cür görünür.

– Deməli, şəhərə getdi, – o deyir. O andaca gözləri dirilir, yenidən görməyə başlayır. – Hımm. Artıq heç nə eləyə bilməzsən, – o deyir. – Bir də, yəqin ki, şəhərdə... bir neçə normal... adam tapılar... Onların burdan getməyinə nə üçün sevindiniz?

Qadın başını aşağı salır. Əli körpənin başına tərəf uzanır, amma ona toxunmur; bu instinktiv, lüzumsuz və çox güman ki, qeyri-şüuri bir hərəkətdi.

– Qarı mənə qarşı çox mehribandı. Hətta bundan da artıq... Mən dincələ bilim deyə körpəni öz qucağında saxlayırdı. Bütün günü uşaq qucağında bu stulda oturub... Bağışlayın. Heç sizə oturmağa yer də göstərmədim. – Haytauer stulu çarpayının böyrünə çəkib oturanacan qadın ona baxır. – ...Bu stulda oturub ona göz qoyurdu, o isə çarpayıda yalandan özünü elə göstərirdi ki, guya, yatıb. – O, diqqətlə, sualdolu nəzərlərlə Haytauerə baxır. – Elə hey körpəni "Co" deyə çağırır. Axı onun adı Co deyil. Elə hey... – Haytauerin sifətinə baxır. Gözlərində nəsə bir narahatlıq, sual, şübhə var. – Elə hey qəribə şeylər danışır... Nəyisə qarışıq salır. Ona qulaq asanda bəzən elə mən özüm də çaşıram... qulaq asmaya da bilmirsən axı... – Gözləri, sözləri yenə də çaşqın halda nəyisə arayır, nəyisə axtarır.

– Qarışıq salır?

– Körpə barədə həmişə elə danışır ki, elə bil, onun atası o... həbsdə olan mister Kristmasdı. Elə hey belə deyir, mən də çaşmağa başlayıram, bəzən heç özüm də bilmirəm düz nədi... çaşıram, elə bilirəm ki, onun atası bu mister... mister Kristmasdı... – Qadın gözünü ondan çəkmir; sanki, ağır bir işin öhdəsindən gəlməyə çalışır. – Özüm bilirəm ki, o deyil. Başa düşürəm ki, bu, axmaqlıqdı. Amma qadın ara vermədən, elə hey belə dediyi üçün bu hala düşürəm; yəqin, hələ tamam sağalmamışam, özümə gəlməmişəm, ona görə də çaşmağa başlayıram... Qorxuram, dəhşətə gəlirəm...

– Nədən?

– Bu cür çaşmağım heç xoşuma gəlmir. Qorxuram ki, o məni tamam çaş-baş sala, yəni, necə deyərlər, gözümü çəpləyə-çəpləyə axırda, doğrudan da, çəpgöz olam... – Üzünü yana çevirir. Yerində qurcalanıb-eləmir. Amma Haytauerin ona baxdığını hiss eləyir.

– Siz deyirsiniz ki, uşağın adı Co deyil. Bəs onda nədi?

Qadın baxışlarını dərhal Haytauerə tərəf çevirmir. Başını sonra qaldırır. Və həddən artıq tez, həddən artıq asanlıqla cavab verir:

– Mən ona hələ ad qoymamışam.

Niyəsini Haytauer yaxşı bilir. Sanki, o bu qadını içəri girdiyi andan bəri ilk dəfədir görür. Saçlarının daranmış, sifətinin də xeyli gümrah olduğuna ilk dəfə diqqət yetirir və gözü, sanki, o, içəri girərkən tələm-tələsik mələfənin altına basılmış darağa, güzgü qırığına sataşır.

– Mən içəri girəndə siz kimisə gözləyirdiniz. Özü də məni yox. Kimi gözləyirdiniz?

Qadın baxışlarını ondan yayındırmır. Sifətində nə sünilik, nə də sadəlövhlük duyulur. Onda dinclik, sakitlik də yoxdur.

– Gözləyirdim?

– Bayron Bançımı gözləyirdiniz? – O, hələ də baxışlarını ondan yayındırmır. Haytauerin sifəti ciddi, sərt və mehribandır. Ancaq bu sifətdə onun qarşısına çıxan yaxşı adamların – xüsusilə də kişilərin sifətlərində gördüyü eyni amansızlıq var. Haytauer aşağı əyilir, ovcunu onun körpəni tutan əlinin üstünə qoyur.

– Bayron yaxşı adamdır, – o deyir.

– Elədi, başqaları kimi mən də bunu bilirəm. Hətta bəlkə, onlardan da yaxşı...

– Siz də yaxşı qadınsınız. Elə bu cür də olun. Demək istəmirəm ki... – dərhal düzəltməyə çalışır. Sonra susur. – Demək istəmirəm ki...

– Başa düşürəm, bilirəm, – qadın deyir.

– Yox. Onu demirəm. Bu vacib deyil. Bunun hələ heç bir əhəmiyyəti yoxdur. Hər şey sizin bundan sonrakı münasibətinizdən asılıdır. Özünüzə. Başqalarına. – Onun üzünə baxır; qadın yenə də gözlərini kənara çəkmir. – Onu buraxın. Qovun getsin. – Hər ikisi bir-birinə baxır. – Qızım, onu rədd edin. Yəqin ki, siz ondan iki dəfə cavansınız. Amma ondan iki dəfə çox şeylər yaşamısınız. O, heç vaxt sizə çata, yetişə bilməz, çünki çox vaxt itirib. Bayronun heç nə olması da sizin hər şey olmanız kimi təzədən düzələn deyil. İndən belə onun geriyə qayıdıb nəsə eləməyə gücü çatmaz, elə siz də o cür – geriyə qayıdıb indiyəcən elədiklərinizi həyatınızdan silib ata bilməzsiniz. Sizin oğlunuz var, bu uşaq onun deyil; ondan yox, başqa kişidəndi. Sizin ucbatınızdan onun həyatına birdən-birə iki kişi, bir qadınınsa yalnız üçdəbiri daxil olacaq; o yazığın isə ən azı, buna haqqı çatır ki, əgər onun otuz beş ildi tək-tənha yaşadığı, heç nəylə ovunmamış həyatına bu gün biri girməlidirsə, belə bir müdaxilə hökmən olmalıdırsa, bu, o iki şahidsiz olmalıdır. Onu qovun getsin.

– Bu, mənim işim deyil. O azaddır. Özündən soruşun. Mən heç vaxt onu burada tutub saxlamağa çalışmamışam.

– Məsələ də elə bundadı. Bəlkə də, çalışsaydınız, saxlaya bilməzdiniz. Məsələ elə bundadı. Kaş buna çalışmış olaydınız. Əgər çalışsaydınız, indi bu südəmər körpəylə burda, bu çarpayıda olmazdınız. Deməli, siz onu qovmaq istəmirsiniz? Ona qəti deyə bilmirsiniz?

– Dediyimdən artıq heç nə deyə bilmərəm. Mən ona beş gün bundan qabaq "Yox" demişəm.

– “Yox?”

– O istəyirdi ki, biz evlənək. Dərhal. Amma mən “Yox” dedim.

– İndi də “Yox” deyərdinizmi?

Qadın qətiyyətlə ona baxır.

– Bəli. İndi də deyərdim.

Haytauer dərindən köks ötürür – ağır, əndazəsiz; sifətinə yenə də yorğun, iradəsiz bir ifadə çökür.

– Mən sizə inanıram. Siz bunu deyəcəksiniz, ta əmin olanacan ki... – Yenə onun üzünə baxır; baxışı yenə də iti, diqqətlidir. – O, hardadır? Bayron?

Qadın başını qaldırıb ona baxır. Bir qədər sonra sakitcə cavab verir:

– Bilmirəm. – Qadın ona baxır; birdən sifəti bomboş boşalır, sanki, bu sifətə müəyyənlik, mətinlik verən hansısa bir güc onu tərk edir. İndi bu sifətdə azacıq da olsa, nə süni bir ifadə, nə narahatlıq, nə də qorxu-ürkü var. – O bu gün səhər gəlmişdi, saat onda. İçəri girmədi. Sadəcə, qapının ağzında dayanıb mənə baxırdı. Axı mən onu ötən gecədən bəri görməmişdim; o da körpəni görməmişdi, ona görə dedim: “İçəri gəlin, gəlin, ona baxın”. O isə elə ordan, qapının ağzından üzümə baxıb dedi: “Gəlmişəm biləm ki, siz onunla haçan görüşmək istəyirsiniz?” Mən dedim: “Kiminlə?” O isə dedi: “Yəqin ki, onlar şerifin köməkçisini də ona qoşacaqlar, amma mən Kennedini birtəhər razı salaram, onu tək buraxarlar”; mən dedim: “Axı kimi?” O dedi: “Lukas Berçi”. Dedim: “Hə”. O da dedi: “Lap elə bu axşam? İstəyirsiniz?” Mən də “Hə” dedim. Və o çıxıb getdi. Orda bir az dayanıb sonra çıxıb getdi. – O ağlamağa başlayır, Haytauer isə qadın göz yaşları önündə əlacsız qalan bütün kişilər kimi matdım-matdım ona baxır. Qadın yerindən azca dikələrək oturub, körpəni qucağından buraxmadan hönkürür; bərkdən, acı-acı yox, səbirli, ümidsiz bir mütilik içərisində, sifətini gizlətmədən ağlayır. – Sizsə bayaqdan məni burda sorğu-suala tutmusunuz ki, mən ona “Yox” demişəm ya yox; mən ona “Yox” demişəm, siz yenə məndən əl çəkmirsiniz, o isə çoxdan burdan çıxıb gedib. Mən bir də onu heç vaxt görməyəcəm.

Haytauer hələ də orda oturub, qadın isə başını aşağı sallayıb; nəhayət, yerindən qalxır, əlini onun aşağı sallanmış başının üstünə qoyub fikirləşir *Şükür Allaha, İlahi, mənə kömək ol. Şükür Allaha, İlahi, özün kömək ol*

Meşədə yonqar sexinə aparan çığıra çıxdı; onu Kristmas açmışdı. Belə bir çığırın varlığından xəbərsiz idi, indi onun hansı səmtə getdiyini anlayanda sevinir, bunu xoş əlamət kimi qəbil edir. Linanın dediyinə inanır, amma öz daxili məmnunluğu naminə bu xəbərin təsdiqini tapmaq, bunu onun öz ağzından təkrar eşitmək istəyir. Sexə gəlib çıxanda saat hələ dörd idi. İdarədə onun harda olduğunu öyrənməyə çalışır.

– Banç? – hesabdar təkrar soruşur. – Siz onu burda tapa bilməyəcəksiniz. O bu gün səhər tezdən işdən çıxıb.

– Bilirəm, bilirəm, – Haytauer deyir.

– Yeddi ildi burda işləyirdi, hətta şənbə günləri nahardan sonra da qalıb əlavə işləyirdi, bu gün səhər isə gəlib dedi ki, işdən çıxıram. Heç səbəbini də izah eləmədi. Bu kəndçilər həmişə belədirlər.

– Elədi, elədi, – Haytauer təsdiqləyir. – Ancaq çox yaxşı adamlardılar. Kişisi də, qadını da. – O, idarədən çıxır. Şəhərə gedən yol Bayronun işlədiyi sexin yanından keçir. O, usta Muni ilə çoxdan tanışdı. Onu görüb dayanır, deyir: – Eşitdim ki, Bayron Banç daha sizdə işləmir?

– Elədi, – Muni cavab verir. – Bu gün səhər işdən çıxıb. – Ancaq Xaytauer ona qulaq asmır; kombinezonlu işçilər gözlərini bu nimdaş, qəribə görkəmli, yaxşı tanımadıqları cənaba dikirlər: o, heyranlıq içərisində, qəribə bir maraqla buradakı divarlara, yonulmuş taxtalara, quruluşunu və təyinatını anlamaq, hətta öyrənə bilmək iqtidarında olmadığı sirli-sehrli mexanizmlərə tamaşa edir. – Əgər o sizə lazımdırsa, – Muni sözünə davam edir, – mən bilən, şəhərdə, məhkəmədə tapa bilərsiniz.

– Məhkəmədə?

– Bəli. Bu gün məhkəmə iclasçıları geniş tərkibdə toplanacaq. Təcili surətdə çağırılıblar. Qatil barədə hökm çıxaracaqlar.

– Elədi, elədi, – Haytauer deyir. – Deməli, o burada yoxdur. Demək belə. Çox əla oğlandı. Sağ olun, sağ olun, centlmenlər. Hamınız sağ olun. – Yoluna davam eləyir, kombinezonlu işçilər onun ardınca baxa-baxa qalırlar. Əllərini arxasında cütləyib. Sakitcə addımlaya-addımlaya kədərli halda düşünür: “Yazıq. Yazıq uşaq. Yox, başqa bir insanı qətlə yetirən, bir insanın həyatına son qoyan bir adama bəraət yoxdur və ola da bilməz; ən azı, məsul şəxs, vətəndaşın vəkalətli qulu bunu edə bilməz. Əgər öz qurbanının – onu necə istəyirsiniz adlandırın, – şəxsən özünə heç bir zərər vermədiyini bilən qanun quluna ümumxalq səviyyəsində belə bir səlahiyyət verilibsə, onda qurbanın məhz özünə xətər yetirdiyinə əmin olan adi adamdan nə gözləmək olar?” Artıq yaşadığı küçəyə çatıb. Tezliklə hasar, qapı lövhəsi, sonra isə sıx avqust yarpaqları arasından – ev görünür. “Deməli, bura gəlmədən, mənimlə vidalaşmadan çıxıb gedib. Mənim üçün bu qədər elədiklərindən sonra. Mənə gətirdiklərindən sonra. Bəli, verdiklərindən, qaytardıqlarından sonra. Belə fikirləşmək olar ki, bütün bunlar taleyimə yazılıb, mənim üçün saxlanılıb. Amma yəqin ki, bununla da hər şey bitdi – qurtardı.

Ancaq heç də hər şey bununla bitmədi, qurtarmadı. Onun taleyinə hələ bir şey də yazılmış, onun üçün saxlanmışdı.

Bayron şəhərə gəlib çatanda məlum oldu ki, günortaya qədər şeriflə görüşə bilməyəcək, çünki o, günortaya qədər məhkəmə iclasında olacaq. “Siz gərək o vaxtacan gözləyəsiniz”, – ona dedilər.

– Yaxşı, – Bayron dedi. – Mən bilirəm nə eləyəcəm.

– Nə eləyəcəksiniz? – Ancaq o cavab vermədi. Şerifin otağından çıxıb, meydanın cənub tərəfinə baxan sütunlu eyvanda dayandı. Neçə-neçə sərt fəslin, neçə-neçə tütün çeynəyən nəslin izi qalmış hündür daş sütunlar daş döşənmiş dar artırmadan üzüyuxarı qalxaraq tağlarla birləşib. Onlardan aşağıda kombinezonlu kəndçilər eyni ahəngdə, usanmadan, monastır həyətindəki rahiblər kimi məqsədsiz bir diqqətcilliklə gəzişir (nisbətən cavan kişilər – şəhərlilər isə bir kənarda topa topa hərəkətsiz dayanıblar, ya da bir-birilərinə nəsə deyir, ağızucu söhbət edirlər; onların bir qismi Bayrona tanış olan kontor işçiləri, vəkillər və hətta, birdən-birə hamısı eyni anda sifətlərinə eyni cür zabitəli ifadə verən və bu səbəbdən mülki geyimli polisləri xatırladan, amma polis kimi görünüb-görünmədiklərini çox da veclərinə almayan ticarətçilərdi) və öz aralarında sakitcə puldan, məhsuldan danışır, arabir yuxarı boylanıb, məhkəmə iclasçılarının örtülü qapılar arxasında, onların hansı birininsə çətin ki tanıdığı və ya üzünü görmüş olduğu bir adama, ondan da az tanıdıqları və ya üzünü görmüş olduqları bir qadının həyatına qəsd etdiyinə görə ölüm hökmü çıxarmağa hazırlaşdıqları otağın pəncərəsinə baxırlar. Onları buraya gətirən arabalar, üstü toz-torpaqlı maşınlar meydanda bir-birinin ardınca sıraya düzülüb, onlarla birlikdə şəhərə gələn arvadları, qızları isə asta-asta, heyvan sürüsü və ya bulud topaları kimi eyni cür məqsədsiz-filansız dəstə-dəstə küçələri, dükanları gəzirlər. Bayron orda, yerindən tərpənmədən, heç nəyə söykənmədən xeyli dayandı – bu şəhərdə yeddi il yaşasa da, əksəri nə qatili, nə də qətl edilən qadını tanıyan kəndçilər bu arıq, cılız adamın da nə adını, nə də kimliyini bilirdilər.

Lakin Bayron bu barədə fikirləşmirdi. İndi heç nə vecinə deyildi, hərçənd, bu bir həftə əvvəl olsaydı, hər şey tamam başqa cür cərəyan edərdi. Onda o burda, hər kəsin onu görə, bəlkə də, kiminsə birdən tanıya biləcəyi yerdə dayanmazdı: *Bayron Banç – heç bir xeyri olmadan, başqa birisinin əkdiyini biçən. Bir başqasının fahişəsinin qayğısına qalan adam; halbuki o başqası indi min dollar qazanmaqla məşğuldu. Əvəzində heç nə qazanmayan adam. Öz təmiz adını özünü də, təmiz adını da çirkaba tullayan əclafın birinə bəxş etmiş bir qadının təmiz adını qorumağa çalışan, həmin o əclafın bic övladını dinc və sakit bir yerdə dünyaya gətirməkdə bu qadına kömək edən, bunun üçün bütün məsrəfləri öz üzərinə götürən, əvəzində isə yalnız körpə çığırtısını eşidən Bayron Banç. Bütün bunların əvəzində heç nə, yalnızca həmin o başqasını – özü də bu adam min dolları qamarlayıb ələ keçirən kimi – bu qadının yanına gətirməyə icazə almaqdan başqa heç nə qazanmayan və bundan sonra artıq heç nəyə lazım olmayan Bayron Banç. Bayron Banç* “İndi mən burdan çıxıb gedə bilərəm”, – o düşündü. Dərindən nəfəs almağa

başladı. Hiss elədi ki, çətin, ağır-ağır nəfəs alır, sanki, vücudu hər dəfə udmağa hava tapa bilməyəcəyindən, nəsə dəhşətli bir şey olacağından qorxurdu; ona elə gəldi ki, istənilən an nəfəs alıb-almadığını bilmək üçün öz sinəsinə baxa, sanki, artıq içəridən alışmağa başlayıb, getdikcə daha da gərginləşən, bax elə İndicə, İNDİCƏ partlayıb dağılacaq, amma o anacan öz zahiri görkəmini, formasını zərrə qədər dəyişməyəcək dinamit gilizi kimi onda heç bir hərəkət əlaməti hiss olunmadığını görə bilər; buna görə də yoldan keçənlər ona baxanda ondakı bu dəyişikliyi heç cür görə bilmirdilər: heç kimin diqqətini bir anlığa belə cəlb etməyən, kiminsə bir dəfə dönüb baxsa belə onun bu qədər iş görə, bu qədər dərin şeylər hiss edə biləcəyinə inanmadığı cılız bir adam; indən belə şənbə günü iş vaxtı bitəndən sonra orda, yonqar sexində tək-tənha qalarkən ona dərd gətirən hər hansı bir hadisəylə bir daha üzləşməyəcəyinə içdən inanan bir adam...

Adamların arasına qarışdı. “Mən harasa çıxıb getməliyəm” – deyə düşündü. Addımlarını da bu sözlərin ahənginə uyğun atmağa çalışdı: “Mən harasa çıxıb getməliyəm”. Bir xeyli beləcə yeridi. Pansiona çatanda o sözləri hələ də ürəyində təkrar edirdi. Yaşadığı otağın pəncərəsi küçəyə baxırdı. Ona tərəf baxdığının fərqinə varmamış gözlərini ondan çəkdi. “Uzaqbaşı orda kiminsə pəncərə önündə oturub siqaret çəkdiyini, ya da kitab oxuduğunu görəcəm”, – fikirləşdi. Dəhlizə girdi. Səhərçağının günəş işığından sonra gözləri heç nə görmürdü. Nəm linolum, sabun iyi duydu. “Hələ bazar ertəsidi, – düşündü. – Mənsə bunu tamam unutmuşam. Bəlkə də, bu, növbəti bazar ertəsidi. Görünür, elə belə də olmalıdı”. Heç kimi səsləmədi. Artıq gözləri qaranlığa bir az öyrəşmişdi. Dəhlizin o biri başındanmı, yoxsa mətbəxdənmi süpürgə səsi gəldi. Sonra dördkünc işıqdan – açıq qalmış arxa qapıdan miss Birdin əvvəlcə aşağı əyilmiş başı, sonra isə siluet şəklində ona tərəf gələn bütöv vücudu göründü.

– Belə-belə işlər, – qadın dedi, – bu, mister Bayron Banç imiş. Mister Bayron Banç.

– Hə, mənəm, – o dedi və fikirləşdi: “Yalnız belə bir gonbul, həyatdakı bütün dərdi-səri bu vedrəyə ancaq sığışa biləcək bir qadın mənə qarşı heç vaxt ...” Yenə də istədiyi sözü tapa bilmədi, Haytauer isə onu bir an belə fikirləşmədən dilinə gətirərdi. “Görünür, mən onsuz heç nə eləyə bilmirəm, onsuz heç düşünə də bilmirəm”. – Mənəm... – dedi. Daş kimi süst düşüb qalmışdı, hətta bu qadınla vidalaşmağa gəldiyini izah etməyə belə taqəti yox idi. “Bəlkə də, belə deyil, – o fikirləşdi. – Bir otaqda yeddi il yaşamış adamı bir gündə ordan çıxarmazlar. Amma bu, onun otağı başqa birinə kirayəyə verməsinə əngəl ola bilməz”. – Deyəsən, mənim sizə kirayə haqqından borcum qalıb, – o dedi.

Qadın ona baxdı; ciddi, rahat sifəti vardı, acıqlı da deyildi.

– Nə borcunuz qalıb? – o təəccübləndi. – Elə bilirdim, siz artıq özünüzə başqa yer tapmısınız. Yay üçün çadıra köçmüsünüz. – Qadın ona baxdı. Nəhayət, dillənəndə isə mümkün qədər mülayim, nəzakətli olmağa çalışdı. – Bu otağın kirayə haqqını artıq ödəyiblər.

– Hə-ə?! – Bayron dedi. – Yaxşı. Aydındı. Başa düşürəm. – O, sakitcə linelium döşənmiş tərtəmiz, başqaları kimi onun da ayaqları altında yeyilib-solmuş pilləkənə baxdı. Üç il bundan əvvəl onun üstünə təzə linolium salınanda ev sakinləri arasında birinci o bu pilləkənlə yuxarı qalxmışdı. – Yaxşı. – o dedi. – Onda mən...

Qadın buna da dərhal, hirssiz-filansız cavab verdi.

– Özüm hər şeyi eləmişəm. Nəyiniz qalmışdısa hamısını sizin çamadana yığmışam. Mənim otağımdadır. Amma istəsəniz, özünüz qalxıb bir də baxa bilərsiniz.

– Yox, elə bilirəm, buna ehtiyac yoxdu. Yəqin ki, siz hər şeyi... Yaxşı onda...

Qadın hələ də ona baxırdı.

– Eh, kişilər, – o dedi. – Elə buna görə də qadınlar sizə qarşı bu qədər səbirsizdilər. Siz heç şıltaqlığın da həddini bilmirsiniz. Hədd isə düzünə qalsa, üskük kimi bir şeydi. Əgər siz kişilər kömək üçün özünüzə qadın tapmasaydınız, heç on yaşına çatmamış hamınızı bir nəfər kimi cənnətə apardılar.

– Məncə, siz o qadın haqqında pis danışmamalısınız. Buna elə bir əsasınız yoxdu, – o etiraz etdi.

– Heç olmasın. Mənim heç buna ehtiyacım da yoxdu. Bir qadının digərinin arxasınca danışması üçün əsas tələb olunmur. Əlbəttə, söz-söhbətlərin çoxu qadınlardan çıxır. Ancaq əgər siz təkcə kişi kimi deyil, daha geniş düşünə bilsəydiniz, onda bilərdiniz ki, qadın nəsə deyirsə, bunun onun özü üçün heç bir əhəmiyyəti olmur. Öz dediklərini ciddi qəbul eləyən məhz sizsiniz, kişilərdi. Əgər o qadına, ya da sizə qarşı bir qərəzi olan varsa, bilin ki, o, qadın cinsindən deyil. Axı hər qadın yaxşı bilir ki, sizə pis münasibət bəsləməyə heç bir əsası yoxdur – hətta o körpə məsələsini nəzərə almasa belə. Həm də təkcə sizə yox, hələlik istənilən kişi xeylağına qarşı. Bu, onun nəyinə gərəkdi. Bəyəm məhz siz, o keşiş, – elə başqa kişilər də, – o qadın üçün nə lazımdı eləməmisiniz, onun öz ürəyindən keçirə biləcəyi hər şeyi etməmisiniz? Qadın olan kəs axı niyə sizə pis münasibət bəsləsin? Deyin görək, xahiş edirəm.

– Elədi, – Bayron dedi. Artıq qadına baxmırdı. – Mən gəlmişdim...

Qadın buna da dərhal, o, sözünü bitirməmiş cavab verdi.

– Yəqin, tezliklə burdan çıxıb gedəcəksiniz. – Qadın diqqətlə onun sifətinə baxdı. – Bu gün səhər onlar məhkəmədə nə qərara gəldilər?

– Bilmirəm. Hələ qurtarmayıblar.

– Məlum məsələdi. Onlar qərara gələnəcən gör nə qədər vaxt, zəhmət, xəzinə pulu havayı sərf olunacaq, halbuki bu iş üçün biz qadınlara elə şənbə günü axşam onca dəqiqə bəs edərdi. Bu qədər də axmaqlıq olar?! Əlbəttə, Ceffersonda heç kim onun xiffətini çəkməyəcək. Onsuz da, birtəhər keçinərik. Ancaq bu qədər də axmaqlıq olmaz ki... Sən bir işə bax, guya, bir qadını

öldürmək bir kişiyə daha çox rahatlıq gətirir, nəinki bir kişini öldürmək qadına... Yəqin, indi o birini buraxarlar.

– Hə. Yəqin.

– Amma onlar əvvəlcə belə hesab edirdilər ki, bu adam qətlin iştirakçısı olub, qatilə kömək eləyib. İndi isə min dollar pul verib, guya, ona qarşı heç bir qərəzləri olmadığını göstərəcəklər. Bundan sonra onlar da gedib rahatca evlənə biləcəklər. Təxminən belə olacaq, elə deyil?

– Elədi. – Hiss elədi ki, qadın gözünü ondan çəkmir, hirssiz-qəzəbsiz ona tamaşa edir.

– Elə bilirəm, bundan sonra siz də bizi tərk edib gedəcəksiniz. Artıq Ceffersondan, necə deyərlər, tamam bezmisiniz, elə deyil?

– Hə, təxminən elədi. Məncə, burdan getsəm, yaxşıdı...

– Cefferson, əlbəttə ki, yaxşı şəhərdi. Amm, hər halda, sizin kimi sərbəst, gəzəri bir adamın özünə yar-yoldaş tapa, onunla birlikdə həyatın həm şirin, həm də acı günlərini birlikdə yaşaya biləcəyi yer deyil... Tam yır-yığış edənəcən çamadanınızı burda qoya bilərsiniz.

Günortaya kimi birtəhər girələndi, sonra da şerifin nahar saatının haçan qurtaracağını gözlədi. Yalnız bundan sonra şerifin evinə yollandı. İçəri özü girmədi. Şerif – xırda, müdrik gözləri bir cüt kəpənək pulcuğu kimi, ətli, donuq sifətin içində gizlənmiş bu adam qapıya çıxanacan yerindən tərpənmədi. Sonra bir yerdə, ağacın altına, kölgəliyə keçdilər. Burda oturacaq yox idi; adətkərdə olmalarına baxmayaraq (hər ikisi kənddə böyümüşdü), heç biri çömbəlib yerdə oturmadı. Şerif bu, boydan xeyli qısa, sakit, burda yaşadığı yeddi il ərzində şəhər üçün heç bir ciddi maraq doğurmayan, amma son yeddi gündə, az qala, hamının baş bəlasına çevrilən bu adamı səbirlə, sakitcə dinlədi.

– Aydındır, – o dedi. – Deməli, siz belə hesab edirsiniz ki, artıq onların evlənmək vaxtı çatıb.

– Bilmirəm. Bu həm onun, həm də qadının öz işidi. Ancaq məncə, gedib ona dəyməlidi. Elə bilirəm, əsl vaxtdır. Siz öz köməkçinizi də ona qoşa bilərsiniz. Mən qadına demişəm ki, axşam gələcək. Orda onlar nə qərara gələcəklər, bu, qadınla onun işidi. Mənim deyil.

– Əlbəttə, – şerif dedi, – bu sizin işiniz deyil. – O, yanpörtü Bayrona baxdı. – Bəs siz nə etmək fikrindəsiniz, Bayron?

– Bilmirəm. – O, sakitcə ayağının ucu ilə yeri eşir, gözünü ordan çəkmirdi. – Özümü Memfisə vermək istəyirəm. İki ildi bu haqda düşünürəm. Bəlkə də, getdim. Bu xırda şəhərlərdə nə var axı?

– Əlbəttə. Əgər şəhər həyatından xoşun gəlirsə, Memfis pis yer deyil. Ailə-uşaq da sizi basmayıb, kimisə arxanızca sürüməyə də məcbur deyilsiniz. Mən də subay, indikindən onca yaş cavan olsaydım, yəqin ki, belə edərdim. Bəlkə, özüm üçün bundan da yaxşı şərait yaradardım. Belə görürəm ki, siz lap elə indi getməyə hazırlaşırsınız.

– Çox güman ki, tezliklə gedəcəm. – O, başını qaldırdı, sonra yenə aşağı saldı. Dedi: – Səhər tezdən gedib işdən də çıxmışam.

– Bildim, – şerif dedi. – Yoxsa siz, saat on ikidə ordan çıxıb, şəhərin bu başına gələ, sonra da saat birə kimi heç cür geri qayıda bilməzdiniz. Amma deyəsən... – O susdu. Bilirdi ki, məhkəmə iclasçıları axşamadək Kristmas haqqında ittiham hökmü çıxaracaq, Braundu, Berçdinədi, onu da növbəti ay şahid qismində məhkəməyə gəlmək şərtilə həbsdən buraxacaqlar. Hərçənd məhkəmə bəd ayaqda onsuz da ötüşə bilərdi, çünki Kristmas heç nəyi inkar etmirdi və şerifə elə gəlirdi ki, o, sağ qala bilmək üçün günahını boynuna alacaq. "Ömründə bircə dəfə də olsa, bu oğraşı qorxutmaq, canına vəlvələ salmaq pis olmazdı", – o düşündü. Sonra sözünə davam etdi: – Məncə, bu işi təşkil etmək mümkündü. Əlbəttə, düz deyirsiniz, köməkçimi də onun yanında göndərərəm. Hərçənd bu adam o mükafatın, heç olmasa, bir qisminə yiyələnmək ümidini tam itirməyənəcən heç yana qaçan deyil. Həm də orda kiminlə qarşılaşacağından xəbəri yoxdu. Bundan hələ tam xəbərsizdi.

– Elədi, – Bayron təsdiq etdi. – Xəbəri yoxdu. O qadının Ceffersonda olmağından tamam xəbərsizdi.

– Onda elə belə də eləyərik – köməkçimlə bir yerdə onu ora göndərərik. Niyəsini isə ona bildirmərik. Göndərərik, vəssalam. Bəlkə, onu ora siz özünüz aparmaq istəyirsiniz?

– Yox, – Bayron dedi. – Yox. Yox. – Amma yerindən də tərpənmədi.

– Elə də eləyərik. Yəqin ki, o vaxtacan siz artıq burda olmayacaqsınız. Köməkçi ilə bir yerdə özümüz bu işi yoluna qoyarıq. Saat dörddə. Necədi?

– Lap yaxşı. Xeyirxah iş görmüş olarsınız. Çox xeyirxah.

– Elədi. Ceffersona gəldiyi gündən bəri tək mən yox, camaatın çoxu onun qeydinə qalmağa çalışır. Sizinləsə hələ vidalaşmıram. Elə bilirəm ki, biz Ceffersonda hələ yenə görüşə biləcəyik. Burda yaşayıb, sonra isə burdan birdəfəlik çıxıb gedən adama hələ ki, rast gəlməmişəm. Təkcə o həbsdə olandan başqa. Elə bilirəm, o öz günahını inkar etməyəcək. Sağ qala bilsin deyə. Hərçənd istənilən halda Ceffersonu tərk etməli olacaq. Onu öz nəvəsi hesab edən o qarı indi, kim bilir, nələr çəkir. Mən evə gedəndə onun əri, o sərsəm qoca yenə şəhərdəydi, çığırıb dava-dalaş salırdı, o məhbusu həbsdən çıxarıb daş-qalaq etmədiklərinə görə bu şəhərin adamlarını qorxaq, maymaq adlandırırdı. – O, bərkdən fınxırmağa başladı. – Bir az ehtiyatlı olsaydı, daha yaxşı olardı, yoxsa onun bu sözləri Persi Qrimlə əsgərlərinin qulağına çatsa, aləm bir-birinə qarışacaq. – Dərhal da ciddiləşdi. – Qarı isə kim bilir, nələr çəkir. Elə bütün qadınlar. – Çevrilib Bayrona baxdı. – Burda çoxumuzun başına çox iş gəlib, çox şeyə dözməli olmuşuq. Ancaq hər halda, çalışın, tez geri qayıdın. Bəlkə gələn dəfə Cefferson sizinlə daha yaxşı, daha xoş davrandı.

Həmin gün saat dörddə, xəlvət bir yerdə gizlənib irəli baxarkən o lap yaxınlıqda bir maşın dayandığını, şerifin köməkçisinin Braun adı ilə tanınan həmin adamla birlikdə maşından yerə

düşdüyünü və onların daxmaya doğru getdiklərini görür. Braun indi qandalsızdır; Bayron bir müddət diqqətlə onların qapıya necə yaxınlaşdıqlarına, köməkçinin Braunu necə içəri itələdiyinə baxır. Sonra qapı Braunun arxasınca örtülür, köməkçi isə pilləkənin üstündə oturub, tənbəki kisəsini cibindən çıxarır. Bayron ayağa qalxır. "İndi çıxıb getmək olar, – deyə düşünür. – İndi getmək olar". O, bir müddət əvvəl yanan evin yerləşdiyi çəmənlikdə, kolluqda gizlənmişdi. Qatırı da kolluğun arxasında – nə daxmadan, nə də yoldan görünən bir yerdə bağlamışdı. Sarı, nimdaş, dəridən olmayan çamadan yeyilib-bozarmış yəhərin arxa tərəfinə sarınmışdı. Bayron qatıra minir, onu dəhmərləyib yola çıxarır. Dönüb geriyə də baxmır.

Günortaüstünün sakit, dinc havasında yumşaq, qırmızımtıl torpaq yol yavaş-yavaş təpəyə doğru qalxır. "Hə, bu təpəyə tab gətirəcəm, – o fikirləşir. – Təpəyə tab gətirə bilərəm, insan buna tab gətirər". Hər yan sakitlik, dinclik içərisindədir, yeddi ildir buna vərdiş eləyib. "Görünür, insan hər şeyə tab gətirə bilər. Hətta özü eləmədiyi şeyə də. Hətta "Elə şey var ki, ona tab gətirmək mümkün deyil" fikrinə də. Hətta yerə çöküb, hönkür-hönkür ağlamalı olduğu halda, bunu eləmədiyinə də. Hətta geri dönüb baxsa da, baxmasa da artıq bunun heç bir faydası olmadığını biləndə də tab gətirə – dönüb geri baxmaya bilər".

Yamac hələ də üzüyuxarı – təpənin belinə qalxır. Bayron heç vaxt dəniz görməmişdi, buna görə də fikirləşir. "Bu, elə bil, olmayan bir şeyin son hudududur. Sanki, o hüdudu keçəndən sonra var olmayan bir yerə düşəcəm. Elə bir yerə ki, orda ağaclar ağaca oxşamayacaq, onların adı ağac yox nəsə başqa şey olacaq, adamlar da o cür: adama oxşamayacaq, onların da adı adam yox, başqa şey olacaq. Bayron Banç isə orda olmamalıdı, ya da Bayron Banç kimi olmamalıdı. Bayron Banç öz qatırı ilə o təpədən üzüaşağı enəndə var olmayan bir şeyə çevriləcək, sonra isə, alışıb yanacaq, keşiş Haytauerin göy üzündə dolaşan daşlar barədə dediyi kimi, sürətin təsirindən qıpqırmızı qızararaq alışıb yanacaq, hətta külü belə gəlib yerə çatmayacaq".

Amma təpənin başına qalxanda qarşısına tamam başqa bir mənzərə açılır; məhz orda olmalı olan şeylər: ağacaoxşar ağaclar, nəhayətsiz, uzun, yorucu ənginlik görünür; indi o öz qanının qovhaqovu altında bu ənginlikdən keçib əbədi olaraq yer üzünün bir qaçılmaz üfüqündən o birinə qovuşmalıdı. O ağaclar, o ənginlik heç də qorxunc, məşum görünmür. İş də elə bundadı. O, onların vecinə də deyil. "Bilmirlər, heç bilmək də istəmirlər, – o fikirləşir. – Sanki, deyirlər *Çox yaxşı. Deyirsən ki, əzab çəkirsən. Olsun. Amma əvvələn, bu barədə bizə sənin dediklərindən savayı, heç nə məlum deyil. İkincisi, təkcə sən deyirsən ki, Bayron Bançsan. Üçüncüsü, sən, sadəcə, yalnız bu gün, indi, bu dəqiqə özünü Bayron Banç adlandıran bir adamsan...* Əgər belədirsə, – o düşünür, – onda, məncə, geri dönüb baxmağa tab gətirməli, özümü bu ləzzətdən məhrum etməməliyəm". Qatırın cilovunu çəkib saxlayır, yəhərin üstündə arxaya çevrilərək, geri baxır.

Bu qədər uzağa gedib çıxdığını, təpənin bu qədər yüksəklikdə olduğunu güman etməmişdi. Qarşı tərəfdəki, Ceffersonun yerləşdiyi təpə silsiləsinəcən uzanıb gedən, yetmiş il bundan əvvələcən plantasiya mülkü kimi tanınan geniş ərazi indi aşağıda xırda bir məcməyiyə bənzəyirdi. İndi o plantasiya nizamsız, adda-budda zənci daxmaları, bostan yerləri və eroziya xəstəliyinə tutulmuş, üstünü palıd, dəfnə, xurma, itburnu kolları basmış cəngəlliklərə bölünüb parça-parça olmuşdu. Tən ortasındakı palıdlıq isə hələ də əvvəlki, mülk evi tikiləndə olduğu kimi qalırdı; amma indi o ev də orda yox idi. Burdan onun heç yanığı, uçuğu da görünmürdü; o palıdlıq, uçuq-sökük at tövləsi və ondan bir az arxadakı daxma olmasaydı, yəqin ki, o evin yerini burdan heç cür dəqiq müəyyən etmək olmazdı. İndi onun baxışları məhz o daxmaya zillənmişdi. Uşaq evciyinə bənzəyən daxma ikindi çağının parlaq günəşi altında sakitcə başını göyə dikib durmuşdu, apaydın görünürdü; şerifin köməkçisi də oyuncaq adam kimi onun qapısı ağzında oturmuşdu. Bayron aramsız ora baxır və birdən sehrli bir şey kimi daxmadan, onun arxa tərəfindən bir kişinin çıxdığını görür: o artıq qaçır, qaça-qaça ordan uzaqlaşır; şerifin köməkçisi isə heç nədən şübhələnmədən hələ də qapının ağzında oturub. Bayron da yəhərin üstündə, arxaya çevrilmiş halda elə o cür, hələ də hərəkətsiz oturub xırda, qarışqa boyda bir fiqurun daxmanın arxa tərəfindəki çılpaq yamacla meşəyə doğru necə qaçdığına tamaşa edir.

Birdən, sanki, somsoyuq, güclü bir külək onun iliyinə işləyir. Bu külək həm çox sərt, həm də çox yumşaqdır; bütün ehtiras və ruh düşkünlüyünü, ümidsizlik və acını, bihudə xəyalları saman çöpü, alaq otu və yaxud qupquru yarpaq kimi bir andaca havaya sovurub aparır. Ona elə gəlir ki, bu külək onun özünü də götürüb bir andaca geriyə, iki həftə bundan əvvələ, o qadınla hələ rastlaşmadığı dövrə atdı – içindəki ağrı-acını bir andaca göyə sovurdu, onu arıdıb durultdu. Dərhal nəsə eləmək istəyir, amma bu istəyi, sadəcə, istək deyil, ondan da üstün bir şey – sakit, sarsılmaz bir qətiyyətdir; beyinin hansı əmri verdiyini hələ tam dərk etməmiş, qatırın başını döndərir, yoldan çıxıb, artıq meşədə gözdən itmiş olan qaçaq adamın yoluna paralel təpəylə çapmağa başlayır. O, hətta ürəyində belə o adamın adını dilinə gətirmədi. Onun hara və nə üçün qaçdığı barədə bir saniyə belə düşünmədi. Özünün də əvvəlcədən dediyi kimi, Braunun yenə qaçıb aradan çıxacağı ağlına belə gəlmir. Əgər bir anlığa düşünsəydi, yəqin, bu qərara gələrdi ki, Braun bu saat – öz qəribə davranışına uyğun tərzdə də olsa – Lina ilə birlikdə burdan çıxıb getmək üçün hansısa tamamilə qanuni işlə məşğuldu. Ancaq o, indi bu barədə düşünmür; Linanı da tamam unudub; bir an belə onu yadına salmır, sanki, ömründə nə onun üzünü görüb, nə də adını eşidib. O fikirləşir: “Mən bu adamın qadınının qayğısına qalmışam, uşağını doğmaqda ona kömək etmişəm. İndi isə ona daha bir yaxşılıq edə bilərəm. Yox, mən onlara kəbin kəsə bilmərəm, çünki keşiş deyiləm. Yəqin ki, heç indi ona çata da bilmərəm, çünki burdan çox uzaqlaşıb. Yəqin ki, tutub əzişdirə də bilmərəm, çünki məndən iri, cüssəli, məndən güclüdür. Ancaq hər halda, buna cəhd eləyə bilərəm. Cəhd eləyə bilərəm”.

Şerifin köməkçisi onu ora, daxmaya aparmaq üçün həbsxanaya gələndə, Braun dərhal hara getdiklərini soruşdu. “Qonaq gedirik” – köməkçi dedi. Braun yaraşıqlı, süni cəsarət yağan sifətiylə ona baxa-baxa yerindəcə donub qaldı.

– Bu şəhərdə mənim qonaq gedə biləcəyim yer yoxdu. Mən burda yad adamam.

– Sən hər yerdə yad adam olacaqsan, – köməkçi dedi. – Hətta öz evində belə. Gəl, gəl gedək.

– Mən Amerika vətəndaşıyam, – Braun etiraz etdi. – Mənim də hüquqlarım var, nə olsun ki, asma qayışımda sizinki kimi dəmir ulduz yoxdu.

– Eləmi? – köməkçi dedi. – Sən bilən, mən indi nəylə məşğulam? Mən sənə öz hüquqlarına sahib çıxmaqda kömək edirəm də.

Branun sifəti güldü:

– Nədi, onlar... Onlar mənə düşən mükafatı ...

– Vermək istəyirlər? Ola bilsin. İndi səni elə bir yerə aparacam ki, orda, əlbəttə, əgər fikrini dəyişməzsənsə, öz mükafatını alacaqsan.

Bu sözlər Braunun köpünü aldı. Köməkçini şübhəli nəzərlərlə süzməkdə davam etsə də, onun böyrünə düşdü.

– Siz niyə hər şeyi tərsinə eləyirsiniz? – o dedi. – Məni burda həbsdə saxlayırsınız, o əclaflar isə orda, məhkəmədə mənim haqqımı əlimdən almaq, mənə kələk gəlmək istəyirlər.

– İnanmıram ki, sənə kələk gələ biləcək bir əclaf anasından doğulmuş olsun, – köməkçi cavab verdi. – Getdik. Bizi gözləyirlər.

Həbsxanadan çıxdılar. Gün işığına çıxanda Braun gözlərini qıydı, oyan - buyana baxdı, sonra başını at kimi çiyninin üstündən geriyə qanırdı. Yolun qırağında maşın onları gözləyirdi. Braun o maşını, sonra isə köməkçini çox ciddi, şübhəli nəzərlə süzdü.

– Biz hara belə gedirik? – o, bir daha soruşdu. – Səhər tezdən mən məhkəməyə piyada gedəndə yol heç bu qədər uzaq deyildi.

– Uatt maşını ona görə verdi ki, sən öz mükafatını rahatlıqla bura gətirə biləsən, – köməkçi izah elədi. – Min.

Braun hırıldadı.

– Nə əcəb birdən-birə o, mənim qeydimə qalmağa başlayıb? Məni indi maşında, qandalsız-zadsız aparırlar. Əfəl bir mühafizəçi də qoyublar ki, qaçmayım.

– Mən sənin qaçmağına mane olan deyiləm, – köməkçi dedi. Maşını yerindən tərpətməyinə bir anlıq ara verdi. – Elə indi, bu dəqiqə qaçmaq istəyirsən?

Braun, qaşqabağını töküb, hirslə, təhqir olunmuş kimi, şübhəylə onu süzdü.

– Aydındır – dedi. – Mənə kələk gəlmək istəyir. Deməli, istəyir ki, qaçıb aradan çıxım, min dolları özü qamarlasın. Sənə nə qədər vəd eləyib?

– Mənə? Biz sənlə onu qardaş malı kimi, sentinəcən yarı böləcəyik.

Bir an keçməmiş Braun köməkçiyə elə nifrətlə baxmağa başladı ki, sanki, bu adam onun ən qatı düşməniydi. Sonra çarəsiz halda, hirslə kobud söyüş söydü – kimin ünvanına, bilinmədi.

– Yaxşı, daha nəyi gözləyirik, – dedi. – Əgər getməliyiksə, sür gedək.

Şəhərdən çıxıb yanğın və qətl hadisəsinin baş verdiyi səmtə tərəf üz tutdular. Braun, dar yolda avtomobilin qabağına qaçan yiyəsiz qatır kimi, tez-tez, eyni ritm və ahənglə fınxırıb başını yanpörtü yuxarı atırdı.

– Biz nə üçün bu tərəfə gedirik?

– Sənin mükafatını almaq üçün, – köməkçi dedi.

– Burda onu hardan alacam?

– Odur, bax, o daxmada. Orda o, səni gözləyir.

Braun haçansa mülk evi olmuş qapqara kösövlərə, içində dörd ay yaşadığı, illərin isti-soyuğundan soluxub nimdaşlaşan, indi isə günəş altında sakitcə mürgüləyən daxmaya ötəri nəzər saldı. Qaşqabağını tökmüş, döyükə-döyükə qalmışdı.

– Yox, burda nəsə fırıldaq var. Bu Kennedi elə bilir ki, dəmir nişanı döşünə vurubsa, deməli, mənim hüquqlarımı kefi istədiyi kimi tapdalaya bilər...

– Yeri, yeri, – köməkçi dedi. – Əgər mükafat xoşuna gəlməsə, onsuz da, burda gözləyirəm, haçan istəsən, səni geri, həbsxanaya qaytaracam. Kefin haçan istəsə, istənilən an. – O, Braunu qabağa itələdi, daxmanın qapısını açıb, onu zorla içəri saldı, sonra da qapını örtüb, pilləkənin üstündə oturdu.

Braun qapının arxasınca necə örtüldüyünü eşitdi. Qeyri-ixtiyari bir az da irəli getdi. Və birdən, hələ bu otağın içini iti, əndişəli, hər bir küncü eyni anda görməyə çalışan çaşqın nəzərlərlə – sanki, gözlərinin otağa öyrəşməyə heç cür hövsələsi çatmırdı – yoxlamağa macal tapmamış yerindəcə donub qaldı. Lina çarpayıda uzandığı yerdən onun ağzının qırağındakı çapığın dərhal silinib yox olduğunu aydın gördü, elə bil, tələtümə gəlmiş qan onu kəndirdən asılmış paltar kimi ordan dartıb qopardı. Lina cınqırını belə çıxarmadı. O, belini balınca söykəyib uzanmışdı, ayıq nəzərlərlə ona baxırdı; bu baxışlarda heç nə ifadə olunmamışdı – nə sevinc, nə təəccüb, nə təhər-töhür, nə də sevgi; Braunun sifətində isə çaşqınlıq, qəzəb və nəhayət, dəhşətli bir qorxu – sanki, satqın ağ çapığa rişxənd edirlərmiş kimi – bir-birini əvəzləyir, hövlnak, küncə qısdırılmış gözlər boş otağı ələk-vələk etməyə çalışırdı. Lina onun bu gözləri, qəfil ürkmüş bir cüt at kimi, nəhayət, zorla da olsa, birtəhər cilovlaya bildiyini, göz-gözə gəlmək üçün ona tərəf döndərməyə çalışdığını gördü.

– Belə-belə işlər, – o dedi. – Belə-belə işlər. Bir buna bax, bu ki, Linadı. –Braunun onun baxışlarına tab gətirə bilmək üçün öz gözlərini ürküb qaçmağa can atan bir cüt at kimi zorla cilovlayıb saxlamağa, onları qaçmağa qoymamağa çalışdığını Lina aydın görürdü – sanki, bu adam yaxşı başa düşürdü ki, əgər onların cilovunu əlindən buraxsa, məhv olacaq, ikinci dəfə onları geri döndərə, qaytara bilməyəcək. Lina, az qala, indi, bu saat onun şüurunun əndişə, tələş, qorxu içində dilinə, səsinə ötürmək üçün nəsə bir şey axtarırmış kimi oyan-buyana necə səkdiyini də aydınca görürdü. – Allah haqqı, bu, Linadı. Vallah, belədi, ser. Deməli, sən mənim məktubumu almısan. Mən bura gələn kimi sənə yazmışdım, keçən ay, burda işlərimi qaydaya salan kimi elə bilirdim yolda itib-batıb, gedib sənə çatmayıb... Bir oğlan vardı, heç adını da bilmirəm, o dedi ki, aparıb çatdıra bilər... Belə baxanda o qədər də etibarlı adama oxşamırdı, amma başqa əlacım yox idi; sonra fikirləşdim, yol pulun olsun deyə sənə onunla on dollar pul da göndərdim... – Onun səsi qırıldı, yalnız gözlərindəki ümidsizlik heç cür səngimək bilmirdi. Lina, onun şüurunun aramsız olaraq necə çək-çevir etdiyini hələ də aydın görür və amansızcasına, heç bir hissə qapılmadan ciddi, qırpılmayan, dözülməz baxışlarla onun necə çağaladığına, necə gicəlləndiyinə, ora-bura vurnuxduğuna tamaşa edirdi; nəhayət, məğrurluq tamamilə gücdən düşüb bəraət istəyi səviyyəsinə endi, sonra isə onun son və acı qalıqları bu adamı tərk edərək, onu axırıncı sığınacaqdan da məhrum etdi. Məhz onda Lina danışmağa başladı. Səsi asta, sakit və soyuq idi.

– Bura gəl, – dedi. – Yaxın gəl. Qorxma, o səni dişləməz. – Nəhayət, o, yerindən tərpəndi, amma barmaqlarının ucunda yeridi. Lina artıq ona tərəf baxmasa da, bunu gördü. Ona tərəf baxmasa da, bunu da, indi onun yöndəmsiz, qorxa-qorxa, demək olar ki, məhrəmanə bir ehtiyatlılıqla ona və yuxulu körpəyə yaxınlaşdığını da bilirdi. Ancaq onu da bilirdi ki, bu ehtiyatlılıq nə körpə önündə olduğuna, nə də bu körpənin özünə görə deyildi. Bilirdi ki, bu saat onun gözünə körpə-filan görünmür. Və Lina hələ də onun şüurunun necə vurnuxduğunu, çək-çevir etdiyini yaxşı görürdü. *Özünü elə göstərməyə çalışacaq ki, guya, heç nədən qorxmur* o fikirləşdi *Bu adam yalandan qorxuram deyəcək qədər həyasızdı, bir vaxtlar qorxmadan yalan danışdığı kimi*

– Belə-belə işlər, – Braun dedi. – Bir buna bax, doğrudan da uşaqmış.

– Hə, – Lina dedi. – Bəlkə, oturasan. – Haytauerin yaxına çəkdiyi stul hələ də çarpayının böyründəydi. Braun ona çoxdan diqqət yetirmişdi. *Hər şeyi mənim üçün qabaqcadan hazırlayıb* o fikirləşdi və yenə söyüş söydü – kimsə arxadan onu qovurmuş kimi səssizcə, ürəyində, qəzəblə. *Ax, əclaflar. Ax, əclaflar* Ancaq stula oturanda sifətində bunların heç birindən əsər-əlamət belə yox idi.

– Bəli, ser. Bax, yenə bir yerdəyik. Lap elə mən fikirləşdiyim kimi. Özüm sənin üçün hər şeyi hazırlayacaqdım, amma son vaxtlar iş-gücüm yaman çox oldu, başımı qaşımağa belə vaxt

tapa bilmirdim. Ayy, yadımdan çıxmışdı... – O, yenə at kimi fınxırıb, çiyni üstündən geri qanrıldı. Lina ona baxmırdı. Dedi:

– Burda bir keşiş var. O bura, mənim yanıma da gəlmişdi.

– Çox gözəl, – Braun dedi. Səsi yüksək, yanımcıl idi. Ancaq bu yanımcıllıq elə o ahəngin özü kimi tez də etibarsız çıxdı – səs kəsilən kimi o da kəsilib qurtardı, özündən sonraya heç nə, hətta eşidilə, yaxud həqiqət kimi qəbul edilə biləcək aydın ifadə olunmuş bir fikir belə saxlamadı. – Lap gözəl. Bircə bu işlərimi yoluna qoyub qurtara bilsəydim... – Linanın üzünə baxarkən əlləri ilə, sanki, nəyisə qucaqlamaq istəyirmiş kimi qeyri-müəyyən bir hərəkət elədi. Sifəti bomboş idi, heç bir məna ifadə etmirdi. Gözləri səksəkə içində ona baxa-baxa, oğrun-oğrun, gizlincə nəsə axtarırdı; onların lap dərinliyində isə yenə həmin o küncə qısdırılmış vəhşi heyvan ümidsizliyi gizlənmişdi.

– İndi sən nə işlə məşğulsan? Yonqar sexində işləyirsən?

O, gözlərini Linadan çəkmirdi.

– Yox. Ordan çıxmışam. – Gözlərini hələ də ondan çəkməmişdi. Elə bil, bu gözlər onunku deyildi, nə özünə, nə də indi elədiyinə, danışdığına aidiyyəti yox idi. – Deyirsən o zırrama zəncilər kimi mən də gündə on saat qul kimi işləyim? Burda əlimə ondan da pullu bir iş düşüb. Orda adama pul verməyə, elə bil, canları çıxır – saatına cəmi on beş sent verirlər. Bir-iki xırda-para əngəli də aşıb bu işi bitirən kimi burdan bir yerdə... – Onun gözləri gizlincə, gərginlik içində, diqqətlə yan tərəfdən Linanın aşağı əyilmiş sifətini izləyirdi. O, bir daha fınxırıb başını geri –yuxarıya atanda Lina yenə zəif, kəskin bir səs eşitdi: – Ayy, yadımdan çıxmışdı...

Lina yerindən heç qımıldanmadı da. Dedi:

– Bu haçan olacaq, Lukas? – və ətrafa ölü sükut, ölü hərəkətsizlik çökdüyünü eşitdi, duydu.

– Nə haçan olacaq?

– Özün bilirsən. O dediyin şey. Orda, bizim evdə. Əgər indi də tək, yalnız özüm olsaydım, bunun mənim üçün elə bir əhəmiyyəti olmazdı. Mən heç vaxt kimdənsə, nədənsə inciməmişəm. İndi isə hər şey başqa cürdü. İndi mənim narahat olmağa haqqım var.

– Həə, onu deyirsən? – o dedi. – Bildim, bildim. Sən narahat olma. Bircə aman ver, bu işi qurtarım, o pulu ələ keçirim. Qanunla o pullar mənimdi. Əgər o əclaflar nəsə... – Birdən dili dolaşdı. Səsini xeyli ucaltdığını hiss etdi, sanki, harda olduğunu tamam unutmuş, ya da fikirləşdiyini dilinə gətirmişdi. İndi astadan danışmağa çalışdı: – Sən fikir eləmə, özüm hər şeyi eləyəcəm. Əsas odu ki, sən narahat olmayasan. Mən heç haçansa səni bircə dəfə də olsun narahat olmağa məcbur eləmişəm, hə? Özün de də.

– Elədi, mən heç vaxt heç nədən narahat olmamışam. Bilirdim ki, məni pis vəziyyətdə qoymazsan.

– Əlbəttə, bilirdin. Amma bu əclaflar... bu... – O, stuldan qalxdı. – Ayy, tamam yadımdan çıxmışdı... – Lina ona tərəf baxmadı, heç nə demədi, o isə hələ də ayaq üstə dayanıb, həmin küncə qısdırılmış, ümidsiz və həyasız baxışlarla Linaya baxırdı. Sanki, qadın Lina onu tutub saxlamışdı; Lina özü də bunu bilirdi. Nəhayət, onu buraxdı – həm də şüurlu, könüllü surətdə.

– Deməli, işin çoxdu.

– Düzünə qalsa, hə. Hələ özümün də nə qədər xırım-xırda, zəhlətökən işlərim var, bir yandan da bu əclaflar... – Lina indi ona baxırdı. Onun bir gözünün arxa divardakı pəncərədə olduğunu gördü. Sonra bu adam çevrilib geriyə, bağlı qapıya tərəf baxdı. Daha sonra baxışlarını Linaya, onun ciddi sifətinə tərəf döndərdi – bu sifətdə ya heç nə ifadə olunmamışdı, ya da əksinə, onda bilinməsi mümkün olan hər şey vardı. O, səsini alçaltdı. – Burda düşmənlərim var. Bu adamlar qazandığım pulu mənə vermək istəmirlər. Buna görə də gərək... – Yenə də, sanki, Lina onu burda tutub saxlamışdı – onu son dəfə elə bir yalana, elə bir sınağa zorladı ki, hətta içindəki sonuncu məğrurluq qırıntıları belə buna qarşı üsyan etdi; onu kəndirlə, qarmaqla deyil, elə bir şeylə tutub saxlamışdı ki, söylədiyi yalan o şeyə toxunan kimi quru alaq otu, yaxud quru yarpaq kimi asanlıqla, öz-özünə qopub düşdü. Ancaq Lina ona heç nə demədi. Yalnız bu adamın barmaqlarının ucunda pəncərəyə necə yaxınlaşdığına, onu səssizcə necə açdığına tamaşa etdi. Sonra dönüb geri baxdı. Bəlkə də, indi özünü təhlükəsiz yerdə hesab edirdi: bu qadın əl atıb onu tutmağa macal tapmamış pəncərədən bayıra atıla biləcəkdi. Ya da içində ilişib qalmış hansısa xırda bir həya qırığı dilə gəlmişdi – bir qədər əvvəl məğrurluq hissinin qırıntıları özünü büruzə verməyə çalışdığı kimi. Çünki dönüb Linaya tərəf baxanda onun qoruyucu yalan, gop qabığı bir andaca sıyrılıb yerə düşdü. Az qala, pıçıltıyla dedi: – Orda, bayırda bir adam var. Qapıda dayanıb keşik çəkir. – Səssizcə, bir həmlədə, uzun bir ilan kimi pəncərədən sivişib özünü bayıra atdı. Pəncərənin arxasından zəif bir səs eşidildi – o qaçmağa başlamışdı. Yalnız həmin anda Linanın vücudu ilk dəfə hərəkətə gəldi – uzandığı yerdə bircə dəfə, dərindən köks ötürdü.

– İndi mən yenə də yerimdən qalxmalı olacam, – ucadan dedi.

Braun meşədən çıxıb dəmir yolundakı yalqızlıq zolağına düşür, zorla nəfəs alır. Ancaq bu cür tövşüməsi yorğunluğa görə deyil, hərçənd iyirmi dəqiqəyə, az qala, iki mil yol qət edib və bu yol heç də asan olmayıb. Bu, daha çox qaçıb canını qurtarmağa çalışan vəhşi heyvanın hirs və qəzəbdən ləhləməsinə bənzəyir və indi, bomboş dəmir yolu zolağının önündə təşvişlə gah sağa, gah da sola baxarkən onun sifəti öz həmcinslərindən ayrı düşüb təkbaşına qalan, onların köməyinə ehtiyac duymayan, yalnız öz əzələlərinə güvənərək xilas olmağa can atan, nəfəsini dərmək üçün bir anlığa dayanan, hər ağacda, gözünə dəyən hər kolda ən qatı düşmənini görən, üstündə yeridiyi torpağın, zorla uda bildiyi havanın özünə belə nifrət edən vəhşi heyvanı xatırladır.

Bələdlədiyi yerə hələ bir neçə yüz metr qalmış dəmir yoluna çıxmışdı. O yer yoxuşun ən yüksək zirvəsindəydi; şimala gedən yük qatarları onu zorla – ölə-ölə, az qala, piyadadan da zəif sürətlə qalxırdılar. Durduğu yerdən bir az aralıda iki parlaq xətti, sanki, qayçıyla kəsib atmışdılar.

Meşə kənarındakı adda-budda ağaclardan birinin arxasında gizlənib bir müddət orda – yalqızlıq zolağının önündə dayanır. Sur-sumbatından artıq uduzulmuş bir oyunda son ümidsiz gedişi fikirləşib tapmaq üçün beynində tələm-tələsik, ümidsiz hesablamalar aparan oyunçuya bənzəyir. Nəyisə lənətləyirmiş kimi bir az da orda dayandıqdan sonra dönüb təzədən meşənin içiylə, dəmir yolu boyunca qaçmağa başlayır. Elə bil, hara qaçmaq lazım olduğunu dəqiq bilir; tezliklə yaxınlıqda bir cığır görür, elə qaça-qaça da o çığıra dönür, nəhayət, açıqlığa çıxır: burda bir zənci daxması var. Ön tərəfdən, artıq qaçmadan, yeriyə-yeriyə həmin daxmaya yaxınlaşır. Qoca zənci qarı artırmada oturub qəlyan çəkir, başına ağ əsgi sarıyıb. Braun artıq qaçmasa da, hələ də ağır-ağır, tövşüyə-tövşüyə nəfəs alır. Nəfəsini sakitləşdirməyə çalışır, üzünü qarıya tutur:

– Salam, xalacan, – o deyir. – Burda kimsə var?

Qarı qəlyanı ağzından çıxarır.

– Mən varam. Sizə kim lazımdı?

– Şəhərə məktub göndərməliyəm. Həm də təcili. – Danışarkən, sanki, nəfəsini zorla tutub saxlamağa çalışır. – Pulunu da verəcəm. Burda elə bir adam var?

– Belə tələsikdisə, onu özün aparsan yaxşıdı.

– Dedim axı, pulunu verəcəm! – nəfəsini, səsini cilovlamağa çalışaraq, qəzəbli bir səbirlə təkrar edir. – İndi, bu dəqiqə aparana bir dollar verəcəm. Bəyəm burda pul qazanmaq istəyən yoxdu? Uşaqdan-zaddan?

Qarı ona baxa-baxa qəlyanını sümürür. Onun qədimi, qara, heç nə bilinməyən sifətindəki bir cüt göz bu yad adamı, sanki, ilahi bir biganəliklə (amma heç də mərhəmətlə deyil) başdan-ayağa süzür.

– Bir dollar deyirsən, hə?

O buna səbirsizlik, boğulmuş qəzəb və nəsə, ümidsizliyə bənzər bir şeyi andıran təsvirəgəlməz jestlə – əlini yellətməklə cavab verir. Artıq burdan çıxıb getmək istəyir, amma zənci qarının səsi onu tutub saxlayır.

– Burda heç kim yoxdu, bir mənəm, bir də iki uşaq. Onlar da sizin bu iş üçün çox kiçik olarlar.

Braun geri çevrilir.

– Niyə kiçik olurlar? Burda nə iş var ki, sadəcə, bir məktubu qaça-qaça aparıb şərifə çatdırmaq, sonra da...

– Şerifə? Yox, siz yanlış yerə gəlmisiniz. Mən onları şerifin yanına heç cür buraxmaram. Bizim zəncilərdən biri şeriflə o qədər yaxınlıq elədi ki, axırda həmişəlik orda qalmalı oldu. Bir daha evə qayıtmadı. Siz gedin o adamı başqa yerdə axtarın.

Braun, onsuz da, artıq ordan uzaqlaşır. Hələ ki, qaçmır. Hələ qaçmağı fikirləşməyib; indi, ümumiyyətlə, nəsə düşünmək iqtidarında deyil. Onda əlacsız qəzəb, az qala, ekstaz həddinə çatıb. Sanki, o, təsadüfi uğursuzluqlarının əcaib, fövqəltəbii çoxluğundan heyrətə gəlib. Bu cür müntəzəm uğursuzluqlarla qarşılaşmağın özü, sanki, onu cılız insan istəyi, insan ümidlərinin fövqünə qaldırır və o, bunların hamısını bir andaca ləğv edərək heçə endirə bilir. Buna görə də yalnız zənci qadın arxadan iki dəfə səsləndikdən sonra onun səsini eşidib, geri dönür. Qadın heç nə deməmişdi, heç oturduğu yerdən də tərpənməmişdi, sadəcə, iki dəfə onu arxadan haylamışdı. İndi isə o deyir:

– Bax, bu, apara bilər.

Artırmanın qırağında, sanki, yerin altından çıxıbmış kimi bir zənci dayanıb – ya yaşdan böyük, ağıldankəmin, ya da azyaşlı uzundrazın biridir. Sifəti qapqara, donuqdur, onda heç nə ifadə olunmayıb. Onlar dayanıb bir-birinə baxırlar. Daha doğrusu, Braun ona baxır. Zəncinin ona baxıb-baxmadığını Braun heç cür anışdıra bilmir. Bu da onun üçün çox əladı, məntiqlidi lap yerinə düşüb: çünki son ümidgahı və xilaskarı olacaq bu heyvərə, deyəsən, nəinki lazım olan adamı, heç şəhərin özünü belə gedib tapa biləcək qədər əqli qabiliyyətə malik deyil. Braun yenə anlaşılmaz tərzdə əlini yellədir. Sonra onu köynəyinin cibinə atıb, var gücü ilə geriyə, artırmaya tərəf qaçır.

– Bu məktubu təcili şəhərə apar, tez də mənə cavab gətir, – o deyir. – Bacararsan? – Amma onun nə deyəcəyini gözləmir. Cibindən kirli bir kağız parçası, sınıq bir karandaş qırığı çıxarıb, artırmanın kənarında aşağı əyilir, qarının gözü qabağında cidd-cəhdlə, tələm-tələsik yazır:

Mistr Uat Kenediyə xaiş edrəm qatil Krsmas tutulmasın görə mənim
mükafat pulmu bu kağızı gətrən adma verin ama onu bir kağza bükn sizin

İmza qoymur. Kağızı artırmanın üstündən götürüb, az qala, gözü ilə onu yeyir, qarı isə ona baxır. Bu adi, çirkli kağızı – səylə, tələm-tələsik yazdığı, amma bütün ruhunu, bütün həyatının məğzini onda ifadə etdiyini sandığı cızma-qaranı acgözlüklə bir daha nəzərdən keçirir. Sonra onu yenə artırmanın üstünə qoyur, amma ona *imza qoymasam da Kim olduğumu Özünüz yaxşı bilirsiz* sözlərini yazmır, sadəcə, dördkünc qatlayır, sonra da zənciyə uzadır.

– Şerifin özünə ver. Başqa heç kimə. Onu tapa biləssən?

– Tapa biləcək, əgər şerif özü onu daha tez tapmasa, – qarı müdaxilə edir. – Verin ona. Əgər o sağdısa, hökmən tapacaq. Ay oğul, dollarını al, çıx get.

Zənci artıq ordan aralanmışdı. İndi ayaq saxlayır. Heç nə demədən, heç kimə baxmadan, sadəcə, dayanıb gözləyir. Zənci qarı artırmada oturub, qəlyanını sümürə-sümürə yuxarıdan

aşağıya, ağ adamın solğun yırtıcı sifətinə baxır: yaraşıqlı, hətta açıq sifətdi, amma yorğundu, özü də, sadəcə, cismən yox, sanki, küncə qısdırılmış tülkü maskasına bürünüb.

– Mən elə bilirdim ki, bu, sizə tez lazımdı, – qarı dedi.

– Hə, – Braun deyir. Cibindən pul çıxarır. – Al. Əgər bir saatacan cavabını mənə gətirsən, beş dollar da verəcəm.

– Yeri get, zənci, – qarı əmr edir. – Yoxsa sabaha qədər buralarda girlənəcəksən. Cavabını bura gətirsin?

Braun bir an da ayaq saxlayıb, qarının sifətinə baxır. Sonra ehtiyatlılıq, həya hissi – hər şey onu tərk edir.

– Yox. Bura yox. Bax, o təpənin başına gətir. Dəmir yoluynan, şpalların üstüylə gələrsən, mən özüm səni səsləyəcəm. Hər dəqiqə gözüm üstündə olacaq. Bunu yadından çıxarma. Başa düşdün?

– Şübhəniz olmasın, – zənci qarı müdaxilə edir. – Məktubu da çatdıracaq, cavabını da gətirəcək – əgər onu orda tutub saxlamasalar. Yeri get.

Zənci gedir. Amma evdən yarım mil uzaqlaşmamış onu saxlayırlar. Bu da ağ adamdı, amma qatırın belindədi.

– Harda? – Bayron deyir. – Onu harda gördün?

– Elə indicə. Odey orda, o evdə.

Ağ adam qatırla yoluna davam edir. Zənci onun arxasınca baxır. Məktubu ağ adama göstərmədi, çünki o özü bunu istəmədi. Bəlkə də, ağ adam onda məktub olduğunu bilmirdi, buna görə də onu göstərməyi xahiş etmədi; bəlkə də, zənci elə fikirləşir, çünki onun sifətinə nəsə son dərəcə əndişəli, sirli bir ifadə çökür. Sonra sifəti açılır. O qışqırır. Ağ adam geri dönür, yerində donub qalır.

– İndi o, orda deyil, – zənci qışqırır. – Dedi ki, dəmir yolunun qırağında, təpənin başında gözləyəcək.

– Minnətdaram, – ağ adam deyir. Zənci öz yoluna davam edir.

Braun yenə dəmiryol xəttinə qayıtdı. İndi o qaçmırdı. Öz-özünə dedi: “Bunu eləməyəcək. Bacarmayacaq. Mən ki bilirəm, o onu tapa, o pulu alıb bura gətirə bilməyəcək”. Ad çəkmədi, ürəyində də olsa dilinə gətirmədi. İndi ona elə gəlirdi ki, zənci də, şerif də, o pul da – hər şey, sadəcə, Rəqib tərəfindən qəflətən və səbəbsiz-filansız irəli-geri hərəkət etdirilən şahmat fiqurlarıdı; bu Rəqib onun hər gedişini qabaqcadan bilir, hər dəfə bədahətən yeni – həm də O özü deyil, Braunun riayət etməli olduğu – yeni oyun qaydaları icad edir. Yoxuşun başına az qalmış dəmir yolundan çıxıb özünü kolların arasına verdi, artıq ümidsizliyi son həddə çatmışdı. İndi, dəmir yoluna paralel olaraq, tələsmədən yeriyir, aradakı məsafəyə ciddi riayət eləməyə

çalışırdı: sanki, dünyada bundan savayı heç nə mövcud deyildi – ən azı, onun üçün. Dəmiryolunu yaxşı görə bilsin deyə özünə xəlvəti, gizlin yer seçib oturdu.

"Axı özüm də yaxşı bilirəm ki, o bunu bacarmayacaq, – o fikirləşir. – Əslində, mən burda oturub onu gözləmirəm. Əlində pul bura qayıtdığını gözümlə görsəm belə, yenə buna inanmaram. O pulu bura gətirsə də, verdiyi adam mən olmayacam. Bunu özüm də dərhal anlayacam. Biləcəm ki, bu, bir yanlışlıqdır. Ona deyəcəm *Çıx get burdan. Sən məni yox, kimisə, başqa birini axtarırsan. Sən Lukas Berçi axtarmırsan. Yox, ser, Lukas Berçin bu pula, bu mükafata haqqı çatmır. O bu pula layiq olmaq üçün heç bir şey eləməyib. Heç nə* O gülməyə başlayır; hərəkətsiz, çöməltmə oturub, başını aşağı sallayaraq elə hey gülür. "Belə-belə işlər, ser. Lukas Berç yalnız bir şey – haqq-ədalət istəyirdi. Haqq-ədalət, başqa heç nə. Nə olsun ki, o, bu əclaflara qatilin kim olduğunu, onu harda axtarmaq lazım gəldiyini dedi?! Onlar özləri onu axtarmaq istəmədilər. Ona görə istəmədilər ki, onda pulu Lukas Berçə verməli olardılar. Yalnız haqq-ədalət". Sonra o, xırıltılı, ağlamsınan səslə danışmağa başladı:

– Yalnız haqq-ədalət. Başqa heç nə. Yalnız öz haqqını. Bu döşü nişanlı əclaflar isə... özü də hamısı bir-bir and içib, Amerika vətəndaşlarının hüquqlarını qorumağa söz veriblər. – Xırıldaya-xırıldaya danışır, hirsindən, ümidsizlikdən və yorğunluqdan az qalır ki, ağlasın. – Belə şeyləri görəndən sonra, vallah, adam az qalır dönüb bolşevik olsun, yalan deyirəmsə, lənətə gəlim!

Buna görə də Bayron düz onun arxasında dayanıb səsini çıxarmayanacan heç nə, heç bir səs eşitmir:

– Qalx ayağa!

Bu, çox uzun çəkmir. Bayron bilirdi ki, belə də olacaq. Ancaq heç bir tərəddüd hissi keçirmədi. Sadəcə, Braunu oturduğu yerdə görənədək xəlvətcə yamacla üzüyuxarı dırmaşdı; onu görən kimi dayandı, aşağı əyilmiş, hazırlıqsız siluetə baxdı. "Sən məndən xeyli irisən, – Bayron fikirləşdi. – Amma bu mənim vecimə deyil. Başqa üstünlüklərin də var. Onlar da vecimə deyil. Sən doqquz ay ərzində elə bir şeyi iki dəfə çölə atmısan ki, mənim otuz beş ildə bircə dəfə də olsun elə bir şeyim olmayıb. Bilirəm, indi burda məni möhkəm əzişdirəcəklər, ancaq heç bu da vecimə deyil".

Bu, çox uzun çəkmir. Braun dərhal arxaya çevrilir, hətta qəfil yaxalanmağını belə öz xeyrinə çevirir. Düşmənini oturduğu yerdə qəfil haqlayan bir adamın onun ayağa qalxmasına, – hətta bu düşmən özündən çox zəif olsaydı belə, – imkan verməsini o, heç cür anlaya bilmir. Özü ömründə belə etməzdi. İndi isə özündən xeyli zəif biri buna cəsarət etmişdi, onun ömründə eləməyəcəyini eləmişdi; bu onun üçün təhqirdən də betərdi, onu gülünc vəziyyətə salmaq demək idi. Buna görə də dalaşarkən bütün kin və qəzəbini işə saldı; əgər Bayron xəbərdarlıq etmədən, onu arxadan vursaydı, bəlkə, bu qədər hirslə dalaşmazdı; küncə qısdırılmış siçovula xas kor və ümidsiz bir cəsarətlə onun üstünə atıldı, harasına gəldi vurmağa başladı.

Bu, iki dəqiqədən də az çəkdi. Sonra Bayron tapdanıb əzilmiş kolluğun üstündə sakitcə uzanıb qaldı, sifətindən sakit-sakit qan axırdı; üstünə yıxıldığı kol-kosun qırılarkən çıxardığı şaqqıltı səsi getdikcə uzaqlaşdı, avazıdı və sonra tamamilə itdi, ətraf sükuta qərq oldu. İndi o, tək-tənhadır. Elə bir möhkəm ağrı hiss eləmir, ən yaxşısı da budur ki, qalxıb harasa getməyə, nəsə eləməyə heç bir ciddi ehtiyac duymur. Sadəcə, yerdə uzanıb qalıb, qanı da sakitcə axıb gedir; ancaq bilir ki, bir az keçəndən sonra vaxt gəlib çatacaq, bu dünyaya, zamanın axarına qayıtmalı olacaq.

Braunun hara cəhənnəm olduğu da indi onu maraqlandırmır. İndi Braun haqqında düşünməyin onun üçün heç bir əhəmiyyəti yoxdur. Ağlı yenə də, uşaqlıq dövrünün istefaya göndərilən, necə gəldi yığılıb anbara atılan və üstünü tədricən, sakitcə toz basan oyuncaqlarını xatırladan hərəkətsiz fiqurlarla məşğuldu: Braun; Lina Grouv; Haytauer; Bayron Banç... Bunların hamısı indi onun üçün heç vaxt yaşamamış olan, uşaqlıqda oynadığı, sonra isə sındırıb bir yana atdığı, tamam unutduğu xırda əşyalardı. Ordan yarım mil uzaqdakı keçiddə qatar fitinin səsi eşidilənədək beləcə uzanıb qaldı.

Fit səsi onu ayıldır; bu da dünya, bu da zaman... O, yavaş-yavaş, qətiyyətsiz halda qalxıb oturur. "Ən azı, heç yerimi qırmamışam, – Bayron fikirləşir. – Daha doğrusu, o mənim heç yerimi qırmayıb". Artıq gecdir, vaxt gəlib çatıb – onunla birlikdə hərəkət etmək, harasa getmək şüuru da oyanıb. "Elədi. Hərəkət eləmək lazımdı. Təzə bir yer axtarıb tapmaq, nəsə bir işlə məşğul olmaq lazımdı". Qatar yaxınlaşır. Parovoz ağır-ağır, kəsik-kəsik nəfəs alırdı; sanki, yoxuşun lap yaxında olduğunu hiss etmişdi; nəhayət, Bayron onun tüstüsünü görür. Əlini cibinə salıb dəsmalını axtarır. Onu tapmır, buna görə də köynəyinin ətəyini cırıb qoparır, sifətini ehmalca onunla örtür, aşağıda, yoxuşun dibində parovozdan çıxan buxarın qısa, qırıq-qırıq fısıltısına qulaq verir. Kolluqdan qırağa çıxır – burdan dəmir yolunu görmək mümkündür. Artıq parovoz da görünür: o, ağır, qara tüstü burumlarını bir-bir havaya tullayaraq, birbaş onun üstünə gəlir. Adama elə gəlir ki, bu qatar dəhşətli bir hərəkətsizlik içindədir. Amma hər halda, dayanmayıb, irəliləyir, qorxunc bir inadla yamac boyu yuxarı, təpəyə doğru sürünür. O, meşənin kənarında dayanıb, kənddəki uşaqlıq dövründən qalma kiçik bir oğlan vəcdiylə (bəlkə də, qibtəsiylə) qatarın əziyyət çəkə-çəkə necə yaxınlaşdığına, sürünə-sürünə onun önündən necə keçib-getdiyinə tamaşa edir. Qatar inildəyə-inildəyə ötüb-keçir, gözləri ona ilişib qalıb, təpəyə gəlib çatan vaqonları bir-bir yola salır və birdən bu gün ərzində ikinci dəfə, sanki, sehrli bir şeymiş kimi, gözləri önündə yenə də harasa qaçan bir adam peyda olur.

Hətta indi belə Braunun hara qaçdığını anlaya bilmir. Yalqızlığa, dincliyə o qədər dərindən aludə olub ki, indi onu heç nə maraqlandırmır. Sadəcə, dayanıb Braunun qatara doğru necə qaçdığına, belini aşağı əyib, vaqonun sonundakı dəmir pilləkəndən oğru kimi necə yapışdığına, sonra da ona atılıb, sanki, birdən-birə sorulub yox edilən bir şey kimi, bir anda gözdən necə

itdiyinə tamaşa edir. Qatar sürətini artırır; indicə Braunun gözdən itdiyi sonuncu vaqon ona tərəf yaxınlaşır, Bayron diqqətlə ona baxır. Vaqon ötüb-keçir; arxa tərəfdən ona sıçrayan Braun iki vaqonun – mindiyi vaqonla ondan sonrakı vaqonun arasında dayanıb, boynunu uzadıb kolluğa tərəf baxır. Onlar bir-birini eyni anda görürlər – biri qısa, aydın seçilməyən, qana bulaşmış sifət, digəri isə rəngi qaçmış, qaçarağa düşmüş, ümidsiz, qatarın səssiz gurultusunda çığırmaqdan əyilib eybəcər şəklə düşmüş sifət; bu iki sifət, sanki, bir-birinə qovuşmayan iki orbit üzrə bir-birindən uzaqlaşır, xəyalat kimi bir-birinin yanından ötüb-keçir. Bayron hələ də fikirləşmir. "İlahi, – o, vəcdə gəlmiş bir uşaq heyrətiylə deyir, – o qatara necə cəld sıçraya bildi. O dəqiqə görünür ki, birinci dəfə deyil". O, tamam heç nə düşünmür. Sanki, hərəkətdə olan bu hisli vaqon divarı hansısa bir bənddir və dünya, zaman, qeyri-adi ümid, inkaredilməz müəyyənlik məhz o bəndin arxasında dayanıb, son dinclik anını bəxş etmək üçün onu məhz orda gözləyir. Beləydi, ya belə deyildi, hər halda artıq xeyli sürət almış axırıncı vaqon ötüb-keçəndən sonra gerçək dünya güclü bir dalğa kimi dartıb onu öz ağuşuna alır.

Bu dalğa zaman və məsafə ölçüsü üçün olduqca sürətli, olduqca nəhəngdir; buna görə də gəldiyi cığırla geri qayıtmaq olmaz və o, qatırın çilovunu əlinə alıb, ta onun belinə minmək ağlına gələnəcən öz arxasınca aparır. Sanki, özünü çoxdan, həm də xeyli çox qabaqlayıb, özündən qabaq içəri girmək üçün artıq o daxmanın önündə dayanıb gözləyir. *Onda mən bir az orda dayanıb, sonra...* Təkrar cəhd edir: *onda mən bir az orda dayanıb, sonra...* Ancaq heç cür bundan irəli gedə bilmir. O, yenə yoldadır, şəhər tərəfdən ona qarşı bir araba gəlir. Saat təxminən altıdır. Hələ də cəhd etməkdən yorulub usanmır. *Sonrası, elə bil, tilsimə düşüb, qoy olsun: qapını açıb içəri girəcəm, orda dayanacam. Onda mən bunu eləyəcəm. Ona baxacam. Ona baxacam. Ona baxacam* Bu vaxt bir səs təkrar deyir:

– ...gör, nə həngamə qopub.

– Nə? – Bayron soruşur. Araba durdu. Lap onun yanındaymış: qatır yerində dayanır. Arabanın oturacağında əyləşmiş kişi yenə incik, boğuq səslə deyir:

– Sən bir işin tərsliyinə bax. Evə tələsdiyim yerdə. Özü də bu qədər gecikdiyim bir vaxtda.

– Həngamə? – Bayron təkrar soruşur. – Nə həngamə? Hansı həngamə?

Arabadakı adam onu başdan-ayağa heyrətlə süzür.

– Sifətinizə baxan deyər ki, sizin də öz həngamənizə olub.

– Mən yıxılmışam. – Bayron izah eləyir. – Bəs orda, şəhərdə nə həngamə qopub?

– Mən elə bilirdim, eşitmisiniz. Təxminən bir saat bundan əvvəl. O zənci vardı ha, Kristmas. Onlar onu öldürdülər.

Həmin bazar ertəsi günü axşam süfrəyə əyləşəndə şəhər heç də Kristmasın həbsdən necə qaça bildiyinə təəccüblənmədi, ona təəccüb qaldı ki, niyə o qaçıb azadlığa çıxandan sonra məhz orda, ələ keçəcəyini özü də yaxşı bildiyi yerdə özünə sığınacaq axtarıb?! Yaxalananda niyə təslim olmayıb?! Təslim olmayacaqdısa, niyə heç bir müqavimət göstərməyib?! Onlara elə gəldi ki, o, qəsdən, bilərəkdən belə bir passiv intihar planı düşünüb, bunun ən xırda təfərrüatına qədər dəqiq hesablayıb.

Onun təqibdən xilas olmaq üçün axırda niyə məhz Haytauerin evində özünə sığınacaq axtarması barədə cürbəcür gümanlar, mülahizələr irəli sürüldü. "Su axar, çuxurunu tapar" – hər şey barədə asanlıqla, tələm-tələsik qəti fikir söyləməyə vərdiş etmiş adamlar keşiş haqqındakı köhnə dedi-qoduları xatırlayaraq dedilər. Bəziləri bunun təmiz bir təsadüf olduğunu güman etdilər; üçüncülər isə sübut etməyə çalışdılar ki, o, çox ağıllı bir şey fikirləşib, çünki əgər kimsə təsadüfən onun qaçıb arxa həyətdən mətbəxə girdiyini görməsəydi, bu adamı keşişin evində axtarmaq heç kimin ağlına gəlməzdi.

Gevin Stivensin isə bu barədə tamam başqa bir fərziyyəsi vardı. O, əyalət prokuroru idi, Harvardı bitirmişdi və Fi-Betta-Kappa cəmiyyətinin üzvüydü – gur, pırtlaşıq, çal saçları olan hündürboy, yör-yöndəmsiz bir adamdı; həmişə tünd-boz rəngli, səliqəsiz, qırışıq kostyum geyinərdi və qarğıdalı gövdəsindən hazırlanmış qəlyanından bir an belə ayrı durmazdı. Onun nəsli Ceffersondakı ən qədim nəsillərdən biriydi; əcdadları vaxtilə burda qul, kölə saxlamışdılar, babası isə missis Berdenin babasını və qardaşını yaxından tanıyanlardan (həm də nifrət bəsləyən və onların öldürülməsi münasibətilə polkovnik Sartorisi rəsmən təbrik edənlərdən) biri olmuşdu. Gevin Stivens kəndçilərlə, seçicilər və məhkəmə iclasçıları ilə sakit, sərbəstcə danışa bilmək şakərinə malik idi; yayda onu kənd dükanının önündə – artırmada kombinezonlu adamlar arasında tez-tez görmək olardı; burda hamıyla birlikdə, hamı kimi çöməltmə oturub, onların öz ləhcəsində səhərdən axşama qədər ordan-burdan (əslində isə heç nədən) söhbət edərdi.

Həmin bazar ertəsi günü axşam Missisipi universitetinin yay tətili səbəbiylə bir neçə günlüyə Ceffersona, öz tanşıgilə qonaq gələn bir professoru, Stivensin Harvarddan tələbə yoldaşı saat doqquz qatarından yerə endi. O, Stivensi qatardan yerə enən kimi gördü. Elə bildi ki, onu qarşılamağa çıxıb, ancaq məlum oldu ki, əksinə, Stivens qəribə bir cütlüyü, qoca ərlə arvadı qatarla evlərinə yola salır. Professor boydan bapbalaca, üst-başı çirkli, keçi saqqalına bənzər qısa saqqalı olan, sanki, yuxuluymuş kimi ayaq üstə zorla dayanan qoca kişiyə və onun yanındakı qarıya – yəqin ki, arvadıydı – boydan pota, biçimsiz, çiy kündəyə bənzər sifətindən bir az yuxarıda, başı üstündə çirkli ağ lələk yellənən, əynində köhnə dəbdə biçilmiş, şahanə rəngi artıq xeyli solmuş ipək don olan bu əcaib məxluqa diqqətlə nəzər saldı. Professor ayaq saxlayıb, böyük maraq və təəccüb içərisində Stivensin o qarının ovcuna, sanki, körpə uşaqmış kimi, iki yol bileti qoyduğuna tamaşa etdi; onlara yaxınlaşanda professor hələ də onu görməyən Stivensin

bələdçinin birtəhər vaqona mindirməyə çalışdığı qocalara dediklərini eşitdi: “Bəli, bəli, – Stivens, görünür, əvvəlki söhbətə yekun vuraraq, onları sakitləşdirməyə çalışırdı, – sabah onu qatarla göndərəcəklər. Mən özüm buna nəzarət edəcəm. Siz orda ancaq dəfn və qəbiristanlıq işləriylə məşğul olun. Babanı evə aparın, yatağa salın. Uşağın sabah tezdən qatarla ora göndərilməsi üçün burda nə lazımdısa eləyəcəm”.

Qatar tərpəndi, Stivens professoru yalnız çevrilib geri dönəndə gördü. O bu barədə söhbətə onlar şəhərə qayıdarkən yolda başladı və onu ancaq Stivenslərin evlərinə çatıb onun artırmasında oturduqları vaxt bitirdi; sonunu isə belə yekunlaşdırdı: “Deyəsən, mən onun niyə belə elədiyini, niyə axırda məhz Haytauerin evində özünə nicat axtardığını başa düşürəm. Məncə, o, bunu nənəsinə görə edib. Onu təkrar məhkəməyə aparmamışdan bir az qabaq o qarı kamerada olub... nənəsinə, bir də babasına, – onun daşqalaq olunmasını istəyən, elə buna görə də Motstaundan bura gələn o ağlını itirmiş, sərsəm qocaya görə belə eləyib. İnanmıram ki, bura gələrkən o qarı onu xilas edə biləcəyinə, azacıq da olsa, ümid bəsləmiş olsun. Görünür, o ancaq bircə şey, öz diliylə desək, onun “adam kimi” ölməsini istəyirmiş. İstəyirmiş ki, Dövlətin, qanunun müəyyən etdiyi qaydada asılsın; Kütlə tərəfindən tonqalda yandırılmasın, ya da tikə-tikə doğranmasın, yaxud da daş-qalaq edilməsin. Elə bilirəm ki, o bura qəsdən, qocanın ipini əlində saxlamaq, onun bədbəxtlik gətirən bayquşa çevrilməsini əngəlləmək üçün gəlibmiş, çünki onu bir an belə gözdən qoymurmuş. Yəni, əlbəttə ki, bu qarı Kristmasın onun öz nəvəsi olduğuna şübhə etmirdi, başa düşürsünüz? Sadəcə, onun xilasına ümid eləmirdi. Çünki ümid eləməyi yadırğamışdı. Təsəvvür eləyirəm: otuz il ərzində boş dayanmış bir mexanizmi – ümid mexanizmini bir anda, bir günün içində ölü nöqtədən tərpətmək, işə sala bilmək nə qədər müşkül işdi.

Ancaq görünür, qoca ərinin sərsəmliyi və qəti inancının güclü təzyiqi altında öz yerindən fiziki mənada tərpənməyə məcbur qalanda bu qarının içində özü də bilmədən nəsə oyanıb. Onlar bura gəliblər. Sübh qatarı ilə, bazar günü səhər saat üçdə burda olublar. Əvvəlcə, Kristmasla görüşməyə qarı heç cəhd də göstərməyib. Ola bilsin ki, qoca ərinin keşiyini çəkirmiş. Bəlkə də, təkcə buna görə yox. Elə bilirəm ki, sadəcə, ümid mexanizmi o vaxt hələ işə düşməyibmiş. Bu gün səhər burda sözün əsl mənasında onun gözünün qabağında bir körpə – özü də yenə oğlan uşağı – doğulmasaydı, o mexanizm çətin ki işə düşəydi. O körpənin anasını o anadək, atasını isə, ümumiyyətlə, görməmişdi – doğulandan sonra öz nəvəsini görmədiyi kimi... Buna görə də onun üçün o otuz il bir andaca qeybə çəkilmiş, yox olmuşdu. Bu körpə ilk dəfə çığırdığı anda o illər tüstü kimi yayılıb dağılmışdı. Artıq onun üçün o, mövcud deyildi.

Bütün bunların hamısı ildırım sürətiylə, bir göz qırpımında onun üstünə tökülmüşdü. Gözlərinin, əllərinin inkar edə bilmədiyi gerçəkliklər hədsiz dərəcədə çox idi; gözləriylə görə, əlləriylə toxuna bilmədiyi, sadəcə, inamına güvənərək qəbul etmək məcburiyyətində qaldığı hədsiz dərəcədə çox şey vardı; əlləri, gözləri həddən artıq anlaşılmaz şeylərlə üzləşmişdi və o

yazıqdan bütün bunların hamısını birdən-birə, qəflətən mənimsəmək, dəlilsiz-sübutsuz qəbul etmək tələb olunurdu. Bu cür yaşanmış otuz ildən sonra o, sanki, yad bir aləmə düşmüş, təsadüfən tanımadığı, bir-birinə aman vermədən, hamısı birdən danışmağa çalışan adamlarla dolu bir otağa düşdüyünü görən qərib bir adam kimi çaşbaş qalmışdı; ümidsiz halda ağlını itirməmək, öz imkanlarına uyğun, az-çox dərəcədə özü idarə edə biləcəyi bir davranış tərzi seçib tapa bilmək üçün yapışa, söykənə biləcəyi bir şey axtarırdı. Uşaq doğulana qədər isə özü üçün bəzi səbəblər tapıb qınına çəkilmiş, kənarda qalmışdı; o vaxtacan o, mexaniki səsə malik kukla kimi bir şey idi, bu Banç deyilən adam onu arabada özü ilə gəzdirir, haçan danışmaq lazım gəldiyini ona işarə edirdi: məsələn, dünən gecə öz tarixçəsini danışmaq üçün onu doktor Haytauerin yanına aparıbmış.

Bilirsiniz, o, hələ də axtarırdı. O, hələ də özünün, görünür, son otuz ildə o qədər də möhkəm yüklənməmiş ağlı üçün elə bir şey axtarıb tapmağa çalışırdı ki, ona inansın, onu gerçək, real bir şey kimi qəbul edə bilsin. Elə bilirəm ki, bu şeyi məhz orda, Haytauerin yanında tapıb: onu dinləməyə razılıq verən bu adama hər şeyi danışmaq olardı. Ola bilsin ki, bu qadın məhz orda ilk dəfə içini açıb töküb. Çox güman ki, məhz orda öz tarixçəsini tam şəkildə, olduğu kimi, Haytauerlə eyni vaxtda özü üçün də dəqiq aydınlaşdıra bilib. Buna görə də onun nəinki körpələri, hətta valideynləri belə dəyişik salmasında heç bir qəribəlik yoxdu – axı son otuz il o daxmada mövcud deyildi, silinib atılmışdı: bu uşaq və onun ömründə üzünü belə görmədiyi atası; südəmər yaşından sonra üzünü bir dəfə də olsun görmək imkanından məhrum edildiyi nəvəsi və onun da bu qadın üçün heç vaxt mövcud olmamış atası... Hər şey bir-birinə qarışmışdı. Bir də ki, nəhayət, qəlbində ümid işartısı baş qaldıran bir insanın – bütün insanlara əlahiddə, hədsiz inam bəsləyən, mömin adamlar kimi özünü könüllü surətdə duanın köləsi və quluna çevirən bir qadının dərhal keşişə müraciət etməsi qəribə görünməməlidi.

Bu gün həbsxana kamerasında o, görəsən, Kristmasa nələri danışıb?! İş bax bundadı. Çünki qoca fürsət tapan kimi aradan çıxıb, o da onun arxasınca şəhərə qaçıb, yenə onu tində tapıb; o burda artıq tamam ağlını itirmiş, çığırmaqdan səsi batmış halda camaatı qatili daşqalaq etməyə çağırır, onlara bu şeytan toxumunu öz himayəsinə necə götürdüyündən, məhz belə bir gün üçün yetişdirdiyindən danışırmış. Bəlkə də, qarı bu zaman, sadəcə, daxmadan çıxıb həbsxanaya, nəvəsini görməyə gedirmiş. Hər halda, oraya toplaşan adamların qocanın çıxışına o qədər də ciddi əhəmiyyət vermədiklərini, bunun onlarda daha çox gülüş və istehza doğurduğunu görən kimi birbaş şerifin yanına yollanıb. Şerif nahardan təzəcə qayıdıbmış, buna görə də uzun müddət onun nə istədiyini anlaya bilməyib. Yəqin ki, qadının danışdığı tarixçə, əynindəki zövqsüz bayır libası və ağlındakı qaçış planları onu şerifə, sadəcə, anormal adam kimi göstərib. Amma hər halda, onu öz köməkçisi ilə bir yerdə həbsxanaya buraxıb. Kamerada da o, yəqin ki, nəvəsinə

Haytauerdən, bu keşişin onu xilas edə biləcəyindən, onu qurtarmaq niyyətində olduğundan danışıb.

Qarının orda ona nə dediyini mən də dəqiq bilmirəm. Çətin ki kimsə bu səhnəni təkrar canlandıra bilsin. Çətin ki qarı özü də ona nə deyəcəyini qabaqcadan bilmiş, qabaqcadan düşünmüş olsun – axı hər şey o gecə, anası onu doğanda deyilmiş, yazılmışdı; indi artıq çox qədimdə qalan o zamanlardan bəri yaddaşda həkk olunmuş, unudulmamışdı: yalnız sözlər yaddan çıxmışdı. Bəlkə də, elə buna görə o, nənəsinə dərhal inanıb, heç nəyə şübhəylə yanaşmayıb. Daha dəqiqi, bəlkə də, ona görə ki, qadın bunu ona necə deyəcəyi, onun bütün bunları nə dərəcədə ağlabatan, mümkün və ya boş, mənasız hesab edəcəyi barədə düşünməmişdi; düşünməmişdi ki, kilsə tərəfindən rədd edilmiş qoca bir keşişin hardasa, necəsə, öz bədəniyləmi, iştirakıylamı, yaxud nəsə başqa bir əməliyləmi onu təkcə polisdən və ya qəzəblənmiş kütlədən deyil, həm də artıq bir daha düzəldilməsi mümkün olmayan mirasdan – onu yetişdirən, bərkidib formalaşdıran və son nəticədə buraya, hər küncündən adamın gözünə sabahkı cəlladın kölgəsi soxulan bir kameraya sürükləyən keçmişin özündən qoruya biləcəyi barədə deyəcəklərinə nəvəsi inanacaq, yoxsa yox.

Ancaq o buna inanıb. Elə bilirəm ki, onun xırdaca saman çöpünü görə, ondan yapışıb ümidini ona bağlaya, əl-qolu qandallı, hər yanı adamla sarınmış olduğu halda onların arasından qaçıb çıxmaq üçün bu qədər cürətli, bu qədər səbirli ola bilməsinin səbəbi də elə bundadı. Amma həddən artıq çox qaçmışdı, onu qovarağa götürən həddən artıq çox olmuşdu. Ardınca qaçıb onu tutmağa çalışanlar deyil, özününkülər – yaşadığı və yaşamadığı illər, tutduğu və tutmadığı əməllər, gördüyü və görmədiyi işlər indi daban-dabana, addımbaaddım, nəfəs-nəfəsə, ürəyin tıp-tıpıyla onun arxasınca düşmüşdülər, ürək isə bir dənəydi. Əslində, onu təkcə bu qarının yaddaşından tamamilə silinib atılan o otuz il deyil, ağ qanını, yaxud elə qara qanını (necə istəyirsiniz deyin) kirləndirən daha öncəki neçə-neçə otuz illər öldürdü. Ancaq əvvəlcə o, yəqin ki, inanaraq qaçmışdı; ən azı, nəyəsə ümid etmişdi. Amma qan susmaq, xilas olunmaq istəmirdi. Nə o biri, nə də bu biri geri çəkilmək istəmir, vücuda özünü xilas etmək imkanı vermirdilər. Buna görə də əvvəlcə qara qan onu qovub zənci daxmasına saldı. Sonra ağ qan onu ordan qovub çıxardı, qara qan tapançaya əl atdı, ağ qan isə onu açılmağa qoymadı. Və məhz ağ qan onu keşişin evinə getməyə təhrik etdi; məhz o, axırıncı dəfə üsyan qaldırıb, onu, əqlin və gerçəkliyin əleyhinə olaraq xam xəyalın, çap Kitabından oxunmuş nəsə bir şeyə kor inamın ağuşuna atdı. Məncə, ağ qan elə həmin an ona xəyanət etdi. Cəmi bircə an, bircə saniyədən sonra qara qan axırıncı dəfə cuşa gəlib onu öz xilaskarı olacağına ümid bəslədiyi adamın üzərinə atılmağa məcbur elədi. Məhz qara qan onu, öz istəyinə əsasən, hər cür insan köməyi hüdudlarından kənara atdı, özünəvurğun bir vəcdlə qara cəngəlliyin dibinə – həyatın hələ ürək dayanmamışdan əvvəl bitdiyi, ölümünsə yalnız yanğı söndürdüyü bir yerə tulladı. Sonra qara qan, yəqin ki, hər bir

həlledici anda olduğu kimi, yenə də onu pis vəziyyətdə qoydu. O, keşişi öldürmədi, sadəcə, tapança ilə vurub yerə yıxdı, sonra bir az qabağa qaçaraq, masanın arxasında büzüşüb, axırıncı dəfə qara qana qarşı üsyan etdi. Düz otuz il idi ona qarşı bu cür üsyan edirdi. Yanı üstə çevrilmiş masanın arxasında büzüşüb, əlindəki tapança dolu olsa da, bircə güllə belə atmadan, sakitcə, onların onu vurub öldürmələrinə şərait yaratdı".

O vaxtlar şəhərdə Persi Qrimm adlı cavan bir adam yaşayırdı. Onun iyirmi beş yaşı vardı, milli qvardiya kapitanı idi. Bu şəhərdə doğulmuş, yay təlim toplantıları nəzərə alınmazsa, bütün ömrü boyu burada yaşamışdı. Yaşı az olduğuna görə Avropa müharibəsinə gedə bilməmişdi, yalnız 1921, yoxsa 1922-ci ildəmi başa düşmüşdü ki, bunu heç vaxt valideynlərinə bağışlamayacaq. Dəmir məmulatları tüccarı olan atası onun bu acığını heç cür başa düşə bilmirdi. Belə hesab edirdi ki, oğlu, sadəcə, tənbəlin, avaranın biridi, ondan, yəqin, heç nə çıxan deyil, amma bu yeniyetmə oğlan daxilən dəhşətli sarsıntı keçirirdi: o, sadəcə, gec doğulmamışdı, həm də lap azacıq gec doğulmuşdu, o qədər az ki, artıq geri qaytarılması mümkün olmayan o dövr barədə hər şeyi birinci əldən, onun iştirakçılarının bilavasitə özündən eşitməli olmuşdu. Axı azca tez doğulsaydı, o da o vaxt uşaq deyil, yekə kişi olardı. Və indi, döyüş, müharibə ehtirasları xeyli soyuyub öləziyəndən sonra, vaxtilə qızışıb ağzından od püskürənlərin, hətta orduda döyüşən, yaralanan qəhrəmanların özləri belə bir-birinə çəpəki baxmağa başlayandan sonra o, dərdləşməyə, öz içini açıb tökməyə bir adam tapa bilmirdi. İlk ciddi savaşı bir cəbhəçi ilə oldu: bu adam elə bir şey dedi ki, o buna dözə bilmədi. Dedi ki, əgər bir də gedib belə bir müharibəyə düşmüş olsa, almanların tərəfinə keçib Fransaya qarşı vuruşardı. Qrimm dərhal onun yaxasından yapışdı.

– Deməli, həm də Amerikaya qarşı, hə? – o dedi.

– Əgər Amerika axmaqlıq eləyib yenə də Fransaya kömək etmək istəsə, hə, – deyə əsgər cavab verdi. Qrimm dərhal onu vurdu; boy-buxununa görə o, əsgərdən xeyli balacaydı, iyirmi yaşı təzəcə tamam olmuşdu. Bu davanın sonu əvvəlcədən bəlliydi; hətta Qrimm özü də, heç şübhəsiz, bunu yaxşı bilirdi. Amma axırda həmin əsgərin özünün ona yazığı gəldi, tamaşaçılardan artıq sağ-salamat yeri qalmamış bu uşağı bir kənara çəkmələrini xahiş etdi, o isə bu xahişə qədər bütün zərbələrə mətanətlə dözdü. Bu davada, savaşda aldığı yaralar – çapıqlar onun qürur mənbəyinə çevrildi, sonralar onlarla, uğrunda gözünü qırpmadan döyüşməyə hazır olduğu hərbi geyimin özü qədər fəxr etdi.

Onun dadına ordunun yenidən təşkil olunması haqqında yeni qanun çatdı. Uzun müddət qaranlıq bataqlıqda azmış adam kimi çapalaya-çapalaya qalmışdı. Nəinki ordan çıxmağa yol tapa bilmir, həm də, ümumiyyətlə, belə bir yolun var olduğuna inanmırdı. Və birdən önündə apaydın, konkret bir həyat cığırı açıldı. Məktəbdə heç bir qabiliyyət göstərə bilmədiyi, tərsin, mənliksiz

tənbəlin biri hesab edildiyi o itirilmiş illər keçmişdə itib-batdı, tamam unuduldu. Önündə açılan yeni həyat yolu çılpaq dəhliz kimi əngəlsiz və dolanbacsız idi, onu düşünmək və nəyisə seçmək məcburiyyətindən həmişəlik xilas etmişdi; indi üzərinə götürdüyü yük isə çiynindəki bürünc rütbə nişanları kimi son dərəcə parlaq, yüngül və mübariz bir şeydi: fiziki mərdliyə, sözsüz tabeliyə əlahiddə və kor inam, ağ irqin bütün irqlərdən, amerikan irqinin bütün ağlardan, amerikan mundirinin isə bütün bəşəriyyətdən üstünlüyünə əminlik; bu əminliyin, bu şərəfin əvəzində ondan tələb oluna bilinəcək ən böyük şey isə yalnız öz həyatını qurban vermək ola bilərdi. Hətta ən cüzi hərbi çalara malik milli bayramlarda da o, şəhərə kapitan formasında çıxırdı. Yaxasındakı snayper nişanı (əla atıcı idi), çiynindəki rütbə ulduzları parıldaya-parıldaya, ciddi, şux bir görkəmdə mülki adamların arasında addımlayarkən sifətində döyüşçülərə xas mübariz, eyni zamanda, utancaq uşaq məğrurluğu qarışıq bir ifadə olardı və onu bu görkəmdə görənlər keçmiş cəbhəçi əsgərlə davasını xatırlayardılar.

O, Amerika legionunun üzvü deyildi, bu, onun yox, valideynlərinin günahı idi. Ancaq həmin şənbə günü, Kristmas Motstaundan bura gətiriləndə dərhal məntəqə komandirinin yanına yollandı. Onun düşüncələri ifrat dərəcədə aydın və birmənalıydı.

– Asayişə biz cavabdehik, – o dedi. – Qanunun mənafeyini biz qorumalıyıq. Qanunun və ölkənin. Mülki adamların heç birinin insanı ölümə məhkum etmək hüququ yoxdur. Bu işə biz, Ceffersonun əsgərləri nəzarət etməliyik.

– Siz hardan bilirsiniz ki, bu haqda kiminsə başqa planı var? – legion komandiri dedi. – Belə bir söhbət eşitmisiniz?

– Bilmirəm. Eşitməmişəm, – yalan demirdi. Elə bil, nəinki mülki adamların nə danışdıqlarının, heç buna görə yalan uydurmağın da onun üçün əhəmiyyəti yox idi. – Məsələ bunda deyil. Məsələ ondadır ki, bu işlə bağlı mövqeyimizi birinci biz, hərbi forma geyənlər bildirməlidir, elə deyil? Belə işlərdə hökumətin hansı mövqedə dayandığını camaata dərhal biz göstərməli deyilik? Biz camaata göstərməli deyilikmi ki, onlardan bu barədə heç danışmaq da tələb olunmur? – Onun planı son dərəcə sadəydi. Rütbəsi nəzərə alınaraq onun rəhbərliyi altında legion məntəqəsi üzvlərindən ibarət bir taqım formalaşdırılmalıydı. – Əgər mənim komandir olmağımı istəmirlərsə, heç lazım da deyil. İstəsələr, komandir müavini də ola bilərəm. Ya da elə serjant, yaxud da kapral. – Bunu heç də boş yerə demirdi. Boş-boşuna şöhrət axtarmırdı. Həddən artıq səmimiydi. O qədər səmimi və yumor hissindən məhrum idi ki, legion komandiri dilinin ucuna gələn istehzalı imtinadan vaz keçməli oldu.

– Hər halda, mən buna elə bir ehtiyac olduğunu görmürəm. Əgər olsaydı belə, biz yenə də mülki şəxslər kimi hərəkət etməyə borcluyuq. Məntəqədən bu cür istifadə edə bilmərəm. Axı biz artıq əsgər deyilik. İstifadə edə bilsəydim belə, çox çətin ki, buna razı olardım.

Qrimm ona baxdı – qəzəblə yox, adi, lüzumsuz bir cücüyə baxırmış kimi...

– Axı siz də bir zamanlar hərbi forma daşımısınız, – o, təmkinlə dedi. Sonra isə əlavə etdi: – Ümid edirəm ki, öz səlahiyyətinizdən istifadə edib mənim onlarla danışmağıma əngəl törətməyəcəksiniz, elə deyil? Şəxsi qaydada!?

– Yox. Buna heç səlahiyyətim də çatmır. Ancaq bir şeyi nəzərə alın: yalnız şəxsi qaydada danışmalısınız. Mənim adımdan istifadə etməməlisiniz.

Sonra Qrimm onun haqqında bir xeyli xoş söz dedi. Axırda:

– Mən bunu heç ağlıma da gətirmərəm, – deyərək sözünə yekun vurdu.

Bu hadisə şənbə günü saat dörddə olmuşdu. Günün axırına kimi o, legion üzvlərinin işlədikləri bütün dükan və kontorları gəzdi, hava qaralanacan yaxşı bir taqıma bəs edəcək qədər adamı qızışdıra, yola gətirə bildi. O, təmkinli, inadcıl idi, heç nədən bezmirdi; nitqi peyğəmbərcəsinə danılmaz təsir bağışlayırdı. Lakin onun könüllüləri bir şeydə məntəqə komandiri ilə həmfikir idilər: rəsmi şəkildə legionun bu işə heç bir aidiyyəti olmamalıdı; beləliklə, Qrimm qabaqcadan şüurlu şəkildə planlaşdırmasa da, öz ilkin məqsədinə çatdı: indi o, komandir ola bilərdi. Şam yeməyindən qabaq onların hamısını bir yerə yığdı, manqalara böldü, zabitləri və qərargahı təyin elədi; Fransada olmamış cavanlara lazımi səviyyədə döyüş ruhu aşılamağa çalışdı. Qısa və çox quru bir nitqlə onlara müraciət etdi:

– ... qayda-qanun... ədalət öz yerini tapacaq... qoy camaat görsün ki, biz vaxtilə Amerika hərbi forması daşımış adamlarıq... Daha bir məsələ. – Buraya çatanda, öz əsgərlərini adbaad tanıyan alay komandiri kimi bir anlığa məhrəmləşib yumşaldı. – Uşaqlar, buna özünüz qərar verməlisiniz. Siz necə desəniz, mən də elə eləyəcəm. Elə bilirəm ki, bütün bunlar bitənə kimi hərbi formanı əynimdən çıxarmasam yaxşıdır. Qoy görsünlər ki, Sem dayı təkcə öz qəlbiylə deyil, bütün varlığı ilə yanımızdadır.

– Amma o bizimlə deyil, – onlardan biri cəld etiraz etdi; o da, yeri gəlmişkən bu toplantıda iştirak etməyən məntəqə komandiri ilə eyni cinsdən idi. – Hələ ki bu işin hökumətə aidiyyəti yoxdu. Bu, şerifin xoşuna gəlməyə bilər. Axı bu məsələ Ceffersonun işidi, onun Vaşinqtona dəxli yoxdu.

– Elə eləyin ki, xoşuna gəlsin, – Qrimm dedi. – Sizin bu legion bəyəm Amerikanın, amerikalıların müdafiəsinə deyil, nəsə başqa bir şeyə xidmət edir?

– Əlbəttə, yox, – həmin adam dedi. – Ancaq məncə, bunu hərbi parada çevirməsək yaxşıdır. Nə lazımdısa, hamısını bunsuz da eləyə bilərik. Hətta ondan da yaxşı. Düz demirəm, uşaqlar?

– Yaxşı, – Qrimm razılaşdı. – Siz deyən olsun. Amma hər birinizə bir tapança lazım olacaq. Atıcı silaha baxış bir saatdan sonra burda keçiriləcək. Hamı burda olsun.

– Tapança məsələsini Kennediyə kim deyəcək? – kimsə soruşdu.

– Bununla özüm məşğul olacam, – Qrimm dedi. – Hər kəs bir saatdan sonra şəxsi silahı ilə birlikdə burda olsun.

Onların dağılışmasına icazə verdi. Sonra səssiz-səmirsiz meydandan keçib şerifin kabinetinə yollandı. Orda ona dedilər ki, şerif evə gedib.

– Evə gedib? – o təkrar etdi. – İndi? Belə bir vaxtda o, evdə neyləyə bilər?

– Yəqin ki, yemək yeyir. O boyda adam gündə gərək bir neçə dəfə yemək yesin.

– Evə gedib, – Qrimm təkrar etdi. Onun gözlərindən qəzəb yağmırdı; bu gözlər gündüz legion komandirinin yanında olduğu kimi, yenə də soyuq və ehtirassız baxırdılar. – Yemək yeyir.

İti addımlarla ordan çıxdı. Bu sakit, dinc əyalətin sakit, dinc şəhərində, əhalinin sakitcə şam süfrəsi başına yığışdığı vaxtda səssiz-səmirsiz, bomboş meydandan bir daha keçib getməli oldu. Şerifi görmək üçün onun evinə yollandı. Şerif dərhal "Yox" dedi.

– Deyirsən yəni, on beş-iyirmi adam ciblərində tapança meydanda gəzib-dolaşsın? Yox, yox. Belə şey ola bilməz. Mən buna razı ola bilmərəm. Belə şey olmaz. İmkan verin hər şeyi özüm həll edim. Qrimm bir saniyə də dayanıb şerifə baxdı. Sonra geri dönüb, sürətlə ordan uzaqlaşdı.

– Yaxşı, – o dedi. – özünüz bilərsiniz. Mən sizə mane olmayacam, amma siz də mənə mane olmayın. – Onun səsində təhdid hiss olunmurdu: həddən artıq quru, həddən artıq ehtirassız idi. Qrimm sürətlə ordan uzaqlaşdı. Şerif onun arxasınca baxdı; sonra arxadan onu səslədi. Qrimm geri çevrildi.

– Özününkünü də götürmə, evində saxla, – şerif dedi. – Eşidirsən? – Qrimm cavab vermədi. Yoluna davam etdi. Şerif qaşqabağını tökub, o, gözdən itənəcən arxasınca baxdı.

Həmin axşam şam yeməyindən sonra şerif təzədən şəhərə yollandı – neçə il idi belə bir şey eləməmişdi: axşamın bu çağında yalnız nəsə təcili, təxirəsalınmaz iş olanda şəhərə qayıdardı. Həbsxananın önündə Qrimmin keşikçi dəstəsi ilə qarşılaşdı, məhkəmə önündə isə onun başqa bir dəstəsi dayanmışdı, üçüncü dəstə ətraf küçələrdə keşik çəkirdi. Şerifə xəbər verdilər ki, qalanları – ehtiyatda olanlar Qrimmin işlədiyi pambıq məntəqəsinə toplaşıblar: orda onların, bir növ qarovulxanası, qərargahı yerləşir. Şerif Qrimmi küçədə, öz keşikçilərini yoxlayarkən tapdı.

– Bura gəl, ay oğlan, – şerif dedi. Qrimm dayandı. Amma yaxın gəlmədi; şerif özü onun yanına getdi. Gonbul əliylə onun arxa cibinə toxundu. – Sənə dedim axı bunu evində qoy. – Qrimm cavab vermədi. Soyuqqanlılıqla onun üzünə baxdı. Şerif köks ötürdü. – Neynək, bir halda ki, bu qədər tərslik eləyirsən, onda səni özümə xüsusi köməkçi təyin etməli olacam. Ancaq bu tapançanı mən deməmiş cibindən çıxarmağa cürət eləmə. Eşidirsən?

– Əlbəttə, – Qrimm dedi. – Əlbəttə, sizin də istədiyiniz kimi, mən onu lüzumsuz yerə cibimdən çıxarmaram.

– Deyirəm ki, mən deməmiş çıxarma.

– Əlbəttə, – Qrimm dərhal dedi, – ehtirassız-filansız, təmkinlə. – Bəs mən nə deyirəm? Narahat olmayın. Mən öz yerimdə olacam.

Şəhər gecə sükutuna qərq olandan, kinoteatr boşalandan, əczaxanalar bir-birinin ardınca bağlanandan sonra Qrimmin taqımı dağılışmağa başladı. O buna mane olmadı, soyuqqanlılıqla tamaşa elədi; onlar pərt olmuşdular, özlərini narahat hiss edirdilər. Yenə də, özü də bilmədən, onun işi xeyli asanlaşmışdı. Bu adamlardakı bugünkü narahatlıq, onun qədər soyuqqanlı, onun qədər fərasətli ola bilməmək hissi sabah onları bura qayıtmağa məcbur edəcəkdi. Bəziləri dağılışmadılar, orda qaldılar – sabah, onsuz da, iş günü deyildi; kimsə birneçə kətil tapıb gətirdi, oturub poker oynamağa başladılar. Bütün gecəni oynadılar, bununla belə, Qrimm (o özü oynamırdı və bir də öz müavininə, onların arasında müvafiq zabit rütbəsi olan yeganə adama oynamağa icazə verməmişdi) aradabir meydana patrul dəstəsi göndərməkdə davam etdi. Sonra polis növbətçisi də onlara qoşuldu, ancaq o da poker oyununda iştirak etmədi.

Bazar günü sakit keçdi. Onlar aradabir patrul reydləri keçirmək üçün ayrılmalı olsalar da, bütün günü poker oynadılar; kilsə zəngləri sakitcə çalınır, ziyarətçilər nizamla, yay mövsümünə uyğun əlvan libasda, qruplar halında ora toplaşırdılar. Meydandakılar məhkəmə iclasçılarının sabah geniş tərkibdə toplaşacağını artıq bilirdilər. Nəsə, çox gizli, qaçılmaz, hər şeyi görən və heç vaxt mürgüləmək bilməyən bir gözün insanların bütün əməllərinə daim gizlincə nəzarət etdiyini dərhal ağıla gətirən bu iki sözün tələffüzünün özü belə Qrimmin adamlarını hazırlanmaqda olan tamaşanın gerçəkliyinə qəti inandırmışdı. Bəzən insanlar elə qeyri-ixtiyari, elə gözlənilməz hərəkətlər eləyirlər ki, bu barədə nə düşündüklərini belə bilmirlər; belə ki, şəhər özü də nə etdiyini anlamadan birdən-birə Qrimmi qəbul etdi, ona rəğbətlə, bəlkə də, müəyyən qədər həyəcan, amma kifayət qədər güclü inam hissiylə baxmağa başladı, sanki, onun uzaqgörənliyi, öz şəhərinə qarşı vətənpərvərlik və qürur hissi, bu hadisədə boynuna düşən məsuliyyət onlarınkından daha canlı, daha gerçək idi. Hər halda, onun başına yığdığı adamlar bunu qəbul etmiş, mənimsəmişdilər; onlar öz hiss və düşüncələrindən fədakarcasına imtina etdikdən sonra qızışıb elə bir həddə çatmışdılar ki, fürsət düşsəydi, bəlkə də, bu iş naminə ölümə belə gedərdilər. İndi bu adamları müdhiş, insanı lərzəyə gətirən, demək olar ki, Qrimmin onların əynində görmək istədiyi hərbi formanın – xakinin özü qədər gerçək bir işığın əks olunmuş şüası yönləndirirdi; hər dəfə qarovulxanaya qayıdanda onlar, sanki, təzədən bu adamın xülyalarının məhrəmanə, bərbəzəksiz və asketik cır-cındalarına bürünürdülər.

Bazar gününün bütün gecəsi belə keçdi. Poker oyunu davam etdi. Ona geyindirilən ehtiyatlılıq, gizlilik libası bir kənara atıldı. İndi hər şey heç nədən və heç kimdən çəkinmədən, lovğalıq həddinə çatmış buludsuz bir əminliklə edilirdi: gecə pilləkəndən ayaq səsləri eşidilərkən kimsə "Ehtiyatlı olun, hərbi polis!" deyəndə onlar par-par parıldayan, həris, qorxu-ürküsüz, cürət dolu baxışlarla bir-birini süzdülər; biri xeyli ucadan "Gəlin bu əclafı pilləkəndən aşağı

tullayaq!” deyə təklif etdi, başqa birisi dişlərini qıcırdadaraq, əcaib, çılğın bir qiyyə çəkdi. Beləliklə, səhəri gün sübh tezdən, kəndlərdən gələn ilk araba və maşınlar bir-birinin ardınca şəhərə daxil olmağa başlayanda taqım yenidən mütəşəkkil şəkildə bir yerə yığışdı. İndi onlar hərbi formadaydılar. Bu, onların sifətinə də çökmüşdü. Əksəriyyəti eyni yaşa, eyni nəslə, eyni həyat təcrübəsinə malik adamlar idi. Ancaq onları birləşdirən təkcə bu deyildi. Ciddi, sərt, yenilməz bir qaya kimi insan burulğanının ortasında dayanıb, yanlarından keçən, keçərkən addımlarını yavaşıdıb onlara baxan, nəsə hiss eləyən, duyan, amma bunun nə olduğunu anlamayan kütləni qaşqabaqlı, bomboş gözlərlə süzərkən bu adamlardan dərin, müdhiş bir amansızlıq yağırdı; bütün günü onlar heyrətdən ağzı açıla qalan, inək sifəti kimi mənasız və hərəkətsiz olan, gah yaxınlaşıb, gah da uzaqlaşan, sonra isə yenilərilə əvəzlənən insan sifətlərinin diqqət mərkəzində oldular. Sonra isə bəzən ucadan, bəzən də astadan – pıçıltıyla çıxan səslər bütün şəhəri öz ağuşuna aldı; sakitcə soruşur, sakitcə cavab verirdilər: “Odur gəlir. Bax, onu deyirəm, avtomat tapançası olan o oğlanı. O onların komandiridir. Qubernator göndərib, xüsusi səlahiyyətli zabitdir. İndi hər şeyə o rəhbərlik edir. Bu gün şerif heç nə eləyə bilməz”.

Sonra, artıq xeyli gec olanda Qrimm şerifə dedi:

– Siz mənə qulaq assaydınız, belə olmazdı. Mən onu kameradan bütöv bir manqanın mühafizəsi altında çıxarardım, amma siz gör neylədiniz, onu tək bir köməkçi ilə, özü də ona qandallamadan meydanın, o boyda adamın içərisindən keçirib aparmaq istədiniz; sizin o köməkçiniz, o əfəl, yekə bir darvazanı ancaq iki metrdən nişan alıb vura bilən Buford isə o qədər adamın içində atəş açmağa cürət etməzdi, bundan qorxardı.

– Mən hardan biləydim ki, o qaçmaq fikrinə düşəcək, özü də belə bir yerdə? – şerif cavab verdi. – Axı Stivens mənə demişdi ki, ölüm hökmündən qurtulmaq, heç olmasa, ömürlük həbs cəzası ala bilmək üçün o öz günahını boynuna almaq istəyir.

Artıq çox gec idi. Hər şey olub-bitmişdi. Bu, meydanın mərkəzində, səkidən məhkəmə binasına qədər yolun tən yarısında, yarmarka günüymüş kimi oraya toplaşan gur izdihamın ortasında baş vermişdi, Qrimm isə onun qaçmağından yalnız köməkçinin havaya açdığı iki atəş səsini eşidəndən sonra xəbər tutmuşdu. Özü məhkəmə binasında olsa da, işin nə yerdə olduğunu dərhal anladı və dərhal da, anında reaksiya verdi. Atəş səsi gələn tərəfə qaçarkən, arxaya çevrilib iki gündür bir an belə yanından ayrılmayan yavərinəmi, çaparınamı qışqırdı:

– Yanğın siqnalını işə sal!

– Yanğın siqnalını? – həmin adam təkrar etdi. – Nə üçün?

– Yanğın siqnalını işə sal! – Qrimm çiyninin üstündən çığırdı. – Onların nə düşünəcəyi vacib deyil. Təki onu bilsinlər ki... – Sözünü bitirmədi, bir göz qırpımında gözdən itib yox oldu.

Qaçan adamlara qoşulub qaçdı, onları bir-bir ötüb-keçdi, çünki onun məqsədi vardı, onlarsa məqsədsiz-filansız, elə-belə, küyə düşüb qaçırdılar; qara, küt, nəhəng tapança isə önündəki kütləni kotan kimi yarıb keçirdi. Bu adamlar ağ, sivri, ağız yırtıqlarından dişləri parıldayan sifətlərini yana çevirib onun ciddi, gərgin, cavan sifətinə baxır, sonra da arxasınca mızıltıya bənzər uzun bir səs çıxarırdılar: "...ora... o tərəfə qaçdı..." Amma Qrimm uzaqdan da olsa artıq şerifin köməkçisini görə bilirdi – o da tapançasını yuxarı qaldıraraq qaçırdı. Qrimm sağa-sola göz gəzdirdi, sonra yenə irəli cumdu; bir az qabaqda, görünür, şerifin köməkçisinin də dustaqla birlikdə zorla yarıb özünə yol açmalı olduğu izdihamın gur yerində teleqrafçı paltarında uzunboylu yeniyetmə bir oğlan velosipedinin buynuzundan yapışıb onu üzüyola inək kimi yanınca aparırdı. Qrimm ona çatan kimi tapançanı qoburuna soxdu, oğlanı bir kənara fırladıb velosipedin belinə sıçradı – bu hərəkəti birnəfəsə, qaçış sürətini bir an belə zəiflətmədən yerinə yetirdi.

Velosipedin nə zəngi, nə də siqnal xortumu vardı. Ancaq adamlar Qrimmin arxadan gəldiyini hansı yollasa dərhal hiss edir, kənara çəkilib ona yol verirdilər; sanki, öz hərəkətlərinin qüsursuzluğuna, düzgünlüyünə əminliyi, kor-koranə və buludsuz inamı burda da onun işinə yarayır, ona yol açırdı. Qabaqda qaçan şerif köməkçisinə çatanda velosipedin sürətini yavaşıtdı. Köməkçi qaçmaqdan, çığırmaqdan tər basmış sifətini ayrıla qalmış ağzıyla birlikdə ona tərəf çevirdi:

– O tərəfə döndü, – köməkçi çığırdı. – Ora, o dalana...

– Bilirəm, – Qrimm dedi. – Əl-qolu qandallıdı?

– Hə! – köməkçi cavab verdi. Velosiped irəli cumdu.

"Deməli, bərk qaça bilməz, – Qrimm fikirləşdi. – Tezliklə, harasa girib gizlənməlidi. Ən azı, açıq yerdə, göz qabağında qalmamaq üçün". O da sürətlə həmin döngəyə girdi. Dalan iki evin arasındaydı, bir tərəfinə taxta hasar çəkilmişdi. Elə bu vaxt ilk dəfə olaraq yanğın siqnalının səsi eşidildi; onun upuzun çığırtısı yavaş-yavaş gücləndi və nəhayət, sanki, qulağın eşitmə qabiliyyətini də aşdı, onun fövqünə yüksəldi, yalnız hissiyyatla duyulan səssiz bir titrəməyə çevrildi. Qrimm irəli cumdu; şüuru sürətlə, məntiqlə və həm də qəzəbli, təmkinli bir vəcdlə işləyirdi. "Əvvəlcə o, gözdən itməyə çalışacaq", – ətrafa göz gəzdirə-gəzdirə düşündü. Bir tərəf aydın görünsə də, digər tərəfdə altı fut hündürlüyündə hasar vardı. Dalan gözlənilmədən taxta darvazaya dirənib qurtardı, onun arxasında geniş bir otlaq, ondan bir az aralıda isə xəndək, şəhərin sərhədi görünürdü. Lap aşağıda, xəndəyin dibində bitən hündür ağacların təpəsi torpağın üstündən zorla sezilirdi. O xəndəkdə bütöv bir alay gizlənə, özünə mövqe tuta bilərdi. "Ehh", – o ucadan dedi. Dayanmadan, sürətini azaltmadan geri döndü, velosipedi bayaq çıxdığı küçəyə sarı qovdu. Yanğın siqnalı artıq zəifləyib avazıyaraq yenidən qulağın eşidə biləcəyi səsə çevrilmişdi; velosipedlə sərt bir qövs cızaraq küçəyə sıçrayanda Qrimm bir anlığa qaçışan adamları və sürətlə

ona tərəf gələn maşını gördü. Pedalı var gücüylə fırlatsa da, maşın onu haqladı, içindəkilər başlarını ona tərəf uzadıb birbaş onun donuq, irəliyə dikilmiş sifətinə çığırmağa başladılar. “Atılın bura! – onlar qışqırdılar. – Tez olun, atılın!” O, cavab vermədi. Heç başını qaldırıb onlara tərəf baxmadı da. Maşın yanından ildırım kimi ötdü, sonra sürətini azaltdı; indi də o, maşını ötüb-keçdi – sürətlə, havada süzən quş kimi, səssizcə; maşın yenə sürətini artırdı, onu ötüb keçdi, maşındakılar başlarını uzadıb qabağa baxırdılar. O da sürətlə, səssizcə, xəyalata xas iti bir yüngüllüklə, Caqqernautun, yaxud da Taleyin cəng arabası kimi yenilmədən, usanmadan, qətiyyətlə irəli şığıyırdı. Arxadan yenə də yanğın siqnalının yavaş-yavaş yüksələn səsi eşidildi. Maşındakı adamlar bir də dönüb geri baxanda, o artıq görünmürdü.

Tam sürətlə başqa bir dalana girdi. Sakit, daş kimi, tərpənməz sifəti hələ də gerçəkləşən arzunun məmnunluğuna, qaşqabaqlı, biganə bir sevincə bürünmüşdü. Bu dalan birincidən daha kələ-kötür, daha uzun idi. Onu sürətlə keçib, çılpaq təpəciyə çıxanda Qrimm velosipeddən yerə sıçradı; velosiped öz ətalət qüvvəsinin təsiri altında bir az da üzüaşağı dığırlanıb sonra yanı üstə yerə aşdı; burada onun gözləri önündə şəhərin kənar sərhədi boyunca uzanıb gedən böyük bir dərənin geniş mənzərəsi açıldı – bu mənzərənin önünü lap qıraqda nizamsız, adda-budda tikilmiş bir neçə zənci daxması kəsirdi. Qrimm hərəkətsiz, yalqız və məşum sərhəd dirəyi kimi yerindəcə donub qaldı. Arxada, şəhərdə yanğın siqnalının səsi yenə avazıyıb zəifləməyə başladı.

Sonra Kristması gördü. Uzaqdan xırda bir şey kimi qaralan, iki əli önündə bir-birinə sıxılmış fiqurun xəndəkdən çıxdığını gözü aldı. Günəş şüası qaçağın qandalı üzərinə düşüb bərq vuranda Qrimm birdən bir-birinə sıxılmış əllərin helioqraf[24] qığılcımı kimi necə parladığına diqqət yetirdi və ona elə gəldi ki, hətta bu anda belə azad olmayan o adamın necə tövşüdüyünü, necə ağır-ağır nəfəs aldığını burdan, bu qədər uzaqlıqdan aydın eşidir. Sonra həmin o xırda fiqur yenidən qaçmağa başladı və ən yaxındakı zənci daxmasının arxasında gözdən itdi.

Qrimm də qaçmağa başladı. İldırım sürətiylə irəli şığıdı, ancaq onun bu qaçışında nə tələskənlik, nə də canfəşanlıq vardı. Onda hətta qisasçılıq, quduzluq, qəzəb də yox idi. Kristmasın özü də bunu gördü. Çünki elə bir an oldu ki, onlar, az qala burun-buruna gəldilər. Bu, Qrimm sürətlə qaçaraq daxmanın arxa tərəfinə dönəndə baş verdi. Həmin anda Kristmas özünü, tilsimli bir şeymiş kimi, daxmanın arxa pəncərəsindən bayıra atdı – onun bağlı əlləri başı üzərində alışıb yanırmış kimi işıq saçdı. Bir anlığa göz-gözə gəldilər: biri – sıçrayışdan sonra hələ dizləri bükülü halda, o biri – sürətlə qaça-qaça; dərhal cilovlaya bilmədiyi sürət Qrimmi bir anlığa daxmanın o biri küncünə atdı. Ancaq elə həmin an o, Kristmasın əlində ağır, nikelli tapança olduğunu gördü. Cəld geri çevrildi, öz avtomat tapançasını çıxarıb əks tərəfə, o biri küncə doğru cumdu.

---

[24] – şı ı ı ğ ö ü ə

Beyni sürətlə, təntimədən, sakit bir məmnunluqla işləyirdi: “Onun iki çıxış yolu var. Ya özünü təzədən xəndəyə atmalı, ya da ikimizdən biri vurulanacan qaça-qaça daxmanın başına fırlanmalıdı”. O, dərhal hərəkətə keçdi. Geri dönüb tam sürətlə indicə tərk etdiyi küncə tərəf cumdu. Ora elə arxayın, elə rahat qaçdı ki, elə bil, hansısa cadunun, yaxud ilahi bir qüvvənin himayəsi altındaydı; ya da Kristmasın əlində tapança onu orda gözləmədiyini dəqiq bilirdi.

Artıq xəndəyin qırağına çatmışdı. Dərhal dayandı, yerində sinib qaldı. Tapançanın küt, soyuq, nəm-nazik lüləsi üzərindən görünən sifəti kilsə şəkillərindəki mələklərin sifəti kimi toxtaq, dinc, ilahi işıq saçırdı. O yalnız bir anlığa yerində sinib qaldı, sonra, sanki, Oyun taxtası üzərində onu hərəkətə gətirən naməlum Oyunçunun buyruğuna kor-koranə itaət edərək, elə həmin qıvraq, iti sürətlə də yerindən götürüldü. Üzüaşağı xəndəyə doğru qaçdı. Daha sıx kolluqların arasıyla üzüaşağı cumdu, ancaq dərhal da əlinə keçən kol-kosdan yapışmağa çalışaraq, arxaya çevrildi. Yerlə daxmanın döşəməsi arasında yarım metrlik boşluq olduğunu yalnız onda gördü. Tələsdiyindən əvvəlcə buna fikir verməmişdi. Başa düşdü ki, məqamı əldən buraxıb. Kristmas evin altından daim onun ayaqlarını izləyib. “Ağıllı adamdı”, – o öz-özünə dedi.

Özünü birtəhər saxlayıb, təkrar üzüyuxarı qalxa bilənəcən yamac onu bir xeyli aşağı sürüdü. Sanki, yorulmaq, usanmaq bilmirdi, qandan, candan yoğrulmamışdı, elə bil, onu hərəkətə gətirən Oyunçu hər dəfə ona yeni güc bəxş edirdi. Nəfəsini dərmədən onu xəndəkdən çıxaran həmin təpərlə də qaçmağına davam etdi. Daxmanın arxasından vaxtında çıxdı: irəlidə, ondan üç yüz metr aralıda Kristmasın hasarın üstündən necə tullandığını görə bildi. Qrimm atəş açmadı, çünki Kristmas kiçik bağçadan keçib düz evə tərəf qaçırdı. Onun arxa artırmaya çatan kimi ora sıçrayıb qapının arxasında gözdən itdiyini də Qrimm qaça-qaça gördü. “Aha, – o dedi. – Bu ki keşişin evidi. Haytauerin”.

Sürətini yavaşıtmadı, amma evə deyil, küçəyə doğru qaçdı. Bayaq onu ötüb-keçən, sonra da gözdən itən maşın indi geri qayıdırdı, harda lazım idi – Oyunçu ona harda olmağı yazmışdısa – ordaydı. Qrimmin işarəsini gözləmədən maşın dayandı, üç nəfər yerə atıldı. Qrimm onlara bir kəlmə də demədən dönüb kiçik bağçanın içiylə, rüsvay olmuş qoca keşişin tənha yaşadığı evə doğru qaçdı, həmin üç nəfər də onun ardınca götürüldü, dəhlizə soxulub dayandılar – kif iyi verən, yarıqaranlıq hücrəni andıran dəhlizi özləri ilə gətirdikləri amansız yay günəşinin işığına bürüdülər.

Bu işıq, onun sırtıq amansızlığı artıq onları ağuşuna almış, iliklərinə işləmişdi. Aşağı əyilib keşişi yıxıldığı yerdən qaldırarkən, onların həmin o işıqdan pörtüb qıpqırmızı qızarmış, sanki, hansısa halələrə ilişib havadan asılı qalmış cansız sifətləri Haytauerin qanlı sifətinə dikildi – Kristmas məhz burda onun üstünə hücum çəkmişdi, burda qaçağın bağlı, silahlı əlləri, ölüm

hökmünü icra edən qəzəbli qisas allahının əlindəki oxlu yay kimi alov saçaraq keşişin başına ağır bir zərbə endirmişdi. Təqibçilər qocanı ayaq üstə saxlamağa çalışdılar.

– Hansı otaqdadı? – Qrimm onu möhkəm silkələyərək soruşdu. – Qoca, o, hansı otaqdadı?

– Centlmenlər! – Haytauer dedi. Sonra davam etdi. – İnsanlar, insanlar!

– Qoca, o, hansı otaqdadı? – Qrimm bağırdı.

Təqibçilər qocanı ayaq üstə saxlamağa çalışırdılar; günəş işığından sonra dəhlizin alaqaranlığında o, daz təpəsi, al-qana bulaşmış enli ağ sifətiylə dəhşət saçırdı.

– İnsanlar! – o qışqırdı. – Mənə qulaq asın. O gecə o burda olub. Qətl gecəsi mənim yanımda olub. Allaha and içirəm…

– Aman Allah! – Qrimm qışqırdı, onun səsi cavan kahin səsi kimi təmiz və qəzəbliydi. – Niyə Ceffersondakı bütün keşişlər, qarımış qızlar bu sarıqarın əclafı görən kimi onun ayağına döşənirlər? – O, qocanı kənara itələyib, irəli cumdu.

Sanki o, Oyunçunun haçan gediş edəcəyini, bir şahmat fiquru kimi onu haçan yerindən tərpədəcəyini gözləyirmiş; yenə də həmin dincəlmək bilməyən əminliklə birbaş mətbəxə – mətbəx qapısına doğru qaçdı, yanı üstə aşmış masanı – qaçaq otağın küncündə onun arxasına qısılıb, par-par parıldayan əllərini həmin masanın tini üstünə qoymuşdu – demək olar ki, heç görməyə macal tapmamış atəş açdı. Tapançanın bütün güllələrini o istiqamətə boşaltdı; sonra məlum oldu ki, o masada açılan beş deşiyin hamısını dörd qatlanmış bir burun dəsmalı ilə örtə bilərdin.

Ancaq Oyunçu öz oyununu hələ bitirməmişdi. Digər təqibçilər qaçıb mətbəxə girəndə, masanın bir kənara atıldığının, Qrimmin isə yerə sərilmiş adamın başı üzərinə əyildiyinin şahidi oldular. Onun nə elədiyinə baxmaq üçün ora yaxınlaşanda, əvvəlcə, o adamın hələ ölmədiyini gördülər, Qrimmin nə işlə məşğul olduğunu görəndə isə onlardan biri boğuq səslə bərkdən çığırdı, dalı-dalı divara tərəf çəkilib qusmağa başladı. Sonra Qrimm geriyə sıçrayıb, əlindəki qəssab bıçağını çiyni üstündən arxaya fırlatdı.

– İndi sən heç cəhənnəmdə də ağ qadınlara sataşmayacaqsan! – o, döşəməyə sərilmiş adama dedi.

Ancaq döşəməyə sərilmiş adam tərpənib-eləmirdi. Sakitcə uzanmışdı, açıq gözlərində yalnız indi, bu an şüurundan keçənlər ifadə olunmuşdu; dodaqlarında isə nəyinsə kölgəsi gizlənmişdi. Uzun müddət onlara beləcə – dinc, dibi görünməyən, dözülməz baxışlarla baxdı. Sonra onun sifəti, bədəni birdən çökdü, elə bil, içindən qırıldı, şalvarının alt tərəfindən, yanbız hissələrindən, parça zolaqların arasından buğ kimi qara qan fışqırmağa başladı. Bu qan onun rəngi qaçmış bədənindən, göyə atılan raketdən ətrafa sıçrayan qığılcım topası kimi fışqırırdı; bu insan bu qara partlayışda, sanki, əbədi həkk olunmaq üçün onların yaddaşına millənirdi. Sonra, gələcəkdə hansı dinc vadiyə düşsələr də, qocalığın hansı sakit, fırtınasız axarına qovuşsalar da,

hansı övladlarının üz güzgüsündə keçmiş müsibətlərini, yaxud yeni ümidlərini oxumalı olsalar da, onlar bu sifəti heç cür unuda, yaddaşlarından silə bilməyəcəkdilər. Bu düşüncəli, sakit, sarsılmaz, illər keçsə də solub-saralmayan, hətta o qədər də vahiməli, qorxunc olmayan, amma özünə görə dinc, özünə görə qalib görünən sifət həmişə onlarla birlikdə olacaqdı. Yenə şəhər tərəfdən yanğın siqnalının divarların bir qədər boğub zəiflətdiyi çığırtısı eşidildi; o, get-gedə güclənərək, qulağın eşitmə qabiliyyətinin vara bilmədiyi yüksək həddə qalxdı, orda itib-batdı.

20

Mis rəngli qürub şəfəqlərinin son şüaları artıq sönmək üzrədi; alçaqboy ağcaqayın ağaclarının, alçaqboy qapı lövhəsinin arxasındakı, kabinet pəncərəsindən baxarkən çərçivəyə salınmış səhnə kimi görünən küçə artıq bomboşdu, hər şeyə hazırdı.

Cavanlığını, seminariyadan Ceffersona gəldiyi ilk günləri xatırladı, onda bu mis rəngli qürub şəfəqlərini, az qala, qulaqla eşitmək olurdu – truba çalğısının dərin bir uçuruma yuvarlanaraq öləziyən, sükut və intizar intervalı arasında itib yox olan qızılı səsləri kimi; onlarsa tezliklə məhz bu interval arasında peyda olacaqdılar. Və onda o truba səsləri hələ susmağa macal tapmamış, ona elə gələcəkdi ki, havada hələ pıçıltıdan, pıçhapıçdan yüksək olmayan zəif bir tufan hənirtisi eşidilir.

Ancaq o bunu heç vaxt heç kimə açıb demədi. Hətta o qadına belə. Hətta hələ gecələr bir-birini sevdikləri, hələ utancaqlıqdan və küskünlükdən uzaq olduqları, o qadının küskünlük, xiffət, sonra isə ümidsizlik içində onun hər axşam bu pəncərə önündə oturub gecənin, qaranlığın düşəcəyi anı nə üçün gözlədiyini bildiyi və hələ unutmağa macal tapmadığı günlərdə belə ona demədi. Hətta ona, o qadına belə... *Bu* qadına belə... Təkcə onun cismani toxumunu deyil, həm də ruhunu – həqiqət, yaxud onun yaxınlaşmağa cürət etdiyi qədər həqiqət olan şeyi qəbul etmək və qoruyub saxlamaq üçün Allahın yaratdığı İtaətkar və Naməlum qadına belə (əvvəllər inandığı kimi, seminariyaya deyil)...

Ailənin yeganə uşağı idi. O doğulanda atasının əlli yaşı vardı, anası isə iyirmi il idi xəstə yatırdı. İllər ötdükcə onda belə bir əminlik yarandı ki, buna səbəb anasının Vətəndaş müharibəsinin son ilində zorla tapa bildiyi qida məhsulları olub. Bəlkə də, səbəb elə buydu. Vaxtilə çoxlu kölə saxlayan bir adamın oğlu olsa da, atasının köləsi yox idi. O da kölə saxlaya bilərdi. Ancaq kölə saxlamağın saxlamamaqdan daha ucuz olduğu bir dövrdə və belə bir diyarda doğulmasına, böyüməsinə, yaşamasına baxmayaraq, atası qara qulların əkib-becərdiyi nemətləri, bişirdiyi yeməkləri yemək, onların açdığı yataqlarda yatmaq istəmirdi. Buna görə də müharibə zamanı, o, evdə olmadığı vaxtlar arvadı özü təkbaşına, yaxud da qonşuların hərdənbir, təsadüfi köməyi ilə əkib becərə bildiyi bostanın ümidinə qalmışdı. Qonşulardan yardım qəbul etməyi isə

əri ona qadağan eləmişdi; bircə səbəbə görə ki, arvadı bunun əvəzini onlara eyni şəkildə ödəyə bilməzdi. “Allah özü yetirəcək”, – o demişdi.

– Nə yetirəcək? Zəncirotumu, şalğammı?

– Dəxli yoxdu, O bizə elə bir mədə verəcək ki, biz hətta onları da həzm edə biləcəyik.

O, keşiş idi. Hər bazar günü sübh obaşdan evdən çıxırdı, ancaq anqlikan icmasında yaxşı hörmətə malik olan, oğulun xatırladığı qədər bir dəfə də olsun kilsə qapısına ayaq basmayan ata (bu, oğulun toyundan əvvəl olmuşdu) yalnız bir ildən sonra onun – oğulun hara getdiyindən xəbər tuta bildi. Məlum oldu ki, iyirmi bir yaşı təzəcə tamam olan oğlu hər bazar günü on altı mil yol qət edib, ibadət üçün xırda bir presviterian kilsəsinə gedir. Atanı möhkəm gülmək tutdu. Oğul bu gülüşü adi bir söyüş, yaxud da çığır-bağır kimi – laqeydcəsinə, soyuq bir ehtiramla, etirazsız-filansız dinlədi. Növbəti bazar günü isə yenə də öz kilsəsinə yollandı.

Müharibə başlayanda oğul birincilər sırasında döyüşə getmədi. Amma axırıncılardan da olmadı. Dörd il orduda qaldı, bu müddət ərzində bir dəfə də olsun muşketdən atəş açmadı, hərbi mundir əvəzinə isə toyda aldığı, sonra isə moizə oxumaq üçün kilsəyə gedərkən geyindiyi qara pencəkdə gəzdi. Altmış beşinci ildə elə həmin pencəkdə də müharibədən evə qayıtdı, ancaq onu gətirən arabanın qapının ağzında dayandığı, iki nəfərin onu qucağında evə aparıb yatağa uzandırdığı gündən sonra bir daha o pencəyin üzünü görmədi. Arvadı onu çardaqdakı sandıqda gizlətdi. O pencək ta oğulun oğlu onu ordan çıxarıb, artıq bu dünyada olmayan əllərin səliqəylə bükdüyü parçanın qatını açdığı günə kimi – düz iyirmi beş il sandıqda qaldı.

O indi, sakit kabinetdə qaranlıq pəncərə önündə oturub, ala-toranın haçan yox olacağı, gecənin haçan düşəcəyi və dördnala çapan at dırnaqlarının gurultusunu haçan eşidəcəyi anı gözləyərkən, həmin pencəyi xatırlayır. Mis rəngli işıq artıq sönüb, dünya rəngli şüşədən görünən bir işığın əlvanlığını, sıxlığını xatırladan yamyaşıl sükuta qərq olub. Bir azdan *Lap az qalıb. Lap az* deməyin vaxtı çatacaq. “Onda səkkiz yaşım vardı, – o düşünür. – Yağış yağırdı”. Ona elə gəlir ki, o yağışın, o torpağın oktyabr ayındakı qəmgin nəmliyini, qapağını qaldırarkən üfunətlə əsnəyən o sandığın kəsif iyini indi də eşidir. Sonra isə – səliqəylə qatlanmış pencək. Mərhum anasının bu parçaya toxunmuş əllərinin xatirəsi birdən-birə onu o qədər sarsıtdı ki, əvvəlcə onun nə olduğunu anlamadı. Sonra yavaş-yavaş pencək açıldı, əlindən asılı qaldı. Bu pencək ona, az yaşlı uşağa son dərəcə nəhəng, iri göründü, elə bil, azman bir pəhləvan üçün tikilmişdi; bu paltarı bir vaxtlar onlardan, onun ailə üzvlərindən biri geyinmiş olduğu üçün, sanki, tüstü, gurultu və cırıq-cırıq olmuş bayraqlar arasından güclə görünən iricüssəli, rəşadətli kölgələrin bütün məziyyətləri bu parçaya hopmuş və indi onun həm gerçək, həm də yuxulu həyatının məğzinə çevrilmişdi.

Pencək üstündəki pinələrdən[25] – nişanlardan tanınmaz hala düşmüşdü. Bunlar kişi səliqəsiylə, kobudcasına tikilmiş dəri pinələr və sapsarı saralaraq ötən ildən qalma xəzəl rəngini almış boz mahud konfederat pinələri idi; onlardan biri isə onun uşaq qəlbinin, az qala, dayanmasına səbəb oldu: Birləşmiş Ştatlar ordusuna məxsus hərbi mundirdən qoparılmış mavi – tünd-mavi rəngli bir pinə. O dilsiz-ağızsız, naməlum nişana baxarkən, anayla ata ömrünün payız çağında doğulan, bədən hüceyrələri artıq İsveçrə saatının aramsız qayğısına ehtiyac duyan bu oğlan uşağını qalibiyyət qarışıq qəribə bir qorxu hissi sakitcə öz ağuşuna aldı, sonra o xəstələndi.

Axşam, şam zamanı heç nə yeyə bilmədi. Artıq altmış yaşını haqlamaqda olan atası başını qaldıranda oğlunun ürkək, hayıl-mayıl, bir də nəsə qəribə baxışlarla onu süzdüyünü gördü. Ondan soruşdu: "Sənə nə olub?" Uşaq nə cavab verə, nə də danışa bildi, onun məsum uşaq sifətində elə bir ifadə vardı ki, elə bil, dərin, dibsiz bir quyuya baxırdı. Gecə yuxuya gedə bilmədi. Əl-ayağı qıc olmuş halda qaranlıq çarpayıda uzanmışdı, heç titrətmirdi də, həyatda olan yeganə doğması, atası isə bu vaxt (uşaqla onun arasında elə bir uzun zaman məsafəsi vardı ki, onu hətta on illərlə də ölçmək mümkün deyildi; bu, onları zahiri oxşarlıqdan belə məhrum etmişdi) ondan xeyli aralıda – divarların, döşəmələrin o tayında yatmışdı. Sabahı gün uşaq yenə qarın ağrısına düşdü. Amma bunu heç kimə, hətta onların ev işlərini görən, ona ana və dayə əvəzi olan zənci qadına belə demədi. Sonra tədricən gücü bərpa olunmağa başladı. Özünə gələn kimi bir gün yenə çardağa çıxdı, sandığı açdı, pencəyi çıxardı, qorxu, qürur və şirin bir ürpəşmə içərisində əlini mavi pinəyə toxundurdu; atasının, bu pinənin kəsilib götürüldüyü mundirin sahibini öldürüb-öldürmədiyi barədə düşündü, bunu bilmək arzusunun, bunu bilmək qorxusunun onda nə qədər güclü, daimi olduğunu anlayanda daha da dəhşətə gəldi. Lakin elə həmin günün sabahı, atasının kənddəki xəstələrindən birinə baş çəkməyə getdiyini, axşamacan ordan çətin qayıda biləcəyini öyrənəndə mətbəxə keçib, zənci qadınla söhbət elədi. "Mənə yenə babamdan danış. O nə qədər şimallı öldürüb?" Bu dəfə onu dinləyərkən, azacıq da olsa, qorxu hiss etmədi. Heç qalibiyyət hissi də duymadı; sadəcə, fəxr və qürurla qulaq asdı.

Öz oğlunun isə bu babanı görməyə gözü yox idi. Oğlu heç zaman belə bir şey soruşmaz və fikirləşməzdi; buna rəğmən nə oğul özünə başqa bir ata, nə də ata özünə başqa bir oğul arzulamağı ağlına da gətirməzdi. Onların bir-birinə münasibəti kifayət qədər dinc, hamar idi: oğulunku soyuq, quru, mexaniki bir ehtirama, atanınkı isə canlı, açıq, bir qədər kobud, amma ürəkdən gələn yumora əsaslanırdı və bu yumorda mənasızlıqdan daha çox incəlik çatışmırdı. Onların ikimərtəbəli şəhər evindəki həyatı sakit-xürrəm və dinclik içərisində keçirdi, amma günlərin bir günü oğul, onu bələk vaxtından saxlayıb böyüdən kölə qadının bişirdiyi yeməkləri yeməkdən birdən, həm də həmişəlik imtina etdi. Zənci qadının hədsiz qəzəbinə baxmayaraq, o gündən öz yeməyini mətbəxdə özü bişirdi, onu süfrəyə özü gətirib düzdü; süfrə arxasında üzbəüz

[25] Pinə - o dövrdə orduda parça və dəridən kəsilib düzəldilmiş fərqlənmə nişanları

əyləşdiyi atası, bir qayda olaraq, hökmən və təntənəli şəkildə onun sağlığına burbon viskisi qaldırardı, amma oğul dilinə bir qram da olsun viski vurmazdı və bütün ömrü boyu da ona yaxın düşmədi.

Oğlunun toy günü ata evi ona bağışladı. Gənc bəylə gəlin evə gələndə o artıq əlində açar artırmada dayanmışdı. Plaşını geyinmiş, şlyapasını başına qoymuşdu. Bütün əşyaları yanına yığılmışdı, bir cüt köləsi isə (xörəkbişirən zənci qadın və özündən yaşca xeyli böyük olsa da, "balaca" deyə çağırdığı, başında bir dənə də tükü olmayan kişi – o qadının əri) bir qədər arxada dayanmışdı. Ata plantator deyildi, hüquqşünas idi, oğlu sonralar tibbi necə öyrənmişdisə, o da hüququ təxminən o cür, özü demişkən, "cidd-cəhdlə, hətta şeytana yalvara-yalvara" öyrənib mənimsəmişdi. O, şəhərdən iki mil aralıda özünə təzə ev almışdı, artırmadan bir az aralıda eynicinsli bir cüt ata qoşulmuş dördtəkərli araba onları gözləyirdi; oğlu, üzünü ilk dəfə gördüyü gəlini ilə birlikdə həyət qapısından içəri girib evə tərəf gələrkən o – sağlam cüssəli, üst-başı bir qədər səliqəsiz, qırmızıburun, bığları soyğunçu-quldur bığına bənzəyən bu adam şlyapasını boynunun arxasına ataraq, ayaqlarını bir-birindən aralı qoyub artırmada dayanmışdı. Aşağı əyilib gəlini öpdü, kəskin tütün, viski iyi qadının boynunu yaladı. "Mən bilən, sən onun üçün münasib arvad olacaqsan, – dedi. Gözlərindən şıltaqlıq, sırtıqlıq yağsa da, onlar mehriban idilər. – Bir də bizim bu mömin oğlana o qədər də çox şey lazım deyil, Allahın belə musiqiyə dözə bilmədiyi presviterian himnlərini bəm səslə oxuya bildin, kifayətdi".

Sonra fırçayla rənglənmiş dördtəkərli arabaya minib, bütün əmlakı – paltarları, üstü hörməli iri viski şüşəsi və kölələri ilə birlikdə ordan uzaqlaşdı. Aşpaz qadın hətta yeni evlənənlərə ilk nahar yeməyini hazırlamaq üçün də qalmadı. Bu işi ona təklif edən olmadığı kimi, onu bu işə götürməkdən imtina edən də olmadı. Ata ömrünün axırına kimi bir də bu evə ayaq basmadı. Gəlsəydi, çox şad olardılar. Bu barədə heç vaxt açıq şəkildə danışmasalar da, ata da, oğul da bunu yaxşı bilirdi. Gəlin – həyatda elə bir uğur qazana bilməyən, kilsədə isə, görünür, süfrədə çatışmayan şeylərin əvəzini tapan, tərbiyəli və çoxuşaqlı bir ailənin qızı olan gəlin isə qayınatasını çox sevirdi; ürkəkcəsinə, gizlincə, üzə büruzə vermədən ona – onun dəlisovluğuna, sadəlövh kişilik qanunlarına kor-koranə, sadəlövh inancına məftun idi. Lakin atanın bəzi işlərləri də onların qulağına gəlib çatırdı: bir dəfə, kəndə köçdükdən sonra növbəti yay o, qonşu meşəlikdə təşkil olunan dini bir mərasimə müdaxilə edərək onu bir həftəlik həvəskar at yarışına çevirmişdi; qəzəbli, fanatik kənd keşişləri isə sırası seyrələn dindarlar önündə kənd minbərindən bu islaholunmaz adama olmazın lənətlər yağdırmışdılar. Oğluna, gəlininə niyə baş çəkmədiyini isə onlara açıq şəkildə izah etmişdi: "Mən sizi darıxdıracam, siz də məni. Bir də ki qorxuram bu oğlan məni yolumdan azdıra. Bu qoca yaşımda başımı cənnətlə". Ancaq əsl səbəb bu deyildi, başqaydı. Oğul da bunu bilirdi; bilirdi ki, başqadı; əgər özgə ağızdan

eşitsəydi, özü hamıdan əvvəl bu iftiraya qarşı çıxardı; bilirdi ki, qoca son dərəcə həssas və prinsipial adamdı.

Oğul kölə əleyhdarına – abolisionistə, bu əhvali-ruhiyyə Şimaldan yayılıb öz söz ifadəsini tapmamışdan əvvəl çevrilmişdi. Respublikaçıların bunun üçün xüsusi bir ad düşünüb tapdıqlarını öyrəndikdən sonra isə özünü tamam başqa cür adlandırmağa başladı, amma prinsip və davranışlarını bir qram da dəyişmədi. Hələ otuz yaşı tamam olmasa da, o artıq yaşına uyğun olmayan spartalı[26] sadəliyi ilə seçilirdi – Təsadüf və viski şüşəsinin o qədər də şıltaq qullarından olmayanların əksər törəmələri kimi. Bəlkə də, məhz buna görə müharibədən sonra uşağı olmasını istəmişdi; çünki o müharibədən tamam başqa, "havasını dəyişmiş, möminlikdən arınmış" bir adam kimi qayıtmışdı – mərhum atası sağ olsaydı, yəqin ki, belə deyərdi. Orda keçirdiyi dörd il ərzində bir dəfə də olsun tüfəngdən atəş açmasa da, onun xidməti vəzifəsi təkcə hər bazar səhəri əsgərlər önündə dua etmək, moizə oxumaqla məhdudlaşmamışdı. Evə qayıtdıqdan, aldığı yaralar sağaldıqdan sonra cərrah və əczaçı kimi fəaliyyət göstərməyə, yəni cəbhədə həkimlərə kömək edərkən həm dostlarının, həm də düşmənlərinin bədəni üzərində eyni qaydada təcrübədən keçirdiyi işlə məşğul olmağa başlamışdı. Atası oğlunun əməlləri arasında, yəqin ki, təkcə bunu – doğma torpağına təcavüz edib onu viran qoyan düşmən əsgərinin bədəni üzərində hansısa peşəyə yiyələnməsini bəyənərdi.

"Ancaq mömin sözü onun üçün heç də münasib söz deyil, – qaranlıq pəncərə önündə əyləşmiş oğulun oğlu, öz növbəsində, düşünür; bayırda trubaların səsi susub, dünya yaşıl bir sükut içində buğlanır. – Atam barədə bu sözü işlədən adamın üstünə babam özü birinci hücum çəkərdi". Yox, bu, bir növ, o sərt, amma heç də qədim olmayan, heç də tamam unudulmamış dövrə təkrar qayıdış idi; çünki o dövrdə bu ölkədə yaşayan insanın özü və vaxtı o dərəcədə öz ixtiyarında deyildi ki, onları havayı sərf edə bilsin; öz ixtiyarında olan cüzi şeyləri isə o, təkcə təbiətdən yox, həm də həmcinsləri olan digər insanlardan qorumağa məcbur idi; bu vaxt o, yalnız öz gücünə, öz mətanətinə güvənir və əvəzində, ən azı, sağlığında heç bir dinclik, rahatlıq mükafatı almayacağını dəqiq bilirdi. Onun köləliyi də, yekəpər, daim küfrlə məşğul olan doğma atasını da bəyənməməsinin, ittiham etməsinin başlıca səbəbi məhz bundaydı. İdeya uğrunda müharibədə – həm də prinsipləri onun öz prinsiplərinin tamamilə əksinə olan insanların tərəfində – iştirak etməsi, bunda heç bir ziddiyyət görməməsi, görmək istəməməsi isə açıq-aşkar daxilən onda iki fərqli, iki bütöv insanın mövcud olduğuna və onlardan birinin sadə, aydın qanunlara uyğun şəkildə, gerçəklikdən xali bir dünyada yaşadığına dəlalət edirdi.

O biri, gerçək həyatda yaşayan hissəsi isə başqalarından heç nəylə fərqlənmirdi, hətta onların çoxundan daha yaxşı keçinirdi. Dinc vaxtlarda öz prinsiplərinə uyaraq yaşamışdı,

---

[26] Spartalı – qədim yunan dövləti Spartanın vətəndaşı (*məcazi mənada*: hər cür məşəqqətə, çətinliyə, məhrumiyyətə qatlaşan, sadəliyi sevən adam.

müharibə başlayanda da onlardan ayrılmadı, orda da onlara uyğun yaşadı; bazar günləri sakit bir meşəlikdə ibadət etmək lazım gələndə isə, o bu işi öz iradəsi, əqidəsi və yaşam boyu qazandığı təcrübədən savayı heç bir xüsusi vasitəylə təchiz edilmədən yerinə yetirdi; atəş altında qalan yaralıları ordan çıxarmaq, onları heç bir zəruri alət olmadan müalicə etmək lazım gələndə də yenə öz iradəsi, cəsarəti və müharibə boyu qazandığı təcrübədən savayı heç nəylə təchiz edilmədən bu işin öhdəsindən gəldi. Müharibə uduzulandan və sağ qalanlar evə qayıtdıqdan sonra onların çoxunun gözü inadla arxada, öldüyünə inanmaq istəmədikləri insanlarda qaldığı halda, o, irəliyə baxdı, bu məğlubiyyətdə qazandığı təcrübədən, azacıq da olsa, faydalanmağa çalışdı. Həkimlik etməyə başladı. İlk xəstələrindən biri öz arvadı oldu. Bəlkə də, onun həyatını xilas etdi. Ən azı, ona yeni birini həyata gətirmək imkanı verdi – oğlu doğulanda özünün əlli, arvadının isə qırxdan çox yaşı vardı. Bu oğul xəyalatlar arasında, ruhlarla yan-yana yaşayıb böyüdü.

Oğul üçün bu xəyalatlar onun öz atası, öz anası və bir də yaşlı zənci qadın idi. Kilsəsiz keşiş və düşmənsiz əsgər olan ata məğlubiyyətdən sonra bunların hər ikisini bir yerdə cəmləşdirib həkimə, cərraha çevrilmişdi. Ona barıt qoxusuyla kilsə yağı arasında, necə deyərlər, şərəflə duruş gətirməyə imkan verən həmin o soyuq və sarsılmaz dayaqlar, elə bil, nəinki çökməmiş, yıxılmamış, əksinə, müdriklik libasına bürünmüşdü. Sanki, top atəşinin qatı tüstüsü arasında vəhy kimi ona əyan olmuşdu ki, cana qəsd etməyi məhz hərfi mənada başa düşmək lazımdı. Sanki, birdən-birə ona əyan olmuşdu ki, İsa peyğəmbər, əslində, elə bunu buyurub: təkcə ruhlarının xilasına ehtiyac duyanlar heç nəyə dəyməzlər, onlar nicata layiq deyillər. İkinci xəyalat anasıydı; bu qadının onun yaddaşında qalan obrazı, əvvəldən axıra kimi, yalnız əriyib itməkdə olan ölgün bir sifətdən, iri, hədəqəsindən çıxmış gözlərdən, yastığın üstünə tökülmüş qara saçlardan və bir də gömgöy göyərmiş, hərəkətsiz, az qala sümükləri görünən əllərdən ibarət idi. Əgər anasının öldüyü gün ona bu qadını heç də həmişə bu cür – yalnız çarpayıda, yatmış vəziyyətdə görmüş olmadığını söyləsəydilər, buna heç cür inanmağı gəlməzdi. Sonralar isə başqa şeyləri də – onun evin içində necə gəzişdiyini, ev işləriylə necə məşğul olduğunu da xatırladı. Lakin səkkiz, doqquz, on yaşlarında bu qadın ona ancaq qıçsız, ayaqsız bir məxluq – günü-gündən əriyib solan sifət və ətrafdakı hər şeyi, bütün canlı həyatı əzab, ümidsizlik və ölüm hissiylə dolu dəhşətli baxışlarla son dəfə görə bilmək üçün hər bir az da böyüyərək hədəqəsindən çıxan bir cüt göz kimi görünmüşdü; və o "ölüm" deyilən şey, nəhayət ki, baş versəydi, o bunu dərhal eşidərdi: yəqin ki, bu, çığırtıya bənzər bir səs olardı. Anası ölüm ayağında olarkən o artıq öz valideynlərini divar arxasından duya bilirdi. Onun üçün onlar evin özüydü: o bunların arasında, artıq sönməkdə olan bir həyatın qaranlıq, hər yanı öz ağuşuna almış, sarsılmaz işartısı içində yaşayırdı. Hər ikisi – ata da, ana da öz yuvasına, mağarasına sığınmış bir cüt xırda, zəif heyvan kimi onun öz daxilində yaşayırdı və anayla oğul üçün artıq özgə, yad, demək olar ki,

təhlükəli bir adam olan ata o yuvada yalnız hərdənbir görsənirdi: cismani sağlamlıq insan ruhunu bu cür tez dəyişir və başqa şəklə salır. O, sadəcə, yad adam deyildi, həm də düşmən idi. Ondan başqa cür iy gəlirdi. O, başqa səslə, az qala, başqa sözlərlə danışırdı, elə bil, başqa bir mühitin, başqa bir dünyanın adamıydı; çarpayının böyrünə çökmüş uşaq yataqda yatmış kişinin ətrafa kor-kobud sağlamlıq və məsuliyyətsiz nifrət püskürdüyünü aydın hiss edirdi, amma o da onlar qədər gücsüz və əlacsız idi.

Üçüncü xəyalat bəylə gəlinin evə gəldiyi gün onları dördtəkərli arabada tərk edib gedən zənci, kölə qadın idi. O, kölə kimi getmişdi, altmış altıncı ildə kölə kimi də geri qayıtdı, amma pay-piyada; iri, yekəpər bir arvad idi, sifətində eyni anda həm qəzəbli, həm də sakit bir ifadə – pərdəarası qara faciə maskası vardı. Sahibi öləndən sonra onun kənddəki evini tərk etməkdən qəti boyun qaçırdı, çünki sahibi evi ona tapşırıb getmişdi və bu fikrindən yalnız, nəhayət, nə öz sahibini, nə də onunla birlikdə müharibəyə yollanıb onun kimi geri qayıtmayan ərini – "balaca"nı bir daha görə bilməyəcəyinə əmin olduqdan sonra daşındı. Atasının ölümündən sonra oğul həmin evin qapısını birdəfəlik bağlamaq və onun əşyalarını öz yanına gətirmək üçün ora yollandı, qadına hər cür təminat təklif etdi. Amma o, buna razı olmadı. Oğulun yanına köçməkdən də imtina etdi. Kiçik bir bostan əkib, orda tək yaşadı, ərinin müharibədən qayıtmasını gözlədi, onun ölümü barədəki şayiələrə heç cür inanmaq istəmədi. Ancaq bütün bunlar yalnız şayiə idi, özü də qatma-qarışıq, dumanlı bir şayiə; belə ki, Van Dornun süvari dəstəsi general Qrantın Ceffersondakı hərbi sursat anbarına basqın edərkən sahibi döyüşdə öldükdən sonra, guya, zənci tamam çarəsiz qalıb. Sonra da bir gecə hərbi düşərgədən yoxa çıxıb. Bir müddət sonra isə düz cəbhə xəttində tez-tez konfederatların keşikçi dəstəsinin əlinə keçən və hər dəfə də itkin düşmüş sahibi haqqında eyni şeyləri sayıqlayan (guya, yankilər əvəzində pul almaq üçün onu əsir saxlayırdılar) ağlı yerindən oynamış bir zənci barədə söz-söhbət yayılmağa başladı. O, sahibinin öldürüldüyünə heç cür inanmaq istəmirmiş. "Yox, ser, – deyirmiş, – onlar Mars Geyli öldürə bilməzdilər. Heç cür öldürə bilməzdilər. Haytaueri öldürməyə onların *cəsarətləri* çatmazdı. Buna *cürət* eləməzdilər. Mən bilirəm, onu hardasa gizlədiblər, ondan bizim xanımın qəhvədanının, qızıl məcməyisinin yerini öyrənmək istəyirlər, onları biz ikimiz bir yerdə gizlətmişik. Onların istədiyi ancaq budu". Hər dəfə də bu zənci onların əlindən qaçıb qurtara bilirmiş. Ancaq bir dəfə federal qoşunların cəbhə xəttindən belə bir söz yayıldı ki, zənci əlində bel bir zabitin üstünə hücum çəkib, həmin zabit də öz həyatını müdafiə etmək naminə onu güllələmək məcburiyyətində qalıb.

Zənci qadın uzun müddət buna inanmadı. "Onda bu qədər ağıl hardan idi, – dedi. – O qədər gicbəsər idi ki, kimin yanki, kimin özününkü olduğunu, beli kimin başına vurmaq lazım gəldiyini heç cür ayırd elə bilməzdi". Düz bir il bunu deyib durdu. Sonra günlərin bir günündə,

on il əvvəl tərk etdiyi və bu müddət ərzində bircə dəfə də olsun ayaq basmadığı evə, oğulun yanına döndü; bütün var-yoxunu tək bir şala büküb gətirmişdi. Evə girən kimi dedi:

– Bu da mən. Şam hazırlamaq üçün odununuz varmı?

– Siz artıq azad adamsınız, – oğul dedi.

– Azad adam? – zənci qadın təkrar etdi. O, sakit, qəmgin bir nifrətlə danışırdı. – Azad adam? Bu azadlığın faydası nədi, Mars Geylin öldürülməsimi, yoxsa Pompun ağlını itirib, o cür dəli halına düşməsimi? Heç Allahın özü də onu bu hala sala bilməzdi. Azad adam? Siz mənə belə bir azadlıqdan dəm vurmasanız yaxşıdır!

Bu, üçüncü xəyalat idi. Uşaq bu xəyalatla ("əslində, o vaxtlar elə o özü də xəyalat kimi şey idi", – deyə həmin uşaq indi işığı sönmüş pəncərə önündə düşünür) həmişə ruh barədə söhbət edərdi. Bundan heç yorulub-usanmazdılar: uşaq şövqlə, yarıvəcd-yarıqorxu, qoca zənci qarı isə dalğın, qəzəbli qüssə və fəxrlə danışırdı. Ancaq bütün bunlar uşağa, sadəcə, vəcdin sakit bir titrəyişi kimi görünürdü. O, ona danışılan və həqiqət olduğuna ürəkdən inandığı şeyləri – babasının "yüzlərcə düşmən öldürdüyünü", yaxud zənci Pompun bir insanı öldürməyə cəhd göstərərkən özünün qətlə yetirildiyini eşidib-biləndə qorxub-eləmədi. Heç əti də ürpəşmədi, çünki onlar onun üçün yalnızca xəyalat, heç vaxt diri, ətli-qanlı halda görmədiyi sadə və çılğın qəhrəmanlar idilər; üz-üzə, göz-gözə gördüyü, qorxub-çəkindiyi atası isə onun üçün heç vaxt ölməyəcək dipdiri xəyalat idi. "Elə buna görə də, – o düşünür, – təəccüblü deyil ki, mən bütöv bir nəslin üstündən adlamışam. Təəccüblü deyil ki, mənim atam olmayıb, mən artıq bir dəfə, hələ dünyaya gəlməmişdən iyirmi il əvvəl o gecə ölmüşəm. İndi mənim üçün yeganə çıxış yolu ölmək üçün ora – həyatımın başlamadan əvvəl bitdiyi yerə qayıtmaqdı".

Seminariyaya daxil olduqdan sonra o tez-tez bütün bunları onlara – könüllü olaraq özünü ixtiyarına verdiyi kilsənin taleyini həll edən böyüklərə, ali və müqəddəs sayılan adamlara necə danışacağını düşünürdü. Onların yanına necə gedəcəkdi, bütün bunları onlara necə deyəcəkdi: "Qulaq asın. Cənabı Allah məni Ceffersona çağırmalıdı, çünki mənim həyatım orda bitib, hələ ana bətninə düşməmişdən iyirmi il əvvəl, gecə vaxtı Ceffersonda bir küçədə at belində, dördnala çaparkən bir güllə ilə ona son qoyulub". İlk vaxtlar fikirləşirdi ki, bunları onlara deyə bilər. İnanırdı ki, başa düşərlər. Axı o, məhz bu məqsədlə onlara pənah gətirmiş, kilsə yolunu seçmişdi. Ancaq onun inancı təkcə bununla məhdudlaşmırdı. O, kilsənin özünə də, ondan doğub-törəyənlərə, onun təlqin etdiklərinə də – nə vardısa, hamısına – inanırdı. Dinc, həlim bir sevinc içərisində inanırdı ki, əgər dünyada sığınacaq deyilən bir şey varsa, o da kilsədi; əgər həqiqətin çılın-çılpaq, utanmadan, qorxmadan yaşaya biləcəyi bir yer varsa, o da seminariyadı. Öz yolunu artıq tapdığına əmin olanda isə gələcək həyatı ona möhkəm, hər cəhətdən mükəmməl və tər-təmiz, klassik şəffaf güldan kimi ləkəsiz göründü; belə bir həyatda insan ruhu təzədən, bütün məişət fırtınalarından qorunmuş halda doğula, elə o cür də rahat – çürüyən nəşin bir ovuc tozunu

göyə sovuran zəif, məsum bir küləyin uzaqdan gələn zümzüməsi altında ölə bilərdi. Onun üçün "seminariya" sözü məhz bu demək idi: dinc və etibarlı divarlar; libasların sıxdığı narahat ruh öz çılpaqlığını qorxu-ürküsüz, əndişəsiz seyr edə bilmək üçün məhz burada, bu divarların arasında yenidən dincliyə, rahatlığa qovuşa bilərdi.

"Ancaq bu göy və yer üzündə elə şeylər var ki, həqiqət onların yanında heç nədi,", – o düşünür, fikrini yenidən başqa şəkildə – istehzayla, zarafatla deyil, amma həm də istehza və zarafat qarışıq, – sakitcə ifadə etməyə çalışır. Qatılaşan qaranlıqda sarıqlı başı, elə bil, getdikcə böyüyür, şəffaf bir şeyə çevrilir. "Çox şeylər var, lap çox", – ürəyində təkrar edir, fikirləşir: düşüncə qabiliyyəti insana ona görə bəxş edilib ki, o, ən ağır anlarda belə özünü onu həqiqətdən qoruyan obrazlarla, səslərlə təmin edə bilsin, onları düşünüb tapa bilsin. Hər halda, bir şeyə görə heç vaxt təəssüflənməyəcək: o vaxt düşündüklərini böyüklərə açıb deməməkdə heç də səhv eləməyib. Seminariyada bircə il oxumamış bunun çox axmaq bir şey olacağını aydın başa düşdü. Bundan da əfzəli, bundan da betəri o oldu ki, bunu başa düşəndən sonra o qazanmaq, əldə etmək istədiyi şeyi itirmədi, əksinə, özü nədənsə qurtuldu, xilas oldu. Və bu qazancı sevgi, məhəbbət deyilən şeyin həm çöhrəsini, həm də xarakterini onun üçün əlvan rəngə bürüdü.

O, keşişlərdən – kollec müəllimlərindən birinin qızıydı. Özü kimi, o qız da ailənin tək övladıydı. Onun dünya gözəli olduğuna dərhal inandı, çünki üzünü görməmişdən əvvəl haqqında eşitdi, görəndə isə xəyalında yaratdığı sifət ucbatından onu görə bilmədi. İnanmırdı ki, bütün ömrü boyu burda yaşayan bir qız gözəl olmasın. Onun sifətini yalnız üç ildən sonra görə bildi. O vaxtacan artıq iki il idi ki, bir ağac koğuşu vardı və onlar ora bir-birinə məktub atırdılar. Bu barədə fikirləşəndə elə bilirdi ki, bu ideya hər ikisinin ağlına eyni vaxtda, bədahətən gəlib; bunu kimin birinci düşünüb tapdığının, dilə gətirdiyinin onun üçün elə bir əhəmiyyəti yox idi. Əslində isə ideya nə ondan, nə də o qızdan gəlmişdi: kitabdan götürülmüşdü. Qızın sifətini isə, ümumiyyətlə, görməmişdi. Balaca, çənə hissəsində sərt şəkildə daralan, qaşqabaqlı, narazı oval çöhrə (qız birmi, ikimi, ya üç ilmi ondan böyük idi, amma o bunu bilmirdi, heç vaxt da bilmədi) gözünə görünməmişdi. O qızın, çətin vəziyyətə düşmüş qumarbaz gözlərinə bənzəyən əsəbi, daim nəyinsə hesabını aparan gözlərinin düz üç ildi onu izlədiyindən də xəbərsiz idi.

Amma bir gecə onu gördü, sifətinə baxdı. Qız gözlənilmədən, hirs və qəzəb içərisində evlənməkdən danışdı. Birdən-birə, girişsiz-filansız. Əvvəllər bu mövzuya heç toxunmamışdılar. Evlənmək haqqında, hətta bu sözün özü barədə heç düşünməmişdi. Əslində, o, belə bir şeyi mümkün sayırdı, çünki müəllimlərinin əksəriyyəti evli idi. Amma onun üçün nikah kişiylə qadın arasında müqəddəs və gerçək cismani yaxınlıq deyil**,** yalnız canlılar arasında mövcud olan ölü – bir-birinə xəyali iplə bağlanan iki kölgə münasibəti idi. O buna öyrəşmişdi: ruhla bir yerdə böyümüşdü. Nəsə, bir gecə o qız gözlənilmədən, hirs və qəzəblə danışdı. Onun indiki həyatdan

qurtulmaq istədiyini söyləyərkən nəyi nəzərdə tutduğunu, axır ki, anlayanda buna təəccüblənib-eləmədi. Çünki həddən artıq sadəlövh idi.

– Qurtulmaq istəyirsən? – o dedi. – Nədən qurtulmaq istəyirsən?

– Bundan! – qız dedi. İlk dəfə onun əsl sifətini – necə vardısa, o cür – gördü; bu sifət həris istək və qatı nifrət üzərinə çəkilmiş maska kimiydi: qəzəbdən əyilib eybəcər hala düşmüş, korlaşmış, ehtirasdan ağlını itirmişdi. Amma axmaq deyildi, sadəcə, kor və ümidsiz idi. – Hər şeydən! Hər şeydən! Hər şeydən!

Buna təəccüblənmədi. Dərhal onun haqlı olduğunu, özününsə sadəlövhlükdən bunu anlamadığını düşündü. Bu qənaətə gəldi ki, seminariya haqqında təsəvvürü lap əvvəldən yanlış olub. Tamam yanlış yox, bir qədər səhv, qeyri-dəqiq... Bəlkə, o özü də artıq belə bir şübhəyə düşübmüş, amma bu anadək onu aydın dərk etməyib. Elə buna görə də nə üçün Ceffersona getməli olduğunu böyüklərə deməyib. Qıza isə nə üçün ora getmək istədiyini, hökmən getməli olduğunu və bunu onlara izah etməyə hazırlaşdığını bir il əvvəl danışmışdı; qız da onda hələ görünməyən əsəbi gözləriylə onu tərs-tərs süzmüşdü.

– Səncə onlar məni buraxmazlar? – o dedi. – Ora göndərməzlər? Bunu kifayət qədər əsaslı hesab etməzlər?

– Əlbəttə ki, yox, – qız dedi.

– Nə üçün? Axı bu, həqiqətdir? Sarsaq görünsə də, həqiqətdir. Bəyəm kilsə, lap axmaq olsa belə, həqiqəti axtarıb-arayan adama kömək etməli deyil?

– Onların yerində mən də olsaydım, belə bir səbəbə görə səni ora buraxmazdım.

– Aha, – o dedi. – Başa düşürəm. – Amma əslində, heç nəyi başa düşməmişdi, yalnız bir şeyə əmin idi ki, qız haqlıdır, o isə səhv eləyə bilər. Buna görə də bir ildən sonra qız birdən-birə yenə eyni sözlərlə evlənməkdən və nədənsə qurtulmaqdan söz açanda buna nə təəccübləndi, nə də hirsləndi. Sadəcə, sakitcə fikrə getdi: “Demək, məhəbbət belə bir şeymiş. Başa düşürəm. Deməli, mən bu barədə də səhv eləyirmişəm”, – deyə əvvəlki kimi düşündü və hər bir insan kimi bundan sonra da belə düşünəcəkdi; çünki ən dərin, ən doğru kitabı belə gerçək həyata tətbiq etməyə çalışsan, onda onun nə qədər yalan olduğu dərhal üzə çıxar.

Tamam dəyişdi. Evlənmək qərarına gəldilər. İndi anlayırdı ki, qızın gözlərindəki bu əsəbi, öz xeyrinə hesablamaları elə əvvəlcədən görüb. “Əsl sevgi-məhəbbəti yalnız kitablarda təsvir etməklə, görünür, düz iş görüblər, – o, sakitcə düşündü. – Onun yeri elə oradı”.

Qızın gözlərindəki o əsəbi ifadə isə necə vardı, eləcə də qalmışdı, amma indi, planlar dəqiqləşdikdən və toy günü təyin edildikdən sonra bir qədər yumşalmışdı; hesab əsəbiliyi üstələmişdi. İndi söhbət yalnız Ceffersona necə təyinat ala bilməkdən gedirdi. “Dərhal bu işlə məşğul olmaq lazımdı”, – qız dedi. O isə cavab verdi ki, dörd yaşından bəri bu işlə məşğuldu; bəlkə də o, bunu düşünmədən, zarafatla demişdi. Qızsa onun bu zarafatını yumor hissindən uzaq,

ehtiraslı bir səbirsizliklə qulaqardına vurdu, sanki, öz-özünə danışırmış kimi, kimlərisə görmək, kimlərinsə könlünü almaq, kimlərəsə hədə-qorxu gəlməkdən bəhs etdi, ona geniş bir yaltaqlıq və fitnə-fəsad planından söz açdı. O, diqqətlə qulaq asdı. Hətta sifətindəki yüngül – düşüncəsiz, istehzalı, bəlkə də, çaşqın – təbəssüm belə silinmədi. Qız danışdıqca onun dediklərini təsdiq etdi:

– Hə. Elədi. Aydındı. Başa düşürəm, – əslində isə, sanki, başqa şey demək istəyirdi *Hə. Başa düşürəm. İndi başa düşürəm. Elə hamı belə eləyir, öz məqsədinə bu yolla çatır. Qayda belədir. İndi başa düşürəm*

Demaqoqluq, alçalma, xırda yalan kilsə iyerarxiyasının hər pilləsində əks-səda verib sorğu və təklif şəklində təkrar yeni xırda yalanlara və ciddi təhdidlərə çevriləndən və nəhayət, Ceffersona təyinat alınandan sonra o, əvvəlcə buna hansı yolla nail olduğunu unutdu. O şəhərə köçüb, orda yerləşənə qədər də xatırlamadı – hər halda, həyatının başlıca məqsədinə doğru şığıyan qatar doğulduğu əyaləti xatırladan yerlərdən keçib onu bu səfərin son mənzilinə çatdıranadək belə oldu. Ancaq bu yerlər tamam başqa cür görünürdü; hərçənd özü də yaxşı bilirdi ki, bu başqalıq, uşaq kimi, az qala, sifətini yapışdırdığı vaqon pəncərəsinin o tayında yox, bu tayındadır; elə yanında oturmuş arvadının da sifətinə, adi istək və ümidsizlikdən savayı nəsə marağa bənzər bir şey yazılmışdı. Evləndikləri altı aydan da az olardı. O, seminariyanı bitirən kimi toyları olmuşdu. O vaxtdan bəri arvadının sifətində bir dəfə də olsun bu cür çılpaq ümidsizlik görməmişdi. Ancaq bu cür ehtiras da görməmişdi. Yenə fikrə getdi, sakitcə, təəccübsüz-filansız, hətta inciklik hissi belə keçirmədən düşündü: *Başa düşürəm. Demək, bu da belə olurmuş. Evlilik. İndi başa düşürəm*

Qatar irəli şığıyırdı. Pəncərənin üstünə əyilib, sürətlə geri qaçan mənzərələrə tamaşa edir, həyəcanla, uşaqcasına xoşbəxt bir coşqu ilə danışırdı:

– Mən çoxdan, istədiyim vaxt Ceffersona gedə bilərdim. Amma getmədim. İstədiyim vaxt gedə bilərdim. Bilirsən, dinc həyatdakı təsadüflə müharibədəki təsadüf arasında böyük fərq var. Müharibədəki təsadüf? Əslində, bu, ümidsiz, sərsəm bir igidlik olub. Bir ovuc sıravi əsgər (o, zabit olmayıb: məncə, atamla Sinti qarının sözü təkcə bunda bir-biriylə düz gəlirdi: babam üstündə qılınc gəzdirməyib, at belində dördnala irəli cumarkən kimisə, nəyisə sağa-sola qılınclamayıb) çılğın uşaq dəlisovluğu ilə elə bir fəndgir əməliyyat təşkil edib ki, dörd il üz-üzə döyüşdükləri nizami ordu belə onlardan bunu gözləməyib. Yankilərin hər kolluqda, hər kənddə düşərgə saldığı yüz millik ərazidən at belində çapa-çap keçəsən, şəhər qarnizonuna hücum edəsən... mən hətta onların hücum etdikləri, sonra da geri çəkildikləri küçəni də yaxşı tanıyıram. O küçəni heç vaxt görməmişəm, amma necə olduğunu dəqiq təsəvvür edirəm. İndi bizim o küçədə alacağımız, içində yaşayacağımız evin də necə olacağını dəqiq bilirəm. Əlbəttə, onu dərhal, ora çatan kimi ala bilməyəcəyik. Əvvəlcə bir müddət kilsə keşişi üçün ayrılan evdə yaşamalı olacağıq. Amma imkan yaranan kimi... Sonra pəncərədən baxıb o küçəni, ola bilsin ki,

hətta o atların nal izlərini, o insanların havada qalmış siluet cizgilərini görəcəyik, axı hava necə var elə də qalıb – ovaxtkı toz-torpaq, ovaxtkı zığ-palçıq itib-batsa belə... Ac-yalavac, arıqlayıb çöpə dönmüş əsgərlər cidd-cəhdlə planlaşdırılan irimiqyaslı hərbi əməliyyat üçün toplanmış sursatların saxlandığı anbarlara çığıra-çığıra hücum edir, onlara od vurub, aradan çıxırlar. Heç nəyi qarət eləmirlər: heç ordan ayaqqabı, tütün də götürmürlər. Sənə demişəm axı, bu insanlar qənimət, şöhrət axtarmırdılar; onlar, sadəcə, ümidsiz həyatın nəhəng dalğasına tuş gəlmiş çılğın yeniyetmə uşaqlar idi. Yeniyetmə oğlanlar. Buna görə... Bunun gözəlliyi də elə bundadır. Qulaq as. Təsəvvürünə gətirməyə çalış. Əbədi gəncliyin, bakirə, pak insan ehtirasının ən gerçək obrazı məhz bu cürdür, qəhrəmanları da məhz bu obraz yaradır. Məhz bu obraz onların şücaətini na-mümkünlüyün fövqünə qaldırır; buna görə də təəccüblü deyil ki, bu cür qəhrəmanlıqlar, barıt tüstüsü arasında hərdənbir işaran atəş qığılcımları kimi, yalnız zaman-zaman parlayıb ətrafa işıq saçmalıdır; təəccüblü deyil ki, bu qəhrəmanların cismani ölümünün özü, hələ onların nəfəsləri canlarından çıxmamış ağızdan-ağıza gəzən əfsanəyə çevrilir; çevrilir ki, paradoksal həqiqət özüözünü ləkələməsin. Sinti bax bunları mənə danışıb. Və mən buna inanıram. Doğru olduğunu bilirəm. Ağ adam belə bir şey uydura bilməzdi, çünki o zaman bu, həddən artıq gözəl, həddən artıq adi bir şey olardı. Belə bir şeyi yalnız zənci uydura bilərdi. Ola bilsin ki, Sinti də bütün bunların hamısını özündən uydurub, amma mən yenə də inanıram. Çünki fakt özü bunun qarşısında acizdir. Babamgilin eskadronu geri çəkilərkən yolda azıbmı-azmayıbmı, dəqiq bilmirəm. Məncə, azmayıb. Məncə, onlar bunu qəsdən – düşmən tövləsinə od vurub yandıran, sonra isə onun damından bir qamqalaq belə qoparmadan, qapısının cəftəsini belə qırıb atmadan ordan qaçıb uzaqlaşan və birdən yolda ayaq saxlayıb qonşunun, dostun bağından bir neçə alma oğurlamaq istəyən uşaqlar kimi bilərəkdən eləyiblər. Unutma ki, onlar ac olublar. Düz üç il ac-yalavac qalıblar. Bəlkə də, buna öyrəşiblərmiş. Hər halda, içərisində tonlarla azuqə, pal-paltar, tütün, spirtli içki olan anbarlara bir az əvvəl od vurub yandırmışdılar, "Qarət etməyin!" əmri verilməsə də, ordan heç nə götürməmişdilər; indi isə qaçıb uzaqlaşmağa çalışırdılar; geridə dəhşətli vahimə, od-alov buraxmışdılar, yəqin ki, göy üzünün özü də od tutub yanırdı. Sanki, indinin özündə belə bunu öz gözünlə görür, öz qulağınla eşidirsən: hay-küy, atəş səsləri, təntənə və qorxu çığırtıları, dördnala çapan atların nal taqqıltıları, qıpqırmızı dan şəfəqində, sanki, qorxudan donub qalıblarmış kimi dimdik göyə ucalan ağaclar, ilkin torpağın təşnəsindən aşıb-daşan qıcqırıqlarına bənzəyən üçbucaq ev frontonları[27]... İndi lap yaxındadılar: qaranlıqda, qəfil cilovu çəkilib dayandırılan qızğın atların qəzəbli fınxırtısını, silah şaqqıltısını, gur pıçıltıları, tövşüyən nəfəsləri, hələ də qalibiyyətlə cingildəyən insan çığırtılarını indi lap yaxından hiss edir, eşidirsən; arxada isə nizami ordu hövlnak onların ardınca çapır, şeypur sədaları əsgərləri döyüşə səsləyir. Bunu əvvəlcə hiss etmək, eşitmək lazımdı: yalnız bundan sonra görə bilərsən. Atəş səsi

[27] Fronton – bina fasadının iki maili damla məhdudlaşmış üçbucaq və ya pərgarşəkilli yuxarı hissəsi

hələ gəlib qulağına çatmamışdan əvvəl, qırmızı qığılcım işığında tərli atların bərəlmiş gözlərini, şişmiş burun pərlərini, şahə qalxmış iri sifətlərini, metal parıltılarını, axırıncı dəfə haçan yediklərini çoxdan unudan, rəng-ruyu qaçmış canlı müqəvvaları görürsən; bəlkə də, bəziləri artıq atdan yerə düşüb, bəlkə də, kimsə artıq hinə soxulub. Bütün bunları ov tüfəngindən açılan atəş səsini eşitməmişdən əvvəl görürsən: və yenə ətraf zil qaranlığa bürünür. Cəmi bircə dəfə atəş açılır. "Əlbəttə, gərək hökmən o, bu gülləyə tuş gələydi, – Sinti deyirdi. – Toyuq oğurlamaq istəyirdi. Yaşlı-başlı adam idi, oğlunu evləndirmişdi, şimallıları qırmaq üçün müharibəyə getmişdi, özünü isə əlində bir çəngə ləələklə toyuq hinində öldürdülər". Toyuq oğurlamaq istəyirmiş. – Səsi o qədər də gur deyildi, amma uşaq kimi həyəcanlıydı. Arvadı artıq əl atıb dirsəyindən yapışmışdı: *Susss-ss-ss! Susss-ss-ss! Hamı sənə baxır!* Ancaq o, sanki, arvadının nə dediyini eşitmirdi. Gözləri, arıq, xəstəhal sifəti, elə bil, qəribə bir işıq saçırdı. – Hadisə məhz bu cür olub. Kim atəş açmışdı, bilmirdilər. Axıracan da bilinmədi. Aydınlaşdırmaq istəmədilər. Bu atəşi açan adam qadın da, çox güman ki, hansısa bir konfederat əsgərinin arvadı da ola bilərdi. Mən məhz bu cür olmasını istəyirəm. Bu, çox əladır. Hər bir əsgər döyüş meydanında – müharibə ağalarının, müharibə qanunvericilərinin bəyənib təsdiq etdikləri silahla öldürülə bilər. Yaxud da qadın tərəfindən, öz yatağında... Amma ov tüfəngi ilə, qırma tüfənglə toyuq hinində – yox. Buna görə də bu dünyanın ölülərlə dolu olduğuna heyrətlənməyə dəyərmi? Yəqin ki, onların törəmələrinə nəzər salarkən, Allah elə bu səbəbdən Öz lütfünü bizlərlə paylaşmaqdan çəkinmir.

– Yavaaş! Suss-ss! Bizə baxırlar!

Qatar artıq şəhərə girmiş, sürətini azaltmışdı; pəncərənin önündən şəhər ətrafının miskin mənzərələri ötüb-keçirdi. O – arıq, bir az səliqəsiz, öz həyati təyinatının çox da solğun olmayan işartılarını hələ də öz sifətində qoruyub saxlayan bu adam hələ də ora baxır, səbirsiz ürəyini sakitcə nədənsə qorumağa, çəpərləməyə, hasara almağa çalışaraq sakitcə fikirləşir ki, cənnət, heç şübhəsiz, dindar bir adamın "Bura mənim öz yerimdi" deyə bildiyi kəndə, təpəyə, evə bənzər bir şeydi və o rəngdədi. Qatar dayandı: vaqonun içi ilə yavaş-yavaş, aradabir ayaq saxlayıb bir də pəncərədən bayıra baxa-baxa qapıya, sonra isə pilləkənlə üzüaşağı – təmkinli, mötəbər, düşüncəli sifətlərə doğru irəliləyir; qulağına cürbəcür pıçıltılar, ifadə qırıqları, lütfkar, amma hələ heç bir mülahizə yürütməyən, hələ isinməmiş, (düzünə qalsa) hələ ittihama hazır olmayan səslər dəyir. "Mən özüm buna razı olmuşam, – o fikirləşir. – Özüm buna getmişəm. Ancaq yəqin ki, bundan başqa heç nə eləməmişəm, Allah özü məni bağışlasın". Torpaq qaranlıqda yox olub, itib. Artıq gecə düşüb. Sarınmış baş açıq pəncərə önündə öz bütövlüyünü, formasını itirib; daş kimi tərpənməz qalıb, bir cüt solğun ləkə kimi pəncərə sürahisinin üstündə uyuyan əllərin üzərində, sanki, buxarlanıb havaya uçur. Bir az qabağa əyilir. Bu dəqiqə iki anla toqquşacağını artıq hiss edir: birində həyatının yekunu cəmləşib, hər dəfə zülmət qaranlıqla ala-toran arasındakı son

məqamda yeniləşir, digəri isə durmuş, dayanmış bir andır, *az qalıb* hökmən ondan doğmalıdır. Cavankən, hüceyrə quruluşu gözləyə bilmək üçün hələ çox zərif, səbirsizkən, bəzən elə olurdu ki, bu cür anlarda hələ vaxtın gəlib çatmadığını bilə-bilə özünü aldadır, onları eşitdiyinə inanırdı.

"Bəlkə də, mən həyatda bundan başqa heç nə eləməmişəm", – o fikirləşir, o sifətləri yadına salır – onun cavanlığına, təbii ki, etibar etməyən, onun ixtiyarına verdikləri kilsəni öz qızını ərə verən atalar kimi ona qısqanan qocaların sifətləri, onların həyati uğursuzluqlardan, şübhələrdən qırış-qırış olan, çox vaxt xoş və rahat yaşanmış illərin təsvir olunduğu bir şəklin arxa tərəfini (yeri gəlmişkən, o şəkildəki obyektin, şəkil sahibinin baxmaq məcburiyyətində qaldığı, amma baxa bilmədiyi arxa tərəfini) özündə əks etdirən sifətləri barədə düşünür. "Onlar öz işlərini görürdülər; qaydalara uyğun oynayırdılar, – o fikirləşir. – Mən öz işimin öhdəsindən gələ bilmədim, cızığımdan çıxdım. Bu, bəlkə də ən böyük ictimai günahdır, bəlkə də, mənəvi günahdır". Düşüncə sakitcə, aram-aram, bir ahəngdə axaraq obrazlara çevrilir; bu obrazlarda nə israr, nə də məzəmmət var, heç peşmanlıq da yoxdur. O özünü kölgələr arasına düşmüş qapqara bir kölgə kimi görür – bu, paradoksal, öz yalançı nikbinliyinə, öz yalançı eqoizminə aldanmış məxluq elə bilir ki, guya, o, Kilsənin yer üzündəki qapalı, monastır apofeozunda tapmadığı şeyi onun o biri – din yolundan hamıdan daha çox azan, bütün arzuları məhv etməklə məşğul olan hissəsində, kor ehtiraslar, göylərə uzanmış əllər və gur səslər arasında tapacaq. Və ona elə gəlir ki, bunu həmişə başa düşüb: Kilsəni nə onun içərisində olub, nəyisə gözüyumulu kənarda axtaranlar, nə də kənarda olub, nəyisə gözüyumulu onun içərisində axtaranlar deyil, peşəkarlar, onu idarə edənlər, zəngləri qülləsindən çıxaranlar dağıdır. Bu zənglər – saysız-hesabsız, hara gəldi səpələnmiş, rəmzi mənada boş, qəmgin, göy üzünə ehtirasla, vəcdlə deyil, dua edərcəsinə, qorxaqcasına, məhkumcasına tuşlanmış zənglər gözünə görünür. Yer üzündəki bütün kilsələr də gözü önünə gəlir: onlar keçilməz qala səddi kimi, itiuclu payaları torpağa möhkəm basdırılmış orta əsr barrikadaları kimi həqiqətin, günah işləməkdən və bağışlanmaqdan ibarət olan insan həyatında əmin-amanlığın önünü kəsib.

"Mən bunu da qəbul etdim, – o düşünür. – Müqavimət göstərmədim. Yox, daha pis elədim: onun qulluğunda durdum. Ona qulluq elədim, öz arzuma çatmaq üçün ondan istifadə etdim. Mən bura – məni gözləyən, çaşqınlıq, istək, həvəslə dolu sifətlərin yanına gəlmişdim; onlar məni gözləyirdilər, yoxlamaq istəyirdilər; mənsə onları görmədim. Əlləri məndən almağa ümid etdikləri şeyə doğru uzanmışdı; mənsə onları görmədim. Mən bura bir vəzifəni – Allah qarşısında könüllü olaraq öz öhdəmə götürdüyüm, bəlkə də, kişi deyilən kəsin ən birinci vəzifəsini yerinə yetirmək üçün gəlmişdim; bu öhdəlik, bu qayğı mənim üçün o qədər az əhəmiyyət kəsb etməyə başladı ki, hətta o, yadıma belə düşmədi. Ona, öz arvadıma qarşı bu cür rəftar edəndən sonra daha nə gözləməliydim? Rüsvayçılıqdan, biabırçılıqdan savayı nəyə ümid etməliydim? Cənabı Allah öz həyasına qısılıb məndən üz döndərməyə bilərdimi? Bəlkə də, mən,

təkcə içimdəki yanğının bütün gücünü deyil, həm də bu yanğını heç vaxt, heç vaxt yatıra, söndürə bilməyəcəyini ona açıb göstərdiyim an, bəlkə də, məhz həmin an onu yoldan çıxardım, onun qatilinə, rüsvayçılığının və ölümünün silahına, günahkarına çevrildim. Axı bu dünyada insanın bütün günahı, bütün məsuliyyəti Allahın üstünə yıxa bilmədiyi hallar da olmalıdır. Hökmən olmalıdır". Düşüncə yavaşımağa başlayır. Quma düşmüş təkər kimi yavaşıyır, sanki, onu yavaşımağa məcbur edən müqavimət gücünün təsiri hələ oxa, arabanın özünə çatmayıb.

Sanki, özünü sifətlər arasında görür: daim onların arasında, dövrəsində, mühasirəsində, əhatəsindədir; sanki, kilsənin arxa sırasında dayanıb kafedrada özünə baxır, ya da, elə bil, akvariuma düşmüş balıqdır. Bundan da əfzəl: ona elə gəlir ki, bu sifətlər güzgüdülər, onlara baxıb özünü görür. Onların hamısını yaxşı tanıyır; bu güzgülərdə öz əməllərini bir-bir oxuya bilər. Ona elə gəlir ki, bu güzgülərdə antik təlxək kimi oyunbazlıq edən, bir qədər də sərsəm bir adam – küfrdən də pis şeyləri təbliğ edən əsl şarlatan, fırıldaqçı əks olunub: bu şarlatan, kürsülərini zorla qəsb etdiyi insanlara çarmıx çəkilənə qarşı mərhəmət, sevgi duyğuları aşılamaq əvəzinə, onlara təkəbbürlü, dəlisov bir qoçaqdan – gündəlik, adi iş-gücdən sonra istirahət anında davasız-şavasız, dinc bir toyuq hinində quş gülləsi ilə öldürülən quldurdan, onun qətlindən dəm vurur. Düşüncə təkəri bir az da yavaşıyır, artıq müqavimət gücü onun oxuna da sirayət edib, amma hələ arabanın özünə keçməyib.

Onu əhatə edən sifətlərdə nə qədər böyük təəccüb, çaşqınlıq, sonra qəzəb, daha sonra qorxu əks olunduğunu görür; sanki onlar onun sərsəm təlxəkliyinin arxasına boylanıb, ordan ona dikilən, onun özünə görünməyən, ən fövqəl, ən ali, hər şeyi görən, qərəzsiz olduğu qədər som-soyuq, dəhşətli Çöhrənin Özünü görürlər. Və bilir ki, onlar bundan da artığını – gücü çatmadığı bir öhdəliyin son nəticədə onun cəzasına necə çevrildiyini də görürlər; indi ona elə gəlir ki, o özü bu Çöhrə ilə danışır: "Yəqin ki, mən öz üzərimə gücüm çatdığından da ağır yük götürmüşdüm. Bəyəm bu, cinayətdir? Mən buna görə cəza almalıyam? Gücüm çatmayan bir şeyə görə cavab verməliyəm?" Çöhrə isə cavab verir: "Sən öz vədini yerinə yetirmək üçün o qadını qəbul etməmişdin. Sən onu öz xeyrinə görə almışdın. Ceffersona çağırılmaq aləti kimi; Mənim buyurduğum deyil, öz məqsədlərin üçün".

"Doğrudanmı belədi? – o fikirləşir. – Yəni, doğrudanmı belə olub?" Yenə də özünü rüsvayçılığın faş olduğu dövrdə görür. Hələ doğulmamışdan əvvəl hiss etdiyi, öz şüurundan gizlətdiyi şeyi xatırlayır. Öz iradəsini, dözümünü, ləyaqətini, sanki, sədəqəymiş kimi pay verərək günahını necə bağışlatmaq istədiyini yadına salır: özünü, guya, bir şəhid fədakarlığı ilə rütbəsindən imtina etmiş kimi göstərməyə çalışır, halbuki elə həmin an daxilən bu imtinaya ürəkdən sevinir, ancaq üzünü Zəbur kitabının arxasında gizlədib özünü təhlükəsiz yerdə hesab eləyəndə, fotoqraf isə fürsət tapıb onun yandan şəklini çəkəndə öz sifəti onun bu gizli sevincini faş eləyir.

Sanki, bir kənarda dayanıb özünə baxır: o öz kartlarını necə diqqətlə, səbirlə, məharətlə oynayır, özünü elə göstərir ki, guya, bütün bu olanlarla dinməz-söyləməz barışıb; indi özünə belə etiraf edə bilməsə də, əslində, hələ seminariyaya daxil olmamışdan qabaq bunun arzusunda olmuşdu. Və hər şeyini atır, donuz sürüsünün qabağına tullanılan çürük alma kimi sədəqə verir: atadanqalma varidatın cüzi gəlirini Memfisdəki islah koloniyalarıyla bölüşməkdə davam edir, özünün təqib olunmağına, gecə vaxtı yatağından çıxarılıb meşəyə aparılmağına, orada ağacla, dəyənəklə möhkəm döyülməyinə imkan yaradır; utanmadan, xəcalət çəkmədən, öz şirin və səbirli şəhid *eqosunu* xoşnud etmək üçün öz yazıq, məzlum görkəmi və *İlahi, bu nə qədər davam edəcək?* sıtqısı ilə özünü şəhərin gözünə soxur, yalnız evdə, örtülü qapı arxasında sevincindən göyə atılıb düşərək, sifətindəki yalançı maskanı çıxarıb atır, sevinci ərşə qalxır: *Off. Axır ki, buna son qoyuldu. Artıq bu keçmişdə qaldı. Satın alındı və haqqı ödənildi*

"Ancaq mən o vaxt çox cavan idim, – o düşünür. – Bəzən mən də çətin, lazım olan şeyləri yox, yalnız asan, bacardığım şeyləri eləmişəm". İndi düşüncə lap ləng axır, o, bunu anlamalı, hiss etməliydi. Amma araba hələ nəyə yaxınlaşdığından xəbərsizdi. "Bir də axı mən hər şeyin haqqını ödəmişəm. O ruhu satın almışam – haqqını öz həyatım bahasına ödəmiş olsam belə. Kim bunu mənə qadağan edə bilər? İnsanın öz həyatını məhv etmək imtiyazı var, əgər bu, başqalarına ziyan gətirmirsə, o yalnız özüylə, öz-özünə yaşayırsa..." Birdən dayanır. Yerində donur, qorxudan, yaxınlaşmaqda olan dəhşətdən nəfəsi daralır. İndi anlayır ki, quma batıb; bunu dərk edəndən sonra daxilən bütün gücünün sonuncu, ağır bir həmlə üçün bir yerə yığılıb yay kimi necə gərildiyini hiss edir. Hələ dayanmayıb, hələ hərəkət var, amma indi yeni köhnədən heç nəylə seçilmir; indicə üstündən keçilən, təkərə yapışmış qumlar quru bir xışıltı ilə qopub tökülür; bu xışıltını o daha əvvəl xəbərdarlıq kimi qəbul etməliydi: "... arvadıma öz ehtirasımı, öz "eqo"mu… ümidsizlik və rüsvayçılıq alətini… açıb göstərdim…" və hələ bu barədə düşünməyə başlamamış, sanki, beyin sümüyündə, gözlərinin arxa tərəfində başqa bir cümlə, başqa bir fikir bütöv halda doğulur, formalaşır: *Mən bu cür düşünmək istəmirəm. Mən bu cür düşünməməliyəm. Bu cür düşünməyə cəsarət etməməliyəm* Tərpənməz, hərəkətsiz əllərinin üstünə əyilərək pəncərənin önündə oturmuş halda möhkəm tərləməyə başlayır; tər bədənindən yaradan fışqıran qan kimi axır. Qumluqda gücə düşmüş düşüncə təkəri, onun ruhunun, həyatının burum-burum eşilib parça-parça olmuş hissələrini özündə bir-birinə calaya-calaya, bu anın məngənəsindən yavaş-yavaş, orta əsrlərin işgəncə alətinə xas ləng bir əzmlə qurtulmağa çalışır: "Əgər bu beləydisə, əgər mən ona ümidsizlik və ölüm gətirən bir alət idimsə, deməli, kiminsə, bir başqasının əlində işlədilən alət olmuşam. Onu bilirəm ki, əlli il ərzində heç kül də, torpaq da olmamışam: mən yalnız qaranlıqda bir atın dördnala çapdığı, bir atəşin qəfil gurladığı yeganə bir an olmuşam. Əgər mən həmin ölüm anındakı ölü babamamsa, onda mənim arvadım, onun

nəvəsinin arvadı... mənim nəvəmin arvadının əxlaqını pozan da, onun qatili də odur – mənəm, çünki mən öz nəvəmə nə yaşamaq, nə də ölmək imkanı verməmişəm...”

Qumdan qurtulan təkər dərin aha bənzər uzun bir səs çıxararaq irəli atılır. O, soyuq tər içində hərəkətsiz oturub; tər durmadan axır, axır. Təkər yenə də fırlanmağına davam edir. İndi o, sürətlə, rahatca fırlanır, çünki yükdən, arabadan, onu fırladan oxun özündən, hər şeydən azad olub. Sakit-sakit ləngər vuran avqust sükutunda gecə artıq düşmək üzrədir: o, haləyə bənzər zəif işıqdan biçilmiş dona bürünür. Halə sifətlə doludur. Bu sifətlərdə heç bir acı əlaməti yoxdur, ümumiyyətlə, heç nə – nə dəhşət, nə ağrı, hətta məzəmmət belə hiss olunmur. Onlar sam-sakitdilər, elə bil, apofeoza düşüb hər şeydən qurtulublar; onun öz sifəti də onların arasındadır. Əslində, onların hamısı bir qədər oxşardılar – haçansa gördüyü bütün sifətlərin qarışığıdılar. Ancaq o onları – arvadının, ondan imtina edən, amma o vaxt, bu şəhərə gəldiyi ilk gün onu stansiyada səbirsizliklə, coşqu içində qarşılayan dindarların, kilsə mənsublarının, Bayron Bançın, uşaq doğan o qadının və bir də Kristmas deyilən o adamın sifətlərini bir-birindən seçə bilir. Lakin sonuncu sifət o qədər də aydın deyil. O, başqalarından xeyli dumanlıdı – sanki, artıq son və qarşısıalınmaz qovuşmanın dinc qıcına tutulub. Birdən başa düşür ki, bu, iki sifətdi: sanki onlar bir-birindən qopub ayrılmağa, əriyib yox olmağa və yenidən birləşməyə (ancaq bilir ki, onlar buna öz xoşları ilə deyil, məhz təkərin hərəkətinə, arzusuna görə) can atırlar. Sifət yenidən dumana bürünüb qeyb olur. İndi gözünə Kristmasın sifəti deyil, başqa bir sifət görünür. “Axı deyəsən, bu... – o fikirləşir. – Mən onu lap bu yaxınlarda görmüşəm. Axı deyəsən, bu... o oğlandı. Əlində qara, necə deyərlər... avtomat tapança olan oğlan. O... mətbəxdəki... onu öldürən... ona atəş açan...” Sonra ona elə gəlir ki, içindəki lənətə gəlmiş qan sel kimi fışqırıb bayıra axır. Sanki, kənarda dayanıb ona tamaşa eləyir, birdən ayağının yerdən üzüldüyünü, get-gedə boşalıb yüngülləşdiyini, havada üzdüyünü hiss edir. “Mən ölürəm, – o fikirləşir. – Dua etmək lazımdı. Yoxlamaq lazımdı”. Amma dua eləmir. Yoxlamır. “Bütün göy üzü, onun bütün qatları yer üzündə yaşamışların boş yerə, kimsənin eşitmədiyi qışqırıqları ilə dolu olduğu, onların som-soyuq və dəhşətli ulduzların arasında azmış uşaq kimi hələ də çığıra-çığıra qaldıqları bir vaxtda... mən özümə bu qədər az şey istəmişəm. Az şey diləmişəm. Elə bil...” Təkər fırlanır. Sürətlə fırlanır, sanki, bədənindən bayıra axan, onun içini boşaldan qan selinin təzyiqi altında get-gedə daha da sürətlənir və yerindən tərpənmədən itib yox olur; indi onun unudulmuş yarpaq, su üzündə üzən çör-çöp qədər yüngül bir şeyə çevrilən bədəni bir az qabağa əyilib, daş kimi tərpənməz halda pəncərəyə qısılıb, artıq öz ağırlığını, çəkisini itirmiş əlləri sürahinin üzərinə düşüb qalıb: deməli, “Vaxtdır”ın vaxtı gəlib çatıb.

Elə bil, onlar onun bir daha dərindən nəfəs ala bilmək üçün özündə haçan güc tapa, öz təntənə və arzusunu təsdiq etmək üçün şərəf, qürur və həyatının son qalıqlarını haçan bir yerə toplaya biləcəyini gözləyirmişlər. Qəlbi üzərində çaxan şimşəyin, saysız-hesabsız, irili-xırdalı

qığılcımlarla necə gurladığını eşidir. Uzun-uzadı bir külək vıyıltısı kimi ağacların təpəsində başlayan bu gurultu sonra bir anlığa itib-batır və indi şəffaf toz buludu üzərində yenidən peyda olur. Yəhərin üstünə sinib, əllərindəki silahları havada oynada-oynada sürətlə ötüb keçirlər, hərisçəsinə irəli tuşlanmış mizraqlardan asılmış lentlər başları üzərində yellənir; səssiz hay-küy, tozanaq içində irəliyə şığıyan nəhəng bir dalğaya bənzəyirlər; bu dalğanın üstü dişlərini qıcırdatmış at sifətləri və sanki, partlayıb dağılan dünyanın ağzından qopan meteorit parçaları kimi qorxunc insan silahları ilə doludur. Ötüb-keçir, gözdən itirlər; qalxan tozanaq göy üzünə millənir, qaranlığın canına hopur, artıq yer üzünə çökmüş gecədə əriyib yox olur. Ancaq o, hələ də pəncərənin önündə əyləşib, iri, yastı, sarıqlı başını sürahinin üstündəki iki cansız əl ləkəsinin üstünə qoyub və ona elə gəlir ki, hələ də onların səsini – o şeypurların yırtıcı bağırtısını, qılınc cingiltisini, at dırnaqlarının get-gedə öləziməkdə olan uğultusunu eşidir.

21

Ştatın şərqində mebel təmiri və alqı-satqısı ilə məşğul olan bir nəfər yaşayır; bu yaxınlarda o, yazışma yolu ilə satın aldığı köhnə bir mebeli gətirmək üçün Tennesiyə getmişdi. Oraya öz yük maşınında yollanmışdı, maşın (bu, arxa qapılı furqon idi) təzə olduğu üçün onu saatda on beş mildən artıq sürətlə sürmək niyyətində deyildi və mehmanxanaya artıq pul xərcləməsin deyə açıq havada gecələmək üçün özüylə nə lazımdısa götürmüşdü. Evə qayıdandan sonra arvadına yolda başına gələn bir əhvalatı danışdı; onun fikrincə, bu, kifayət qədər məzəli, hökmən danışılası əhvalat idi. Bəlkə də, bu hadisə ona buna görə maraqlı gəlmiş və onu arvadına da məzəli bir dillə danışmaq ehtiyacı duymuşdu ki, o da, arvadı da hələ çox yaşlı deyildilər; üstəlik, o həm də bir həftədən çox (maşını özü lazım bildiyi qədər ehtiyatla, yavaş sürdüyü üçün) evdə, arvadının yanında olmamışdı. Söhbət iki adamdan, onun yolda götürdüyü iki sərnişindən gedirdi; o bu hadisənin Missisipidə, Tennesi ilə sərhəd yaxınlığında yerləşən bir şəhərdə baş verdiyini deyir.

"Benzin doldurmaq istəyirdim, stansiyaya yaxınlaşanda gördüm ki, çox cavan, zahirən qəşəng bir qadın tində dayanıb, sanki, yoldan ötən maşınlardan birinə minmək üçün təklif gözləyirdi. Qucağında nəsə vardı. Əvvəlcə bunun nə olduğunu anlamadım, heç yanındakı oğlana da – ta o, yanıma gəlib mənimlə danışanacan fikir vermədim. Elə bildim ki, onu görmədim, çünki tamam kənarda dayanmışdı. Sonra fikir verib gördüm ki, çox qəribə bir adamdı: əgər içərisi boş bir hovuzun dibində tək-tənha oturmuş olsaydı belə, yenə də gözə dəyməzdi, onu dərhal görə bilməzdin. Maşına yaxınlaşdı, mən də elə oturduğum yerdəncə ona təxminən bunları dedim:

– Əgər Memfisə gedirsinizsə, mənim yolum o tərəfə deyil. Ceksondan keçib Tennessiyə gedəcəm.

O isə dedi:

– Çox gözəl. Bu, bizim də işimizə yarayardı. Siz çox böyük yaxşılıq etmiş olardınız.

Mən dedim:

– Axı siz hara gedirsiniz? – Başını qaldırıb üzümə baxdı, sanki, elə o andaca tələm-tələsik fikirləşib nəsə bir şey uydurmaq istəyirdi, amma görünür, yalan danışmağı bacarmırdı; kiminsə ona çətin inanacağını da yaxşı bilirdi. – Yəqin ki, ətrafı gəzib görmək istəyirsiniz? – deyə soruşdum.

– Elədi, – dedi, – doğru buyurursunuz. Sadəcə, gəzməyə çıxmışıq. Bizi haracan aparsanız, böyük yaxşılıq etmiş olarsınız.

Mən də neyləyim, dedim ki, gəlin minin.

– Elə bilirəm ki, yolda məni öldürməz, qarət etməzsiniz. – O gedib qadını gətirdi. Onda gördüm ki, qucağındakı bapbalaca, körpə uşaqdı, heç ili də tamam olmayıb. O, qadını arxa qapıdan furqona mindirmək istəyirdi, bunu görəndə dedim: – Biriniz burda, kabinədə otura bilərsiniz. – Bir müddət öz aralarında nəsə xısınlaşdılar, sonra qadın kabinəyə mindi, o isə benzin stansiyasına gedib, karton çamadanla geri qayıtdı, bilirsən, üstünə də dəri çəkilmiş olur e, ondan... Onu furqonun içinə atdı, özü də ora mindi. Yola düzəldik, qadın qucağında uşaq kabinədə, yanımda oturmuşdu; hərdənbir geri boylanıb, sanki, onun ordan yıxılıb-yıxılmadığını, ya da nəsə başqa bir şeyi bilmək istəyirdi.

Əvvəlcə fikirləşdim ki, yəqin ər-arvaddılar. Əslinə qalsa, heç nə fikirləşib-eləmədim, yalnız bircə şeyə məəttəl qalmışdım ki, bu cür cavan, qədd-qamətli qız hara, belə bir adam hara? O yazığın elə bir pis cəhəti də yox idi. Yaxşı oğlana oxşayırdı, bir növ, bir işin qulpundan möhkəm yapışıb onu uzun müddət – imkan verilənə qədər əlindən buraxmayan, özü də işinə maaşının artırılmasını, ya da nəsə əlavə haqq ödənilməsini heç vaxt tələb etməyən, buna görə kiminsə zəhləsini tökməyən işlək bir adam idi. Təxminən belə bir oğlandı. Sanki, bütün canı işdəydi; işdən kənarda, iş yerindən qıraqda varlığı ilə yoxluğu bilinməyən bir məxluq idi. Mən onun kimləsə, hansı bir qadınlasa bir yataqda ola biləcəyini heç cür təsəvvürümə gətirə bilmirdim, halbuki bunun danılmaz sübutu göz qabağındaydı”.

Heç utanmırsan? arvadı ondan soruşur. *Qadın xeylağına bu cür biədəb şeylər danışırsan* Onlar qaranlıqda söhbət edirlər.

Amma mən heç sənin də qızardığını-zadını görmürəm o deyir. Və sözünə davam edir:

“Bir yer tapıb gecələmək üçün maşını saxlamayanacan, ümumiyyətlə, bu barədə düşünmürdüm. Qadın kabinədə mənim yanımda oturmuşdu, yol boyu ordan-burdan söhbət elədik, bir az sonra öyrəndim ki, onlar Alabamadan gəlirlər. Qadın elə hey “biz” deyirdi, mənsə,

əlbəttə, elə bilirdim ki, o, furqondakını nəzərdə tutur. Deyirdi ki, artıq, az qala, iki aydı yol gəlirlər.

– Əgər mən rəngdən bir şey anlaya bilirəmsə, – deyirəm, – körpəniz heç iki aylıq da olmaz. – O isə cavab verir ki, uşaq üç həftə əvvəl, Ceffersonda doğulub; mənsə ona deyirəm: – Aaa, o zəncini daşqalaq elədikləri yerdə. Yəqin, siz də onda oradaydınız? – O isə birdən səsini kəsib susur. Elə bil, furqondakı ona bu barədə danışmamağı tapşırıb. Başa düşdüm ki, belədi. Nəysə... yolumuza davam edirik, hava qaralmağa başlayanda deyirəm: – Tezliklə şəhərə çatacağıq. Mən gecələmək üçün şəhərdə qalmayacam. Ancaq əgər siz sabah da mənimlə yol getmək istəsəniz, səhər tezdən saat altıda arxanızca mehmanxanaya gələ bilərəm, – o susub durur, sanki, furqondakı oğlanın nə deyəcəyini gözləyir, bir qədər sonra oğlan deyir:

– Məncə, maşın elə ev kimidi, mehmanxana nəyimizə lazımdı. – Mən susuram, bir azdan şəhərə giririk, o, arxadan soruşur: – Görəsən, bu şəhər necə yerdi, qorxusuz-ürküsüzdümü?

– Bilmirəm, – deyirəm. – Elə bilirəm ki, burada pansiondan-zaddan bir şey tapmaq olar.

O isə deyir:

– Görəsən, burada turist düşərgəsi var? – Mən dinmirəm, o, izah eləməyə başlayır: – Çadır kirayələyərdik. Mehmanxana çox bahadı, xüsusən də uzağa gedən adamlar üçün. – Hara getdiklərini hələ də demirlər. Elə bil, özləri də bilmirlər, eləcə hara gedib çıxacaqlarını gözləyirlər. Ancaq mən hələ bunu başa düşməmişdim. Məndən nə eşitmək istədiyini isə yaxşı başa düşdüm, onu da anladım ki, o özü bunu məndən xahiş eləməyəcək. Elə bil, ümidi bircə şeyədir: əgər Allah istəsə ki, mən o sözü deyim, deməli, deyəcəm; yox, əgər Allah istəsə ki, o, mehmanxanaya gedib, bir otaq üçün hətta üç dollar ödəsin, qaça-qaça gedib ödəyəcək. Sonra mən deyirəm:

– Nə olar, isti gecədi. Əgər ağcaqanaddan, maşında quru taxta üzərində yatmaqdan narahat olmayassınızsa...

O isə deyir:

– Niyə ki! Bu lap əla olar. Siz razılıq versəniz, bu, çox gözəl olardı. – Bu vaxt onun *qadına* nə dediyini duydum. Bu adamda nəsə bir qəribəlik, bəlkə də gərginlik hiss eləməyə başlayıram. O, sanki, eləmək istədiyi, amma eləməyə qorxduğu bir işə can atırdı; nəsə belə bir adama oxşayırdı. Özü də, sanki, bu işin onun üçün pis qurtara biləcəyindən qorxmurdu; sanki, bu iş elə bir iş idi ki, hər yolu təkrar-təkrar sınaqdan keçirməyənəcən, hər şeydən əlini üzüb ümidsiz vəziyyətə düşməyənəcən, ölsəydin də ona girişməyə ürək eləməzdin. Mənəsə hələlik heç nə məlum deyil. Bunun nə iş olduğunu heç cür anlaya bilmirəm. Əgər o gecə, o gecədə baş verənlər olmasaydı, mən, elə heç nə bilmədən də Ceksonda onlardan ayrılacaqdım”.

O nə eləmək istəyirdi axı? Arvadı deyir.

Dayan, hövsələn olsun, onun da növbəsi çatacaq. Bəlkə də, mən özüm bunu sənə əyani şəkildə nümayiş etdirdim Sözünə davam edir:

"Mağazanın qabağında dayandıq. Mən heç əyləci basmağa macal tapmamış, o, furqondan yerə sıçradı. Elə bil, onu qabaqlaya biləcəyimdən qorxurdu, amma həm də balaca uşaq kimi sifəti gülürdü; sanki, bir uşağa nəsə yaxşı bir şey vəd edib, ona iş tapşırmısan, o da sən birdən fikrini dəyişərsən deyə, o işi dərhal görməyə tələsir. Püfərək mağazaya qaçdı, qucağı şey-şüylə dolu – başı güclə gorsənirdi – geri qayıtdı, mənsə ürəyimdə öz-özümə dedim: "Bura bax, ay oğlan, deyəsən, axı sən bu maşında əməlli-başlı köç salmaq, ev-eşik qurmaq fikrinə düşmüsən". Yolumuza davam elədik, sonra münasib bir yer tapdıq, maşını yoldan çıxarıb ağacların altına verdim, o isə yerə sıçrayıb qapıya qaçdı, maşından düşməkdə qadına elə ehtiyatla kömək eləyirdi ki, sanki, onlar – qadın da, uşaq da şüşə kimi, yumurta kimi bir şey idilər, azca ehtiyatsız tərpənsən, yerə düşüb sınacaqdılar. Sifətində hələ də elə bir ifadə vardı ki, elə bil, artıq qəti qərara gəlib – özü də ümidsizlikdən; ancaq nəyin qərarına gəlib, mən hələ bilmirəm; özü də mən, yaxud o qadın onu qabaqlayıb bu işə mane olmasaq, ya da qadın bunu onun üzündən oxumasa, hökmən bu işi görmək istəyəcək. Hansı işi – mən hələ də bunu bilmirdim, başa düşməmişdim".

Axı hansı işi? Arvadı deyir.

Mən ki elə indicə bunu sənə göstərdim. Əgər hazırsansa, bir də göstərim. Göstərim?

Yox, mən bunsuz da ötüşə bilərəm. Ancaq yenə də başa düşə bilmirəm ki, burda gülməli nə var? Buna bu qədər zəhmət, vaxt sərf etmək onun nəyinə lazımmış?

Çünki onlar evli deyildilər ər deyir. *Uşaq da onun deyildi. Ancaq mən hələ bunu bilmirdim. Bunu yalnız o gecə, onların ocaq başında söhbətlərini eşidərkən bildim – yəqin, elə bilirdilər ki, eşitmirəm. Bu, hələ o tam ümidsizliyə qapılmamışdan xeyli əvvəl olmuşdu. Ancaq məncə, ümidsizlik artıq elə onda öz işinə başlamışdı. Sadəcə, o bu qadına daha bir şans vermək istəyirdi* Sözünə davam edir:

"Nə isə, deməli, o ora-bura qaçır, yatmaq üçün yer düzəltməyə çalışır; hər şeyə əl atır, amma nədən başlayacağını bilmirdi – elə bir qarmaqarışıqlıq salmışdı ki, adamın düz əsəblərinə yeriyirdi. Onu ocaq qalamaq üçün odun yığmağa göndərdim, sonra isə öz adyalımı götürüb, maşının içinə sərdim. Bunlara rast gəldiyim üçün, bu gecə çılpaq torpaq üstündə, heç nəsiz, yalnız ayaqlarımı ocağa tərəf uzadıb yatmalı olacağım üçün özümə möhkəm qəzəblənmişdim. Buna görə də, yəqin ki, özümü çox kobud aparır, deyinirdim; obaş-bubaşa gəzinir, yer-yurdu qaydasına salmağa çalışıram, qadınsa kürəyini ağaca söykəmiş halda oturub, şalın altında körpəyə axşamın süd payını əmizdirə-əmizdirə elə hey məni narahat etdiklərinə görə xəcalət çəkdiyini, gecəni elə orda, ocağın böyründəcə ağaca söykənib keçirəcəyini söyləyir; guya, bir damcı da yorulmayıb, çünki bütün günü maşında oturmaqdan savayı heç nə eləməyib. Sonra o

gəlib çıxdı, o qədər odun yığmışdı ki, bir öküzün ətini bişirməyə bəs edərdi; qadın ona nəsə dedi, o da gedib maşından çamadanı, adyalı götürdü. Sonra ikimiz də əməlli-başlı oyunbazlıq etməyə başladıq. Lap elə o komikslərdə bir-birinə baş əyib, "buyur-buyur" eləyən, bir-birinə yol verməyə çalışan iki fransız kimi; biz də özümüzü elə göstərirdik ki, guya, evdən çıxıb bura məhz elə çılpaq torpağın üstündə yatmaq üçün gəlmişik; guya, o da, mən də bu əyləncənin dadını mümkün qədər tez, mümkün qədər doyunca çıxarmaq istəyirik. Ancaq dilimin ucundakını dilimə gətirməkdən özümü zorla saxlaya bildim: "Di, yaxşı. Torpaq üstündə yatmaq istəyirsənsə, get yat. Əgər mən orda yatmaq istəyirəmsə, lənətə gəlim". Amma demək olar ki, sonda mən dediyim oldu. Daha doğrusu, biz dediyimiz oldu. Bu oyunbazlığımız onunla qurtardı ki, o öz adyallarını maşına apardı, mənimkini isə ocağın yanında yerə sərdik – guya, biz bunun belə olacağını əvvəlcədən bilmirdik. Məncə, o, hər şeyin belə qurtaracağını lap əvvəldən bilirdi. Əgər dedikləri kimi, onlar, doğrudan da, Alabamadan buracan yol gəlmişdilərsə, hökmən belə olmalıydı. Yoxsa o, təkcə qəhvə qaynatmaq, bir də konserv qızdırmaq üçün bu qədər odunu neyləyirdi. Sonra şam elədik, yalnız bundan sonra hər şeyi öyrənib bildim".

Nəyi bildin? O neyləmək istəyirdi?

Hələ yox. Görürəm ki, onun səbri sənindən çox olub Sözünə davam edir:

"Deməli, yeməyimizi yeyib qurtardıq, mən adyalın üstünə uzandım. Yorulmuşdum; ayağımı ocağa tərəf uzadıb ləzzətlə dincimi çıxarmaq istəyirdim. Nə onlara xəlvətcə qulaq asmaq, nə də özümü yalandan yuxulu kimi göstərmək fikrində deyildim. Bir də ki onları maşına götürməyimi özləri məndən xahiş etmişdilər, mən onları zorla tovlayıb mindirməmişdim. İndi əgər bu adamlar kiminsə eşidə biləcəyinə məhəl qoymadan bir-biriylə danışmaq istəyirdilərsə, bunun mənə dəxli yox idi, bu, onların öz işiydi. Bu minvalla başa düşdüm ki, kiminsə arxasınca düşüblər, onu izləyir, ya da yaxalamaq istəyirlər. Daha doğrusu, qadın istəyir. Dərhal ürəyimdə öz-özümə dedim: "Hə-ə. Bu da sənə, anasının bazar günü keşişdən öyrənəcəyi şeyi ondan daha tez, şənbə günü axşam öyrənə bilən daha bir qız nümunəsi". O adamın adını çəkmirdilər. Onları qoyub hara qaçdığını da bilmirdilər. Belə başa düşdüm ki, əgər hara qaçdığını bilsəydilər belə, bunu o qaçanın təqsiri və ya səhvi ucbatından öyrənə bilməzdilər. Mən bunu tez başa düşdüm. Nə isə, istər-istəməz onların danışığını eşidirəm, o oğlan qadına başa salır ki, bu cür-bir maşından düşüb o birinə minə-minə ömürlərinin axırınadək ştat-ştat gəzə, amma onun izini belə tapmaya bilərlər, qadınsa qucağında uşaq kötüyün üstündə oturub daş heykəl kimi sakitcə, daş heykəl kimi ehtiramla ona qulaq asır; elə bil, onu yola gətirmək, ya da fikrindən döndərmək bu qədər asandı. Öz-özümə dedim: "Hə, yazıq qardaş, bu gün o, mənim yanımda, qabaqda əyləşib kabinədə gedirsə, sənsə furqonda yalın taxta üstündə oturub ayaqlarını yerə sallamısansa, deməli, siz buna çoxdan öyrəncəlisiniz". Özlərinə isə, əlbəttə, heç nə demədim. Mən uzanmışam, onlarsa söhbət eləyirlər, daha doğrusu, ancaq o danışır – özü də astadan. Evlənmək sözünü

dilinə belə gətirmir. Amma, əlbəttə, məhz ondan danışır, qadınsa öz kefinə sakitcə qulaq asır, sanki, bütün bunları birinci dəfə deyil ki, eşidir; sanki bilir ki, özünü əziyyətə salıb, ona "hə" və ya "yox" cavabı verməyə dəyməz. Sakitcə gülümsəyir. Ancaq o, bunun fərqində deyil.

Sonra birdən ruhdan düşdü. Kötüyün üstündən qalxıb ordan uzaqlaşdı. Ancaq yerindən qalxarkən yanı üstə dönəndə mən onun sifətini gördüm və başa düşdüm ki, təslim olmaq barədə fikirləşmək belə istəmir. Sadəcə, bu qadına daha bir şans verməyə çalışır və indi o qədər ümidsizliyə qapılıb ki, hər şeyindən keçib riskə getməyə tam hazırdı. Məndən olsaydı, ona deyərdim ki, indi, bu dəqiqə nə qərara gəlibsə, ilk növbədə onu eləməlidi. Ancaq görünür, onun öz bildiyi vardı. Nə isə, ordan qalxıb özünü qaranlığa verdi, qadınsa yerində oturub, başını aşağı sallamışdı, hələ də sakitcə gülümsəyirdi. Heç onun ardınca da baxmadı. Yəqin ki, onun tək qalmaq, özünü bu qadının lap əvvəldən ona məsləhət gördüyü şeyə kökləmək istədiyini başa düşürdü; amma onun bu məsləhəti, yəqin ki, söz formasında olmamışdı; təbii ki, heç bir xanım belə bir şeyi dilinə gətirməzdi – hətta bir şənbə gecəsi birdən-birə özünə bütöv bir ailə tapan xanım belə...

Ancaq çox güman ki, məsələ bunda da deyildi. Bəlkə də, yer, ya da vaxt bu qadına münasib görünməmişdi, hələ tamaşaçıları demirəm. Bir sözlə, bir az keçəndən sonra o yerindən qalxdı, mənə tərəf baxdı, mənsə, əlbəttə ki, tərpənib-eləmirdim; furqona qalxdı, bir az da keçəndən sonra qulaq verib, orda səs-səmirin tamam kəsildiyini eşitdim, deməli, yatağa girmişdi. Mənsə yerimdə uzanmışdım, heç cür yuxum gəlmirdi, uzun müddət də gəlmədi. Hiss eləyirəm ki, o oğlan hardasa lap yaxındadır, yəqin, ocağın sönməsini, ya da mənim daha möhkəm yuxuya getməyimi gözləyir. Həqiqətən eləydi, ocaq sönən kimi onun siçan təki səssizcə mənə tərəf yaxınlaşdığını eşitdim: başımın üzərində dayanıb, yuxarıdan mənə baxa-baxa qulaq asır. Mənsə, cınqırımı belə çıxarmıram; yadımda deyil, deyəsən, onu inandırmaq üçün bir-iki dəfə xoruldadım da. Nə isə, o, yumurta üstündə yeriyirmiş kimi, ehmalca maşına tərəf getdi, mənsə uzandığım yerdən ona baxıb, öz-özümə dedim: "Eh, qardaş, sən gərək bunu dünən gecə eləyəydin, eləmiş olsaydın, indi burdan altmış mil cənubda gecələyərdin. Ötən gecə eləmiş olsaydın, mən də, ümumiyyətlə, sizə rast gəlməzdim". Elə həmin an narahat olmağa başladım. Ona görə yox ki, o bu qadına nəsə – onun özünün istəmədiyi bir şey eləyə bilərdi. Düzünə qalsa, bir kişi kimi mən onun tərəfindəydim. Belə olmağına beləydi. Amma birdən qadın qışqırsa, nə edəcəyimi bilmirdim. Bilirdim ki, qışqıra bilər; o halda yerimdən sıçrayıb maşına tərəf qaçsam, oğlanı ürkütmüş olardım, qaçmasaydım, başa düşəcəkdi ki, yatmamışam, bayaqdan ona göz qoyuram, bu isə onu lap möhkəm qorxudardı. Ancaq boş yerə narahat olurmuşam. Bunu dərhal, onları görən kimi də başa düşə bilərdim".

Məncə, sən bir şeyə görə heç cür narahat ola bilməzdin, çünki o qadının bu vəziyyətdə nə edəcəyini yaxşı bilirdin arvadı deyir.

Elədi ər onunla razılaşır. *Mən istəmirdim ki, sən bunu mən özüm deməmişdən qabaq başa düşəsən. Hə-ə. Mən də elə bilirdim ki, bu dəfə izi daha yaxşı itirə bilmişəm.*

Yaxşı, danış görək. Sonra nə oldu?

Axı o cür sağlam, güclü bir qadına nə ola bilərdi? Elə ilk anda o adamın yalnız həmin əfəl oğlan olduğunu bilməsə belə. Bu bədbəxt kişiciyəz isə onun üçün göz yaşı ovcunda olan ikinci körpə kimi bir şey idi O, sözünə davam edir:

"Heç bir çığırtı-filan olmadı, heç nə. Mən yalnız onun ehmalca furqona çıxıb orda yox olduğunu gördüm, bir müddət – uzaqbaşı on beşə qədər ancaq saya bilərdin – heç nə eşidilmədi, sonra ordan, bir növ, təəccübə bənzər bir səs gəldi; deməli, qadın yuxudan ayıldı, sadəcə, bir qədər narazıymış kimi təəccübləndi, ancaq qorxub-eləmədi, sakitcə astadan dedi: "Ay, ay, ay, mister Banç. Ayıb deyil. Axı körpəni yuxudan oyada bilərdiniz". Sonra o, arxa qapıdan aşağı düşdü, cəld yox, yavaş-yavaş, suyu süzülə-süzülə. Yalan deyirəmsə, lənətə gəlim, elə bil, qadın onu altı yaşlı körpə uşaq kimi furqondan götürüb ehmalca yerə qoydu, dedi: "Gedin, yatın. Biz sabah yenə yol getməliyik".

Mən isə o tərəfə baxmağa belə utanırdım: Allah eləməsin ki, kiminsə onun bu uğursuz cəhdini gördüyünü, eşitdiyini bilmiş olsun. Yalan deyirəmsə, lənətə gəlim, az qala, mən də onunla birlikdə ölüb yerə girmək istəyirdim. Düzdü, mən qadın tərəfə daha yaxın idim. O isə hələ də qadının onu qoyduğu yerdə daş kimi sakitcə dayanmışdı. Ocaq sönmək üzrəydi, buna görə də onu güclə görürdüm. Ancaq bilirdim ki, onun yerində olsaydım, hansı hissləri keçirərdim. Sanki, Hakimin son hökmünü gözləyirmiş kimi başımı aşağı sallamış olardım: "Aparın onu, dar ağacından asın". Amma mən öz yerimdə uzanmışdım, ətrafa isə dərin sükut çökmüşdü, sonra onun ordan uzaqlaşdığını eşitdim. Kolların arasına möhkəm şaqqıltı düşdü, sanki, baş götürüb harasa qaçdı. Sonra hava işıqlandı, o isə hələ gəlib çıxmamışdı.

Mən heç nə demədim. Nə deyə bilərdim ki? Hər halda, ümid eləyirdim ki, qayıdacaq – ayıb olsa da, olmasa da, kolluqdan çıxacaq. Ocaq qaladım, səhər yeməyi hazırlamağa başladım, bir az keçmişdi ki, qadının furqondan aşağı düşdüyünü eşitdim. Dönüb ona tərəf baxmadım. Amma onun orda dayanıb, ətrafa göz gəzdirdiyini, ocağa, mənim adyalıma baxıb onun burda olub-olmadığını anlamağa çalışdığını eşitdim. Nə mən, nə o – ağzımızı açıb bir kəlmə də kəsmədik. Artıq yığışıb getmək vaxtıydı. Fikirləşdim ki, onu burda, yolun ortasında qoyub gedə bilmərəm. Onu da fikirləşdim ki, qucağında üç həftəlik körpəsi olan gözəl-göyçək bir kəndçi qızla maşında gəzdiyimi arvadım eşidib-bilsə, buna nə deyər? Çox da ki bu qız öz ərini axtardığını söyləyir. İndi isə ikisini birdən axtarmalı olacaq. Deməli, yeməyimizi yeyib qurtardıq, ona dedim: "Mənim yolum uzaqdı, hazırlaşmaq lazımdı". O isə dinib-eləmir, baxıram ki, sifəti, heç nə olmayıbmış kimi sam-sakitdir. Yalan deyirəmsə, lənətə gəlim, heç onda təəccüb-filan da yoxdur. Başımıza gələnlərə bax. İndi mən bunu neyləyim?! O şeylərini

yığışdırdı, furqonun içini də ağac budağı ilə silib-süpürdü, karton çamadan da artıq ordadı adyal da yastıq kimi bükülüb dib tərəfə qoyulub; mənsə ürəyimdə öz-özümə deyirəm: "Sənin bu cür təkbaşına ötüşə bilməyin heç də təəccüblü deyil. Hər dəfə onlar səni atıb qaçanda, sən, sadəcə, bu adamların zirzibillərini yığışdırıb, öz yoluna davam eləyirsən".

– Mən bu dəfə arxada, furqonda gedəcəm, – o deyir.

– Maşın atıb-tutacaq, – deyirəm, – körpə narahat olar.

– Mən onu qucağımda tutacam, – o deyir.

– Necə istəyirsiniz, – deyirəm. Və yola düşürük, arabir başımı pəncərədən çıxarıb, geri boylanıram – döngəyə çatanacan hələ də oğlanın üzə çıxacağına ümid eləyirəm. Amma heç yerdə görünmür. Mənim maşınımda isə, yad uşaq cəhənnəm, həm də yad bir qadın oturub, yolda yanımızdan ötüb-keçən hər maşında gözümə bir yığın kişi, qadın görünür, hələ şerifləri demirəm. Artıq Tenessiyə çatmaq üzrəydik, bu qərara gəldim ki, ya mən bu təzə maşını qovub şil-küt eləməli, ya da tez bir zamanda, qadınlar üçün xeyriyyə cəmiyyəti tapa biləcəyim nisbətən iri bir şəhərə çatmalıyam; onu ora təhvil verəcəkdim. Özüm də arabir dönüb geri baxırdım – bir də gördüm o oğlan arxamızca qaçır; qadınsa furqonda, sanki, kilsədəymiş kimi sakitcə oturmuşdu, körpəni də qucağında elə üslublu saxlamışdı ki, maşın çala-çökəyə düşəndə belə o silkələnmir, anasının döşlərindən rahatca süd əmə bilirdi. Yox, sən bunlarla bacara bilməzsən". O, yataqda uzanıb qəhqəhə çəkir: "Vallah, elədi. Kimsə onlarla bacara bilsə, mənə lənət."

Bəs sonra nə oldu? O qadın sonra neylədi?

Heç nə. Banda oturub maşın gedə-gedə ətrafa elə baxırdı ki, sanki, əyalət yerini – yolları, ağacları, telefon dirəklərini ömründə birinci dəfəydi görürdü. O oğlan furqonun arxa qapısına çatanacan heç onu görə də bilmədi. Buna heç ehtiyacı da yoxudu. Ona ancaq gözləmək lazım idi – başqa heç nə. Özü də bunu yaxşı bilirdi

Bəs o oğlan?

O da elə. Biz döngədən çıxanda yolun qırağında dayanmışdı. Utanırdımı, utanmırdımı – bunun mətləbə heç bir dəxli yox idi, sir-sifəti yorğun-əzgin halda, amma inadkarcasına, həm də təmkinlə orda dayanmışdı, elə bil, ümidsizliyin ən dərin qatlarına baş vurmuş, bu yolda hər şeyi, ən axırıncı vasitəni belə sınaqdan çıxarmışdı və indi qəti əmin idi ki, bir daha özünü bu gərgin vəziyyətə salmayacaq O, sözünə davam edir:

"Mən tərəfə heç baxmadı da. Əyləci basan kimi, o qadının oturduğu yerə, furqonun arxa qapısına tərəf qaçdı. Furqonun başına dolanıb orda dayandı, qadın onu görəndə heç təəccüblənmədi də.

– Mən artıq çox irəli getmişəm, – deyir. – İnnən belə geri çəkilsəm, lənətə gəlim. – Qadınsa ona elə baxır ki, elə bil, onun indi özünü necə aparacağını lap əvvəldən, özü hələ bu

fikrə gəlmədiyi vaxtdan bilir; onu da bilir ki, o özünü necə aparır-aparsın, bunu o qədər də ciddi qəbul etmək lazım deyil.

– Sizə geri çəkilin deyən olmadı axı, – qadın deyir". O, yataqda uzanıb qəhqəhə çəkir, bir xeyli uğunub özündən gedir. "Hə, qardaş. Qadınla bacara bilmək çox müşkül işdi. Bilirsən mən nə fikirləşirəm? Fikirləşirəm ki, o qadın, sadəcə, gəzmək istəyirdi. Axtardıqları adamı tapmaq heç onun ağlında belə yox idi. Məncə, heç vaxt ona yetişmək fikrində olmayıb, sadəcə, bunu yanındakı oğlana deməyib. Məncə, ömründə ilk dəfə öz evlərindən bu qədər uzaq bir yerə ona görə gəlib çıxıb ki, səhər açılanda bir də ora qayıda bilməsin. Rahatca, öz kefinə bu qədər uzaq yerlərə gəlib çıxa bilib, insanlarsa hər yerdə ona kömək ediblər. Fikirləşirəm ki, məhz buna görə bir qədər gəzmək, dünyanı görmək fikrinə düşüb, bilib ki, indi hardasa bir yerdə köç salsa, ömürlük orda qalacaq. Bax mən bunları fikirləşirəm. Arxayınca, öz kefinə arxada, furqonda o oğlanla yanaşı oturaraq, səhər yeməyindən doymayan, bütün yol boyuna anasını əmən – bundan da yaxşı vaqon-restoran ola bilərdimi? – körpə də qucağında yolboyu sürətlə, sirk paradı kimi sırayla ötüb-keçən dirəklərə, çəpərlərə ləzzətlə tamaşa edir. Bir az keçəndən sonra deyirəm:

– Bu da sizə Solsberi.

Qadınsa deyir:

– Nə?

– Solsberi, – deyirəm, – Tenessi. – Arxaya çevrilib onun sifətinə baxıram. Sanki, o artıq nəyisə hiss edib, haçan heyrətlənəcəyini gözləyir və bilir ki, bu, çox xoş bir heyrət olacaq. Elə də oldu – ürəyi istədiyi kimi. Çünki dedi:

– Sən bir işə bax, gör adam haralara gəlib çıxa bilərmiş. Alabamadan çıxdığımız heç ikicə ay olmaz, amma indi artıq burda – Tennessidəyik.

HEKAYƏLƏR

İKİ ƏSGƏR

Pitlə, adətən, aşağı, qoca Killqreunun evinin yanına düşüb onun radiosuna qulaq asırdıq. Şam yeməyinəcən gözləyər, yeməyimizi yeyəndən sonra qaranlıq düşəndə qoca Killqreunun pəncərəsinin önünü kəsdirirdik. Radionun səsi buradan da aydın eşidilirdi, çünki qoca Killqreunun arvadı kar idi və radionun səsini o ki var verirdi, hətta pəncərələr bağlı olanda belə, biz bayırda onun səsini qarıdan yaxşı eşidirdik.

O axşam Pitdən soruşdum:

– Nə? Yaponlar? Pörl Harbor nə deməkdir?

Pit isə:

– Sıss… – dedi.

Hava soyuq olsa da, orada dayanıb radioda danışan oğlana axıracan qulaq asdıq. Amma mən onun dediklərindən heç nə anlaya bilmirdim. Axırda o dedi ki, bəlkə də, bu, uzun çəkməz. Evə qayıdarkən yolda Pit mənə hər şeyi başa saldı. Çünki artıq onun iyirmi yaşı vardı, iyunda məktəbi bitirmişdi və çox şeyi bilirdi: yaponların Pörl Harbora bomba atdığını da, Pörl Harborun dənizin o tayında olmağını da.

– Dənizin o tayında? – soruşdum. – Oksforddakı dövlət su anbarının o tayında?

– Yoox, – Pit dedi, – böyük dənizin o tayında. Sakit okeanın.

Evə gəldik. Anamla atam artıq yatmışdılar, biz də yatağımıza girdik. Ancaq mən o yerin harada olduğunu hələ də anlaya bilməmişdim. Pit yenə dedi ki, o, Sakit okeandadır.

– Sənə nə olub? – Pit dedi. – Doqquz yaşına keçmisən. Sentyabrdan bəri məktəbə gedirsən. İndiyəcən heç nə öyrənməmisən?

– Biz hələ Sakit okean qədər uzağa getməmişik, – dedim.

O vaxt hələ də səpinlə məşğul idik və bu işi noyabrın on beşinəcən qurtarmalıydıq, çünki Pitlə gözümüzü açandan bəri, həmişə olduğu kimi, atam yenə də səpində geri qalmışdı. Bundan əlavə, qış üçün odun da tədarük etməliydik. Ancaq bütün bunlara baxmayaraq, ikimiz də hər axşam qoca Killqreugilə gedir, soyuq havada onun pəncərəsinin qabağında durub radioya qulaq asırdıq; evə qayıdanda isə orada eşitdiklərimizi Pit mənə başa salırdı. Amma bu çox çəkmədi, bir müddət sonra Pit mənə daha heç nə demədi. Sanki o bu barədə daha heç nə danışmaq istəmirdi. Mənəsə səsini kəs, yatmaq istəyirəm deyirdi, ancaq heç yatmaq istəyənə oxşamırdı.

Yataqda daş kimi uzanıb qalırdı; yatsaydı, heç bu qədər səssiz-səmirsiz olmazdı. Nəsə bir dərdi vardı, hiss edirdim ki, nəsə olacaq: mənə hirslənə bilərdi, amma dəqiq bilirdim ki, indi onu düşündürən mən deyiləm; və yaxud nəyinsə nigarançılığını çəkə bilərdi, amma bu da

deyildi, çünki nigarançılığını çəkəsi heç bir işi yox idi; atam kimi deyildi, heç vaxt geridə qalmazdı. Məktəbi bitirəndən sonra atam ona on akr torpaq sahəsi verdi. Pit də, mən də belə hesab etdik ki, atam öz tarlasını on akr kiçiltməyinə çox şaddır, axı işi xeyli yüngülləşib. Pit artıq öz sahəsində səpini qurtarmışdı, onu suvarıb, qış üçün üstünü də örtmüşdü. Buna görə də onun dərdi bu da ola bilməzdi. Amma nəsə vardı. Biz hələ də hər axşam qoca Killqreugilin evinə gedir, onun radiosuna qulaq asırdıq. Onlar artıq Filippindəydilər, ancaq general Makartur onların hücumunu dayandırmışdı. Sonra evə qayıdıb yatağımıza girirdik. Pit yenə mənə heç nə demirdi, ümumiyyətlə, heç nə danışmırdı. Eləcə, pusquya durmuş pişik kimi yataqda səssiz-səmirsiz uzanıb qalırdı. Əlimlə ona toxunanda yanlarının, ayaqlarının daş kimi donub qaldığını hiss edirdim, bir az keçəndən sonra məni yuxu aparırdı.

Bir axşam ilk dəfə olaraq – meşədə odun qırarkən kifayət qədər odun qırmadığım üçün üstümə qışqırmağını nəzərə almasaq, son vaxtlar heç dinib-danışmırdı – axır ki, dilləndi:

– Mən hökmən getməliyəm, – dedi.

– Hara? – dedim.

– O müharibəyə, – Pit dedi.

– Biz odun tədarük edib qurtarmamış?

– Cəhənnəm olsun odun, – Pit dedi.

– Olsun, – dedim. – Haçan yola düşürük?

Ancaq o mənə qulaq asmırdı. Qaranlıqda daş kimi, səssiz-səmirsiz uzanıb qalmışdı.

– Hökmən getməliyəm, – təkrar etdi. – Mən heç kimin Birləşmiş Ştatları bu cür hədələməsinə dözə bilmərəm.

– Elədir, – dedim. – Odun olsa da, olmasa da, biz hökmən getməliyik.

Bu dəfə nə dediyimi eşitdi. Yenə də susub səssiz-səmirsiz qaldı, amma bu, başqa cür susqunluq idi.

– Nə? – dedi. – Sən də müharibəyə getmək istəyirsən?

– Sən yekələrini qırarsan, mən də balacalarını, – dedim.

Dedi ki, sən gedə bilməzsən. Əvvəlcə elə bildim məni özünə yük eləmək istəmədiyi üçün belə deyir, axı Tallın qızları ilə gəzməyə gedəndə də onunla getməyimə razı olmurdu. Ancaq sonra dedi ki, səni orduya götürməzlər, hələ çox balacasan. Onda anladım ki, düz deyir, mən heç cür heç yana gedə bilmərəm. Həm də, nədənsə, həmin anacan heç onun da getmək istədiyinə inanmağım gəlmirdi. İndi isə bildim ki, fikri qətidir, hökmən gedəcək, özü də məni özüylə aparmayacaq.

– Mən orda sizə odun yığar, su daşıyaram! – dedim. – Axı orda sizə odun, su lazım olacaq.

Hər halda, indi məni dinləyirdi. İndi daş kimi səssiz-səmirsiz deyildi. Yanı üstə çevrildi, əlini sinəmin üstünə qoydu; çünki indi də mən arxası üstə uzanıb, səssiz-səmirsiz qalmışdım.

– Yox, – dedi. – Sən burda qalmalısan, atamıza kömək etməlisən.

– Nəyinə kömək eləyəcəm, – dedim. – İndən belə ona heç nə olmaz. O daha geridə qalmayacaq. Biz orda o yaponları qırıb qurtaranacan o burada bir ovuc torpaq sahəsinin öhdəsindən çox asanlıqla gələ bilər. Yox, mən də getməliyəm. Əgər sən getməlisənsə, mən də getməliyəm.

– Olmaz, – Pit dedi. – Bəsdir, sus. – Bildim ki, fikri qətidir, razı olmayacaq. Ancaq öz ağzından eşitdiyimə görə bu qərara gəldim. Susdum.

– Deməli, mən gedə bilmərəm, hə? – dedim.

– Yox, – Pit dedi. – Heç cür gedə bilməzsən. Əvvəla, sən hələ çox balacasan, ikincisi də…

– Yaxşı, – dedim. – Onda səsini kəs, qoy yatım.

O susdu, arxası üstə çevrildi. Mən də özümü yuxuluğa vurdum. Bir az keçməmiş onu yuxu apardı və yalnız indi anladım ki, onu narahat edən, onu yatmağa qoymayan müharibəyə getmək istəyi imiş. İndi – buna qəti qərar verəndən sonra, o narahatlıq da canından çıxmışdı.

Sabahı gün səhər anamla atama da dedi. Anam onun bu fikrini heç də vay-həşirlə qarşılamadı. Sadəcə, ağladı.

– Yox, – hönkürə-hönkürə dedi. – Mən istəmirəm o getsin. Bacarsaydım, onun əvəzinə özüm gedərdim. Bu ölkəni xilas etmək mənəmi qalıb? O yaponlar bu ölkəni tuta, istədikləri qədər əsarətdə saxlaya bilərlər, təki mənə, mənim ailəmə, uşaqlarıma dəyməsinlər. Amma qardaşım Marşın o biri müharibəyə getdiyi günü xatırlayıram. O gedəndə cəmisi on doqquz yaşı vardı, bizim də anamız onun bu hərəkətini anlaya bilmirdi: lap mənim kimi. Ancaq o, Marşa dedi ki, getməlidirsə, getsin. İndi də Pit, əgər bu müharibəyə getmək istəyirsə, qoy getsin. Ancaq bunun niyəsini məndən soruşmayın.

Atam isə başqa aləm idi.

– Nə? Müharibəyə getmək istəyirsən? – dedi. – Kimə, nəyə xeyri var bunun? Nə sənin çağırış yaşın çatıb, nə də bizim ölkəmiz işğal olunub. Prezidentimiz Vaşinqtonda oturub, özü vəziyyətə nəzarət edir, lazım gəlsə, bizi də xəbərdar edəcək. Bir də ki ananın xatırladığı o biri müharibəyə məni də çağırmışdılar, Texasa göndərdilər, düz səkkiz ay müharibə qurtarana kimi– orada saxladılar. Bundan başqa, məncə, Marş dayının o müharibədə Fransanın döyüş meydanlarında ağır yaralanması mənə də, sizə də bəsdir; ən azı, mənə ayrılan ömür müddəti ərzində ölkənin müdafiəsi naminə bizə düşən payı vermişik. Bir də sən gedəndən sonra bu tarlanı əkib-becərməkdə kim mənə kömək edəcək? Yəqin ki, yenə hər işdə geri qalacağam.

– Xatırladığım qədəri, sən həmişə geridə qalmısan, – Pit dedi. – Hər halda, mən gedirəm. Hökmən getməliyəm.

– Əlbəttə, o hökmən getməlidir, – dedim. – O yaponları…

– Sən ağzını yum, – anam ağlaya-ağlaya dedi. – Səndən soruşan yoxdur. Yeri, bir qucaq odun gətir. Sənin işin ancaq budur!

Getdim odun gətirməyə.

Sabahı gün səhərdən-axşamacan biz – atam, Pit və mən vaxt varkən mümkün qədər çox odun tədarük etməyə çalışdıq. Çünki, Pit dedi ki, atama qalsa, çox odun toplamaq əvəzinə, divara söykənən qalağın üstünə anamın hələ yandırmadığı bir odun parçasını atmaqla kifayətlənəcək. Anam isə bütün günü Piti yola salmaq üçün hazırlıq işləri ilə məşğul oldu; onun paltarlarını yudu, yamadı, yol üçün ona bir ayaqqabı qutusu peçenye bişirdi. Axşam yatağa girəndə anamın ağlaya-ağlaya Pitin şeylərini necə qablaşdırdığına qulaq asdıq. Sonra Pit yerindən qalxıb alt paltarında onun yanına getdi. Onların danışığını yaxşı eşidirdim. Lap axırda anam dedi:

– Bilirəm, getməlisən. Ona görə mən də istəyirəm gedəsən. Ancaq bunun səbəbini başa düşmürəm. Heç vaxt da başa düşməyəcəyəm. Bunu məndən gözləmə.

Sonra Pit geri qayıtdı, təzədən yatağa girdi, yenə də daş kimi səssiz-səmirsiz qaldı. Birdən danışmağa başladı, amma mənnən deyildi, ümumiyyətlə, heç kimnən deyildi: «Mən getməliyəm. Hökmən getməliyəm».

– Düzdü getməlisən, – dedim. – O yaponlar…

Təlaşa düşmüş adam kimi sərt hərəkətlə yanı üstə çevrildi, qaranlıqda üzümə baxdı:

– Hər halda, sənə afərin, – dedi. – Mənə elə gəlirdi ki, onların hamısından çox sən mənə əngəl olacaqsan.

– Yəqin ki, indi mən heç nə eləyə bilmərəm, – dedim. – Bəlkə, müharibə bir neçə il uzanacaq, onda mən də gedə biləcəm. Bəlkə də, günlərin bir günündə qəfil sənin yanına gəlib çıxdım.

– Ümidvaram ki, belə olmayacaq, – Pit dedi. – Camaat müharibəyə kef üçün getmir. İnsan anasını evdə ağlar qoyub kefə gedə bilməz.

– Bəs onda sən niyə gedirsən?

– Mən getməliyəm, – dedi. – Hökmən getməliyəm. İndi isə yat, sabah tezdən avtobusa çatmalıyam.

Yuxuya getdik. Səhəri gün tezdən lampa işığında nahar elədik, çünki avtobus saat altıda keçəcəkdi. Anam daha ağlamırdı. Yeməyi süfrəyə qoyarkən ötkəm və işgüzar görkəm almışdı. Biz yeyib qurtaranacan tövrünü dəyişmədi. Pitin yol çantasını qablaşdırıb qurtardı. Pit özüylə heç nə götürmək istəmirdi; anam dedi ki, ağıllı adamlar nəinki müharibəyə gedəndə, hətta ən adi səfərə çıxanda belə özləriylə paltar dəyişəyi, onları içinə yığmaq üçün çanta götürmədən

çıxmırlar. O, ayaqqabı qutusunun içinə qızardılmış toyuq əti, peçenye yığdı, bir də Bibliyanı qoydu. Artıq tərpənmək vaxtı idi. O anacan anamın avtobus dayanacağına getməyəcəyini bilmirdik. O, Pitin kepkasını, plaşını gətirdi; hələ də ağlamırdı, əllərini onun çiyinlərinə qoyub durmuşdu. Lal-dinməz çiyinlərindən yapışmışdı və Pitin ötən gecə yataqda mənə sarı dönüb «hər halda, sənə afərin» dediyi anda aldığı kimi sərt və ötkəm görkəm almışdı.

– Onlar bu ölkəni zəbt edə, mənə və mənim ailəmə xətər yetirməyənə qədər onu əsarətdə saxlaya bilərlər, – o dedi. Sonra əlavə etdi: – Amma sən kim olduğunu heç vaxt unutma. Sən varlı balası deyilsən və Fransız Döngəsindən o yana səni heç kim tanımır. Amma sənin də qanın başqa yerlərdə yaşayanların qanı qədər nəcib qandır. Bunu heç vaxt unutma.

Sonra anam onu öpdü. Evdən çıxdıq. Pit istəsə də, istəməsə də, atam onun yol çantasını özü götürdü. Biz şoseyə çıxıb poçt qutusunun yanında gözləyəndə sübh hələ açılmamışdı. Bir qədər sonra uzaqdan avtobusun işıqları göründü. O, yanımıza çatana və Pit əl eləyib onu saxlatdıranacan gözümü ondan çəkmədim. Artıq hava işıqlanmışdı; nə vaxt işıqlanmağa başladığına fikir verməmişdim. Pit də, mən də gözləyirdik ki, atam yenə nəsə axmaq bir şey deyəcək, o biri müharibədə Marş dayının Fransada ağır yaralanmadığının, özünün 1918-ci ildə Texasa göndərilməyinin 1942-ci ildə Birləşmiş Ştatları xilas etmək üçün kifayət etdiyi barədə dedikləri kimi yersiz sözlər söyləyəcək. Amma o yalnız bunları dedi: «Əlvida, oğlum! Ananın dediklərini heç vaxt unutma, vaxtın olanda ona məktub yaz».

Sonra o, Pitlə əl tutuşub sağollaşdı. Pit bir anlığa üzümə baxdı, əlini başıma qoydu, onu elə möhkəm sıxdı ki, az qaldı boynum qırıla. Sonra atılıb avtobusa mindi, bir oğlan qapını örtdü və avtobus tırıldamağa başladı. Sonra getdikcə daha bərkdən tırıldaya-tırıldaya, xırıldaya-xırıldaya, inildəyə-inildəyə yola düşdü. O, sürətlə uzaqlaşırdı, arxasındakı iki balaca qırmızı işıq, sanki, heç kiçilməyəcək, yanaşı qaçaraq bir-birinə qovuşacaq və bir işığa dönəcəkdilər. Ancaq heç vaxt belə olmayacaqdı. Axır ki, avtobus gözdən itdi. Ağlamaqdan özümü zorla saxlayırdım: axı niyə mən doqquz yaşındayam, niyə mən də müharibəyə gedə bilmirəm?.

Atamla evə qayıtdıq. Bütün günü odun tədarükü ilə məşğul olduq. Buna görə də axşam düşənəcən heç cür fürsət tapa bilmədim. Sonra sapandımı götürdüm; quş yumurtalarımın da hamısını götürmək istəyirdim, çünki Pit gedəndə öz yumurta kolleksiyasını mənə bağışlamışdı, özümünküləri də toplamaqda kömək eləmişdi; iyirmi yaşında olmasına baxmayaraq, o da mənim kimi tez-tez yumurta qutusunu çıxarıb onlara baxmağı xoşlayırdı. Amma qutu çox iri idi və onu bu uzun səfərdə özümlə gəzdirmək mənim üçün çox çətin olardı. Ona görə də onlardan tək bircəciyini seçib götürdüm, çünki o, hamısından qəşəng idi. Onu kibrit qutusuna qoyub sapandımla birlikdə tövlənin bir küncündə gizlətdim. Sonra şam eləyib yatmağa getdik. Fikir məni götürmüşdü: bundan sonra o otaqda, o yataqda, bir gecə də olsa, necə yata biləcəm. Az keçməmiş, atamın xorultusu eşidildi, ancaq anamdan heç bir səs-səmir gəlmirdi; bilmirdim ki,

yuxuya gedib, yoxsa yox. Çətin yatmış olaydı. Ona görə də ayaqqabılarımı götürüb pəncərədən iplə bayıra salladım, özüm də ehmalca çölə çıxdım; Pit də on yeddi yaşı olanda belə xəlvətcə pəncərədən bayıra əkilərdi, çünki atam ona hələ çox gənc olduğu üçün gecələr veyllənməyə icazə vermir, onu çölə buraxmırdı. Ayaqqabılarımı geyinib tövləyə getdim, sapandımı, quş yumurtasını götürüb şoseyə çıxdım.

Çox da soyuq deyildi, yalnız andır hava yaman qaranlıq idi və qarşımda uzanan yol kimsəsiz və yiyəsizdi; nə qədər getsən də, qurtarmaq bilmirdi; sanki, hər dəfə yenidən qarşında uzanıb bitirdi. Buna görə də arada mənə elə gəldi ki, Ceffersona qədər iyirmi iki mili başa vuranacan günəş tamam məni haqlayacaq. Amma belə olmadı. Təpəni qalxıb şəhərə girəndə dan yeri təzəcə sökülürdü. Daxmalarda bişirilən səhər yeməklərinin iyi burnuma dəydi; heyifsiləndim ki, kaş özümlə, heç olmasa, peçenye götürəydim, amma artıq gec idi. Pit mənə demişdi ki, Memfis Ceffersondan bir qədər o yanadır, ancaq onun burdan səksən mil aralıda olduğundan xəbərim yox idi. Buna görə də günəş yavaş-yavaş doğmağa başlayanda – küçə işıqları hələ də yanırdı – o boş meydanda dayanarkən bir qanun keşikçisi başımın üstünü kəsdirib diqqətlə məni süzəndə Memfis hələ səksən mil uzaqdaydı; bütün gecəni cəmi iyirmi iki mil yol gəlmişdim; fikirləşdim ki, bu minvalla mən Memfisə çatanacan, yəqin ki, Pit ordan artıq Pörl-Harbora yola düşmüş olacaq.

– Sən hardan gəlirsən? – qanun keşikçisi soruşdu.

Onda bir də izah elədim.

– Mən Memfisə getməliyəm. Qardaşım ordadır.

– Yəni deyirsən bu ətrafda heç kimin yoxdur? – o dedi. – Qardaşından savayı heç kimin yoxdur? Bəs onda burda neynirsən? Qardaşın niyə Memfisdədir?

Təkrar dedim:

– Mən Memfisə getməliyəm. Bunu təkrar-təkrar izah etməyə boş vaxtım yoxdur. Oraya piyada getməyə də vaxtım qalmayıb, mən hökmən bu gün orada olmalıyam.

– Bura gəl, – qanun keşikçisi dedi.

O biri küçəyə keçdik. Orada dünən səhər Pitin mindiyinə oxşar bir avtobus dayanmışdı, fərqi yalnız ondaydı ki, indi onun heç bir işığı yanmırdı və içi boş idi. Dəmiryol vağzalı kimi bura da avtobus vağzalıydı və içində bilet satılan kassa, kassada isə bir oğlan vardı. Qanun keşikçisi mənə dedi:

– Get, orda otur.

Gedib oradakı skamyada oturdum. Sonra o, biletsatan oğlana dedi:

– Sizin telefondan istifadə etmək istəyirəm.

Bir dəqiqə telefonla danışdı, sonra onu yerinə qoyub biletsatana dedi:

– Gözün onda olsun. Missis Haberşam ayılıb geyinən kimi geri qayıdacam.

O, bayıra çıxdı. Mən də qalxıb kassaya yaxınlaşdım.

– Mən Memfisə getmək istəyirəm, – dedi.

– Gedərsən, – biletsatan oğlan dedi. – Get otur yerində. Mister Fut bu dəqiqə qayıdacaq.

– Mən heç bir mister Fut tanımıram, – dedim. – Mən o avtobusla Memfisə getməliyəm.

– Barı pulun var? – o soruşdu. – Bu, sənə yetmiş beş sentə başa gələcək.

Kibrit qutusunu çıxardım, quş yumurtasını onun içindən götürdüm.

– Memfisə bir bilet üçün mən sənə bunu verərəm, – dedim.

– O nədir elə?

– Quş yumurtasıdır, – dedim. – Beləsini ömründə görməmisən. Qiyməti bir dollardır. Mənsə səndən cəmi yetmiş beş sent alacam.

– Yox, – o dedi, – avtobus sahibləri öz işlərini yalnız pulla görürlər. Əgər biletləri quş yumurtasına, toyuq-cücəyə və s.-yə satsam, onlar məni bayıra atarlar. Yeri, get otur yerində, mister Fut indicə…

Qapıya tərəf getdim, ancaq o məni qabaqladı, bir əlini kassanın piştaxtasına qoyub onun üstündən hoppandı, özünü mənə yetirdi, əl atıb köynəyimdən yapışmaq istədi. Cib bıçağımı çıxarıb, ağzını açdım.

– Sən mənə əl vurursan? İndi o əlini kəsərəm, – dedim.

Sivişib qapıya tərəf qaçdım, amma o, yaman cəld tərpəndi; ömrümdə bu qədər cəld hərəkət edən böyük adam görməmişdim; lap Pit kimiydi. O, qabağımı kəsdi. Kürəyini qapıya söykəyib, ayağının birini azca yana qaldırdı, bayıra qaçmağa yer qalmadı.

– Get, otur o skamyada, özü də yerindən tərpənmə, – dedi.

Bayıra çıxmağa yol qalmamışdı. Biletsatan oğlan da kürəyini qapıya söykəyib durmuşdu. Ona görə də qayıdıb skamyada oturdum. Birdən-birə vağzal adamla doldu. Qanun keşikçisi qayıtmışdı, yanında əyninə dəvə yunundan kürk geyinmiş iki xanım da vardı, sifətlərinə rəng də çəkmişdilər. Amma hələ də yuxudan tələm-tələsik oyanana oxşayırdılar və yataqdan belə tez qaldırıldıqlarından narazı olduqları hələ də sifətlərindən getməmişdi; biri yaşlıydı, biri cavan. Cavan qadın diqqətlə məni süzüb dedi:

– Bunun heç paltosu da yoxdur ki! Təkbaşına bura necə gəlib çıxıb?

– Dedim axı, – qanun keşikçisi dedi, – mən ondan heç nə öyrənə bilmədim. Bircə onu deyir ki, qardaşı Memfisdədir, ora getmək istəyir.

– Doğrudur, – dedim. – Mən bu gün Memfisdə olmalıyam.

– Əlbəttə, olacaqsan, – yaşlı qadın dedi. – Əminsənmi ki, Memfisə getsən, qardaşını orda tapa biləcəksən?

– Tapa biləcəm, – dedim. – Tək bircə qardaşım var, ömrüm boyu yanımda olub. Əminəm ki, onu görsəm, tanıyacam.

Yaşlı qadın üzümə baxdı.

– Amma o, Memfisdə yaşayana oxşamır, – dedi.

Çox güman ki, elədir, – qanun keşikçisi dedi. – Amma bunu dəqiq bilmək çox çətindir. Hər yerdən ola bilər. İndi elə zəmanədir ki, onlar – qızlı, oğlanlı – ayaqları bir balaca yer tutan kimi gecələri harda gəldi veyllənirlər, səhər yemək yadlarına düşəndə ayılırlar. Dünən, bəlkə də, o, Missuridə, ya da Texasda olub. Bunların hamısından xəbərimiz var. Ancaq məncə, o, qardaşının Memfisdə olduğuna qəti əmindir. Məncə, biz onu ora göndərməliyik, qoy özü axtarıb qardaşını tapsın.

– Elədir, – yaşlı qadın dedi.

Cavan qadın isə skamyada yanımda oturdu, əl çantasını açıb oradan qələm və kağız çıxartdı.

– İndi, əzizim, – yaşlı qadın dedi, – biz çalışacağıq ki, qardaşını tapasan, amma əvvəlcə sənlə bağlı bəzi məlumatları qeydə almalıyıq. Adını, qardaşının adını, harada doğulduğunu, valideynlərinin haçan vəfat etdiklərini bilmək istəyirik.

– Heç nəyi qeydə almağınız lazım deyil, – dedim. – Yeganə istəyim Memfisə getməkdir. Mən hökmən bu gün orda olmalıyam.

– Gördünüz? – qanun keşikçisi bu sözlərimdən ləzzət alırmış kimi sevincək dedi. – Mən sizə deyirdim axı.

– Bəxtiniz varmış, missis Haberşam, – biletsatan oğlan dilləndi. – Onda odlu silah olduğuna inanmasam da, amma bıçağı… demək istəyirəm ki, o, bıçağı elə cəld çıxarıb aça bilir ki, onu istənilən adama yorta bilər.

Yaşlı qadın hələ də mat-məəttəl dayanıb üzümə baxırdı.

– Belə, – dedi. – Belə. Doğrusu, heç bilmirəm neyləyim?

– Mən deyim, – biletsatan oğlan dedi. – Şirkətimizi qiyamdan və qanlı toqquşmadan xilas etmək naminə ona öz cibimdən bir bilet verim. Mister Fut da bu barədə şəhər bələdiyyəsinə məlumat verəndə, bunu vətəndaşlıq şücaəti kimi qiymətləndirilər, onlar nəinki bu pulu qaytarar, bəlkə, hələ mənə medal da verərlər, elə deyil, mister Fut?

Ancaq onun bu sözlərinə heç kim fikir vermədi. Yaşlı qadın hələ də dayanıb mat-mat üzümə baxırdı.

– Belə, – yenə dedi. Sonra portmanatından bir dollar çıxarıb biletsatan oğlana verdi.

– Elə bilirəm ki, bu, bir uşaq bileti üçün kifayət edər, – dedi. – Elə deyil?

– Edər, – biletsatan oğlan dedi. – Ancaq sonrasından qorxuram. Qorxuram ki, onu yaxşı-yaxşı bir şeyə bükdürüb, üstünə «Zəhərlidir» işarəsi vurdurmadığım üçün sonra məni işdən qovalar. Amma hər halda, risk edəcəm.

Axır ki, onlar getdilər. Az keçməmiş, qanun keşikçisi əlində sendviç geri qayıtdı və onu mənə verdi.

– Dəqiq bilirsən ki, qardaşını orda tapa biləcəksən? – dedi.

– Niyə bilmirəm ki? – dedim. – Əgər mən Piti birinci görməsəm, o özü məni görəcək. Axı o da məni yaxşı tanıyır.

Nəhayət, qanun keşikçisi bayıra çıxıb birdəfəlik getdi. Mən sendviçi yeyib qurtardım. Sonra içəri xeyli adam doldu, bilet aldılar, biletsatan oğlan dedi ki, getmək vaxtıdır, mən də Pit kimi avtobusa mindim və biz yola düşdük.

Yol boyu bütün şəhərləri gördüm. Hamısını. Avtobus tərpənəndə hiss elədim ki, möhkəm yuxum gəlir. Ancaq burda əvvəllər görmədiyim o qədər şeylər var idi ki! Ceffersondan çıxdıq, çöllərdən, meşələrdən keçdik. Başqa bir şəhərə girdik, oradan çıxıb, yenə də çöllərdən, meşələrdən keçdik. Yenə bir şəhərə girdik, burada çoxlu dükanlar, pambıqtəmizləyən maşınlar, su anbarları vardı. Sonra dəmiryolu boyunca xeyli getdik, orada açılan semaforu, ardınca gələn qatarı gördüm. Beləcə, daha neçə-neçə şəhərdən keçdik, artıq yuxum gözümdən tökülürdü, amma yenə risk etmək istəmirdim. Nəhayət, Memfis başlandı. O qədər böyük idi ki, sanki, bitib-qurtarmayacaqdı. Dükanların gur olduğu yerdən keçəndə bildim ki, çatmışıq, avtobus indicə dayanacaq. Ancaq bura hələ Memfis deyilmiş, biz yenidən su anbarlarının, tüstü boruları göylərə ucalan zavodların yanından keçdik; bunlar pambıqtəmizləmə, ya da ağac emalı zavodlarıydı, dəqiq anlaya bilmədim. Heç bilməzdim ki, onlar bu qədər çox, bu qədər böyük imişlər. Bunları işlətmək üçün o qədər pambığı, o qədər ağacı hardan tapdıqlarını da anlaya bilmədim.

Axır ki, Memfis göründü. Bildim ki, bu dəfə səhv eləmirəm. Binalar göyə dirənmişdi. Bu şəhər çox böyük idi, elə bil, on-on beş Ceffersonu bir yerə yığmışdılar; çölün lap kənarında salınmışdı və bütün Yoknapatofa əyalətində olan ən hündür dağdan da yüksəyə ucalmışdı. Sonra şəhərin özünə girdik, avtobus hər addımbaşı dayanmalı olurdu – bəlkə də, mənə belə gəlirdi – onun hər iki yanından maşınlar sürətlə oyan-buyana şütüyürdü və elə bil, həmin gün adamlar şəhərin hər yerindən bura axıb tökülmüşdülər; başa düşə bilmədim ki, bəzi şeyləri qeydə alanlar cəhənnəm, bəs burda mənə kim bilet satacaq. Nəhayət, avtobus dayandı. Bura başqa bir avtobus vağzalıydı və Ceffersondakından çox-çox böyük idi.

– Yaxşı. Burda orduya harda yazılırlar?

– Nə? – biletsatan oğlan dedi.

Təkrar soruşdum:

– Orduya harda yazılırlar?

– Oh! – dedi. Sonra ora necə gedə biləcəyimi başa saldı. Əvvəlcə qorxdum ki, Memfis kimi böyük bir şəhərdə oranı tapmaq mənim üçün çətin olacaq. Ancaq rahat tapdım: sonra cəmi ikicə dəfə oranın yolunu soruşmalı oldum və axır ki, gəlib çatdım. Ora-bura şütüyən maşınların,

bir-biriylə itələşən adamların basırığından, zəhlətökən hay-küyündən qurtulduğuma çox sevinirdim. Fikirləşdim ki, çox çəkməz, burda orduya yazılanlar nə qədər çox olsa, nə qədər basabas salsalar da, yəqin ki, Pit məni tez – mən onu görməmişdən qabaq görəcək. Bu ümidlə içəri girdim. Amma Pit burada deyildi.

O heç burda da yox idi. Otaqda qolunda iri sarğı olan bir əsgər nəsə yazırdı, iki oğlan isə onun önündə oturmuşdu. Deyəsən, orada onlardan savayı bir neçə adam da vardı.

– Pit hardadır? – O, başını qaldırıb baxdı. – Qardaşımı deyirəm. Pit Qrier. O, indi hardadır?

– Nə? – O dedi. – Kim?

Yenə təkrar etdim:

– O, dünən orduya yazılıb. Pörl Harbora getməlidir. Mən də ora gedirəm. Buna görə də onu tapmaq istəyirəm. Siz onu neyləmisiniz?

Hamı təəccüblə mənə baxırdı. Ancaq mənim vecimə də deyildi.

– Tez ol, – dedim. – De görüm, o, hardadır.

Əsgər yazmağına ara verdi. Hər iki qolunu stolun üstünə uzadıb:

– Aa, – dedi. – Sən də getmək istəyirsən, hə?

– Hə, – dedim. – Orda onlara odun, su lazım olacaq. Mən də odun yığar, su daşıyaram. Tez ol, de, Pit hardadır?

Əsgər ayağa qalxdı.

– Səni bura kim buraxıb, – dedi. – Çıx bayıra. Bunu da ağlından çıxart.

– O mənim öz işimdir, – dedim. – Sən mənə de görüm, Pit…

Yalan deyirəmsə, it olum, o, biletsatan oğlandan da cəld hərəkət etdi. Heç masanın üstündən də tullanmadı, yanından keçdi, mən bir şey anlayana qədər üstümü kəsdirdi. Bircə macal tapıb geriyə sıçraya bildim; bıçağımı çıxarıb ağzını açdım, ona bir zərbə vurdum. O da qışqırıb geri atıldı, bir əli ilə o biri əlini tutub ufuldaya-ufuldaya donquldandı.

O biri oğlanlardan biri arxadan məni qucaqladı, bıçaqla onu da vurmaq istədim, amma əlim çatmadı.

Hər iki oğlan məni bərk-bərk tutub saxlamışdı; arxa qapıdan başqa bir əsgər çıxdı. Onun belində aşırma qayışlı kəməri vardı.

– Bu nə həngamədi? Nə olub burda? – dedi.

– Bu balaca oğlan bıçaqla məni vurdu! – birinci əsgər donquldandı.

O bunu deyəndə bir də onun üstünə cummaq istədim, amma arxadan məni tutan oğlanlar aman vermədilər: bir nəfər iki nəfərə qarşı neyləyə bilər ki? Aşırma qayışlı əsgər dedi:

– Yaxşı, yaxşı, bıçağını cibinə qoy, oğlan. Bizim heç birimiz silahlı deyilik. Əliyalın adamların üstünə bıçaq çəkməzlər.

Onun səsini artıq eşitməyə başlamışdım. Pitin səsinə oxşayırdı, elə bil, o mənimlə danışırdı.

– Buraxın onu, – dedi. Onlar məni buraxdılar. – İndi de görüm, nə məsələdir?

Hər şeyi ona danışdım.

– Anladım, – dedi. – Bura gəlmisən ki, yola düşməmiş onunla görüşəsən, eləmi?

– Yox, – dedim. – Gəlmişəm ki, mən də…

Ancaq o artıq əlini dəsmalla sarıyan birinci əsgərə tərəf çevrilmişdi.

– Onu qeydə almısan? – dedi. Birinci əsgər masaya yaxınlaşıb oradakı kağızlara baxdı.

– Burdadır, – dedi, – onu dünən götürmüşük. Bu gün səhər Litl Roka yola düşəcək dəstəyə salınıb. – Əsgərin qolunda saat vardı. Ona baxdı. – Qatar təqribən əlli dəqiqədən sonra yola düşəcək. Bildiyim qədər əyalətin bütün uşaqları indi stansiyaya toplaşıblar.

– Onu bura gətirt, – aşırma qayışlı əsgər dedi. – Vağzala zəng vur. Qoy vaqon bələdçisi ona taksi tutsun. Sən də mənimlə gəl.

Arxadakı başqa bir kabinetə keçdik. Burada ancaq bir masa, bir-iki də stul vardı. Oturub gözlədik. Əsgər siqaret çəkirdi. Uzun çəkmədi; Pitin addım səslərini eşidən kimi tanıdım. Sonra birinci əsgər qapını açdı, Pit içəri girdi. O, hələ də əsgər paltarında deyildi. Dünən səhər avtobusa minəndə necə vardısa, eləcə də qalmışdı. Amma mənə elə gəldi ki, bu, dünən səhər yox, bir həftə bundan qabaq olub; o qədər hadisə baş vermişdi, o qədər yerlərdən keçib gəlmişdim ki! İçəri girdi. Dayanıb üzümə elə baxdı ki, elə bil, yenə evimizdəyik, o da heç yerə getməmişdi. Halbuki, biz indi Memfisdəydik. Pörl Harbora getmək üçün yol üstündəydik.

– Sən burda neyləyirsən? – dedi.

Dedim ki, yemək bişirmək üçün ona odun, su lazım olacaq. Mən də sizin üçün odun yığa, su daşıya bilərəm.

– Yox, – Pit dedi. – Sən evə qayıdacaqsan.

– Yox, Pit, – dedim. – Mən də getməliyəm. Mən getməliyəm. Ürəyim ağrıyır, Pit.

– Yox, – Pit dedi. Əsgər tərəfə baxdı. – Mən bilmirəm buna nə olub, leytenant, – dedi, – o, ömründə heç kimin üstünə bıçaq çəkməyib. – Sonra mənə baxdı. – Bunu nə üçün elədin?

– Bilmirəm, – dedim. – Birdən-birə oldu. Hökmən bura gəlmək istəyirdim. Hökmən səni tapmalıydım.

– Yaxşı, bir də heç vaxt belə eləmə, eşitdin? – Pit dedi. – Əgər bir də eşitsəm ki, kiməsə bıçaq çəkmisən, harda oluramsa olum, birbaş evə qayıdıb, səni o ki var kötəkləyəcəm. Eşitdin?

– Bilsəm ki, bu səni evə qaytaracaq, onda birinin boğazını gerçəkdən kəsərdim, – dedim. – Pit, – dedim, – Pit.

– Yox, – Pit dedi. İndi onun səsi o qədər də sərt, o qədər də hirsli deyildi, yumşalmışdı. Bildim ki, bundan artıq onu dəyişdirə bilməyəcəyəm. – Sən evimizə qayıtmalısan. Anamızdan

muğayat olmalısan. On akrlıq torpağımı mən sənə umud olub gedirəm. İstəyirəm ki, elə bu gün evə qayıdasan. Bu gün. Eşidirsən?

– Eşidirəm, – dedim.

– Özü təkcə evə qayıda bilərmi? – əsgər soruşdu.

– Bura ki təkbaşına gəlib, – Pit dedi.

– Özüm qayıda bilərəm, – dedim. – Yaşadığım yer iki deyil ki, dəyişik salam. İnanmıram o, indi yerini dəyişmiş ola.

Pit cibindən bir dollar çıxarıb mənə verdi.

– Bununla bizim poçt qutusunun yanınacan bilet ala bilərsən, – dedi. – İstəyirəm ki, leytenantın dediklərinə yaxşı-yaxşı qulaq asasan. O səni avtobusla yola salacaq. Evimizə qayıt, anamızdan muğayat ol, mənim tarlama da yaxşı bax, o andır bıçağını da cibindən çıxartma. Eşitdin nə dedim?

– Eşitdim, Pit, – dedim.

– Lap yaxşı, – Pit dedi. – İndi mən getməliyəm.

O, əlini yenə də başına çəkdi, ancaq bu dəfə boynumu incitmədi. Sadəcə, əlini başıma qoyub, bir dəqiqə orda saxladı. Sonra isə, əgər yalan deyirəmsə, it olum, aşağı əyilib məni öpdü. Əvvəlcə onun uzaqlaşan addımlarının, sonra qapının səsini eşitdim. O gedənəcən başımı yuxarı qaldırmadım və bununla da hər şey bitdi; lal-dinməz, əlimi Pitin öpdüyü yerə sürtə-sürtə qalmışdım, əsgərsə kreslosunun içinə sıxılıb, öskürə-öskürə pəncərədən bayıra baxırdı. Sonra əlini cibinə salıb, oradan nəsə çıxartdı, üzünü çevirmədən mənə uzatdı. Kiçik bir saqqız parçasıydı.

– Çox minnətdaram, – dedim. – Elə bilirəm ki, daha evimizə qayıda bilərəm. Yolum çox uzaqdır.

– Gözlə, – əsgər dedi. Sonra harasa telefon etdi. Mən təkrar dedim ki, getməliyəm, o da yenə: – Gözlə, – dedi. – Pitin dediyini unutma.

Oturub gözlədik. Nəhayət, içəri bir qadın girdi, o da yaşlıydı, onun da əynində xəz paltosu vardı, amma bu qadından xoş ətir iyi gəlirdi, həm də onun nə qələmi vardı, nə də bəzi şeyləri qeyd etmək istəyirdi. O içəri girəndə əsgər ayağa qalxdı, qadın cəld ətrafa göz gəzdirib, məni görən kimi yanıma gəldi, əlini çiynimə elə ehmalca, elə yumşaq qoydu ki, yalnız anam bu cür edə bilərdi.

– Gəl, – dedi. – Gedək evə, nahar eləyək.

– Lazım deyil, – dedim. – Mən Ceffersona gedən avtobusa çatmalıyam.

– Bilirəm. Hələ vaxta çox var. Biz əvvəlcə gedib nahar edəcəyik.

Onun maşını vardı. Biz də indi o biri maşınların arasındaydıq. Avtobuslar, sanki, bizim üstümüzlə gedirdilər və küçədə dolaşan adamlar o qədər yaxınımızda idilər ki, aralarında

tanıdıqlarım olsaydı, onlarla söhbət edə bilərdim. Bir az gedəndən sonra maşını saxladı. «Çatdıq», – dedi. Dönüb baxdım. Əgər bütün bunlar onun eviydisə, ailəsi çox böyük olmalıydı. Amma elə deyildi. İçərisində ağaclar bitən holldan keçdik, kiçik bir otağa girdik, burada əynində əsgərlərinkindən də xeyli parlaq forma olan zənci qulluqçudan savayı heç kim yox idi. Zənci qapını örtdü. Sonra «Bura bax!» – deyə qışqırıb divardan yapışdım, amma hər şey öz qaydasında imiş: sən demə, bu bambalaca otaq, sadəcə, yuxarı qalxırmış. Sonra dayandı, qapı açıldı, başqa bir holla düşdük. Qadın qapını açdı, içəri girdik, burada başqa bir əsgər vardı, bir az yaşlıydı, onun da kəmərinin aşırmalı qayışı, hər çiynində gümüşü rəngli quş nişanı vardı.

– Bu da biz, – qadın dedi. – Bu, polkovnik Makkelloqdur. Hə, de görüm, nə yemək istəyirsən?

– Bir az donuz əti, yumurta, bir də qəhvə, – dedim.

Qadın artıq dəstəyi qaldırıb, haraylasa danışmaq istəyirdi, onu yerə qoydu.

– Qəhvə? – dedi. – Sən haçandan qəhvə içməyə başlamısan?

– Bilmirəm, – dedim. – Məncə, lap körpəlikdən, yaddaşın nə olduğunu bilmədiyim vaxtdan.

– Səkkiz yaşın var, elə deyil?

– Yox, – dedim. – Səkkiz yaş on aylığam. İndi on birinci aya keçir.

Qadın telefonla danışdı. Sonra oturduq. Onlara Pitin Pörl-Harbora getmək üçün dünən səhər tezdən evdən necə çıxdığından, mənim də onunla getmək istədiyimdən, amma indi evə qayıdıb anamdan muğayat olmaq, Pitin on akrlıq tarlasına qulluq etmək məcburiyyətində qaldığımdan danışdım. Qadın dedi ki, onların da mən boyda balaca oğulları var, Şərq əyalətlərinin birində məktəbə gedir. Sonra əynində qısaətək pencək olan başqa bir zənci içəri girdi. Arabaya oxşar bir şeyi yanımıza sürdü, onun üstünə mənim istədiklərim – bir az donuz əti, yumurta, bir stəkan süd, bir də piroq qoyulmuşdu. Hiss elədim ki, bərk acmışam. Ancaq elə ilk tikəni ağzıma qoyanda gördüm ki, onu uda bilmirəm. Tez ayağa qalxdım.

– Getməliyəm, – dedim.

– Gözlə, – qadın dedi.

– Mən hökmən getməliyəm.

– Bir dəqiqə gözlə, – qadın yenə dedi. – Maşın üçün zəng çalmışam. İndicə gələr. Heç südünü də içmək istəmirsən? Bəlkə, sənə qəhvə gətirsinlər?

– İstəmirəm, – dedim. – Ac deyiləm. Evə çatanda yeyərəm.

Telefon zəng çaldı. Qadın ona heç cavab da vermədi.

– Gəldi, – dedi, – maşın gəldi.

O kiçik otaqla formalı zənci də yanımızda aşağı düşdük. Bu maşın iri maşın idi və sükanın arxasında əsgər əyləşmişdi. Qabaqda, onun yanında oturdum. Qadın əsgərə bir dollar verdi.

– Birdən acıb-eləyər, – dedi. – Çalışıb ona münasib bir yer taparsan.

– Oldu, missis Makkelloq, – əsgər dedi.

Yenə yola düşdük. İndi Memfisi daha yaxşı gördüm: küçələri dolaşıb şəhərdən çıxanacan o, günəşin şəfəqləri altında par-par yanırdı. Yolda ilk tanıdığım şey, səhər tezdən avtobusla gələndə gördüyüm dükan sıraları, böyük pambıqtəmizləmə və ağac emalı zavodları oldu. Memfis qurtaranacan, mənə elə gəldi ki, neçə mil yol getdik. Sonra bir daha çöllərdən və meşələrdən keçdik. Maşın çox sürətlə şütüyürdü, əgər yanımdakı əsgər olmasaydı, elə bilərdim ki, heç Memfisdə olmamışam. Çox sürətlə gedirdik. Evə çatmamış, hələ yoldaykən, əsgər sürücüsü olan bu iri maşında kəndimizə – Fransız Döngəsinə girəcəyimi fikirləşəndə birdən-birə ağlamağa başladım. Bu qəhər haçan yığılmışdı, özümün də xəbərim yox idi; heç cür kəsmək bilmirdim. Eləcə, əsgərin böyründə oturub hönkür-hönkür ağlayırdım. Maşınsa sürətlə evimizə yaxınlaşırdı.

QURAQ SENTYABR

I

Sentyabr ayında bir axşam, son altmış iki yağışsız günün doğurduğu qıpqırmızı, qanabənzər qürub çağında bu şayiəmi, xəbərmi – nə idisə – samanlığa düşən od kimi sürətlə yayıldı. Nəsə Mini Kuper və bir zənci barəsindəydi. Üstünə hücum çəkmiş, təhqir etmiş, qorxuzmuşdu: həmin şənbə axşamı bərbərxanaya toplaşanlardan heç biri həqiqətən nə baş verdiyini dəqiq bilmirdi; tavandan asılan ventilyator nə qədər bərk fırlansa da, içəridəki kəsif havanı heç cür təmizləyə bilmir, işlənmiş pomada və losyon iyi , buradakı adamların nəfəsləri və tər iyləri ilə ağırlaşan havanı təkrar-təkrar qaytarıb onların üzlərinə vururdu.

– Bu heç cür Uill Meys ola bilməz, – bərbər dedi. O, ortayaşlı, qum rəngli saçları olan mülayim sifətli arıq kişi idi və həmin anda müştərinin başını qırxırdı. – Uill Meysi mən tanıyıram. O, yaxşı zəncidir. Elə miss Mini Kuperi də tanıyıram.

– Onun barəsində nə bilirsən? – “İkinci bərbər” soruşdu.

– O kimdir? – müştəri dedi. – Cavan qızdır?

– Yox, – bərbər dedi. – Məncə, qırx yaşı olar. Ərə getməyib. Buna görə də inanmıram ki…

– Heç inanma, – tər ləkəli ipək köynəyi olan yekəpər, cavan oğlan hirslə dedi. – Bəyəm siz ağ qadını qoyub zəncilərin dediyinə inanacaqsınız?

– Mən inanmıram ki, bunu Uill Meys etmiş olsun, – bərbər dedi. – Uill Meysi tanıyıram.

– Bəlkə onda bunu kimin elədiyini də bilirsən. Bəlkə, sən, zənci məftunu əclaf, onu artıq şəhərdən də çıxarmısan?

– Mən, ümumiyyətlə, kiminsə kiməsə nəsə elədiyinə inanmıram. İnanmıram ki, belə bir hadisə olub. Bir özünüz fikirləşin, uşaqlar: bəyəm elə olmurmu ki, ərsiz qarıyan qadınlar birdən elə şeylər uydururlar ki, kişilər…

– Lənətə gələsiniz, onda siz necə ağ adamsınız?! – müştəri dedi. O hətta üstünə salınmış ağın altında qurcalandı da. Cavan oğlan isə sıçrayıb yerindən qalxdı.

– Necə? – qeyzlə dedi. – Siz ağ qadını yalan danışmaqda günahlandırırsınız?

Bərbər əlindəki ülgücü yerindən qalxmaq istəyən müştərinin başı üstə qətiyyətsiz halda tutub durmuşdu. Ətrafına baxmırdı.

– Hamısı bu andır havadandır, – ikinci bərbər dedi. – Adamı nəyə desən şirniklendirər. Hətta o qadına da.

Heç kəs gülmədi. Bərbər öz mülayim, inadkar səsi ilə bir də dedi:

– Mən heç kimi heç nədə günahlandırmıram. Sadəcə, onu bilirəm ki... elə siz özünüz də, uşaqlar, yaxşı bilirsiz ki, bu cür qadınlar…

– Zənci məftunu, əclaf ! – cavan oğlan hirslə qışqırdı.

– Kəs səsini, Batç, – o birisi dedi. – Əvvəlcə bütün faktları araşdırmaq lazımdı, işə keçməyə isə vaxtımız çoxdur.

– Kimə? Kimə lazımdı o faktlar? – cavan oğlan dedi. – Cəhənnəm olsun onlar! Mən…

– Görürəm, sən ağ kişisən, – müştəri dedi. – Elə deyil? – O, çənəsi sabunlu halda kinolardakı səhra fərarilərinə oxşayırdı. – Sıx, sıxışdır onları, dost, – o, cavan oğlana dedi. – Əgər bu şəhərdə səndən başqa ağ kişi yoxsa, mənə güvənə bilərsən, baxma ki buralı deyiləm, adi bir kommivoyajörəm.

– Bax bunu düz deyirsiniz, uşaqlar, – bərbər dedi. – Əvvəlcə faktları araşdırın, həqiqəti öyrənin. Uill Meysi mən tanıyıram.

– Aman Allah! – cavan oğlan qışqırdı. – Heç bilməzdim ki, bizim şəhərdə ağ adam…

– Yum ağzını, Batç, – o birisi dedi. – Hələ xeyli vaxtımız var.

Müştəri oturduğu yerdə dikəldi. Danışanın üzünə baxdı.

– Yəni deyirsiniz ki, ağ qadına təcavüz edən zənciyə nəsə bəraət qazandıra bilər? İndi deyəcəksiniz ki, siz də ağ adamsınız və dediklərinizə görə məsuliyyət daşıyırsınız? Yaxşısı budur, rədd olub Şimala, gəldiyiniz yerə qayıdın. Cənubda sizin kimilərə yer yoxdur.

– Nə Şimal? – İkinci dedi. – Mən burda doğulmuşam, bu şəhərdə böyümüşəm.

– Aman allah! – Cavan oğlan yenə deyindi. O, gərgin və çaşqın baxışlarla ətrafı elə diqqətlə süzdü ki, sanki, nə deyəcəyini və yaxud nə edəcəyini xatırlamağa çalışırdı. Qolu ilə tərli sifətini sildi. – Lənətə gəlim, əgər imkan versəm ki, ağ qadını…

– Göstər onlara dostum, – kommivoyajör dedi. – Allah haqqı, əgər onlar…

Şəbəkəli qapı şıqqıltı ilə açıldı. Qapıda iri cüssəli bir adam dayanmışdı, ayaqlarını bir az aralamışdı; onun özünə güvənən, sərbəst duruşu vardı. Ağ köynəyinin yaxası açıq idi, başına fetr şlyapa qoymuşdu. Həyəcanlı və kobud baxışlarla içəridəkiləri süzdü. Adı Maklendon idi. Bir vaxtlar Fransa cəbhəsində əsgərlərə komandirlik etmişdi və qəhrəmanlığına görə təltif olunmuşdu.

– Nədi, – dedi, – siz burda oturub gözləyəcəksiniz ki, hansısa bir qara zənci Ceffersonun küçələrində ağ qadını zorlasın?

Batç yenidən yerindən sıçrayıb qalxdı. Köynəyinin ipəyi onun enli kürəklərinə kimkip yapışmışdı. Hər qoltuğunun altında ayparayaoxşar qara ləkə görünürdü.

– Mən də bayaqdan onlara elə bunu deyirəm! – Mən də elə…

– Doğrudan, elə bir şey olub? – üçüncü soruşdu. – Hokşounun da dediyi kimi, axı birinci dəfə deyil ki, o qadının gözünə kişi görünür. Bəyəm bir dəfə də belə olmamışdımı; guya, hansısa bir kişi mətbəxin damından onun necə soyunduğuna tamaşa edirmiş. Bir il olar hə, bu şayiə yayılmışdı?

– Nə? – müştəri dilləndi. – Necə olub?

Bərbər ehmalca onu basıb kresloya oturtmaq istədi, o isə müqavimət göstərirdi, kresloya yayxanıb başını dik tutmuşdu, bərbər yenə də onu aşağı basıb yerində oturtmağa çalışdı. Maklendon üçüncü danışanın üstünə düşdü.

– Doğrudanmı olub, deyirsən? Guya, bunun fərqi nəymiş? Bəyəm sən burda oturub gözləyəcəksən ki, o qara əclafların hansısa, həqiqətən, belə bir iş görsün?

– Mən də bayaqdan onlara elə bunu deyirəm, – Batç qışqırdı və ardınca birnəfəsə uzun, ünvansız bir söyüş söydü.

– Yaxşı, yaxşı, – dördüncü dedi. – Bu qədər bərkdən danışmayın.

– Elədir, – Maklendon dedi. – Ümumiyyətlə, danışmaq lazım deyil. Mən özüm də çox uzatdım. Kim mənimlə gedir? – o, dabanlarını qaldırıb, diqqətlə içəridəkilərin üzünə baxdı.

Bərbər kommivoyajorün başından aşağı basıb ülgücü əlində hazır tutmuşdu.

– Uşaqlar, əvvəlcə hər şeyi aydınlaşdırmaq lazımdır. Mən Uill Meysi tanıyıram. Bu o deyil. Gəlin şerifi çağıraq, hər şey qaydasında olsun.

Maklendon qəzəbli, sərt baxışlarla onu süzdü. Bərbər gözlərini də qırpmadı. Sanki, müxtəlif irqə mənsub adamlar idilər. O biri bərbərlər də öz müştərilərinin başı üstə donub qalmışdılar.

– Sən indi demək istəyirsən ki, – Maklendon dedi, – zəncinin sözünə ağ qadınınkından çox inanırsan? Deməli, sən zənci məftunu, əclaf…

Üçüncü danışan yerindən sıçrayıb Maklendonun qolundan yapışdı; o da vaxtilə müharibədə olmuşdu.

– Sakit, sakit olun. Gəlin bu mübahisəni birdəfəlik aydınlaşdıraq. Həqiqətən nə baş verdiyi haqda kim dəqiq bir şey bilir?

– Cəhənnəm olsun aydınlaşdırmaq-zad, – Maklendon dartıb qolunu onun əlindən çıxartdı. – Kim mənimlədir, qalxsın gedək! Getməyənlərsə … – O, qolu ilə üzünü var gücü ilə silərək, diqqətlə bir-bir oturanların üzünə baxdı.

Üçü qalxdı. Kommivoyajör də kreslosunda dikəldi.

– Bura bax, – boynundakı ağı açaraq dedi: – Bu əsgini üstümdən götür. Mən də onlarla gedirəm. Burda yaşamasam da Allaha and olsun, analarımızın, arvadlarımızın və bacılarımızın… – O, əlindəki ağla sabunlu sifətini silib, onu yerə atdı. Maklendon qapının ağzında dayanıb,

qalanları lənətləyirdi. Bir nəfər də qalxıb ona sarı getdi. Yerdə qalanlar, sanki, tikan üstündə oturmuşdular, bir-birinin üzünə baxmağa cəsarət etmirdilər. Sonra bir-bir qalxıb Maklendona qoşuldular.

Bərbər ağı yerdən qaldırdı. Onu səliqəylə bükməyə başladı.

– Uşaqlar, bunu eləməyin. Uill Meys heç vaxt belə iş tutmaz. Mən bilirəm.

– Getdik, – Maklendon dedi. Dabanları üstə geri döndü. Şalvarının arxa cibində ağır avtomatik tapançanın dəstəyi göründü. Bayıra çıxdılar. Şəbəkəli qapı onların arxasınca örtülərkən onun şaqqıltısı ölü havada bir müddət əks-səda verdi.

Bərbər cəld və səliqə ilə ülgücü silib təmizlədi, onu yerinə qoydu, arxa otağa qaçıb, şlyapasını divardan götürdü.

– Çalışacam tez qayıdım, – o biri bərbərlərə dedi. – Mən imkan verə bilmərəm ki…

Qaça-qaça otaqdan çıxdı. Digər iki bərbər onun ardınca qapıyacan gəldi; o örtülməmiş qapıdan başlarını bayıra çıxardılar, onun arxasınca küçəyə baxdılar. Hava boğuq və ölü kimiydi. Hardasa adamın dilinin tən ortasında metal tamı verirdi.

– O nə edə bilər ki? – birinci bərbər dedi. İkinci bərbərsə pıçıltıyla tez-tez təkrar edirdi: «Aman Allah, sən özün kömək ol». – Məncə, Maklendon özündən çıxandan sonra istər Uill Meys ol, istərsə də Pink, dəxli yoxdur.

– Aman allah! Sən özün kömək ol, – ikinci bərbər pıçıldadı.

– Sən bilən, o, doğrudanmı, bu qadına bir şey eləyib? – birinci bərbər dedi.

II

Bu qadının otuz səkkiz, ya da otuz doqquz yaşı olardı. Ağacdan tikilmiş kiçik bir evdə şikəst anası və arıq, solğun bənizli, amma çox qıvraq xalası ilə birlikdə yaşayırdı. Hər gün səhər saat onla on bir arasında başında torla işlənmiş gecə ləçəyi artırmaya çıxar, burada yırğalanan kresloda oturub günortaya qədər yellənərdi. Nahardan sonra istilər səngiyənə qədər gedib bir müddət uzanırdı. Sonra evdəki üç-dörd yüngül paltarından – bu paltar dəstini hər yay təzələyirdi – birini geyinib şəhərin mərkəzinə yollanar, digər xanımlarla birlikdə axşama qədər mağazaları gəzərdi; onlar malları əllərinə alıb yoxlayar və nəsə alacaqlarına heç bir ümid vermədən satıcılarla qiymət üstə soyuq, ötkəm səslə öcəşərdilər.

Ceffersonda ən varlı olmasa da, imkanlı ailədən çıxmışdı, yaxşı qohum-əqrəbası vardı. Özü isə hələ də müəyyən qədər gözəgəlimli qədd-qamətə, geyindiyi paltarları kimi şux, amma seziləcək qədər iztirablı rəftara malik idi. Gəncliyində yaraşıqlı, tarım qədd-qaməti, bir növ, kobud, yonulmamış şıltaqlığı vardı və bunların sayəsində bir müddət – həmyaşıdları uşaqlıqla

vidalaşana və aralarındakı sosial fərqi dərk edən yaşa çatana qədər – şəhərin kübar həyatında (bu həyat onun üçün məktəbdə keçirilən axşam şənlikləri və kilsədəki ibadət saatları ilə məhdudlaşırdı) hamıdan üstün mövqeyə malik olmuşdu.

Ayağının altında yerin qaçdığını, daha şux və daha dilavərliyi ilə seçildiyi həmyaşıdlarının ona artıq başqa gözlə baxmağa başladığını – oğlanların ondan yalnız əyləncə üçün istifadə etməyə, qızların isə onu kinli ironiya ilə sancmağa çalışdığını – özü hamıdan gec hiss etmişdi. Məhz həmin andan sifətinə o cür iztirablı ifadə verməyə başlamışdı. O, bu ifadəni, maska və ya bayraq kimi, hələ də iştirak etdiyi axşam şənlikləri və qonaqlıqlarda – istər öz evinin artırmasında, istərsə də yay günləri açıq çəmənlikdə olsun – həmişə özüylə gəzdirərdi və həmin anlarda bu aşkar həqiqəti heç cür qəbul etmək istəməməyinin nəticəsi kimi gözlərinə çaşqın, təəccüblü ifadə çökərdi. Bir axşam belə qonaqlıqların birində keçmiş məktəb yoldaşlarının – iki qızla bir oğlanın onun haqqında nə danışdıqlarını öz qulaqları ilə eşitdi və ondan sonra bir daha heç kəsi qonaqlığa dəvət etmədi.

Bir yerdə böyüdükləri, həmyaşıdı olan qızlar onun gözü önündə bir-bir ərə getdilər, oğul-uşaq, ev-eşik sahibi oldular. Amma hələ də heç kəs onunla ciddi surətdə maraqlanmamışdı. Həmyaşıdlarının uşaqları artıq bir neçə il idi onu xala deyə çağırırdılar, anaları onlara şən, istehzalı bir dillə Mini xalanın gəncliyində necə gözəl olduğundan, bütün oğlanların ona necə pərəstiş etdiklərindən danışırdılar. Sonra bütün şəhər onun bankda işləyən bir kassirlə bazar axşamları maşında gəzdiyinin şahidi oldu. O, təqribən qırx yaşında, qırmızısifət dul kişi idi və üstündən həmişə ya bərbərxana, ya da spirt iyi gəlirdi. Şəhərdə ilk dəfə o, maşın almışdı: qırmızı, balaca bir minik maşını idi. Minnininki isə o vaxtadək şəhərdə görünməmiş, məxsusi gəzinti üçün nəzərdə tutulan pərdəsi və çətiri olan bir maşın idi. Bəziləri «Yazıq Mini!» deyə onun halına acımağa başladılar, bəziləri isə: «Nolsun, uşaq-zad deyil ki, özü-özündən muğayat ola bilər» dedilər. Məhz o gündən Mini sinif yoldaşlarına bərk-bərk tapşırmağa başladı ki, onların övladları onu «xala» deyil, «xalaqızı» deyə çağırsınlar.

Artıq indi, ictimai rəyin onu «pozğunlar» cərgəsinə aid etdiyi vaxtdan on iki, kassirin isə iş yerini dəyişib Memfisə köçdüyü gündən səkkiz il keçir; indi o, bu şəhərə ildə bir dəfə – Milad bayramında gəlir və bu bayramı çay kənarındakı ovçular klubunda özü kimi subaylarla bir yerdə keçirirdi. Qonşuluqda yaşayanlar pərdələri aralayıb bu ziyafətə tamaşa edər, sonra bayramını təbrik etmək üçün Minnigilə gələrkən ona kassirin hələ də çox yaraşıqlı qaldığından, deyilənlərə görə böyük şəhərdə böyük var-dövlət qazandığından danışar və bu zaman onun yarışən, yarıiztirablı sifətinin nə hala düşdüyünə bic-bic xəlvəti baxışlarla göz qoyardılar. Adətən, bu saatlarda onun nəfəsindən artıq viski iyi gələrdi. Viskini ona sodalı su satıcısı, cavan bir oğlan tapıb gətirirdi: «Aydın məsələdir, məxsusən o qarımış qız üçün saxlayıram. Axı o bədbəxtin də nəsə bir sevinci olmalıdır».

İndi anası öz otağından kənara çıxa bilmirdi, evi arıq xalası idarə edirdi. Belə bir şəraitdə Mininin cavan qız kimi parlaq, yüngül fasonlu paltar geyinməyi, günlərini boş-boşuna, işsiz-gücsüz keçirməyi həddən ziyadə qeyri-real bir şey kimi görünürdü. Artıq o, axşamlar bayıra çıxanda yalnız bir yerə – kinoya gedirdi; özü də ancaq qonşu qadınlarla. Axşamçağları isə təzə paltarlarından geyinib tək-tənha şəhərin mərkəzinə gəzməyə çıxırdı; burada axşamüstünün qələbəliyində onun zərif, ipək kimi saçları, incə, titrək əlləri və oynaq yanbızları olan yeniyetmə «xalası qızları» bir-birinə sarmaşa-sarmaşa və yaxud bərkdən qəhqəhə ilə gülə-gülə, sodalı su köşklərinin önündə toplaşan oğlanlara sataşa-sataşa gəzişərdilər. İndi uzun sıra ilə cərgələnmiş vitrinlərin yanından keçəndə qapıların ağzında oturan və ya kefli halda səndələyə-səndələyə yanından ötən kişilərin heç biri daha onun dalınca da baxmırdı.

III

Bərbər küçəylə sürətlə addımlayırdı; arabir rast gəlinən küçə fənərlərinin başına o qədər cücü yığışmışdı ki, onlar ağır bürkülü havada, sanki, qeyzlənmiş kimi zorla işıq saçırdılar. Gün artıq ölmüş, toz kəfəninə bürünmüşdü; yorğun toz yorğanını üstünə çəkən meydanda hava qaralsa da, səma kilsə zənginin iç tərəfinin misi kimi açıq idi. Onun şərq qurtaracağında ay yavaş-yavaş doğmağa başlayırdı.

Bərbər onlara çatanda Maklendon və digər üç nəfər tində dayanan maşına minirdilər. Maklendon yorğun boynunu yana əyib, maşının üstündən aşağı baxdı.

– Fikrini dəyişdin? – dedi. – Çox yaxşı elədin. Allah haqqı, sabah camaat sənin bu axşam nə danışdığından xəbər tutsaydı…

– Yaxşı, yaxşı, – o biri müharibə iştirakçısı dedi. – Hokşou heç də pis oğlan deyil. Ey, Pink, gəl, atıl maşına.

– Uill Meys heç vaxt belə şey eləməz, uşaqlar, – bərbər dedi. – Belə bir şey olubsa da, onu başqası eləyib; özünüz məndən yaxşı bilirsiniz ki, bizim şəhərdəki zəncilər qədər heç yerdə yaxşısı yoxdur. Onu da bilirsiniz ki, qadınlar kişilər haqqında istədikləri şeyi uydura bilərlər, o ki qaldı miss Minni ola…

– Elədir, elədir, – müharibə iştirakçısı dedi. – Biz, sadəcə, onunla bir azca söhbət eləmək istəyirik, vəssalam.

– Söhbət nədi? – Batç dedi. – Biz o əclafı…

– Sus, sən Allah! – müharibə iştirakçısı dedi. – İstəyirsən ki, bütün şəhər…

– Qoy bilsinlər, – Maklendon dedi. – Qoy o oğraşların hamısı bilsin, gözlərinin qabağında ağ qadına…

– Getdik, getdik. O biri maşın da gəldi.

İkinci maşın toz qaldıra-qaldıra vıyıltıyla tindən çıxdı. Maklendon maşını işə saldı, o, sürətlə yerindən götürüldü. Toz dumanı küçəni bürüdü. Haləyə bürünmüş küçə fənərləri, sanki, su altından işıq saçırdılar. Maşınlar şəhərdən çıxdılar. Çala-çuxur, ensiz yol tez-tez sağa-sola dönürdü. Hər yerdə olduğu kimi, bu yolun da üzərində qatı toz dumanı asılıb qalmışdı. Süni buz zavodunun qara silueti, – zənci Meys burada gözətçi işləyirdi, – qarşıda göyə ucalmışdı.

– Bəlkə, burada saxlayaq, – müharibə iştirakçısı dedi. Maklendon dinmədi. Maşını bir az da irəli sıçradıb saxladı; onun fənərlərinin işığı birbaşa enli, hündür divarların üstünə düşdü.

– Qulaq asın, uşaqlar, – bərbər dedi, – əgər o burdadırsa, bu, onun günahsız olduğunu sübut etmirmi? Elə deyil? Əgər o bunu eləmiş olsaydı, qaçıb aradan çıxardı. Bunu başa düşməyə nə var? – İkinci maşın da gəlib onlara çatdı. Maklendon ondan düşdü. Batç da yerə sıçrayıb, onun yanında dayandı. – Qulaq asın, uşaqlar, – bərbər bir də dedi.

– İşıqları söndürün! – Maklendon əmr etdi. Ətrafı zülmət qaranlıq bürüdü. İki aydır içində yaşadıqları tozlu-torpaqlı havanı udarkən ciyərlərinin çıxardığı səslər nəzərə alınmazsa, heç kəsin cınqırı belə çıxmırdı. Sonra Maklendonla Batçın uzaqlaşan addımlarının xışıltısı, bir dəqiqə sonra isə Maklendonun səsi eşidildi:

– Uill!.. Uill!..

Səmanın şərq qurtaracağında ayın xəstəhal qançırı getdikcə daha çox şişirdi. O, dağların arasından qalxaraq havanı və havadakı tozu elə parlaq, elə gümüşü rəngə bürümüşdü ki, bu gecə buraya gələn adamlar, sanki, ərimiş qurğuşuna bələnmişdilər, onunla nəfəs alırdılar. Gecəquşular da, böcəklər də susmuşdu; öz nəfəslərindən və bir də motorlarda soyumaqda olan metaldan çıxan tıqqıltıdan savayı heç nə eşidilmirdi. Onların bədənləri bir-birinə toxunanda həmin yerləri, sanki, quru tər basırdı: heç bir nəmlik hiss olunmurdu.

– Aman Allah! – kiminsə səsi eşidildi. – Gəlin burdan çıxıb gedək.

Ancaq qaranlıqda bir az irəlidə getdikcə güclənən zəif səs-küy eşidilməyənəcən heç kəs yerindən tərpənmədi; onlar maşından düşdülər və zülmət qaranlıqda gərgin intizar içində durub gözləməyə başladılar. Daha bir səs eşidildi: kimsə nəyəsə bir zərbə vurdu, kimsə fısıltıyla ağır nəfəs aldı; Maklendon dodağının altında kimisə söydü. Onlar bir qədər də gözləyib, sonra irəli qaçdılar. Bir-birinə dolaşa-dolaşa, bir-birini itələyə-itələyə elə hövlnak qaçırdılar ki, sanki, nədənsə qurtulmaq istəyirdilər.

– Öldürmək lazımdır, öldürmək lazımdı bu alçağı, – kimsə pıçıldadı. Maklendon onları geriyə itələdi.

– Burda olmaz, – dedi. – Mindirin maşına.

– Öldürmək lazımdı, öldürmək lazımdı bu qara əclafı, – bayaqkı səs yenə pıçıldadı.

Zəncini maşının yanına sürüdülər. Bərbər onları burada gözləyirdi. Hiss elədi ki, onu tamam tər basıb, bir az da keçsə, qusacaq.

– Nə olub, ağalar, – zənci dedi. – Mən heç nə eləməmişəm. Allaha and olsun, mister Con!

Kimsə qandal çıxardı. Hamısı birdən zəncinin üstünə cumdu, sanki, o, dirək kimi hissiyyatsız, cansız əşya idi; lal-dinməz, bir-birinə mane ola-ola onu qandallamağa çalışdılar. Zənci qandallanmağına müqavimət göstərmədi, ancaq əndişəli, ürkək baxışları sürətlə bir-bir onların sifətlərində dolaşdı.

– Axı siz kimsiniz, ağalar? – dedi. Əyilib onların sifətlərinə baxdı; o qədər yaxın əyləşmişdi ki, onlar onun necə nəfəs aldığını, bədənindəki tərin kəskin iyini aydın duydular. O, bir-iki ad da çəkdi. – Axı, sizcə, mən neyləmişəm, mister Con?

Maklendon maşının qapısını açdı:

– Min! – dedi.

Zənci yerindən tərpənmədi.

– Siz neyləmək istəyirsiniz, mister Con? Mən heç nə eləməmişəm. Ay ağ adamlar, ay ağalar, Allaha and olsun ki, heç nə eləməmişəm. – Daha bir nəfərin adını çəkdi.

– Min maşına! – Maklendon dedi. Onu vurdu. O biriləri də quru fısıltıyla nəfəs ala-ala zəncinin harasına gəldi vurmağa başladılar. O isə yerində fırlana-fırlana, onlara söyüş yağdırır, qandallı əllərini hara gəldi qolaylayırdı. Zərbələrindən biri bərbərin ağzından tutdu, bərbər də qayıdıb onu vurdu.

– Gətirin onu bura, – Maklendon dedi. Zəncinin üstünə cumdular. O daha müqavimət göstərmədi, maşına mindi, sakitcə oturub, qalanlarının da maşında yerbəyer olmasını gözlədi. O, bərbərlə müharibə iştirakçısının arasında oturmuşdu, dirsəklərini, dizlərini qarnına sıxıb elə qısılmışdı ki, heç kəsə toxunmurdu; əndişəli, ürkək baxışları sürətlə bir-bir onların sifətlərində dolaşırdı. Maşın tərpəndi. Bərbər dəsmalını əzilən ağzının üstünə qoydu.

– Nə olub, Hok? – müharibə iştirakçısı soruşdu.

– Heç nə, – bərbər dedi. Onlar təzədən böyük yola çıxdılar və şəhərdən əks istiqamətə üz tutdular. Toza batmamaq üçün ikinci maşın bir az geridə qaldı. Getdikcə sürəti artırdılar, şəhər ətrafının son evləri xeyli geridə qaldı.

– Lənətə gəlmiş, gör nə pis iy verir, – müharibə iştirakçısı dedi.

– Bunu ləğv edərik, – qabaqda, Maklendonun yanında oturan kommivoyajör dedi. Pilləkəndə dayanan Batç üzünü isti hava axınına tutub söyüş söydü. Bərbər birdən qabağa əyilib, Maklendonun qoluna toxundu.

– Saxla, mən düşüm, Con, – dedi.

– Düşmək istəyirsən, elə-belə tullan, zənci məftunu, əclaf, – Maklendon başını geriyə döndərmədən dedi. O, maşını sürətlə sürürdü. Arxada toz dumanı içərisində ikinci maşının fənərləri, sanki, gövdədən ayrılıb öz-özlüyündə yanırdı. Tezliklə Maklendon maşını döndərib kiçik nahamar yola saldı. Bu, baxımsız, azişlənən bir yol idi, hər yanı çala-çuxurla doluydu və artıq xarabazara çevrilmiş köhnə kərpiç zavoduna – qırmızı gil tullantılarından əmələ gələn təpələrin və ətrafını ot-ələf, sarmaşıq basmış dibsiz çənlərin yanına gedirdi. Bir vaxtlar buradan otlaq kimi istifadə edirdilər, lakin bir dəfə yiyəsi qatırını itirəndən sonra bu işdən əl çəkdi. Çünki o, uzun bir şüvüllə çənlərin içini nə qədər cidd -cəhdlə axtarsa da, nəinki qatırını, hətta o çənlərin dibini belə tapa bilmədi.

– Con, – bərbər dedi.

– Getmək istəmirsən, tullan, – Maklendon maşını çala-çuxurdan atlandıra-atlandıra dedi. Bərbərin yanında oturan zəncinin səsi eşidildi:

– Mister Henri.

Bərbər qabağa əyildi. Qaranlıqda yol ensiz tunel kimi, sanki, üstlərinə gəldi və ötüb-keçdi. Onlar qaynaq, amma tamamilə ölgün bir ocağa üfürülən hava kimi irəlilayirdilər. Maşın bir çuxurdan o birinə atlanırdı.

– Mister Henri, – zənci dedi.

Bərbər qəzəblə qapını dartışdırıb açmağa çalışdı.

– Ey, ehtiyatlı ol, – deyə müharibə iştirakçısı ona mane olmaq istəyirdi ki, təpiklə vurub qapını açdı, ayağını pilləkənə qoydu. Müharibə iştirakçısı zəncinin üstündən əl atıb onu tutmağa çalışanda isə özünü yerə atdı. Maşın sürətini azaltmadan yoluna davam etdi.

O, yerə dəyərkən aldığı təkandan yuvarlanaraq toz-torpaq basmış otları əzə-əzə dığırlanıb arxa düşdü. Ətrafını toz dumanı bürüdü. Qurumuş ot zoğlarının iyrənc xışıltısı arasında, nəfəsi kəsilmiş halda, qusmaqdan özünü zorla saxlayaraq, ikinci maşın gəlib ötüşənə və onun səsi xeyli uzaqda itənəcən oradaca uzanıb qaldı. Sonra qalxıb axsaya-axsaya yoluna davam elədi; böyük yola çatanda isə əlləri ilə üst-başını çırpa-çırpa şəhərə tərəf döndü. Ay artıq lap yuxarı qalxmışdı. Nəhayət ki, toz-torpaqdan silkinib, səmanın ən uca, ən təmiz yerində qərar tutmuşdu. Bir müddət sonra isə toz dumanı arasından şəhərin zəif işıqları göründü. O, axsaya-axsaya yoluna davam etdi. Tezliklə maşınların səsini eşitdi və onun arxasınca toz dumanında fənərlərin getdikcə güclənən işartıları göründü; bərbər yoldan çıxdı, tozlu otların arasında yerə sinib maşınlar ötüb-keçənəcən gözlədi. İndi Maklendonun maşını arxadan gəlirdi. Onun içərisində dörd adam vardı və Batç da artıq pilləkəndə durmamışdı.

Onlar ötüb-keçdilər: toz dumanı onları uddu; işartılar və səslər itib yox oldu. Qaldırdıqları toz dumanı isə hələ bir müddət havadan asılı qaldı, ancaq tezliklə əbədi toz dumanı onu da uddu. Bərbər yenidən yola çıxıb, axsaya-axsaya şəhərə tərəf addımladı.

IV

Bazar günü axşam şam yeməyi üçün geyinərkən hiss elədi ki, bədəni qızdırmadan od tutub yanır. Paltarının qarmaqlarını ilgəyə keçirmək istəyən əlləri tir-tir titrəyirdi, gözləri də qızdırmalı görkəm almışdı, saçları isə pırtlaşmışdı: daraq vuran kimi qırılıb tökülürdü. Rəfiqələri yanına gələndə o, hələ geyinirdi; buna görə onlar oturub, o ən zərif köynəyini, nəmnazik corablarını və təptəzə yarı şəffaf donunu geyinənəcən gözlədilər.

– Sən özünü bayıra çıxacaq qədər gümrah hiss etdiyinə əminsənmi? – deyə onlar soruşdular. Onların şən, parlaq baxışlarında qara işartılar sezilirdi.

– Özünə gələndən, şokdan qurtulandan sonra başına nə gəldiyini hökmən bizə danışarsan. O, sənə nə dedi, nə elədi, hamısını.

Onlar ağacların qalın kölgəsi altında şəhər meydanına tərəf addımlayanda Mini birdən suya atılmağa hazırlaşan üzgüçü kimi tez-tez nəfəs almağa başladı və bədəninin titrəməsi yavaş-yavaş səngidi; dördü də hava hədsiz isti olduğuna görə və Minniyə rahat olsun deyə yavaş-yavaş yeriyirdi. Ancaq meydana çataçatda onu yenə titrəmə tutdu; başını dimdik tutaraq, əllərini düyünləyib yanına salmış halda zorla addımlayırdı; rəfiqələrinin gözlərindəki işartılar kimi qızdırmalı səs-küyü dalğa-dalğa beynində cingildəyirdi.

Meydana daxil oldular rəfiqələrinin tən ortasında şəstlə addımlayarkən ilk dəfə geyindiyi təzə paltarda xeyli kövrək, xeyli zərif görünürdü. Titrəməsi getdikcə daha da şiddətlənirdi. Dondurma yeyən körpə uşaqlar kimi getdikcə addımlarını yavaşıtdı, başını dik tutub, sifətindəki iztirablı ifadəyə rəğmən şən parıltılı baxışlarla mehmanxanaların, birbaş səkilərə çıxarılmış kreslolarda əyləşən pencəksiz kommivoyajerlərin yanından şəstlə ötüb-keçdi, oturanların hamısı ona baxdı. «Odur, onu görürsən? Bax o, çəhrayı paltarda, ortada gedəni deyirəm» – «Onu? Bəs zəncini neylədilər? Onu?…» – «Əlbəttə. Onu rahatladılar». – «Rahatladılar, deyirsən?» – «Əlbəttə. Bir balaca səfərə yola saldılar». Sonra aptekin qabağından keçəndə, burada qapının ağzında toplaşan cavanlar hətta şlyapalarını çıxartdılar, o ötüb-keçənə qədər onun baldırlarının yanbızlarının necə titrədiyindən gözlərini çəkə bilmədilər.

Rəfiqələr yollarına davam etdilər; yol boyu onu görən kimi nisbətən yaşlı, mötəbər qiyafəli kişilər də şlyapalarını başlarından götürürdülər, hay-küylə danışanlar dərhal səslərini qısıb, hörmətlə, ehtiramla danışmağa başladılar.

– Görürsənmi? – rəfiqələri ona dedilər. Onların səsləri elə uzun, elə fısıltılı çıxdı ki, sanki, təntənəli bir mərasimdə fit çalmaq üçün ovurdlarını qabaqcadan doldurmuşdular. – Meydanda bir dənə də zənci yoxdur. Bir dənə də.

Kinoteatra çatdılar. Bu bina həyatın ən qorxunc və ən gözəl anlarının bir-birini əvəzlədiyini özündə əks etdirən rəngli litoqrafiyalarla bəzədilmiş işıqlı vestibülü ilə birlikdə,

sanki, sehrli bir aləmin miniatürü idi. Burda onun dodaqları qaçmağa başladı. Qaranlıqda, kino başlayanda, hər şey qaydasında olacaq, o özünü saxlamalı, bu gülüşü tez, boş yerə sərf eləyib qurtarmamaldır. Buna görə dərhal – başlar ona tərəf dönməmiş, insan marağının doğurduğu pıçıltılar hələ başlamamış-zala tələsdi; rəfiqələri keçib həmişə oturduqları yerdə oturdular; burdan gümüşü şüaların işığında cərgələrin arasından qol-qola ötüb-keçən cavan oğlan və qızlara tamaşa eləmək onlar üçün çox asan idi.

İşıqlar söndü, ekran gümüşü rəngli işığa büründü və gözəl, məşəqqətli, qəmli həyat öz axarına başladı. Cavan oğlan və qızlar hələ də cüt-cüt zala girməkdə idilər; yarıqaranlıqda onların xışıltısı və xoş rayihəsi ətrafa yayılırdı; ikiləşən kürəklərinin cizgiləri son dərəcə zərif, cazibədar görkəm alırdı; çevik bədənləri bir az yöndəmsiz olsa da, əsrarəngiz dərəcədə cavan və təravətli idilər. Onlardan arxada, ekranda isə gümüşü rəngli röyalar durmadan, aramsız axıb gedirdi. O gülməyə başladı. Bu gülüşü boğmağa, susdurmağa çalışdı, amma bacarmadı, qəhqəhələri daha da şiddətləndi; hamı çevrilib ona baxmağa başladı. Rəfiqələri kömək edib onu yerindən qaldırdılar – hələ də susmaq bilmirdi – bayıra çıxardılar. Ucadan, zil səslə qəhqəhə çəkə-çəkə səkinin kənarında dayandı. Nəhayət, taksi gəldi, onu maşına mindirdilər.

Rəfiqələri onun əynindəki çəhrayı donu, zərif köynəyi və nazik corabları çıxardılar, yatağa uzatdılar, gicgahlarına qoymaq üçün buz doğradılar, həkim arxasınca adam göndərdilər. Onu yerində tapmaq mümkün olmadığı üçün özləri heyrətlə pıçıldaşa-pıçıldaşa ona yardım göstərməyə başladılar: buzu tez-tez dəyişib, üzünü yelpiklədilər. Buz hələ soyuq olduğuna və yaxşı sərinlətdiyinə görə o, gülməyini kəsdi, bir müddət sakitləşdi, yalnız hərdənbir azacıq inildədi. Ancaq tezliklə onu yenidən gülmək tutdu və səsi aləmi başına götürdü.

– Sıssssss! Sıssssss! – deyə tez-tez buz kisəciklərini dəyişməyə başladılar, saçlarını darayıb qaydasına saldılar, onlara dən düşüb-düşmədiyini yoxladılar.

– Yazıq qız, – biri dedi. Arxasınca o birisi dilləndi: – Sən bilən, doğrudanmı, belə bir şey olub? – və onların qəzəbli, mübhəm gözlərində qara, istehzalı işartılar göründü. – Sıssssss! Yazıq qız! Yazıq Minni!

V

Maklendon maşını öz təzə evinin qabağında saxlayanda artıq gecəyarısı idi. Bu ev quş qəfəsi kimi səliqəli, yaraşıqlı, eyni zamanda o qədər də xırda, kiçik bir ev idi, ağ və yaşıl rənglə rənglənmişdi. O, maşının qapısını bağladı, artırmaya çıxıb, evə girdi. Arvadı torşerin böyründəki kreslodan qalxdı. Maklendon qapıda dayanıb diqqətlə onun üzünə baxdı, qadın onun nəzərlərinə tab gətirməyib, gözlərini yerə dikdi.

– Saata bax, – Maklendon divar saatını göstərərək dedi. Qadın əlində jurnal, başını aşağı salıb onun qarşısında durmuşdu. Solğun sifətində gərgin və xəstəhal ifadə vardı. – Sənə deməmişəm ki, gecələr burda oturub, mənim haçan gəldiyimi güdmə?

– Con, – arvadı dedi. Əlindəki jurnalı kənara qoydu. Maklendon ayaqlarının ucları üstə dikəlib, qızmış baxışları ilə onu tərs-tərs süzdü; sifətindən tər axırdı.

– Bəyəm sənə deməmişəm? – o, arvadının üstünə yeridi. Qadın başını qaldırdı. Maklendon onun çiyinlərindən yapışdı. Arvadı lal-dinməz dayanıb onun gözlərinin içinə baxırdı.

– Eləmə, Con. Yata bilmirəm… Çox istidir, bir də ki… Yaxşı, Con. Ağrıyır axı.

– Bəyəm sənə deməmişəm? – o, arvadını buraxdı, onu yarı vurub, yarı itələyib kresloya yıxdı; qadın yıxıldığı yerdən tərpənmədən dinməzcə otaqdan çıxan ərinin dalınca baxdı.

Maklendon evin içindən keçərkən köynəyini çıxardı, pərdəli pəncərələri olan arxa artırmada isə onunla başını, çiyinlərini silib atdı. Şalvarının arxa cibindən tapançasını çıxarıb çarpayının önündəki masanın üstünə qoydu, oturub ayaqqabılarını soyundu. Sonra qalxıb şalvarını əynindən çıxardı. Yenidən onu tər basdı, aşağı əyilib, hirslə köynəyini axtarmağa başladı. Axır ki, tapdı, onunla bədəninin tərini silib, kənara atdı. Sonra yerindən qalxıb çılpaq bədənini tozlu pəncərə şüşəsinə dirəyib, bayıra baxdı. Ətrafda nə bir səs, nə bir hənirti duyulurdu, cücülər də harasa yox olmuşdular. Biganə, laqeyd ay işığı və ulduzların bərələ qalmış donuq baxışları altında uzanıb yatan qaranlıq dünya, sanki, heyrət içində donub qalmışdı.

EMİLİ ÜÇÜN QIZILGÜL

I

Missi Emili Krirson vəfat eləyəndə qadınlı-kişili bizim bütün şəhər onun dəfninə getdi: kişilər, sanki, uçub dağılmış qədim bir abidəyə hörmət və ehtiramlarını bildirmək, qadınların əksəriyyəti isə bu xanımın yaşadığı evin içərisini görməyə, axır ki, fürsət tapdıqları üçün; çünki malikanəyə həm bağbanlıq, həm də aşpazlıq edən qoca zənci qulluqçudan savayı, bu evə on il olardı ki, heç kəsin ayağı dəyməmişdi.

Divarları Nuh əyyamında ağardılan nəhəng, dördkünc bina yetmişinci illərin yüngülsayaq üslubuna müvafiq surətdə günbəzlər, uzun-uzun millər, naxışlı eyvanlarla bəzədilmişdi və bir vaxtlar şəhərin ən mötəbər ailələrinin yaşadığı ən kübar küçədə yerləşirdi. Lakin sonralar burada tikilən qarajlar və pambıqtəmizləmə zavodları ən hörmətli ailələri buradan sıxışdırıb çıxarmışdı və indi yalnız miss Emiligilin köhnə dəbli evi pambıq furqonları və benzindoldurma stansiyaları arasında əvvəlki kimi qürur və təkəbbürlə yüksəlirdi, sanki, ona meydan oxuyanlara özü meydan oxuyurdu. Budur, indi miss Emili də sidr kolluğu basmış şəhər qəbiristanlığında Cefferson uğrunda döyüşlərdə həlak olan federal ordu əsgərləri və konfederatların adlı-adsız qəbirləri ilə yanaşı uyuyan o mötəbər ailələrin nümayəndələrinə qoşulacaq, onların arasında öz yerini tutacaqdı.

Miss Emili sağlığında köhnə ənənələrin, bir növ, şəhərin öz üzərinə götürdüyü mənəvi məsuliyyətin canlı mücəssəməsi idi və bu məsuliyyət onun boynuna 1894-cü ildə, şəhərin ovaxtkı meri polkovnik Sartoris (o adam ki, zənci qadınlarına küçəyə önlüksüz çıxmağı qadağan etmişdi) bu qadının atası öləndən dərhal sonra onu vergi verməkdən həmişəlik azad etdiyi gündən düşmüşdü. Miss Emili bunu xeyirxahlıq kimi qəbul etməmişdi. Çünki polkovnik Sartoris belə bir dolaşıq əhvalat uydurmuşdu: guya, onun atası haçansa şəhərin büdcəsinə borc pul verib və həmin pulu indi başqa cür geri qaytarmaq münasib düşməzdi. Yalnız polkovnik Sartoris dövrünün adamları belə bir şeyi uydura və yalnız qadın xeylağı belə bir şeyə inana bilərdi.

Ancaq yeni nəslin müasir düşüncə ilə tərbiyə olunmuş nümayəndələri şəhər hakimiyyətinə sahib olanda bu müqavilə məlum narazılığa səbəb oldu. Təzə ilin birinci günü onlar miss Emiliyə vergi kağızı göndərdilər. Fevral ayı gəlib çatdı, amma miss Emilindən heç bir cavab çıxmadı. Ona rəsmi məktub yazdılar, xahiş etdilər ki, özü münasib bildiyi vaxt şerifin yanına gəlsin. Bir həftədən sonra mer özü məktub göndərdi, təklif etdi ki, istəyirsə, o özü miss Emilinin yanına gələ bilər və yaxud onun arxasınca avtomobil göndərər. Əvəzində solğun mürəkkəblə, incə hüsnxətlə köhnə formatlı kağıza yazılmış bir cavab məktubu aldı. Həmin məktubun qısaca məzmunu bundan ibarət idi: miss Emili çoxdan evdən bayıra ayaq basmır; vergi kağızı isə izahatsız-filansız, həmin məktuba əlavə edilmişdi. Şəhərin bələdiyyə şurası təcili

iclas çağırdı. Miss Emilinin evinə xüsusi nümayəndə heyəti göndərdilər. Onlar azı, səkkiz-on il bundan əvvəl (bu evdə çini qablara rəsm çəkməyi öyrətmək üçün keçirilən dərslər kəsilən gündən) bütün qonaqların üzünə bağlı olan qapını döyəndə qoca zənci qulluqçu onları qarşılayıb alaqaranlıq dəhlizə dəvət etdi; burada yuxarı, daha müdhiş otağa aparan pilləkən vardı. İçəridən kəskin xarabalıq iyi gəlirdi, hər tərəfə üfunətli və kəsif hava çökmüşdü. Zənci qulluqçu gələnləri qonaq otağına apardı. Buradakı masa və stullar da köhnə dəbdəydi; ağır və yöndəmsiz olsalar da, üzlərinə dəri çəkilmişdi. Qulluqçu otaqdakı pəncərələrdən birinin pərdəsini çəkib açanda masanın üzərinə çəkilmiş dəridəki iri çatlar aydın göründü və onlar əyləşəndə stulları çoxdan basmış toz yeganə günəş şüası altında tənbəl-tənbəl, burum-burum havaya qalxdı. Sobanın önündəki solğun rəngli qızıla tutulmuş molbertdə miss Emilinin atasının pastellə çəkilmiş portreti dayanmışdı.

Bəstəboy, tosqun, təpədən-dırnağa qara geyinmiş bir qadın olan miss Emili (boynundakı nazik qızıl zəncir bel qurşağına qədər sallanmış və enli kəməri arxasında itib-batmışdı) dəstəyi qızılı rəngə çalan əlağacına söykənə-söykənə içəri girəndə onlar ayağa qalxdılar. Sür-sümüyü xırda, yüngül olsa da, çox potaydı, elə buna görə də başqa vaxt dolu, kök adlandıra biləcəyimiz şey indi qeyri-sağlam piylənmə təsiri bağışlayırdı. Bədəni, elə bil, üfürülüb şişirdilmişdi, sanki, uzun müddət durğun bataqlığın dibində atılıb qalmışdı. Solğun, ölü rəngli sifətinin qırışları arasında itib-batan gözləri xəmirə topasına sancılmış bir cüt közə bənzəyirdi: qonaqlar nə üçün gəldiklərinin məğzini şərh edənəcən həmin gözlər bir sifətdən o birinə zillənir, sürətlə səyriyirdi.

O, əyləşmək üçün qonaqlara heç yer də göstərmədi. Eləcə qapının ağzında dayanıb, danışan adam çaşıb susanacan sakitcə qulaq asdı. Bu zaman qızılı zəncirin o biri ucunda gözə görünməyən saatın tıqqıltısı eşidildi.

Onun səsi buz kimi soyuq və quruydu.

– Mən Ceffersona vergi verməli deyiləm. Polkovnik Sartoris bunun səbəbini mənə başa salıb. Hansınız maraqlanırsa, gedib şəhər bələdiyyəsindəki sənədlərə baxa bilər

– Biz elə də eləmişik, miss. Biz şəhər hökumətiyik. Bəyəm siz şerifin imzası ilə göndərilən məktubu almamısınız?

– Hə, nəsə elə bir şey almışdım, – miss Emili dedi. – Deməli, o özünü şerif hesab edir… Ancaq mən Ceffersona vergi verməli deyiləm.

– Axı bələdiyyə dəftərxanasında buna aid heç bir sənəd yoxdur. Görünür, biz…

– Polkovnik Sartorisdən öyrənin. Mən Ceffersona heç nə borclu deyiləm.

– Miss Emili, axı…

– Polkovnik Sartorislə danışın (Polkovnik on il olardı ki, ölmüşdü). Mən Ceffersona heç nə borclu deyiləm. Tob! – Zənci qulluqçu qapıda göründü. – Bu cənabları bayıra ötür.

II

Bir sözlə, o, düz otuz il bundan əvvəl iy məsələsi ortaya çıxanda bu adamların atalarını necə məğlub etmişdisə, indi də onların özlərini – həm piyada, həm də süvari qoşunlarını – tamam darmadağın etdi. Bu hadisə baş verəndə atası iki il idi ölmüşdü, istəklisi isə – biz elə bilirdik ki, onlar evlənəcəklər – onu təzə atıb getmişdi. Atası öləndən sonra evdən bayıra çox nadir hallarda çıxan miss Emili istəklisi onu atıb gedəndən sonra, ümumiyyətlə, gözə görünmədi. Şəhər xanımlarından bəziləri onun qapısını döyməyə ürək eləsə də, onları içəri dəvət edən olmadı. O zaman bu evdə həyatın hələ də davam etdiyini bildirən yeganə şey, onda hələ lap cavan olan və əlində bazar zənbili gündə bir dəfə ərzaq arxasınca şəhərə yollanan zənci qulluqçu idi.

– Heç kişi xeylağı da – lap nə cür təmizkar kişi olursa olsun, mətbəxi lazımi səliqə-sahmanda saxlaya bilərmi? – şəhər qadınları gileylənirdilər və buna görə də o evdən pis iy yayılanda heç kəs buna təəccüblənmədi; həmin iy məsələsi, sanki, qara camaatla – plebey dünyası ilə yüksək və qüdrətli Grirsonlar ailəsi arasında yeni bir əlaqəyə, yeni bir bağa çevrildi.

Qonşuluqda yaşayan bir qadın bu barədə şəhərin meri, səksən yaşlı hakim Stivenə şikayət etməkdən çəkinmədi.

– Sizcə, mən nə etməliyəm, madam? – hakim soruşdu.

– Tapşırın, buna son qoysun, – qadın dedi. – Bəyəm qanun-zad yoxdur?

– Güman edirəm ki, buna elə bir ehtiyac olmayacaq, – hakim Stivens dedi. – Yəqin, bu onun zəncisinin işidir: görünür, orada ilandan, yaxud da siçovuldan-zaddan öldürüb, mən özüm onunla danışaram.

Sabahı gün daha iki nəfər bu barədə şikayətə gəldi. Onlardan biri kişi xeylağı idi və o, qadından fərqli olaraq, çox ehtiyatla, nəzakətlə danışdı:

– Biz buna qarşı nəsə bir tədbir görməliyik, cənab hakim. Mən buna görə miss Emilini narahat etməyi heç cür rəva bilmirəm, amma biz hökmən nəsə eləməliyik.

Həmin axşam bələdiyyə şurasının üzvləri – üç ağsaqqal qoca və bir cavan oğlan, gələcək nəslin nümayəndəsi – bir yerə toplaşdılar.

– Burda nə çətin iş var ki, – həmin cavan oğlan dedi, – ona rəsmi xəbərdarlıq etmək lazımdır, qoy həyət-bacasını səliqəyə salsın. Özü də bunun üçün müəyyən vaxt da təyin edərik, əgər o vaxtacan…

– Bu olmadı, ser, – hakim Stivens dedi. – Axı qadın xeylağının üzünə necə demək olar ki, səndən pis iy gəlir?!

Buna görə dənövbəti gün gecəyarıdan keçəndə həmin dörd kişi miss Emilinin evinin önündəki çəmənlikdən keçib, oğrun-oğrun bünövrədəki bütün dəlmə-deşikləri və yelçəkənləri bir-bir iyləyə-iyləyə binanın başına dolandılar, özü də onlardan biri toxum səpən adam kimi tez-

tez əlini çiynindən asdığı torbaya salıb çıxarırdı. Zirzəminin qapısını açıb oraya, eləcə də həyətdəki bütün tikililərin ətrafına xlorlu əhəng tökdülər. Geri qayıdarkən bir də çəmənlikdən keçəndə bayaqdan qaranlığa bürünmüş pəncərələrdən birində işıq yandı: arxadan düşən işıq şüasında miss Emili oturulu daş heykələ bənzəyirdi. Kişilər çəmənlikdən qısıla-qısıla keçib, özlərini küçə boyunca əkilmiş sıx ağaclığa verdilər. Bir-iki həftədən sonra iy yoxa çıxdı.

Bax elə o vaxtdan camaatın miss Emiliyə yazığı gəlməyə başladı. Onun doğmaca bibisi olan Uayet qarının ömrünün axırında ağlını tamam itirdiyini xatırlayıb, bu qənaətə gəldilər ki, Girirsonlar elə həmişə belə olublar, həmişə özlərini olduğundan bir az yuxarı tutublar. Yəni qohum-əqrəbanın gözündə şəhərdə miss Emiliyə yaraşan bir oğlan yox idi və s. Onların – miss Emili ilə atasının öz evlərinin artırmasında necə ədayla dayandıqları indi də gözlərimizin önündən getməyib: atası qamçını əlində bərk-bərk sıxaraq ayaqlarını aralı qoyub şəstlə qabaqda, bəmbəyaz geyimli, incəbelli miss Emili isə azca arxada, qapı çərçivəsinin tən ortasında dayanırdı. Buna görə də otuz yaşı tamam olandan sonra belə onun ərə getmədiyini görəndə buna nəinki sevinirdik, hətta elə bilirdik ki, kimsə bizim intiqamımızı alıb. Çünki fikirləşirdik ki, bu nəsildə dəlilik xəstəliyi olsa belə, indi münasib bir oğlan düşsə, artıq miss Emili ondan heç cür imtina eləməz.

Atası öləndə məlum oldu ki, o öz yeganə övladına bu evdən savayı heç nə miras qoymayıb. Camaat buna da sevindi. Sevindik ki, nəhayət, miss Emilinin halına acıya biləcəyik. Yəni fikirləşdik ki, tənhalıq və ehtiyac içərisində yaşadıqca miss Emili öz qürurunu unudacaq, yumşalıb hamı kimi olacaq. Nəhayət, o da başqaları kimi hər qəpiyinin qədrini biləcək, onu qazananda sevinəcək, itirəndə isə kədərlənəcək.

Atasının ölümünün sabahı günü səhər tezdən şəhərin bütün qadınları, adətə uyğun olaraq, miss Emiliyə başsağlığı vermək və öz köməklərini təklif etmək üçün onlara yollandılar. O, əynində hər gün geydiyi paltarla onları qapının ağzında qarşıladı. Üz-gözündə hüzndən əsər-əlamət belə yox idi. Gələnlərə də dedi ki, atası ölməyib. Keşişlərin və həkimlərin meyiti otaqdan çıxarmaq üçün göstərdikləri bütün cəhdlərə baxmayaraq, o, düz üç gün inadından dönmədi. Axırda naəlac qalıb onu qanun və zor gücü ilə hədələyəndə təslim oldu və meyiti təcili aparıb basdırdılar.

O vaxt heç kəs miss Emilinin bu hərəkətini dəlilik əlaməti saymadı. Fikirləşirdik ki, onu başa düşmək olar, axı atası neçə-neçə cavan, subay oğlanı bu evə yaxın düşməyə qoymamışdı və indi ona, bu yazıq tənha qadına, hamı kimi, heç olmasa, əlində olanı itirməməyə çalışmaqdan savayı heç nə qalmayıb.

III

Sonra uzun müddət xəstə yatdı. Biz onu bir də təzədən görəndə cavan qız uşaqları kimi saçlarını vurdurub xeyli qısaltmışdı: bir az, rəngli kilsə pəncərələrində təsvir olunan qəmgin və ciddi mələklərə bənzəyirdi. Elə o vaxt şəhər hökuməti küçələrə səki saldırmaq fikrinə düşdü; müqavilələr imzalandı və miss Emilinin atası ölən ilin yayında bu sahədə qızğın iş başladı. Tezliklə şəhərin küçələrində zənci fəhlələrdən, qatırlardan, müxtəlif tikinti qurğularından ibarət bir briqada peyda oldu. Həmin briqadaya boy-buxunlu, qarasaç, gursəsli, gündən yanıb qaralmış sifətində iri aydın gözləri dərhal nəzərə çarpan Homer Berron adlı əsil yanki başçılıq edirdi. Balaca uşaqlar, oğlanlar dəstəylə onların ardınca düşər, əsl yankinin zəncilərə necə təpindiyinə və onların da dərhal öz külünglərini qaldırıb endirərək, bu hərəkətin ahənginə uyğun nəğmə oxumalarına heyran-heyran tamaşa edərdilər. Az vaxt içərisində Homer Berronun şəhərdə tanımadığı adam qalmadı. Şəhərin hansı yerində xeyli adam toplaşmışdısa və oradan bərk gülüşmə səsi gəlirdisə, o saat bilirdin ki, bu yığnağın başında Homer Berron durub. Heç bir müddət keçməmişdi ki, biz onu hər bazar günü axşamüstü miss Emili ilə birlikdə şəhəri gəzən görməyə başladıq: kirayə götürdükləri bir cüt kəhər ata qoşulmuş sarı rəngli, ikiyerli üstüaçıq faytonda küçələri gəzərdilər. Əvvəlcə biz buna sevindik. Sevindik ki, miss Emilidə həyata, azacıq da olsa, maraq oyanıb. Çünki şəhər qadınları belə danışırdılar: «Grirsonlar heç vaxt şimallıya, özü də günəmuzd fəhləyə ciddi yanaşmazlar». Amma bəziləri, xüsusən də yaşlılar başqa cür düşünürdülər: əsil-nəcabəti olan qadın hətta ən bədbəxt anlarında belə öz nəslinin ləyaqətini unutmamalıdır. Lakin onlar bunu dillərinə gətirməkdən çəkinirdilər, söz düşəndə isə deyirdilər: «Yazıq Emili. Qohumları gərək vaxtında onun qeydinə qalaydılar». Onun, doğrudan da, qohumları vardı: Alabamada yaşayırdılar. Atası, ağlını itirmiş Uayet qarının mülkü üstündə neçə il bundan əvvəl onlarla dalaşıb küsüşmüşdü və o vaxtdan bu iki ailə bir-biri ilə əlaqə saxlamırdı. Hətta miss Emilinin atası ölləndə də Alabamadan dəfnə gələn olmadı.

«Yazıq Emili» sözləri ilk dəfə dilə gətirilən gündən cürbəcür şayiələr yayılmağa başladı. «Deyirsiniz, yəni arada ciddi bir şey var?» – deyə həmin qadınlar bir-birindən soruşurdular. «Bəs necə! Buna başqa nə ad vermək olar?» O vaxtdan miss Emilidən xəlvət, onun evinin gözqamaşdırıcı günəş şüalarından qorumaq üçün pərdəsi endirilmiş pəncərələrinin altında, küçədən keçən tikinti briqadasının ardınca bir pıçıltı gəzməyə başladı: «Yazıq Emili».

Artıq biz hamımız onun qürurunun sınmış olduğunu zənn etsək də, o, yenə əvvəlki kimi başını dik, həm də həmişəkindən dik tutaraq gəzirdi. Sanki, o, Grirsonlar nəslinin son nümayəndəsi kimi bu nəslin şərəf və ləyaqətini sübut etməyə çalışırdı; elə bil, bütün bu şayiələr, bütün bu söz-söhbətlər onun üstünlüyünə, öz müstəsnalığına olan inamını nəinki qırmamış, hətta birə-on qat artırmışdı. Sonralar aptekdən siçovulları qırmaq üçün istifadə olunan siçan zəhəri alanda da özünü bu cür təkəbbürlü aparmışdı. Bu hadisə «Yazıq Emili» ifadəsi camaatın dilinə düşdüyü gündən düz bir il sonra baş vermişdi. Onda alabamalı iki əmisi qızı ona qonaq gəlmişdi.

– Mənə zəhər lazımdı, – aptekçiyə demişdi.

O vaxt yaşı otuzu keçmişdi. Bir az arıqlasa da, yar-yaraşığını hələ itirməmişdi. Qara gözlərinin soyuq, ötkəm və amiranə baxışları vardı, gicgahlarının və almacıq sümüklərinin dərisi tamam tarımlaşmışdı. Bizim şəhər adamlarının təsəvvürünə görə, bu cür sifət yalnız mayak gözətçisində ola bilərdi.

– Mənə zəhər lazımdır, – dedi.

– Eşitdim, miss Emili. Nə cür zəhər?! Yəqin, siçovullara qarşı istifadə etmək istəyirsiniz, eləmi? Mən sizə…

– Mənə ən güclü zəhər lazımdır. Adı nə olur olsun, fərqi yoxdur.

Aptekçi bir neçə zəhər adı sadaladı.

– Bunlar elə zəhərlərdir ki, fili də çökdürərlər. Ancaq məncə, sizə…

– Siçan zəhəri lazımdır, – miss Emili onun sözünü kəsdi. – O, güclü zəhərdirmi?

– Siçan zəhəri?... Bəli, mem. Ancaq məncə. sizə…

– Mən siçan zəhəri istəyirəm sizdən.

Aptekçi başını qaldırıb diqqətlə onu süzdü. Lakin miss Emili onun bu baxışını çox laqeydliklə qarşıladı; ən xırda əzələsi belə tərpənməyən daş sifəti alay bayrağı kimi ona meydan oxudu.

– Nə olar, – aptekçi dedi. – Özünüz bilərsiniz, mən nə deyə bilərəm. Ancaq qanuna görə, siz bu zəhərdən nə üçün istifadə edəcəyinizi qabaqcadan bildirməlisiniz.

Miss Emili başını yüngülcə geri atıb, düz onun gözlərinin içinə baxdı. Yazıq aptekçi, nəhayət, bu soyuq və zabitəli baxışlara tab gətirməyib, arxaya döndü və otaqdan çıxdı. Siçan zəhəri bağlamasını da ona qaradərili oğlan uşağı gətirdi. Miss Emili evdə həmin bağlamanı açanda isə qutunun üstündəki kəllə və sümük şəklinin altında bu sözləri oxudu: «Siçovullara qarşı işlədilməlidir».

IV

Məhz buna görə sabahı gün hamımız eyni fikrə gəldik: «O özünü öldürəcək» və fikirləşdik ki, onun üçün bundan yaxşı çıxış yolu yoxdur. Çünki Homer Berronla görüşməyə başladığı ilk günlər hamımız əmin idik ki, onlar evlənəcəklər. Amma sonra eşidəndə ki, daim «Sığın klubu»nda içki masası arxasında özündən cavan adamlarla yeyib-içməkdən zövq alan Homer Berron başına toplaşanlara subaylığın üstün məziyyətlərindən dəm vurur, «miss Emili onu hökmən öz toruna salacaq» dedik. Aradan bir müddət də keçdi. İndi onlar hər bazar günü günortadan sonra günəş şüasından par-par parlayan faytonda (miss Emili qürurla başını dik tutar,

Homer Berron isə ağzında siqar, şlyapasını yan qoyub sarı əlcəkli əlində yüyəni və qamçını şəstlə sıxardı) yanımızdan keçəndə arxasınca «Yazıq Emili» deyə pıçıldaşmağa başladıq.

Bir az keçəndən sonra bəzi qadınlar «Onların bu hərəkəti şəhərin adına ləkədir, cavanlara pis təsir göstərir», – deyə gileylənməyə başladılar. Kişilər bu işə qarışmaq istəmədilər, lakin arvadları baptist keşişini dilə tutub miss Emilinin yanına göndərdilər. (Halbuki bütün qohumları kimi, miss Emili də yepiskopal kilsəyə mənsub idi). Keşiş bu görüşün nə məzmunda keçdiyi barədə heç vaxt heç kimə heç nə demədi, lakin ikinci dəfə onun yanına getməkdən qəti imtina elədi. Növbəti bazar günü onlar yenə də faytonda şəhəri gəzməyə çıxdılar. Bazar ertəsi isə keşişin arvadı miss Emilinin Alabamadakı qohumlarına məktub göndərdi.

Beləliklə, budur, o, yenə də evdə tək deyildi və biz intizarla hadisələrin necə cərəyan edəcəyini gözləyirdik. Əvvəlcə elə bir şey olmadı. Sonra qəti inandıq ki, onlar evlənmək istəyirlər. Çünki öyrənmişdik ki, miss Emili zərgərin yanında olub və ona hər əşyasının üstünə H.B. hərfləri yazılmış, gümüş üzqırxan dəsti sifariş verib. İki gündən sonra isə eşitdik ki, o, mağazadan alt köynəyi də daxil olmaqla kişi üçün bahalı paltar dəsti alıb. Hamımız rahat olduq: «Deməli, doğrudan da, evlənirlər». Biz buna sevindik. Ona görə sevindik ki, miss Emilinin qonaq gələn iki əmisi qızı onun özündən də betər Grirson xislətli idilər.

Buna görə də şəhər küçələrində tikinti işləri başa çatdıqdan bir müddət sonra Homer Berronun yoxa çıxması heç kimi təəccübləndirmədi. Yalnız bir az ona məyus olduq ki, görəsən, onlar bu işi nə üçün açıq bəyan etmədilər. Ancaq əmin idik ki, Homer Berron ya miss Emilini öz yanına köçürtmək üçün hazırlıq görməyə gedib, ya da elə miss Emiliyə öz qohumlarından yaxa qurtarmağa şərait yaratmaq üçün yoxa çıxıb (onlara qarşı sui-qəsd hazırlanmışdı və bu qəsddə biz hamımız miss Emilinin tərəfindəydik). Doğrudan da, heç bir həftə keçməmiş, onlar Alabamaya qayıtdılar və biz gözlədiyimiz kimi, üç gündən sonra Homer Berron yenidən şəhərdə peyda oldu. Miss Emilinin qonşusu axşam toranlığında zənci qulluqçunun evin arxa qapısını açıb onu içəri buraxdığını öz gözləri ilə görmüşdü.

O vaxtdan Homer Berronu bir daha görən olmadı. Bir müddət elə miss Emilinin özü də gözə görünmədi. Zənci qulluqçu əlində bazar zənbili gündə bir dəfə şəhərə çıxıb qayıtsa da, evin giriş qapısı daim bağlı qalırdı. Sonralar, miss Emilinin evinin ətrafına xlorlu əhəng tökdükləri gecədə olduğu kimi, arada bir anlığa pəncərədə görünsə də, düz yarım il küçəyə çıxmadı. Fikirləşdik ki, bunu da başa düşmək olar – bir qadın kimi öz həyatını qurmaqda hər dəfə ona mane olan atasının ruhu, görünür, hələ ölməmişdi və ölmək fikrində də deyildi.

Miss Emili təzədən camaat içinə çıxanda xeyli kökəlmişdi: artıq saçlarına dən düşmüşdü. Sonra bir neçə ilin içində saçları tamam ağardı və axırda duza bulaşmış qırmızı istiot rəngi aldı. Yetmiş dörd yaşında öldüyü günə qədər saçları özünün bu rəngini – adətən, işgüzar, çox çalışqan kişilərin saçları ağaranda belə olur, – itirmədi.

Elə o vaxtdan onun evinin giriş qapısı, – arada, təqribən qırx yaşlarında çini qablar üzərində rəsm çəkmək dərsi verdiyi altı-yeddi ili hesaba almasaq – öldüyü günə qədər bağlı qaldı. Onda alt mərtəbədəki otaqlardan birini emalatxanaya çevirmişdi və polkovnik Sartorisin yaşıdlarının qızları və nəvələri – əllərində iyirmi beş sent nəzir pulu bazar günü kilsə məktəblərinə hansı həvəs və davamiyyətlə gedirdilərsə, onun yanına da o həvəs və davamiyyətlə dərs almağa gəlirdilər. Məhz o vaxt miss Emilini vergi verməkdən azad etdilər.

Amma sonra yeni nəsil şəhərin ətinə və qanına çevriləndə, bir vaxtlar onun yanına rəsm dərsi almağa gələn qızlar artıq yaşa dolmuş, onu tərk etmişdilər və indi hətta onlar belə, öz uşaqlarını zəhlətökən firça, rəng və qadın jurnallarından kəsilib götürülmüş şəkillərlə onun yanına göndərmirdilər. Və giriş qapısı axırıncı şagirdin ardınca örtüləndən sonra bir daha açılmadı. Şəhərdə rüsumsuz poçt xidməti yaradılanda isə təkcə miss Emili öz evinin divarına metal nömrə lövhəsi və poçt qutusu vurulmasına razılıq vermədi. Onu çox dilə tutmağa çalışsalar da, heç kimə qulaq asmadı. Günlər, aylar, illər ötüşdü və səhərlər əlində bazar zənbili ərzaq arxasınca yollanan zənci qulluqçunun saçları bizim gözümüzün önündə yavaş-yavaş ağardı, beli büküldü. Hər ilin dekabrında biz miss Emiliyə vergi ödəmək üçün rəsmi kağız göndərirdik, hər dəfə də bir həftədən sonra o məktubu ağzı belə açılmamış halda poçtdan geri alırdıq. Arabir onu alt mərtəbədəki pəncərələrdən birinin önündə görərdik – görünür, yuxarı mərtəbə, ümumiyyətlə, bağlı qalırdı – tərpənib eləməzdi, daşdan yonulmuş bütə oxşayırdı. Onun bizi görüb-görmədiyini də dəqiq demək mümkün deyildi. Bu minvalla o, beləcə, hamımıza doğma, lal-dinməz, dərkolunmaz və inkaredilməz bir büt kimi, nəsildən-nəslə keçirdi.

Və budur, o da öldü. Toz-torpaq, üfunət basmış alaqaranlıq evində xəstələnib yatağa düşdü; qocalıb əldən düşmüş zənci qulluqçudan başqa ona baxa biləcək heç kimsə qalmamışdı. Biz heç onun haçan xəstələndiyindən də xəbər tutmamışdıq. Çünki qoca qulluqçudan heç nə öyrənmək mümkün deyildi və biz bu vəziyyətlə çoxdan barışmışdıq. Qoca zənci heç kimlə, güman ki, heç miss Emilinin özüylə belə danışmırdı. Çünki səsi çoxdan işlədilməyən əşya kimi pas atmışdı, xır-xır xırıldayırdı.

O, alt mərtəbədəki otaqların birində, qoz ağacından düzəldilmiş ağır, miçətkənli çarpayıda keçinmişdi: onun ağsaçlı başı, köhnəlmiş, sapsarı saralmış kifli balıncda uyuyurdu.

V

Zənci birinci yas yerinə gələn qadınların ilk dəstəsini giriş qapısının ağzında qarşılayıb, onları içəri ötürmüşdü. Boğuq pıçıltı səsləri otağı bürümüşdü, gələnlərin iti nəzərləri dörd yanı gəzirdi. Zənci özü isə yox olmuşdu. O, sakitcə otağın içindən keçib, arxa qapıdan bayıra çıxmışdı və sonra onu bir də görən olmadı. Əmisi qızları bu dəfə özlərini dərhal yetirdilər. Dəfn

mərasimini hadisənin sabahı gününə təyin etdilər. Bütün şəhər yasa gəldi. Miss Emilinin tabutu satın alınmış gül dəstələrinin içində itib-batmışdı. Tabutun baş tərəfində atasının dərin fikrə dalmış halda pastellə çəkilmiş portreti dayanmışdı, dörd ətrafında isə şəhər xanımları bir-birini sıxışdıra-sıxışdıra hüzn içində pıçıldaşırdılar. Evin önündəki artırmada və çəmənlikdə qos-qoca kişilər əyləşmişdilər: bəzilərinin əynində təzəcə təmizlənib ütülənmiş, konfederat ordusuna məxsus hərbi forma vardı və bu qocaların yaddaşında miss Emili yaşıd kimi qalmışdı; hər birinə elə gəlirdi ki, cavanlıqda neçə dəfə onu rəqsə dəvət edib, hələ üstəlik, ona öz sevgisini də bildirib. Bütün yaşlı adamlar kimi, onlar da hadisə və tarixləri qarışıq salırdılar. Onlara görə, keçmiş heç də üfüqdə itib-batan cığır deyil, geniş, həmişəyaşıl bir çəmənlik idi və bizim günlərdən təqribən onca ilin dar dərəsi ilə ayrılırdı.

Artıq hamımız bilirdik ki, mərtəbədəki otaqlardan birinə qırx ildən çoxdur heç kəsin ayağı dəyməyib və onun qapısı indi də bağlıdır. Miss Emilinin cəsədini lazımi qaydada torpağa tapşırandan sonra həmin qapını sındırıb açdılar.

Sərt zərbədən uzun illərdən bəri yığılıb qalmış toz ərşə qalxdı. Bu otaq, sanki, bəylə gəlinin zifaf gecəsi üçün sahmana salınmış, buna uyğun mebellə təchiz olunmuşdu. Otağın havasından kəskin qəbir iyi gəlirdi; nazik toz qatı hər yanı bürümüşdü, rəngi solmuş çəhrayı bəylik taxtının qırçınları, çəhrayı abajurların lampaları, geyim masası (bu masanın üstündə büllur ətir şüşələri, rəngi solmuş üzqırxan ləvazimatları bir-birinə qarışmışdı və onların rəngi o qədər solmuşdu ki, üstlərindəki hərflər də oxunmurdu) toz içində itib-batmışdı. Yenə o masanın üstündə, sanki. əyindən indicə çıxarılmış yaxalıq və qalstuk vardı, onları ordan qaldıranda isə yerində tozdan aydın seçilən aypara şəkli qaldı. Kostyum səliqə ilə stulun çiynindən asılmışdı, çəkmələrsə döşəmədəydi, corablar da onların üstünə atılmışdı.

Kişinin özü çarpayıda uzanmışdı. Biz uzun müddət lal-dinməz qalıb, qorxunc bir səhnəyə – çılpaq kəllənin donmuş təbəssümünə, ağaran dişlərinə mat-mat baxdıq. Ölü, sanki kimisə qucaqlayıbmış kimi uzanmışdı, lakin məhəbbətdən çox yaşayan, zaman ötdükcə onun əyər-əskiyinə sığal çəkib hamarlayan əbədi yuxu onun sevgilisini əlindən almışdı. Haçansa onun gecə köynəyi olmuş bir şeyin cır-cındası ilə örtülmüş cənazəsi, elə bil, üstünə uzandığı çarpayıya əriyib qovuşmuşdu və o özü də, onun böyründəki balınc da buz kimi soyuq toz örtüyünə bürünmüşdü.

Biz yalnız indi ikinci balışın da üstündə aydın seçilən baş izi olduğunu gördük. Kimsə aşağı əyilib ordan nə isə götürəndə, özümüzü irəli verib, bu gözəgörünməz külün quru və kəsif iyindən udquna-udquna, onun duza bulaşmış istiot rəngli bir çəngə saç olduğunu aydın seçə bildik.

O GÜN ŞƏR QARIŞANDA

I

İndi Ceffersonda hər şey dəyişib, daha bazar ertəsi həftənin o biri günlərindən heç nə ilə fərqlənmir. Küçələrə asfalt döşənib, səkilərdəki nəhəng, kölgəsindən küçələrə gün düşməyən qollu-budaqlı ağaclardan əsər-əlamət belə qalmayıb; telefon və elektrik şirkətləri ilbəil onları qırıb atmış, yerində təpəsindən iri, amma rəngi qaçmış, ətsiz-qansız salxımlar sallanan dəmir direklər basdırmışlar. Bizim indi şəhər camaşırxanamız var və hər bazar ertəsi səhər tezdən rəngi hələ qurumamış xüsusi camaşırxana maşınları həftənin kirli paltarlarını təmizləmək üçün küçəbəküçə şəhərin başına dolanır və bu zaman adamı səksəndirən maşın siqnallarını, asfaltda sürüşən şinlərin cırılan ipəyi xatırladan canüzücü cırıltılarını eşitdikcə bu kirli paltarlar sənə yuxu kimi gəlir. İndi hətta köhnə adətə görə hələ də ağlara paltar yuyan zənci qadınlar da kirli paltarları o maşınlara verirlər.

On beş il bundan qabaq isə hər bazar ertəsi səhər tezdən Ceffersonun sakit, tozlu, kölgəli küçələri, şala bərk-bərk sarınmış başlarında mələfəyə bükülmüş pambıq tayası boyda iri paltar bağlamaları daşıyan zənci qadınlarla dolu olardı; özü də bu qadınlar ağların mətbəxləri qarşısından götürdükləri həmin iri paltar bağlamalarını başlarında elə sərbəst aparırdılar ki, zənci məhəlləsindəki daxmalarının önündə onları gözləyən qara qazanlara çatanacan əllərini o bağlamalara bircə dəfə də toxundurmurdular.

Nensi də bağlamanı qaldırıb başına qoyar, sonra yay-qış başından çıxarmadığı qara həsir şlyapasını tərsinə çevirib onun üstünə atardı. Nensi ucaboyluydu, uzunsov, sərt əzələli sifəti vardı, dişləri düşdüyündən ovurdları batıq görünürdü. Biz Nensinin bütün yol boyu barmağını belə toxundurmadan o boyda bağlamanı və o bağlamanın üstünə tərsinə atılmış şlyapanı başı üstündə necə düz və taraz apardığına tamaşa eləmək üçün bəzən dalanın yarısına qədər, bəzən isə çəmənliyi keçənəcən onun arxasınca gəlirdik: çünki o, xəndəyə düşüb çıxanda da, taxta hasarın barmaqlıqları arasından sivişib keçəndə də nə başındakı bağlama, nə də onun üstündəki şlyapa sürüşüb düşərdi; düşmək nədi, heç ləngər də vurmazdı. Hasardan keçəndə Nensi əllərini və dizlərini yerə qoyub çömələr, taxta barmaqlıqların arasından sivişər və o biri tərəfdə ayağa qalxıb yoluna davam edərdi, amma bu zaman başını dimdik tutar, ona görə də başındakı bağlamanı daş və ya hava şarı kimi tərpənməz saxlayardı.

Bəzən kirli paltarları zənci qadınlarının ərləri gəlib aparırdılar, amma İsus heç vaxt Nensiyə kömək eləməzdi; nə atam onu bizdən qovmamışdan əvvəl, nə də Dilsi xəstələndiyinə görə bizim mətbəx işlərimiz Nensiyə tapşırılandan sonra.

O vaxtlar biz hər səhər Nensinin daxmasına qaçır, onu səhər yeməyi hazırlamaq üçün evimizə çağırırdıq. Xəndəyə çatan kimi dayanırdıq, çünki atam tapşırmışdı ki, İsusdan – üzündə bıçaq yarası olan qısaboy zəncidən uzaq olaq, ona görə də xəndəyin bu tərəfində dayanıb Nensinin daxmasını özü bayıra çıxanacan daşa basırdıq. O, qapıya çıxıb oyan-buyana boylanardı, əynində heç nə olmazdı.

– Nə olub? Niyə daşlayırsınız? – Nensi dedi. – Nədi, balaca şeytanlar, nə istəyirsiz?

– Atam deyir, gəlib yemək hazırlasın, – Keddi dedi. – Atam deyir, səhər yeməyinin vaxtından, onsuz da, yarım saat keçib, durmasın, tez gəlsin.

– Hm, böyük iş olub, mən yemək-zad bişirən deyiləm, – Nensi dedi. – Qoymazsınız yatam?

– Vallah, sərxoşdur, – Ceyson dedi. – Atam deyir ki, sən həmişə sərxoş olursan. Yenə içmisən, Nensi?

– Onu kim dedi? Qoymazlar da, doyunca yuxunu alasan, – Nensi dedi. – Mən sizə yemək-zad bişirən deyiləm.

Sonra biz onun daxmasına bir-iki dənə də daş atıb, evə qayıdardıq. Və nəhayət, Nensi gəlib çıxanda, dərsə xeyli gecikmiş olurdum. Nensi ikinci dəfə həbsxanaya düşdüyü günəcən elə bilirdik ki, bunun hamısı viskidəndir. Həmin gün Nensi küçədə bank xəzinədarı və baptist kilsəsinin dyakonu mister Stovellə rastlaşanda ondan əl çəkməmişdi: «Mənim haqqımı nə vaxt verəcəksiniz, cənab? Üç dəfə olmusunuz, bir sent də verməmisiniz». Mister Stovell onu yumruqla vurub yerə sərsə də, Nensi yerdə də səsini kəsməmişdi: «Haqqımı verin, cənab! Üç dəfədir…» Mister Stovell bu zaman özünü saxlaya bilməyib, onun ağız-burnunu təpiklə vurub əzmişdi. Şerif mister Stovellin qolundan tutub kənara çəkəndə isə yerdə uzanılı qalan Nensi qəhqəhə çəkirmiş. Hətta o, başını döndərib dişlərini və ağzının qanını yerə tüpürəndən sonra da dediyindən dönməmişdi: «Üç dəfə olub, bir sent də verməyib».

Nensi dişlərini elə orda itirmişdi və həmin gün hamı Nensi ilə mister Stovelldən danışırdı. O axşam həbsxananın yanından keçənlər Nensini pəncərənin dəmir barmaqlıqlarından asılaraq bütün gecəni səhərə kimi qışqıra-qışqıra oxuyan görmüşdülər. Bəziləri hətta həbsxana hasarının önündə ayaq saxlayıb ona və onu susdurmağa çalışan nəzarətçinin dediklərinə qulaq asmışdı. Yalnız sübhə yaxın Nensinin səsi kəsilmişdi və elə bu vaxt içəridən taqqıltı və cırmaq səsi eşidən gözətçi tələsik yuxarı qalxmış, içəri girib Nensinin özünü pəncərənin dəmir barmaqlıqlarından asdığını görmüşdü. Sonralar həmin nəzarətçi deyirmiş ki, bu, viskinin yox, kokainin təsirindən ola bilər, çünki zənci kokain iyləməsə, heç vaxt intihar etmək fikrinə düşməz, çünki zənci yalnız kokain iyləyəndən sonra zənci olduğunu unudur.

Nəzarətçi Nensinin boğazını ilgəkdən çıxarmış, onu huşa gətirdikdən sonra isə qamçı ilə möhkəmcə döymüşdü. Nensi özünü paltarı ilə asıbmış. Hər şey düşündüyü kimi olacaqmış,

amma həbsxanaya düşəndə əynində bircə donu olduğundan əllərini bağlamağa heç nə tapmayıb, ona görə də boğulanda istər-istəməz əlləri ilə pəncərənin altından yapışıb. Elə həmin an nəzarətçi səs eşidib yuxarı qaçmış və Nensini çıl-çılpaq pəncərədən asılan görmüşdü. Nəzarətçinin söylədiyinə görə, hələ o vaxt Nensinin çılpaq qarnı balaca şar kimi azca irəli çıxıbmış.

Dilsi xəstələnib öz daxmasından bayıra çıxa bilmədiyi vaxtlar bizim yemək-içməyimizi Nensi hazırlayırdı. Bir gün gördük ki, onun önlüyünün altı bərk dombalıb, onda hələ atam İsusa bizə gəlməyi qadağan eləməmişdi. O da bizdəydi və pilətənin yanında oturmuşdu, qara sifətindəki bıçaq yeri sifətinə yapışmış kirə oxşayırdı. Birdən o dedi ki, Nensi donun altında qarpız gizlədib.

– Sənə nə? Sənin ki tağından deyil, – Nensi dedi.

– Tağ nədi? – Keddi soruşdu.

– Mənim tağımdan olsaydı, onu dibindən kəsərdim, – İsus dedi.

– Heç utanmırsan, – Nensi dedi. – Körpə uşaqların yanında da belə söz danışarlar? İstəyirsən ki, mister Ceyson gəlib səni burda, uşaqların yanında bu cür yava-yava danışan görsün?

– O nə deyir ki? – Keddi soruşdu. – Tağ nədir?

– Ağ adamın mətbəxində görünmək mənə qadağandı, – İsus dedi, – amma o mənim mətbəximdə istədiyini eləyə bilər. Hətta evimə də girə bilər, mən bunu ona qadağan da edə bilmərəm, ona görə ki, o gələndə bu ev mənimki olmur. Mən onu qova bilmərəmsə, o da məni qova bilməz. Qova bilməz.

Dilsi hələ də xəstə yatırdı. Atam İsusa bizə gəlməyi qadağan eləmişdi. Dilsi hələ də xəstəydi. Onun xəstəliyi yaman uzandı. Axşam yeməyindən sonra bir yerə yığışmışdıq.

– Noldu, görəsən, Nensi mətbəxdə işini qurtarmayıb? – anam dedi. – Məncə, o, gərək çoxdan qurtarmış olaydı.

– İndi Kventin mətbəxə düşüb öyrənər, – atam dedi. – Kventin, düş gör, Nensi orda neyləyir. Qurtarıbsa, deynən getsin.

Mətbəxə düşdüm. Nensi işini qurtarmışdı. Qablar yuyulub yerinə yığılmış, pilətə söndürülmüşdü. Nensi sönmüş pilətənin önündə stul qoyub oturmuşdu. O mənə baxdı.

– Anam deyir ki, nə oldu, qurtarmadı? – dedim.

– Hə, – Nensi dedi, – qurtarmışam. – Hələ də mənə baxırdı.

– Sənə nə olub? Nə olub, Nensi?

– Axı mən neyləyim ki, zənciyəm, – Nensi öz-özünə danışırdı. – Bunda mənim nə günahım?

O, həsir şlyapa başında, soyuq pilətənin önündə oturub gözlərini məndən çəkmirdi. Geri qayıtdım, çünki pilətə sönmüş, mətbəx soyumuşdu, axı mən buranı həmişə isti, qaynaşan və rahat bir yer kimi təsəvvür eləyirdim. İndi isə mətbəx adama yad gəlirdi: ocaq sönmüş, qab-qacaq yığışdırılmışdı, indən belə kiminsə yemək istəyəcəyinə isə güman yox idi.

– Qurtarıb? – anam soruşdu.

– Hə, – dedim.

– Bəs onda niyə çıxıb getmir?

– İşini qurtarıb, oturub orda.

– Gedim görüm, – atam dedi.

– Bəlkə, o, İsusu gözləyir, gəlib onu aparacaq, – Keddi dedi.

– İsus başqa şəhərə köçüb, – dedim. Bunu bizə Nensinin özü demişdi; bir gün yuxudan ayılanda görüb ki, İsus yanında yoxdu.

– Məni atıb getdi, – Nensi dedi. – Məncə, indi Memfisdədir, yəqin, polisin qorxusundan qaçıb.

– Sənin üçün daha yaxşı, – atam dedi. – Ümid edirəm, bir də o buralara qayıtmaz.

– Ayy, Nensi qaranlıqdan qorxur, – Ceyson dedi.

– Sən də qorxursan, – Keddi dedi.

– Qorxmuram.

– Ağciyər.

– Mən qorxaq deyiləm.

– Kendeysi, bəsdi, – anam Keddiyə acıqlandı. Atam mətbəxdən qayıtdı.

– Gedim onu evinə ötürüm, – o dedi. – Qorxur, deyir ki, İsus gəlib.

– Öz gözləri ilə görüb? – anam soruşdu.

– Yox, zəncilər xəbər göndəriblər ki, o şəhərə qayıdıb. Narahat olma, bu saat qayıdaram.

– Sən indi məni burda tək qoyub, Nensini ötürəcəksən? – anam hirsləndi. – Yəni o bu qədər əziz olub?

– Dedim ki, bu saat qayıdaram, – atam təkrar etdi.

– O yava zənci bu həndəvərdə dolaşdığı bir vaxtda bu körpə uşaqları burda yiyəsiz qoyub hara gedirsən?

– Mən də gedirəm, – Keddi dedi, – ata, qoy mən də gedim.

– Onun uşaqlarla nə işi, – atam dedi, – onsuz da, Allah onu uşaq sarıdan bədbəxt yaradıb.

– Mən də gedirəm, – Ceyson dedi.

– Ceyson! – anam qışqırdı. Atama deyirdi, bunu onun səsinin ahəngindən bilmək olurdu. Anam elə danışırdı ki, elə bil, atam hər gün ancaq onun xətrinə dəyməyə bəhanə axtarır və hər dəfə də hökmən buna bir səbəb tapır. Mən dinməzcə dayanmışdım, çünki atam da, mən də yaxşı bilirdik ki, əgər səsimi çıxartsam, anamın yadına düşəcəm və o, məni buraxmayacaq. Buna görə də atam mənə sarı baxmırdı. Uşaqların ən böyüyü idim, mənim doqquz, Keddinin yeddi, Ceysonun isə beş yaşı vardı.

– Bəsdi, sən Allah, – atam dedi, – bu saat qayıdırıq.

Nensi şlyapasını başına qoymuşdu. Dalana çatdıq. «Bu neçə ildə İsusun mənə heç bir pisliyi dəyməyib, – Nensi dedi. – İki dolları olsa, birini mənə verərdi. – Hər yan qaranlıq idi. – Bircə bu dalan qurtarsaydı, sonra özüm tək də gedərəm».

Dalan hələ də qaranlıq idi.

– «Müqəddəs ruhlar» günü Ceyson bax burda qorxudan az qaldı özünü batıra, – Keddi dedi.

– Yalan deyirsən, – Ceyson dedi.

– Reyçel xala necə, ona demisən? Bəlkə, o, İsusu birtəhər yola gətirdi? – atam Nensiyə dedi. Reyçel xala qoca qarıydı. Nensinin qonşuluğunda, onun evinin arxa tərəfində uçuq-sökük bir daxmada tək-tənha yaşayırdı. Saçları ağappaq ağarmışdı. Heç yerdə işləmir, bütün günü qapıda oturub qəlyan çəkirdi. Deyirdilər ki, o, İsusun anasıdı. O özü də bəzən bunu təsdiq edir, bəzən isə deyirdi ki, İsusun ona heç bir qohumluğu çatmır.

– Yox, yalan demirəm, – Keddi dedi. – Sən Fronnidən də, lap elə T.P.-dən də, lap elə ən qorxaq zəncidən də qorxaqsan.

– Yox, o heç kimin sözünə baxmaz, – Nensi atama dedi. – Deyir ki, onun qəlbindəki şeytanı, guya mən oyatmışam və onu susdurmağın ancaq bircə yolu var.

– Di yaxşı, burnunu sallama, – atam dedi. – O, bir daha buralara qayıtmaz, qorxma. Bir də ağlarnan az otur-dur.

– Ağlarnan neynəsin? – Keddi soruşdu. – Otur-dur nə olan şeydi?

– O heç yana gedib eləməyib, – Nensi dedi. – Hiss eləyirəm ki, burdadır, hardasa, bax, bu dalanın bir küncündə gizlənib bizi pusur. Hər sözümüzə qulaq asır. Düzdü, mən onu öz gözlərimlə görməmişəm və güman ki, indən belə mənə onu ancaq bircə dəfə görmək qismət olacaq, özü də əlində bıçaq. O bu bıçağı iplə boynundan asıb həmişə kürəyində, köynəyinin altında gəzdirir. Görəndə də buna təəccüblənməyəcəyəm.

– Mən qorxaq deyiləm, – Ceyson dedi.

– Pis əməllərlə məşğul olmasaydın, bu iş də başına gəlməzdi, – atam dedi, – ancaq indi qorxma, yəqin, o, hardasa çox uzaqda, Sent-Luisdə-zaddadır. Bəlkə də, ayrı arvadı var, sən onun heç yadına da düşmürsən.

– Yox, elə şey olmaz, – Nensi dedi, – yoxsa mən onları yerin deşiyindən də olsa axtarıb tapardım, kəsdirərdim yataqlarının üstünü: əvvəlcə İsusun o arvadı qucaqlayan qollarını, sonra başını kəsərdim, sonra da o qadının qarnını yırtıb…

– Sısss, – atam onun sözünü kəsdi.

– Nensi, kimin qarnını? – Keddi soruşdu.

– Mən qorxub eləmirəm, – Ceyson öyündü. – Mən bu dalandan təkbaşına da keçərəm.

– Baah, – Keddi dedi, – biz burda olmasaq, heç bir addım da ata bilməzdin.

II

Dilsi hələ də xəstə yatırdı və biz hələ də hər axşam Nensini evinə ötürürdük. Bir axşam anam buna qəti etiraz elədi: «Nə vaxta qədər bu davam edəcək? Nə vaxta qədər məni bu boyda evdə tək qoyub, o qorxaq zəncini ötürəcəksiniz?!»

Biz mətbəxdə Nensiyə həsir döşəkdə yer saldıq. Bir gecə qəribə bir səsə oyandıq. Bu nə zümzümə idi, nə hıçqırıq, özü də mətbəxdən gəlirdi. Anamın yataq otağında işıq yanırdı. Atamın dəhlizə, ordan da arxa pilləkənlərlə aşağı düşdüyünü eşitdik və Keddi ilə mən də dəhlizə çıxdıq. Döşəmə yaman soyuq idi. Biz dəhlizdə dayanıb o səsə qulaq asdıqca soyuqdan ayağımızın birini götürüb, birini qoyurduq. Bütün zəncilərin çıxardığı səslər kimi, bu səs də həm zümzüməyə oxşayırdı, həm də yox..

Birdən səs kəsildi. Atamın yenə də mətbəxə düşdüyünü eşitdik, pilləkənlərə sarı gəldik. Sonra o səs təzədən eşidildi – bu dəfə lap pilləkənlərdən gəlirdi, amma zəif. Nensi pilləkənlərin tən ortasında divara söykənmiş halda oturub bizə baxırdı. Gözləri pişik gözləri kimi işim-işim işıldayırdı, elə bil, yekə bir pişik divarın dibinə qısılıb bizi pusurdu. Onun yanına düşdük, səsini kəsdi, atam əlində tapança mətbəxdən qayıdanacan yanında qaldıq. Atam Nensini də özü ilə götürüb təzədən mətbəxə düşdü və bir azdan onlar Nensinin döşəyini götürüb geri qayıtdılar.

Nensiyə bizim otaqda yer saldıq. Anamın otağında işıq sönən kimi gözləri təzədən işıldadı.

– Nensi, – Keddi pıçıldadı, – Nensi, yatmamısan?

O da nə isə mızıldandı, «Ohh» dedi, yoxsa «Yox» dedi, başa düşə bilmədim. Elə bil, bu sözü heç o demədi, hardansa, başqa yerdən gəldi, elə bil, heç Nensinin özü də burda, bizim yanımızda uzanmamışdı, gözlərini isə, yəqin, ona görə görürdüm ki, bayaq pilləkənlərdə onlara

çox diqqətlə baxmışdım: necə ki günəşə uzun-uzadı baxandan sonra gözlərini yumsan da, onu yenə də görürsən. «İsus, – Nensi pıçıldadı, – İsus».

– İsus idi oradaı? – Keddi dedi. – Mətbəxə soxulmaq istəyirdi?

– İsus, – Nensi dedi, bax belə: İiiiiisus. Onun səsi sönən kibrit çöpü və ya şam kimi tədricən batdı.

– Nensi o biri İsusu çağırır, – mən dedim.

– Nensi, sən bizi görə bilirsən? – Keddi pıçıldadı. – Sən də bizim gözlərimizi görə bilirsən?

– Zənciyəm, deməli, heç nəyəm, – Nensi dedi. – Bir Allah bilir, Allah özü bilir.

– Axı o mətbəxdə sənin gözünə nə görünüb? – Keddi pıçıldadı. – Axı kim ora soxulmaq istəyirdi?

– Allah özü bilir, – Nensi dedi; onun gözləri hələ də parıldayırdı. – Allah özü bilir.

Dilsi sağaldı. Daha yeməyimizi özü bişirirdi.

– Gərək bir-iki gün də yataydın, – atam ona dedi.

– Nə üçün? – Dilsi dedi. – Bir gün də gec gəlsəydim, daş-daş üstə qalmazdı. Çıxın, çıxın bayıra, qoyun bu mətbəxi qaydaya salım.

Axşam yeməyini Dilsi hazırlayırdı. Həmin axşam, şər qarışmamış Nensi mətbəxə gəldi.

– Haradan bilirsən ki, o qayıdıb? – Dilsi dedi. – Öz gözünlə görmüsən?

– İsus zəncidir, – Ceyson dedi.

– Görməsəm də, hiss eləyirəm ki, orda, xəndəkdə gizlənib.

– İndi, bu axşam? – Dilsi dedi. – Deyirsən indi o orda gizlənib?

– Dilsi də zəncidir, – Ceyson dedi.

– Götür, bir şey ye, – Dilsi Nensiyə dedi.

– İştaham yoxdur.

– Amma mən zənci deyiləm, – Ceyson dedi.

– Heç olmasa, qəhvə iç, – Dilsi ona qəhvə süzdü. – Hardan bilirsən ki, indi o ordadır? Hardan bilirsən ki, hökmən o bu gecə…

– Bilirəm, – Nensi dedi, – ordadır, məni gözləyir. Bilirəm. O qədər vaxtı onunla bir yerdə havayı yaşamamışam ki? Bir dəqiqə sonra nə edəcəyini mən onun özündən yaxşı bilirəm.

– Götür qəhvəni iç, – Dilsi dedi.

Nensi stəkanı götürüb ağzına yaxınlaşdırdı, içinə üfürdü, onun ağzı rezin kimi bir yerə yığıldı, büzüldü, dodaqları bozardı, elə bil, dodaqlarının rəngini də stəkana üfürmüşdü.

– Amma mən zənci deyiləm, – Ceyson dedi. – Sən zəncisən, Nensi?

– Mən Allahın qəzəbinə gəlmiş, kimsəsiz bir yetiməm, – Nensi dedi. – Tezliklə məni gəldiyim yerə göndərəcəklər.

III

Qəhvəni içməyə başladı. Stəkanı ikiəlli tutub qəhvəsini içə-içə yenidən inildədi. Elə bil, o bu səsi stəkanın içinə üfürürdü, çünki tezliklə qəhvə daşıb onun əllərini və paltarını buladı. Oturub bizə baxırdı. Qollarını dizlərinə dirsəkləyib, stəkanı əlləri arasında bərk-bərk sıxaraq onun bulaşıq şüşəsindən bizə sarı baxa-baxa inildəyirdi.

– Nensiyə baxın, – Ceyson dedi, – daha o bizə yemək bişirməyəcək, çünki Dilsi sağalıb.

– Di sus görək, – Dilsi dedi.

Nensi əlində stəkan bizə baxa-baxa inildəyirdi, elə bil, o, iki adam idi: biri bizə baxır, biri isə inildəyirdi.

– Niyə qoymursan ki, mister Ceyson şerifə zəng vurub hər şeyi ona danışsın?

Nensi o dəqiqə səsini kəsdi. Qəhvə stəkanı hələ də əlindəydi və onu qaldırıb içmək istəyəndə uzun qara əllərini əsməcə tutdu və yenə qəhvə tökülüb üstünü buladı. Stəkanı yerə qoydu. Ceyson ona baxırdı.

– Mən bunu içə bilmirəm, – Nensi dedi, – daha doğrusu, boğazımdan keçmir.

– Get bizə, – Dilsi dedi. – Fronni sənə yer salar, yatarsan. Özüm də indi gəlirəm.

– Elə bilirsən, o səndən qorxacaq? – Nensi dedi. – Yox, o, zəncilərdən qorxan deyil.

– Mən zənci deyiləm, – Ceyson dedi, – elə deyil, Dilsi?

– Elədi. – Dilsi dedi. O, üzünü Nensiyə tutmuşdu. – Məncə elədi. Bəs onda hara gedəcəksən?

Nensi bizə baxdı. Gözləri qəribə təlaş içindəydi, sanki, onların ömrü lap daralmışdı, sonra baxmağa vaxt tapmayacaqdılar, amma özü isə tələsənə oxşamırdı. O, üçümüzə də birdən baxmağa çalışırdı. «Yadınızdadır, bir gecə sizinlə bir yerdə yatdıq», – o dedi. Sonra sabahı gün yuxudan oyananda necə oynaqlaşdığımızdan danışdı. O günü atam yuxudan oyanıb, bizi səhər yeməyinə çağıranacan Nensinin yatdığı həsir döşəyin üstünə çıxıb səssiz-səmirsiz xeyli oynaqlamışdıq. «Gedin ananıza deyin, qoysun bu gecə sizinlə yatım, – Nensi dedi. – Mənə heç həsir döşək də lazım deyil. Yenə də çoxlu-çoxlu oynayarıq».

Keddi anamdan xahiş elədi. Ceyson da onunla qalxdı. «Olmaz, biz zənci ilə bir evdə yata bilmərik», – anam dedi. Ceyson ağlamağa başladı. Amma anam deyəndə ki, əgər kiriməsən bir də sənə konfet verməyəcəm, o dəqiqə səsini kəsdi. Sonra Ceyson dedi ki, Dilsi ona şokolad tortu bişirməsə, yenə ağlayacaq. Atam da ordaydı.

– Niyə tədbir görmürsən? – anam dedi. – Bəs o polislər nədən ötrüdür?

– Axı Nensi İsusdan niyə qorxur ki? – Keddi dedi. – Ana, sən atamdan qorxursan?

– Polis neyləyə bilər? – atam dedi. – Heç Nensi özü də onu gözüynən görməyib, polis onu hardan tapacaq?

– Bəs onda niyə qorxur? – anam dedi.

– Qorxur ki, o orda ola. Deyir ki, ürəyinə damıb: bu gecə o, hökmən orda olacaq.

– Bəs onda nə üçün vergi veririk? – anam dedi. – Mən indi bu boyda evdə tək-tənha oturub gözləməliyəm ki, görüm siz haçan bu zənci qadını evinə ötürüb qayıdacaqsınız?

– Sən nədən qorxursan? Mən də əlimdə bıçaq xəndəkdə uzanıb səni pusmuram ki? – atam dedi.

– Dilsi mənə şokolad tortu bişirməsə, ağlayacam, – Ceyson dedi.

Anam bizi bayıra qovdu, atam isə Ceysonu hədələdi ki, Dilsi ona şokolad tortu bişirsə də, bişirməsə də, dəxli yoxdur, bu dəqiqə səsini kəsməsə, döyüləcək. Mətbəxə düşdük.

– Atam deyir ki, getsin evə, qapını da arxadan bağlasın, heç nə olmaz, qorxmasın, – Keddi dedi. – Nədən qorxmasın, Nensi? İsus sənə hirslənib?

Nensi qollarını dizlərinə dirsəkləyib, qəhvə stəkanını iki əli ilə qıçları arasında tutub oturmuşdu. Gözlərini stəkana zilləmişdi. «Neynəmisən ki, İsusun sənə acığı tutub Nensi?» – Keddi dedi. Stəkan əlindən düşdü, amma sınmadı, içindəki qəhvə yerə töküldü. Nensi heç qımıldanmadı da, elə bil, stəkanı hələ də əlləri arasında tutmuşdu. Yenə də inildəməyə başladı, amma bu dəfə səsi çox yavaş çıxırdı. Zümzüməyə oxşayırdı da, oxşamırdı da. Biz ona baxırdıq.

– Bura bax, – Dilsi dedi, – bəsdi zıqqıldadın, özünü ələ al. Gedim Verşi də götürüm gəlim, səni ötürək. – O getdi.

Biz yenə ona baxdıq; çiyinləri titrəyirdi, amma səsini kəsmişdi. Dayanıb, gözlərimizi ondan çəkmirdik.

– Nensi, İsus sənə nə eləmək istəyir? – Keddi dedi. – Axı o, onsuz da burda yoxdur, başqa şəhərdədir.

Nensi də dönüb bizə baxdı: «Yadınızdadır, mən sizdə qalanda necə yaxşı oynayırdıq. Elə deyil?»

– Yox, mənim yadıma gəlmir, – Ceyson dedi.

– Sən heç orda yox idin ki? Anamnan yatmışdın, – Keddi dedi. – Sən yox idin orda.

– Gəlin bizə gedək, – Nensi dedi, – bizdə yaxşıca oynayarıq.

– Anam qoymaz, – mən dedim, – çox gecdir.

– Ona bildirmərik, – Nensi dedi, – sabah deyərik. Heç nə eləməz.

– O bizi buraxmaz, – mən təkrar etdim.

– İndi ona deməyəcəyik ki, – Nensi əl çəkmirdi, – xəlvətcə gedək.

– O, bizə getməyin demədi ki, – Keddi dedi.

– Soruşduq ki? – mən dedim.

– Getsəniz, anama deyəcəm, – Ceyson dedi.

– Nə istəsəniz eləyərik, – Nensi dedi. – Valideynləriniz heç nə deməz. Gözümü açandan sizə işləmişəm. Mənə görə heç nə deməzlər sizə.

– Mən getməkdən qorxmuram, – Keddi dedi, – bircə Ceyson qorxur. O bizi satacaq.

– Yox, mən heç kimə deməyəcəyəm, – Ceyson dedi.

– Deyəcəksən, – Keddi dedi, – hökmən deyəcəksən.

– Yox, deməyəcəyəm, – Ceyson dedi, – mən qorxaq deyiləm.

– Ceyson bizə getməkdən qorxmur, – Nensi dedi, – eləmi, Ceyson?

– Ceyson bizi satacaq, – Keddi dedi. Dalan qaranlıq idi. Çəmənliyin qapısına çatdıq. – Mərc gəlirəm ki, indi bu qapının arxasından bir şey çıxsa, qorxudan Ceysonun bağrı yarılar.

– Yarılmaz, – Ceyson dedi.

Çəmənliyi keçdik. Nensi bərkdən danışırdı.

– Niyə belə bərkdən danışırsan, Nensi? – Keddi soruşdu.

– Kim? Mən? – dedi. – Bunlara bir baxın, Kventin də, Keddi də, Ceyson da deyirlər ki, mən bərkdən danışıram.

– Elə danışırsan ki, elə bil, biz burda beş nəfərik, – Keddi dedi. – Elə bil, atam da burdadır.

– Kim, mən bərkdən danışıram, mister Ceyson? – Nensi dedi.

– Aaa, Nensi Ceysona «mister» dedi, – Keddi təəccübləndi.

– Mən yox, uşaqlar bərkdən danışır, – Nensi dedi.

– Biz bərkdən danışmırıq, – Keddi etiraz elədi. – Aramızda bircə sən bərkdən danışırsan, elə bil, atam da…

– Sısss, – Nensi dedi, – sıss, mister Ceyson!

– Nensi yenə Ceysona “mist...”

– Kiri, – Nensi Keddini susdurdu.

Bütün yol boyu-xəndəkdən adlayanda da, taxta hasarın barmaqlıqları arasından sivişib keçəndə də, ta evə çatanacan, o, bərkdən danışdı. Onun daxmasına çatdıq. Çox sürətlə gəlmişdik. Qapını açdı. Otaqdan lampa, Nensidən isə pilətə iyi gəlirdi; sanki, biri o birini gözləyirmiş kimi iyləndilər. Nensi lampaya od vurdu, qapını örtüb, arxadan cəftələdi. Yalnız indi bizə baxa-baxa səsini yavaşıtdı.

– Hə, indi neyləyəcəyik? – Keddi dedi.

– Nə eləmək istəyirsiniz? – Nensi bizdən soruşdu.

– Demədin oynayacağıq? – Keddi dedi.

Elə bil, bu evə nə isə olmuşdu, adam özünü birtəhər hiss eləyirdi. Yaman pis iyi gəlirdi. Ceyson da bu iyi duymuşdu:

– Mən burda qalmaq istəmirəm, – o dedi, – mən evə gedirəm.

– Gedirsən, get də, – Keddi dedi.

– Tək getmək istəmirəm axı, – Ceyson dedi.

– Hə, gəlin şənlənək, – Nensi dedi.

– Necə? – Keddi soruşdu.

O, qapının yanında dayanıb, bizə baxırdı; amma, elə bil, gözlərinin nuru sönmüşdü, elə bil, bu gözlər xarab olmuşdu, işləmirdi.

– Nə istəyirsiniz? – o dedi.

– Nağıl istəyirik, – Keddi dedi, – nağıl danışa bilərsən?

– Bilərəm, – dedi.

– Onda danış, – Keddi dedi. Dayanıb ona baxırdıq. – Deyəsən, sən heç nağıl da bilmirsən?

– Bilirəm, – Nensi dedi, – vallah, bilirəm.

O gəlib ocağın yanında, stulda oturdu. Ocağın közü hələ sönməmişdi, Nensi üfürüb onu alışdırdı, amma içəri, onsuz da, isti idi. Ocaq xeyli gücləndi. Nensi bir nağıl danışırdı. Elə danışırdı ki, elə bil, onun bizə baxan gözləri, bu gözlərdəki baxışlar, nağıl danışan səsi özününkü deyildi. Elə bil, o, hardasa başqa yerdə nəfəs alır, başqa yerdə gözləyirdi. Hardasa daxmadan kənarda. Səsi burda, içəridə, onun – başında iri paltar bağlamasını hasarın taxta barmaqlıqları arasından yüm-yüngül hava şarı kimi tərpənməz adladan Nensinin surəti isə orda, bayırdaydı. «Və şahzadə xanım quldurun gizləndiyi xəndəyə çatdı, oraya düşəndə dedi: «Bircə bu xəndəyi keçsəydim». Hımm, görüm sonrası necəydi…»

– Hansı xəndəyi? – Keddi soruşdu. – Bizim bu xəndəyi deyirsən? Axı şahzadə xanım nə üçün xəndəyə düşür?

– Çünki evlərinə gedən yol ancaq ordan idi, – Nensi dedi, – oranı keçib evlərinə çatacaq, içəri girib qapını arxadan cəftələyəcəkdi.

– Bəs nə üçün evə getməliydi? – Keddi soruşdu. – Niyə qapını arxadan cəftələməliydi?

IV

Nensi bizə baxdı. Daha danışmadı, elə hey bizə baxırdı. Ceyson onun qucağında oturmuşdu, gödək şalvarının balaqları daha da yuxarı dartılmış, qıçları çıl-çılpaq qalmışdı.

– Bu nağıl mənim xoşuma gəlmir, – o dedi, – mən evimizə getmək istəyirəm.

– Düzdü, bəlkə biz getsək… – Keddi dedi. Döşəmədən qalxdı. – Yəqin ki, indi evdə bizi axtarırlar. – O, qapıya sarı getdi.

– Dayan, – Nensi dedi, – açma qapını. – O, cəld ayağa qalxdı və Keddini ötüb qapıya çatanda dayandı, nə onu, nə də onun cəftəsini açdı.

– Niyə qapını açmırsan? – Keddi dedi.

– Gəlin lampanın başına yığışaq. – Nensi dedi. – Sizə maraqlı bir şey göstərəcəm. Hələ tezdi, hara gedirsiniz?

– Yox, biz getməliyik, – Keddi dedi, – maraqlı bir şey də yoxdur. – O da, Nensi də lampaya sarı gəldilər.

– Gəlin gedək evə, – Ceyson dedi, – getməsəniz, hamısını anama deyəcəm.

– İstəyirsiniz başqa nağıl danışım sizə, – Nensi dedi. O, lampanın lap yanında dayanmışdı, Keddiyə baxırdı, amma gözləri burnunun üstündə çubuğu düz saxlamağa çalışan adamın gözləri kimi yuxarı zillənmişdi. Düzdür, o, Keddini görmək üçün aşağı baxırdı, amma adama elə gəlirdi ki, üzüyuxarı, burnunun üstündəki çubuğa baxır.

– Mən nağıl istəmirəm, – Ceyson dedi, – getməsək, ayağımı yerə döyəcəm.

– Bu, çox maraqlı nağıldı, – Nensi dedi, – bayaqkından da yaxşıdır.

– Nədən danışır? – Keddi dedi. Nensi lampanın yanında durmuş, əlini onun üçtünə qoymuşdu. Lampa işığında əli uzun qara ağaca oxşayırdı. – Niyə əlini lampadan çəkmirsən? – Keddi dedi. – Yandırmır?

Nensi lampa şüşəsinə yapışdırdığı əlinə baxdı və o saat əlini çəkdi. Keddinin üzünə baxa-baxa qolunu aşağı saldı, yekə qara əli yanına düşdü, sallana-sallana qaldı, elə bil, onu biləyinə iplə calamışdılar.

– Gəlin maraqlı bir şey fikirləşək, – Keddi dedi.

– Mən evimizə getmək istəyirəm, – Ceyson dedi.

– Qarğıdalı qovuraq? – Nensi gah Keddinin, gah Ceysonun, gah mənim, sonra yenə Keddinin üzünə baxdı.

– Hə, necədi?

– Mən qarğıdalı istəmirəm, – Ceyson dedi. – Yenə konfet olsaydı, hə…

Nensi Ceysonun üzünə baxdı: – Tavanı da odun üstündə sən tutarsan. – Onun uzun, qara, enli əli hələ də sallana-sallana qalmışdı.

– Yaxşı, – Ceyson razılaşdı, onda qalıram, çünki Keddi onu tuta bilməz. Amma tavanı Keddiyə versəniz, evimizə gedəcəm.

Nensi ocaq qaladı.

– Nensiyə baxın, əlini odun içində saxlayıb, – Keddi dedi. – Nə olub sənə, Nensi?

– Məndə qarğıdalı olmalıdı, – Nensi dedi, – az da olsa, olmalıdı.

O, tavanı çarpayının altından çıxardı, tavanın qulpu sınmışdı. Ceyson ağlamağa başladı:

– Deməli, biz qarğıdalı qovura bilməyəcəyik.

– Daha gecdir, evə gedək, – Keddi dedi. – Gedək, Kventin.

– Dayanın, – Nensi dedi. – Dayanın, bu dəqiqə tavanın qulpunu yapışdıracam. İstəyirsiniz siz də gəlin kömək eləyin.

– Məncə, daha heç nə lazım deyil, – Keddi deyil. – Onsuz da, çox gecdir.

– Kömək elə, Ceyson, kömək elə, yapışdırım.

– Yox, eləmirəm, – Ceyson dedi. – Mən evimizi istəyirəm.

– Sıss, – Nensi dedi, – sısss. Bax. Mənə bax. İndi bunu elə düzəldəcəm ki, Ceyson onu əlində tutub, qarğıdalı qovuracaq. – Bir az məftil qırığı tapıb, tavanın qulpunu bərkitdi.

– Yenə qırılacaq, – Keddi dedi.

– Qırılmaz, – Nensi dedi, – bir baxın. Hə, indi gəlin qarğıdalını dənələyək.

Qarğıdalı da çarpayının altındaydı. Onu dənələyib, tavaya tökdük. Nensi Ceysonun qolundan yapışıb tavanı odun üstünə uzatdı.

– Hanı, çırtlamır ki? – Ceyson dedi. – Yox, mən evə gedirəm.

– Bir az səbrin olsun, – Nensi dedi. – İndi çırtlayacaq. Ay gülməli olacaq ha!

O, ocağa yaxın oturmuşdu. Lampanın alovu o qədər çox idi ki, his eləməyə başladı.

– Niyə onu bir az azaltmırsan? – mən dedim.

– Eyib etməz, – Nensi dedi, – sonra təmizləyəcəm. Bir az gözləyin, bu dəqiqə çırtaçırt başlayacaq.

– Məncə, başlamayacaq, – Keddi dedi. – Vaxtdır, evə getməliyik. Onlar indi orda nigarandırlar.

– Hara gedirsiniz? – Nensi dedi. – İndi başlayır. Dilsi onlara deyəcək. Biləcəklər ki, mənim yanımdasınız. Gözümü açandan sizə işləmişəm. Bura gəldiyinizə görə sizə heç nə deməzlər. Bir az gözləyin, bu dəqiqə başlayacaq.

Ceysonun gözünə tüstü doldu və o ağlamağa başladı. Tava əlindən ocağa düşdü. Nensi yaş əsgi gətirib onun üzünü silsə də, Ceyson kirimədi.

– Kiri, – Nensi dedi, – kiri, – amma o kirimədi. Keddi tavanı ocaqdan çıxartdı.

– Hamısı yanıb, – Keddi dedi. – Yenə qarğıdalı var, Nensi?

– Bayaq hamısını tavaya tökdünüz? – Nensi dedi.

– Hə, – Keddi dedi. Nensi onun üzünə baxdı. Sonra tavanı götürüb ağzını açdı, içindəkiləri ətəyinə töküb, uzun qara əlləri ilə dənələri saf-çürük eləməyə başladı. Biz gözümüzü ondan çəkmirdik.

– Ayrısı yoxdur ki? – Keddi dedi.

– Var, – Nensi dedi. – Var. Budu e, hamısı yanmayıb ki. Bu dəqiqə onları seçim…

– Mən evə getmək istəyirəm. – Ceyson dedi. – Hamısını anama deyəcəm.

– Kiri görək, – Keddi birdən dedi. Hamımız nəfəsimizi çəkib qulaq asdıq. Nensinin başı o dəqiqə geri, arxadan cəftələnmiş qapıya sarı döndü, gözləri isə lampa işığından qırmızı rəng aldı. – Kimsə gəlir, – Keddi dedi.

Nensi ocağın başında oturub, uzun qara əllərini dizləri arasında ovuşdura-ovuşdura təzədən inildəməyə başladı; birdən gözləri iri yaş damcıları ilə doldu və ocaqdakı alovun işığı altında qırmızı şara oxşayan damcılar yanaqlarından süzülüb çənəsinə, ordan isə aşağı yuvarlandı.

– Nensi ağlamır, elə deyil? – mən dedim.

– Yox, mən ağlamıram, – Nensi dedi. Gözləri yumulu idi. – Mən ağlamıram. Kimdir o?

– Bilmirəm, – Keddi dedi və qapını açıb bayıra boylandı. – Biz getməliyik. Budur, atam da gəldi.

– Hamısını deyəcəyəm, – Ceyson dedi, – məni də siz gətirdiniz.

Nensinin gözlərindən hələ də yaş axırdı. Bizə sarı döndü:

– Qulaq asın, siz də ona deyin. Deyin ki, burda oynamaq istəyirik. Deyin ki, səhərə kimi burda qalmaq istəyirsiniz. Deyin ki, məni də sizinlə aparsın, lap döşəmədə yataram, mənə döşək-zad lazım deyil. Orda oynayarıq sizinlə. Keçən dəfəki kimi, yadınızdadır?

– Oynayıb-eləmədin, – Ceyson dedi, – hələ məni də ağlatdın. Gözümə tüstü doldurdun. Hamısını atama deyəcəm.

V

Atam içəri girdi. Bizə baxdı. Nensi ayağa qalxmadı.

– Deyin ona, – o dedi.

– Keddi bizi məcbur elədi, – Ceyson dedi, – mən gəlmək istəmirdim.

Atam ocağa yaxınlaşdı. Nensi başını qaldırıb onun üzünə baxdı.

– Reyçel xalagilə gedib, orda qala bilməzsən? – atam dedi.

Nensi onun üzünə baxırdı, əlləri hələ də dizlərinin arasındaydı.

– O, burada yoxdur, – atam dedi, – olsaydı, gələndə görərdim, hər yanda sakitlikdir.

– O, xəndəkdədir, – Nensi dedi, – bilirəm, orda gizlənib, gözləyir.

– Boş şeydir, – atam dedi. Nensinin üzünə baxdı. – Nədən bilirsən ki, ordadır?

– Nişanəsini görmüşəm, – Nensi dedi.

– Nə nişanə, – atam soruşdu.

– Otağa girəndə masanın üstündə gördüm. Qanı hələ qurumamış bir parça donuz əti. Lampanın yanına qoymuşdular. O buralardadır, bilirəm. Siz bu qapıdan çıxan kimi məni o dünyaya göndərəcək.

– Hara göndərəcək, Nensi?, – Keddi dedi.

– Mən xəbərçi deyiləm, – Ceyson dedi.

– Boş şeydir, – atam dedi.

– Ordadır, bayırda, – Nensi dedi. – Bu dəqiqə pəncərədən bizi pusur, sizin getməyinizi gözləyir. Siz gedən kimi…

– Boş şeydir, – atam dedi. – Dur qapını bağla, səni aparıb Reyçel xalagilə qoyaq.

– Bunun nə faydası? – Nensi dedi. O daha atamın üzünə baxmırdı, əksinə, indi atam ona, onun uzun süst, heç cür sakitləşmək bilməyən əllərinə baxırdı. – Uzatmağın nə faydası?

– Bəs onda neyləmək istəyirsən? – atam dedi.

– Bilmirəm, – Nensi dedi. – Neyləyə bilərəm ki? Uzaqbaşı bir az gecikdirmək olar, amma nə faydası? Görünür, bu mənim alnıma yazılıb. Görünür, nə yazılıb, o da olacaq, başqa çarə yoxdur.

– Nə olacaq, Nensi? – Keddi dedi, – sənə nə olacaq?

– Heç nə, – atam dedi, – gedək, yatmaq vaxtıdır.

– Keddi məni məcbur elədi, – Ceyson dedi.

– Sən də Reyçel xalagilə get, qorxma, – atam Nensiyə dedi.

– Bunun nə faydası? – Nensi dedi. Qollarını dizlərinə dirsəkləyib, əlləri qıçları arasında ocağın başında oturmuşdu. – Hətta sizin mətbəxinizdə olsam da, uşaqların yataq otağında yatsam da, xeyri yoxdur, çünki sabah tezdən məni burda qan içində…

– Kiri… – atam onun sözünü kəsdi. – Qapını arxadan yaxşı-yaxşı bağla, işığı da keçir, gir yerə.

– Mən qaranlıqdan qorxuram, – Nensi dedi. – İstəmirəm ki, o məni qaranlıqda…

– Deməli, bütün gecəni səhərə kimi elə beləcə, otaqda işığı yanılı qoyub oturacaqsan? – atam dedi. Nensi yenidən inildəməyə başladı, ocağın yanında, əlləri qıçları arasında oturmuşdu. – Eh, cəhənnəmə ki, özün bilərsən, – atam dedi. – Gəlin gedək, uşaqlar, yatmaq vaxtıdır.

– Siz gedən kimi mənim vaxtım bitəcək, – Nensi dedi. Bu dəfə həyəcansız danışırdı. Sifəti də əlləri kimi sakitləşmişdi. – Bircə onu deyim ki, tabut üçün topladığım pulu Lavlediyə vermişəm.

Mister Lavledi qısaboy, həmişə üst-başı kirli gəzən sığorta agenti idi və hər şənbə günü səhər-səhər daxma və mətbəxləri bir-bir gəzib hər zəncidən on beş sent tabut pulu yığırdı. Əvvəllər arvadı ilə bir yerdə mehmanxanada yaşayırdı. Bir gün arvadı intihar elədi. Bir uşağı – qızı vardı, arvadı öləndən sonra onu da götürüb harasa getdi. Bir-iki həftədən sonra geri qayıtdı. Biz onu hər şənbə günü zənci məhəlləsinə tələsən görərdik.

– Boş şeydir, heç nə olmaz, – atam dedi, – Allah qoysa, sabah tezdən mətbəxdə ilk salamlaşdığım adam sən olacaqsan.

– Çox çətin, – Nensi dedi. – Bir də ki bu Allahın işidir. Özü bilən yaxşıdır.

IV

Biz onu elə orda, ocaq başında oturulu qoyub evdə çıxdıq.

– Gəl qapını arxadan bağla, – atam ona dedi. Ancaq o, yerindən tərpənmədi. Heç dönüb bizə sarı baxmadı da, eləcə lampa ilə ocağın arasında dinməzcə oturmuşdu. Xeyli gedəndən sonra dönüb baxanda, onu açıq qapıdan da görmək olurdu.

– Axı nə olacaq, ata? – Keddi soruşdu.

– Heç nə, – atam dedi. Ceysonu boynuna mindirmişdi, ona görə də Ceyson indi hamımızdan hündür idi. Xəndəyə düşdük, mən dinməzcə ətrafa göz gəzdirdim, amma ay işığı ilə kölgələrimiz bir-birinə qarışdığından heç nəyi görmək mümkün deyildi.

– İsus burda gizlənib, o, indi bizi görür? – Keddi soruşdu.

– O burda yoxdur, – atam dedi, – çoxdan çıxıb gedib bu şəhərdən.

– Siz məni məcbur elədiniz, yoxsa mən gəlmək istəmirdim, – Ceyson yuxarıdan səsləndi. Üzüyuxarı baxanda adama elə gəlirdi ki, atamın iki başı var: biri kiçik, biri böyük.

Xəndəkdən çıxdıq. Biz hələ də hər dəfə geri döndükcə Nensinin evini, onun açıq qapısını aydın görürdük, amma qapısı açıq evdə, ocaq başında tək-tənha oturmuş Nensinin özünü görmək mümkün deyildi, çünki, o gözləməkdən bezmişdi.

– Daha bezmişəm, – o dedi, – niyə mən zənci doğulmuşam, axı bunda mənim nə günahım?

Biz onu görməsək də, səsini eşidə bilirdik, çünki xəndəkdən çıxandan sonra yenə onun iniltisi gəlirdi. Bu səs zümzüməyə oxşayırdı da, oxşamırdı da.

– Bəs indi paltarlarımızı kim yuyacaq, ata? – mən soruşdum.

– Mən zənci deyiləm, – Ceyson yuxarıdan, atamın başının üstündən dedi.

– Ondan da pissən, – Keddi dedi. – Həm də xəbərçisən. İndi qarşıdan bir şey sıçrasa, zəncidən də pis qorxarsan.

– Qorxmaram, – Ceyson dedi.

– Qorxudan çığırarsan, – Keddi dedi.

– Keddi, – atam hirsləndi.

– Çığırmaram, – Ceyson dedi.

– Ağciyər, – Keddi dedi.

– Kendeysi, – atam yenə hirsləndi.

NİTQ VƏ MÜSAHİBƏLƏR

U. FOLKNERİN NOBEL NİTQ

Mən başa düşürəm ki, bu mükafat mənə deyil, mənim əməyimə – şan-şöhrət üçün yox, heç mənfəət üçün də deyil, yalnız insan ruhunun materialları əsasında bu günədək mövcud olmayan bir şeyi yaratmaq naminə bütün həyatım boyu qan-tər və min bir əzab-əziyyət içərisində gördüyüm işə verilib. Buna görə də mən bu mükafatı onu almağa vəkil olunmuş şəxs kimi qəbul edirəm. Bu mükafatın pul qismini, onun məqsədinə və bütün tarixinə layiq bir şeyə sərf etmək mənim üçün çətin olmayacaq. Amma mənə göstərilən bu diqqətdən layiqincə istifadə etmək və bu tribunadan öz həyatlarını yazıçı əməyi kimi ağır, əzab-əziyyətli bir işə həsr etmək arzusunda olan gənc oğlan və qızlara səslənmək istərdim və ümidvaram ki, gələcəkdə haçansa indi mənim dayandığım bu kürsüdə dayanacaq kəs də hal-hazırda onların arasındadır.

Bizim zəmanəmizin faciəsi hamımızın kütləvi şəkildə cismani qorxu içərisində yaşamağımızdır, biz o qədər çoxdan bu vəziyyətdəyik ki, artıq onunla barışmışıq. İnsan ruhunun bundan başqa heç bir problemi yoxdur. Onun üçün yalnız bir sual qalıb: məni haçan məhv edəcəklər? Buna görə də müasir gənc yazıçılar insan qəlbinin daim özü ilə münaqişədə olması ilə bağlı problemləri unudublar, halbuki əsl ədəbiyyatı məhz bu problemlər doğurur, yalnız onlar barədə yazılanlar dəyərli ola bilər və yalnız onlar qan-tərə və min bir əzab-əziyyətə dəyər.

Yazıçı bunları unutmamalıdır. O özünə aşılamalıdır ki, qorxu pis şeydir, bunu özünə aşılayandan sonra isə qorxu deyilən şeyi həmişəlik unutmalı, öz yaradıcılıq emalatxanasından sevgi, şərəf, qürur və fədakarlıq kimi köhnə, əbədi universal həqiqətlərdən savayı – çünki bunlarsız istənilən əsər ölüdür, unudulmağa məhkumdur – qalan hər şeyi bir kənara atmalıdır. Yazıçı buna əməl etmədikcə onun əsəri lənət təhlükəsi ilə üz-üzə qalacaq. O, sevgidən deyil şəhvətdən, itkisi olmayan məğlubiyyətdən, ümidi olmayan qələbədən və ən dəhşətlisi, amansız və yaxud acımasız bir hisslə yazacaq. Onun təsvir etdiyi kədər hamının anladığı kədər olmayacaq, heç bir ürəkdə dərin iz buraxmayacaq. O, insanın qəlbi deyil, onun mədəsi haqqında yazacaq.

Yazıçı bütün bunları təkrar-təkrar özünə aşılamadıqca, o, kənarda dayanıb insanın məhvini müşahidə edən yad, laqeyd bir adam kimi yazıb yaradacaq. Mən insanın məhvi haqqındakı düşüncəni inkar edirəm. İnsanın ölümsüz olduğunu demək asandır, çünki o, hər şeyə axıracan dözə biləcək: çünki tənha qaya başında, qaranlıq uçurum üzərində məqsədsiz asılı qalan tale zənginin son cingiltisi öləziyib sönəndən sonra da, hətta o vaxt da daha bir səs – zəif, amma batırılmayan İnsan səsi qalacaq. Mən bunu qəbul etmirəm. Mən buna inanıram ki, insan nəinki axıracan dözəcək, o həm də zəfər çalacaq. İnsan ona görə ölümsüz deyil ki, onun səsi heç zaman tükənməyəcək, ona görə ölümsüzdür ki, onun öz təbiəti etibarı ilə acımaya, qurban getməyə, yenilməzliyə qadir qəlbi, ruhu var. Yazıçının, şairin borcu məhz bu şeylər haqqında yazmaqdır.

Onun vəzifəsi insan qəlbini möhkəmləndirmək, bəşəriyyətin əbədi şöhrətini təşkil edən kişilik, şərəf, ümid, qürur, yanımcıllıq, fədakarlıq kimi keyfiyyətləri insana xatırlatmaqla ona hər şeyə axıracan dözə, duruş gətir bilməkdə kömək etməkdir. Şairin səsi, sadəcə, əks-səda olaraq qalmamalı, insana axıracan dözməkdə və zəfər çalmaqda kömək etməlidir.

1950

CİN STAYNLA MÜSAHİBƏ

Sual: Bu yaxınlarda demisiniz ki, müsahibə verməyi xoşlamırsınız. Nə üçün?

Folkner: Məncə, səbəb bundadır ki, mən şəxsiyyətimlə bağlı suallara kəskin reaksiya verirəm. Yaradıcılığım barədə nə soruşsalar, cavab verməyə çalışıram. Şəxsi suallara isə cavab verə də bilərəm, verməyə də, hətta cavab versəm belə, eyni suala cavabım sabah tamam başqa cür ola bilər.

Sual: Bəs bu suallar sizə bir yazıçı kimi ünvanlanarsa?

Folkner: Əgər Folkner olmasaydı, Heminquey, Dostoyevski və yaxud başqa biri – burada kimliyin elə bir əhəmiyyəti yoxdur – eyni şeyləri yazacaqdı. Bunu belə bir fakt da təsdiqləyir ki, Şekspir pyeslərinin, ən azı, üç müəllif tərəfindən yazıldığı iddia olunur. Ən mühümü budur ki, "Hamlet", "Yay gecəsinin yuxusu" kimi əsərlər mövcuddu, onları kimin yazdığı isə tamamilə əhəmiyyətsizdir. Sənətkar özü-özlüyündə əhəmiyyət kəsb etmir. Yaradılan əsər əhəmiyyətlidi, çünki yeni heç nə deyə bilməzsən. Şekspir, Balzak, Homer, demək olar ki, eyni şey haqqında yazıblar, əgər onlar daha min, iki min il yaşasaydılar, naşirlər yeni müəlliflər axtarmalı olmazdılar.

Sual: Hətta yeni heç nə deyilməyəcəyi ilə razılaşsaq belə, bəyəm müəllif fərdiliyi heç bir əhəmiyyət kəsb etmir?

Folkner: Edir – amma müəllifin özü üçün, bütün digər adamlar üçün isə hər şeydən əvvəl əsərin özü maraqlı olmalıdı, müəllifin şəxsiyyəti yox.

Sual: Bəs sizin müasirləriniz?

Folkner: Bizim heç birimiz kamillik idealına nail ola bilməmişik. Mən yazıçıları, namümkün olanı mümkün eləmək cəhdimizdə düçar olduğumuz ən parlaq məğlubiyyətlərə görə qiymətləndirirəm. Mənə elə gəlir ki, öz əsərlərimi təzədən yaza bilsəydim, onlar, heç şübhəsiz, indikindən daha yaxşı olardı və bunu bilmək sənətkar üçün həmişə faydalıdır. Axı məhz buna görə işləməyə davam edirsən: hər dəfə ümid edirsən ki, bu dəfə yaxşı olacaq, bu dəfə hökmən alınacaq. Əslində isə, əlbəttə ki, yenə alınmayacaq, amma bu cür düşünmək, buna ümid etmək hər bir sənətkar üçün faydalıdı. Çünki əgər yazdığın arzuladığın kimi alınsaydı, ideala nail olsaydın, onda sənə yalnız öz boğazını kəsmək, yaxud da o kamillik zirvəsindən özünü aşağı atmaq qalardı. Mən özüm uğursuzluğa düçar olmuş şairəm. Bəlkə də, hər bir romançı əvvəlcə özünü şeirdə sınayır və bunun onda alınmadığına əmin olanda, öz formasına görə şeirdən sonra ikinci yerdə duran hekayə janrına girişir. Və yalnız buna da gücü yetmədiyinə inanandan sonra roman yazmağa başlayır.

Sual: Elə bir düstur varmı ki, ona əməl etməklə əsl yazıçı olmaq mümkündü?

Folkner: Bu, 99 faiz istedad, 99 faiz intizam, 99 faiz zəhmət düsturudu. Əldə edilənlə heç vaxt kifayətlənməməkdi. Çünki heç vaxt istədiyin kimi alınmır. İmkanın çatdığı səviyyədən daha yüksəyə can atmaq, daha yüksək zirvələri arzulamaq gərəkdi. Öz müasirlərini, yaxud sələflərini ötüb keçməyə çalışmaq lazım deyil. Özünü ötüb keçməyə çalışmaq lazımdır. Yazıçı öz işinin dəli-divanəsidi. Niyə belə olduğunu o özü bilmir, daha doğrusu, bu barədə düşünməyə vaxtı yoxdu. Yazıçı öz əsəri üçün materialı istədiyi yerdən çox rahatca götürə, iqtibas eləyə, hətta oğurlaya bilər.

Sual: Yəni demək istəyirsiniz ki, yazıçı prinsipsiz də ola bilər?

Folkner: Mən demək istəyirəm ki, yazıçı yalnız öz sənəti qarşısında məsuliyyət daşıyır. Buna görə də əsl yazıçı tamam prinsipsiz olmaq zorunda da qala bilər. Onun bir arzusu var. Və bu arzu onu elə şiddətlə özünə cəzb edir ki, yazıçı, sadəcə, ondan xilas olmalıdı. Yoxsa heç cür rahat bilməz. Buna görə də hər şey: vicdan, qürur, ədəb-ərkan, dinclik və xoşbəxtlik bir kənara atılır – təki kitabı yazıb qurtara bilsin. Əgər bunun üçün öz anasını qarət eləmək lazım gələrsə, o buna da hazırdı: "Yunan güldanı şəninə oda"[28] onlarla qoca qarıdan daha qiymətlidi.

Sual: Yəni demək istəyirsiniz ki, sıxıntılı həyat, xoşbəxtlikdən və hətta vicdani keyfiyyətlərdən məhrumluq yaradıcılıq üçün önəmli şərtlərdir?

Folkner: Yox, əgər həyatda ruhi rahatlığa, müvazinətə can atırsansa, bunların hamısı vacibdi, amma sənət üçün ruhi rahatlıq, müvazinət tamamilə lüzumsuz şeylərdir.

Sual: Bəs onda yaradıcılıq üçün ideal mühit necə olmalıdı?

Folkner: Yaradıcılıq üçün mühitin heç bir əhəmiyyəti yoxdu, harda qazanıldığı onu qətiyyən maraqlandırmır. Misal üçün elə məni götürək. Mənə təklif ediləcək ən yaxşı iş fahişəxana sahibi olardı. Belə hesab edirəm ki, orada yaradıcılıq üçün ideal mühit var. İqtisadi cəhətdən tam azadsan, qorxu və aclıq hissi keçirmirsən, daldalanmağa yerin var, iş-gücün isə yalnız və yalnız pulları saymaq və ayda bir dəfə yerli polisə haqqını verib canını qurtarmaq olur, başqa heç nə eləmirsən. Səhərlər boş-bekarsan, işləmək üçün isə bu, əla vaxtdır. Axşamlar darıxıb eləmirsən, ətrafın adamlarla doludur, kimlə istəsən ünsiyyət qura bilərsən; sonra da cəmiyyətdə mövqe sahibi olursan, daha heç nə eləmirsən, bütün işləri madam özü idarə edir, bütün sakinlər–qadınlar sənə ehtiram göstərir, "ser" deyə müraciət edirlər. Əyalətdəki butlegerlər[29] də sənə "ser" deyir, sən özün də polisləri, sadəcə, öz adları ilə çağırırsan.

Bu mənada, sənətkar üçün ən ideal mühit sakitlik, tənhalıq və bir də çox da baha başa gəlməyən kef süfrəsidir. Sənətkar üçün qəbuledilməz mühit yüksək təzyiq, daimi yorğunluq və əsəb gərginliyi doğurur. Öz təcrübəmdən bilirəm, işləmək üçün kağız, tütün, yemək, bir qədər də viski lazımdır.

---

[28] "Yunan güldanın şəninə oda" – ingilis şairi Con Kitsin (1795 – 1821) ən yaxşı şeirlərindən biridir, 1819-cu ildə yazılıb

[29] Butleger – qanuna zidd olaraq spirtli içki alveri ilə məşğul olan adam

Sual: Burbon viskisimi?

Folkner: Yox, mən vasvası adam deyiləm. Heç nə olmayan yerdə şotland viskisi ilə də keçinə bilirəm.

Sual: İqtisadi azadlığı xatırlatdınız. Sizcə, yazıçının buna ehtiyacı varmı?

Folkner: Yox, yazıçıya iqtisadi azadlıq lazım deyil. Ona yalnız qələm və kağız lazımdı. Mən eşitməmişəm ki, hansısa yazıçı müəyyən məbləğ alandan sonra nəsə dəyərli bir şey yazmış olsun. Əsl yazıçı hansısa pul fonduna ümid eləmir. Onun bütün fikri-zikri öz yaradıcılığı ilə məşğuldur. Əgər o, əsl yazıçı deyilsə, vaxtın və iqtisadi azadlığın yoxluğunu bəhanə etməklə özü özünü aldadır. Oğrular, butlegerlər, oğurluq mal satanlar əsl sənət əsəri yaratmağa qadirdilər. Adətən, insan hansı çətinliklərə və məhrumiyyətlərə dözə biləcəyini sınamaqdan çəkinir. Öz dözümlülüyünü yoxlamaqdan qorxur. Əsl yazıçını isə heç nəylə qorxuda bilməzsən. Ona hökm edə biləcək yeganə bir şey varsa, o da ölümdü. Əsl yazıçı uğur və yaxud zənginlik barədə düşünmür. Uğur qadın kimi bir şeydir: əgər onun önündə sıyılsan, o sənə nifrət edəcək. Ancaq ona hiss etdirsən ki, səni, ümumiyyətlə, maraqlandırmır, bəlkə də özü sənin diqqətini cəlb etməyə çalışar.

Sual: Kinoda işləmək sizin yaradıcılığınıza xələl gətirə bilərmi?

Folkner: Yaxşı yazıçıya heç bir şey xələl gətirə bilməz. Pis yazıçıya isə çətin ki, nəsə kömək edə bilsin. Onun üçün, ümumiyyətlə, belə bir problem mövcud deyil, çünki o öz ruhunu hansısa üzgüçülük hovuzuna satıb.

Sual: Sizcə, kinoda işləyərkən yazıçı kompromisə getməyə məcburdumu?

Folkner: Şübhəsiz. Kino öz təbiəti etibarı ilə əməkdaşlıq tələb edir, hər cür əməkdaşlıq isə müəyyən mənada, kompromis deməkdir: nəsə qazanırsan, amma həm də nədənsə imtina etməli olursan.

Sual: Hansı aktyorlarla işləmək sizin üçün daha xoşdur?

Folkner: Ən rahat işlədiyim aktyor Hemfri Boqartdır[30]. Biz onunla "Malik olmaq ya olmamaq" filmində, bir də "Uzun yuxu"da bir yerdə işləmişik.

Sual: Daha bir filmdə işləmək istərdinizmi?

Folkner: Bəli, Corc Oruellin "1984" adlı romanı əsasında ssenari yazmaq istərdim. Mənim ideyama görə, bu film elə bitməlidir ki, o, təkrar etməkdən usanmadığım bir tezisi sübut etsin: insan azadlığa olan əzəli sevgisi sayəsində ölümsüzdü.

Sual: Siz kinoda ən yaxşı nəticələrə hansı yolla nail olmusunuz?

Folkner: Mənə elə gəlir ki, aktyorlar və müəllif ssenarini bir kənara atıb, səhnəni dərhal kamera önündə oynamağa başlayanda bu, daha yaxşı alınırdı. Əgər mən kino işinə ciddi yanaşmasaydım, daha doğrusu, kinoya və özümə olan adi hörmətim sayəsində ona ciddi yanaşa

---

30 – – ə

biləcəyimi hiss etməsəydim, ümumiyyətlə, bu işə girişməzdim. Ancaq indi anlayıram ki, məndən yaxşı ssenarist çıxmaz, buna görə də kinoda işləmək mənim üçün heç vaxt yazıçı əməyi qədər daxili tələbata çevrilməyəcək.

Sual: Hollivudda başınıza gələn o məşhur hadisə barədə danışa bilərsinizmi?

Folkner: Mən M.Q.M[31]. studiyasında müqavilə üzrə işimi başa vurmuşdum və evə qayıtmağa hazırlaşırdım. Mənimlə birlikdə çalışan rejissor dedi: "Bizimlə yenə işləmək istəsəniz, xəbər göndərin, mən yeni müqavilə barədə studiya ilə danışaram". Ona təşəkkür edib, evə yollandım. Təxminən altı aydan sonra həmin rejissora teleqram vurdum ki, yeni sifariş almaq istəyirəm. Tezliklə Hollivuddan bir məktub gəldi, içində pul çeki – ilk həftənin əmək haqqı var idi. Buna məəttəl qaldım, çünki studiyanın əvvəlcə mənə rəsmi bildiriş, çağırış, yaxud müqavilə göndərəcəyini güman edirdim və bu qərara gəldim ki, yəqin, müqavilə gecikib, növbəti poçtla gələr. Bunun əvəzinə bir həftə sonra yeni bir məktub aldım, içində yenə çek vardı, bu da ikinci iş həftəsinin əmək haqqıydı. Bütün bunlar 1932-ci ilin noyabrında başladı və 1933-cü ilin mayına qədər davam etdi. Sonra studiyadan bu məzmunda teleqram aldım: "Uilyam Folkner, Oksford, Missisipi. Siz hardasınız? M.Q. M. studiyası".

Mən də onlara belə bir cavab yazdım: "M.Q.M. studiyası. Kalver-Siti, Kaliforniya. Uilyam Folkner".

Operator qız soruşdu: "Bəs mətn hanı, mister Folkner?" Ona dedim: "Hamısı budu". O isə dedi: "Təlimata görə, mən mətnsiz teleqram göndərə bilmərəm, nəsə bir şey fikirləşin". Belə olan halda biz müxtəlif teleqram nümunələrini gözdən keçirib, indi yadımda deyil, nəsə yubiley münasibətilə göndərilən şablon bir təbrik mətni seçdik və onu göndərdik. Sonra şəhərlərarası telefon zəngi gəldi – studiyadan zəng vurmuşdular, mənə təklif etdilər ilk təyyarə reysi ilə Nyu Orleana uçub, rejissor Brauninqin qəbulunda olum. Oksfordda qatara minib səkkiz saatdan sonra Nyu Orleanda ola bilərdim. Ancaq studiyanın məsləhətinə əməl edib Memfisə getdim. Ordan Nyu Orleana təyyarə çox gec-gec uçurdu. İlk reys düz üç gündən sonra oldu.

Saat 6-da artıq mister Brauninqin qaldığı mehmanxanada idim. Onların nəyləsə bağlı qəbul günüydü. O mənə buyurdu ki, gedib yaxşıca dincəlim və səhər tezdən işə başlamağa hazır olum. Ondan filmin süjetini soruşdum. O isə dedi: "Hə-ə, gedin filan otağa, ssenarist orda oturur. O sizə süjetin məzmununu danışar".

Həmin otağa getdim. Ssenarist otaqda tək-tənha oturmuşdu. "Siz dialoqları yazandan sonra mən sizə süjeti göstərərəm", – o dedi. Brauninqin yanına qayıtdım.
O da "Qayıdın onun yanına deyin ki, ... yox yaxşısı budur, gedin yatıb dincəlin, sabahdan isə işə başlayın" dedi.

---

[31] M. Q. M. (Metro – Qolduin – Meyer) – Hollivud kinoşirkəti. Folkner 1932, 1935–1937, müharibə illərində və 1951-ci ildə Hollivudda çalışıb.

Sabahı gün səhər biz hamımız, ssenaristdən savayı, kiçik, rahat, kirayəyə götürülmüş bir qayıqda yüz mil aralıdakı Böyük adaya üzdük, film burda çəkilməliydi. Ora o vaxt çatdıq ki, ancaq nahar eləyə bildik, sonra da hava qaralmamış evə qayıda bilmək üçün dərhal yüz mil yolu geriyə – Nyu Orleana üzdük. Üç həftə işimiz beləcə davam etdi. Aradabir məni möhkəm narahatçılıq bürüyürdü. Bəs ssenari necə olacaq? Brauninq isə hər dəfə deyirdi: "Narahat olmayın, yaxşı-yaxşı yatıb dincəlin, sabah işə başlamağa hazır olun".

Bir dəfə axşam evə təzəcə qayıtmışdım ki, telefon zəng çaldı. Brauninq idi: "Təcili yanıma gəlin!" Mən də getdim. O mənə bir teleqram göstərdi: "Folkner işdən azad olunmuşdur. M.Q.M. studiyası". Brauninq dedi: "Narahat olmayın, mən elə indi bu əclafa zəng vurub onu, təkcə sizi yenidən ştata salmağa deyil, həm də yazılı şəkildə üzr istəməyə məcbur edəcəm". Elə bu vaxt qapı döyüldü. Daha bir teleqram gətirdilər. O teleqramda yazılmışdı: "Brauninq işdən azad olunmuşdur. M.Q.M. studiyası". Mən evə qayıtdım. Brauninq də harasa çıxıb getdi, ssenarist isə yəqin ki, öz otağında oturub əlindəki ilk həftənin pul çekini əzişdirə-əzişdirə qalmışdı. Bu film, eləcə, başa çatdırılmadı. Halbuki o adada balıqçı qəsəbəsi tikilmişdi: dirəklər üzərində uzun bir platforma, onun üzərində isə daxmalar quraşdırılmış, bir sözlə, nəsə körpü kimi bir şey salınmışdı. Halbuki studiya biri 40-50 dollar olmaqla onlarla belə daxma ala bilərdi. Bunun əvəzində bütöv bir butafor kənd salınmışdı: platformanın kənarında divar vardı, əgər qapını açsan, birbaş okeana düşərdin. Biz onu tikməyə başlayanda, birinci gün yerli bir balıqçı, içi yonulmuş ağac gövdəsindən düzəldilən xırda, su üzərində zorla duran bir qayıqda yanımıza gəldi. Bütün günü qızmar günəş altında oturub, əcaib ağ adamların əcaib oyuncaq platformanı necə tikdiyinə tamaşa elədi. Növbəti gün o, həmin qayıqda bütün ailəsini – qucağında südəmər körpəsi olan arvadını, uşaqlarını və qayınanasını da gətirdi, onlar da qızmar günəş altında oturub bu sarsaq, anlaşılmaz mənzərəyə tamaşa etdilər.

İki-üç il keçəndən sonra yolum yenə Nyu Orleana düşdü və orda öyrəndim ki, yerli balıqçılar ağ adamların tələm-tələsik tikdikləri, sonra isə birdən-birə atıb getdikləri bu butafor platformaya baxmaq üçün hələ də xeyli uzaqlardan bura axışıb gəlirlər.

Sual: Siz deyirsiniz ki, kinoda işləyərkən yazıçı kompromisə getməyə məcburdu. Bəs yazıçı öz yaradıcılığında oxucular qarşısında hansısa məsuliyyət daşıyırmı?

Folkner: Yazıçının vəzifəsi öz işini mümkün qədər yaxşı yerinə yetirməkdi. Əgər bundan sonra gücü, qüvvəsi qalarsa, onu sərf etməyə başqa bir şey də tapmaq olar. Məsələn, mən o qədər məşğulam ki, oxucu kütləsi, yaxud kimlərin məni oxuduğu barədə düşünməyə vaxtım yoxdur. Sıravi oxucunun mənim, ya da başqasının yaradıcılığı haqda rəyi məni, sadəcə, maraqlandırmır. Mən öz tələbatımı yerinə yetirməliyəm, bu isə "Müqəddəs Antoninin yoldan çıxarılması"nı, yaxud "Əhdi-Əqiq"i oxuyarkən keçirdiyin hissi – məmnunluq hissini təkrar yaşamaqdı. Mən quş uçuşunu seyr edərkən buna oxşar hisslər keçirirəm. Bilirsiniz, əgər cildini

dəyişmək mənə qismət olsaydı, sar quşuna dönmək istərdim. Kimsə ona qibtə eləmir, pislik arzulamır, o heç kimə lazım deyil. Onu heç nə təhdid eləmir, ona əngəl olan yoxdu, həm də nə olsa yeyir.

Sual: Sizə gərəkli olan nəticələri əldə etmək üçün hansı texniki üsulların köməyindən yararlanırsınız?

Folkner: Əgər yazıçını başlıca olaraq işin texniki tərəfi maraqlandırırsa, onda o, cərrah, yaxud bənna olsa, daha yaxşıdır. Elə bir resept, yaxud model mövcud deyil ki, onun əsasında bədii əsər yarada bilməsən və əgər gənc yazıçı hansısa nəzəriyyəyə riayət etməyə başlayırsa, o çox axmaq iş görür. Səhv edə-edə öyrənmək lazımdır: insanlar öz yanlışlıqlarını dəf edə-edə həyatı dərk edirlər. Əsl sənətkar başa düşür ki, heç kim ona lazım olan resepti verə bilməz. Bundan əlavə, o, hədsiz dərəcədə iddialıdır: özündən əvvəlki ustadlara nə qədər hörmətlə yanaşsa da, onları ötüb keçməyə can atır.

Sual: Başqa sözlə, siz texnikanın vacibliyini inkar edirsiniz?

Folkner: Qətiyyən. Bəzən elə olur ki, texnika lap əvvəldən şərtləri diktə edir, müəllif ideyanı tam düşünüb daşınmamış, texnika o ideyanı üstələyir. Beləlikl, əsər özünəməxsus bir "tour de force"[32]–a çevrilir, bu zaman yazıçının vəzifəsi yalnız kərpicləri səliqə ilə üst-üstə düzmək olur, çünki hələ heç bir kəlmə də yazmadan o, sanki, bütün əsəri əvvəldən axıra kimi əzbər bilir. "Mən ölərkən" romanını yazarkən məndə də belə alındı. Çətin yazılırdı. Vicdanla görülən iş heç vaxt asan olmur. Eyni zamanda, həm də rahat yazılırdı, çünki bütün material əlimin altında idi. Mən bu kitabı, təxminən, altı həftəyə, həm də on iki saatlıq fiziki işdən sonra qalan asudə vaxtlarımda yazmışam. Sadəcə olaraq, necə deyərlər, ən adi, təbii sınaqlara – yanğın və daşqına məruz qalan bir qrup insanın halını təsəvvürümə gətirdim və onların öz yerlərini dəyişdirmələrini əsaslandırmaq üçün, necə deyərlər, ən adi, ən təbii bir səbəb uydurdum. Bəzən, yəni yazı texnikası haqqında heç düşünmədiyin hallarda yazmaq çox asan olur. Mənim üçün belə bir məqam həmişə təxminən 275-ci səhifədə başlayır, çünki bundan sonra personajlar özləri hər şeyi öz üzərlərinə götürüb əsəri bitirirlər. Ancaq əgər kitabı 274-cü səhifədə qurtarmaq lazım gələrsə, doğrusu, onun necə bitəcəyini özüm də bilmirəm. Sənətkar öz əsərini qiymətləndirərkən, özünü aldatmamaq üçün obyektivlik, üstəgəl düzgünlük və cəsarət kimi xüsusiyyətlərə malik olmalıdır. Heç bir əsərim mənim öz tələblərimə cavab vermədiyi üçün mənə ən çox acı və əzab-əziyyət yaşadan əsərimə daha çox üstünlük verərdim, necə ki, ana oğru və yaxud qatilə çevrilmiş oğlunu keşiş oğlundan daha çox sevir.

Sual: Bu hansı əsərinizdir?

Folkner: "Hay-küy və qəzəb". Ona beş dəfə cəhd eləmişəm, bu əhvalatı axır ki, yazıb qurtarmağa, mənə daim əzab verən fikirdən azad olmağa çalışmışam. Bu, bütün ümidlərini

---

[32] Tour de force (fr.) – məcburi səfər

itirmiş iki qadının – Keddi və onun qızının faciəsidir. Dilsi isə mənim ən sevimli personajlarımdan biridir. O, qorxmaz, cəsarətli, səxavətli, xeyirxah və vicdanlı qadındı. O məndən də qat-qat cəsarətli, vicdanlı və səxavətlidi.

Sual: "Hay-küy və qəzəb" romanı nədən başladı?

Folkner: Hər şey bir obrazdan başladı. O vaxt mən onun rəmzi mənasını dərk etməmişdim. Bu, armud ağacına dırmaşıb, orda pəncərədən içəri boylanaraq, nənəsinin dəfn mərasimində gördüklərini aşağıda onu gözləyən qardaşlarına danışan, alt tumanı çirkə bulaşmış balaca bir qız obrazı idi. Onların kim olduğunu, orda nə etdiklərini, o qızcığazın alt tumanının niyə çirkə bulaşdığını izah edib qurtaranacan başa düşdüm ki, bütün bunların hamısı bir hekayəyə sığmaz, bütöv bir kitab yazmaq lazımdı. Sonra mən bulaşıqlı alt tumanın rəmzi mənasını anladım və bu obraz, heç bir sevgi, mərhəmət, anlayış görmədiyi evdən navalça vasitəsi ilə aşağı düşüb qaçan atasız, anasız bir qız obrazı ilə əvəz olundu. Mən bu əhvalatı əqli cəhətdən zəif bir uşağın diliylə danışmağa başladım, çünki mənə elə gəlirdi ki, həmin hadisəni faktları bilən, amma bütün bunların nə üçün baş verdiyini anlamayan bir adamın mövqeyindən danışmaq daha yaxşı olar. Sonra başa düşdüm ki, əhvalatı bu yolla ətraflı danışmaq mümkün olmayacaq. Onda bu əhvalatı başqa bir qardaşın diliylə yenidən danışmağa cəhd elədim. Yenə alınmadı. O əhvalatı üçüncü dəfə üçüncü qardaşın dili ilə danışdım. Yenə istədiyim olmadı. Belə olan halda bütün parçaları bir yerə yığıb, boşluqları doldurmağa çalışaraq onu öz dilimdən danışdım. Ancaq bu əhvalat yenə tamamlanmamış qaldı və yalnız kitab çıxandan 15 il sonra, onun növbəti nəşrinə əlavə yazdıqdan, yəni bu əhvalatı bir daha danışmağa, başımdan çıxarıb atmağa, ondan azad olmağa axırıncı dəfə cəhd elədikdən sonra tamamlandı. Ən kövrək duyğularım bu kitabla bağlıdır. Ondan heç cür ayrıla bilmirdim, ancaq nə qədər çalışsam da mənə lazım olana heç cür nail ola bilmədim. Bəlkə, bir dəfə də cəhd eləmək olar, amma çox güman ki, yenə heç nə alınmayacaq.

Sual: Benci sizdə hansı hissləri oyadır?

Folkner: Bencinin məndə oyatdığı yeganə hiss kədər və mərhəmətdi, amma bu hiss ona deyil, bütün insanlara qarşıdı. Benci heç bir hiss doğura bilməz, çünki o özü heç nə hiss eləmir. Ona qarşı duyduğum yeganə hiss – bir personaj kimi nə qədər inandırıcı alınması ilə bağlı nigarançılığımdı... Onun obrazı bir növ proloq, müqəddəmədi, Yelizaveta dövrünün dramında qəbirqazan belə bir rol oynayıb. O, boynuna düşən sözləri deyir və səhnəni tərk edir. Benci nə xeyir, nə də şər iş görməyə qadir deyil, çünki bunların nə olduğunu bilmir.

Sual: Bəs o, sevgini hiss edə bilərdimi?

Folkner: Benci o qədər ağıllı deyil ki, özü haqda düşünə bilsin. O, heyvan kimidi, əqli qabiliyyətdən məhrumdu. Özünə qarşı olan nəvazişin və sevginin fərqinə varır, amma heç nəyi sözlə ifadə edə bilmir və Keddinin dəyişdiyini, nəyinsə bu nəvaziş və sevgi üçün təhlükə doğurduğunu hiss edəndə yalnız zırıldayır. Keddi çıxıb gedir. Əqli qabiliyyətdən məhrum olduğu

üçün Keddinin yoxluğunu belə dərk eləmir. O, sadəcə, nəyinsə əvvəlki kimi olmadığını, ətrafında qəmli bir boşluq əmələ gəldiyini hiss edir. Bu boşluğu doldurmağa çalışır. Ona qalan yeganə şey Keddinin atılmış sürütmələridir. Sözlə ifadə edə bilmədiyi həmin nəvaziş və sevgini o, bu sürütmələrdə tapır, ancaq onlar da, qəflətən, harasa yox olur. O, hadisələri bir-birilə bağlamaq iqtidarında deyil: çirk onun üçün heç bir əhəmiyyət kəsb etmir, buna görə də o çirklidi. Xeyir və şər kimi çirkli ilə təmizi də ayırmaq onun üçün mümkün deyil. Haçansa kimə məxsus olduğunu xatırlamasa da, canının nə üçün sıxıldığını anlamasa da, o sürütmələr ona müəyyən təskinlik gətirir. Əgər Keddi geri qayıtmış olsaydı, o, ola bilsin ki, onu da tanımazdı.

Sual: Benciyə nərgizgülü vermələri nə anlam daşıyır?

Folkner: O gülü ona diqqətini yayındırmaq üçün verirlər. Sadəcə, həmin gün, aprelin 5-də onların əlinə bu gül keçib. Burada heç bir xüsusi məna yoxdur.

Sual: Alleqoriya formasında roman yazarkən yazıçı hansısa bir üstünlük əldə edirmi? Mən "Əfsanə" romanındakı xristian alleqoriyasını nəzərdə tuturam.

Folkner: Bu mənada, kvadrat şəkilli ev tikən dülgər də onun künclərini düzbucaq formasında qurarkən belə bir üstünlükdən yararlanır. Uzunsov bir binanın tikilməsində müvafiq inşaat formalarından istifadə etmədən ötüşmək mümkün olmadığı kimi "Əfsanə"də də xristian simvolikasından istifadə etmədən keçinmək olmazdı.

Sual: Bu o deməkdirmi ki, dülgər kiminsə çəkicindən istifadə edə bildiyi kimi, sənətkar da xristianlıqdan yalnız mümkün üsullardan biri kimi istifadə edir?

Folkner: Mənim nəzərdə tutduğum dülgərdə belə bir çəkic həmişə var. Xristianlıq hər kəsdə var, əlbəttə, hər şey bu sözü necə anlamaqdan asılıdır. Bu, fərdi mənəviyyat kodeksidir, o kodeks sayəsində insan yaxşılaşır, bunu onun təbiəti də tələb edir. Xaç, aypara, ya nəsə başqa bir rəmz – hansı olur olsun, bunların hamısı insana bəşəriyyət qarşısındakı borcunu xatırladır. Dini alleqoriyalar – insanın özünün nə olduğunu bilmək üçün bir ölçü, etalondu. Amma onlar, hər hansı fənni, deyək ki, riyaziyyatı öyrədən dərslik kimi, insana xeyirxahlığı öyrədə bilməz. Bununla belə, onlar insana özünüdərk yollarını göstərir, insanın imkan və məqsədlərinə uyğun gələn şəxsi mənəviyyat kodeksini üzə çıxarmağa kömək edir, çünki onlar, ən ali insan əzab-əziyyəti, fədakarlığı və ümidləri nümunəsini özündə daşıyır. Yazıçılar mənəvi alleqoriyalardan həmişə istifadə ediblər və bundan sonra da edəcəklər, çünki ifadəliyin gücü baxımından onların tayı-bərabəri yoxdu. Məsələn, «Mobi Dik»də[33] üç qəhrəman insan şüurunun üçlü xüsusiyyətini təcəssüm etdirir: heç nə bilməmək, bilib laqeyd qalmaq və nəhayət, bilib laqeyd qalmamaq. «Əfsanə»də bu üçlüyü – «Baş verən bu hadisələr dəhşətdi. Hətta məni öldürsələr də bununla barışa bilmərəm» deyən gənc yəhudi zabit, «Baş verən bu hadisələr dəhşətdi, ancaq buna da

[33] Amerika yazıçısı German Melvlillin (1819 – 1891) "Mobi Dik və yaxud ağ balina" romanı nəzərdə tutulur

dözmək, sinə gərmək olar» deyən qoca fransız generalı, kvartirmeyster[34] və «Baş verən bu hadisələr dəhşətdi və mən buna qarşı nəsə etməyə çalışmalıyam» deyən ingilis batalyonunun rabitəçisi təşkil edir.

S u a l: «Yabanı palmalar»da ilk baxışdan bir-birilə bağlı olmayan iki əhvalatın birləş-dirilməsində hansısa rəmzi məna varmı? Bəzi tənqidçilərin güman etdiyi kimi bu, müəyyən bir estetik kontrapunktdur, yoxsa iki əhvalatın fəsilləri təsadüfi şəkildə bir-birinə qarışdırılıb?

F o l k n e r: Yox, təsadüfi şəkildə qarışdırılmayıb. Əsərin əsasını hər şeyi məhəbbətə qurban verən, sonra bu məhəbbəti itirən Şarlotta Rittenmayer və Harri Uilbornun tarixçəsi təşkil edir. Bu kitabı yazmağa başlamamışdan qabaq təsəvvür etməzdim ki, iki müxtəlif əhvalat alınacaq. Ancaq «Yabanı palmalar»ın indiki birinci hissəsinin sonuna çatanda, birdən anladım ki, nəsə çatmır, onu hansı yollasa nəzərə çarpdırmaq, başqa cür səslənməyə məcbur etmək lazımdı, yəni, nəsə musiqi kontrapunktuna oxşar bir şey gərəkdi. Onda onu bir kənara qoyub «Qoca»nı yazmağa başladım. Bu əhvalatı o məqama qədər yazdım ki, «Yabanı palmalar» yeni güclə dillənməyə başladı. Bu, «Qoca»nın indiki birinci hissəsinin hardasa sonlarında baş verdi, təzədən «Yabanı palmalar»a qayıtdım və onu təkrar zəif səslənməyə başlayana qədər yazdım, sonra antitezanın – qismətinə sevgi düşən, amma nəyin bahasına olursa-olsun, hətta özünü təhlükəsiz hiss etdiyi həbsxanaya könüllü surətdə qayıtmaqla da olsa, bütün ömrünü bu sevgidən qaçıb qurtulmağa sərf edən bir insanın tarixçəsinin köməyi ilə onun ahəngini yenə müəyyən yüksəkliyə qaldırdım. Beləliklə, demək olar ki, iki süjet, sanki, bir zərurət kimi, öz-özünə yarandı, əsərin əsasında isə Şarlotta ilə Uilbornun tarixçəsi durur.

S u a l: Sizin yaradıcılığınız nə dərəcədə şəxsi təcrübəyə əsaslanır?

F o l k n e r: Bunu deyə bilmərəm. Heç vaxt hesablamamışam. Çünki burada «dərəcə» o qədər də vacib deyil. Yazıçıya üç şey lazımdı: təcrübə, müşahidə qabiliyyəti və təxəyyül, ancaq bəzən bu komponentlərdən ikisi, yaxud hətta biri üçüncüdəki çatışmazlığı kompensasiya edə bilər. Əsər, adətən, hansısa bir fikirdən, xatirədən, obrazdan başlayır. Yazmaq, əslində, bu həlledici məqama qədər olanları bərpa etmək, bunların niyə məhz başqa cür yox, bu cür baş verdiyini izah etmək, sonra da onların nəylə nəticələndiyini göstərməkdi. Yazıçı ixtiyarında olan ən yaxşı ifadə vasitələrinin köməyi ilə inandırıcı şəraitdə fəaliyyət göstərən canlı personajlar yaratmağa çalışır. Buna görə də tamamilə aydın məsələdi ki, o, daha yaxşı tanıdığı mühitdən istifadə edir. Mən deyərdim ki, musiqinin köməyi ilə özünü ifadə etmək hər şeydən daha asandı: musiqi bəşər tarixinin ən ilkin mərhələsində yaranıb. Ancaq mənim qismətimə söz düşdüyü üçün, tərtəmiz musiqi səslərinin xeyli yaxşı ifadə edə biləcəyi şeyləri sözlərin köməyi ilə yöndəmsiz, kobud şəkildə ifadə etməyə məcburam. Bununla belə, mən sözdən istifadə etməyə üstünlük verirəm, eləcə də mütaliəni dinləməkdən üstün tuturam. Mənim üçün sükut səsdən

[34] Kvartirmeyster – keçmişdə qoşunu ərzaqla təchiz edən və onu mənzillərdə yerləşdirən hərbi qulluqçu

üstündü, sözlərlə ifadə olunmuş obraz isə sükutda mövcuddur. Yəni nəsrin şimşəyi və musiqisi səssizdi.

S u a l: Siz yazıçı üçün təcrübənin, müşahidə qabiliyyətinin və təxəyyülün vacibliyindən danışdınız. İlhamı buraya qatmırsınız?

F o l k n e r: İlham haqqında heç nə deyə bilmərəm, çünki nə olduğunu bilmirəm. Haqqında eşitmişəm, amma onunla tanış deyiləm.

S u a l: Deyirlər ki, bir yazıçı kimi zorakılıq və qəddarlıq sizi daha çox cəlb edir.

F o l k n e r: Bu, "Dülgəri öz çəkici daha çox cəlb edir" demək kimi bir şeydi. Qəddarlığın təsviri yalnız ifadə vasitələrindən biridi. Ancaq nə yazıçı, nə də dülgər tək bir alətlə işləyə bilməz.

S u a l: Necə yazmağa başladığınız barədə danışa bilərsinizmi?

F o l k n e r: Mən o vaxt Nyu Orleanda yaşayırdım, dolanışığımı təmin edə bilmək üçün cürbəcür işlərdə çalışırdım. Sonra Şervud Andersonla[35] tanış oldum. Adətən, şəhəri dolaşıb, adamlarla söhbət eləyirdik. Axşamlar görüşür, önümüzdə bir şüşə içki söhbət edirdik; o danışır, mən qulaq asırdım. Səhərlər onu görmürdüm – xəlvətə çəkilib işləyirdi.

Səhəri gün hər şey yenidən təkrar olunurdu. Fikirləşdim ki, əgər yazıçılar bu cür yaşayırlarsa, onda belə bir həyat mənə də yarayar. Beləcə, ilk kitabımı yazmağa başladım. Bu məşğuliyyət dərhal xoşuma gəldi. Hətta mister Andersonla üç həftədi görüşmədiyimi də unutmuşdum, axırda o özü yanıma gəldi. Bu, onun mənim yanıma ilk gəlişi idi. «Nə olub? Yoxsa məndən incimisən?» – deyə soruşdu. Dedim ki, kitab yazıram. «Aman Allah!» – deyib evdən çıxdı. O kitabı – bu, «Əsgər mükafatı» idi – yazıb qurtarandan dərhal sonra küçədə missis Andersonla rastlaşdım. O, kitabla maraqlandı, biləndə ki, onu artıq bitirmişəm, dedi: «Şervudun bir şərti var: əgər siz onu öz əlyazmanızı oxumağa məcbur etməsəniz, onu qəbul etmək üçün öz naşiri ilə danışar». Dedim: «Razıyam» və beləliklə, yazıçı oldum.

S u a l: Dolanışığınızı təmin etmək üçün hansısa təsadüfi işlə məşğul olmusunuz, o nə iş idi?

F o l k n e r: Nə iş oldu. Hər şeydən bir az başım çıxırdı: motorlu qayıq sürmək, rəngsazlıq, təyyarə sürmək. Mənə çox pul lazım deyildi, çünki o vaxt Nyu Orleanda yaşayış çox ucuz idi, mənimsə tələbatım çox deyildi – başımı daldalamağa bir yer, bir az yemək, tütün və viski bəsim idi. İki, üç günə qazandığım pula ayın axırına qədər dolana bilirdim. Xaraktercə mən avara və tənbəl adamam. Pulu o dərəcədə sevmirəm ki, yalnız onu qazanmaq naminə işləyəm. Həyatda bu qədər çox işləməyə məcbur qalmaq sarsaq şeydi. Ən kədərlisi də budu ki, iş – hər gün dalbadal səkkiz saat uğraşa bildiyin yeganə məşğuliyyətdi. Səkkiz saat ara vermədən yemək,

---

[35] Şervud Anderson (1876 – 1941) – Amerika yazıçısı, "Uaynsburq, Ohayo", "Yumurtanın təntənəsi", "Atlar və insanlar" kimi hekayə kitablarının və "Tutqun gülüş" romanının müəllifidir

içmək, sevmək mümkün deyil, işləmək isə – mümkündü. Məhz bu səbəbdən də insan həm özünü, həm də başqalarını bədbəxt eləyir.

S u a l: Yəqin siz özünüzü Şervud Andersona borclu hiss edirsiniz. Bəs bir yazıçı kimi onun haqqında nə fikirdəsiniz?

F o l k n e r: O mənim nəslimdən olan yazıçıların atasıdı və bizdən sonrakı nəsillərin davam etdirəcəyi Amerika ədəbiyyatı ənənələrinin banisidi. O öz qiymətini almamış yazıçıdı. Drayzer onun böyük qardaşı, Mark Tven isə – hər ikisinin atasıdı.

S u a l: O dövrün Avropa yazıçıları barədə nə fikirdəsiniz?

F o l k n e r: Mənim dövrümdə iki böyük insan var idi: Tomas Mann və Coys. Coysun «Uliss»inə savadsız baptist vaizin Əhdi-Ətiqə yanaşdığı kimi – inancla yanaşmaq lazımdır.

S u a l: Necə olub ki, siz Bibliyanı bu qədər yaxşı öyrənmisiniz?

F o l k n e r: Mənim ulu babam Marri yumşaq və xeyirxah adam idi – ən azı, bizə, uşaqlara qarşı. Şotlandiya əsilli olsa da, o qədər də mömin, sərt adam deyildi, amma çox möhkəm prinsipləri vardı. Onlardan biri bundan ibarət idi ki, hər gün səhər tezdən hamı süfrə başına yığışanda, böyüklər də daxil olmaqla, ailənin hər üzvü Bibliyadan bir neçə sətir əzbər deməliydi və bunu deyə bilməyənlər səhər yeməyindən məhrum edilirdi; yalnız otaqdan çıxıb hansısa sitatı əzbərləməyə icazə verilirdi. Adətən, bu cəzaya məruz qalan otaqdan babamın sağlığında evin böyüyü rolunu oynayan qarımış qız xalamla bir yerdə çıxırdı, o isə sənin beyninin içini elə oyurdu ki, sabahı gün hər şey öz qaydasında olurdu.

Amma sətirləri son dərəcə dəqiq deməliydin. Nə qədər ki, balacaydın, eyni bir sitatı – əgər o səndə yaxşı alınırdısa – təkrar əzbər deyə bilərdin. Hər səhərimiz belə keçirdi və tədricən yaşın artır, böyüyürdün; nəhayət, bir səhər (bu vaxtacan sən artıq dil-dil ötür, demək olar ki, nə dediyini belə dinləmədən qabağa qaçmağa çalışırdın, çünki şüurunda artıq beş, ya on dəqiqə idi ki, mətni oxuyub qurtarmışdın, artıq vetçina, bifşteks, cücə qızartması, şirin kartof və iki-üç növ qızardılmış çörək yeyirdin) o baxışları öz üzərində hiss edirdin: gömgöy, yumyumşaq və çox mehriban... Bu anda hətta ciddi olmasa da, qətiyyətli bir cüt göz sənə tuşlanırdı və sabahı gün sən yeni sətirlər əzbərləmiş olurdun.

S u a l: Bəzi adamlar deyirlər ki, sizin yazdıqlarınızı hətta iki, üç dəfə oxuyandan sonra da başa düşmürlər. Bu adamlara nə məsləhət görərdiniz?

F o l k n e r: Dördüncü dəfə oxumağı.

S u a l: Müasir yazıçıları oxuyursunuzmu?

F o l k n e r: Yox. Təkrar oxuduğum kitabları hələ gəncliyimdə tanımış və sevmişəm, adam köhnə dost yanına qayıtdığı kimi mən də indi onlara təkrar qayıdıram. Bu, Əhdi-Ətiq, Dikkens, Konrad, Servantesin «Don Kixot»udu. Onları hər il təkrar oxuyuram – bəzi adamlar Bibliyanı, Floberi, Balzakı təkrar oxuduğu kimi. Balzak öz böyük dünyasını yaradıb və onun

iyirmi kitabının hamısını canlı qan dövranı bir-birinə birləşdirir. Sonra Dostoyevski, Tolstoy, Şekspir. Hərdən Melvili, şairlərdən isə Marlo, Kempion, Conson, Gerrik, Donna, Kits və Şellini təkrar oxuyuram. Hələ də Hausmanı mütaliə edirəm. Bu kitabları o qədər tez-tez oxuyuram ki, indi onları birinci səhifədən axıra qədər oxumağıma ehtiyac yoxdu, adətən, hansısa qəhrəmanla bağlı bir səhnəyə, yaxud parçaya müraciət edirəm: bu, küçədə tanışınla rastlaşanda bir neçə dəqiqəliyinə ayaq saxlayıb, onunla söhbət eləməyinə bənzəyir.

S u a l: Bəs Freydi?

F o l k n e r: Mən Nyu Orleanda yaşayanda hamı Freyddən danışırdı, ancaq özüm onu heç vaxt oxumamışam. Ancaq axı Şekspir də Freydi oxumayıb. Heç Melvill də, Mob Dik isə – ondan da betər.

S u a l: Nə vaxtsa detektiv oxuyubsunuzmu?

F o l k n e r: Simenonu oxumuşam, çünki o mənə Çexovu xatırladır.

S u a l: Sizin sevimli ədəbi qəhrəmanlarınız kimlərdi?

F o l k n e r: Bir xarakter kimi Sara Qemp xoşuma gəlir: əyyaş, opportunist, qəddar, zalım bir qadındı, xarakterində yaxşı şeylər çox azdı, ancaq ən azı, əsl xarakterdi; missis Harris[36], Folstaf, Şahzadə Hel, Don Kixot və əlbəttə, Sanço. Ledi Makbet obrazına həmişə heyran olmuşam. Başqa kimləri deyim? Osnova[37], Ofeliya, Merkutsio. Merkutsio və xanım Qemp yaşamağı bacarırlar: naz-nemət axtarmırlar və heç nədən sızıldayıb eləmirlər. Əlbəttə, Hek Finn və Cim. Tom Soyerdən heç vaxt xoşum gəlməyib – məncə, o, dəhşətli dərəcədə nümunəvidi. Sonra Corc Harrisin keçən əsrin 40, ya 50-ci illərində Tennesi dağlarında yazdığı kitabların birindəki Sat Lavinquddan[38] xoşum gəlir. Onun özü ilə bağlı heç bir illüziyası yoxdu, bacardığını edir, hərdən qorxaqlıq elədiyi də olur, ancaq bunu özü də bilir və bundan utanmır, heç vaxt taleyini lənətləmir, öz bədbəxtliklərinə görə başqalarını, ya da Allahı günahlandırmır.

S u a l: Roman janrının gələcəyini necə şərh edərdininz?

F o l k n e r: Mənə elə gəlir ki, insanlar roman oxumağı yadırğamadıqca onu yazacaqlar, ya da əksinə... Əlbəttə ki, əgər illüstrasiyalı jurnallar, komikslər insanın mütaliə qabiliyyətini öldürməsə. Ancaq belə görünür ki, bizim ədəbiyyat geriyə, neandertal dövrünün mağaralarındakı ibtidai yazılara doğru yuvarlanır.

S u a l: Sizcə, tənqidin təyinatı nədən ibarətdir?

F o l k n e r: Sənətkarın tənqidçilərə qulaq asmağa vaxtı yoxdu. Tənqid hələ yazıçı olmağa hazırlaşanlar üçün maraqlıdı, amma artıq yazan adamın tənqid oxumağa vaxtı yoxdu.

---

36 Sara Gemp, missis Harris – Çarlz Dikkensin "Martin Çezlvit: həyatı və sərgüzəştləri" romanın personajları

37 Osnova – U. Şekspirin"Yay gecəsinin yuxusu" əsərində toxucu qadın

38 Sat Lavinqud – Amerikalı müəllif Corc Vaşinqton Harrisin (1814 – 1869) eyniadlı yumoristik hekayələr toplusunun qəhrəmanı

Axı tənqidçi də bunu deməyə çalışır: “Kilroy burda olub”[39]. Amma onun fəaliyyəti birbaşa yaradıcılıqla bağlı deyil, sənətkar tənqidçidən tam bir pillə yüksəkdə durur, çünki sənətkar tənqidçini həyəcanlandıran bir şey yaradır, tənqidi əsərlər isə kimi desən həyəcanlandıra bilər, ancaq sənətkarı yox.

S u a l: Deməli, siz öz əsərinizi kimləsə müzakirə etməyə ehtiyac duymursunuz?

F o l k n e r: Yox, mən ancaq öz işimlə məşğulam. Çalışıram ki, özüm razı qalam və əgər yazdığım məni qane edirsə, onu kimləsə müzakirə etməyə ehtiyac görmürəm. Qane etməsə belə, heç bir müzakirə onu yaxşılaşdırmayacaq, çünki onu yaxşılaşdırmağın yeganə yolu yenidən üzərində işləməkdi. Mən ədəbiyyatçı deyiləm, yalnız və yalnız yazıçıyam, peşəkarlıq məsələlərini müzakirə etmək mənə ləzzət vermir.

S u a l: Bəzi tənqidçilər bildirirlər ki, personajlar arasında qan qohumluğu sizin üçün çox böyük əhəmiyyət kəsb edir.

F o l k n e r: Bu, tənqidi fikirlərdən biridir, ancaq dediyim kimi, mən tənqidçiləri oxumuram. Məncə, insanlardan yazmaq istəyən yazıçı üçün qan qohumluğu, qəhrəmanın burnunun hansı formada olmasından – əlbəttə, bu əlaqənin süjetin inkişafında rol oynadığı hallar istisna olunmaqla – çox da əhəmiyyətli deyil. Əgər yazıçı fikrini maraqlanmalı olduğu şeydə – bu isə hər şeydən əvvəl həqiqət və insan ruhudu – cəmləyibsə, onun müxtəlif ideyalar, yaxud burun quruluşu və ya qan qohumluğu kimi başqa şeylərlə maraqlanmağa vaxtı qalmır; şəxsən mənim təsəvvürümdə ideya və faktların həqiqətlə yalnız çox cüzi dərəcədə bağlılığı var.

S u a l: Bundan əlavə, tənqidçilər həm də belə hesab edirlər ki, sizin qəhrəmanlarınız xeyirlə şər arasında heç vaxt şüurlu seçim eləmirlər.

F o l k n e r: Real həyatın xeyir və şərə dəxli yoxdu. Xeyirlə şər arasında daim Don Kixot seçim edir – o da yalnız öz xəyali dünyasında. Don Kixot dəli-divanənin biridi. O, gerçək həyatla üzləşəndə və insanları tanımağa çalışanda, xeyirlə şəri bir-birindən heç cür ayıra bilmir. İnsanlar isə gerçək həyatda yaşayırlar və onların bütün gücü, sadəcə, yaşamağa sərf olunur. Həyat hərəkətdi və yalnız insanı hərəkətə gəlməyə məcbur eləyən şeylər – şöhrətpərəstlik, hakimiyyət, həzz –əhəmiyyətlidi. İnsan öz mənəviyyatının təmiz qalmasına sərf etdiyi vaxtı, bir hissəciyi olduğu həyatın ümumi hərəkətindən kəsib qoparır. Əlbəttə, insan gec, ya tez xeyir və şər arasında seçim etməli olur. Çünki bunu ondan əxlaqi borc tələb edir, ayrı cür olsa, insan yaşaya bilməz. Əxlaqi borc isə insanın arzulamaq haqqı almaq üçün tanrılardan qəbul etməyə məcbur qaldığı lənətdi.

S u a l: Söhbət sənətkardan gedəndə, «hərəkət» məfhumuna nə anlam verdiyinizi izah edə bilərsinizmi?

---

[39] “Kilroy burda olub” – Amerika əsgərlərinin İkinci dünya müharibəsində azad edilən şəhərlərdə evlərin divarlarına cızdıqları yazı

F o l k n e r: Hər bir sənətkarın məqsədi sənət üsulları vasitəsilə hərəkəti, həyatı dayandırmaqdı, ancaq bu elə olmalıdı ki, 100 ildən sonra kənar bir adam həmin mənzərəyə baxanda o, dərhal «canlansın», yenə hərəkətə gəlsin. İnsanlar ölürlər və ölümsüzlüyün yeganə mümkün forması özündən sonra daim hərəkətdə və buna görə də ölümsüz olan bir şey qoyub getməkdi. İnsanın əzəl-axır keçməli olacağı axirət və labüd unudulma qapılarına sənətkar bunları yazır: "Kilroy burda olub".

S u a l: Malkolm Kauli[40] deyib ki, sizin qəhrəmanların hamısı taleyinə boyun əyən adamlardı.

F o l k n e r: Bu, Malkolm Kaulinin fikridi. Mənsə deyərdim ki, qəhrəmanlarımın bəziləri öz taleyinə boyun əyir, bəziləri isə yox. Misal üçün, mənə elə gəlir ki, «Avqust işığı» romanındakı Lina Qrouv öz taleyini özü çox gözəl qurur. Ərinin kim – Lukas Berç, ya başqa birisi olacağının onun üçün, taleyi üçün, ümumiyyətlə, əhəmiyyəti yoxdu. Onun qismətinə yazılıb ki, əri və uşaqları olacaq, o buna qəti əmindi, buna görə də evdən çıxıb gedir, heç bir kənar kömək olmadan öz həyatını qurmaqla məşğul olur. O, öz taleyinin kapitanıdı. Ümidsizliyə qapılmış Bayron Banç zorla ona yiyələnmək istəyəndə, o, tövrünü pozmadan, çox sakitcə, mənim öz qəhrəmanlarımdan heç vaxt eşitmədiyim ən ağıllı sözləri dilinə gətirir: "Ayıb deyil. Axı körpəni yuxudan oyada bilərdiniz". O heç də çaşmır, qorxmur. Hətta insanların ona yazığı gəlib-gəlməyəcəyi, ümumiyyətlə, bunun ona lazım olub-olmayacağı barədə də düşünmür. Misal üçün, elə onun son sözlərini götürək: "Sən bir işə bax, gör adam haralara gəlib çıxa bilərmiş. Alabamadan çıxdığımız heç ikicə ay olmaz, amma biz indi artıq burda – Tenessidəyik".

Ya elə «Mən öləndə» romanındakı Bandreni götürək. Arvadını itirmiş ailə başçısına, təbii ki, başqa birisi lazımdı və o, onu əldə eləyir. Dərhal özünə belə bir qadın tapır, bu qadın onların hamısına yemək bişirəcək, üstəlik onun qrammofonu da var, ona görə də bu tapıntı hamı üçün xoşdu: işdən sonra qulaq asmağa nəsə olacaq. Düzdü, hamilə qızı hələ uşaqdan qurtula bilməyib, amma heç o da kefini pozmur. O, bunun üçün yenə nəsə eləyə bilər, əgər alınmasa, heç alınmasın, burda nə var ki, uzaqbaşı bir uşaq da artıq olacaq – vəssalam.

S u a l: Malkolm Kauli deyir ki, sizin üçün iyirmi-qırx yaş arasında insani baxımdan cəlbedici qəhrəmanlar yaratmaq çətindir.

F o l k n e r: İyirmi-qırx yaş arasındakı adamlar o qədər də cəlbedici deyillər. Uşaq çox şeyə qadirdi, ancaq o, eyini zamanda, çox şeyləri anlamır. İnsan qırx yaşından sonra – artıq fiziki gücünün azaldığı vaxtlarda çox şeyləri başa düşməyə başlayır. İyirmi-qırx yaş arasında insanın iradəsi möhkəmlənir, o, təhlükəli olur; ancaq hələ həyatı tam dərk etmir, heç buna yaxınlaşmayıb da. Mühitin və şəxsi istəklərinin təzyiqi altında onun fəaliyyəti fəlakətli formalar ala bilər: insan mənəvi keyfiyyətlərdən əvvəl gücə yiyələnir. Dünyanı böyük bəlalara məhz iyirmi-qırx yaş ara-

---

40 Malkolm Kauli – Amerika ədəbiyyatşünası, Folknerin dostu, onun yaradıcılığı haqqında məqalələr müəllifi

sındakı adamlar sürükləyiblər. Mənim vətənimdə irqçiliyi qızışdıranların – Emmet Tillin[41] qətli işindəki bütün Milamlar və Brayantlar, yaxud ağ dərili qadına hücum edib, onu zorlamaqla intiqam alan zəncilər, bütün bu hitlerlər və napoleonlar, yəni adları insanların düçar olduğu əzab və işgəncələrin rəmzinə çevrilən adamların hamısının yaşı iyirmi ilə qırx arasında olub.

S u a l: Siz Emmet Tillin qətli ilə bağlı mətbuatda bəyanatla çıxış etmisiniz. Buna nəsə əlavə etmək istərdinizmi?

F o l k n e r: Yox, yalnız indiyəcən dediklərimi təkrarlaya bilərəm: əgər biz amerikalılara bir millət kimi yaşamaq nəsib olacaqsa, bu yalnız onun sayəsində baş verəcək ki, hər şeydən əvvəl amerikalı olmağın – dərisinin rəngindən, onun ağ, qara, qırmızı, mavi, yaxud yaşıl olmasından asılı olmayaraq vahid ümumi bir insan cəbhəsi kimi dünya önünə çıxmağın hüquq və vəzifələrini öz üzərimizə götürməyi, onları qorumağı bacaracağıq. Bəlkə də mənim doğma ştatım Missisipidə bədbəxt zənci oğlan uşağına qarşı iki ağ adamın törətdiyi bu dəhşətli və faciəvi qətlin bütün məğzi, mənası ondadır ki, bizi sınağa çəkiblər: görəsən, bu torpaq üzərində yaşamağa haqqımız var ya yox?! Çünki əgər biz bu gün Amerikada, öz məhkum sivilizasiyamızda uşaqların qətl edildiyi – səbəbi və dərisinin rəngi nə olursa olsun, fərqi yoxdur – bir nöqtəyə çatmışıqsa, deməli, yaşamağa haqqımız yoxdur və ola bilsin ki, məhv olacağıq.

S u a l: «Əsgər mükafatı» ilə «Sartoris» arasındakı dövrdə sizin yaradıcılıq taleyinizdə nə baş verib, başqa cür desək, Yoknapatofa saqasına başlamağa sizi nə məcbur etdi?

F o l k n e r: «Əsgər mükafatı» üzərində işləyəndə gördüm ki, yazmaq maraqlı işdi. Ancaq sonra başa düşdüm ki, təkcə ayrı-ayrılıqda hər kitabda müəyyən ideya, fikir olmamalıdı, sənətkarın bütün yaratdıqları, onun bütün yaradıcılığı ümumi bir ideyaya, fikrə tabe olmalıdı. «Əsgər mükafatı» və «Moskitlər»i, sadəcə, yazmaqdan xoşum gəldiyi üçün yazdım. «Sartoris»i başlayanda anladım ki, mənim poçt markası boyda olan doğma torpağımdan yazmağa dəyər və bu mövzunu heç vaxt yazıb qurtara bilmərəm; amma gerçəkliyə ümumi, ali bir məna verməklə öz qabiliyyətimi – əgər o məndə varsa – tam inkişaf etdirmək sərbəstliyi qazana bilərəm. Bu mənim üçün zəngin bir xəzinənin önünü açdı, beləliklə mən öz kosmosumu yaratdım. Tanrı kimi mən də insanları nəinki məkan, həmçinin zaman daxilində hərəkət etdirə bilirəm. Onları zaman daxilində sərbəst şəkildə hərəkət etdirə bilməyim – hər halda, mənə belə gəlir – mənim belə nəzəriyyəmi təsdiq edir ki, zaman öz varlığı olmayan və yalnız ayrı-ayrı insanlar vasitəsilə təzahür edən axarı bir vəziyyətdir. «Vardı» mövcud deyil, yalnız «var» mövcuddu. Əgər keçmiş mövcud olsaydı, nə qüssə, nə də qəm olmazdı. Kainatın təməl daşı kimi yaratdığım dünya haqqında

[41] 1955-ci ildə 14 yaşlı zənci yeniyetmə Emmet Till tətil vaxtı Çikaqodan Missisipi ştatının Qrinvud qəsəbəsinə gələrkən ağ irqçilər tərəfindən vəhşicəsinə öldürülmüş, həbs olunmuş iki qatil isə yerli məhkəmə tərəfindən azadlığa buraxılmışdır. Bu da zənci əhalisinin qəzəblənəsinə və ayağa qalxmasına səbəb olmuşdur. Folkner bu münasibətlə "Yunayted Press" Agentliyinə bəyanat vermiş və həmin bəyanat 1995-ci il sentyabrın 9-da "Nyu York Herald Tribun" qəzetində dərc edilmişdir.

düşünmək xoşuma gəlir, bu daş nə qədər kiçik olsa da, onu götürsən, kainat dağılar. Mənim sonuncu kitabım «Qiyamət günü», yaxud «Yoknapatofanın qızıl kitabı» olacaq. Bundan sonra qələmimi sındırıb atacam və bir daha yazmayacam.

1956

FOLKNER VİRCİNİYA UNİVERSİTETİNDƏ[42]

(Tələbə və müəllimlərlə söhbətlərdən seçmələr)

Birinci məşğələ. 15 fevral 1957

Sual: "Hay-küy və qəzəb" romanının üç hissəsində hadisələri üç Kompson qardaşı danışır. Romanda əhəmiyyətli rol oynadığı halda nə üçün siz Keddi Kompsona danışmaq imkanı verməmisiniz?

Folkner: Haqlı sualdır. Bilmək istəyirsinizsə, kitabın müəmması da elə bundadır. Hər şey alt tumanı palçığa bulaşmış bir qız uşağının obrazından başladı: o, qonaq otağının pəncərəsindən içəri baxa bilmək üçün ağaca dırmaşıb, qardaşları isə aşağıda dayanıb, onun ordan nə deyəcəyini gözləyirlər – onlar ağaca çıxa biləcək qədər cəsarətli deyillər. Əvvəlcə bu əhvalatı qardaşlardan birinin təsəvvür etdiyi kimi nəql etməyə çalışdım, birinci hissəni yazdım, amma hiss elədim ki, nəsə çatışmır. İkinci qardaşa danışmaq imkanı verdim – yenə alınmadı. Sonra üçüncü qardaşı götürdüm, çünki Keddi hələ də mənə o qədər kövrək və gözəl görünürdü ki, onu, sadəcə, hadisələri təkrarlamağa məcbur etmək istəmirdim; belə hesab eləyirdim ki, başqaları onun haqqında danışsa, kitab daha canlı olar. Bu cəhd də uğursuz oldu. Onda, kitabın dördüncü hissəsində baş verənləri öz dilimdən danışmaq qərarına gəldim və... yenə heç nə alınmadı.

Sual: Romana edilən əlavədə deyilir ki, Keddi nasistlərin dəmir ağuşuna düşür. Onun onların əlindən qurtulmasına nəsə bir ümid varmı?

Folkner: Məncə, bu, Keddiyə qarşı ədalətsizlik olardı. Qoy o, düşdüyü yerdə qalsın. Əgər Keddi mənən yeniləşsəydi, kitabın bütün ideyasına zidd olan şablon bir şey alınardı. Mən bacardığımı eləmişəm. Əlbəttə, əgər hər şeyi əvvəldən başlayıb, romanı təzədən yazsaydım... bu isə mümkün deyil.

Sual: Məni "Hay-küy və qəzəb" romanının simvolikası maraqlandırır. Kventinin kitabda daim haqqında danışılan kölgəsinin rəmzi mənası o qədər də aydın deyil: Kventin gah öz kölgəsinin üstünə çıxır, bu kölgə gah öndə, gah da arxada olur.

Folkner: Burada düşünülmüş rəmzi məna yoxdur. Mən deyərdim ki, Kventinin şüurunda daim mövcud olan kölgə onun öz ölümünü qabaqcadan duymasıdı. Kventin, təxminən, bu cür düşünür: budur, ölüm lap yaxındadı, indi neyləyim, onu qəbul edim, yoxsa hələ bir qədər də gözləmək olar? Mən, onsuz da, ölümdən qaça bilməyəcəm, onu indimi qəbul edim, yoxsa bir

---

[42] Folkner 1957 və 1958-ci illərin fevral-iyun aylarında Virciniya Universitetinin tələbə və müəllim heyəti ilə iki semestr (cəmi 36 məşğələ) söhbətlər aparmış və bu söhbətlər maqnitofon lentinə yazılmışdır.

gün sonrayamı saxlayım? Beləliklə, əgər burada nəsə bir rəmzi məna varsa, onu, təxminən, bu cür təsəvvür etmək olar. <...>

Sual: Hansı kitabınızı birinci oxumağı tövsiyə edərdiniz?

Folkner: Mənə belə bir sual verməsəniz, yaxşıdı, çünki, əlbəttə ki, mən ən çox xoşlandığım kitabımdan başlamağı məsləhət görəcəyəm, o isə sizin məqsədiniz üçün yaramayacaq. Amma bu suala obyektiv cavab vermək lazımdısa, yəqin ki, "Məğlubedilməzlər"i.

Sual: Nə üçün məhz "Məğlubedilməzlər"i?

Folkner: Çünki bu kitab asan oxunur. Yəni başqa kitablarımla müqayisədə.

Sual: Mən sizdən Kventinin öz atası ilə münasibətləri barədə soruşmaq istərdim. Məncə, oxucuların çoxunda belə bir təsəvvür yaranır ki, atası Kventinə həyatda ona dəstək ola biləcək dəyərlər sistemini aşılaya bilməyib, bu səbəbdən də o, kitabda olduğu kimi bir adama çevrilib. Kventinin son hərəkətinin səbəbi nədir?

Folkner: Kventinin öz təsəvvürünə görə, bu, ona atası tərəfindən təlqin edilib. Bunda nəsə ilkin bir məğlubiyyət də rol oynayıb: briqadir babası Vətəndaş müharibəsində uğursuzluğa düçar olub. Bu ilkin məğlubiyyət hissi Kventinə atasından irsən, daha doğrusu, doğma atasının arzusundan asılı olmayaraq keçib. Birinci Kompsonun ölümündən sonra, Kventin doğulmamışdan hələ əvvəl nəsə qırılıb. Amansız və cəsarətli bir adam olan birinci Kompson Missisipi ştatına gələrək azad meşə sakininə çevrilib, yəni istədiyi vaxt istədiyi yerdə qarətlə məşğul olmağa başlayıb, bir nəslin əsasını qoyub, onun fikrincə, bu nəsil əsl kral nəslinə çevrilməliymiş, ancaq "kral nəsli" sonra iflasa uğrayıb. <...>

Sual: İnsan hər şeyə tab gətirib yaşamını davam etdirəcək deyərkən, siz onu bir şəxsiyyət, yoxsa cəmiyyət üzvü kimi nəzərdə tutursunuz?

Folkner: Vahid həyatın bir hissəciyi kimi.

Sual: Amma, məsələn, Kventin götürək, hər şey onun əleyhinədir, o məhkum....

Folkner: Bəli, bəli, anasının əlindən heç nə gələn deyil, qardaşı ağıldankəmdi, amma hər halda, ailədə Dilsi var, o heç bir əvəz, mükafat gözləmədən inadla ailəni dağılmaqdan qoruyur; başqa sözlə, insan təslim olmamışdan, öz məğlubiyyətini qəbul etməmişdən əvvəl onun yaşamaq cəhdi digər, daha "aşağı" bir kanalla davam edə, qaradərili insanda, zənci irqində ifadə oluna bilər.

Sual: Siz bizi inandırmağa çalışırsınız ki, insan kamildir və o, hər şeyə rəğmən, öz yaşamını davam etdirə biləcək. Bəs onda dini və siyasi sferalar da daxil olmaqla gündəlik həyatda müşahidə etdiyimiz kütləvi qəddarlıqları nə ilə izah edək?

Folkner: Mən insanın mütləq şəkildə kamil olmağından danışmamışam, yalnız bunu demişəm ki, insan zəfər çalacaq və bunun üçün ona yaxşı olmağa çalışmaq lazımdır. Bəşəriyyət insanın mütləq kamilliyə çatacağı dövrlərə qədər yaşayacaqmı – bunu heç kəs bilmir. Ancaq insan yaxşılığa doğru inkişaf edəcək, çünki tərəqqinin yeganə alternativi ölümdür. Məsələn, biz indi görürük ki, uşaqlar işləməyə məcbur deyillər, satıcı isə xarab olmuş ərzaq məhsulunu satmayacaq. Bunlar o qədər də əhəmiyyətli olmasa da, hər halda, nailiyyətdir! İndi, bizim yaşadığımız günlərdə çörək oğurluğuna görə adamı dar ağacından asmırlar. İnsanları borc həbsxanasına salmırlar. Əlbəttə, atom bombası ilə müqayisədə bütün bunlar çox xırda irəliləyişlərdir. Amma, hər halda, irəliləyişdir. İnsan yaxşılığa doğru irəliləyib.

Sual: Sizə elə gəlmirmi ki, hansısa bir fanatik kütlənin aldadılmış hissilə oynayaraq bütün bunların üstündən xətt çəkə bilər.

Folkner: Yox, elə gəlmir. Mənim təsəvvürümə görə, belə insanlar da lazımdı, insan ölümsüzlüyünün yoğurulduğu xəmirin mayasına onlar da daxildir.

Sual: Deməli, belə hesab edirsiniz ki, insan özünüməhv qüvvələrinə qalib gələcək?

Folkner: Bəli, insan özünüməhvlə mübarizədə tab gətirəcək.

Sual: Bəs təbiət qüvvələri?

Folkner: Deməli, belədi, əgər Yer kürəsi, torpaq insanlara tab gətirməkdən bezməsə, bit-birədən qurtulmaq istəyən qoca bir it kimi onlardan azad olmaq istəməsə, insan yaşayacaq.

Sual: İnsanın ən güclü silahı nədir – ağıl, yoxsa ürək?

Folkner: Mən ağıla o qədər də inanmıram. Ürəyi aldada bilməzsən, ağıl əzəl-axır adamı pis vəziyyətdə qoyacaq, ürək isə yox. <...>

Sual: Məni sizin personajların romandan romana necə dəyişdiyi maraqlandırır. Məsələn, Narsissa Benbou "Sartoris" romanında kifayət qədər xoş bir adam, "Məbədgah"da isə acıdil, acıqlı bir qadındır. Bunu necə izah edərdiniz?

Folkner: Mən ifadə etməli olduğum şeyi ifadə edə bilmək üçün bir qayda olaraq, mənə ən rahat görünən fəndlərdən istifadə etmişəm. Mənim təsəvvürümdə mütləq mənada pis və ya yaxşı insan yoxdu, hesab edirəm ki, bütün insanlar əslində olduqlarından daha yaxşı olmağa çalışırlar və bəzən buna nail ola bilirlər. İnsanda müəyyən bir xüsusiyyəti təsvir etmək lazım gələndə, adətən, mən bunu onda tapıram. Bu xüsusiyyəti insanda, necə deyərlər, qabartmaq, üzə çıxarmaq olar və buna görə də o, hansı məqamdasa xoş görünməyəcək; ancaq mənə elə gəlir ki, bu, şəxsiyyəti məhv etmir, ona xələl gətirmir.

Sual: Başqa sözlə, xarakter dəyişməyib, sadəcə, siz ona yeni nəzərlə baxmısınız?

Folkner: Tamamilə doğrudu.

Sual: Missisipi ştatını təsvir edərkən bütövlükdə Cənub haqqında nə dərəcədə yazmısınız?

Folkner: Mən bu haqda yazmamışam. İnsanlar barədə yazmağa çalışmışam və bu vaxt mənə məlum olan yeganə vasitədən faydalanmışam, yəni tanıdığım, bildiyim diyarı təsvir etmişəm. Mən sosioloji tədqiqat yazmağa can atmamışam və belə bir şey yazmamışam. Sadəcə, insanlar haqda yazmışam – mənim üçün başlıcası onlardı. Yalnız insan qəlbi haqqında yazmışam, ideyalar haqda yox. Mənim ideyalardan başım çıxmır və onlara o qədər də inanmıram. <...>

İkinci məşğələ. 15 fevral 1957

<...> Sual: Sizin fikrinizcə, yazıçı üçün ali təhsil nə dərəcədə vacibdir?

Folkner: Bilirsiniz, bu, isti bir otağın yazıçı üçün nə qədər vacib olduğunu müəyyənləşdirməyə cəhd etmək kimi bir şeydi. Bəzi yazıçılar, yaxud ümumiyyətlə, insanlar üçün universitet təhsili çox vacibdi, necə ki, soyuq otaqda işləyə bilməyən insanlar da var. Ancaq bu suala cavab vermək mənim üçün çətindi: özüm belə bir təhsil almadığım halda, bu haqda necə fikir yürüdə bilərəm?

Sual: Dünən bir kitab oxudum, orada deyilir ki, filoloq müəllimlər Amerika ədəbiyyatının yaradıcı impulsunu boğmuş, onu toz basmış akademik zirzəmilərdə gizlətmişlər.

Folkner: Məncə, doğru deyil. Mənə elə gəlir ki, insanlar kolleclərin malik olmadıqları xüsusiyyətləri onlara aid etməyə meyillidilər. Əgər təhsil yazıçıya özünü, öz yolunu tapmaqda kömək edirsə, bu onun üçün vacibdi, ancaq kolleclər hər şeydən əvvəl humanist İnsan yetişdirməlidi, çünki humanist olmayan kəs yazıçı ola bilməz, buna görə də əgər kollec insanda humanizm tərbiyə edirsə, onda təhsil hədsiz dərəcədə vacibdi. Amma əgər yazıçı bu keyfiyyəti kollec divarlarından kənarda özünə aşılaya bilibsə, ona təhsil lazım deyil. Beləliklə, mənə elə gəlir ki, təhsilin insanı sənətkar edə bildiyini, yaxud onun içindəki sənətkarı öldürə bildiyini söyləmək düzgün deyil.

Sual: Deməli, yaradıcı maya bu və ya başqa şəkildə, onsuz da, özünü göstərəcək?

Folkner: Şübhəsiz. Mən deyərdim ki, təhsilin köməyi ola bilər, amma o, öz-özlüyündə yazıçı ola bilməyəcək insanı yazıçı edə bilməz.... <...>

Sual: Siz yazarkən hansısa müəyyən bir oxucunu nəzərdə tutursunuzmu?

Folkner: Yox. Uzun illərdi, tanımadığım adamların məni oxuyacağı barədə düşünmədən yazmışam, özümü bu fikrə heç cür alışdıra bilməmişəm. İndi də o cür yazıram,

çünki məni narahat edən şeyləri kağız üzərində ifadə etməyə, onlardan azad olmağa məcburam. <...>

Dördüncü məşğələ. 25 fevral 1957

Sual: Mən bir qadın tanışımla müzakirə etdiyim məsələ barədə sual vermək istərdim. O, yazıçıdı və çox vaxt bir əsəri əvvəlcə başdan ayağa bütöv şəkildə düşünüb-daşınır, sonra isə demək olar ki, heç nəyi dəyişmədən onu kağıza köçürür. Siz də bu cür işləyirsiniz, yoxsa başqa tərzdə?

Folkner: Bəzən mən də o cür işləyirəm. Amma mənə elə gəlir ki, necə yazmağın, yaxud əsəri hansı şəkildə qurmağın ciddi, pozulmaz qaydası yoxdu. Əlbəttə, başlıcası odur ki, yazıçı, necə deyərlər, yazmağın "xəstəsi" olsun. O, sadəcə, yazmalıdı, səbəbi məlum olmasa da yazmalıdı, vəssalam. Bəzən o bu zərurətdən qurtulmaq istəyir, amma bacarmır. Əsər nədən başlayır? Bəzən real hadisədən, bəzən də bir obrazdan. Mən heç vaxt ideyadan başlamıram, çünki cürbəcür ideyalarla o qədər tanış deyiləm, sadəcə olaraq, onlar məni maraqlandırmır. Məni insanlar maraqlandır, hərçənd bir yazıçı kimi əsaslandığım təcrübə ola bilsin ki, xeyli məhduddu. Ancaq məni hər şeydən əvvəl insanlar – özü ilə, başqaları ilə, öz dövrü, öz mühiti ilə münaqişədə olan insan maraqlandırır. Belə hesab edirəm ki, necə yazmağın heç bir qaydası yoxdu.

Sual: Yazıçı yenicə yazmağa başlayan müəlliflərə nəyi öyrədə bilər?

Folkner: Heç kəs heç kimə nəyisə öyrədə bilməz, yazıçı hər şeyi özü öyrənir və əgər o, bu işin "xəstəsidirsə", yazmaq istəyirsə, səbəbini özü də bilmədən yazmalıdı, bu yolda qarşısına çıxan hər şey onun üçün faydalı olacaq. O, özündən yaşca böyük adamlardan öyrənəcək, digər yenicə yazmağa başlayan müəlliflərdən öyrənəcək; amma məhz öyrənəcək, çünki yazıçı olmağı öyrətmək mümkün deyil. Bundan əlavə, mənə elə gəlir ki, yazıçı insanlara nəsə demək istəyirsə, onun dərs almağa vaxtı yoxdu, bütün fikri-zikri öz peşəsini mənimsəməklə məşğuldu, bilir ki, ona nə lazımdı, instinkti isə kimdən nəyi götürməyi özü ona deyəcək. Yəni onun oturub ustad dərsləri dinləməyə, sadəcə, vaxtı qalmır.

Sual: Üslub məsələsinə qayıdaq. Məşğələlərin birində dediniz ki, 18 –19 yaşlarınızda Dostoyevskini, Konradı tez-tez oxuyurdunuz. Sizə elə gəlmirmi ki, ifadə quruluşunda çox şeyi Konraddan götürmüsünüz? Hekayələrinizdə, "Ayı" povestinin bəzi epizodlarında Konradı xatırladan ritmlər eşidilir. Mən onun "Yeniyetmə çağı" əsərindən "apaydın və qaşqabaqlı, təhdidedici və ümidverici" ifadəsini xatırlayıram. Sizin əsərlərinizdə də oxşar sifət sıralamalarına rast gəlmişəm.

Folkner: Bəli, bəli, tamamilə doğrudur. Mən Konraddan və siz cavanların, bəlkə də, adını eşitmədiyiniz bir adamdan çox şey götürmüşəm. Bu, Tomas Birdi[43]. Bəlkə, bu ad sizə məlumdu?

Sual: Mən tənqidçi Tomas Biri tanıyıram. "Çəhrayı onillik" əsərini o yazıb.

Folkner: Elədi. Ondan çox şey öyrənmişəm, mənə elə gəlirdi ki, onda düzgün fəndlər, dəqiq tapılmış sözlər, fakta düzgün yanaşma var. Burda əvvəl də dediyim kimi, mən belə hesab edirəm ki, yazıçı prinsipsiz şəxsiyyətdir. O, özünə lazım olan hər şeyi götürür, hardan istəsə götürür, özü də bunu açıq-aşkar şəkildə, vicdanla eləyir; ümidvardır ki, onun da kitabları başqalarının istifadəsinə layiqdi, hətta bunu təşviq etməyə də hazırdı, çünki bir şeyə əmindi: özündən əvvəlki ən yaxşı yazıçılar da onun onlardan nəsə götürməyini hökmən bu cür təşviq edərdilər.

Sual: Nə üçün siz "O gün şər qarışanda" hekayəsindəki zənci oğlanı İsus[44] adlandırmısınız?

Folkner: Bunda bir qədər də oxucunu qəsdən heyrətləndirmək arzusu vardı. Amma Missisipi ştatında yaşayan zəncilər arasında İsus, ümumiyyətlə, adi bir addı, yəni tez-tez rast gəlinməsə də, onda müstəsna, qəribə heç nə yoxdu. Hətta bununla oxucunu heyrətləndirməkdən daha çox, belə bir fikrimi vurğulamaq istəmişəm ki, özünü ağ ailəyə həsr etmiş zənci qadın bilir ki, ağır məqamında köməyə ehtiyac duyarkən ağ adamlar ona kömək etməyəcəklər. <...>

Sual: Bu və ya digər personaj haqqında bütün həqiqəti söyləməyi zəruri hesab edirsinizmi?

Folkner: Yox. Mənə elə gəlir ki, bir əsəri lazımi istiqamətdə inkişaf etdirə bilmək üçün insan xarakterinin hansı cəhətinin mənə lazım olduğunu, təxminən on kitab yazandan sonra anlamağa başladım, buna görə də bir əsər üçün xarakterin bir, o biri üçün isə digər xüsusiyyətini götürə bilərəm. Bu mənim üçün eyni obrazdı, hərçənd oxucuya elə görünə bilər ki, onun xarakteri dəyişib – mənim üçün isə o, eynilə əvvəlki kimi qalır. Sadəcə, həmin an personajda mənə nə lazım olduğunu vurğulamaq üçün öz müəlliflik hüququmdan istifadə etmişəm.

Sual: Sizin fikrinizcə, yazıçının öz qəhrəmanlarının taleyinə olan marağı onun real insanların həyatına real şəkildə cəlb olunması ilə bağlıdır?

Folkner: Mənə elə gəlir ki, bunun yaradıcılıqla heç bir əlaqəsi yoxdu. Yazıçı insanlarla sıx şəkildə bağlı ola bilər; o, içki düşkünü də, qumarbaz da – nə istəsən ola bilər, ancaq bu onun yaradıcılığına heç cür təsir etmir. Mən lal-dinməz və şöhrətsiz Miltonun var olduğuna

---

43 Tomas Bir (1889-1940) – Amerika yazıçısı, Stiven Kreynin bioqrafiyası, həmçinin Kreyn və onun 1890-cı illərdəki çevrəsi barədə "Çəhrayı onillik" kitabının müəllifi

44 İsa peyğəmbərin ingilis dilində adı İsus Kristdir (Jesus Christ)

inanmıram[45]. Əgər insanın istedadı varsa, deməyə sözü varsa, o, hökmən yazacaq, kiminsə nə üçün yazıçı ola bilmədiyinə isə həmişə bəhanə tapmaq mümkündü. Çox tez-tez eşidirsən: "Əgər evli olmasaydım, uşaqlarım olmasaydı, mən də yazıçı ola bilərdim", yaxud nəyəsə qurşanmasaydı, o da yaza bilərdi. Bununla razılaşmıram. Mənə elə gəlir ki, yazmaq istəyirsənsə, yazacaqsan, heç nə səni saxlaya bilməz. Bəzən həyat səni öz burulğanına çəkir, amma nə qədər dərinə çəksə, bir o qədər yaxşıdı. Bəlkə də, yazıçı fil sümüyü qülləsinə qalxmamalıdı, əksinə, həyatın dibinə baş vurmaq lazımdı ki, böyür-başın bir qədər əzilə, bəlkə də, bu, daha faydalıdı.

Sual: "Qırmızı yarpaqlar" hekayəsində zənci əsir hindulardan qaçarkən təqibdən qurtulmaq üçün bataqlıqda gizlənir, sonra isə imkan verir ki, ilan əlini çalsın. Ancaq hindular, hər halda, onu tuturlar. Bu, o deməkdirmi ki, insan öz taleyindən qaça bilməz?

Folkner: Yox. İlanla bağlı epizod ölümün qaçılmazlığını hiss edən insanın, sanki, onu qəbul etdiyini, əslində isə etmədiyini göstərmək üçün lazımdı. Zənci öz-özünə deyir: mən ölmüşəm, indi mənim üçün heç nəyin əhəmiyyəti yoxdu, ilan məni çalsa da, əhəmiyyəti yoxdu – mən ölmüşəm; amma, hər halda, son ana qədər öz ölümünü gecikdirmək istəyir. İnsan həmişə həyatda qalmaq, yaşamaq istəyəcək, acı və yoxluq arasında seçim etmək məcburiyyətində qalarkən həmişə acını seçəcək. <...>

Sual: Siz belə hesab edirsiniz ki, yazıçı ürəkdən yazmalıdı. Bundan fərqli olaraq insan instinktlərinə müraciət edən yaradıcılıq haqqında da danışırsınız. İnsanın qəlbinə deyil, instinktiv tələbatlarına müraciət edərək uğurlu əsərlər yaratmaq olarmı?

Folkner: Bəli, əlbəttə olar: məsələn, Spilleyn[46] soyadında bir müəllif var, yaxud cinayətkarlıqdan yazan müəlliflər, amma bu, əsl ədəbiyyat deyil, mənim fikrimcə, bununla məşğul olmağa dəyməz. Özlüyündə bunlar, əlbəttə, uğurlu əsərlərdi, amma onunla məşğul olmağa dəyməz. İnsan qəlbinə müraciət etməyin zəruriliyindən danışarkən nəyi nəzərdə tuturdum? Məhz ürək insanın yaxşı adam olmasını istəyir, xeyirlə şərin fərqini məhz o bilir, məhz ürək bizə yaxşı adam olmağı təlqin edir. Ürəkdən yazın, qəlbdən yazın deyəndə mən bax, bunu nəzərdə tuturam. Öz ürəyi sayəsində insan qorxaq görünməkdən çəkinərək cəsur olmağa can atır, o öz ürəyi sayəsində səxavətli olmaq istəyir, hətta bacarmayacağını hiss etdiyi anlarda belə, mərhəmət göstərmək istəyir. Mənə elə gəlir ki, ağıla tabe olsaq, təxminən, belə düşünmək olar: "Hansı daha faydalı olar – mərhəmət göstərsəmmi, göstərməsəmmi? Mənim üçün hansı xeyirlidi – cəsur olmaqmı, yoxsa ondan imtina etməkmi?" Amma ürək həmişə istəyir ki, insan yaxşı olsun.

---

[45] ... *lal-dinməz və şöhrətsiz Milton* – ingilis sentimentalist şairi Tomas Greyin (1716-1771) "Kənd qəbiristanlığı" şerindən götürülmüş ifadədir və heç kim tərəfindən tanınmamış qalan istedad haqqında işlədilir

[46] Spilleyn Miki – 1918-ci ildə anadan olub, o vaxtlar ABŞ mətbuatında geniş təbliğ olunan populyar romanlar müəllifi

Sual: “Emili üçün qızılgül” hekayəsinin əsasında fikir durur, yoxsa obraz? Hekayə necə yarandı?

Folkner: Bir dəfə şüurumda bir mənzərə – balış üzərində bir dəstə saç tükü mənzərəsi yarandı. Bu hekayə xəyalatlar barədədi. Onun əsasında obraz durur: xaraba qalmış bir evdə balış üzərində bir dəstə saç tükü. <...>

Altıncı məşğələ. 9 mart 1957

<...> Sual: Hesab edirsinizmi ki, “Persi Qrimm”[47] hekayəsinə daxil etdiyiniz insan tipi bu gün Cənubda, deyək ki, Ağ Vətəndaşlar Şurasında[48] daha çoxdu?

Folkner: Mən deməzdim ki, o, Cənub üçün tipikdir, çünki bu cür adamlar hər yerdə mövcuddur. O kitabı 1932-ci ildə yazmışam və təbii ki, o vaxt Hitlerin basqınçıları haqda hələ heç nə eşitməmişdim, bunun nə olduğunu bilmirdim. Bəli, belə adamlar hər yerdə var, amma deyə bilmərəm ki, onlar Cənubda daha çoxdu, hərçənd ola bilsin ki, Ağ Vətəndaşlar Şurasında həqiqətən çoxdular. Amma, hər halda, belə adamlar hər yerdə, hər ölkədə, bütün dünyada var.

Sual: Persi Qrimm törətdiyi cinayətə görə cəzalandırılıbmı?

Folkner: Məncə, istənilən basqınçı vaxtı gələndə öz payını alır. Onu heç kəs cəzalandırmır, göydən düşən ildırım vurmur, amma o, bütün bunlarla birlikdə yaşamalıdı və vaxtı gələndə nə törətdiyini anlamağa məcburdu. Adətən, bu, insanın ahıl yaşlarında, artıq bu cür əməllərdən isterik məmnunluq hissi duymadığı vaxtlarda baş verir, onda nə törətdiyini xatırlamağa başlayır və düşünürsən: “Aman Allah! Mən niyə bunu elədim?!” Axı insan bu əməlləri ilə birlikdə yaşamağa məcburdu... Məncə, anlaşılmaz intiharlar da çox vaxt, sadəcə, bununla izah olunur: cavanlığında belə bir bəd əməl törədən insan illər ötdükcə bu qənaətə gəlir ki, o əmələ görə daxilən bu qədər əzab çəkməkdənsə, yaşamasa yaxşıdır..

Sual: Siz Qədim Yunanıstan haqqında danışdınız. Deyin görək, müasir ədəbiyyatda həqiqi faciə qəhrəmanı yarana bilərmi, yoxsa bizim dövrün qəhrəmanları qaçılmaz dərəcədə xırda və sadədir?

Folkner: Mürəkkəb sualdır. Məncə, yazıçı öz ətrafının hüdudları daxilində işləməyə məcburdu; yeri gəlmişkən, bu ətraf təkcə əraf mühitdən deyil, həm də oxuculardan ibarətdi. Axı həmişə səni kimin oxuyacağını düşünmədən yazmaq olmaz, buna görə də yazıçı özü istəsə də, istəməsə də, qeyri-ixtiyari olsa da, öz oxucularına istiqamətlənərək yazır. Kim bilir, indi ağıllı dinləyicilər olsaydı, yenə gözəl şairlər meydana çıxardı. Deməli, əgər bir yazıçı o qədər də yaxşı kitab yazmayıbsa, günah təkcə onun özündə deyil, həm də ətrafındadı, yazıçı aləminin bir

---

[47] “Persi Qrimm” – “Avqust işığı” romanından bir parçaya verilən ad, bu parça həm də həmin ad altında ayrıca hekayə kimi Folknerin iki seçilmiş əsərləri toplusuna (1946, 1953) daxil edilib

[48] Ağ Vətəndaşlar Şurası – o dövrdə ABŞ Cənub ştatlarında fəaliyyət göstərən irqçi təşkilat

hissəsi olan oxuculardadı. Və çox güman ki, onların hamısının udduğu hava da kitaba öz təsirini göstərir. Əgər insanlar sadə və aydın olan qədim yunan qaydalarına əsasən yazsaydılar, çox gözəl olardı, amma indi bu, köhnəlmiş görünərdi. Bir vaxtlar belə yazıblar, indi o cür yazmırlar, amma əgər həyat doğrudan da siklvari inkişaf edirsə, ona hələ qayıdacaqlar. <...>

Sual: Mən "Avqust işığı" romanı haqda sual vermək istəyirəm. Haytauerin həyat tarixçəsini nə üçün romanın əvvəlində, o, meydana çıxanda deyil, əsərin sonunda verdiyinizi izah edə bilərsinizmi?

Folkner: Bunun səbəbi belə ola bilər: əgər bir kitabda, məsələn, macəra romanındakı kimi, ardıcıl inkişaf etdirilən süjet xətti yoxdursa, o, epizodlar seriyasını əks etdirir. Bu, bir vitrini tərtib etmək kimidir. Bütün əşyaları elə yerləşdirməlisən ki, onların hər biri digərinin yanında kölgədə qalmasın, aydın seçilsin, bunun üçün isə müəyyən təsəvvür və zövq sisteminə malik olmaq lazımdı. Mənə elə gəldi ki, həmin hissə üçün ora ən uğurlu yerdi: Kristmasın tarixçəsinin faciəviliyini onun əksini təşkil edən qəhrəmanın faciəsi ilə bir az da qabartmaq istəyirdim. Haytauer öz gözündə yaxşı olmağa çalışan adamdı. Ailə həyatında iflasa uğrayıb və ona qalan son şey Allaha qulluq etməkdi, buna görə də özü üçün təsəllini keçmişdə, nəslinin cəsur bir üzvünün öz şansını əldən buraxmadığı dövrdə axtarır. Mən bu tarixçəni kitabın sonunda yerləşdirdim, məncə, o burada daha uduşlu görünür.

Sual: Necə bilirsiniz, kişi xarakterinə nisbətən, qadın xarakterini yaratmaq daha çətindirmi?

Folkner: Qadınlar haqqında yazmaq daha maraqlıdı, çünki qadınlar qəribə məxluqdular, mən onları pis tanıyıram, bəli, kişilərə nisbətən qadınlar haqqında yazmaq maraqlıdı, amma həm də çətindi. <...>

Sual: "Emili üçün qızılgül" hekayəsinin qəhrəmanları – Homer Berron və Emiliyə Şimalla Cənubun mücəssəməsi kimi baxmaq olarmı? Nə dərəcədə siz burada Şimalla Cənub arasındakı toqquşmanı və rəmzi mənada Emili ilə təmsil olunan Cənubun həmin toqquşmadan məğlub olmadan çıxdığını – hətta ən qeyri-adi vasitələrlə olsa belə – göstərmək niyyətində olmusunuz?

Folkner: Əgər belədirsə, bu, təsadüfən alınıb. Mənə elə gəlir ki, yazıçı birdən canlana, hərəkətə gələ bilən personajlar yaradarkən özünü tamamilə bu işə sərf edir, buna görə də onun öz yazdığına hansısa rəmzi məna verdiyi, ümumiyyətlə, bütün bunlardan hansı məna çıxarıla biləcəyi haqda düşünməyə vaxtı qalmır. Yəni çətin ki, eyni bir müəllif eyni vaxtda həm inandırıcı, dolğun xarakterlər yaratmağa, həm də müəyyən bir ideyanı həyata keçirməyə qadir olsun, buna görə də seçim etməli olursan: ya müəyyən bir ideyanı həyata keçirirsən, ya da əzab

çəkən, mübarizə aparan insanların dolğun, canlı xarakterlərini yaradırsan. Hər bir insan öz keçmişinə söykənir, öz-özlüyündə mövcud deyil, o öz keçmişinin məhsuludu, əgər belə bir ifadə sizi qane edirsə, həm də gələcəyin məhsuludu. Cənubla Şimal arasındakı mübarizə, bunu nə dərəcədə dərk etməyimdən asılı olmayaraq, yəqin ki, mənim mənəvi irsimin, təcrübəmin tərkib hissəsidir. <...>

Sual: Əvvəlki məşğələlərin birində siz necə oldusa, dediniz ki, romanlarınız, adətən, hansısa bir, yaxud da bir neçə obrazdan başlayıb. Bəs hekayələriniz? Onlar da bu cür yaranır?

Folkner: Bəzən hər şey insan obrazından, bəzən də faktdan başlayır, amma böyük kitab kimi qısa hekayəni də ətraflı düşünürsən. Yazı ustasının üzləşdiyi ilk şey demək istədiyini mümkün qədər qısa və sadə tərzdə ifadə etməkdi, əgər o, məsələn, Çexov kimi əsl, birinci dərəcəli sənətkardısa, buna iki-üç min söz sərf edəcək, yox, əgər belə bir bacarığı yoxdursa, bunun üçün ona səkkiz-on min söz lazım ola bilər. Bununla belə, hər iki yazıçı tipi bir-birinə bənzəyir, axı ikinci də onun içini tərpədən, ona doğru görünən şeyi mümkün qədər qısa yazmağa çalışır, gec-tez son nöqtəni qoyur.

Düşünmürəm ki, hansısa yazıçı – istər kişi, istərsə də qadın olsun – masanın arxasına əyləşib özünə desin: "Bax indi hekayə yazacam", yaxud "İndi də roman yazmağa başlayım". Hansısa bir fikir, obraz, fakt yazıçıya ideya verir, həmin ideya elə o andaca, ildırım sürətilə müəyyən bir forma almağa başlayır və sənətkar dərhal anlayır ki, yazdığından hekayə, yoxsa roman alınacaq. Bəzən belə olur. Bəzənsə başqa cür. Bəzən fikirləşirsən ki, hekayə alınacaq, amma onu yaza bilmirsən. Yaxud sənə elə gəlir ki, roman alınacaq, amma bir az işləyəndən sonra əmin olursan ki, hər şeyi iki min – beş min sözün köməyi ilə deyib qurtara bilərsən. Burada elə bir qayda yoxdu. <...>

Sual: Yazıçının xüsusi bir dil yaratmağa – məsələn, Coys, ya da Eliot kimi – haqqı varmı? Axı onlar qəbul olunmuş ifadə normalarının öz məqsədlərinə uyğun gəlmədiyini görəndə məhz belə eləyiblər.

Folkner: Yazıçının bir şərtlə buna haqqı var: bu zaman kiminsə onu anlayacağına iddia etməməlidi. Mən Uitmenin sözləri ilə demək istəyirəm, məncə, məhz o deyib: "Yaxşı şairlərin olması üçün yaxşı oxucular olmalıdı", ya da nəsə buna bənzər bir şey... Bu ifadə kimi yadındadı?

Sual: Uitmen "yaxşı dinləyicilər" deyib.

Folkner: Beləliklə, yazıçı elə yazmalıdı ki, onu anlaya bilsinlər, bu onun borcudu, öz istedadından irəli gələn borcu... Bu heç də o demək deyil ki, səni hər cür ağıldankəm, ibtidai məktəb korafəhmi də anlamalıdı, ancaq bütün insanlar üçün eyni məna daşıyan sözlərdən ibarət olan ümumi dildən istifadə etmək lazımdı. "Finneqana ehsan" və "Uliss"in, yəqin ki, yaşamaq

haqqı var, ancaq bu haqqın nəyə əsaslandığını demək çətindi. Coys dahidi, ilahi tonqalda yandırılmış dahi. <...>

Səkkizinci məşğələ. 13 mart 1957

<...> Sual: Mənə məlum olduğu qədər, siz 1923-cü ildə[49], yəni Anderson, Heminquey və digər yazıçılarla eyni vaxtda Avropada olmusunuz. Onlarla ünsiyyətdə idinizmi, əgər deyildinizsə, niyə və hesab edirsinizmi ki, bu yazıçılar öz aralarındakı ünsiyyət nəticəsində bir-birilərinə hansı yollasa təsir ediblər?

Folkner: Ola bilsin ki, ediblər. Mənə elə gəlir ki, sənətkara bütün ətrafı təsir edir. Bəlkə də o, sadəcə, belə təsirə daha həssasdı, çünki ona öz yaradıcılıq binasını ucaltmaq üçün material, vəsait lazımdı. O vaxt mən özümü yazıçı hesab etmirdim, yalnız gəzirdim, ədəbiyyatla, ədəbiyyatçılarla maraqlanmırdım[50]. Onlarla eyni vaxtda orda olmuşam, Coysu tanıyırdım, haqqında bilirdim, onun tez-tez gəldiyi qəhvəxanaya getmək, ona baxmaq üçün bütün məlum cəhdləri etməyə hazır idim.

Sual: Bir tərəfdən belə bir fikir irəli sürülür ki, "Emili üçün qızılgül" Şimalın tənqididi, digər tərəfdən də deyirlər ki, onda Cənub tənqid olunub. Ona dövrün tənqidi desək, doğru olmazmı?

Folkner: Bilmirəm, mən, sadəcə, insanlar barədə yazmışam. Yazıçı öz mühitindən, yəni bildiklərindən istifadə edir, əgər bir kişinin Şimalı, onu öldürən qadının isə Cənubu təmsil etməsində nəsə bir rəmzi məna varsa, demək istəməzdim ki, belə bir yanaşma özünü doğrultmur və burda rəmzi məna yoxdu; ancaq bu, müəllifin düşünülmüş niyyəti olmayıb, yazıçı özünə demir ki, hə, indi bir hekayə yazacam, onda bir xarakter rəmzi mənada Şimalı, digəri isə Cənubu təmsil edəcək. O, sadəcə, insanlar barədə yazır, ona faciəvi, doğru görünən hekayə qələmə alır, çünki bu işi ürəkdən görür, insan cəhdlərindən, insanın təbiəti ilə vicdanı arasındakı münaqişədən... yəni qədim Adəmdən çıxış edir. Burada münaqişə Şimalla Cənub arasında olmaqdan daha çox, əgər belə demək mümkündüsə, Tanrı ilə Şeytan arasındadı.

Sual: Onda aydın deyil ki, kim kimi təmsil edir?

Folkner: Münaqişə miss Emilinin özündədi: o bilir ki, insanı öldürmək olmaz, belə bir şüurda tərbiyə olunub ki, kimləsə qeyri-qanuni yaşamaq olmaz. Ərə getmək lazımdı, özünə məşuq tapmaq düzgün deyil. O öz mühitinin bütün ənənə və qanunlarını, son nəticədə isə adam öldürməyi qadağan edən Allah qanununu pozur. Bilir ki, şər iş törədir, öz həyatını məhv edir.

---

49 Əslində Folkner Avropada 1925-ci ilin avqust – dekabr aylarında olub

50 Folkner 1914-cü ildən şeir yazmağa başlayıb, mətbuatda isə ilk dəfə 1917-ci ildə çap olunub. Avropaya gedənə qədər "Mərmər favn" kitabını nəşr etdirib, Nyu Orlean jurnallarında seriya oçerkləri dərc olunub və "Əsgər mükafatı" romanını yazıb. Parisdə isə yarımçıq qalan "Elmer Xocanın portreti" romanı üzərində işləyib

Başqa cür də ola bilərdi: məşuqunu öldürəndən sonra özünə daha bir məşuq tapa, istifadə etdikdən sonra onu da öldürə bilərdi; amma öz günahını yumağa çalışır.

Sual: Amma bu cür faciəvi situasiyalarda belə halının pozmayan hər şeydən məmnun qalan bir adama qarşı mərhəmət hissi duymaq olarmı?

Folkner: Emili, bəlkə də, öz məmnundu, ancaq mənə elə gəlir ki, təəssüf hissinə layiq obyektin özünü xoşbəxt, məmnun hiss etməsinə əsaslanaraq ona qarşı mərhəməti boğmaq olmaz. Mənə elə gəlir ki, insanın öz təbiəti ilə, öz vicdanı ilə mübarizə aparmaq cəhdi əsl şəfqət hissinə layiqdi. Fərdin hansısa ayrıca bir durumu yox, özü, özü kimiləri, öz ətrafı ilə münaqişədə olan insan buna layiqdi. Məhz o, bizim onun dərdinə şərik olmağımızı haqq edir. İnsanın əzab çəkməsi, məsələn, atdan yıxılması, yaxud qatar altında qalması yox, öz istəklərini, öz məqsədlərini mənəvi özünüdərklə, öz dövrünün, yaxud öz mühitinin – böyüdüyü, yaşadığı, ailə qurduğu şəhərin ictimai şüuru ilə hansı yollasa barışdırmağa çalışan insan buna layiqdi. <...>

Sual: Kütləvi informasiya vasitələrinin artması səbəbindən müasir yazıçı əvvəlki dövrlərə nisbətən daha sürətlə uğur qazanacağına ümid edə bilərmi?

Folkner: Məncə, yox. Mənə elə gəlir ki, yazıçı, ümumiyyətlə, daha böyük vaxt kateqoriyaları ilə düşünür. Müasirlərinin onun haqqında nə fikirləşdikləri onu çox da maraqlandırmır. O daha uzağa baxır, 1957-ci ilin oxucularının deyil, 2057-ci, hətta 4057-ci ilin oxucularının rəyini nəzərdə tutur.

Sual: Yəni demək istəyirsiniz ki, sizin əsərləriniz 4057-ci ilə kimi tanınmamış qalsaydı, bundan xeyli məmnun olardınız?

Folkner: Heç şübhəsiz. Yəni, əlbəttə, əsərlərim mənə bir az gəlir gətirməyə başlayanda bu mənim üçün çox xoş oldu, amma şöhrət və qalan şeylər – bunlar o qədər də mühüm deyil. <...>

Sual: Siz rus yazıçılarını xatırlatdınız. Dostoyevski haqqında nə düşünürsünüz?

Folkner: Dostoyevskinin nəinki mənə güclü təsiri olub, həm də onu təkrar-təkrar oxumaqdan böyük zövq alıram, təxminən, hər il oxuyuram. Ustalığı, insan qəlbinə dərindən nüfuz etməyi, mərhəmətli olmaq qabiliyyəti onu elə bir yazıçı eləyib ki, əgər bacarsaydılar, çoxları ona yaxınlaşmaq istərdi. O, silinməz iz qoyub gedənlərdən biridi. <...>

Doqquzuncu məşğələ. 13 aprel 1957

<...> Sual: “Avqust işığı” romanında eyni bir mənzərə bir neçə dəfə verilir: Coanna Berdenin evi üzərində tüstü burumları ucalır. Demək olarmı ki, romanın yazılması üçün ilkin

impuls məhz bu obraz olub? “Hay-küy və qəzəb” romanı üçün ilkin impuls ağaca dırmaşmış balaca qız obrazı olduğu kimi?

Folkner: Yox. Bu romanın əsasında Lina Qrouvun – gənc, kasıb, hamilə, amma qəti şəkildə öz sevgilisini axtarıb tapmaq qərarına gələn bir qadının tarixçəsi durur. Mən qadınların cəsarəti və mətinliyi qarşısında öz heyranlığımı ifadə etmək istərdim. Roman yazıldıqca ona yeni-yeni materiallar əlavə etmişəm, amma bu kitabın əsasında Lina Qrouvun tarixçəsi durur.

Sual: “Məbədgah” romanındakı Dombalangöz obrazı müasir mənfəətcil dünyanı simvolizə edir?

Folkner: Yox, bu mənim üçün daha bir itirilmiş məxluqdu. Əgər o, müasir dünyanda şərin rəmzi kimi qəbul edilirsə, bu, adi bir təsadüfdü. Mən insanlardan yazıram, ideyalardan, yaxud da simvollardan yox.

Sual: “Avqust işığı” romanının adı “hamiləliyin sonu” mənasını bildirən danışıq ifadəsindən gəlirmi?

Folkner: Yox, sadəcə olaraq, mənim vətənimdə avqust işığının xüsusi bir keyfiyyəti var, adın bütün mənası da bundadı. Bu adın, ümumiyyətlə, kitabın süjeti ilə birbaşa əlaqəsi yoxdu.

Sual: Sizin uydurduğunuz əyalətin adı necə tələffüz olunur?

Folkner: Əgər hecalara bölsən, çox sadə: Yok-na-pa-to-fa. Bu söz çikaso hindu tayfasının dilindən götürülüb, “vadidə su sakit axır” mənasındadı. <...>

Sual: “Avqust işığı” romanında Haytauer belə bir hisslə ölür ki, artıq nicata nail olub?

Folkner: O ölmür. O öz həyatını məhv edib. Nikahda uğursuzluğa düçar olub. Öz ümidlərini doğrultmayıb, amma, hər halda, yenə də nəyisə qalıb: cəsur babası haçansa at belində şəhərə hücum edib, yankilərin anbarlarını yandırıb; ona qalan yalnız budu. Bundan savayı hər şeyini itirib, amma keşiş olduğu və hələ də özünü Allahın qulluğunda saydığı üçün intihar edə bilmir. O, həyatını məhv edib, amma özünü məhv edə bilməz, buna hüququ yoxdur. Buna görə də cəsur babası haqqında təmiz və gözəl bir xatirəni yaddaşında saxlayaraq yaşamağa, dözməyə məcburdu. <...>

Sual: “Avqust işığı” romanındakı gözlənilməz üslubunuz, xüsusən də hadisələrin keçmiş zamanda deyil, indiki zamanda nəql edilməsi çoxlarında təəssürat oyadıb. Bu, xüsusi bir məna daşıyırmı, yoxsa sadəcə olaraq, yeni nəql üsulundan istifadə etməyə çalışmısınız?

Folkner: Mənə elə gəldi ki, bu əhvalatı belə daha yaxşı danışmaq olar. Mən şüurlu olaraq üslub dəyişməmişəm. Ümumiyyətlə, üslub barədə o qədər də fikirləşən deyiləm. Mənə elə gəlir ki, yazıçının qəlbində çox şey yığılıb qalanda onun üslub haqqında düşünməyə vaxtı

olmur. Əlbəttə, əgər sadəcə yazmaq xoşuna gəlirsə, stilist də ola bilərsən, amma yazıçının qəlbində insanlara danışmaq istədiyi çox şeylər yığılıb qalanda onun vaxtı və gücü yalnız yör-yöndəmsiz, məsələn, Balzak kimi yazmağa çatır. <...>

Onuncu məşğələ. 15 aprel 1957

<...> Sual: Yazıçı insanlar haqqında yaza, amma onlara öz münasibətini bildirməyə bilərmi?

Folkner: Sizə necə deyim, mənə elə gəlir ki, əgər insanı – istər real şəxsi, istərsə də yaratdığın personajı yaxşı tanıyırsansa, onun barəsində müəyyən hökm çıxarmağın qaçılmazdı. Biz burada nədəsə Allahı xatırladırıq. Hökm çıxarmaq lazım gəlir, özün yaratdığın qəhrəmanları çox sevmək və onlara çox nifrət etmək lazımdı.

Sual: Uzun cümlələrdən istifadə etməklə hansı məqsədi güdürsünüz? Şüur axını təsəvvürü yaratmaq istəyirsiniz, yoxsa öz fikrinizi bu yolla ifadə etmək sizin üçün daha asandır?

Folkner: Bu, eynilə dülgərin, əlindəki iş üçün hansı alətin daha uyğun olacağını seçməsi kimi, texniki məsələdi. Bundan əlavə, hər bir insanda öz ölümünü qabaqcadan hiss etmək duyğusu var: bilirsən ki, iş üçün ayrılan vaxtın azdı, buna görə də insan qəlbinin bütün tarixini bir iynə gözündə yerləşdirməyə çalışırsan. Bir də ki, hər halda, mənim üçün insan öz-özlüyündə mövcud deyil, o, öz keçmişinin məhsuludu. Keçmiş, faktiki olaraq, nəsə "vardı" kimi mövcud deyil, o, "var"a keçib. Hər kişidə, hər qadında, hər anda keçmiş var. Buna görə də insan, əsərdəki xarakter istənilən fəaliyyət anında onu məhz bu şəklə salan şeylərin hamısını özündə əks etdirir. Uzun cümlə bütün keçmişi, imkan daxilində isə həm də gələcəyi qəhrəmanın hansı bir addımısa atdığı yeganə anda cəmləşdirmək cəhdidi. <...>

Sual: "Emili üçün qızılgül" başlığının mənası nədir?

Folkner: Şəxsi həyatı olmayan adi bir qadın vardı. Atası heç vaxt onu çölə-bayıra buraxmırdı, sonra bir sevgilisi – məşuqu peyda oldu, o da onu atıb qaçmaq istədi, buna görə də onun həmin adamı öldürməkdən başqa əlacı qalmadı. Beləliklə, bu, sadəcə, Emili üçün Qızılgüldü, vəssəlam. <...>

On dördüncü məşğələ. 6 may 1957

<...> Sual: “Avqust işığı” romanındakı Co Kristmas[51] obrazında xristian rəmzi mənası mövcuddurmu?

Folkner: Yox, yenə də bütün məsələ ondadır ki, yazıçı deməyə çalışdığı şeyləri ifadə etmək üçün, sadəcə olaraq, öz ehtiyatından həmin anda ona ən uyğun görünən materialı götürür. Bu isə belə bir təsəvvürə aparıb çıxarır ki, faktiki olaraq süjetlər azdı və hər bir yazıçı gec-tez, artıq istifadə olunmuş süjetdən istifadə edir. İsa peyğəmbərin tarixçəsi isə bütün dövrlər ərzində bəşər tərəfindən uydurulan – əlbəttə, əgər bunu uydurulmuş hesab edərsək – ən yaxşı tarixçələrdən biridi və insanların təkrar-təkrar ona qayıtmaları qaçılmazdı. İsa peyğəmbərin tarixçəsini və ilahi ehtirasları öz xristian irsinin tərkib hissəsi hesab edən hər kəs vaxtı gəldikcə ondan bəhrələnəcək, material götürəcəkdir. Mən isə İsa peyğəmbərin tarixçəsini şüurlu şəkildə təkrar danışmaq niyyətində olmamışam. Mən, sadəcə, insanlar haqqında yazmağa çalışmışam. Rəmzi məna isə sonradan gəlir.

Sual: İsa peyğəmbərin adını nə üçün Co Kristmas kimi yaramaz bir adama vermisiniz?

Folkner: Nə etmək olar. Məncə, bu və ya başqa bir insan haqqında onun yaramaz, yaxud yaxşı adam olduğunu söyləmək çox çətindi. Müəyyən istisnalar olduğunu qəbul edirəm, amma ümumiyyətlə, insan öz naturasının, mühitinin, ətrafının qurbanıdı və heç kim haqqında demək olmaz ki, o pisdi, ya da yaxşıdı. İnsan öz imkanları daxilində yaxşı olmağa çalışır. Kristmas isə, məsələn, heç kim olduğunu da bilmir. O başa düşür ki, bunu heç vaxt öyrənə bilməyəcək və özüylə birlikdə yaşaya bilmək üçün onun yeganə xilas yolu insanlıqdan imtina etmək, səfil kimi yaşamağa başlamaqdı. O bunu eləməyə çalışır, ancaq heç kəs buna imkan vermir – insanlar imkan vermirlər. Mən onu pis adam hesab etmirəm, o faciəvi adamdı. Faciəsi də bundadı ki, kim olduğunu bilmir, heç vaxt da bilməyəcək və məncə, bu – kim olduğunu bilməmək insanın düşə biləcəyi ən faciəvi vəziyyətdi. <...>

Sual: İnsanlara olan sevginizə baxmayaraq, haçansa onlara qarşı o dərəcədə qəzəbləndiyiniz olubmu ki, ürəyinizdən Menken[52] üslubunda nəsə yazmaq, yəni insanlara möhkəm bir şapalaq vurmaq keçsin?

Folkner: Mən deyə bilmərəm ki, insanları sevirəm. Əlbəttə, onların yaxşı, gözəl olduqlarını düşünmək istərdim. İnsana, onun əzab və əziyyətlərinə, səhvlərinə böyük şəfqətlə yanaşıram, amma deyə bilmərəm ki, insanları sevirəm. Mənə elə gəlir ki, Menken kimi yazmaq üçün insanın düşdüyü vəziyyətə qarşı dərin təəssüf və nifrət hissi keçirməlisən. Bu vəziyyətə nifrət etmək mümkündü, bir şərtlə ki, insanın onu dəyişdirmək istədiyinə, dəyişdirməyə

---

[51] Əvvəldə də qeyd edildiyi kimi İsa peyğəmbərin ingilis dilində adı İsus Kristdir (Jesus Christ), Kristmas həm də xristianların İsa peyğəmbərin anadan olması günü münasibətilə keçirdikləri dini Milad – Yeni il bayramının adıdır.

[52] Menken, Henri (1880–1956) – Amerika tənqidçisi

çalışdığına, hətta bəlkə də, dəyişdirə biləcəyinə inanasan; eyni zamanda, insanın bir gün içərisində dəyişmədiyini görəndə bundan qəzəblənməyəsən. Mənə elə gəlir ki, Menkenin səhvi də məhz bundadı. O, demək olar ki, təslim olub. Arxasını çevirib gedib: guya, insan üfunət iyi verir, həmişə də üfunət iyi verəcək. Mənsə, bununla razılaşmıram. <...>

On altıncı məşğələ. 8 may 1957

<...> Sual: İnsanları öyrənən və anlayan bir adam kimi həyata yenicə qədəm qoyan gənclərə nəyi məsləhət görərdiniz?

Folkner: Bir dəfə ağıllı bir adam mənə dedi: "Heç vaxt heç kimə heç nəyi məsləhət görmürəm: birdən bu adam mənim məsləhətimdən istifadə etdi?" Əvvəllər onun nə demək istədiyini anlamamışdım, amma indi, deyəsən, anlayıram. Bilirsinizmi, başqasının hesabına günahdan təmizlənmək olmaz, bunu özün eləməlisən. Məsləhətlərə əməl edərək təcrübə qazanmaq olmaz, təcrübə nəsə osmosa[53] bənzər bir proses vasitəsilə qazanılır. Məsələn, siz onu oxuduğunuz kitablardan, öz universitet həyatınızdan əldə edirsiniz. Yəni hər bir insan öz ayağı üstə durmalıdı; indi mən, yəqin ki, heç kəsin məsləhətinə qulaq asmaram. Səhv eləyərəm, amma o səhvin qarşısını ala biləcək məsləhəti qəbul etmərəm, çünki bilirəm: səhv etmək o qədər də qorxulu bir şey deyil.

Sual: Axı bu özü də yaxşı məsləhətdi.

Folkner: Təşəkkür edirəm. <...>

On yeddinci məşğələ. 13 may 1957

Sual: Vətəndaş Müharibəsi dövründə Valter Skotun cənubluların şüuruna təsir etməsi barədə müxtəlif fikirlər mövcuddu. Sizin ən romantik qəhrəmanlarınızdan birinin adı Kventindir. Bununla onun Valter Skotun təsirinə məruz qalan cənublu tipinə mənsub olduğunumu vurğulamaq istəmisiniz ?..

Folkner: Heç də belə deyil. Mənə elə gəlir ki, Cənubda Skota maraq cənubluların kitab almağa pulu olmadığı illərdə böyük olub, digər tərəfdən, Skotun təsvir etdiyi dağlıq Şotlandiyanın həyatı müəyyən mənada Rekonstruksiya dövründən sonrakı Amerika cənubunun həyatını xatırladırdı: həm o, həm də bu diyar bu yerlərin dilində danışan insanlar tərəfindən dağıdılmış, viran edilmişdi – belə bir şey isə çox nadir hallarda baş verir. Buna görə də cənublular kitab almağa pul tapanda Skotu alırdılar: əllərində olan pula nəsə dəyərli bir şey –

[53] Osmos – fizika terminidir, mayelərin üzvi pərdə və toxumalardan sızıb keçməsi hadisəsini bildirir.

yəqin ki, daha çox söz almaq istəyirdilər. Hər halda, özünü azca da olsa, savadlı sayan hər ailədə Valter Skot vardı.

Sual: Siz hesab edirsinizmi ki, Cənub ədəbiyyatı indiki yüksəlişinə görə 20-ci illərdə Parisdə yaşayan gənc yazıçıların fransız ədəbiyyatının güclü təsirinə məruz qalması faktına borcludur?

Folkner: Bilmirəm. Mənə elə gəlir ki, 20-ci illərdə Parisdə yaşayan ekspatriantlar[54] arasında cənublular çox az olub. Tanıdıqlarımın, demək olar ki, hamısı şimallıydı. Orada mühüm rol oynayan bir cənublunu belə xatırlamıram. Ancaq məncə, Cənub ədəbiyyatının yüksəlişinə səbəb olan faktorlar bundan hələ xeyli əvvəllər meydana çıxıb, formalaşıb. Məsələ də elə bundadı: Vətəndaş müharibəsindən sonra şimallılar, ümumiyyətlə, yadellilər cənubluların necə insan olmaları barədə qəribə, yanlış təsəvvürə düşdülər, necə deyim, çoxlu anlaşılmazlıqlar oldu. Və bunda, cənub ədəbiyyatının yüksəlişində, bəlkə də, cənubluların instinktiv surətdə yadellilərə bizim kim olduğumuzu, qələbə çalacağımıza heç bir ümid olmadığını özümüzün də anladığımız dörd illik müharibəni bir kənara qoysaq, bizim də, həqiqətən, böyük istedada malik olduğumuzu göstərmək arzusu rol oynamışdır. Yəni içimizdə nələr olduğunu, nələrə qabil olduğumuzu göstərmək istəmişik. Belə hesab edirəm ki, Cənub ədəbiyyatının yüksəlişinə çox faktorlar səbəb olub və heç kəs sizə onun məhz nədən başladığını dəqiq deyə bilməz. Mən belə düşünürəm ki, həyatının kasadlığı səbəbindən cənublu təxəyyülə müraciət etmək, öz xüsusi Karkassonunu yaratmaq məcburiyyətində qalıb.

Sual: Amerikanın Cənub yazıçılarının yaradıcılığına onların əsasən Şimalda oxunub nəşr olunması faktı təsir edirmi?

Folkner: Heç şübhəsiz. Cənub yazıçısının şüurunda həmişə belə bir düşüncə qalır ki, naşir Şimal ştatlarından olacaq. Naşir və müəyyən dərəcədə həm də oxucular Şimaldan olur. Mənə elə gəlir ki, Cənub yazıçılarının əksəriyyəti bilir ki, yazdıqları istənilən halda yerli sakinlərin xoşuna gəlməyəcək. Yazıçılar faktiki olaraq onlar üçün yazmırlar: cənublular, sadəcə, kitab oxumurlar. Onlar yaxşı adamlardı, amma kitab oxumurlar.

Sual: Sizin fikrinizin davamı olaraq hesab etsək ki, Cənub ədəbiyyatının yüksəlişi cənubluların özlərini izah etmək cəhdinə borcludu, onda sizə elə gəlmirmi ki, Cənubun romanlaşdırılmasından imtina cənublu oxucuların hökmən xoşuna gəlməməlidi?

Folkner: Tamamilə doğrudu. Heç nə yazmayan, ticarət palatasının buraxdığı prospekt-lərdən savayı heç nə, heç bir kitab oxumayan cənublu, əlbəttə, başa düşür ki, onun vətənində özünün də qürur duya bilməyəcəyi şeylər var, amma onun təsəvvüründə bunu el içinə çıxarmaq pis şeydi.

---

[54] Ekspatriant – vətənini tərk etmiş adam

Sual: Bunda ümumi bir qayda yoxdumu: müəyyən yerin, mühitin adamları ədəbiyyata gətirilməkdən həmişə narazı qalırlar?

Folkner: Elədi. Belə bir yerli özünüqoruma instinkti mövcuddu, amma digər tərəfdən, bəyəm Toro, yaxud Emerson kimi adamların həmvətənləri onlara görə böyük iftixar hissi keçirmirlərmi? Yoxsa belə bir hissi yalnız Nyu İnqlədin təhsilli ziyalıları keçirib? <...>

Sual: Mən bir şeyi soruşmaq istərdim: cənub iqlimi, ölkənin coğrafi xüsusiyyətləri ədəbiyyatın xarakterinə təsir edirmi?

Folkner: Ümumiyyətlə, hə, insanın istifadə etdiyi dil kimi onlar da eynilə bu və ya başqa dərəcədə ədəbiyyatın xarakterini müəyyən edir. Amma hesab etmirəm ki, ədəbiyyatı təkcə coğrafi xüsusiyyətlər doğurur, digərləri – yox. Hərçənd, əlbəttə... <...>

Sual: Bilirəm ki, Vulfu çox yüksək qiymətləndirirsiniz. Sizə elə gəlmirmi ki, yaxın dövrlərin hadisələrinə müraciət etməklə o, bir romançı kimi xeyli əvvəllər baş vermiş hadisələrin təsvir olunduğu əsərləri ilə müqayisədə çox şey itirib?

Folkner: Bilirsiniz, bütün bunlara səbəb çoxdan və ümumiyyətlə, təsadüfən dediyim sözlərdi. Məsələ bundadı ki, mənim Vulfa qarşı heç bir xüsusi münasibətim yoxdu. Bu hadisə belə olub. Bir neçə il bundan qabaq bir gecədə məndən müasir yazıçılar haqqında nə düşündüyümü soruşdular. Cavab verdim ki, hələlik bu barədə mühakimə yürütmək çətindi. Mənə etiraz etdilər: bəyəm sizin onlar haqqında heç bir fikriniz yoxdu? "Axı onlar deyəndə kimləri nəzərdə tutursunuz?" – dedim. Vulfun, Dos Pasosun, Erskin Kolduellin, Heminqueyin və bir də mənim adımı çəkdilər. Yaxşı, olsun dedim, mən onları belə qiymətləndirərdim: Vulf, Folkner, Dos Pasos, Kolduell, Heminquey. Hər şey burdan başladı və iyirmi ildi mən bunu izah etməyə çalışıram.

Sual: Məcazi dillə desək, atlar cıdırın dördəbir hissəsini keçəndən sonra sizdən yarışın necə nəticələnəcəyini soruşublar. İndi isə cıdırın, demək olar ki, yarısı arxada qalıb. Siz indi həmin ad sırasını dəyişərdinizmi?

Folkner: Yox, çünki mən əsərin uğurlu, yaxud dəyərli olmasını yox, yalnız edilən cəhdin cəsarətliliyini nəzərə almışdım. Onların cəhdində cəsarət çatışmırdı. Fikrimcə, bütün əsərlərim uğursuz nəticələnib, o qədər də yaxşı alınmayıb və məni hər dəfə yeni bir kitab yazmağa sövq edən yeganə şey də məhz budu. Çünki "yazıçılıq" öz-özlüyündə o qədər də xoş məşğuliyyət deyil, bunu deyərkən yaradıcılıq mexanizmini nəzərdə tuturam: hər şeyi kağız üzərində sözlə ifadə etmək heç də xoş məşğuliyyət deyil. Böyük məmnunluqla məşğul olmaq istədiyim çox işin adını çəkə bilərəm. Ancaq belə bir dəyişiklik üçün elə bir əsas görmürəm. Əgər biz hamımız yazmağa son qoyandan sonra gələcəkdən keçmişə baxmaq mümkün olsaydı, onda mən bizim işimiz haqqında öz şəxsi fikrimi söyləyə bilərdim. Ancaq elə bilirəm ki, indi

söyləsəm, bu, vaxtından qabaq olar. Vulf yazmağa son qoyub, vəfat edib, amma qalanları sağdı. Mənə elə gəlir ki, Kolduell bir çox illər bundan əvvəl tükənib, əlbəttə, bunu onun ilk kitablarına aid etmək doğru olmaz, ilk kitabları – "İlahi odun meşəliyi" və qısa hekayələri isə az şey deyil. İstənilən kəs yalnız bunlarla da məmnun ola bilərdi, amma yazıçıları tanıdığım üçün əminəm ki, mən öz əsərlərimdən məmnun olmadığım kimi, o da məmnun deyil. Mən yalnız bunu demək istəyirəm ki, Heminquey başqalarından daha ağıllıdı – o, elə bir metod tapıb ki, onu tam şəkildə özünə tabe edə bilib, ona artıq güc sərf etmək lazım gəlməyib, belə bir məcburiyyət qarşısında qalmayıb, heç bir daxili səs onu daha böyük bir şey yaratmağa cəhd göstərməyə məcbur etməyib. Buna görə də bizlərin arasında ən bitkin, ən bütöv əsərləri, bəlkə də, o yaradıb. Amma onlar bəşər ruhunun bütün tarixçəsini, necə deyərlər, bir iynənin gözündə yerləşdirməyə çalışan Vulfun yaratdığı dahiyanə və ağır, iri həcmli əsərlərə bənzəmir. <...>

On səkkizinci məşğələ. 13 may 1957

<...> Sual: Heminquey haqqında hansı fikirdəsiniz?

Folkner: Bu adam yazıçı olmaq üçün zəruri olan bütövlüyə malikdi. Heminquey ona yazmaq imkanı verən bir metodu çox erkən mənimsəyib və bir dəqiqə də olsun ondan imtina etməyib, bu metod onu təmin edib, ondan çox asanlıqla yararlanıb. Gələcəkdə, bəlkə də, yaxşı yazacaq. Mənə elə gəlir ki, onun sonuncu kitabı – "Qoca və dəniz" ən uğurlu əsəridi; məhz ona görə ki, əvvəllər tapmadığı bir şeyi – Allahı burda tapıb. Bu vaxta qədər onun qəhrəmanları vakuumda fəaliyyət göstərirdilər, onların keçmişi yox idi, amma "Qoca və dəniz"də o, birdən-birə, gözlənilmədən Allahı tapdı. O əsərdə iri bir balıq var – Allah tutulmaq üçün iri bir balıq yaradıb, onu tutmalı olan qocanı da, o balığı yeməli olan akulanı da Allah yaradıb və Allah onların hamısını sevir; əgər Heminquey bununla kifayətlənməsə, daha yaxşı şeylər yazacaq – buna isə heç də hər yazıçı ümid edə bilməz. Çoxları faciəvi dərəcədə çox erkən tükənirlər və buna görə də onların həyatı başdan-ayağa işgəncəyə çevrilir. Fitsceraldın, Şervud Adresonun aqibəti də belə olub. <...>

Sual: Hesab edirsinizmi ki, amerikan dili öz inkişafında getdikcə ingilis dilindən daha çox uzaqlaşır?

Folkner: Heç şübhəsiz. Onun neçə nəsildən, yaxud neçə əsrdən sonra tamamilə başqa bir dilə çevriləcəyini demək çətindi, amma əgər dil inkişaf etmirsə, o, məhvə məhkumdu. İnkişaf və tərəqqinin yeganə alternativi ölümdü. Hərçənd bunun əksi də baş verə bilər: müasir sürət sayəsində dünyada hər şey bir-birinə yaxınlaşır, yəni bizim dillərimiz arasındakı fərq də azala bilər. Amma hər halda, düşünürəm ki, dəyişmə prosesi davam edəcək və müəyyən vaxtdan

sonra Böyük Britaniya ingiliscəsi ilə Amerika ingiliscəsi arasındakı fərq qədim və yeni yunan dilləri arasındakı fərq qədər böyük olacaq. Əlbəttə, əgər hər iki dil məhv olmasa, bir-birinə qarışıb vahid dilə çevrilməsə, belə olan təqdirdə isə həmin dil öz növbəsində daim inkişaf edəcək və təkmilləşəcək. <...>

İyirminci məşğələ. 30 may 1957

<...> Sual: Siz bu gün adlardan danışdınız. "Avqust işığı" adı necə yarandı?

Folkner: Hə, onu deyirsiz?! Avqust ayının ortalarında Missisipidə bir neçə gün ərzində birdən payız nəfəsi duyulur, hava açıq, sərin olur, nəsə xüsusi bir şüa ilə işıqlanır, adama elə gəlir ki, o bugünkü işıq deyil, uzaq keçmişdən, Yunanıstandan, Olimpdən bizə gəlib; adamın gözünə favnlar, satirlər, allahlar görünür. Bu, bir və ya iki gün çəkir, sonra hər şey yox olub gedir, hər il avqustda belə olur. Adın bütün mənası da bundadı. Mənim üçün bu, sadəcə, gözəl və adamı düşünməyə sövq edən bir addı, o, insanın yaddaşında başqa dövrləri, başqa işığı – xristian sivilizasiyasının işığından daha qədim bir işığı oyadır. Ola bilsin ki, bu adın, hər şeyi qəbul etmək kimi bütpərəst xasiyyətə malik Lina Qrouvla da müəyyən əlaqəsi var. Onun öz uşağını doğmaq arzusu ilə... axı o bu uşağa, onun, bir növ, bic olmasına görə heç bir xəcalət hissi keçirmir, zamanın mütləq buyruğunu yerinə yetirir, bilir ki, ata gec-tez tapılacaq. Özünə gəldikdə isə, bu ata ona o qədər də lazım deyil, yəni, o öz evi, uşağının atası barədə Yupiterdən hamilə qalan qadınlar qədər narahatçılıq keçirir. Ona bircə şey lazımdı: uşağı doğulsun. Yalnız bu onun üçün əhəmiyyət kəsb edir, sivilizasiyanın bu işığı, bu bərqi bizimkindən xeyli qədimdi.

Sual: "Emili üçün qızılgül" hekayəsi başdan-ayağa uydurmadırmı?

Folkner: Bəli. Hər şey uydurmadı, artıq demiş olduğum səbəbə görə. Əgər yazıçı, bircə dəfə də olsun, kiməsə tanış görünə bilən bir şey yazarsa, dərhal etiraz məktubu alar; hələ zənn etsələr ki, onun pulu da var, məhkəməyə verərlər, buna görə də son dərəcə ehtiyatlı olmaq, özün gördüyün, yaxud kiminsə sənə danışdığı şeylər barədə yazmamaq lazımdı.

İyirmi dördüncü məşğələ. 20 fevral 1958

VİRCİNİYALILARA MÜRACİƏT

... Yüz il bundan əvvəl Avraam Linkoln deyib: "Bizim millət yarıquldar, yarıazad yaşaya bilməz". Əgər sağ olsaydı, o bu ifadəni bu cür dəyişərdi: "Bizim millət, onun azlıq təşkil edən bir hissəsi: nə az, nə çox – on faizi təkcə zahiri görünüşünə görə ikinci növ vətəndaş hesab olunduğu bir vəziyyətdə yaşaya bilməz". Yaxud ona nisbətən daha az görkəmli şəxsiyyət bunu

belə ifadə edərdi: nə bizim ölkəmiz, nə də istənilən başqa bir ölkə və ya cəmiyyət əhalinin on faizinin tam özbaşınalıq səbəbindən hələ də assimilyasiya olunmadığı bir vəziyyətdə dinc yaşaya bilməz. Əgər beş min nəfər əhalisi olan bir şəhərin küçələrində beş yüz azğın at dolaşarsa, o da eynilə, dinc yaşaya bilməz, yaxud, deyək ki, beş min itdən və beş yüz əhliləşdirilməmiş pişikdən – ya da əksinə – ibarət olan bir icma dinc yanaşı yaşaya bilməz. Dinc yaşamaq üçün əhali eynicinsli: ya hamı birinci, ya da hamı ikincidərəcəli vətəndaş olmalıdı; ya hamısı insan, ya hamısı at, ya hamısı pişik, ya da hamısı it olmalıdı.

Deyirlər ki, zənci hələ yalnız ikincidərəcəli vətəndaşlığa qadirdi, onun faciəsi bundadı ki, o, bərabərliyə yalnız damarlarında olan ağ qanın nisbətinə uyğun dərəcədə qadirdi. Hətta belədirsə, yenə də ikincidərəcəli vətəndaş problemi mövcud olaraq qalır. Hətta zəncilərin özləri ikincidərəcəli vətəndaş rolunda qalmaları ilə razılaşsalar belə, bu problem həll edilməyəcək. Onlar buna razılaşdıqları halda da hakimiyyət əhalinin yalnız 90 faizini birləşdirmiş olardı. Və bu cür 90 faizlik birlik şəraitində biz bizə düşmən kəsilən, lap elə öz düşmənçiliyi əsasında bizə qarşı birləşən bir dünya ilə toqquşmuş olardıq, yenə də yaşamağa ümid edərdik! Amma biz bizə düşmən kəsilən 10 faizə qarşı 90 faiz də toplaya bilmərik, çünki düşmən dünya həmişə bizdən güclü olacaq, çünki məsuliyyətdən məhrum edilmiş 10 faiz vətəndaşın yaşama problemi bizim gücümüzü sorur və əlimizdən alır. <...>

İyirmi yeddinci məşğələ. 24 aprel 1958

GƏNC YAZIÇILAR MÜRACİƏT

<...> Yəqin ki, hər bir yazıçı "sinəsinin dolu" çağında həddən artıq çox işləyir, qəlbində yığılıb qalanları tez bir zamanda ifadə etməyə çalışır, gənc müəllifləri, ondan sonra yazmağa başlayanları oxumur – bəlkə də, bunun səbəbi eynilə sprinteri, yaxud stayeri idarə edən motivlərdi: onların arxadan gələnlərə, hətta yanaşı qaçanlara dönüb baxmağa vaxtı olmur, onlar yalnız qabağa baxırlar. Hər halda, mənim başıma bu gəlib, iyirmi il ərzində müasir yazıçıları, demək olar ki, oxumamışam.

Buna görə də lap bu yaxınlarda müasir ədəbiyyatı oxumağa başlayarkən, mənim ona yanaşma tərzimə təkcə məlumatsızlıq deyil, həm də bir növ səmimilik, önyarğılardan azad şəxsi rəy, maraq adlandırıla biləcək yeni baxış xas idi. Eyni zamanda, oxuduğum ilk hekayə məndə elə bir təsəvvür oyatdı ki, bu, sonralar da inadla təkrar olundu və onun əsasında ümumi bir nəticə çıxarmağı özümə rəva bilirəm. Yəni bizim mədəniyyətin müasir durumu – mən məhz bunu müəyyən etməyə çalışırdım – gənc yazıçını elə yazmağa məcbur edir ki, elə bil, onun üçün, ümumiyyətlə, insanlıq mövcud deyil. Onun personajları adi insan əzab-əziyyəti və həyəcanları

ilə yaşamır, mübarizə aparmırlar, halbuki bizim öz işinin ustaları olan sələflərimiz – bu peşəni öyrəndiyimiz ustad yazıçılar məhz belə eləyirdi, onlar bir legiondu: Dikkens, Fildinq, Tekkerey, Konrad, Tven, Smollet, Hotorn, Melvill, Ceyms... Onların yaratdıqları personajlar varlığı tükənməz və inadkar insan optimizminin təsdiqi olan adi insan əzab-əziyyəti və həyəcanları ilə doğulub, bəslənib. Bu kişilər və qadınlar, hətta ikrah hissi doğuran hərəkətlərə yol verəndə, adam öldürəndə, soyğunçuluq və satqınlıq edəndə belə onları yaradanların özləri kimi aydın və doğmadılar, çünki onlarda həmin adi insan ehtirasları, ümidləri və qorxuları görünür. Bu hissləri təşkilat, yaxud məcburiyyət boğmayıb, onlar bütün insanlığın əzab-əziyyət və həyəcanlarını yalnız qorxu-ürküsüz deyil, həm də həvəslə, məmnunluqla və ziyan çəkməkdən qorxmadan qəbul ediblər. Zira onların başına gələ biləcək ən pis şey başlarına yalnız başqa birisinin başından, dirsək və yaxud dizlərinə başqa birisinin dirsək və ya dizindən dəyəcək zərbə ola bilər. Bu adi insan əzab-əziyyəti və həyəcanları içərisində yaşayarkən onlar müxtəlif baxışları deyil, mənəvi prinsipləri qəbul edir, onlara hörmətlə yanaşırlar və həqiqət onlar üçün birdi, kiminsə ona hansı nöqteyi-nəzərdən baxmasından asılı deyil, nəsə dəyişilməz bir xassə, təzahürdü: yəni əgər bu həqiqəti qəbul etməsəniz, yaxud ona, ən azı, hörmətlə yanaşmasanız, o, sadəcə beyninizi dağıda bilər.

Müasir yazıçıların personajları, bir qayda olaraq, təkcə insanlardan uzaq deyil, həm də əsl təcrid şəraitində yaşayırlar; bütün insan qəlblərinin əzab-əziyyət və ümidlərinə nüfuz edən milyon-milyon digər insanlarla birlikdə deyil, bir neçə sadə, aydın həqiqət və mənəvi prinsipin mövcud olduğu dünyada deyil, vakuumda, özlərinin seçmədikləri faktlarla birlikdə yaşayırlar və tərsinə çevirilmiş qədəh altına salınan milçək kimi, bu faktlardan heç cür qaça, qurtula bilmirlər.

Bir daha təkrar edirəm: mən indiki nəslin bütün kitablarını oxumamışam; hələlik buna vaxtım olmayıb. Buna görə də yalnız bildiyim kitablar haqqında danışacam. Selincerin "Çovdarlıqda uçurumdan qoruyan"ını xatırlayıram, mən bu kitabı ən yaxşı kitab hesab edirəm, bəlkə də ona görə ki, o, indi mənim burda deməyə çalışdığım şeyi tam ifadə edir, bu kitab gələcəkdə bir çoxlarından ağıllı və zərif olacaq, olmalı olan, sevən (o özü "instinktiv" deməzdi, çünki bəlkə də, Allahın ona bəxş etdiyi bu keyfiyyətə malik olduğundan xəbərsizdi), insanları sevən və insanlığın bir hissəsi olmaq, insanlığa qarışmaq istəyən, insan cinsi ilə birləşməyə çalışan və bunda uğursuzluğa düçar olan yeniyetmə bir oğlandan bəhs edir. Mənə görə, onun faciəsi bunda deyil ki, insanlığın onu qəbul etməsi üçün özünün də hesab etdiyi kimi, dözümü və cəsarəti çatmır. Onun faciəsi bundadı ki, o, insan cinsi ilə birləşməyə cəhd edəndə insanlıq orda olmadı. Buna görə də ona şiddətli bir yalqızlıq içərisində, milçək kimi altında qaldığı qədəhin divarları arasında qeyzlə vızıldamaqdan – özü dayanana, yaxud da özünü məhv edənə qədər vızıldamaqdan savayı heç nə qalmır. Burada adamın yadına dərhal başqa bir yeniyetmə, indi artıq xeyli yaşa dolmuş gənc insanların atası ola biləcək Hek Finn düşür. Amma Hek yalnız

öz boyunun qısalığı ilə mübarizə aparır, bunu isə zaman düzəldəcək, vaxtı gələndə o da əvvəllər münaqişədə olduğu adamlarla eyni boyda olacaq. Axı böyük dünyasının ona vura biləcəyi zərər yalnız burnunun yüngülcə əzilməsindən ibarətdi. İnsanlıq, insan cinsi onu qəbul etməyə hazır idi və qəbul etdi də, ondan yalnız bir şey – böyümək tələb olunurdu.

Mənim fikrimcə, gənc yazıçıların problemi məhz bundadı. Və təkcə onların deyil, bizim hamımızın qarşısında insan qəlbini xilas etmək, ayğırları, donuzları yaxud öküzləri axtaladıqları kimi onu axtalamalarına imkan verməmək, hələ vaxt var ikən və insan deyilən məxluqda insanlıq hələ yox olmamışkən fərdiliyi simasızlaşmaqdan xilas etmək vəzifəsi durur. Axı insanlığı yazıçıdan, şairdən, sənətkardan savayı kim xilas edə bilər, onlardan çox kim insanlığın itirilməsindən qorxmalıdı?! Zira insanlıq yaradıcılığın qaynar qanıdı. <...>

Otuz üçüncü məşğələ. 8 may 1958

Sual: Məncə, ov sizin üçün dərin məna kəsb edir. Bilirəm ki, uşaqlıqda çoxlu ov eləmisiniz. Ov sizin üçün nə deməkdir?

Folkner: Mənim üçün ov eləmək məqsədə çatmaq rəmzidir. İnsan həyatının böyük bir hissəsi hansısa məqsədə çatmaq cəhdindən ibarətdir. Bu mənada ki, həyatın yeganə alternativi hərəkətsizlik, yəni ölümdü. Ov eləmək, neçə ki insan sağdı, onun təbii halını təşkil edən təqib rəmzidi; və bunu yaxşı bələd olduğum, mənə dramatik görünən vasitələrin köməyi ilə ifadə etməyə çalışmışam[55]. Baş qəhrəman hökmən ayı deyil, istənilən kəs ola bilərdi. Mən, sadəcə, insan yaşamı üçün təbii, normal bir hadisəni mənə tanış və maraqlı olan vasitələrlə, ona heç bir rəmzi məna vermək niyyətində olmadan nəql etmişəm. Burada, sadəcə olaraq, bir uşaq haqqında, onun böyüklərin dünyasına uyğunlaşmasının zəruriliyindən, qaçılmazlığından danışmışam. Onun bunu necə eləyəcəyindən, böyüklərin dünyasına uyğunlaşmağa can atarkən buna tab gətirib-gətirməyəcəyindən, məhv olub-olmayacağından və yaxud boyunun qısa olmasına baxmayaraq, gücü çatdığı dərəcədə ona uyğunlaşacağından söz açmışam. Çalışmışam ki, o, bunları hökmən başa düşsün: ovu təkcə təqib etmək deyil, həm də onu yaxalamaq lazımdı, sonra isə ona acımaq və onu öldürməmək, sadəcə, tutmaq, əllə toxunmaq və buraxmaq lazımdı. Çünki onda sabah yenidən təqibə başlamaq olar. Əgər yaxaladığını öldürsən, hər şey korlanacaq, məhv olacaq. Bəzən mənə elə gəlir ki, ələ keçirməyə çalışdığını məhv etməmək qabiliyyəti insanın başlıca ləyaqətidi, hər halda, əsas sevinc bundadı. Ələ keçirəcəyin ov, qənimət yox, təqibin, məqsədə can atmağın özü əhəmiyyətlidi. <...>

Otuz dördüncü məşğələ. 12 may 1958

---

55 Ö ə “ ı” ə

Sual: Bizə müəyyən qrammatik qaydalara əməl etməyi, durğu işarələrini yerində qoymağı, ifadələri düzgün qurmağı öyrədirlər. Hesab edirsinizmi ki, bu qaydalara riayət etmək yazıçını hansı dərəcədəsə sıxır, onun üslubunu məhdudlaşdırır?

Folkner: Yox, mən elə fikirləşmirəm. Bəlkə də, onun yalnız eksperiment imkanlarını məhdudlaşdırır?! Mənə elə gəlir ki, istənilən dil bütün dövrlərdə canlı olaraq qalmalıdı, yəni həmişə inkişaf etməlidir, qrammatika və punktuasiya da dilin inkişafında iştirak edir. Köhnə üsulların daha yaxşı olub-olmadığını, yaxud bəlkə də, onları dəyişmək lazım gəldiyini eksperiment vasitəsilə müəyyən edə bilirsən. Mən deməzdim ki, bu, yazıçı üslubunu nədəsə məhdudlaşdırır, çünki üslub – dilin daim dəyişən, cari vəziyyətidi. Ümumiyyətlə, həyatda hər şey hərəkətdə olduğu kimi, üslub da hərəkətdə olmalıdı. Əgər üslub yerində donub-qalarsa, ölər, yalnız ritorika qalar. Üslub yazıçının demək istədiklərinə uyğun olaraq dəyişməlidi. Onun demək istədiyi şey faktiki olaraq üslubu müəyyən edir. <...>

Otuz altıncı məşğələ. 23 may 1958

<...> Sual: Əhdi-Ətiqdə sizin ən çox xoşunuza gələn nədir?

Folkner: İbrahimin tarixçəsi. Bu tarixçədə hər şey mənim xoşuma gəlir. Maraqlıdı ki, ozamakkı əclaflar və fırıldaqçılar özlərini tamamilə bugünkü insanlar kimi aparırlar.

Sual: “Kənd” romanında adamda simpatiya oyada biləcək bir personaja da rast gəlmədim. Onların hər biri bu və ya başqa səbəb üzündən digərinə qarşı qəzəblidir. Bu, insanlar üçün tipik haldırmı?

Folkner: “Kənd” romanının qəhrəmanları üçün tipikdi. Ümumiyyətlə, onlar yazıq adamlardı. Ancaq yazıçı adamları ittiham edə bilməz, o, bütün insanlara qarşı mərhəmət hissi duymalıdı, əks təqdirdə pis yazıçıdı. Bunlar, əlbəttə, xoş adamlar deyil, mən özüm də onlarla münasibətdə olmaq istəməzdim, ancaq hər halda, məni onların da nə elədikləri, niyə elədikləri maraqlandırır. Axı onlar da insandılar və bütün adamlar kimi öz həyati məsələlərini həll etməyə çalışırlar.

Sual: Sizin həyat konsepsiyanız nikbindirmi?

Folkner: Bəli.

Sual: Amma fərdə münasibətdə yox?

Folkner: Fərd o qədər də çox şey deyil, bir ovuc küldü; insan yer üzərində uzun yaşamır; amma onun arzuları, ona bənzər insanlar qalır. Nə qədər ki yer üzərində insanlar yaşayacaq, onların arasında həmişə yeni Bax, yeni Şekspir olacaq adam tapılacaq.

M Ü N D Ə R İ C A T

Uilyam Folkner və onun Yoknapatofa saqası .....

Roman:

Avqust işığı .....

Hekayələr:

İki əsgər.....
Quraq sentyabr.....
Emili üçün qızılgül.....
O gün şər qarışanda.....

Nitq və müsahibələr:

U. Folknerin Nobel nitqi.....
Cin Staynla müsahibə.....
Folkner Virciniya Universitetində.....